AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
FÖVQƏLADƏ TƏHQİQAT KOMİSSİYASININ SƏNƏDLƏRİ

# BAKI. MART 1918-ci il AZƏRBAYCAN QIRĞINLARI SƏNƏDLƏRDƏ

Tərtib edən:
**Solmaz Rüstəmova-Tohidi**
tarix elmləri doktoru, professor

Bakı-2013

*"Azərbaycan Xalq Cümhuriyyəti Fövqəladə Təhqiqat Komissiyasının sənədləri" silsiləsindən olan bu kitab Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin dəstəyi ilə yenidən nəşr olunur.*

**Rüstəmova-Tohidi Solmaz Əli qızı.**
**Bakı. Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə.**
**Bakı, 2013-cü il, 456 səhifə.**

Kitab Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin dəstəyi ilə 2009-cu ildə nəşr olunmuş "Bakı. Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə" (Bakı,864s.) adlı sənədlər toplusunun qisadılmış variantıdır.

Topluya Azərbaycan Hökumətinin Birinci Dünya müharibəsi başlanandan bütün Cənubi Qafqaz ərazisində müsəlman əhalisinə və onun mülkiyyətinə qarşı həyata keçirilmiş zorakılıq, qırğın və soyğunçuluq faktlarının araşdırılması üçün 1918-ci il 15 iyul tarixində yaratdığı Fövqəladə Təhqiqat Komissiyası (FTK) tərəfindən toplanmış və tərtib olunmuş sənədlər daxil edilmişdir. Toplu FTK materiallarının yalnız bir hissəsini – 1918-ci il Bakıda mart hadisələrinə aid sənədləri əhatə edir və bolşevik-daşnak birləşmələri tərəfindən bir neçə gün ərzində böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan 12 mindən çox dinc sakinin qətlə yetirildiyi mart qırğınlarına bilavasitə həmin hadisələri yaşamış insanların gözü ilə baxmağa imkan verir. Bakı şəhəri və ətraf kəndlərin dinc müsəlman əhalisinə qarşı erməni hərbi qüvvələrinin və yerli erməni əhalisinin bir qisminin vəhşilikləri və amansızlıqları haqqında çoxlu sayda faktlar, tanınmış, zəngin azərbaycanlıların ünvanlarından ibarət siyahıların əvvəlcədən hazırlanması, hərbi əməliyyatların şəhərin müxtəlif hissələrində eyni vaxtda başlanması və s. kimi məlumatlar dinc müsəlman əhalisinin məqsədyönlü və kütləvi şəkildə məhv edilməsinə dair planın mövcud olduğunu göstərir. Bu plan isə öz növbəsində erməni millətçilərinin öz gələcək dövlətləri üçün potensial ərazi kimi baxdıqları Azərbaycanın bütün regionlarında müsəlman əhalisinin sayının maksimum azaldılmasına yönəlmiş daha iri miqyaslı əməliyyatların və planların tərkib hissəsi idi.

Sənədlər toplusuna həmçinin problemin tarixinə həsr edilmiş və müəllif tərəfindən yenidən işlənmiş elmi oçerk, geniş yardımçı-informasiya aparatı, FTK tərəfindən çəkilmiş foto-sənədlər və 1918-ci il Bakı şəhərinin xüsusi məzmunlu xəritəsi daxil edilmişdir.

**ISBN: 978-9952-483-43-7**

© Solmaz Rüstəmova-Tohidi
© Heydər Əliyev Fondu
© Heydər Əliyev Mərkəzi

# MÜNDƏRİCAT

**Bakıda 1918-ci il mart hadisələri:**
**ilkin şərtləri, xüsusiyyətləri, nəticələri** ................................................6

**Azərbaycan Hökumətinin Fövqəladə**
**Təhqiqat Komissiyasının yaradılması haqqında qərarları** ..................88

**Fəsil I**
Azərbaycanlı sakinlərin şahid ifadələri ................................................90

**Fəsil II**
Azərbaycanlı qadınların şahid ifadələri ...............................................162

**Fəsil III**
Müxtəlif millətlərdən olan bakılıların və
xarici vətəndaşların şahid ifadələri ....................................................226

**Fəsil IV**
Dəymiş ziyanlar (mülki, sənaye, sosial, ticarət və
digər obyektlər) haqqında şahid ifadələri ............................................266

**Fəsil V**
Bakı şəhəri və Bakı kəndlərinin sakinlərinin şahid ifadələri
(1918-ci ilin mart-sentyabr ayları) .....................................................308

**Fəsil VI**
Məhkəmə-istintaq sənədləri ...............................................................336

**Qeydlər** ...........................................................................................366

**İnzibati-coğrafi adların göstəricisi** .......................................................411
**Əlavə:** Bakı şəhərinin və Bakı qəzasının
əhalisinin 1916-cı ilə olan milli-dini tərkibi
**Foto-sənədlər** ..................................................................................425
**Bakı şəhərinin və Bakı qəzasının 1918-ci il xüsusi məzmunlu xəritəsi**

## BAKIDA 1918-ci il MART HADİSƏLƏRİ: İLKİN ŞƏRTLƏRİ, XÜSUSİYYƏTLƏRİ, NƏTİCƏLƏRİ

1918-ci il. XX əsr Azərbaycan tarixində bu il, bir-birini sürətlə əvəz edən və Azərbaycan xalqının taleyində həlledici sayılan hadisələr – istər əlamətdar, istərsə də faciəli – baxımından yəqin ki, ən əhəmiyyətli zaman kəsiyidir. Həmin hadisələrin ən yüksək zirvəsi, sözsüz ki, 28 may 1918-ci il tarixi – Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsidir. Sonrakı mühüm tarixi hadisələr – 1918-ci il sentyabrın 15-də Bakının birləşmiş Türk-Azərbaycan hərbi qüvvələri tərəfindən azad edilməsi və Azərbaycan hökumətinin Bakıya köçməsi, 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinin yaranması və nəhayət, 1918-ci ilin 28 dekabrında Azərbaycan hökumətinin Cənubi Qafqazda İttifaq qoşunlarının komandanlığı və İngiltərə hökuməti tərəfindən qanuni hakimiyyət kimi tanınması – bütün Şərqdə ilk demokratik quruluşun və azərbaycanlıların ilk milli dövlətçiliyinin – Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının əsasını qoymuşdur.

Lakin 1918-ci ilin bu əlamətdar hadisələrindən əvvəl bütün Azərbaycan xalqı üçün ümumi faciəyə çevrilmiş və onun mövcudluğunu şübhə altında qoymuş daha mühüm - qanlı hadisələr baş vermişdir.

Bakıda 1918-ci ilin mart hadisələri bu qanlı zəncirin başlanğıcı olmuşdur. Belə ki, bir neçə mart günləri ərzində şəhərin və onun ətraf kəndlərinin dinc müsəlman – azərbaycanlı əhalisi görünməmiş dəhşətli cəza aksiyalarına – talan və ölümlərə, əzilmək, əsir alınmaq, qarət edilmək – bir sözlə, amansızlıqla özbaşınalıq edən bolşevik-daşnak hərbi qüvvələri tərəfindən hər şeyin və hər kəsin məhv edilməsinə məruz qalmışdır. İlk baxışdan, “Evelina” gəmisi ilə bağlı təsadüfi hadisə və yaxud, adları sonadək naməlum qalan icraçılar tərəfindən Qızıl Ordunun kiçik dəstəsinin atəşə tutulması ilə başlayan mart hadisələrinin, şübhəsiz ki, dərin kökləri və səbəbləri vardır.

Birinci Dünya müharibəsinin başlanması ilə, xüsusilə də, 1917-ci ilin fevral inqilabından və Rusiya İmperiyasının süqutundan sonra, müharibədə iştirak edən dünya dövlətlərinin Cənubi Qafqazda güclənmiş maraqları toqquşurdu. Eyni zamanda Qafqaz xalqlarının qarşısında öz milli-siyasi ideya və əzmlərini həyata keçirmək üçün geniş imkanlar açılırdı. Etiraf edilməlidir ki, erməni ideoloqları özlərinin çoxillik məqsədyönlü

fəaliyyətləri nəticəsində "erməni dövlətçiliyi məsələsinin" Cənubi Qafqazın gələcəyi barəsində qərb ölkələrinin və Rusiyanın planlarına daxil edilməsinə nail olmuşdular. Gürcülərin də öz dövlətçiliyini yaratmaq hüquqları heç bir etiraz doğurmurdu. Bununla bərabər, Cənubi Qafqazda sayca üstünlük təşkil edən Azərbaycanlı əhalinin haqları nə qərb dövlətləri, nə də Bakını ümumiyyətlə Azərbaycan şəhəri hesab etməyən rus siyasi qüvvələri tərəfindən ümumiyyətlə nəzərə alınmırdı.

Azərbaycanlılar üçün bu baxımdan həddən artıq əlverişsiz şəraitdə, əslində ədalətsiz münasibət qarşısında, geniş xalq kütlələrinin əksəriyyətinin dəstəyini qazanmış "Müsavat" partiyasının Qafqazın siyasi səhnəsinə daxil olması istər sinfi nəzəriyyədən çıxış edən və Rusiyanın bütün keçmiş torpaqlarında, o cümlədən Qafqazda hakimiyyət iddiasında olan bolşevikləri, istərsə də, təxəyyüllərində gələcək erməni dövlətinin təxmini ərazilərini müəyyən etməklə, onun tərkibinə Azərbaycanın geniş tarixi torpaqlarını daxil edən erməni millətçilərini narahat etməyə bilməzdi.

1911-ci ildə ciddi konspirasiya şəraitində yaradılmış "Müsavat" milli-demokratik partiyası 1917-ci ilin fevral inqilabından sonra Rusiya İmperiyasının bütün ərazisində milli dirçəliş dalğasında gizli fəaliyyətdən çıxaraq çox qısa müddət ərzində azsaylı siyasi təşkilatdan Azərbaycanın ən kütləvi və aparıcı milli qüvvəsinə çevrilmişdi.

Azərbaycanlıların bu milli siyasi partiyasının artan nüfuzunu və uğurlarını onun hətta ən barışmaz rəqibləri belə etiraf etməli olurdu. Məsələn, Bakı Sovetinin rəhbəri S.Şaumyan göstərirdi ki: "Zaqafqaziyada ən zəif siyasi partiya olan, bu inqilab zamanı təşkil edilən, heç bir təşkilatı, heç bir partiya ənənəsi, heç bir hakimiyyəti olmayan, inqilabın əvvəlində heç bir rol oynamayan "Müsavat" ikinci ilin əvvəllərinə yaxın Zaqafqaziyada ən güclü siyasi partiyaya çevrilmişdir ". (1)

"Müsavat" partiyası 1917-ci ilin 15-20 aprelində Bakıda keçirilmiş müsəlmanların Ümumqafqaz qurultayında Azərbaycan milli hərəkatının siyasi proqramının əsas tezislərinin formalaşdırılmasında və təsdiq edilməsində başlıca rol oynamışdır. Qurultay gündəliyinin aparıcı məsələsi – ölkənin siyasi quruluşu üzrə məruzəni "Müsavat"ın lideri M.Ə.Rəsulzadə etmişdi ... "Və 1917-ci ilin aprelindən başlayaraq Azərbaycan milli hərəkatının əsas məqsədi milli-ərazi muxtariyyətinin tələb edilməsi olmuşdur". (2) 1917-ci ilin payızında "Müsavat" partiyası Azərbaycanın siyasi həyatında öz üstün mövqeyini bir daha təsdiq etdi və 22 oktyabr 1917-ci ildə

keçirilmiş Bakı Sovetinə seçkilərin nəticələri buna əyani sübut oldu. Belə ki, "Müsavat", çoxmillətli Bakıda bütün digər partiyaları nəzərə çarpacaq dərəcədə qabaqlayaraq, seçici səslərinin 40 faizini toplaya bildi, bu isə əslində şəhərdə siyasi qüvvələrin real nisbətini əks etdirirdi. (3)

"Müsavat"ın Bakı Sovetinə seçkilərdə qələbə qazanması bolşevikləri ciddi şəkildə təşvişə salmışdı. Belə ki, Azərbaycana milli-ərazi muxtariyyətinin verilməsi şüarı ilə açıq şəkildə çıxış edən partiyanın mövqeyi Azərbaycan milli qüvvələrinin tamamilə təbii olan bu tələbini qəzəblə "azərbaycanlı millətçilərin" Bakını "Azərbaycan xanlığının paytaxtı" elan etmək "arzusu" kimi qiymətləndirən S.Şaumyanın başçılıq etdiyi bolşevik rəhbərliyi üçün tamamilə qəbuledilməz idi. (4)

Bununla belə, bu "arzunun" həyata keçməsi kifayət qədər mümkün idi, çünki 1918-ci ilin əvvəli üçün "Müsavat" yalnız Gəncədə deyil, Bakı quberniyasının böyük hissəsində də faktiki olaraq real hakimiyyətə malik idi. Lakin, bu zaman tək hakimiyyətliyə iddia edən aparıcı siyasi qüvvələr arasında həddən artıq kəskinləşmiş münasibətlər səbəbindən Bakı şəhərinin özündə kifayət qədər mürəkkəb vəziyyət yaranmışdı. Belə ki, hələ fevral inqilabından sonra Bakıda qurulmuş qısa "çoxhakimiyyətlik" dövrü 1917-ci ilin noyabrında Rusiyada bolşevik çevrilişindən sonra ağır bir münaqişə ilə əvəz olunmuşdu. Stepan Şaumyanın başçılıq etdiyi Bakı Soveti yalnız Leninin Xalq Komissarları Sovetinə tabe olmaqla özünü şəhərdə yeganə hakimiyyət elan etmişdi, Bakı quberniyası isə Sovetin qərarına əsasən RSFSR-in bir hissəsi olmalı idi. Şübhəsiz ki, şəhərdəki müxtəlif siyasi qurumlar, o cümlədən bolşeviklərin opponenti olan bir sıra siyasi sol qüvvələr bu qərara qarşı çıxıırdılar. Lakin, şəhərin yerli hakimiyyəti - hüquqşünas Fətəli Xan Xoyskinin rəhbərlik etdiyi və çoxmillətli Bakı cəmiyyətinin sağ qanadını təmsil edən Bakı Duması və xüsusilə "Müsavat" başda olmaqla, Azərbaycan milli qüvvələri bu məsələdə daha kəskin mövqe nümayiş etdirirdilər.

Bolşeviklərlə "Müsavat" partiyası arasında düzənlənən münasibətlər heç də birmənalı səciyyələnmirdi və əgər 1917-ci ilin noyabrınadək onlar sırf taktiki nöqteyi-nəzərindən ayrı-ayrı məsələlərdə vahid mövqedən çıxış edirdilərsə də, "Müsavat"ın mövqeləri möhkəmləndikcə bu münasibətlər getdikcə pozulur və kəskinləşirdi.

"Müsavat" partiyası şübhəsiz ki, Azərbaycanda bolşeviklərin ən güclü rəqibi idi və təsadüfi deyildir ki, Bakı Sovetinə başçılıq edən bolşeviklər

bu partiyanın möhkəmlənməsi prosesini dayandırmaq məqsədilə "Müsavat"a qabaqlayıcı zərbəni vurmaq üçün bəhanə axtarırdılar. Bolşeviklərdə xüsusi təlaş yaradan faktlardan biri də o idi ki, "Müsavat"in rəhbərliyi ilə böyük çətinliklə olsa da, məqsədyönlü şəkildə Azərbaycan milli hərbi hissələrinin yaradılması prosesi inkişaf edirdi və bu partiyanın siyasi nüfuzunun real hərbi dəstəklə möhkəmləndirilməsi onu praktiki olaraq məğlubedilməz bir qüvvəyə çevirərdi.

Digər tərəfdən, "Müsavat"ın yalnız Bakıda deyil, Azərbaycanın bütün siyasi səhnəsində üstün mövqeyi bolşevik hakimiyyətinin Azərbaycanın reqionlarına yayılması yolunda əsas maneə idi. Nəhayət, siyasi kredosu azərbaycanlıların milli azadlığı uğrunda mübarizədən ibarət olan "Müsavat" partiyası, Cənubi Qafqazın müstəqilliyi və onun Rusiyadan ayrılması ideyalarını ardıcıl olaraq Zaqafqaziya Seymində müdafiə edirdi ki, bu da bolşeviklər üçün artıq tamamilə qəbuledilməz idi.

Siyasi münasibətlərin belə bir düzümündə istər bolşeviklərə, istərsə də müsavatçılara tamamilə aydın idi ki, onların əvvəlki bütün əməkdaşlıqları sırf müvəqqəti xarakter daşıyırmış, indi onlar barışmaz bir döyüşə girişmişlər və toqquşma qaçılmazdır. Bolşeviklərin "Müsavat" ilə siyasi qarşıdurmasının əsas səhnəsi Bakı olmalı idi, çünki məhz bu şəhər Azərbaycan milli hərəkatının mərkəzi olduğu kimi, bolşevizmin də Cənubi Qafqazda əsas bazası idi. Məhz bu məqam bir çox hallarda iki antaqonist siyasi qüvvə arasında mübarizənin kəskinliyini əvvəlcədən müəyyən edirdi və həmin qüvvələr bu mübarizəyə ən ciddi surətdə hazırlaşırdılar. Lakin, bu zaman daha bir tərəf – üçüncü qüvvə sayılacaq siyasi qurum da öz məqsədləri uğrunda mübarizənin yeni mərhələsinə qədəm qoyurdu. Bakı cəmiyyətində olduqca möhkəm siyasi-iqtisadi və ictimai mövqelərə malik olan erməni millətçiləri də özlərinin uzağagedən planlarını reallaşdırmaq üçün ən ciddi şəkildə hazırlıq görürdülər. Bu planların əsasında isə üç dəniz – Aralıq, Qara və Xəzər dənizləri arasında "Böyük Ermənistan" dövlətinin yaradılması kimi ümummilli erməni ideyası dururdu.

* * *

XIX əsrin əvvəllərində başlanmış Rusiya-İran, Rusiya-Türkiyə müharibələri və onların nəticələri: 1813, 1828, 1829-cu illər Gülüstan, Türkmənçay, Adrianopol müqavilələri, Azərbaycan, Gürcüstan, Türkiyənin tarixi əra-

zilərinin bölünməsi, geniş regionların qəsb edilməsi və yerli müsəlman əhalinin mühacirəti, nəhayət, ermənilərin İrandan və Türkiyədən əzəli Azərbaycan (13 xanlığın ərazisi) və Gürcüstan (Axaltsix və Axalkalaki) torpaqlarına köçürülməsi erməni əhalisinin həyatında əsaslı iz qoydu. Bu yeni tarixi şərtlər, həmçinin istər Osmanlı Türkiyəsi, istərsə də Rusiya İmperiyasında ermənilərin nisbətən daha qabaqcıl və üstün vəziyyəti də daxil olmaqla, erməni milli şüurunda yüz illərlə bəslənən öz müstəqil dövlətçiliyini yaratmaq ideyasını artıq yetişməkdə olan erməni millətçiliyinin siyasi devizinə çevirdi. “Böyük Ermənistan” onun “yaradıcılarının” planlarına görə Osmanlı Türkiyəsinin və Rusiya İmperiyasının (Qafqazın, dəqiq deyilərsə, Azərbaycanın və Gürcüstanın) böyük ərazilərini əhatə etməli idi ki, bu da hakimiyyətlə öz separatçı niyyətlərini bəyan etmiş erməni əhalisi arasında artıq müəyyən münasibətlərin başlanmasını şərtləndirirdi.

Lakin nə qədər ki, Osmanlı Türkiyəsi güclü və qüdrətli idi, erməni millətçiləri ona qarşı çıxış etməyə və hansısa gözəçarpan fəaliyyət göstərməyə cürət etmirdilər. Lakin XIX əsrin ortalarından etibarən bu dövlətin daxili və xarici vəziyyəti mürəkkəbləşməyə başladı. Bir zamanlar qüdrətli Osmanlı İmperiyasının zəifləməsində maraqlı olan və Türkiyə boğazlarını ələ keçirmək məqsədini güdən Avropa dövlətləri və Rusiya İmperiyası ermənilərin türklərə zidd planlarını hər vasitə ilə təşviq etməyə və dəstəkləməyə başladılar. Təsadüfi deyil ki, qatı millətçi erməni partiyaları olan “Qnçaq” (1887), “Daşnaksütun” (1890) və digərləri məhz Avropada və Rusiyada yaranmışdır.

Bu növ təşkilatların sayının çoxluğuna baxmayaraq, məhz “Daşnaksütun” ən nüfuzlu bir partiya olaraq qarşıdakı onilliklər ərzində bütöv xalqın taleyində həlledici rol oynayacaqdı. “Hələ 1907-ci il proqramı qəbul edilənə xeyli qalmış “Daşnaksütun” güclü, intizamlı, konspirativ təşkilata çevrilmişdi. Artıq 1890-cı illərdə onlar Türkiyə Ermənistanında silahlı üsyan hazırlayırdılar, belə ki, Avropanın diqqətini Ermənistanın milli mübarizəsinə cəlb edəcək münaqişə yaratmağa ümid edirdilər. Bu mərhələdə “Daşnaksütun” hələ yalnız Türkiyə ərazısındə mövcud olsa da, onun fəaliyyətinin əsas bazası rus Ermənistanı idi”. (5)

Belə ki, Rusiyanın özü inqilabi hərəkatlar və siyasi oyunlar mərkəzinə çevrildikcə, eləcə də yaranmış siyasi qarışıqlıq və nizamsızlıq şəraitində ermənilər Cənubi Qafqazda da öz fəaliyyətlərini canlandırmışdılar. XIX

əsrin 90-cı illərindən və XX əsrin əvvəllərindən başlayaraq erməni emissarlarının, agentlərinin və erməni əhalisinin Türkiyədən Cənubi Qafqaza axını xüsusilə güclənir. Artıq beyinlərə işləmiş bir ideyaya çevrilən "Böyük Ermənistan" şüarı ətrafında birləşən bu insan axını təşkilatlandırılmış hərbi bölmələr yaratmaqla fəal surətdə silahlanmağa başlayır. Bu dəstələrin ilk vəzifəsi yeni Ermənistan dövlətinin yaradılması üçün nəzərdə tutulmuş ərazilərdə yaşayan yerli türk-azərbaycanlı əhalini fiziki cəhətdən məhv etmək olur.

Türkiyə ərazisində erməni daşnaklarının hərbi hissələrinin dinc türk əhalisinə qarşı əməllərini təqdir edən Rusiya hakimiyyəti öz ərazisindəki həyata keçirilən qanlı hərbi aksiyalara dərhal reaksiya verdi. "1900-cü ildən sonra Rusiyanın öz ərazisindəki Ermənistana qarşı gördüyü cəza tədbirləri ruslarla ermənilər arasında əvvəllər heç zaman olmamış gərginlik və inamsızlıq mühiti yaratdı. Rusiyanın yeni siyasəti özünü 1903-cü ildə erməni kilsəsinin torpaqları və digər əmlakının müsadirə olunması ilə büruzə verdi". (6)

Lakin, 1905-1907-ci illər I rus inqilabının başlanması ilə məhz Cənubi Qafqaz erməni ekspansionizminin mərkəzi oldu. "Daşnaksütun"dan başlayaraq Erməni kilsəsinə qədər bütün erməni qüvvələri, həm Rusiya hakimiyyətinə, həm də regionun türk-müsəlman əhalisinə qarşı əsl müharibə elan etməklə, qızğın fəaliyyətə başladılar. Hakimiyyət ermənilərin bəzi tələblərində - məs., erməni kilsəsinin mülkiyyətinin geri qaytarılmasında güzəştə getməyə məcbur olaraq, "Daşnaksütun"un öz kütləvi çıxışlarında yalnız "Türkiyə Ermənistanının azad edilməsi" ilə kifayətlənməsinə nail olsa da, hər iki tərəfdən çoxsaylı qurbanlara səbəb olan erməni-azərbaycanlı toqquşmasını dayandıra bilmədi, dəqiq deyilərsə, dayandırmaq istəmədi. 1905-ci ilin fevralında Bakıda erməni və müsəlman əhalisi arasında başlanmış silahlı münaqişələr az sonra erməni-azərbaycanlı qırğınlarına çevrildi və bütün Cənubi Qafqaz regionunu əhatə etdi. Bakı, Tiflis, İrəvan, Gəncə, Qarabağ, Zəngəzur və digər yerlərdə baş vermiş və təxminən iki il davam etmiş qanlı toqquşmalar, habelə uzunsürən erməni-gürcü münaqişəsinin qarşısı hakimiyyət tərəfindən vaxtında alınmasa da, çox tezliklə Rusiya siyasətçilərinin ciddi diqqət obyektinə çevrildi. "Ölkədə qayda-qanun bərpa edildikdən" dərhal sonra təkcə Dövlət Dumasında imperiyanın ucqarlarında etnik toqquşmaların səbəbləri haqqında üç dəfə dinləmələr keçirilmişdi.

Bu dinləmələrdə millətlərarası münasibətlərin kəskinləşməsinin əsas səbəblərindən biri kimi dövlətin apardığı "intensiv köçürmə kampaniyası" adlandırılsa da, artıq 1908-ci ilin dekabrında dinləmələr zamanı III Dumanın mühafizəkar hissəsi "Birləşmiş Cənubi Qafqaz Erməni-Gürcü-Dağıstan-Azərbaycan-Təbriz-Kürd Ştatlarının" yaranmasını tam real təhlükə hesab edirdi ki, bu da Rusiya hakimiyyəti üçün regiondakı milli kütlələrin və onların təşkilatlarının dövlətə zidd separatizminin millətlərarası münaqişə predmeti olduğunu göstərirdi. (7)

Qafqaz xalqlarını təmsil edən Dövlət Dumasının üzvləri – Çxeidze və Qeqeçkori "Qafqaz xalqlarının separatizmdə günahlandırılmasını qərəzli uydurma" adlandırır və iddia edirdilər ki, millətlərarası münaqişələr, ən əvvəl erməni-azərbaycanlı qarşıdurması "hökumət tərəfindən törədilmişdir", Xasməmmədov isə millətlərarası gərginliyin səbəblərini hakimiyyətin yerlərdə müvafiq sosial-siyasi tədbirlərlə təmin edilməmiş köçürülmə proseslərinin nəticələrində görürdü. (8)

Elə bu dövrdə 1905-1907-ci illər erməni-azərbaycanlı münaqişəsinin bilavasitə şahidi olmuş bir çox azərbaycanlı xadimlər bu qırğınlarda maraqları olan qüvvələrin məqsəd və planlarını daha dəqiq və konkret izah edirdilər. Məsələn, tanınmış azərbaycanlı ictimai xadim Xosrov bəy Dövlətov 1905-1907-ci illərin hadisələri haqqında belə yazırdı: "...ermənilər ən ciddi şəkildə tərtib edilmiş proqram üzrə öz arzu və ideyalarının - Yelizavetpol və Tiflis quberniyalarının bütün dağlıq zolağını kəsib ayırmaq, Qars vilayəti ilə birlikdə Türk Ermənistanına birləşdirmək və orada müstəqil erməni dövləti yaratmaq - həyata keçirilməsinə hazırlaşırdılar, lakin Osmanlı və Rusiya hökumətlərinin incə siyasəti və təzyiqi sayəsində buna nail ola bilmədilər". (9)

Digər azərbaycanlı xadim, tanınmış ədib Məmməd Səid Ordubadi, azərbaycanlı neft sənayeçisi, milyonçu Murtuza Muxtarovun maddi dəstəyi ilə artıq öz dövrü üçün unikal olan sənədlər toplusu – erməni millətçilərinin ucbatından Azərbaycan xalqının başına gələn bəlalar haqqında kitab hazırlamışdı. 1911-ci ildə Azərbaycanın bütün bölgələrindən və ermənilər də daxil olmaqla müxtəlif əhali qruplarından alınmış 245 məktub və digər materiallar əsasında, isti izlərlə yazılmış bu kitabda on minlərlə günahsız insanın məhvinə, minlərlə evlərin, təsərrüfatların, kəndlərin dağıdılmasına səbəb olmuş faciəvi hadisələrin müəllif tərəfindən qərəzsiz xronikası yaradılmışdı. M.S.Ordubadi, faktların və hadisələrin

təsviri ilə kifayətlənməyərək, millətlərarası toqquşmalara gətirib çıxaran səbəbləri təhlil etməyə çalışmışdı ki, onları aşağıdakı kimi qruplaşdırmaq olar: "Daşnaksütun" tərəfindən Qafqazda oynanılmış "qanlı teatr"; yerli hakimiyyət nümayəndələrinin etinasızlığı və fəaliyyətsizliyi; erməni fitnəkarlığını və hiylələrini vaxtında tanıya bilməmiş azərbaycanlıların sadəlöhvlüyü və təcrübəsizliyi, habelə silahlarının olmaması; Londonun, Parisin və Amerikanın fəal dəstəyi sayəsində Türkiyə və Cənubi Qafqazın ərazilərində "Böyük Ermənistan" yaratmaq məqsədilə, ermənilərin muxtariyyətə can atması. (10)

Diqqətəlayiqdir ki, əsasən öz xalqının başına gələn dəhşətli faciələr haqqında danışmağa hazırlaşan azərbaycanlı müəllif kitabın əvvəlində qeyd edirdi ki, o, qətiyyən qarşısına baş vermiş hadisələrdə öz xalqını məsuliyyətdən azad etmək və bütün günahı "erməni qonşularının" üzərinə yıxmaq kimi bir məqsəd qoymamışdır: "Bunu da bütün Qafqaz millətləri bilməlidir: mənim bu əsəri yazmaqda məqsədim millətimizi məsuliyyətdən qurtarmaq, insanpərvər kimi tanıtmaq, həmçinin erməni qonşuları məsul tutmaq, vəhşi və insaniyyətdən uzaq bir varlıq kimi nişan vermək də deyil...Mənim məqsədim onların və bizim bu xətalardan ötrü təəssüfə layiq bir halda gələcək qarşısında xəcalət çəkəcəyimizi deyib durmaqdır". Müsəlmanların "elmsizlik və anlamazlıq səbəbindən bu bəlalara düşdüyünü", ermənilərin isə "bir para yazıçıların xam xəyallarına qurban olduqlarını" bildirən yazıçı belə bir inam ifadə edirdi ki, onun bu əməyi, hər iki millətə iki il ərzində yol verdiyi "öz səhv və xətasını düşünmək" üçün "mənəvi səmərələr və faydalar verəcəkdir". (11)

Təəssüflə qeyd edilməlidir ki, tarix azərbaycanlı yazıçının da, həmvətənləri kimi, öz ümidlərində sadəlövh olduğunu sübut etdi. Cəmi on ildən sonra Cənubi Qafqaz yenidən müharibə alovuna büründü və bu alovun qızışmasına yenidən həmin "erməni qonşular"ın "xam xəyalları" səbəb oldu.

1905-1907-ci illərdən sonrakı dövrdə Qərbdə öz maraqlarını səmərəli şəkildə təşviq edən və Antanta ölkələri ilə, ilk növbədə, London və Parislə əlaqələrini nizama salan ermənilər, 1905-ci il inqilabına davam gətirmiş Rus mütləqiyyətinin yaxın gələcəkdə devrilməsi ümidlərinin doğrulmayacağına əmin olaraq, Rusiya hakimiyyətinə qarşı öz barışmaz münasibətlərini dəyişdilər. Bu işdə II Nikolayın qarşısında ermənilərin maraqlarını açıq şəkildə müdafiə edən Qafqazın yeni canişini Vorontsov-Daşkovun

siyasəti də əhəmiyyətli dərəcədə rol oynayırdı. Vorontsov-Daşkov çara yazdığı məktublarında daima Cənubi Qafqazda rus hakimiyyəti ilə erməni icmasının maraqlarının üst-üstə düşdüyünü, habelə Türkiyədəki xristian-həmməzhəblərinin müdafiəsinin zəruriliyini vurğulayır, Türkiyə ilə gözlənilən yeni müharibənin başlayacağı şəraitdə guya ki, ermənilərlə ittifaqdan Rusiyanın əldə edəcəyi faydaları geniş şərh edərək bildirirdi ki, "vaxtilə hərbi əməliyyatlar zamanı qoşunlarımıza fəal yardımları ilə bizə əvəzini ödəyən Türkiyə ermənilərinin himayə edilməsi kimi qədim rus siyasətinə qayıtmağın vaxtı çatmışdır". (12)

Erməni millətçiləri, o cümlədən erməni din xadimləri özləri də II Nikolaya buna bənzər məktublarla müraciət edirdilər. Belə ki, Türkiyəyə qarşı daha yaxşı təşkilatlandırılmış silahlı çıxışların hazırlanması kimi nəzərdə tutduqları yeni siyasi xəttin həyata keçirilməsinin Rusiya ilə barışmadan və ittifaq yaratmadan iflasa uğrayacağı məlum idi. Bu məqsədlə 1912-ci ildə Erməni Milli Şurası və onun icraçı orqanı - Milli Büro yaradılmışdı və bu qurum da öz növbəsində dəfələrlə Rusiya hökmdarına "onun sədaqətli övladlarının" adından müraciət edərək "türklərin zülmü altında inləyən" bədbəxt qardaşlarının əzablarına son qoymaq üçün köməklik göstərilməsini xahiş edirdi. Vorontsov-Daşkovun səyləri, habelə Erməni Milli Şurasının fəaliyyəti çox tezliklə öz nəticələrini verdi və 1913-cü ildən başlayaraq çar hakimiyyətinin tam surətdə ermənilərə himayədarlıq siyasətinə qayıtması baş tutdu. Bu siyasət Birinci Dünya müharibəsinin əvvəlində xüsusilə aydın təzahür etdi və "erməni faktorundan" Türkiyəyə qarşı istifadə etməyi qəti qərara almış Rus hakimiyyəti hər vasitə ilə ermənilərin muxtariyyət və öz dövlətçiliyini yaratmaq haqqında gizli arzularını qızışdırmağa başladı. II Nikolayın xüsusi Bəyannaməsi bu siyasətin ən yüksək nöqtəsi hesab edilə bilər, belə ki, Rus imperatoru birmənalı şəkildə erməniləri, çoxdan gözlədikləri muxtariyyətlə cəlb edərək, Türkiyəyə qarşı Rusiyanın tərəfində fəal çıxışlara təhrik edirdi: "Ermənilər! Çarın hakimiyyəti altında öz qan qardaşlarınızla birləşməklə, siz, nəhayət ki, azadlığın və ədalətin dadını biləcəksiniz". (13)

Bütün səylərini onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə yönəltmiş erməni millətçilərinin II Nikolayın vədlərini nə dərəcədə ciddi qəbul etdikləri artıq "Daşnaksütun" partiyasının çara müraciətindən aydın görünürdü: "Bizim qəlbimiz elə bir güclü həvəslə dolmuşdur ki, bizim əziz vətənimizin payına düşən sınaq rus silahının yeni əzəməti və

Rusiyanın Şərqdə tarixi vəzifələrinin həlli ilə başa çatsın. Qoy rus bayrağı azad şəkildə Bosforda və Dardaneldə dalğalansın. Böyük Hökmdar, qoy Sizin əzminizlə Türkiyənin əsarəti altında qalmış xalqlar azadlıq əldə etsinlər." (14)

Lakin, hadisələrin sonrakı gedişi göstərdi ki, Birinci dünya müharibəsi dövründə Qafqaz cəbhəsində erməni silahlı qüvvələrinin rus qoşunlarına həqiqətən "fəal yardımına", həmçinin Türkiyə və Cənubi Qafqaz ərazilərində dinc əhaliyə qarşı müstəqil, daha fəal çıxışlarına baxmayaraq, rus-erməni ittifaqı ağır itkilərdən və qanlı faciələrdən savayı nə Rusiya dövlətinə, nə Türkiyə və Cənubi Qafqaz xalqlarına, o cümlədən ermənilərin özlərinə də heç nə vermədi.

1917-ci ildə Rusiya imperiyasının süqutu ilə Cənubi Qafqazın tarixində daha geniş miqyaslı münaqişə və müharibələr, həqiqətən böyük tarixi sarsıntılarla səciyyələnən yeni dövr başlandı. Dünya müharibəsi başlanandan keçən üç il ərzində ermənilər bilavasitə öz məqsədlərinə – erməni muxtariyyətinin Rusiya tərəfindən tanınmasına nail ola bilməsələr də, bu məsələdə qərb siyasətçilərinin və ictimaiyyətinin fikrini öz xeyrlərinə effektiv şəkildə hazırlamağa nail olmuşdular. Bu nailiyyət sonrakı illərdə ermənilərin Türkiyənin "erməni vilayətlərində" olmasa da, hər halda Cənubi Qafqazda, bir çox hallarda öz qonşularının torpaqları hesabına öz dövlətçiliyini yaratmasında mühüm rol oynayacaqdı. Lakin, müharibə hələ davam edirdi və erməni millətçiləri Türkiyənin geniş ərazilərində "Böyük Ermənistan" yaratmaq ümidlərindən hələ əl çəkməsələr də, artıq dərk edirdilər ki, yaranmış şəraitdə bu planların reallaşması olduqca çətinləşmişdir. Bu məqam, onları öz fəaliyyətlərini Cənubi Qafqaza - həmin məqsədin həyata keçirilməsi üçün daha əlverişli şəraitin olduğu regiona keçirməyə vadar etdi. Belə ki, 1918-ci ilin mart ayına qədər ermənilər öz əsas niyyətlərindən birini – hələ mövcud olmayan erməni dövləti üçün Cənubi Qafqazın cənub-qərbində – Qarsda, İrəvan quberniyasında, Zəngəzurda, Göyçədə, Yelizavetpol quberniyasının bir sıra qəzalarında və Qarabağda dinc sakinlərin – azərbaycanlıların sıxışdırılması, zorla qovulması və kütləvi surətdə qırılması yolu ilə böyük ərazilərin yerli əhalidən təmizlənməsini həyata keçirə bilmişdilər.

1917-ci ildə Rusiyada bolşevik çevrilişindən sonra erməni və gürcü hərbi hissələrinin Qafqaz cəbhəsindən çaşqın və nizamsız şəkildə geri çəkilməsi nəticəsində, buna qədər daima türk torpaqlarında yaşayan və ya rus

ordusu tərəfindən ələ keçirilən türk vilayətlərində müvəqqəti məskunlaşmış yüz minlərlə erməni əhalisi yenidən Qafqaza üz tutdu və burada, Türkiyədə 1915-ci ilin məlum hadisələrindən sonra yuxarıda göstərilən məntəqələri doldurmuş erməni qaçqınlarının cərgəsinə qarışdı. "Daşnaksütun"un silahlı dəstələrinin idarə etdiyi və cəbhədən qaçmış minlərlə erməni əsgəri tərəfindən dəstəklənən qəzəblənmiş, ümidsiz vəziyyətə çatdırılmış erməni əhalisinin nəhəng axını yerli - dinc, silahsız müsəlman əhalisinin üzərinə hücum çəkərək çox qısa müddət ərzində onu öz əzəli torpaqlarından qovdu. Məsələn, 1918-ci ilin mart ayınadək təkcə İrəvan quberniyasının 199 kəndi ermənilər tərəfindən talan edildiyindən yerli azərbaycanlılar tərəfindən məcburi şəkildə boşaldılmışdı. (15) Yuxarıda göstərilən bütün quberniya, qəza və kəndlərdə silahlı erməni dəstələrinin, həmçinin bütün bədbəxtliklərinin günahını türklər və azərbaycanlılarda görən və bu səbəbdən hər şeyə hazır olan erməni qaçqınların mövcud olması azərbaycanlıların məskunlaşdığı ərazilərin təmizlənməsi üzrə erməni millətçilərin planlarının həyata keçirilməsini xeyli yüngülləşdirmişdi. Bu baxımdan qətiyyətlə demək olar ki, gələcək Erməni dövlətçiliyinin ərazi fundamenti məhz bu dövrdə qoyulmuşdu.

1917-ci ildən sonra xüsusilə güclənmiş anarxiya, hakimiyyətsizlik və cəzasızlıq mühiti erməni millətçi qüvvələrinə azərbaycanlı əhalidən artıq təmizlənmiş ərazilərdən daha geniş sərhədlərdə nəzərdə tutduqları erməni dövlətinin yaradılması yolunda öz niyyətlərini həyata keçirmək üçün daha yeni və geniş imkanlar açırdı. Mübarizə davam edirdi, gələcək "Böyük Ermənistan"ın taleyi şəhərlərdə, o cümlədən Bakıda həll edilirdi.

* * *

1918-ci ilin əvvəlində ermənilər Bakıda kifayət qədər güclü siyasi, iqtisadi və ictimai mövqelərə malik idilər və şəhər həyatının demək olar ki, bütün sahələrində təmsil olunurdular. Bakı şəhərinin və onun ətraf kəndlərinin bütün əhalisinin sayına görə azərbaycanlı və rus əhalidən sonra ermənilər üçüncü yeri tuturdular. (16) Bakının erməni ictimaiyyətinin maraqlarını erməni aristokratiyası və elitasının demək olar ki, bütün nümayəndələrinin daxil olduğu Erməni Milli Şurası təmsil edirdi. Ermənilər ticarət, sənətkarlıq, maliyyə sahələrində nəzərəçarpacaq rol oynayır, vasitəçilik və sələmçi funksiyalarını ifa edir və hətta bey-

nəlxalq sövdələşmələrə də müvəffəq olurdular. İşgüzar və tədbirli erməni burjuaziyası hələ Bakıda neft hasilatının yüksəlişinin ilk çağlarında neftlə zəngin ən yaxşı əraziləri ələ keçirməyi bacarmış və Bakının neft sənayesində imtiyazlı mövqe tutmağa nail olmuşdu. Təsadüfi deyil ki, bu sahədə əsas təşkilata – Neft Sənayeçiləri Qurultayı Şurasına erməni burjuaziyasının nümayəndələri rəhbərlik edir, onun “çoxsaylı müəssisələrində bütün vəzifələri də erməni mühəndisləri, həkimləri, kontorçuları, hesabdarları və s. tuturdular”. (17)

Ermənilər şəhər hakimiyyətinin bütün sahələrində və orqanlarında da aparıcı mövqelərə malik idilər. Bakıdakı erməni kilsəsi “ermənilər üçün rəsmi dövlətçiliyi müvəffəqiyyətlə əvəz edən xüsusi teokratik qurum” olan “Eçmiadzin”in eyni funksiyalarını icra edirdi. (18) Bakıda bütün erməni siyasi partiya və təşkilatlarının, o cümlədən “Daşnaksütun”un yerli təşkilatları fəaliyyət göstərirdilər. Bundan əlavə ermənilər demək olar ki, bütün rus siyasi partiyalarının - ən müxtəlif cərəyan və istiqamətli - yerli təşkilatların üzvü idilər. Onlar xüsusilə bolşevik təşkilatında, o cümlədən Bakı Sovetinin özündə güclü şəkildə təmsil olunurdular, Bakı Sovetinin özünə isə erməni Stepan Şaumyan başçılıq edirdi. Bu, ilk baxışda subyektiv sayılan amil, son nəticədə, 1918-ci ilin martında törədilmiş azərbaycanlı qırğınlarında kifayət qədər həlledici rol oynayacaq.

O dövr üçün artıq tanınmış bolşevik lideri olan S.Şaumyan xalqların öz müqəddəratını təyin etmə hüququ kimi marksist prinsipinə qarşı son dərəcə barışmaz mövqeyi ilə seçilir, hətta bu prinsipin sadəcə olaraq rəsmən elan edilməsinə qarşı çıxış edirdi. Məhz bu mövqeyinə görə V.İ.Lenin onu hələ 1914-cü ildə tənqid etmişdi: “Rus marksistinə erməni toyuq satanın fikirləri üzərində dayanmaq ayıb deyilmi? ...erməni cahilliyi üzündən Siz purişkeviçlərin və onların millətçiliyinin əlaltılarına çevrilirsiniz”. (19)

Mart hadisələri ərəfəsində “Bakinski raboçiy” qəzetinin 15 mart 1918-ci il tarixli sayında V.İ.Leninin milli məsələdə mövqeyinə görə Şaumyanı kəskin tənqid edən məktubu dərc olunmuşdu. Lakin tezliklə məlum oldu ki, xalqlara muxtariyyət verilməsi məsələsində S.Şaumyanın son dərəcə barışmaz mövqeyi yalnız digər xalqlara, o cümlədən Azərbaycan xalqına münasibətdə əks olunurdu. Öz doğma erməni xalqına gəldikdə isə, bu “rus marksistinin” siyasi görüşlərində milli maraqlar sinfi maraqları üstələyirdi. Təsadüfi deyildir ki, rus qoşunları tərəfindən müvəqqəti işğal

edilmiş Türkiyə ərazilərində erməni muxtariyyətinin yaradılması planının həyata keçirilməsi üzrə tapşırığı məhz Şaumyan yerinə yetirməli idi. V.İ.Lenin və İ.V.Stalin tərəfindən imzalanmış 29 dekabr 1917-ci il tarixli "Türk Ermənistanı haqqında dekretdə" Rusiya Xalq Komissarları Soveti erməni xalqına elan edirdi ki, "Rusiya Fəhlə və Kəndli hökuməti Rusiyanın işğal etdiyi "Türk Ermənistanı" ermənilərinin öz müqəddəratını təyin etmə hüququnu dəstəkləyir". Lenin tərəfindən Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilmiş Şaumyana isə şəxsən "məzlum erməni xalqının əsrlər boyu gözlədiyi milli ideyaların həyata keçirilməsi üçün" erməni təşkilatlarına hər bir köməkliyi göstərmək" həvalə olunurdu. (20)

Beləliklə, Rusiya hakimiyyəti - çar hökuməti olmasa da, bolşevik hökuməti - 29 dekabr 1917-ci il tarixli dekreti ilə nəhayət ki, Ermənistana Türkiyə ərazisində çoxdan gözlənilən muxtariyyət verdi və onu yaratmağı Qafqazın yeni bolşevik "canişininə" – "rus marksisti" və "erməni xalqının sadiq oğlu" Stepan Şaumyana tapşırdı. Lakin, bu "muxtariyyətin" həyata keçirilməsi üçün həmin dövr nə bolşeviklərin, nə də Şaumyanın erməni milli qüvvələrinin və "Daşnaksütun"un bütün hərbi imkanları nəzərə alınmaqla belə, heç bir real hakimiyyəti və qüvvəsi yox idi. Rusiyanın özü vətəndaş müharibəsi, anarxiya və hərc-mərclik məngənəsində çapalayırdı, ölkənin təsərrüfatı tam bərbad və pozulmuş halda idi, Bakı nefti "Rusiyanın bütün fabrik-zavod sənayesinin və nəqliyyatının əsas damarını" təşkil edirdi (21); Moskvadan gələn göstərişlərdə Şaumyandan bütün Cənubi Qafqazda bolşevik hakimiyyətinin ölüm-dirim məsələsinin həll edildiyi Bakının özündə Sovet hakimiyyətinin möhkəmləndirilməsi üçün həlledici addımlar atılması tələb olunurdu. Təsadüfi deyil ki, məhz bu dövrdə bolşevik liderləri ən ciddi şəkildə Bakının və Bakı quberniyasının digər Xəzəryanı ərazilərinin Azərbaycandan təcrid edilməsi və daha sonra Rusiya Federasiyasının tərkibinə daxil edilməsi planlarını işləyib hazırlayırdılar. Bakının Azərbaycandan təcrid edilməsi ideyası "Daşnaksütun" partiyası üçün də sərfəli idi, çünki bu, Cənubi Qafqazda Bakı və Yelizavetpol quberniyalarının ərazilərinin gələcək erməni dövlətinin tərkibinə daxil edilməsinə dair onun öz planlarının həyata keçirilməsini yüngülləşdirirdi. (22)

Bakının erməni millətçilərinin və özəyi də ermənilərdən ibarət olan bolşevik təşkilatlarının "Müsavat" partiyası başda olmaqla müstəqilliyə can atan Azərbaycan milli qüvvələrinə qarşı münasibətdə də mövqeləri

üst-üstə düşürdü. Az sonra onların Bakıda Azərbaycan milli qüvvələrinin darmadağın edilməsində və bu qüvvələrin sosial bazasının – müsəlman əhalisinin məhv edilməsində də tamamilə həmrəy olduqları aydınlaşdı. Belə ki, 1918-ci ilin fevralında "Bakinski raboçiy" qəzetinin səhifələrində açıq-aşkar "Azərbaycan muxtariyyətini arzu edən müsavatçılar bir yığın xarabalıqlar əldə edəcəklər" kimi bəyanat verən Şaumyanı (23) Azərbaycanı həmin "xarabalıqlar yığınına" çevirməli olan və təcili surətdə ordu toplayan Erməni Milli Şurası tam dəstəkləyirdi. Erməni ordu korpusunun təşkili və erməni döyüşçülərin Qafqaza göndərilməsi ilə həmçinin Petroqradda olan yüksək rütbəli erməni hərbiçiləri məşğul olurdular. Məsələn, erməni korpusunun ehtiyacları üçün Petroqraddan bir neçə zirehli qatar, avtomobil, texniki vasitə və sursatlar, hətta sanitar qatarı göndərilmişdi. 1918-ci il fevralın 6 və 7 -də keçmiş Rusiya ordusunun generalları İvan Baqramyan və Akop Baqratuni, həmçinin "Daşnaksütun" partiyasının yaradıcılarından biri Stepan Zoryan (Rostom) Bakıya gəlmişdilər. (24) Cəbhədən qayıdan erməni əsgərlərini Bakıda saxlamağa və hazırlanan silahlı vuruşlarda onlardan istifadə etməyə cəhd göstərən Erməni Milli Şurası 1918-ci ilin mart ayının əvvəlində "Erməni əsgərlərinə" çağırış ilə müraciət etdi və üstüörtülü şəkildə onları silahlarını özlərində saxlamağa və erməni millətinin mənafeyinin müdafiəsi üçün tələb olunan hər yerdə tətbiq etmək üçün hazır olmağa çağırdı. (25)

Eyni zamanda Bakı Sovetinin Qızıl Ordusunun mövcud və yeni hissələrinin formalaşdırılması işi gedirdi, ordu sıralarına çağırışla Avakyan məşğul olurdu. Nəticələr kifayət qədər səciyyəvi idi: "Qırmızı qvardiya" adı altında yaradılmış 10-12 minlik ordunun 70 faizini ermənilər təşkil edirdi. (26) Qızıl Ordunun qərargah rəisi, çar ordusunun polkovniki, daşnak birləşmələrinin komandanı və "Daşnaksütun" partiyasının üzvü Z.Avetisov, briqada və birləşmiş dəstələrin komandirləri – çar ordusunun polkovniki Kazarov, türk-müsəlman əhalisinə qarşı öz vəhşilikləri ilə məşhur olan Amazasp, A.Əmirov və digərləri idi. Beləliklə, 1918-ci ilin martında Şaumyanın özünün şəhadətinə görə artıq bolşeviklərin sayı "təxminən 6 min nəfər" olan hərbi hissələri, "Daşnaksütun"un isə "3-4 minlik milli dəstələri" var idi ki, onlar da həmçinin bolşeviklərin sərəncamına verilmişdi. (27) Qızıl Ordu və erməni birləşmələri silahla bağlı çatışmazlığ hiss etmirdilər, çünki Sovet hökumətinin adına İrandan və Orta Asiyadan daxil olan bütün silah və sursatlar bolşeviklərə və daşnaklara təhvil veri-

lirdi. Bununla kifayətlənməyən S.Şaumyan İ.Stalinə ünvanladığı 16 mart 1918-ci il tarixli məktubunda RSFSR XKS-dən Qafqaz Ordusunun Hərbi-inqilab komitəsinin ehtiyacları üçün 10 milyon rubl ayrılmasını xahiş edirdi. (28) Milyonçu Mantaşevin və digər iri erməni neft sənayeçilərinin zavodları, habelə Bakıdakı erməni kilsəsinin zirzəmiləri erməni silahının mərkəzi silah anbarına çevrilmişdi .

Beləliklə, bolşeviklər və daşnaklar bütün partiyalararası, siyasi və ideoloji ziddiyyətləri kənara qoyaraq Bakıda hərbi-siyasi ittifaq bağladılar və bütün güclərini "Müsavat" başda olmaqla Azərbaycan milli hərəkatına və bütün müsəlman əhalisinə qarşı yönəltdilər.

Artıq mart hadisələrindən sonra, baş vermiş faciənin ağlasığmaz miqyasları qarşısında hər hansı açıqlama verməyə məcbur olan Stepan Şaumyan etiraf edirdi ki, "Daşnaksütun"un iştirakı "vətəndaş müharibəsinə bir qədər milli qırğın xarakteri vermişdir. Lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verirdik. ... Əgər onlar Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi". (29)

"Daşnaksütun" partiyasının o vaxtkı liderlərindən biri olan Ovanes Kaçaznuni isə mart hadisələrində erməni birləşmələrinin iştirakına bu səbəbdən bəraət qazandırırdı: "Bakıda erməni əhalisinin təhlükəsizliyi nöqteyi-nəzərindən "Müsavat" diktaturası ilə müqayisədə bolşeviklərin diktaturası daha çox məqbul idi". (30)

Sözsiz ki, bu izahlar bolşeviklərlə daşnakları birləşdirən səbəblərin kiçik bir hissəsini əks etdirirdi, lakin ittifaq baş tutmuşdu və 1918-ci ilin martında Bakıda qeyri-mütəşəkkil, hazırlıqsız azərbaycanlı kütlələrinə qarşı artıq nizami hərbi bolşevik-erməni silahlı birləşmələri dururdu.

Həmin vaxt müsəlmanların yeganə hərbi birləşməsi könüllülərdən təşkil edilmiş və Lənkəranda yerləşən "Vəhşi diviziya" adlanan müsəlman diviziyası idi və bolşevik rəhbərləri yaranmış ilk fürsətdən istifadə edərək, birinci zərbəni ona qarşı yönəltdilər. 1918-ci il martın 9-da general Talışinskinin başçılıq etdiyi Azərbaycan diviziyasının qərargahı Tiflisdən Bakıya gəldi. Qərargahın rus zabitlərinin arasında guya ki, əvvəllər jandarmeriyada xidmət etmiş şəxslərin olduğunu bəhanə edərək, müsəlman diviziyasının bütün qərargahı Şaumyanın göstərişi ilə Bakı Soveti adından birbaşa vağzalda həbs edildi. "Müsəlman qərargahının həbsi ilə ermənilər müsəlmanları bolşeviklərə və təbii ki, ermənilərə qarşı silahlı üsyana təhrik etməyə çalışırdılar... Müsəlmanlar üsyana qalxmadılar", (31)

hərçənd bu həbs təkcə Bakıda deyil, digər qəzalarda da azərbaycanlı əhali arasında böyük narazılığa səbəb oldu.

Amerikalı tarixçi Firuz Kazımzadənin fikrincə, "Talışınskinin azad edilməsi münaqişəni ləğv edə bilərdi", belə ki, "Şaumyan daha az təşəbbüskar və inadkar olsaydı" və diplomatiyanı öyrənmək barədə Leninin məsləhətinə əməl etsəydi, qırğının qarşısını ala bilərdi. Qeyd olunmalıdır ki, həmin günlər Şaumyan Lenindən diplomatiyanı öyrənmək tövsiyə edilən teleqram almışdı. Əslində "Leninin diplomatiya barəsində məsləhəti daha çox ehtiyatlı və daha az iddialı olmaq xəbərdarlığından savayı bir şey deyildi". (32) Lakin Şaumyanın bu dövr bütün diplomatiyası müsəlmanları çıxış etməyə vadar edəcək və onlara qarşı silahlı mübarizənin başlanmasına bəhanə verəcək yeni təxribatın təşkil edilməsinə yönəlmişdi. Tezliklə belə bəhanə yarandı.

Mart ayının 27-də müsəlman diviziyasının zabit və əsgərlərindən ibarət kiçik bir dəstə öz xidməti yoldaşları, müsəlman diviziyasının zabiti - Azərbaycanın tanınmış milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin silahla ehtiyatsız davranması nəticəsində faciəli şəkildə həlak olmuş oğlu Məhəmməd Tağıyevin cənazəsini müşayiət edərək və onun dəfnində iştirak etmək üçün "Evelina" gəmisində Lənkərandan Bakıya gəldi. Dəfndən sonra, martın 29-da Lənkərana geri qayıtmağa hazırlaşan dəstə guya ki, şəhərdə silahlı qarşıdurmanın və qan tökülməsinin qarşısını almaq istəyən bolşeviklər tərəfindən saxlanıldı və tərksilah edildi. Şəhərdə bir neçə min nəfərlik erməni və qızıl ordu hissələri olduğu halda 48 nəfərdən ibarət silahlı müsəlman dəstənin istəsə belə, heç nə edə bilməyəcəyi nəzərə alınmadı. Əksinə, müsəlmanların yeganə silahlı dəstəsinin şəhərdən dinc şəkildə çıxıb getməsinin qarşısının alınması bolşeviklərin azərbaycanlıları cavab verməyə təhrik etmək və beləliklə onlara qarşı əsl müharibəyə başlamaq niyyətini büruzə verirdi.

Bu dəfə təxribat baş tutdu. Onsuz da Lənkərana getməyə hazırlaşan azərbaycanlı hərbiçilərin tərksilah edilməsi şəhərdə mənzillərə yerləşdirilmiş minlərlə silahlı erməni birləşmələri qarşısında faktiki olaraq silahsız və müdafiəsiz qalmış Bakı və ətraf kəndlərin azərbaycanlı əhalisinin qəzəbinə səbəb oldu. 1918-ci il martın 30-da səhər şəhərin müxtəlif hissələrində azərbaycanlıların qeyri-mütəşəkkil etiraz mitinqləri başlandı. Mitinq iştirakçıları azərbaycanlı hərbi qulluqçuların silahlarının qaytarılmasını, və yaxud eyni zamanda Bakıda erməni hərbi birləşmələrinin

tərksilah edilməsini tələb edirdilər. Azərbaycan milli elitasının və siyasi qüvvələrinin nümayəndələrinin şəhərdə gərginliyin daha da dərinləşməsinin qarşısını almaq üçün göstərdikləri bütün cəhdlər son nəticədə təsirsiz qaldı. (33) Müsavatçıların "Açıq söz" qəzeti müsəlman əhalisinə emosiyalara qapılmamaq çağırışı ilə müraciət etdi, amma bütün bunlara baxmayaraq müharibə başlandı. (34)

Şəhərin müsəlman əhalisinin azərbaycanlılara mənsub olan ictimai binalarının qarşısında və müsəlman məhəllələrində qeyri-mütəşəkkil şəkildə səngərlərin qazılması və "bir mauzerlə və beş patronla" "top və pulemyotlara" cavab verilməsi (35) ilə ifadə edilən müqaviməti bir sutkadan da az müddətdə davam etdi. Şəhərin mərkəzi və istisnasız olaraq bütün müsəlman məhəllələri çoxminli bolşevik-erməni birləşmələrinin silahlı hücumuna və aeroplanlardan bombardmana məruz qaldı. Xəzər donanmasının sahilə gətirilmiş gəmiləri isə öz toplarını onlara tuşlayaraq fasiləsiz atəşə tutdu. 1918-ci il martın 31-də azərbaycanlı əhalinin nümayəndələri köməksiz müsəlmanların qırğınına son qoyulması xahişi ilə Bakı Sovetinə, şəxsən Şaumyana müraciət etdilər və tam təslim əlaməti olaraq ağ bayraqlar qaldırdılar. Azərbaycanlıların təslim olması ilə kifayətlənməyən bolşeviklər və daşnaklar "Müsavat"a və Müsəlman Milli Şurasına ultimatum təqdim etdilər. Ultimatumda müsəlmanlardan "açıq şəkildə və qeyd-şərtsiz Bakı Sovetinin hakimiyyətini tanımaq, azərbaycanlıların "Vəhşi diviziya" adlanan hərbi hissəsinin Bakı və onun ətraf kəndlərindən kənara çıxarmaq, həmçinin Bakı-Tiflis və Bakı-Petrovsk dəmir yolunu açmaq kimi təcili tədbirlərin görülməsi tələb edilirdi". (36)

"Bu tələblərdən bəziləri bilərəkdən absurd xarakter daşıyırdı. Məsələn, azərbaycanlılar və onların siyasi təşkilatları hətta istəsələr belə, Bakı-Petrovsk dəmir yolunun fasiləsiz fəaliyyətini təmin edə bilməzdilər, çünki onlar bu dəmir yoluna bütün məsafə boyu nəzarət etmirdilər. O ki qaldı azərbaycanlı hərbi qulluqçuların Bakının ərazisindən çıxarılmasına, məhz Bakı Sovetinin bolşevik-daşnak liderləri özləri mart hadisələri ərəfəsində onlara şəhərin hüdudlarını tərk etməyə imkan verməmişdilər". (37) Bununla belə, qan tökülməsinin dayandırılması və şəhərin dinc azərbaycanlı əhalisinin həyatının mühafizəsi xətrinə ultimatum elə həmin gün "Müsavat" rəhbərliyi tərəfindən qəbul edildi. Lakin, "elan edilmiş barışığa" baxmayaraq, şəhərin müsəlman məhəllələrinin talan edilməsi, yanğınlar törədilməsi, yollarda və şəhər ətrafı kəndlərdə erməni silahlı

quldur dəstələri tərəfindən insanların məhv edilməsi davam edirdi. Bütün bu hallara göz yuman Bakı Soveti rəhbərliyi isə davamsız olaraq yeni tələblər irəli sürürdü. Bakıdakı İran konsulunun da hadisələrin gedişinə müdaxilə etməyə və sonradan məlum olduğu kimi, mart hadisələri qurbanlarının arasında çoxlu sayda onun da həmvətənlərinin – İran vətəndaşlarının həlak olduğu qırğının qarşısını almağa yönəlmiş səyləri heç bir nəticə vermədi.

Qeyd olunmalıdır ki, 1918-ci ilin əvvəlində yalnız Bakı və onun ətraf kəndlərində 70 minə yaxın əksəriyyəti etnik azərbaycanlı olan İran vətəndaşları işləyir və yaşayırdı. İstər sayına, istərsə də şəhərin sosial-iqtisadi həyatının müxtəlif sahələrində tutduqları mövqeyə görə onlar Bakı cəmiyyətinin əhəmiyyətli hissəsini təşkil edirdilər. Kifayət qədər fəal və işgüzar bir insan olan İran konsulu Məhəmməd Said-əl Vəzarə Marağayi isə şəhərin rəsmi və ali dairələrə daxil olan tanınmış və hörmətli xarici diplomatlardan biri hesab olunurdu. O, Azərbaycan və rus dillərini yaxşı bilir, yerli adamlarla öz dillərində danışır və nitqlər edirdi. İran vətəndaşlarının arasında İranla Qafqaz şəhərləri arasında ticarətin ayrı-ayrı sahələrinə nəzarət edən və Bakıda öz kontorları, daşınmaz əmlakı, mağazaları və s. olan milyonçular, iri və orta tacirlər zümrəsi var idi. Çoxsaylı xırda iranlı tacirlər də şəhərin ticarət həyatında əhəmiyyətli rol oynayırdılar. Bu əhali qrupunun daha böyük hissəsi isə neft sənayesində, əsasən, qara fəhlə işləyirdi. Eyni zamanda şəhərdə yüzlərcə bədbəxt, yaşamaq üçün hər növ vəsaitdən məhrum olan və Bakının küçələrində dilənçi həyatı keçirən "iranlılar" var idi. Tamamilə aydındır ki, Bakının mərkəzi küçələrini və yaşayış məhəllələrini əhatə edən 1918-ci il qanlı mart hadisələri İran vətəndaşlarının özlərindən, eləcə də onların əmlakından yan keçə bilməzdi. Təsadüfi deyil ki, küçə döyüşlərinin və atışmalarının ilk qurbanları əksər hallarda məhz bu evsiz-eşiksiz insanlar, "Əlahəzrət İran şahının" təbəələri oldular. Hadisələrdən az sonra həm İranda, həm də Bakıda çıxan İran qəzetləri bu haqda dəfələrlə yazmaqla, əsas günahı öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyi bacarmamış İran konsulunda görürdülər. Halbuki, mart hadisələrinin ikinci günü erməni quldurlarından gizlənən yüzdən artıq İran vətəndaşlarının sığınacaq tapdığı İran konsulluğunun binası erməni silahlı dəstələri tərəfindən ələ keçirilmiş, konsulun özü, konsulluğun əməkdaşları ilə birlikdə əsir götürülmüşdü. Yalnız Məhəmməd Said-əl Vəzarənin Bakı Sovetinə dəfələrlə mü-

raciətindən sonra əsir İranlı vətəndaşları azad etmək mümkün olmuşdu və bu zaman konsulun özü də daxil olmaqla bu insanlara konsulluğun binasını tərk etməmək əmri verilmişdi. (38) Lakin bolşeviklərin xəbərdarlığına baxmayaraq, İran konsulu bir neçə rus dənizçisi ilə birlikdə Bakının küçələrinə çıxaraq, müsəlmanların müdafiə olunduğu İçəri Şəhər Qalasına gəlmiş və Qalanı toplardan atəşə tutan Xəzər donanmasının rus əsgər və matrosları tərəfindən hərbi əməliyyatların dayandırılması üçün həqiqətən çox səy göstərmişdi. (39) Lakin, Said-əl Vəzarənin bolşeviklərlə danışıqları zamanı "günahsız müsəlman, qadın və uşaqlara qarşı vəhşiliklərin dayandırılması", habelə "müharibədə iştirak etməyən yüzlərlə İranlı vətəndaşların ölümünə səbəb olan şəhərin bombalanmasına dərhal son qoyulması" kimi tələbləri eşidilməmiş qalmışdı. (40)

Son nəticədə müsəlmanların kütləvi qırğını azərbaycanlılarla barışığa rəsmi şəkildə razılaşmış Bakı Soveti tərəfindən deyil, aprelin 2-də (21 martda) 36-cı Türküstan alayının qətiyyətli tələbi və artıq vəziyyəti başa düşmüş Xəzər rus dənizçilərinin əks təqdirdə Bakı Sovetinin tabeçiliyindən çıxmaq hədələri sayəsində dayandırıldı: "Dənizçilər əgər ermənilər müsəlman qırğınlarını dayandırmazsa, şəhərin erməni hissəsinə toplardan atəş açacaqları ilə hədələdilər, "Ərdəhan" və "Krasnovodsk" hərbi gəmiləri şəhərin şərq hissəsində yerləşən limanlara yaxınlaşdı". Həmçinin "dörd dəhşətli gündən" sonra İcraiyyə Komitəsinin sədri Caparidzenin "ciddi müdaxiləsi" də öz nəticəsini verdi. (41)

1918-ci il martın 30-da axşam başlanan azərbaycanlı qırğınları faktiki olaraq bir həftə davam etdi, lakin onun üç günü görünməmiş amansızlıqla qəddarlıq və azğınlıq edən daşnak dəstələri tərəfindən şəhərin azərbaycanlı-müsəlman əhalisinin qırılmasının və qarət edilməsinin xüsusilə kütləvi xarakteri ilə səciyyələnirdi.

Bakının tarixi məhəllələrini və küçələrini, şəhər kənarındakı müsəlman qəsəbələrini bürüyən azərbaycanlı qırğınları yalnız şəhərin hüdudları ilə məhdudlaşmırdı. Həmin günlər erməni quldur dəstələri Bakının yaxınlığındakı ətraf kəndlərə də basqın edərək müsəlmanların evlərinə soxulur, yoldan keçən müsəlmanları qarət edir və qətlə yetirir, şəhər kənarı yollarda pusqular qururdular. 1918-ci ilin martında Bakı kəndlərinin – Məhəmmədi, Əhmədli, Balaxanı, Binəqədi, Bibi-Heybət, Hökməli, Zabrat, Sabunçu, Ramana, Xırdalan və digər kəndlərin sakinləri erməni silahlı dəstələrinin vəhşiliklərinin qurbanı olmuşlar.

"Həmin günlərdə Bakının küçələrində və onun ətraf kəndlərində 1917-ci ilin fevralında Petroqradda döyüşlər və ya oktyabrda "qansız" bolşevik çevrilişi zamanı ölənlərdən daha çox adam həlak olmuşdu. Əgər qurbanların sayı nəzərə alınarsa, mart hadisələri rus inqilabı dövründə ən dəhşətli epizodlardan biri olmuşdur". (42)

Mart hadisələri zamanı həlak olanların dəqiq sayını müəyyən etmək, təbii ki, mümkün deyil, xüsusilə hadisələrin ilk 3-4 günü ərzində bolşevik-daşnak dəstələri azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə izn vermədikləri nəzərə alınarsa. Meyitlərin sayı isə o qədər çox idi ki, onların şəhərin küçə, həyət və evlərindən yığışdırılması bir neçə gün davam etmiş və bu iş müxtəlif şəxslərdən ibarət ayrı-ayrı dəstələr tərəfindən görülmüşdür. Sənədlərdən aydın olduğu kimi, müsəlmanların çoxlarının meyitləri həm hadisələrin baş verdiyi günlərdə, həm də sonradan ermənilər tərəfindən yanan evlərin içindəki alova, quyulara və dənizə atılırdı. Təsadüfi deyil ki, mart hadisələrinin gedişində həlak olanların sayına dair bir-birindən kəskin şəkildə fərqlənən müxtəlif rəqəmlər göstərilir.

Məsələn, S.Şaumyan özü mart hadisələrinə siyasi qiymət verməyə ilk cəhd edənlərdən biri olmaqla, bu hadisələri "vətəndaş müharibəsi" kimi səciyyələndirərək, aprelin 13-də Moskvaya göndərdiyi hesabatında "hər iki tərəfdən qətlə yetirilənlərin sayının üç mindən artıq" olduğunu göstərirdi. (43) Ermənilər özləri bu hadisələri bolşeviklərlə müsəlmanlar arasında hakimiyyət uğrunda mübarizə kimi qələmə verirdi və erməni yepiskopu Baqrat iddia edirdi ki, guya qanlı mart günlərində cəmi min nəfər: 300 erməni və rus, 700 müsəlman öldürülmüşdür. (44) Yepiskop Baqratın bu məsələlərdə mövqeyi aşağıda daha ətraflı nəzərdən keçiriləcəkdir.

Artıq qeyd edildiyi kimi, mart faciələri günlərində həlak olmuş müsəlmanların arasında çoxlu sayda İran vətəndaşları var idi və İran qəzetləri hadisələrdən sonra dərhal vətənə qayıtmağa müvəffəq olmuş öz vətəndaşlarının son məlumatlarına istinad edərək, iddia edirdilər ki, "müharibənin 3-4 günü ərzində 2000 nəfər qətlə yetirilmiş və onlardan 500 nəfərdən çoxu iranlılar olmuşdur". Həmçinin qeyd edilirdi ki, həlak olanların arasında İran konsulunun 21 yaşlı qardaşı da var idi. (45) Lakin konsul Məhəmməd Said Marağayi sonralar başqa bir rəqəm gətirərək yazırdı ki, "yalnız onun tərəfindən təşkil edilmiş komissiya tərəfindən küçə və həyətlərdən 5000-dən artıq qətlə yetirilmiş müsəlman, iranlı və qeyri-iranlıların meyitləri toplanmış və dəfn edilmişdi." (46)

M.Ə.Rəsulzadə, baş vermiş faciəni milli qırğın kimi səciyyələndirərək göstərirdi ki, məhv edilmiş müsəlmanların sayı 10 min nəfərə çatmışdı, və onların böyük hissəsini fəhlələr və aralarında minlərlə qadın, uşaq və silah daşıya bilməyən adamların olduğu əhalinin kasıb təbəqələri təşkil edirdi. (47) Artıq mart hadisələri araşdırıldıqdan sonra Fövqəladə Təhqiqat Komissiyasının ümumiləşdirilmiş məruzəsinə əsasən, həlak olmuş yalnız türk-müsəlman əhalisinin daha çox ehtimal olunan sayı səsləndirilmişdi: 11 min nəfər. Az sonra daha dəqiq rəqəm – 12 min nəfər –göstərilmişdir. (48)

Azərbaycanlılara qarşı vəhşiliklərin dəhşətli miqyası həmin dövrdə şəhərdə fəaliyyət göstərən siyasi partiyaların heç birini biganə qoymamış, həmçinin mülki əhali və digər xalqların nümayəndələrində xüsusilə ağır təəssürat yaratmışdı. Menşeviklərin "Naş qolos" (Bizim səsimiz) qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur – yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış... "Təzə pir" məscidi artilleriya atəşlərindən güclü ziyan çəkmişdir... Patrul 6-cı polis sahəsinin həyətində 600-ə yaxın əsir müsəlman qadın və uşaqları tapdı, onları azad etdi və şəhərin müsəlman hissəsinə qədər müşayiət etdi.. Geniş kütlələr qəzəb və nifrətlə dolub-daşır, bu hisslər getdikcə qəzəbli intiqam hissinə çevrilir ki, onların qarşısını almaq elə də asan olmayacaq." (49) Azərbaycanlılara və "Müsavat" partiyasına heç bir rəğbəti olmayan bu qəzet də mart hadisələrini milli qırğın kimi qiymətləndirirdi və məhz bu mövqeyinə görə - "hadisələrə həqiqətə uyğun olmayan qiymət verdiyi və açıq-aşkar qərəzli məqalələr" nəşr etdiyi üçün "İnqilabı müdafiə komitəsinin" qərarı ilə dərhal bağlandı. (50)

Bütün azərbaycanlılar – sol təmayüllü müxtəlif partiyaların üzvləri və bolşeviklərin ideya müttəfiqləri də bolşevik-daşnak dəstələrinin müsavatçılarla mübarizə bəhanəsi ilə faktiki olaraq məqsədyönlü şəkildə dinc azərbaycanlı əhalisini məhv etdiyini anlayır və etiraf edirdilər. Azərbaycanlı bolşevik S.M.Əfəndiyev yazırdı ki, mart hadisələri zamanı "daşnaklar yalnız müsavatçıları deyil, ümumiyyətlə bütün müsəlmanları qırırdılar ... Hadisələrin gedişi elə vəziyyət yaratmışdı ki, Sovetin başında duran yoldaşlar – Şaumyan, Caparidze və başqaları, özləri daşnakların əsirinə çevrilmişdi". (51) N.Nərimanov Şaumyana və Caparidzeyə yazdığı məktubunda qeyd edirdi ki, "bu hadisələr Sovet hakimiyyətini ləkələmiş və onu gözdən salmışdır", (52) azərbaycanlıların "Hümmət" təşkilatının qəzeti isə

yazırdı: "Biz, bolşevik olmaqla, eyni zamanda müsəlman yoxsullarının nahaq yerə axıdılan qanının cəzasız qalmasına imkan verməzik. Biz bütün gücümüzlə müsəlmanlara qarşı törədilən bütün o alçaqlıqları aydınlaşdırmağa çalışacağıq". (53)

Bununla bərabər, S.G.Şaumyan, hakimiyyətini bolşevik "Hümmət"in də qəbul etdiyi Bakı Sovetinin rəhbəri kimi, "müsəlmanlara qarşı alçaqlığın törədilməsində" şəxsən özünün və başçılıq etdiyi orqanın birbaşa rolunu heç gizlətmirdi və üstəlik, onu "erməni polkunun köməyindən istifadə etməyə" "vadar etmiş" əsas səbəbi açıq şəkildə göstərirdi: "Şəhərimizin milli tərkibi bizi qorxudurdu. Biz qorxurduq ki, mübarizə arzuolunmaz çalar ala bilər". "Vətəndaş müharibəsi nəticəsində yoxsul və evsiz-eşiksiz müsəlmanlar kütləsinin zərər çəkdiyini" etiraf etməyə məcbur olmasına baxmayaraq, Şaumyan elə oradaca qeyd edirdi: "... qələbə isə o qədər böyükdür ki, bu, gerçəkliyə az kədər gətirir". (54)

Lakin gerçəklik əslində o qədər qanlı və faciəli idi ki, heç kimi - nə Azərbaycan əhalisinin geniş təbəqələrini, nə də qonşu İranı, Türkiyəni, Türküstanı, Mərkəzi Asiyanı, Rusiyanın müsəlman hissəsini etinasız qoya bilməzdi. Ermənilər və bolşeviklər tərəfindən Bakıda dinc müsəlman əhalisinin kütləvi şəkildə qırılması bu ölkələrin ictimaiyyətində hədsiz hiddət oyatmışdı. Bütün Bakı cəmiyyəti, o cümlədən həmin "dəhşətlə dolu" günləri yaşamış qeyri-müsəlman əhali kimin təqsiri üzündən "tamamilə dinc bir şəhərdə belə bir şeyin necə baş verdiyini" aydınlaşdırmağa çalışaraq, mart qırğınlarını ən qızğın şəkildə müzakirə edirdi. Mübarizə aparan siyasi qüvvələrin özləri isə – bir tərəfdən bolşevik-erməni ittifaqı, digər tərəfdən "Müsavat" – artıq qanlı hadisələrin başlandığı andan bir-birini əhalinin ayrı-ayrı hissələri arasında silahlı qarşıdurma yaratmaqda ittiham edirdilər. Bu zaman "Cənubi Qafqazın müqəddəratı həll olunurdu ...Əgər onlar Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi... Müsəlman əksinqilabçı ünsürləri bütün Zaqafqaziyada vəziyyətə hakim ola bilərdilər. Əgər onların siyasi məqsədi – Zaqafqaziyanı Rusiyadan ayırıb Türkiyə protektorluğuna tabe etdirmək məqsədi nəzərə alınarsa – aydındır ki, Bakıda onlar qalib gəlsəydilər, Zaqafqaziya Rusiya üçün itirilmiş olardı" – deyən S.G.Şaumyan açıq şəkildə etiraf edirdi: "Biz bunu dəf etməli idik və biz ilk fürsətdən, atlı dəstəmiz üzərinə ilk silahlı hücum cəhdindən istifadə edərək bütün cəbhə boyu hücuma başladıq". (55)

Artıq təkcə bu etirafın özü “Müsavat” partiyasının mart hadisələrini törətməkdə ittiham olunmasını əsassız edir. Bu cür ittihamların əsassızlığını partiyanın lideri Məmməd Əmin Rəsulzadə də məntiqlə sübut edirdi: “Mart hadisələrində “Müsavat”ı günahlandırırdılar. Bu tamamilə əsassız idi, çünki müharibənin elan edilməsi üçün hər hansı fiziki qüvvəyə malik olmaq lazım idi ki, bu da “Müsavat”da yox idi”. (56) Mart hadisələri ərəfəsində azərbaycanlıların, o cümlədən “Müsavat”ın Bakıda və onun ətraf kəndlərində hər hansı iri hərbi birləşmələrinin olmadığı, sonralar 1918-ci ilin martında baş vermiş hadisələrin mahiyyətini araşdıran ilk sovet təhqiqatçıları da, tamamilə qərəzli mövqelərinə baxmayaraq, təsdiq edirdi. Məsələn, “Qırmızı Professura” institutunun məzunlarından biri Y. Ratqauzer özünün 1927-ci ildə dərc edilmiş əsərində yazırdı ki, ...“Müsavat” partiyasının rəhbər özəyi martın 18 (30) -də döyüşün başlanacağını gözləmirdi... Rayonlarda olan müsavatçı hərbi qüvvələr vaxtında şəhərə gətirilməmişdi. Həmin gün şəhərdə “Müsavat” partiyasının nizami hərbi hissələri yox idi, yalnız qeyri-mütəşəkkil quldur dəstələri vardı, onlar da çox vaxt ümumi rəhbərlik olmadan hərəkət edirdilər”. (57)

Diqqətəlayiqdir ki, Bakıda mart hadisələrini yaşamış Britaniya konsulu Ronald Mak Donell mart hadisələrində erməni millətçi qüvvələrinin xüsusi rolunu qeyd edir və hesab edirdi ki, ermənilər olmasaydı, bolşeviklər heç vaxt müsəlmanlarla belə davranmağa cürət etməzdilər: “4 gündən sonra müsəlman gəmisinin tərksilah edilməsi səbəbindən bolşeviklərlə müsəlmanlar arasında münaqişə başladı, bu da mart qırğınları ilə nəticələndi. Ermənilər bolşeviklərlə birləşdilər və demək olar ki, müsəlmanları Bakıdan sıxışdırıb çıxardılar.

Bu vaxt mən Erməni Milli Şurası qarşısında öz etirazımı bildirmişdim və indi də iddia edirəm ki, müsəlmanlara qarşı mübarizədə bolşevikləri dəstəkləməklə, onlar öz tarixlərində ən böyük səhvlərdən birini etmişlər... Bu siyasətə görə bütün günahı erməni siyasi təşkilatı “Daşnaksütun”un üzərinə qoymaq lazımdır. Ermənilərin dəstəyi olmasaydı, bolşeviklər heç vaxt müqavimət göstərən müsəlmanlara qarşı əməliyyatlara başlamazdılar”. (58)

İranın Bakıdakı konsulu Məhəmməd Said-əl Vəzarə Marağayi də, həmin günlərdə aralarında minlərlə İran vətəndaşlarının olduğu müsəlmanlara qarşı zorakılığın qarşısının alınmasında fəal iştirak etməklə, bu hadisələri yerli müsəlman əhalisinin erməni silahlı qüvvələri tərəfindən qızışdırılan milli qırğını kimi xarakterizə edirdi. (59)

Bununla yanaşı, M.Ə.Rəsulzadə açıq şəkildə etiraf edirdi ki, "Müsavat" partiyasının məhz Azərbaycanın muxtariyyəti ideyasını müdafiə etməsinin mart hadisələrinə gətirib çıxarması kimi ittihamlar qismən həqiqətə uyğundur: "Əgər biz azadlığımızın düşmənləri qarşısında itaətkarcasına başımızı əysəydik, bəlkə də, bu hadisələr olmazdı. Lakin biz bunu edə bilməzdik. Biz o dövr açıq şəkildə Azərbaycan üçün muxtariyyət tələb edirdik. Bununla da biz düşmənlərimizin sayını artırırdıq. Bizim düşmənlərimiz deyirdi ki, Azərbaycanın muxtariyyətini yalnız bəzi şəxslər öz maraqları üçün arzulayırlar və bu, bütün Azərbaycan xalqının arzusu deyildir. Lakin onlar çox yaxşı bilirdilər ki, xalq "Müsavat"ın ardınca gedir. Onlar, bizimlə mübarizə aparmaqla, Azərbaycan xalqı ilə mübarizə aparırdılar". ( 60)

M.Ə.Rəsulzadənin bu etirafı, əslində 1918-ci ilin mart hadisələrinin xarakterini səciyyələndirir ki, bu məsələdə mübarizə aparan tərəflərin mövqeyi ən ciddi şəkildə ziddiyyət təşkil edirdi. Burada qeyd etmək lazımdır ki, faktlar, şərait və hadisələrin xronikası nəzərə alınarsa, mart hadisələrinə dair bolşeviklər tərəfindən irəli sürülmüş "vətəndaş müharibəsi", yaxud erməni millətçi qüvvələrinin təkid etdikləri "ermənilərin tam neytrallığı şəraitində bolşeviklərlə müsavatçılar arasında hakimiyyət uğrunda mübarizə" kimi izahlar heç bir məntiqə sığmır. Bu nöqteyi-nəzərdən mart hadisələrini Cənubi Qafqazın bütün müsəlman əhalisini məhv etmək niyyəti güdən məqsədyönlü siyasət kimi xarakterizə etmiş Azərbaycanlı milli qüvvələrin verdiyi qiymət son dərəcə məntiqli və ədalətli hesab edilə bilər: "...kadetlərdən tutmuş bolşeviklərədək və daşnaklardan tutmuş sosialistlərədək... sinfi məsələlər hətta arxa plana çəkilmişdir və indi artıq mübarizə ayrı-ayrı siniflərlə yox, Azərbaycan türkləri ilə və sosial zəmində yox, milli, hətta dini zəmində aparılır ". (61)

Bakı bolşeviklərinin rəhbəri S.Şaumyan öz növbəsində - "Bizim siyasətimiz -vətəndaş müharibəsidir. Kim bu siyasətin əleyhinədirsə, deməli, düşmənlərimizin nökəridir" – deyə iddia edərək (62) eyni zamanda Bakıda azərbaycanlıların kütləvi surətdə qırılmasının bütün məsuliyyətini erməni tərəfinin üzərinə atmağa çalışırdı: "Doğrudur, biz onlardan istifadə etməyə məcbur idik; çünki onlar bizim müttəfiqlərimiz olmuşdular, lakin onlar mübarizəyə milli ünsür gətirdilər və buna görə də beynəlmiləlçiliyin təntənəsi naminə milli şuraların və polkların möhkəmlənməsinə yol vermək lazım deyildir. Erməni Milli Şurası müstəqil həbslər, axtarışlar

aparır, müsadirə edir və i.a., buna qarşı tədbir görmək lazımdır". (63) Bu sözlər S.Şaumyan tərəfindən 19 aprel 1918-ci il tarixində fəhlə, əsgər və matros deputatları Sovetinin iclasında səslənmişdi.

"O vaxt ki, Bakıda nəhayət, qayda-qanuna bənzər bir şey bərpa edildi, küçələr minlərlə meyitlərdən təmizləndi, yanğınlar söndürüldü, onda Sovet şəhərdə ən möhtəşəm qüvvə kimi yüksəldi. Müsəlmanlar məğlubiyyətə uğradı və tam tərksilah edildi, ermənilər isə zəiflədi". (64)

Real hakimiyyəti əlində cəmləşdirən Bakı Soveti dərhal F.X.Xoyskinin başçılıq etdiyi şəhər Dumasını buraxdı və bununla da Bakıda Sovetə müxalif olan sonuncu orqan ləğv edildi. Bolşeviklər, sanki özlərini axıdılmış müsəlman qanına görə rüsvayçılıqdan və məsuliyyətdən kənara çəkməyə çalışaraq, eyni zamanda hakimiyyət uğrunda mübarizədə artıq yeganə rəqiblərindən azad olaraq, Erməni Milli Şurasını da idarəçilikdən kənarlaşdırdılar, ermənipərəst qəzetlər bağlandı, daşnakların silahlı birləşmələri isə qismən tərksilah edildi və qismən də Qızıl Ordunun tərkibinə daxil edildi. (65)

Lakin bununla mart hadisələrindən sonra, bolşeviklərlə daşnakların yollarının ayrıldığını və Bakı Sovetinin rəhbərliyində artıq "erməni faktoruna" son qoyulduğunu düşünmək səhv olardı. Bunu 25 aprel 1918-ci il tarixində yaradılmış Bakı Xalq Komissarları Sovetinin tərkibi açıq-aydın təsdiq edirdi. Belə ki, S.G.Şaumyanın sədri olduğu Sovetdə 12 komissar (nazir) postundan yarısını ermənilər tuturdu, özü də bütün mühüm hakim postlara (sədr, xarici işlər, ordu və donanma, hərbi-inqilab komitəsi, dəmiryolu və dəniz nəqliyyatı, Fövqəladə Komitə, Dövlət Nəzarəti) məhz onlar nəzarət edirdilər. Yerli əhalinin nümayəndələrinə – azərbaycanlılara cəmi iki, həm də xüsusi əhəmiyyəti olmayan vəzifələr – şəhər təsərrüfatı (N.Nərimanov) və kənd təsərrüfatı (M.H.Vəzirov) verilmişdi. Sonradan M.Əzizbəyov Bakı quberniyasının komissarı təyin edilmişdir.

Bakı Soveti Xalq Komissarlarının ilk gördüyü iş, Moskvanın birbaşa tapşırığı ilə, neft sənayesinin milliləşdirilməsi oldu və Bakı nefti lazım olan həcmdə Rusiyaya daxil olmağa başladı.

Erməni birləşmələrinin sadəcə adı dəyişdirildi və elə həmin erməni komandirlərinin – Amazaspın, podpolkovnik Bek-Zurabyanın və Arutyunyanın rəhbərliyi altında "sovet qoşunları" kimi üç briqada yaradıldı. Korpusun komandiri polkovnik Kazaryan, qərargah rəisi isə polkovnik Avetisov idi. (66) Həmin bu qoşunlar tezliklə Bakı Soveti tərəfindən öz

hakimiyyətinin Azərbaycanın regionlarında möhkəmləndirilməsi üçün fəal surətdə istifadə edildi. Məsələn, türk əhalisinə qarşı qəddarlığı ilə məşhurlaşmış daşnaksakan Amazaspın komandanlığı altında Qubaya göndərilən 3 minlik qoşun yalnız "Daşnaksütun" partiyasına aid olan ermənilərdən ibarət idi və bu qoşun tərəfindən keçirilmiş cəza aksiyası nəticəsində Quba qəzasında 4 minə yaxın dinc müsəlman əhali qətlə yetirildi. Hələ Quba hadisələrinə qədər S.Lalayevin, T.Əmirovun və digərlərin başçılıq etdiyi seçmə erməni quldur dəstələri tərəfindən Şamaxı şəhəri və onun 110 kəndi darmadağın edilərək tamamilə yandırılmışdı. Azərbaycanın digər şəhər və iri qəsəbələri – Lənkəran, Salyan, Kürdəmirin, habelə Ərəş, Nuxa, Göyçay, Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzalarının da aqibəti belə faciəli oldu.

Bakı quberniyasında qələbə çalan bolşevik-erməni qüvvələri tezliklə Yelizavetpola – Gəncəyə üz tutdular və Qarabağ erməniləri ilə sövdələşərək, Azərbaycan milli qüvvələrinin əsas istehkamının ələ keçirilməsinə hazırlaşmağa başladılar.

Lakin, 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və Azərbaycan xalqının öz milli hüquqları və müstəqilliyi uğrunda ölüm-dirim mübarizəsinə qalxması respublikada siyasi vəziyyəti kökündən dəyişdi. Azərbaycan milli qüvvələri öz növbəsində Türkiyənin hərbi yardımı ilə öz respublikalarının paytaxtını – Bakı şəhərini bolşevik-daşnak hakimiyyətindən azad etmək üçün hazırlığa başladı.

Həmin dövr Bakının özündə hadisələr sürətlə bir-birini əvəz edir, şəhərdə gündən-günə gərginlik və xaos güclənirdi. 1918-ci ilin martından sentyabrınadək Bakı və onun ətraf kəndlərinin müsəlman əhalisi erməni quldur dəstələrinin tam mənası ilə girovuna çevrilmişdi. Rus generalı Lyadovun təsvir etdiyi kimi, "daşnak zabitlərinin başçılıq etdiyi və demək olar ki, yalnız heç bir döyüş qabiliyyəti olmayan erməni cəbhəçilərindən ibarət Bakı Sovetinin qoşunları ətraf kəndlərdə soyğunçuluqla məşğul olur və müsəlman kəndlisini daha da qəzəbləndirirdi". (67) Şəhərdə hökm sürən qanunsuzluq və özbaşınalıq, saysız-hesabsız müsadirələr və açıq-aşkar qarətlər daha da dərinləşən ərzaq böhranı ilə müşayiət olunurdu. Çörək yalnız orduya verilirdi, əhali aclıq çəkirdi və vəziyyət getdikcə daha çox təhdidedici xarakter alırdı. Hər gün şəhərə Qafqaz cəbhəsini yarmış türk qoşunlarının yaxınlaşması barədə xəbərlər gəlirdi. Bu məlumatlara Gəncədən əks hücuma keçmiş azərbaycanlı silahlı qüvvələrinə

türklərin yardımı haqqında xəbərlər də əlavə olunurdu. Yayın ortalarında Bakı şəhərinin özündə Bakı Sovetinin mövqeyi güclü surətdə sarsılmışdı.

Digər siyasi qüvvələrin (sağ eserlərin, menşeviklərin və s.) bolçeviklərə qarşı çıxış və qəsdlərinin qarşısı alınsa da, nə çar ordusunun polkovniki L.Biçeraxovla qısamüddətli saziş, nə də Sovet Rusiyasının geniş miqyaslı yardımına ümidlər özünü doğrultmadı. İyulun sonunda, Qızıl Ordunun azərbaycanlı-türk qoşunlarının qarşısında tab gətirə bilməyəcəyi aydın olduqda, qeyri-bolşevik rusların və ermənilərin ingilisləri Bakıya dəvət etmək tələbləri qarşısında özünün tam tənəzzülünü göstərmiş bolşevik hakimiyyəti öz səlahiyyətlərini könüllü surətdə təhvil verdi. Bu qərarın necə qəbul edilməsi haqqında versiyalardan biri aşağıdakı sənəddə ifadə edilirdi: "Bolşeviklərin gücü qalmamışdı, bolşevik hakimiyyətinin dəyişdirilməsi – şəhərin ingilislərə təhvil verilməsi məsələsi müzakirə edilirdi. İyun ayının 29-u axşam Şaumyan, Caparidze, Şeboldayev, bütün partiyaların, hərbi hissələrin və Erməni Milli Şurasının nümayəndələri (Rostom, Petrov, Amazasp, Əmiryan və digərləri) hospitalda, general Baqratuninin çarpayısının ətrafında toplaşmışdılar. Bu görüş haqqında qeyddə deyilirdi: "General Baqratuni sual verdi: "Bizim cəbhədə nəyimiz var? Cavab belə oldu: "Bir neçə yüz nəfər". Onda Baqratuni yaxın günlər ərzində bolşeviklərin hansı qüvvələrə ümid etdiklərini soruşdu. Ona cavab verdilər ki, Şimali Qafqazdan, sonra isə Həştərxandan və Muğandan 1000-1500 nəfər gözləyirlər. General Baqratuni dedi ki, bu azdır və buna ümid etmək olmaz ... İngilislərin dəvət edilməsi məsələsi qəti şəkildə qoyuldu. Şaumyan cavab verdi: "İngilisləri heç bir halda". General Baqratuni qeyd etdi ki, mənəvi təkan zəruridir. O zaman türkləri geri oturtmaq üçün yerli qüvvələr də kifayət edərdi. Bolşeviklərin artıq belə ruhlandırıcı elementi qalmamışdı. İştirakçılardan qeyri-bolşeviklər Şaumyanın hakimiyyətdən getməsini tələb etdilər. Şaumyan bəyan etdi ki, o, hakimiyyətdən gedir". (68)

Yeni qurulan və "Sentrokaspi diktaturası" adlanan hakimiyyətin ömrü cəmi ay yarım çəkdi və bu dövrdə o, yalnız iki əməli ilə – azacıq da olsa, şəhər əhalisini ərzaqla təmin edə bilməsi və Bakının müdafiəsinə kömək göstərilməsi üçün ingilisləri dəvət etməsi ilə yadda qaldı. İngilislər Erməni Milli Şurasının İrana ezam olunmuş üzvləri M. Ter-Poqosyanın və S.Araratyanın "dəvətini" qəbul etdilər. Belə ki, onları Bakıya siyasi maraqlardan başqa, həm də "böyük ehtiyac duyduqları neft və benzin cəlb edirdi. İngilislər gəlişlərinin şərtlərindən biri kimi benzini qoymuşdular. Onlar

deyirdilər ki, benzin çatışmazlığı onların qoşunlarının gecikməsinin əsas səbəblərindən biridir və ayda 25 min pud benzin tələb edirdilər. Lakin, avqust ayı ərzində, onların dəvət edilməsi haqqında qərar qəbul ediləndə və onların dəstələri gəlməyə başladıqda, onlara 25 min yox, əvəzinə heç nə ödənilməyən 62.420 pud benzin ayrılmışdı, və nəticədə onların qoşunlarının gəlişi nəinki sürətləndi, əksinə, tezliklə tamamilə kəsildi". (69)

Avqustun əvvəlində İrandakı ingilis silahlı qüvvələrinin komandanı general Denstervilin başçılığı ilə Bakıya daxil olan ingilis qoşunları şəhərdə qarşılaşdıqları vəziyyətdən heyrətə gəldilər: demək olar ki, yalnız ermənilərdən ibarət olan qoşunlar tamamilə qeyri-mütəşəkkil idi, heç bir əsgər əmrlərə tabe olmurdu və heç bir zabitin öz əmrlərində təkid etməyə cürəti çatmırdı. İngilis zabitləri "cəbhənin böyük ərazilərini boş buraxaraq, həmin zaman hansı mitinqdəsə siyasi nitqlər dinləyən və ya rəfiqələri ilə şəhərdə çay içən Bakı müdafiəçilərinin qəribə hərbi etikasına" mat qalmışdılar. (70) Lakin, "Bakının şanlı müdafiəçiləri" öz döyüş postlarını yalnız mitinqlərə, və ya öz rəfiqələrinə görə boş buraxıb getmirdilər. Onlar bütöv dəstələrlə cəbhə xəttinin yaxınlaşdığı Bakı kəndlərinə basqınlar törədir, müsəlman əhalisinin qətlə yetirməklə, qarət etməklə, evlərinə od vurmaqla məşğul olurdular. Erməni əsgərlərinin "öz döyüş postlarını boş qoyaraq, pulemyotlarını və silahlarını özləri ilə apararaq", tez-tez "istirahətə" getdikləri Bakı kəndlərinin sakinləri – silahsız və müdafiəsiz türklərin qarşısında "qəhrəmanlıqları" haqqında saysız-hesabsız faktlar sanki general Denstervilin bu şəhadəti ilə "tamamlanır": "Yerli qoşunlar, əksər hallarda ermənilər səngərlərin qazılması ilə çox az məşğul olurdular və onlar buna məcbur edildikdə belə cavab verirdilər: "Biz nə üçün səngər qazmalıyıq? Biz ümumiyyətlə səngər qazmaq istəmirik, bu qorxaqların işidir, biz isə döyüşmək istəyirik". Onlar zəncirvarı qaydada qayaların arxasında düzülür və oradan havaya atəş açırdılar. Onlar bu manevri adətən türklər hücuma keçmək barəsində heç düşünmədikləri və ən yaxın türk əsgərinin bizdən üç min yard məsafədə olduğu vaxtlarda edirdilər... Bir dəfə türklər öz mövqelərindən çıxdılar və günün günorta çağı açıq dərə ilə hərəkət etməyə başladılar... Erməni batalyonuna komandanlıq edən zabitlərimdən biri öz adamlarına səngərlərdən çıxmağı və əks-hücuma keçməyi əmr etdi. Qoşunlar hərəkət etməkdən imtina etdilər və onların nümayəndəsi qışqırdı: "Necə yəni oraya gedin? Axı orada türklər var!". (71)

İngilis generalı, "vaxtı dəyərləndirməyən və boş şeylərlə məşğul olan" yerli hakimiyyətlə nə qədər mübarizə aparsa da, şəhərin "müdafiəçiləri"

kimi öz hərbi borclarının yerinə yetirilməsi naminə "erməni qoşunlarının döyüş ruhunu" yüksəltməyə çalışsa da, son nəticədə qoşunlarını Bakıdan çıxarmaq haqqında öz qərarını verdi. Lakin bundan əvvəl, "diktatorlara və cürbəcür komitələrə", yəni yerli hakimiyyətə aşağıdakıları bildirdi: "Mən imkan verə bilmərəm ki, mənim adamlarımın həyatı faydasız yerə qurban verilsin. Biz buraya türklərə qarşı vuruşmaqda sizə kömək etmək üçün gəlmişdik, sizin vətəndaşlarınızın əylənməsi üçün müharibə aparmağa yox." (72)

1918-ci il sentyabrın 14-də bir neçə saatlıq ağır döyüşlərdən sonra ingilis qoşunları cəbhədən çıxdılar və gəmilərə yüklənərək Bakı buxtasını tərk etdilər. İngilislər getdikdən sonra "xristian" Bakısı heç iyirmi dörd saat da davam gətirə bilmədi.

Beləliklə, faciəli mart hadisələrindən beş ay sonra, çox ağır və mürəkkəb siyasi şəraitdə, inanılmaz səy və böyük iradə sayəsində, öz siyasi, təşkilati, diplomatik istedadlarının bütün gücünü tətbiq edərək, Azərbaycanın milli elitasının görkəmli nümayəndələri, "Müsavat" partiyasının rəhbərləri, Azərbaycanın silahlı qüvvələri ilə birlikdə və türk qoşunlarının - türk hərbi komandanlarının rəhbərlik etdikləri Qafqaz İslam Ordusunun qətiyyətli dəstəyi ilə 15 sentyabr 1918-ci il tarixdə Bakını "Sentrokaspi Diktaturasının" qüvvələrindən azad etdilər.

Şəhər uğrunda sonuncu şiddətli döyüşlərin getdiyi günlərdə, S.Şaumyan, Caparidze, Korqanov və digərləri başda olmaqla, mart faciələrinin səbəbkarları olan bolşevik komissarları iki dəfə şəhəri tərk etməyə cəhd göstərərkən "Sentrokaspi Diktaturası" hökumətinin əmri ilə həbs edildilər, sonra isə gəmidə Krasnovodska aparılaraq orada eserlərdən ibarət yerli Zakaspi hökuməti tərəfindən güllələndilər. Tarixə "26 Bakı Komissarları" adı ilə düşmüş bu dəstənin içində tanınmış daşnak, Bakıda və Şamaxıda azərbaycanlı əhalisinin kütləvi qırğınlarına bilavasitə rəhbərlik etmiş Tatevos Əmirov da var idi.

* * *

Bakının azad edilməsi istər şəhərin tarixində, istərsə də ümumilikdə Azərbaycan dövlətçiliyinin tarixində son dərəcə mühüm hadisə olmaqla müstəqil Azərbaycan dövlətçiliyinin qurulması uğrunda milli qüvvələrin mübarizəsində bütöv bir dövrün qalibiyyətlə başa çatdığının və yeni bir

dövrün başlanğıcının tərənnümü oldu. Bu, həqiqətən böyük tarixi hadisənin birinci ildönümündə "Azərbaycan" qəzeti yazırdı: "Əgər 28 may tarixini biz müstəqilliyimizin rəsmi elan edilməsi günü hesab ediriksə, 15 sentyabr gününü, Azərbaycan qoşunlarının və Azərbaycan hökumətinin Bakıya daxil olduğu günü dövlət quruluşunun bünövrəsinin və əsaslarının qoyulması günü kimi hesab etmək olar". (73)

Bununla belə, həmin tarixi günlərin tam mənzərəsini yaratmaq üçün, əlbəttə ki, həmin günlər baş verən digər hadisələri də xatırlatmaq zəruridir. Aydındır ki, Bakının alınması, erməni əhalisi də daxil olmaqla, qurbanlar verilmədən başa gəlməmişdi. Qanlı mart hadisələrinin vurduğu yaralar azərbaycanlıların qəlbindən və yaddaşından hələ silinməmişdi. Şəhər özü, xüsusilə də onun ətraf kəndləri, qaçmağa macal tapmamış erməni əsgərləri ilə dolu idi və onlar, can verən yaralı vəhşi heyvan kimi qarşısına çıxan hər kəsi öldürür və hər şeyi talan edirdilər. Bakının azad edildiyi ilk günlərdə şəhərdə hökm sürən tam sərbəstlik şəraitində mart faciələrini yaşamış, sonrakı aylarda daima əzilmiş və təhqir edilmiş yerli müsəlman əhalisinin bir hissəsi şəhərdə olan az saylı türk əsgərləri ilə birlikdə öz intiqam və qisas yanğısını söndürmək üçün şəhərin erməni məhəllələrinə hücum etdilər. Yenidən qan töküldü, bu dəfə əsasən erməni əhalisinin qanı.

Lakin üç gündən sonra Bakıya daxil olan Azərbaycan hökuməti kütləvi qırğına son qoydu. Sonralar, Azərbaycan Parlamentinin açılışı zamanı nazirlər kabinetinin başçısı F.X.Xoyski hökumətin məruzəsi ilə öz çıxışında bu məsələyə də toxundu. Lakin "çoxlu sayda kasıb və evsiz-eşiksiz müsəlmanların zərər çəkdiyi" mart hadisələrinə görə "heç də məyus olmayan" və "qələbənin böyüklüyü" ilə qürrələnən Bakı Sovetinin rəhbəri S.Şaumyandan fərqli olaraq, Azərbaycan hökumətinin rəhbəri həmin hadisəyə belə münasibət bildirdi: "Doğrudur, şəhər alınarkən yalnız məyusluq və təəssüf doğuran bəzi hadisələr baş verirdi. Hökumət bunu gizlətmir və bu kədərləndirici faktların üstündən keçməyi ləyaqətsizlik hesab edir. Bu da doğrudur ki, bir çoxları ağır əzablara düçar olmuşlar... Lakin hökumətin bu hadisələrin qarşısını tam surətdə alması mümkün idimi? Düşünürəm ki, bu hadisələrə ədalətli gözlə baxanlar təsdiq edərlər ki, dünyada heç bir hökumət onların qarşısını ala bilməzdi. Axı burada müsəlmanlar qırılmışdı, onların insani hüquqları tapdanmışdı. Şəhər üç ay çəkən döyüşlərdən sonra alınmışdı və əhalinin qəzəbi ən yüksək həddə çatmışdı. Burada əsgər, təəssüf ki, heç nə edə bilmədi. Həm də hökumət şəhərə yalnız üç

gündən sonra daxil oldu. Buna qədər olanlar bundan sonra artıq baş vermədi. Hökumət şəhərə daxil olan kimi qəti qərarlar qəbul etdi və nəticədə əmin-amanlıq və təhlükəsizlik təmin edildi". (74)

Həqiqətən də, Azərbaycan hökuməti şəhərdəki vəziyyətlə tanış olaraq, Bakı şəhərinə gəldiyinin elə ertəsi günü aşağıdakı məzmunda hökumət bəyanatı elan etdi: "Respublikanın paytaxtı Bakı şəhərinə daxil olmuş Azərbaycan hökuməti şəhərin və onun ətraf kəndlərinin əhalisini xəbərdar edir ki, Azərbaycanda yaşayan bütün vətəndaşlar, millətindən və dini etiqadından asılı olmayaraq, eyni hüquqlara malikdirlər. Hökumət bütün vətəndaşların həyatını, əmlakını və hüquqlarını eyni səviyyədə qoruyacaqdır. Qarətçilər, qatillər və ümumiyyətlə nizam-intizamı, ictimai qaydaları pozan şəxslər, ölüm hökmü də daxil olmaqla, hərbi dövrün bütün sərt qanunları üzrə cəzalandırılacaqlar". (75)

F.X.Xoyski tərəfindən imzalanmış və əməldə yerinə yetirilmiş bu bəyanat, uzun müddət anarxiya və qarışıqlığın hökm sürdüyü şəhərdə qayda-qanunun bərpa edilməsi istiqamətində vacib addım idi. Cinayətkarların cəzalandırıldığının əyani olması üçün şəhərin müxtəlif yerlərində - Quba meydanında (Füzuli meydanı), Quru bağda (Parapet-Fəvvarələr meydanı), dəmir yol vağzalının qarşısındakı meydanda, dənizkənarı bulvarda, Qaraşəhər körpüsünün yanında dar ağacları quruldu. Onların hər birində yellənən meyitlərin sinəsində onun törətdiyi cinayətdən xəbər verən taxta lövhəcik asılmışdı. Dar ağacından asılanların bəzilərinin qarşısında onun qarət etdiyi əşyalar qoyulmuşdu. Asılanların arasında türk ordusunun qanunu pozmuş əsgərləri də var idi. (76)

Lakin, hökumətin tez bir zaman ərzində şəhərdə qarət və soyğunçuluğun qarşısını almaq üçün gördüyü təsirli tədbirlərə baxmayaraq, ermənilər, "yeni türk-tatar vəhşiliklərini dünyaya" bəyan etməklə, növbəti təbliğat kampaniyasına başlamaq üçün təbii ki, sentyabr hadisələrindən istifadə etdilər.

Erməni Milli Şurası bu hadisə ilə əlaqədar olaraq xüsusi Anket komissiyası təsis etdi və bu komissiya şəhərin erməni əhalisi arasında sorğu keçirərək belə bir nəticəyə gəldi ki, Bakı alınan günlərdə şəxsiyyətləri müəyyən edilmiş "5248 nəfərədək" erməni öldürülmüşdür. Bu cərgəyə "ən azı, 1500-dək Bakıda sığınacaq tapmış Şamaxı və Göyçay qaçqınları" da əlavə edildi. Komissiya bu rəqəmlərə daha "2240 nəfəri" - "naməlum şəkildə öldürülmüş, ... subay və ya burada doğmaları olmayan əsgər və ya

fəhlələri" əlavə etdi, yəni "əgər qətllər şəhərin küçələrində, kənarlarında və şəhərin ətraflarında (mədənlərdə) baş vermişsə – siyahılar tərtib edilən zaman (onlar haqqında) heç kim məlumat verə bilməzdi". (77) Dəqiq deyilərsə, meyitləri tapılmayan və barəsində heç kimin məlumat vermədiyi, sayı yalnız mülahizə edilərək hesablanmış qurbanlar! Beləliklə, komissiya tərəfindən öldürülənlərin ümumi sayı 8988 nəfərə çatdırıldı. Bu rəqəmə "itkin düşən" və ya "yoxa çıxan" daha 3572 nəfər əlavə edilmişdi ki, onlardan 357 nəfəri tezliklə sağ və salamat "tapıldı". Beləliklə, Anket Komissiyası, "hər iki kateqoriyadan olanların – öldürülən və itkin düşənlərin" sayını ehtimal edərək və hesablayaraq, yuvarlaqlaşdıraraq və ümumiləşdirərək, "12560 nəfərdən ibarət olduqca sanballı rəqəm" aldı. (78)

Bu rəqəmlərə diqqət yetirmiş bütün ciddi müəlliflər onların Erməni Milli Şurası tərəfindən toplandığının nəzərə alınmasının zərurətini qeyd edirlər, çünki "bu məsələdə çətin ki, Erməni Milli Şurasından obyektivlik gözləmək olar". (79)

Bu məqama diqqət yetirmək həqiqətən çox mühümdür, çünki öldürülənlərin siyahısına Bakıdan "qaçmağa cəhd edənlərin izdihamlı dəstələri və gəmilərin azlığının yaratdığı dəhşətli qarışıqlıq" şəraitində "özünü birtəhər xilas etmək" üçün erməni qadınların-anaların dənizə atdıqları südəmər körpələr də daxil edilmişdi. (80)

Burada xüsusi olaraq qeyd etmək lazımdır ki, həmin günlər, hələ isti izlərlə Ermənistanın Gürcüstandakı işlər müvəkkilinə göndərilmiş 22 sentyabr 1918-ci il tarixli teleqramda göstərilirdi ki, "Türklər tərəfindən Bakı alınarkən burada 28 tanınmış və 2000 sıravi erməni öldürülmüşdür". (81)

Lakin, artıq bir ay sonra Ermənistanın Tiflisdəki işlər müvəkkili Camalyan tərəfindən Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi Cəfərova göndərilən və Bakının erməni əhalisinə qarşı qətl və azğınlıqlar ittiham edilən etiraz notasında öldürülənlərin sayı 20 min və ya 30 min göstərilirdi! (82) Həmin Camalyan tərəfindən daha sərt məzmunlu belə bir nota general Xəlil Paşanın ünvanına göndərilmişdi və burada qətiyyətli şəkildə iddia edilirdi ki, "talanlar nəticəsində ermənilər arasında qurbanların sayı 30 minə çatır" və guya "öz müdhişliyinə görə Bakı qırğınına bənzər hadisə hətta ermənilərin bədbəxt tarixində də olmamışdır". Eyni zamanda ermənilər ən tələbkar tərzdə Türkiyə və Azərbaycan hökumətləri tərəfindən həbs edilmiş ermənilərin dərhal azad edilməsini, günahkarların bütün sərtliklə cəzalandı-

rılmasını, Bakı ermənilərinin həyat və əmlakına zəmanət verilməsini xahiş edirdilər. (83)

Azərbaycan tərəfi də bu iddialara nota ilə cavab verərək, həmin zorakılıq faktlarının "bu ilin mart ayında baş vermiş hadisələr, bolşeviklər adı altında ermənilər tərəfindən Bakıda və Şamaxıda müsəlman qırğınlarının törədilməsi, rəsmi şəkildə elan edilmiş məlumatlara əsasən qurbanların sayının 10 mini aşması və ya elə bu ilin yazında İrəvan quberniyasının 200-dən çox kəndinin erməni hərbi hissələri tərəfindən təşkil edilmiş talanlar və bu qəbildən digər faktlar səbəbindən" Azərbaycanın müsəlman əhalisi arasında yaranmış həyəcanın nəticəsi olduğunu göstərirdi. Azərbaycan tərəfinin verdiyi notada qeyd olunurdu ki, "iki yüz mindən artıq əhalisi olan şəhəri alarkən, onun müdafiəçilərinin geri çəkildiyi və yeni hakimiyyətin qurulduğu zaman kəsiyində asayiş pozulmaları və qurbanlar olmuşdusa da, bunlar gözlənilən idi. Çünki bu hadisələr mart ayında müsəlmanlara qarşı törədilmiş qırğınların, eləcə də sonrakı aylarda davam edən müsəlman əhalisi üzərində terrorun yaratdığı əhval-ruhiyyənin birbaşa nəticəsi olaraq baş vermişdi. Lakin hər halda sizin öz bəyanatınızda qeyd etdiyinizdən qat-qat kiçik miqyasda olmuşdur". Azərbaycan hökumətinin guya qarətçilərə və soyğunçulara qarşı tədbir görmədiyi barədə erməni hökumətinin bəyanatını da Azərbaycan tərəfi rədd edirdi: "ictimaiyyətin gözü qarşısında millətindən asılı olmayaraq dara çəkilən soyğunçuların sayı yüz nəfərdən artıq idi". (84)

1918-ci ilin oktyabr günlərində erməni və Azərbaycan tərəfləri nota mübadiləsi edərkən, Azərbaycan hökuməti tərəfindən bütün Cənubi Qafqazın sərhədləri daxilində müsəlmanlara və onların əmlakına qarşı törədilmiş zorakılıqların araşdırılması üçün həmin ilin iyulunda yaradılmış Fövqəladə Təhqiqat Komissiyası Bakıda mart hadisələri zamanı və sonrakı aylar ərzində - şəhər azad edilənədək, müxtəlif mürtəce qüvvələrdən – bolşevik, menşevik, eser və əlbəttə ki, erməni daşnaklarından zərər çəkənlərin və şahidlərin dindirilməsinə başlamışdı.

* * *

Mart hadisələrinə siyasi qiymət vermək və onun nəticələrini aradan qaldırılmaq üçün təsirli tədbirlər görmək sahəsində ilk cəhd baş vermiş faciədən dərhal sonra Azərbaycanın milli qüvvələri tərəfindən edilmişdir.

1918-ci ilin aprel ayının 2-də Zaqafqaziya Seyminin Azərbaycan fraksiyası Seymi Bakı hadisələri haqqında məlumatlandıraraq müsəlman əhalisinin müdafiəsi üçün Zaqafqaziya hökumətindən Bakıya qoşun göndərilməsini tələb etdi və əgər Seym qəti tədbirlər görməzsə, Azərbaycan fraksiyasının "Seymdə birgə iş aparmasının qeyri-mümkün olacağı" barədə xəbərdarlığını bildirdi. (85) Ertəsi gün Seymin Bakı hadisələrinə həsr edilmiş iclasında F.X.Xoyski bəyan etdi ki, "əgər müsəlman əhalisinin müdafiəsi üçün tədbir görülməzsə, müsəlman nazirlər hökumətin tərkibindən çıxacaqlar". (86) Seymin 17 aprel 1918-ci il tarixli iclasında etdiyi məruzəsində F.X.Xoyski bir daha mühüm xəbərdaredici bəyanat verdi: "Bakı hadisələri Yelizavetpol quberniyasının hər yerində müzakirə edilir və bütün qətnamələrdə türk qoşunlarının Bakıya buraxılmasını nəzərdə tutan maddələr var və əgər hökumət Bakı problemini ləğv edə bilməsə, onda Yelizavetpol quberniyasının müsəlmanlarının bu tələbini dinləməli olacağıq. Həm də ola bilsin ki, elə bir an gələcəkdir ki, xalq kütləsi özü hərəkət etməyə başlayacaqdır və bu da faciəvi vəziyyət yaradacaqdır, çünki Bakı problemi – Respublikanın ölüm-dirim məsələsidir". (87)

Azərbaycan fraksiyasının çağırışlarına Zaqafqaziya Seyminin qoşunlarından Müsəlman korpusu cavab verdi və 1918-ci ilin aprel ayının əvvəlində knyaz Maqalovun komandanlığı altında sayı 2 min nəfərdən artıq olan dəstələr Bakıya tərəf hərəkət edərək Hacıqabula yetişdilər. Onlarla eyni zamanda Dağıstandan Nəcməddin Qotsinskinin dağlılardan ibarət dəstələri qubalı Əli bəy Zizikskinin döyüşçüləri ilə birlikdə Bakıya yollandılar və şəhərdən 10 kilometr məsafədə yerləşən Xırdalan stansiyasına qədər gəldilər. (88) Lakin, Qızıl Ordu qoşunlarından sayca dəfələrlə az olan Qotsinskinin, Zizikskinin və Maqalovun hərbi hissələri tezliklə geri çəkilməyə məcbur oldular.

1918-ci il aprelin 20-də Zaqafqaziya Seyminin tapşırığına əsasən Seymin sədr müavini S.O.Tiqranyan Seymin üzvü İ.Heydərovla birlikdə Bakı Soveti ilə danışıqlar aparmaq üçün Bakıya yola düşdülər. İ.Heydərov Bakıya çatan kimi bolşeviklər tərəfindən həbs edildi. S.Şaumyanla əlbir olan S.O.Tiqranyan isə Tiflisə qayıdan kimi Bakıya qarşı yönəldilmiş hərbi əməliyyatların dayandırılmasını və baş vermiş hərc-mərcliyin sülh yolu ilə aradan qaldırılması üzrə tədbirlərin görülməsini tələb etdi. (89)

Zaqafqaziya Seyminin rəhbərliyi daxilində Bakı hadisələrinə münasibətin heç də birmənalı olmadığı Seym tərəfindən qərarların qəbul

edilməsinə xüsusi təsiri olan Gürcüstan menşevikləri fraksiyasının üzvlərindən N.Jordaniyanın Bakıda olan Q.Ter-Qazaryan ilə yazışmalarından aydın görünür. Q.Ter-Qazaryanın guya "Tiflisdən hərbi hissələrin və Gəncədən silahlı müsəlmanların Bakı üzərinə hərəkət etməsi haqqında məlumatların əldə edildiyi" barədə təlaş dolu məktubuna, və "sakitliyin hökm sürdüyü, ... və istisnasız olaraq bütün – sosialist, demokratik, inqilabi partiyaların Bakı rayonunun müdafiəsi üçün Bakı Soveti ilə birləşdiyi" haqqında xəbərdarlığına N.Jordaniya tam əminliklə cavab verirdi ki, "nə inqilabi təşkilatlar, nə də hökumət Bakı üzərinə hərəkətdə iştirak etmir... müsəlmanların hərəkəti... kütləvi xarakter daşıyır və onun qarşısını almaq çətindir. Müsəlman korpusu yürüşə mütəşəkkil xarakter vermək istəyir. Münaqişənin sülh yolu ilə həlli üçün bakılılar bütün tədbirləri görməlidirlər. Biz hamımız Türkiyə ilə aparılan müharibə ilə məşğuluq ...". (90)

Hadisələrin sonrakı inkişafı göstərdi ki, bolşevik təcavüzündən daha çox Türkiyə təhlükəsindən narahat olan Seymin gürcü-erməni çoxluğu Bakı Sovetinə qarşı hər hansı güc metodlarından istifadə etməyə ümumiyyətlə hazırlaşmırdı. Beləliklə, Azərbaycan fraksiyasının Bakı hadisələrinə müdaxilə etmək üçün bütün daxili vasitələri tükəndi və türk qoşunlarının çağırılması onun əsas vəzifəsinə çevrildi. (91) Diqqətəlayiqdir ki, həmin günlər Bakı hadisələrinin nəticələrinin müəyyən şərtlər daxilində aradan qaldırılması haqda təklifi Seymdə "Daşnaksütun" partiyası fraksiyasının nümayəndələri irəli sürmüşdü və bu şərtlər Bakıda gələcək hakimiyyətin sırf azərbaycanlı deyil, beynəlmiləl olması və erməni birləşmələrinin şəhərdə qalmasına icazə verilməsindən ibarət idi. Ermənilərin bu təşəbbüsünün heç də həqiqi dinc yaşama arzusu ilə deyil, Türkiyə ordusunun yaxınlaşması ilə izah olunduğunu anlayan və son dərəcə həyasız təklif kimi səciyyələndirən Azərbaycan fraksiyasının cavabı qəti olmuşdu: "Bakıda və Cənub-Şərqi Qafqazda bütün hakimiyyət müsəlmanlara məxsus olmalıdır. Və əgər biz bu hakimiyyəti müvəqqəti olaraq itirmişiksə, bu onu bütövlükdə və birdəfəlik geri qaytarmaq üçün edilmişdir". (92)

26 may 1918-ci il tarixdə Tiflisdə Zaqafqaziya Seyminin son iclası keçirildi və bu iclasda Seym özünün buraxıldığını bildirdi. Həmin gün Gürcüstan öz müstəqilliyini elan etdi (Gürcüstan Demokratik Respublikası). Mayın 27-də artıq keçmiş Seymin azərbaycanlı deputatları fövqəladə iclas çağıraraq yaranmış vəziyyəti müzakirə etdilər və Müvəqqəti

Azərbaycan Milli Şurasının yaradılmasını qərara aldılar. Həmin iclasda iştirak etməyən Məmməd Əmin Rəsulzadə gizli səsvermə yolu ilə Milli Şuranın sədri seçildi. Elə həmin gün Milli Şuranın 9 nəfərdən ibarət icraiyyə orqanı formalaşdırıldı və Fətəli Xan Xoyski yekdilliklə onun sədri seçildi. Milli Şuranın mayın 28-də keçirilən ilk iclasında Azərbaycanın müstəqilliyinin elan edilməsi qərara alındı və elə bu iclasda Azərbaycanın İstiqlal bəyannaməsi - Azərbaycanın müstəqilliyi haqqında akt qəbul edildi. Bu akt azərbaycanlıların yeni milli demokratik dövlətinin – Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı faktını hüquqi cəhətdən təsbit etdi. Həmin iclasda həmçinin ilk Azərbaycan hökuməti – AXC Nazirlər Kabinəsi formalaşdırıldı. Fətəli Xan Xoyski hökumətin başçısı, Məmməd Həsən Hacınski xarici işlər naziri, Xəlil bəy Xasməmmədov ədliyyə naziri və i.a. seçildilər.

Fəaliyyətə başladıqdan və Tiflisdən Gəncəyə köçdükdən ay yarım sonra, 1918-ci ilin iyul ayının ortalarında, AXC Nazirlər Kabinəsi xarici işlər naziri M.H.Hacınskinin məruzəsini dinləyərək respublikada baş vermiş hadisələrə, xüsusilə də dinc azərbaycanlı əhalisinə qarşı törədilən kütləvi zorakılıq hallarına öz mövqeyini bildirməyi vacib hesab etdi. Məruzədə deyilirdi: "Artıq dörd aydır ki, Azərbaycan ərazisinin müxtəlif bölgələri quldur dəstələri tərəfindən dağıdılır, bolşevik adı altında məsuliyyətsiz erməni hərbi hissələri və başqaları mülki müsəlman əhalisinin həyatı və əmlakına qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Eyni zamanda həmin quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən yanlış məlumatlar əsasında Avropa ölkələrində ictimai fikir tamamilə əks istiqamətə yönəldilir". Məruzədə qeyd edilirdi ki, həm ümumdövlət maraqları, həm də əhalinin zərərçəkən qruplarının mənafeyi hökmən, elə bir təşkilatın yaradılması zərurətini irəli sürür ki, "o, aşağıdakılarla məşğul olsun: 1. bütün zorakılıq hadisələrinin dəqiq qeydiyyatının aparılması; 2. həmin zorakılıqların törədildiyi şəraitin müəyyən edilməsi; 3. müqəssirlərin aşkar olunması və onların vurduqları zərərin ümumi miqdarının müəyyənləşdirilməsi". Bu təşkilat Fövqəladə Təhqiqat Komissiyası xarakteri daşımalı, onun işinin nəticələri müxtəlif Avropa və türk dillərində nəşr edilməli və geniş yayılmalı idi. M.H.Hacınski xüsusilə vurğulayırdı ki, Təhqiqat Komissiyasının təşkilinə yubanmadan başlamaq lazımdır, "çünki, bu gün, hadisələrin isti izi ilə asanlıqla müəyyən edilməsi mümkün olan bir çox işləri - şəxslərin dindirilməsi, fotoşəkillərin çəkilməsi və digər əşyayi-də-

lillərin əldə edilməsi – sonradan görmək çətinləşəcəkdir, hətta ola bilsin ki, qətiyyən mümkün olmayacaqdır". (93)

Son dərəcə mürəkkəb və ağır şəraitdə fəaliyyətə başlayan gənc Azərbaycan Respublikasının ilk Hökumətinin böyük uzaqgörənlik və operativlik nümayiş etdirərək həmin hadisələrə ən yüksək və ciddi şəkildə münasibət bildirmək və konkret tədbirlər görmək niyyəti, sözsüz ki, böyük təqdirə layiq idi və zaman özü görülmüş bu işin əsl qiymətini verdi.

AXC hökuməti özünün Gəncədə keçirdiyi 15 iyul 1918-ci il tarixli həmin iclasında bu məsələni geniş və ətraflı müzakirə edərək, "Avropa müharibəsi başlandığı vaxtdan bütün Cənubi Qafqaz hüdudlarında müsəlmanlara və onların əmlakına qarşı törədilmiş zorakılıq hallarının təhqiq olunması üçün Fövqəladə Təhqiqat Komissiyasının" (FTK) yaradılması haqqında qərar qəbul etdi. Həmin il avqust ayının 31-də AXC hökumətinin başçısı, eyni zamanda xarici işlər naziri F.X.Xoyskinin imzaladığı qərara əsasən 7 nəfərdən ibarət Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Tanınmış hüquqşünas, andlı iclasçı Ələkbər bəy Xasməmmədov FTK-nın sədri təyin edildi. Əvvəlcə 7 nəfərdən ibarət tərkibdə müəyyən edilən FTK-nın tərkibinə, sonradan Bakı və Gəncə şəhərlərinin istintaq-prokurorluq və məhkəmə orqanlarının digər əməkdaşları cəlb edildilər. Komissiyanın işində Andrey Fomiç Novatski, Nikolay Mixayloviç Mixaylov, Aleksandr Yevgenyeviç Kluge, Məmməd xan Təkinski, Aley Adamoviç Aleksandroviç (Litovskiy) və digər peşəkar hüquqşünaslar və ictimai-siyasi xadimlər daha fəal iştirak etmişlər.

Xarici İşlər Nazirliyinin yanında təşkil edilən FTK, artıq həmin ilin sentyabr ayından başlayaraq faktiki olaraq Ədliyyə Nazirliyi nəzdində fəaliyyət göstərirdi. Komissiyanın üzvləri qruplara bölünərək, Azərbaycan hökumətinin nəzarətində olan, və ya bolşevik-erməni qoşunlarından xilas edilmiş ərazilərdə – respublikanın müxtəlif qəza və şəhərlərində baş vermiş faciəli hadisələrin araşdırılmasına başladılar. Beləliklə, 1918-ci ilin sentyabr ayının əvvəlindən müstəntiqlər artıq Bakı və Yelizavetpol quberniyalarının müxtəlif qəzalarında fəal şəkildə işləyirdilər. Bakı azad edildikdən və Azərbaycan Hökuməti Gəncədən Bakıya köçdükdən sonra isə Fövqəladə Təhqiqat Komissiyası da öz fəaliyyətini Gəncədən Bakıya keçirdi və dərhal Bakı şəhərində və onun ətraflarında baş vermiş mart hadisələrinin araşdırılmasına başladı.

FTK-nın Bakı qrupuna Bakı dairə prokurorunun müavini A.E.Kluge, andlı iclasçı Məmməd Xan Təkinski, andlı iclasçı A.Aleksandroviç (Litovski),

hüquqşünas A.A.b. Hacı İrzayev, Gəncə Dairə Məhkəməsi prokurorunun müavini Ç.B.Klossovski daxil idi, FTK-nın sədri Ə.b. Xasməmmədov özü tez-tez şahidlərin dindirilməsində iştirak edirdi. Həmçinin, Xarici İşlər Nazirliyi yanında bu hadisələrin əsl səbəbləri, gedişi və xarakteri haqqında dünya ictimaiyyətinin məlumatlandırılması məqsədilə xüsusi struktur yaradılmışdı.

FTK-nın işinin həcminin getdikcə artması, digər tərəfdən ədliyyə sistemində ümumən müstəntiqlərin sayının son dərəcə az olması bir sıra problemlər ortaya çıxarırdı ki, bunun da bir səbəbi FTK-nın səlahiyyətlərinin müəyyən məhdudiyyətləri ilə əlaqədar idi. Yaranmış vəziyyəti aradan qaldırmaq məqsədilə Ədliyyə Nazirliyi 1919-cu ilin əvvəllərində Fövqəladə Təhqiqat Komissiyasının səlahiyyətlərinin artırılması barədə məruzə ilə Hökumətə müraciət etdi. Azərbaycan Hökuməti, komissiyanın gördüyü işlərin mühümlüyünü nəzərə alaraq, 21 mart 1919-cu il tarixli xüsusi qərarı ilə FTK-nı məhkəmə-istintaq hakimiyyətinin cinayət-prosessual məcəlləyə əsasən malik olduğu bütün hüquqlarla təmin etdi. (94)

Əlavə səlahiyyətlərin verilməsi FTK üzvlərinin imkanlarını genişləndirərək cinayətkarların aşkar edilməsi və məsuliyyətə cəlb olunması prosesini sürətləndirdi. Komissiya, şahidlərin və müttəhimlərin axtarışı, dindirilməsi və müvafiq sənədlərin hazırlanması üzrə son dərəcə böyük işlər görərək, 1919-cu ilin may ayının sonunda öz fəaliyyətinin istintaq hissəsini demək olar ki, başa çatdırdı. FTK-nın 1919-cu ilin avqust ayına qədər topladığı materiallar 36 cild və 3500 səhifə təşkil edirdi ki, bunların 6 cildi (740 səhifə) Bakı şəhəri və onun ətraf kəndlərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıq aktlarını əhatə edirdi. İstintaq materialının digər cildləri ermənilər tərəfindən Bakı quberniyasının Şamaxı, Quba, Göyçay, Cavad qəzalarında, Gəncədə, Nuxada, Qarabağda, Zəngəzurda və Azərbaycanın digər rayonlarında törədilmiş dəhşətli cinayətləri əks etdirirdi. (95)

1919-cu ilin iyunundan etibarən istintaq işləri başa çatdıqca, FTK üzvləri Bakı və Şamaxıda işləyən iki qrupa bölündülər və bu şəhərlərin, eləcə də eyni adlı qəzaların dinc əhalisinə qarşı törətdikləri cinayət əməlləri təkzibedilməz faktlarla sübut olunan şəxslərə qarşı ittihamlar irəli sürməyə başladılar. Bakı qrupunun vəzifəsinə həmçinin, FTK tərəfindən Azərbaycanın digər bölgələrində apardığı təhqiqat işləri üzrə müttəhimlərin istintaqa cəlb olunması, qətnamələrin tərtib edilməsi və işlərin

Məhkəmə Palatası prokuroruna verilməsi daxil idi. Aparılan təhqiqatların nəticəsi olaraq dinc sakinlərə qarşı müxtəlif cinayətlərdə ittiham olunan 194 şəxsə qarşı cinayət işinin açılması haqqında FTK 128 məruzə və qərar layihələri hazırlamışdı. Ayrı-ayrı cinayət işləri üzrə istintaq başa çatdıqca ittiham olunan şəxslər məsuliyyətə cəlb edilirdilər. Məsələn, 1919-cu ilin avqustunun ortalarınadək Bakıda 24, Şamaxıda isə 100 nəfərə qədər şəxs - əsasən erməni, qismən də rus (molokan) müttəhim qismində FKT tərəfindən həbs edilmişdi. (96)

Gözlənildiyi kimi, erməni əhalisi arasında aparılan həbslər, xüsusilə bəzi erməni ziyalılarının azərbaycanlılara qarşı zorakılıqlarda ittiham edilərək məsuliyyətə cəlb olunması şəhərin erməni ictimaiyyəti və mətbuatı tərəfindən böyük narazılığa və hay-küyə səbəbə oldu. 1919-cu ilin avqustunda Azərbaycan Parlamentində "Daşnaksütun" partiyasının fraksiyası Fövqəladə Təhqiqat Komissiyasının fəaliyyətini kəskin tənqid edərək Komissiyanı və Ədliyyə Nazirliyini qeyri-qanuni əməllərdə günahlandırdı. Erməni deputatlar Komissiyanın işini eyni zamanda, guya mənəvi nöqteyi-nəzərdən qiymətləndirməyə çalışaraq özlərinə xas olan həyasızlıqla bu məzmunda bəyanat verdilər: "Keçmişdə baş vermiş, mart və sentyabr aylarında kütləvi qurbanların qanlı mübadiləsi ilə nəticələnmiş hər şeyə nə vaxtsa son qoyulmalı deyilmi? Keçmişlə vidalaşmaq və onun qanlı səhifələrini unutmaq istəyinin olmaması onun göstəricisidir ki, hakimiyyət dairələri və onların təmsil etdiyi ictimai cərəyanlar hər gün keçmişdən yeni-yeni kabuslar çağırmaqla və hər iki tərəfdə qisas və düşmənçilik hisslərini oyatmaqla, əsl qayda-qanunun bərqərar olması və normal həyatın yaradılması yolu ilə getmək istəmirlər ...". (97)

İlk baxışda bu çağırış həqiqətən məntiqli görünə bilərdi, əgər həmin bu zaman ermənilərin özlərinin bütün dünyada, o cümlədən Cənubi Qafqazda, 1918-ci il Bakıda sentyabr hadisələri ilə bağlı başladıqları irimiqyaslı təbliğat kampaniyası nəzərə alınmasaydı!

Burada, keçmiş Şamaxı Erməni yeparxiyasının, sonradan Bakı Erməni yeparxiyasının başçısı, AXC dövründə erməni yeparxial rəisi adlanan yepiskop Baqrat Vardazaryantsın Bakıdakı geniş fəaliyyəti üzərində dayanmaq zəruridir.

1918-ci ilin oktyabr-dekabr ayları ərzində Baqrat Bakıda hakimiyyəti təmsil edən müxtəlif instansiyalara və yüksək vəzifəli şəxslərə dəfələrlə yazılı surətdə müraciətlər göndərirdi. Azərbaycan Respublikası Nazirlər Şu-

rasının sədrinə, Qafqaz İslam Ordusunun Komandanı Türk Ordusunun generalı Nuru Paşaya, Azərbaycan Hökumətinin Daxili İşlər nazirinə ünvanlanmış müraciətlərində yepiskop Baqrat onların diqqətini erməni əhalisi arasında aparılan və özünün qeyri-qanuni hesab etdiyi həbslərə, erməni əhalisinin hüquqlarının pozulmasına dair ayrı-ayrı faktlara və hallara, əsir alınmış erməni əsgərlərinin ağır vəziyyətinə və s. cəlb etməyə çalışırdı. (98)

Lakin, xarici missiyaların başçılarına etdiyi müraciətlərində Baqrat özünü yalnız öz kilsəsinə mənsub həmdindarlarının vəziyyətindən narahat olan yüksək dini şəxs kimi təqdim etmirdi. Məsələn, Bakıda və Bakı rayonunda Müttəfiq Qoşunların Komandanı general-mayor Tomsona yazdığı məktubda yepiskop Baqrat artıq Bakı Erməni Milli Şurasının Fəxri sədri kimi Bakıda 1918-ci il sentyabr hadisələrinin "müdhiş təfərrüatlarının" mümkün müqayisə və vasitələrdən istifadə etməklə sadəcə təsviri ilə kifayətlənməyərək, bu "şeytan uzaqgörənliyi ilə əvvəlcədən düşünülmüş və insana xas olmayan soyuqqanlıqla icra edilmiş" "qanlı qırğının və amansız divanın" səbəblərinə dair öz izahını verməyə çalışırdı. (99)

Əslində əgər Baqratın təsvir etdiyi epizodlarda "erməni" sözü "müsəlman" sözü ilə əvəz edilərdisə, "qanlı qırğının və amansız divanın bütün bu dəhşətli təfsilatlarını" dəqiqliklə Bakıda 1918-ci il mart hadisələrinə aid etmək olardı. Bu isə onu deməyə əsas verir ki, Baqratın əsassız ittihamları bir çox hallarda 1918-ci ilin mart ayında ermənilərin özlərinin Bakıda törətdikləri kütləvi cinayətləri sadalamaqdan başqa bir şey deyildi. Burada keçmiş Şamaxı erməni arxiyepiskopunun ən azı bilavasitə şahidi, (bəlkə də təşkilatçılardan biri) olduğu Şamaxı hadisələrini ümumiyyətlə xatırlamaması xüsusi qeyd olunmalıdır. Lakin, Baqratın iddialarına görə, "bolşevik hakimiyyəti ilə Müsəlman Milli Şurası arasında baş vermiş qanlı mart toqquşmasının", "sentyabr dəhşətləri" ilə heç bir əlaqəsi yox idi: "Martda şəhərin özündə hakimiyyət uğrunda silahlı toqquşma baş vermişdi və bu toqquşma soyğunçuluğun eybəcər formasına çevrilmişdi. Bu mübarizədə sayı 2000-dən çox olmayan müsəlman və min iki yüzə yaxın rus və erməni öldürülmüşdü". (100)

Daha sonra Baqrat "Müsavat" partiyasına, Azərbaycan Hökumətinə və ümumiyyətlə azərbaycanlılara qarşı bütöv bir silsilə böhtan və yalan dolu ittihamlar irəli sürərək, guya evlərinə qayıdan "ermənilərin bütün yollarını kəsən" müsavatçıların "ucbatından" bolşeviklərə qoşulmuş erməni əsgərləri istisna olmaqla, erməni əhalisinin bu hadisələrdə iştirakını tamamilə inkar edirdi.

Burada qeyd etmək lazımdır ki, Bakı Erməni Milli Şurasının və "Daşnaksütun" partiyasının Bakıda mart faciələrinin təşkilində rolu, erməni ziyalı və kübar təbəqələri nümayəndələrinin əlisilahlı azərbaycanlı qırğınlarında iştirakı, o cümlədən erməni elitasının özünün "erməni qara camaatı" adlandırdığı sadə erməni əhalisinin bu hadisələrdə kütləvi çıxışı təkzibedilməz faktlar və sübutlarla təsdiq edilirdi. Məhz elə bu sübutların əsasında Azərbaycanın məhkəmə-istintaq orqanları Bakının erməni əhalisi arasında həbslər aparırdı ki, bu da ermənilərin, o cümlədən yepiskop Baqratın hədsiz hiddətinə səbəb olmuşdu. FTK-nın sənədlərində öz təsdiqini tapmış bu mövzu üzərində dayanmadan istər həmin dövr Baqratın və digər erməni xadimlərinin, istərsə də bizim günlərdə erməni müəlliflərinin 1918-ci ilin mart hadisələrində Bakı ermənilərinin iştirakına dair məsələlərdə istifadə etdikləri iki arqumentə diqqət yetirək.

Yuxarıda qeyd edildiyi kimi, Bakıda üç gün ərzində 12 000 dinc azərbaycanlı əhalinin, o cümlədən qoca, qadın və uşaqların qətlə yetirildiyi 1918-ci il mart hadisələrində erməni əhalisinin iştirakını kökündən inkar edən bir çox erməni xadimləri, Baqrat da daxil olmaqla, guya bu məsələdə "azərbaycanlıların nankorluğundan" sarsıldıqlarını bəyan edirdilər, çünki, sən demə həmin günlərdə ermənilər nəinki heç kimi öldürməmiş və ya qarət etməmişdilər, əksinə, hətta 20.000 müsəlmanı xilas etmişdilər!? (101)

Azərbaycan kübar cəmiyyətinin nümayəndələrinin mart hadisələri zamanı həqiqətən öz erməni dostlarının evlərində və mənzillərində sığınacaq tapdığına dair ayrı-ayrı hallar, eləcə də erməni aristokratiyasının 1918-ci ilin sentyabrında azərbaycanlı dost və tanışlarının bağ evlərində və imarətlərində gizlənməsi kimi faktlar çoxlarına məlum idi və bunu tərəflərdən heç biri inkar etmirdi. Eyni zamanda sadə erməni, daha sonra azərbaycanlı əhalinin də mart və sentyabr hadisələri zamanı öz qonşu və dostlarını xəbərdar və xilas etmələrinə dair də bir çox nümunələr var idi. Bu zaman digər millətlərin nümayəndələri olan Bakı sakinlərinin hər iki tərəfə - martda azərbaycanlılara, sentyabrda ermənilərə yardım etməsi də məlum idi. Lakin, 1918-ci ilin sentyabrında Bakıda guya 20 000 (sonradan 30 000 və 35 000) erməninin öldürülməsi qarşısında mart hadisələrində qətlə yetirilmiş müsəlmanların sayını cəmi 2000 nəfər göstərməsi hətta Baqratın vicdanına buraxılarsa belə, ermənilərin "xilas etdiyi" 20 000 (bəzi sənədlərdə 14 000) müsəlman rəqəminin haradan alındığı böyük sual doğurur.

Erməni sənədlərini diqqətlə tədqiq etdikdə aydın olur ki, 14 000 və ya 20 000 “xilas edilmiş” müsəlman dedikdə Bakıda mart qırğınları zamanı zorla evlərindən çıxarılmış və şəhərin böyük sahələri olan müxtəlif binalarına gətirilərək burada yerləşdirilmiş dinc azərbaycanlı sakinlər nəzərdə tutulur. Bakıdakı teatrlar, kinoteatrlar, məktəblər, polis məntəqələri, Şəhər Duması, vağzal, sirk və s. ictimai binalar, ayrı-ayrı zəngin ermənilərin malikanələri və hətta hamamlar evləri dağıdılmış, qarət edilmiş, yaxınları vəhşicəsinə qətlə yetirilmiş minlərlə azərbaycanlıların, xüsusilə qadın, uşaq və qocaların gova-gova gətirildiyi və yığıldığı yerlərə çevrilmişdi. Bu binalarda çox vaxt ac-susuz, bağlı qapılar arxasında, erməni əsgərlərindən ibarət gözətçilərin nəzarəti altında saxlanılan bu adamlar həmin günlərdə əsir hesab edilir və belə də adlandırılırdı. Yalnız sonradan, müsəlmanların kütləvi surətdə əsir alınmasında iştirak edən erməni xadimləri bu əməllərin arxasında duran əsl mənanın fərqinə vardıqda, onları guya ki, dinc müsəlman vətəndaşların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan tədbirlər kimi izah etməyə çalışacaqlar və elə buradan da “xilas edilmiş 14 000 və ya 20 000 müsəlman haqqında” əfsanə yaranacaqdır.

Lakin, “xilas olunanların” özlərinin çoxsaylı ifadələri müsəlman əhalisinin silahlı erməni quldur dəstələri tərəfindən məcburi şəkildə məhz əsir götürüldüklərini və bu işin istehza və təhqirlərlə, təhdidlərlə, bir çox hallarda isə qətllər törədilməklə müşayiət olunduğunu sübut edir. Belə ifadələrin çoxunda göstərilirdi ki, ermənilər zorakılıqla müsəlman qadınların çadralarını başlarından qapıb cırır, onları hörükləri ilə bir-birinə bağlayır və başıaçıq, ayaqyalın şəhərin küçələrində gəzdirərək əsir aparır, yol boyu geri qalanları, ayaqlaşa bilməyənləri tüfənglərinin qundaqları ilə döyür, yıxılanları güllələyirdilər. Gözləri qarşısında ata və qardaşları, ər və oğulları qətlə yetirilmiş qadınlar əsirlikdə ürək partlamasından ölür, dəli olurdular, gənc qadınların qucaqlarındakı azyaşlı körpələr və uşaqlar acından, susuzluqdan və qorxudan keçinirdi, bu zaman isə erməni ziyalıları öz arvadlarını azərbaycanlıların “rüsvayçılığına” tamaşa etməyə gətirirdilər. (102)

Bakının müsəlman əhalisinə qarşı əvvəlcədən planlaşdırılmış zorakılıq aktının bir hissəsi olan və yaxşı təşkil edilən bu əməllərin arxasında ermənilərin o qədər də gizlətmədikləri məqsədləri açıq-aşkar görünürdü və bu məqsəd “haqq işi uğrunda” vuruşan erməni mübarizlərinin iç üzünü aydın göstərirdi. Boşaldılmış yiyəsiz evlər və bütöv məhəllələr er-

məni quldur dəstələrinə soyğunçuluq, qarət və müsəlmanların əmlakını mənimsənək üçün, həmçinin üç-dörd gün ərzində saysız avtomobillərdə, fayton və arabalarda aparılması mümkün olmayan qalan şeylərin darmadağın və məhv edilməsi üçün geniş imkanlar açırdı.

Lakin, guya "insanpərvərlik niyyəti ilə" "müsəlmanların xilas edilməsi" haqqında əfsanə ermənilər tərəfindən ən müxtəlif variantlarda səsləndirilməkdə və yayılmaqda davam edirdi. Erməni terrorizminin ideoloqlarından biri, Şaqan Natali ləqəbi ilə məşhur olan Akop Ter-Akopyan o zaman bütün Bakı türklərinin "başını kəsmədiklərinə" görə öz təəssüfünü heç gizlətmirdi: "Biz bildiririk və əminik ki, bunu bacardıq və öz gücümüzlə bacardıq. Çünki bilirik: bunu sahibi olduğumuz Bakıda, on minlərlə türkü kazarmalarda topladığımız yerdə edə bildik və - ah! cinayətkarcasına alicənablıq! - onları ədalətli erməni qisasından qorumaq üçün qapılarda gözətçilər qoyduq. Türkləri qoruduq, həyatlarını mühafizə etdik, onlar isə minnətdarlıq əlaməti olaraq Bakının küçələrini 25 000 erməninin qanına boyadılar". (103)

Qatı daşnak, görkəmli türk və azərbaycanlı xadimlərinin məhv edilməsi üzrə "Nemezis" əməliyyatının rəhbəri və təşkilatçısı, minlərlə müsəlmanın, o cümlədən Azərbaycan dövlət xadimləri Fətəli Xan Xoyskinin, Həsən bəy Ağayevin, Behbud bəy Cavanşirin və digərlərinin qətllərinin səbəbkarı Akop Ter-Akopyan yalnız bir məsələdə haqlı idi: həmin günlərdə Bakının "sahibi" həqiqətən məhz ermənilər idi, amma türklərə qarşı "alicənablıq" məsələsi şübhəsiz ki, ermənisayağı "gözdən pərdə asmaqdan" başqa bir şey deyildi. Əgər azərbaycanlı əsirlərin sağ qaldıqlarına görə, minnətdar olmalı bir qüvvə var idisə, o da birmənalı şəkildə, ermənilər deyil, rus əsgər və matrosları idi. Məhz Bakıda olan rus qoşunları mart qırğınlarının ikinci gününün axşamı aldadıldıqlarını və S.Şaumyan başda olmaqla erməni-bolşeviklər tərəfindən böyük oyuna cəlb olunduqlarını başa düşərək əllərində silah müsəlman əhalisinin müdafiəsinə qalxdılar. Və azərbaycanlıların qırğınları da yalnız 4 gündən sonra Bakı Sovetinin özü tərəfindən deyil, iki Türküstan alayının qəti tələbi və artıq vəziyyəti başa düşmüş Xəzər donanmasının rus dənizçilərinin hədə-qorxusu nəticəsində dayandırılmışdı. "Bu hədələr kifayət qədər ciddi idi, çünki bu iki döyüşkən alayda 8000-dən artıq döyüşçü cəm edilmişdi". "Ərdahan" və "Krasnovodsk" hərbi gəmiləri şəhərin şərqində yerləşən limanlara yaxınlaşdılar, "dənizçilər təhdid edirdilər ki, əgər ermənilər müsəlman

qırğınına son qoymazlarsa, onlar şəhərin erməni hissəsinə toplardan atəş açacaqlar." (104)

Bu mövzunu davam etdirməyə yəqin ki, daha ehtiyac yoxdur.

Bakıda mart hadisələrində erməni amilini inkar edən erməni xadimlərin və müəlliflərin ikinci arqumenti, tanınmış azərbaycanlı milyonçu, neft sənayeçisi, ictimai xadim və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən guya mart qırğınlarından bir həftə sonra Tiflisə, Zaqafqaziya Seyminin adına göndərdiyi və mənşəyi məlum olmayan aşağıdakı məzmunlu teleqramdır: "Bakıda sakitlik yaranmışdır. Vilayətin xoş güzəranı naminə, mən şəxsən ümumxalq qarşısında bəyan etməyi özümə borc bilirəm ki, Bakı hadisələri erməni-tatar (azərbaycanlı - müəl.) toqquşması xarakteri daşımamışdır. Bütün döyüşlər zamanı tatarlar tatar məhəllələrində yaşayan ermənilərə toxunmamışlar. Erməni hissələri isə 14 000-dən çox müsəlmanı xilas edərək onlara sığınacaq vermişdir və onlar İran konsulunun vasitəçiliyi ilə qaytarılmışlar. Mən öz səsimi hər yerdə və hər cür qisasçılıq və düşmənçilik əməllərinə dərhal son qoyulması yolunda qaldırıram. Bunun ümumi maraqlara uyğun olduğunu düşünərək, sizdən əhali arasında sülh və əmin-amanlığın bərqərar olması üçün hər cür köməklik göstərməyinizi xahiş edirəm. Qoy hər kəs öz dinc həyatına qayıtsın". (105)

Bu teleqramın həqiqətən H.Z.Tağıyevə aidiyyəti bir sıra səbəblərdən şübhə doğurur. Əvvəla, 1918-ci il mart faciələri günlərində Tağıyevin bütün ailəsi böyük matəm və son dərəcə dərin sarsıntı içində idi. Həmin ərəfədə onun oğlu, müsəlman diviziyasının zabiti Məhəmməd Tağıyev silahla ehtiyatsız davranması səbəbindən faciəli şəkildə həlak olmuşdu. Məhz onun silahdaşlarının, M.Tağıyevin cənazəsini müşayiət edərək Lənkərandan Bakıya dəfnə gəlmiş müsəlman diviziyasının 48 zabit və əsgərinin tərksilah edilməsi mart hadisələrinin başlanmasına səbəb olmuşdu. Həmçinin qeyd edilməlidir ki, bu dəstənin başçısı Hacının kürəkəni, onun qızı Leyla xanımın əri, digər Bakı milyonçusu Şəmsi Əsədullayevin oğlu Əli Əsədullayev idi və bu Azərbaycan zabiti mart hadisələri başlanan andan demək olar ki, bir sutkaya yaxın öz döyüşçüləri ilə birgə bolşevik-erməni qüvvələrinə silahlı müqavimət göstərmişdi. H.Z.Tağıyevin özü bu günlərdə evindən bayıra çıxmamış və tanınmış neft sənayeçisi Ambarsum Melikovun onun ardınca göndərdiyi oğlanları – Georqiy və Sergeyin öz atalarının adından təhlükəsizlik naminə onların evinə getmək təklifini qəbul etməmişdi.

Yeri gəlmişkən qeyd edilməlidir ki, həmin günlərdə Erməni Milli Şurasının və "Daşnaksütun"un Bakı Komitəsinin rəhbərlərindən biri olan Ambarsum Melikovun evində "Daşnaksütun"un qərargahı yerləşirdi və bir çox tanınmış azərbaycanlı əsirləri məhz buraya gətirirdilər. Bu sonuncular arasında rus ordusunun zabiti, şahzadə Mansur Qacar da olmuşdur ki, sonralar o, yalnız yəhudi dostları sayəsində erməni əsgərləri tərəfindən qaçılmaz ölümdən qurtulması və əsir qismində Melikovun evində saxlanma şəraiti haqqında ətraflı ifadə vermişdi. Sonralar həmçinin Melikovlar ailəsinin özünün – ata və iki oğulun – mart günlərində müsəlmanların qətlə yetirilməsində şəxsən iştirakı təkzibedilməz sübutlarla təsdiq edilmişdi. Melikov-ata Bakını vaxtında tərk edə bilmişdi, oğulları isə Azərbaycanın İstintaq orqanları tərəfindən həbs edilmişdilər.

Bu zaman 80 (başqa mənbələrə görə - 95) yaşı olan qoca Tağıyev, şübhəsiz ki, Melikovlar haqqında bütün bu təfərrüatları bilmirdi. Amma istənilən halda o, öz evini tərk etməmişdi və həmin günlər artıq bir çox kübar və zəngin azərbaycanlıların evlərini talan etmiş ermənilər Hacının zəngin ev-sarayına hücum etməyə cəsarət etməmişdilər. Tağıyev həddən artıq böyük və tanınmış şəxsiyyət idi. Lakin bu, heç də tədbirli və uzaqgörən ermənilərə bu böyük azərbaycanlının adını öz məqsədlərinə uyğun şəkildə istifadə etməyə mane olmamışdı.

Burada qeyd edilməlidir ki, geniş dünyagörüşünə malik və maarifpərvər bir insan olan Tağıyevin əslində savadı yox idi və adı çəkilən teleqramın Hacının özü tərəfindən göndərilməsi bu baxımdan da inanılmaz görünür. Bundan əlavə həmin teleqramın göndərilməsi heç bir sübut-dəlil, yaxud hər hansı başqa bir mənbə tərəfindən təsdiq olunmurdu. Eləcə də, mart hadisələrindən dərhal sonra şəhərdə bolşevik Bakı Sovetinin tək hakimiyyətliliyi bərqərar edilmişdisə və bu hakimiyyət Zaqafqaziya Seymini tanımırdısa Bakı əhalisi arasında sülhün yaradılması haqqında xahişdən ibarət olan teleqramın ümumiyyətlə Tiflisə, Zaqafqaziya Seyminə göndərilməsinin nə mənası var idi?

Əgər Tağıyevin yeni hakimiyyət haqqında hələ "heç nə bilmədiyi" fərz edilərsə, o zaman Hacı şəhərdə nə baş verdiyi, və xüsusilə də "ermənilərin xilas etdiyi 14 000 müsəlmanlar" haqqında məlumatı haradan və kimdən öyrənə bilərdi? Həmin günlər demək olar ki, Bakının bütün azərbaycanlı əhalisi, o cümlədən Tağıyevin özünün yaxın ətrafı, əsasən ermənilərdən

ibarət olan yeni hakimiyyətdən xilas olmaq məqsədilə kütləvi surətdə və təşviş içində tələsik şəhəri tərk etdiyi halda, qırğınların 9-cu günü guya Bakıda hökm sürən hansı "sakitlikdən" söhbət gedə bilərdi? 27 martda (köhnə tarixlə) Bakıdan Zaqafqaziya Seyminə göndərilmiş teleqram hansı yolla eserlərin Tiflisdəki "Знамя труда" ("Əmək bayrağı") qəzetinin redaksiyasına düşmüşdü və artıq martın 29-da dərc edilmişdi? Ermənilər guya azad etdikləri 14 000 müsəlmanı "İran konsulunun vasitəçiliyi ilə" kimə və necə geri qaytarmışdılar (!)?

Yuxarıda qeyd edildiyi kimi, bu dövr İranın Bakıdakı konsulu əslən azərbaycanlı olan Məhəmməd Said-əl Vəzarə Marağayi idi və o, əksəriyyəti etnik azərbaycanlı olan minlərlə İran vətəndaşlarının da qətlə yetirildiyi mart günlərində qan tökülməsinin qarşısının alınmasında ən fəal surətdə iştirak etmişdi. 1940-cı illərdə iki dəfə İranın baş naziri olmuş bu tanınmış siyasi və dövlət xadimi sonralar, Tehranda nəşr etdirdiyi özünün "Siyasi xatirələr"ində 1918-ci ilin Bakıdakı mart hadisələrinə də xüsusi diqqət yetirmişdi. Bu xatirələrdən məlum olur ki, qırğınlar dayandırıldıqdan sonra konsul tərəfindən xüsusi komissiya yaradılmış və bu komissiya "Bakının küçə və həyətlərindən 5000-dən artıq müsəlmanın - iranlı və qeyri-iranlı - meyitini toplamış və müsəlman adəti üzrə dəfn etmişdir". (106) Konsulun özünün mart hadisələri qurbanlarının meyitləri yanında çəkdirdiyi fotoşəkillər sonradan poçt-kartlar şəklində nəşr edilmiş və tarixi sənədə çevrilərək, bütün dünyanı dolaşmışdır. Lakin keçmiş İran konsulunun xatirələrində mart hadisələri kifayət qədər ətraflı təsvir edildiyi halda baş verdiyi təqdirdə son dərəcə mühüm sayılacaq hadisə – guya ermənilər tərəfindən "sığınacaq" tapmış 14 000 müsəlmanın "geri qaytarılmasında" konsulun vasitəçilik missiyası haqqında bir kəlmə də olsa deyilmir.

Ən nəhayət, "Hacı Zeynalabdin Tağıyev" birmənalı şəkildə "Bakı hadisələrinin" "erməni-tatar toqquşması xarakteri daşımadığı" iddiası ilə "Bakı hadisələrinin" xarakterini müəyyən etməkdə çox "tələsməmişdimi"? Axı 27 mart (9 aprel) – bədnam teleqramın göndərildiyi gün – Bakı şəhəri artıq minlərlə Şamaxı qaçqınları ilə dolu idi. Bu qədim Azərbaycan şəhəri erməni-molokan birləşmələri tərəfindən yandırılmış və tamamilə məhv edilmişdi, onun müsəlman əhalisi isə bakılılar kimi mart günlərinin dəhşətlərini yaşamışdılar. Məlumdur ki, millət atası hesab edilən hörmətli Hacı Zeynalabdin öz xalqının düçar olduğu müsibətlər və faciələr qarşısında on

minlərlə həmvətənlərinin acınacaqlı vəziyyətindən sarsılaraq, Bakı və Şamaxının zərər çəkmiş müsəlman əhalisini həmin günlərdə gəmilərlə İrandan gətizdirdiyi ərzaq məhsulları və zəruri mallarla təmin etməyə çalışır və onlara hər vasitə ilə yardım göstərirdi. Böyük həyat təcrübəsinə malik olan müdrik Hacı Zeynalabdin Tağıyev bütün bu gördüklərindən və eşitdiklərindən sonra bəyan edə bilərdimi ki, "Bakı hadisələri" və ya "Şamaxı hadisələri" "erməni-tatar toqquşması xarakteri daşımamışdır"?

Bütün deyilənlər bunu deməyə əsas verir ki, "Tağıyevin teleqramı" adlı teleqram, ən əvvəl özlərini əvvəlcədən "güclü arqumentlə" sığortalamış ermənilərin özlərindən başqa heç kimə gərək deyildi. Digər tərəfdən, məhz ermənilər və onların şəxsində həmin Bakı Soveti, Zaqafqaziya Seyminin azərbaycanlı üzvlərinin şəhərin bolşevik-daşnak qüvvələrindən azad edilməsi üçün Bakıya qoşun göndərilməsinə nail olmaq cəhdlərindən xəbərdar olaraq, "hər yerdə və hər cür qisasçılıq və düşmənçilik əməllərinə dərhal son qoyulması" və Seym tərəfindən "əhali arasında sülh və əmin-amanlığın bərqərar olmasına" dəstək verilməsində maraqlı idilər.

«Daşnaksütun» partiyasının Bakı Komitəsinin, Bakı şəhəri və onun rayonlarının İnqilabi Müdafiə Komitəsinin həmin günlərdə Tiflisə, Zaqafqaziya Seyminin sədrinə və «Daşnaksütun» partiyasının Tiflis bürosuna Bakı istiqamətində Bakı hərbi hissələrinin təcili geri çağırılmasına dair göndərdikləri teleqramlar və Bakıdakı erməni-bolşevik qüvvələrinin bu sahədə digər addımları deyilənlərə aydın sübut idi. (107)

Mart hadisələrinin xarakterinə gəldikdə isə, bu hadisələrin mahiyyətinə dair həm bolşevik, həm də erməni izahını kökündən inkar edən təkzibedilməz arqument kimi Şamaxı, Quba hadisələrini və bolşevik-erməni birləşmələrinin 1918-ci ildə Azərbaycanın digər qəzalarında həyata keçirdiyi qırğınları göstərmək olar. Şamaxıda və Qubada istər qırğınlar ərəfəsində, istərsə də talanlar zamanı hər hansı siyasi hərəkatın və ya mübarizənin baş vermədiyi nəzərə alınmaqla, yalnız Bakıda deyil, Azərbaycanın digər şəhər və qəzalarında dinc müsəlman əhalisinin kütləvi şəkildə qırılması və məhv edilməsi bolşeviklərin "vətəndaş müharibəsi" kimi səciyyələndirilən bütün iddialarını boşa çıxarırdı. Elə bu səbəblərdən də erməni xadimlərinin həmin hadisələri "bolşeviklərlə müsavatçılar arasında hakimiyyət uğrunda mübarizə" kimi qələmə verərək guya "ermənilərin tam neytrallıq nümayiş etdirməsi" iddiaları boşboğazlıqdan başqa bir şey kimi qiymətləndirilə bilməz.

Buradan aydındır ki, nə üçün Şamaxı və Bakı Erməni yeparxiyasının keçmiş arxiyepiskopu Baqrat Bakı erməni yeparxiya rəisi olduqdan sonra, müxtəlif instansiyalara çoxsaylı müraciətlərində Şamaxıda baş vermiş hadisələrdən tam sükutla yan keçir, nadir hallarda Şamaxı qəzasından olan erməni qaçqınlarının hüquqlarından danışarkən belə onların nə zaman, hansı şəraitdə və hansı səbəbdən qaçqın düşməkləri məsələsinə yenə də toxunmurdu.

Lakin, kifayət qədər ağıllı, və xüsusilə hiyləgər adam olan Baqrat, digər erməni xadimlərindən fərqli olaraq bilirdi ki, Qafqazda baş verən hadisələrdə erməni amilini tamamilə inkar etmək mümkün deyildir. Odur ki, Bakıdakı xarici ölkə missiyalarının rəhbərlərinə müraciətlərində o, 1918-ci il mart hadisələrini ermənilər üçün sərfəli kontekstdə izah edərək, bu məsələyə artıq beynəlxalq siyasət mövqeyindən qiymət verməyə çalışırdı. Belə ki, Bakı və Bakı rayonunda Müttəfiq qoşunlarının Komandanı general Tomsona 23 noyabr 1918-ci il tarixli təbrik müraciətində Baqrat Bakıda mart hadisələrinin mahiyyətini təhrif edərək, yazırdı: "Hələ mart hadisələrinədək, kiçik bir qrup istisna olmaqla, yerli müsəlmanların türk xəfiyyələri tərəfindən rəhbərlik edilən böyük və şüurlu hissəsi hər yerdə və fəal şəkildə Türkiyənin Qafqazın və Şərqin digər müsəlman məmləkətlərini ələ keçirməyə yönəlmiş siyasi maraqlarına xidmət edirdi. Əks mövqeyə malik olan və öz zəif gücü ilə Müttəfiq dövlətlərinin tərəfində mübarizə aparan ermənilər, təbii ki, həm Türkiyədə, həm də Qafqazda özlərinə qarşı müsəlmanların vəhşi qəzəbini oyatmış, onların çox güclü qisasının və barbar fanatizminin qurbanı olmuşlar. Mart hadisələri və sonrakı hadisələr yalnız həqiqətin gizlədilməsi və erməni-türk düşmənçiliyinin və davasının əsas səbəbindən göz yayındırılması üçün əlverişli bəhanədir". (108)

Belə çıxırdı ki, azərbaycanlılar türklərin tərəfdarı olduğu üçün yalnız Antanta ölkələri ilə deyil, həm də böyük dövlətlərin "müttəfiqi" olan ermənilər ilə də düşməndirlər. Beləliklə, ermənilər "cinayətkar türk-müsavat hökuməti" tərəfindən bütün zərbələri "öz üzərlərinə" götürməklə, "böyük siyasətin qurbanına" çevrilmiş olurdular. Bu bəyanatların arxasınca isə artıq Azərbaycan hökumətinin həbs etdiyi ermənilərin hamısının azad olunması, Bakını tərk etmiş bütün erməni əhalisinin geri qayıtması üçün şərait yaradılması, onlara dəymiş zərərlərin ödənilməsi və s. bu kimi tələblərin uzun siyahısı gəlirdi.

Qeyd edilməlidir ki, Bakıda yaranmış siyasi vəziyyətdən tezliklə baş açan ingilis generalı Tomson, Azərbaycan hökumətinə respublikada yeganə qanuni hakimiyyət kimi tam etimad bildirdi ki, bu da ermənilər arasında ciddi narazılıq yaratdı. Bununla yanaşı yepiskop Baqratın müraciətlərində irəli sürülən tələblərin böyük hissəsinin təmin edilməsi üçün də konkret addımlar atılmağa başlandı.

Lakin İngiltərə Komandanlığının Azərbaycan Hökuməti ilə birgə işləməsindən, ölkənin məhkəmə-istintaq orqanlarının işinə qarışmadığından, hətta sentyabr hadisələri nəticəsində çəkdikləri zərərə görə yüzlərlə erməni ilə yanaşı 10-15 nəfər azərbaycanlının da təzminat almasından son dərəcə narazı olan yepiskop Baqrat Bakıda yerləşən digər xarici missiyalara müraciət edərək 1918-ci il hadisələrinin erməni versiyasını irəli sürməkdə davam edirdi.

Məsələn, 9 dekabr 1918-ci il tarixində Bakı Erməni Milli Şurası adından Amerikanın Bakıdakı Missiyasına göndərdiyi Memorandumu, özünü Şuranın fəxri sədri kimi təqdim edən yepiskop Baqrat, yalnız 1918-ci ilin mart hadisələrinə həsr etmişdi. Bu Memorandumun ilk cümlələrindən aydın olur ki, Bakı erməni yeparxiyasının rəisi "mart hadisələrindən bəhs edən türk xadimlərinin əksəriyyətinin var gücü ilə, həm şifahi, həm də mətbuat vasitəsilə ictimai rəydə ermənilərə qarşı qərəzli münasibət yaratmağa çalışdıqlarından" açıq-aşkar narahat olmuşdur. (109)

Bakıda baş vermiş mart hadisələrinin mahiyyətini tanınmaz dərəcədə təhrif edərək və bu zaman, təbii ki, Şamaxıdakı mart hadisələrini ümumiyyətlə xatırlamadan, Baqrat "Müsavat" partiyasını, daha sonra "türk-azərbaycanlı hakimiyyətini" Azərbaycanın erməni əhalisinə qarşı ağlasığmaz cinayətlərdə günahlandırırdı. Memorandumda yenə də guya ermənilərin xilas etdiyi "20 min müsəlman"dan - özü də bu dəfə daha da dəqiqləşdirilmiş rəqəmlərlə – "13 min nəfərə yaxın müxtəlif ictimai binalarda və 7 minə yaxın isə şəxsi evlərdə yerləşdirilmiş" - söz açılır, "Tağıyevin sirkulyar teleqramı" xatırlanır, Bakıda mart qurbanlarının həmin, xeyli azaldılmış sayı göstərilirdi. Həm də bu dəfə "həlak olmuş 2000 müsəlman" rəqəmi də Baqrat tərəfindən artıq "həddən artıq şişirdilmiş" hesab edilirdi: "İki gün çəkən qanlı döyüşlərdə, Sovetin məlumatlarına görə, 300-ə yaxın rus və erməni və 700 müsəlman, digər mənbələrin son dərəcə şişirdilmiş hesab edilən maksimum hesablamalarına görə isə təxminən 1200 rus və erməni, 2000-ə yaxın müsəlman həlak olmuşdur".

Memorandumda dəfələrlə vurğulanırdı ki, "Bakıda qanlı mart toqquşmaları yalnız iki gün", "silahsız, məzlum, dinc erməni əhalisinə qarşı amansız və qorxunc dəhşətlər tam iki ay davam etmişdir". Həmçinin, "məlum olurdu" ki, 1918-ci ilin martında şəhərin müxtəlif yerlərində baş vermiş yanğınlar yenə də "bir neçə erməni evini, müsəlman qərargahının yerləşdiyi "İsmailiyyə" müsəlman binasını və bazarın bir hissəsini" məhv etmişdir. (110)

Burada Baqratın ermənilərin mart hadisələrində guya "neytrallığını" izah edən əsas arqumentinə də diqqət yetirmək lazımdır: "Məlum olduğu kimi, mart ayında Bakı şəhərində bolşevik hökuməti ilə Müsəlman Milli Şurası arasında hakimiyyət uğrunda mübarizə baş vermişdir. Ermənilərin, milli kollektiv kimi, hakimiyyətə heç bir iddiası ola bilməzdi, çünki onlar Bakı quberniyasında cüzi azlıq təşkil edirlər". (111)

"Hakimiyyət uğrunda mübarizə" – 1918-ci ilin mart hadisələrinin mahiyyətinin erməni yepiskopu tərəfindən verilmiş yeganə düzgün tərifidir. Lakin, guya say azlığı səbəbindən ermənilərin hər hansı hakimiyyət iddialarının olmadığı haqda onun sonrakı bütün nəticələri erməniləri bu hakimiyyət uğrunda mübarizədə əsas "oyunçuların" sırasından çıxarmaq cəhdindən başqa bir şey deyildi. Və burada dəqiq məqsəd güdülürdü – ictimai rəyə, ilk növbədə isə Qərbin ictimai fikrinə belə bir mülahizə yeritmək ki, bu zaman ermənilərin yeganə arzusu "istər anarxiya və vətəndaş müharibəsinin daxili qarışıqlığı şəraitində, istərsə də alman-türk xəfiyyələri tərəfindən yerli müsəlmanların intiqamından və qəzəbindən imkan daxilində öz fiziki varlığını qoruyub saxlamaq və əmlakını xilas etmək olmuşdur". (112)

Öz əsassız ehtimallarını "sübuta yetirmək" üçün dəfələrlə adı çəkilən "Tağıyevin sirkulyar teleqramından" savayı heç bir arqumenti olmayan Baqrat artıq hamıya məlum faktların həyasızcasına saxtalaşdırılmasına əl atırdı: "Hadisələrdə əsas rol oynamış bolşeviklərin 17 üzvdən ibarət Qafqaz Vilayət Sovetinin tərkibində 2 tatar və yalnız 2 erməni var idi". (113)

Bu zaman, mart hadisələrində əsas rolu heç də Qafqaz Vilayət Sovetinin deyil, 1918-ci ilin mart ayının 30-dan 31-ə keçən gecə "Bakı şəhəri və onun rayonlarında ali hərbi-siyasi orqan" kimi yaradılmış və dinc azərbaycanlıların qırılmasına rəhbərlik etmiş "İnqilabi müdafiə komitəsinin" oynadığı, bu Komitənin 6 üzvündən isə 4-nün erməni olduğu - bolşeviklər S.Şaumyan, K.Korqanov (Korqanyan), sağ eserlərin lideri S.Saakyan və

"Daşnaksütun" partiyasının Bakı təşkilatının rəhbəri S.Melik-Eolçyan - artıq heç xatırlanmırdı. (114) Bu da məlum idi ki, mart hadisələri günlərində birləşmiş bolşevik-erməni qoşunlarına xüsusi olaraq Peterburqdan gəlmiş generallar Akop Baqratuni, İvan Baqramyan komandanlıq etmiş, Bakı Sovetinin Qızıl Ordusunun yaradılması ilə B.Avakyan məşğul olmuş, qərargah rəisi polkovnik Z.Avetisyan, briqada və qarışıq dəstələrin komandirləri – polkovnik Kazaryan, Amazasp, A.Əmirov və digərləri olmuşlar. (115) Bu günlərdə həmçinin "Daşnaksütun" partiyasının yaradıcılarından biri – Stepan Zoryan (Rostom) da Bakıya gəlmişdi. Bolşevik-daşnak ordusunun sıralarına səfərbər edilmiş erməni əsgərlərinə yüksək ödəniş – "ayda 800 rubl, üstəgəl hər ailə üzvünə görə 75 rubl və ərzaq təminatı" təklif edilirdi. (116)

Ən nəhayət, Bakı Kommunasının rəhbər heyətinə Azərbaycanda hakimiyyət uğrunda ən azı on beş erməni "mübarizi" –S.G.Şaumyan, K.Q. Korqanyan, S.G.Osepyants, B.A.Avakyan, T.M.Əmirov, A.M.Əmiryan, A.M.Kostandyan, A.A.Boryan, A.İ.Mikoyan, Karinyan, Stamboltsyan, Ağamiryan, İhonesyan, Ter-Saakyants, Nuricanyan və digərləri daxil idi. (117) Bakı Kommunasının silahlı qüvvələrinin Ali Baş Komandanı Akop Baqratuni idi, həmçinin Qızıl Ordunun əsas komanda heyətinin və hərbi heyətin 70%-dən çoxunu ermənilər təşkil edirdi.

Bütün bu faktlar, o cümlədən mart hadisələrinin əsl xarakteri, bəzi erməni xadimləri tərəfindən, xüsusilə də Bakı Kommunasının gələcək üzvü, həmin günlər Həştərxanda olan Saak Ter-Qabrielyan tərəfindən də təsdiq edilirdi. Mart hadisələri ilə əlaqədar olaraq Bakını tərk etmiş və Həştərxana gəlmiş rus vətəndaşlarının söhbətlərini eşidən Saak Ter-Qabrielyan 28 aprel 1918-ci il tarixində Stepan Şaumyana yazırdı: "İndi kütləvi surətdə Bakıdan gələn rusların, sosial vəziyyətindən asılı olmayaraq, heç birindən eşitməzsən ki, Bakıda sovet mübarizəsi gedir. Hamı bir səslə deyir: "Bakıda erməni-tatar qırğını gedir və bu qırğın ermənilər tərəfindən qəsdən törədilmişdir". (118)

Bununla belə, bu hadisələrdən bir il sonra, təkcə erməni xadimləri deyil, rus siyasi partiyalarının yerli təşkilatlarının bəzi nümayəndələri də həmin hadisələr ətrafında azərbaycanlılar tərəfindən edilən bütün çıxışları və hərəkətləri təhrif etməsələr də, hər halda onları yatırtmağa və pərdələməyə çalışırdılar. Məsələn, sosial-inqilabçılar (eserlər) partiyasının Bakı Komitəsinin "Znamya truda" (Əmək bayrağı) qəzeti "Hələ sağalma-

mış yaraların gözünü qoparmaq axı indi kimə lazımdır?" sualını verməklə, Fövqəladə Təhqiqat Komissiyasının fəaliyyətini, bu dəfə artıq başqa bəhanə ilə töhmətləndirməyə çalışırdı: "Bu hadisələrin təhqiqi ilə bağlı məsələyə hüquqi cəhətdən yanaşdıqda göstərmək olar ki, onların araşdırılmasını yalnız o dövlət apara bilər ki, bu hadisələr onun ərazisində baş vermiş olsun. İndiki halda, Şamaxı və Göyçay qəzalarının ərazilərində hadisələrin baş verdiyi zaman dövlət hakimiyyəti Azərbaycan Respublikasına deyil, Rusiya hökumətinə məxsus idi və deməli, hadisələrin araşdırılması hüququ da ona məxsusdur". (119)

Qeyd edilməlidir ki, nə Bakının erməni və rus dairələrinin tənqid atəşinə tutduğu "hakimiyyət dairələrinin və onların təmsil etdikləri ictimai cərəyanların", nə də Fövqəladə Təhqiqat Komissiyasının ətrafında qaldırılmış hay-küy onların bu istiqamətdə işinə qətiyyən təsir etmirdi. Əksinə, Ədliyyə Nazirliyinə və FTK sədrinə Komissiyanın üzvlərindən araşdırdıqları fakt və sübutları ümumiləşdirən məruzələr və raportlar daxil olmaqda davam edirdi. Bu məruzələrdə on minlərlə qətlə yetirilmiş və sağalmaz ziyanlar vurulmuş insan taleləri, dəyəri milyonlarla ölçülən maddi zərərlər, yüz minlərlə qarət edilmiş, dağıdılmış evlər, yandırılmış kəndlər, məhv edilmiş mədəniyyət və milli memarlıq abidələri, məktəblər, xəstəxanalar, məscidlər, sənaye, ticarət obyektləri və s. haqqında məlumatlar verilirdi. Öz işini vicdanla yerinə yetirmiş cəmi bir neçə nəfərin – Fövqəladə Təhqiqat Komissiyasının üzvlərinin topladığı minlərlə sənəd və sübutlar yalnız hüquqi nöqteyi-nəzərdən deyil, həm də misilsiz tarixi-siyasi, diplomatik əhəmiyyət daşıyırdı.

Bu da xüsusi qeyd edilməlidir ki, Komissiya üzvləri son dərəcə ağır şəraitdə - xüsusilə kənd rayonlarında və qəzalarda - işləməli olur, çox vaxt şəxsi sağlamlılarını və hətta həyatlarını təhlükə altına qoyur, bunun müqabilində isə öz xərclərini zorla ödəyən cüzi gündəlik məvacib alırdılar. FTK -nın sədri Ələkbər bəy Xasməmmədovun Ədliyyə Nazirliyi ilə yazışmalarında "dolanacağın az qala iki dəfə bahalaşması, qəzalarda daima qarın yatalağı epidemiyasının və digər xəstəliklərin tüğyan etməsi səbəbindən" Komissiya üzvlərinin aldıqları gündəlik məvacibin məbləğinin artırılması və bu yolla maddi vəziyyətlərinin yaxşılaşdırılması haqqında çoxlu sayda xahişlər səslənirdi. (120) Komissiya üzvlərinin əksəriyyəti daim insanlarla ünsiyyətdə olduqlarından özləri tez-tez yoluxucu xəstəliklərə tutulur, həftələrlə "sıradan çıxır", lakin hətta bu hallarda da iş da-

yanmırdı. Nəqliyyatla bağlı problemlər FTK üçün ən ağrılı mövzulardan biri idi. Ədliyyə Nazirinin FTK üzvlərinin sərəncamına müvəqqəti olaraq avtomobilin verilməsi haqqında dəfələrlə etdiyi müraciətlərə Azərbaycan hökumətinin İşlər İdarəsindən bir qayda olaraq, "boş avtomobillərin olmadığı səbəbindən" hər dəfə rədd cavabı gəlirdi.

Qəza və kəndlərdə vəziyyət daha ağır idi. " Ən pis hava şəraitində, açıq səma altında, yaxud qapı və pəncərələri olmayan evlərdə, döşəmə üzərində işləmək və gecələmək lazım gəlirdi", (121) fayton və arabalar "cah-cəlal" hesab edilirdi, Komissiya üzvləri kilometrlərlə yolu piyada getməli olurdular.

"Dilə gətirmək nə qədər ağır olsa da, bu məsələ son dərəcə vacibdir, hər cür hava şəraitində bir mülkdən digər mülkə piyada gedərkən (qaloşla keçmək mümkün deyil) uzunboğaz çəkmələr demək olar ki, sıradan çıxır, halbuki indi çəkmənin bir cütünün qiyməti 1000 rubla yaxındır. Bu məruzənin müəllifinə keçən ay həmişəkindən də artıq yol getdiyi üçün çəkmələrini təzələmək zəruridir, halbuki indi belə çəkmələrin qiyməti həddən artıq bahadır". (122)

Bu sətirlər Bakı və Gəncə quberniyalarının qəzalarında istintaq aparan FTK-nın ən fədakar üzvlərindən biri M.N.Mixaylovun məruzəsindən götürülmüşdür və həmin məruzə Mixaylov tərəfindən yazılmış yüzlərlə sənəd, məruzə və hesabatlar arasında yeganə şikayət-xahişdir. Gündən-günə dərinləşən maliyyə böhranı şəraitində Azərbaycan hökumətinin son dərəcə ağır iqtisadi vəziyyəti, dövlət xidmətində əvvəlki vəzifələrindən azad edilmiş FTK üzvlərinə cəmi 50 rubl gündəlik məvacib verildiyi və Komissiya sədrinin dəfələrlə müraciətindən sonra bu məvacibin 60, 70, sonra 100 rubladək, özü də yalnız "səfərlər zamanı" artırıldığı nəzərə alınarsa, "çəkmə və s. bu kimi problemlərin həlli üçün" Komissiya üzvlərinə birdəfəlik müavinətin verilməsi məsələsinin nə üçün bu dərəcədə yüksək səviyyədə müzakirə edildiyinin səbəblərini anlamaq olar. (123)

Burada daha bir məqama diqqət yetirmək lazımdır. FTK-nın sədri ilə üzvləri arasında yazışmalarda, xüsusilə də cinayətlərdə ittiham olunan şəxslər haqqında söhbət gedərkən, Ələkbər bəy Xasməmmədov dəfələrlə vurğulayırdı ki, Komissiya üzvü "qanunla və vicdanla, işin hallarına və faktlara istinadən hərəkət etməlidir". (124)

Qanun və vicdan! Fövqəladə Təhqiqat Komissiyasının istisnasız olaraq bütün üzvləri, sədr Ələkbər bəy Xasməmmədov başda olmaqla, öz fəaliyyətlərində bu iki başlıca prinsipləri rəhbər tutmuşdur və Komis-

siya tərəfindən hazırlanmış məhkəmə-istintaq materialları da bunu tam mənası ilə təsdiq edir. Artıq qeyd edildiyi kimi, peşəkar hüquqşünas olan Komissiya üzvləri bütün zorakılıq hallarını araşdırarkən mövcud qanunlara və hüquqi normalara ən ciddi şəkildə əməl edir, bu zaman həm zərərçəkənlərin, həm də ittiham olunanların hüquqlarını nəzərə alırdılar. Bununla belə, qeyd etmək lazımdır ki, görüləsi işin həddən artıq böyük miqyası, həcmi və ağır iş şəraiti qarşısında, müstəntiqlərin məhdud sayı və xüsusilə cüzi əmək haqqı nəzərə alınarsa, bu qədər ağır yükün öhdəsindən yalnız sadə vəzifə borcu çərçivəsindən kənara çıxaraq işə son dərəcə vicdanlı və məsuliyyətli münasibət nəticəsində, həmçinin yüksək insani keyfiyyətlərə malik olmaqla gəlmək mümkün idi.

Şübhəsiz ki, istər Bakı şəhərində, istərsə də qəzalarda gündəlik olaraq çoxlu sayda zorakılıq və vəhşiliklərin qurbanları və şahidləri ilə rastlaşan, müsəlmanlara məxsus yüzlərlə dağıdılmış kəndlərə və müxtəlif tikililərə baxış keçirən Komissiya üzvləri bu insanların çəkdikləri ağrılara və iztirablara biganə qala bilməzdilər. Təsadüfi deyil ki, onların tərtib etdikləri hüquqi sənədlərdə ermənilərin cinayətləri rəsmi-inzibati dildə təsvir edilməklə yanaşı, müsəlmanların vəziyyətinə dair “dəhşətli”, “ümidsiz hala çatdırılmış”, “həddən artıq ağır” və s. kimi ifadələr, ermənilərdən söz gedən zaman isə “vəhşilik”, “amansızlıq”, “ağlasığmaz qəddarlıq” kimi ifadələr də işlədilirdi.

Bu zaman nəzərə alınmalıdır ki, Komissiyanın üzvlərinin əksəriyyətini azərbaycanlılar deyil, digər millətlərin nümayəndələri – polyak, rus, yəhudi, alman və d. təşkil edirdi. Yəqin ki, Ələkbər bəy Xasməmmədov öz “komandasının” üzvlərində məhz bu keyfiyyətləri – peşəkarlıq, ədalətli və vicdanlı olmaq - yüksək qiymətləndirir və fürsət düşdükcə hər dəfə yüksək dövlət orqanları qarşısında “Komissiyasının bütün heyətinin” “nadir iş bacarığını, əməksevərliyini və çalışqanlığını” vurğulamağı özünə borc bilirdi. (125)

Artıq qeyd edildiyi kimi, 1919-cu ilin may-iyun aylarından başlayaraq, qəzalar üzrə materialların toplanması, qərar layihələrinin tərtib edilməsi və bu işlərin Məhkəmə Palatasına təhvil verilməsi başa çatdıqca, FTK üzvlərinin bir hissəsi Komissiyadakı işdən azad edilərək öz köhnə vəzifələrinə qayıdır, yaxud yeni təyinat alırdılar. Nəhayət, 12 oktyabr 1919-cu il tarixli məktub ilə FTK sədrinə belə bir xəbərdar edilir ki: Ədliyyə Naziri

tərəfindən "Fövqəladə Təhqiqat Komissiyasının 1919-cu ilin noyabr ayının 1-dən ləğv edilməsi haqqında sərəncam verilmişdir". (126)

Beləliklə, Azərbaycan hökumətinin 15 iyul 1918-ci il tarixli Qərarı ilə yaradılmış Fövqəladə Təhqiqat Komissiyası onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirdiyi üçün 1919-cu ilin noyabr ayının 1-də ləğv edilir. 20 noyabr 1919-cu il tarixli Qərara əsasən Bakı şəhərinin və ətraf kəndlərin talan edilməsi haqqında istintaq işi artıq başa çatmış və Azərbaycan Məhkəmə Palatasının Prokuroruna təhvil verilmək üçün FTK sədrinə təqdim olunmuşdu. (127)

FTK üzvləri tərəfindən toplanmış və təhqiq edilmiş sənədlərin böyük hüquqi-məhkəmə əhəmiyyəti var idi və bu sənədlər az da olsa, cinayətkarların bir hissəsini məsuliyyətə cəlb etməyə imkan verirdi. Bu cinayətkarların arasında isə azərbaycanlıların kütləvi qırğınlarının - xüsusilə, Bakı, Şamaxı şəhərlərində və Şamaxı qəzasında - təşkilatçılarından və rəhbərlərindən bir neçə nəfər var idi. Onlardan bəziləri, o cümlədən, xüsusi qəddarlığı ilə seçilən Stepan Lalayev öz əcəli ilə olsa da, həyatını həbsxana divarları arasında bitirdi və beləliklə cəzadan qaça bilmədi.

Həmçinin qeyd edilməlidir ki, Qubaya göndərilmiş "Cəza dəstəsinin" başçısı Amazaspa və onun silahdaşlarına qarşı Komissiya tərəfindən cinayət axtarışı elan edilmiş, "keçmiş komissarlar" Şaumyan və Korqanov haqqında isə onların ölümü səbəbindən cinayət işi açılmamışdı. Bütün bu addımlar 1918-ci ilin mart-sentyabr aylarında bolşevik-daşnak qüvvələri tərəfindən törədilmiş qanlı hadisələrin bütün günahkarlarının cəzalandırılması barədə FTK-nın son dərəcə ciddi niyyətləri olduğundan xəbər verirdi. (128)

Lakin 1920-ci ilin əvvəlində baş vermiş və Azərbaycan Respublikası üçün xüsusilə əlamətdar olmuş bir siyasi hadisə FTK-nın başladığı işə öz "düzəlişlərini" etdi. 1920-ci il yanvar ayının 11-də Müttəfiq Dövlətlərin Ali Şurası Azərbaycanın de-fakto müstəqilliyinin tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Bu tarixi hadisə ilə əlaqədar olaraq Azərbaycan Parlamenti 9 fevral 1920-ci il tarixdə "Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə tanınması münasibətilə əhaliyə bəxş edilən imtiyazlar haqqında Qanun" qəbul etdi. Amnistiyanın elan edildiyinə dair bu qanunun 2-ci maddəsinə uyğun olaraq həmin qanunun imzalandığı ana qədər "milli düşmənçilik zəminində cinayət əməlləri" törətmiş bütün şəxslər təqib və cəzadan azad edilirdilər, 10-cu maddəyə əsasən isə, Fövqəladə

Təhqiqat Komissiyasının icraatında yaranmış bütün cinayət işlərinə həmişəlik xitam verilirdi. (129)

Beləliklə, FTK üzvlərinin inanılmaz səyi və son dərəcə ciddi fəaliyyəti sayəsində məsuliyyətə cəlb edilmiş az saylı cinayətkarlar – 200 nəfərə yaxın adam cinayət məsuliyyətindən azad edilir, həbsxanada saxlanılanlar azadlığa buraxılır, "pullu girov" ilə zaminə buraxılmış müttəhimlərin isə pulları qaytarılırdı.

Bununla belə, amnistiya haqqında qanunun qəbul edilməsi ilə mövcud olduğu il yarım ərzində Azərbaycanın müsəlman əhalisinə qarşı törədilmiş cinayətlərin araşdırılması, cinayətkarların müəyyən edilməsi və onların məsuliyyətə cəlb edilməsi üzrə çox böyük iş görmüş Fövqəladə Təhqiqat Komissiyasının bütün fəaliyyətinin heçə endirildiyini düşünmək tamamilə səhv olardı. Cənubi Qafqazın hüdudları daxilində ayrı-ayrı siyasi və milli partiyaların bayraqları altında çıxış edən müxtəlif erməni təşkilatları tərəfindən müsəlman əhalisinin, əsasən də, azərbaycanlıların məhv edilməsinə dair məqsədyönlü siyasəti haqqında hədsiz sayda materialların yaradılması və tərtib edilməsi sahəsində FTK-nın fəaliyyətinin əhəmiyyəti, şübhəsiz ki, yalnız hüquqi çərçivələrlə məhdudlaşmırdı.

Azərbaycan hökuməti Fövqəladə Təhqiqat Komissiyasının fəaliyyətinin nəticələrini, onun yaradıldığı zaman nəzərdə tutulduğu kimi, müxtəlif Avropa dillərində və türk dilində dərc etdirmək və geniş yaymaq niyyətini məlum səbəblərdən həyata keçirə bilməsə də, bununla belə, Fransaya - Paris Sülh Konfransına yollanan Azərbaycan nümayəndə heyəti Bakı, Şamaxı, Quba, Göyçay və Cavad qəzalarında müsəlman əhalisinə qarşı erməni-bolşevik birləşmələri tərəfindən törədilən zorakılıq aktlarının araşdırıldığı FTK materialları ilə təchiz edilmişdi. Həm böyük dövlətlərin başçılarına, həm də müxtəlif beynəlxalq qurumlara təqdim edilən bu materiallar 6 cild istintaq materialı və 95 şəkildən ibarət idi. 1919-cu ilin may ayında Azərbaycan Xarici İşlər Nazirliyi Parisə - Azərbaycan nümayəndə heyətinin sərəncamına göndərmək üçün FTK-nın əlavə materiallarını, o cümlədən 95 fotoşəkil və 80-ə yaxın diapozitiv hazırlamışdı. Bu baxımdan, FTK tərəfindən toplanmış sənədlərin xaricdə yayılaraq erməni nümayəndə heyətinin və siyasətçilərinin böhtan xarakterli hücumları qarşısında və əsl həqiqətin dünya ictimaiyyətinə çatdırılmasında tutarlı sübutlar kimi öz funksiyasını yerinə yetirdiyini söyləməyə tam əsas vardır. (130)

FTK-nın fəaliyyəti, həmçinin, ermənilərin vəhşiliklərini öz üzərində hiss etmiş respublika əhalisi arasında da böyük ictimai və əxlaqi-psoxoloji məna kəsb edirdi. Fövqəladə Təhqiqat Komissiyasının özünün mövcud olması və onun üzvlərinin cəmiyyətin ayrı-ayrı təbəqələri ilə, azərbaycanlılarla sıx əməkdaşlıq etməsi artıq özlüyündə geniş əhali kütlələri arasında ədalətin bərpa olunmasına inamı artırır və yeganə qanuni hakimiyyət kimi Azərbaycan hökumətinə xalqın etimadını və etibarını möhkəmlədirdi.

Burada FTK-nın fəaliyyətinin daha bir tərəfini nəzərdən keçirmək lazımdır. Məlumdur ki, Komissiya qarşısında "bütün zorakılıq hallarını dəqiq qeydiyyata almaqla" yanaşı erməni-daşnak hərbi hissələri tərəfindən dinc müsəlman əhalisinə vurulmuş maddi zərərlərin həcmini müəyyən etmək vəzifəsi də qoyulmuşdu.

Məsələn, mart qırğınları zamanı Bakıda müsəlman əhalisinə vurulan maddi ziyanın həcmi o dərəcədə böyük idi ki, yüz milyonlarla ölçülürdü. Bakılıların özləri tərəfindən isə yalnız məlum faktlar əsasında, rublun köhnə dəyəri ilə 400.000.000 rubla yaxın təxmini ümumi rəqəm göstərilirdi. (131)

Bolşeviklərin Bakıda hakimiyyəti möhkəmləndikdən sonra, Bakı Soveti tərəfindən yaradılmış Fövqəladə Hərbi-İstintaq Komissiyası müsəlmanlardan qarət edilmiş əmlakın bir hissəsini, əsasən zinət əşyalarını ermənilərdən "müsadirə etmişdi", lakin onları sahiblərinə qaytarmayaraq Rusiya dövlət bankının Bakı şöbəsinə yerləşdirmişdi. 1918-ci ilin avqustunda Bakıda hökm sürən xaos və onları gözləyən təhlükə qarşısında bolşevik komissarları özlərinə məxsus olmayan milyonlarla pulu götürərək şəhərdən qaçmağa cəhd göstərərkən, yəqin ki, Bakı bankında saxlanılan və ağzına kimi zinət əşyaları ilə dolu olan 8 qutu və iki kisəni "yaddan çıxarırlar".

Azərbaycan hökuməti əvvəlki hakimiyyətin hüquqi varisi kimi həmin əşyaları dövlət xəzinəsi ehtiyacları üçün müsadirə edir. Lakin son dərəcə böyük vəsaitlərə kəskin ehtiyacı olmasına baxmayaraq hökumət, hüquqi dövlət prinsiplərinə sadiq qalaraq, 17 avqust 1919-cu il tarixdə 1918-ci ilin mart hadisələri zamanı soyğunçuluq edənlərdən alınmış zinət əşyalarının öz sahiblərinə qaytarılması haqqında məsələnin həll edilməsi üçün Xüsusi Komissiyanın yaradılması haqqında Qərar qəbul edir. (132)

Zinət əşyalarının siyahılarının tərtib edilməsi, qiymətləndirilməsi üzrə xeyli iş görən Xüsusi Komissiya 1919-cu ilin dekabr ayının sonunda "Keçid dövrü ərzində əllərindən alınmış qiymətli əşyaların sahiblərinə

qaytarılması qaydaları haqqında qanun layihəsini" Hökumətə təqdim edir. (133) Hökumət öz nəşrləri və "Azərbaycan" qəzeti vasitəsilə bütün zərərçəkmiş qiymətli əşya sahiblərinə həmin elan dərc olunandan üç ay ərzində Komissiyaya müraciət etmək təklif olunur. Ədliyyə naziri Parlamentdə baxılmaq üçün Qanun layihəsinin sonuncu variantını 15 aprel 1920-ci il tarixində Hökumətə təqdim edir. Həmin layihədə qiymətli əşyaların geri qaytarılmasının hüquqi əsasları və qaydası, qiymətli əşyaların mənsubiyyətinin müəyyən edilməsi zamanı mübahisəli məsələlərin həlli və s. məsələlər açıqlanırdı. (134) Lakin, Qanun layihəsinin tarixindən aydın olduğu kimi, hətta bu istiqamətdə belə ədalətin və qanunun bərqərar olmasının tərənnümü sayılacaq həmin sənədi müzakirə və qəbul etmək Azərbaycan Parlamentinə qismət olmadı.

1920-ci il aprelin 27 - də səhər erkən kommunist dəstələri Bakıda hərbi çevriliş həyata keçirməyə başladılar. Günorta hərbi drujinalar artıq faktiki olaraq şəhərdə və onun kənarlarında vəziyyətə tam nəzarət edirdilər, Rusiyanın XI Qızıl Ordusu isə bu vaxt hələ suveren dövlət olan Azərbaycan Respublikasının sərhədlərini keçmişdi. Axşam saat 11-də Azərbaycan Parlamenti, yaranmış siyasi vəziyyəti nəzərə alaraq, qan tökülməsinə və dinc əhali arasında qurbanlara yol verməmək məqsədilə, hakimiyyətin Azərbaycan kommunistlərinə təhvil verilməsi haqda kommunistlərin ultimatumunu qəbul etdi.

Beləliklə, Azərbaycan xalqının həyatında üç ilə – 1917-1920 - sığan bütöv bir tarixi dövr başa çatdı. Böyük hadisələrlə və böyük faciələrlə əlamətdar olan bir tarixi dövr. Bu hadisələrin ən mühümü, sözsüz ki, demokratik respublika formasında müstəqil Azərbaycan dövlətinin yaranması idi. Zaman Azərbaycanın böyük övladlarına, millət atalarına öz parlaq ideya və düşüncələrini həyata keçirmək üçün cəmi 23 ay vaxt buraxdı. Onlardan yalnız 8 ayını Azərbaycan hökuməti öz paytaxtı Bakı şəhərində işğalçı qoşunların olmadığı şəraitdə işlədi. Lakin bu qısa dövr ərzində Avropa nümunəsində olan parlament yaradıldı, əsas dövlət strukturları və maliyyə sistemi formalaşdırıldı, ordu təşkil olundu, 8 saatlıq iş günü tətbiq edildi, Azərbaycan Universiteti təsis olundu, Azərbaycan dili dövlət dili elan edildi, məktəb islahatı aparıldı, vətəndaşlıq haqqında demokratik qanun və Azərbaycanın Təsisedici orqanına seçkilər haqqında qanun qəbul edildi, Muğan separatizmi aradan qaldırıldı və nəhayət, Azərbaycanın dünyanın böyük dövlətləri tərəfindən de-fakto tanınmasına nail olundu.

Amma AXC yaradıcılarının öz xalqı qarşısında ən mühüm xidmətlərindən biri, yəqin ki, azadlıq və müstəqillik ideallarının yaradılması idi ki, 70 ildən sonra, dəyişmiş siyasi şəraitdə yenidən bu ideallar azərbaycanlıların yeni nəsillərinin ruhuna və varlığına hakim kəsildi və öz dövlət müstəqilliyinin bərpasına gətirib çıxardı.

Bununla belə, Azərbaycan dövlətçiliyinin yarandığı və möhkəmləndiyi dövr, eyni zamanda böyük faciəvi hadisələrlə də əlamətdar olmuşdur. Bu hadisələr arasında Azərbaycan xalqının tarixinə yeni anlayış – soyqırımı anlayışını daxil etməklə, Bakı şəhərində baş vermiş 1918-ci ilin mart hadisələri xüsusi yer tuturdu. Lakin bütün faciəviliyinə baxmayaraq mart hadisələri də milli qüvvələrin sosial bazasını əhəmiyyətli dərəcədə möhkəmləndirməklə, müəyyən müsbət nəticələrə gətirib çıxardı ki, bunlardan ən mühümü Azərbaycan milli hərəkatında ayrı-ayrı qüvvələrin birləşməsi prosesinin güclənməsi sayıla bilər. “Milli varlığın məhvedici təhlükəsi qarşısında, müxtəlif siyasi partiyalar mart hadisələrinin mahiyyətinin və nəticələrinin qiymətləndirilməsi işində vahid cəbhədən çıxış etdilər. Məhz bu zəmində Azərbaycanın əsas siyasi partiyalarının milli hərəkatın inkişafının perspektivləri və məqsədləri baxımından mövqelərinin yaxınlaşması baş verdi. Mart faciəsindən sonra “Müsavat” partiyası öz fəaliyyətini Azərbaycanın tam dövlət müstəqilliyi kursuna yönəltdi. Yaranmış vəziyyətdə milli müstəqilliyin əldə edilməsi demək olar ki, ölkənin istisnasız olaraq bütün siyasi partiyalarının əsas məqsədinə çevrildi. Məhz milli qüvvələrin mütəşəkkilliyi bu ideyanın tezliklə həyata keçirilməsinə gətirib çıxardı və artıq 1918-ci ilin may ayının 28-də Azərbaycanın dövlət müstəqilliyi elan edildi”. (135)

Azərbaycan Xalq Cümhuriyyəti 1919-cu və 1920-ci illərdə 31 mart tarixini ümummilli matəm günü kimi qeyd etdi. Bakıda mart faciələri günlərində, habelə Şamaxıda, Qubada və respublikanın digər qəzalarında əzablı ölümlə həlak olmuş bütün qurbanların xatirəsi əziz tutulmaqla, M.Ə.Rəsulzadənin sözləri ilə deyilərsə, onlar eyni zamanda “Azərbaycanın azadlıq və müstəqillik ideallarının qurbanları və şəhidləri” hesab edildilər. (136)

“Mart hadisələri inqilab təqvimində artıq yalnız sadə bir dönüş nöqtəsi deyil, “yaddaşın bir parçası”, yaxud “yaddaş yeri”, vətəndaş şüurunun və milli tarixin başlanğıcı idi. Azərbaycan türkləri Böyük müharibə dövrünün bütün qurbanları arasında öz şəxsi nadir milli qurbanını tapdı, və bu, onla-

ra Versalda Antanta dövlətlərini öz qiymətli təyini-müqəddərat hüquqlarını böyük əziyyətlə qazandıqlarına inandırmağa imkan verdi". (137)

Milli hakimiyyəti əvəz etmiş yeni siyasi qüvvələr 70 ildən çox müddət ərzində Azərbaycan xalqının yaddaşından bu faciəli, eyni zamanda əlamətdar hadisələri silməyə və ya onların mahiyyətini saxtalaşdırmağa çalışdılar. Lakin tarix göstərdi ki, Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi özü Fövqəladə Təhqiqat Komissiyasını yaratmaqla, bu hadisələr haqqında Həqiqətin sonrakı nəsillərə çatdırılmasının "qayğısına qalmışdı". Bakıda, Şamaxıda, Qubada və Azərbaycanın digər şəhər və qəzalarında 1918-ci ilin faciəli günlərini yaşamış və yaddaşında saxlamış insanların dili ilə səsləndirilən bu Həqiqət FTK üzvləri tərəfindən sənədlərə köçürüldü. Bu baxımdan, 1918-ci ilin qanlı hadisələrini tarixi sənədlərlə əbədiləşdirmiş Komissiyanın bütün üzvlərinin adlarını bir daha və xüsusi ehtiramla çəkmək zəruridir: Fövqəladə Təhqiqat Komissiyasının sədri, andlı iclasçı Ələkbər bəy Xasməmmədov, Gəncə Köçürmə İdarəsinin üzvü Nikolay Mixayloviç Mixaylov, Gəncə Dairə Məhkəməsinin üzvü Andrey Fomiç Novatski, Bakı Dairə Məhkəməsi Prokurorunun köməkçisi Aleksandr Yevgenyeviç Kluge, andlı iclasçı Məmməd Xan Təkinski, Gəncə Dairə Məhkəməsinin üzvü İsmayıl bəy Şahmalıyev, andlı iclasçı Aley Adamoviç Aleksandroviç (Litovski), hüquqşünas Abbas Əli bəy Hacı İrzayev, Gəncə Dairə Məhkəməsi Prokurorunun köməkçisi Çeslav Boleslavoviç Klossovski, həqiqi mülki müşavir V.V.Qudvillo, prokuror köməkçisi Bahadır bəy Yusifbəyov, müəllim Mirzə Cavad Axundzadə, tərcüməçi-katib Əyyub bəy Xanbudaqov, həmçinin bu işdə böyük əməyi olmuş texniki heyət.

* * *

Fövqəladə Təhqiqat Komissiyasının materialları, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə aid olan bütün digər sənədlər kimi, yalnız XX əsrin 80-ci illərinin sonlarında, keçmiş SSRİ-də yenidənqurma siyasətinin başlanması ilə əlaqədar əvvəllər bağlı olan arxiv fondlarından istifadə etmək imkanı yarandığı zaman Azərbaycanın mütəxəssislərinin və alimlərinin ixtiyarına verildi. Bütün Şərqdə ilk demokratik dövlət olan, cəmi 23 ay (1918 may – 1920 aprel) ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyətinin tarixi azərbaycanlı tədqiqatçılar üçün uzun illər qadağan edilmiş bir mövzu olmaqla bir çox istiqamətlərdə tədqiqatlar aparmaq zərurəti yaratdı.

1988-ci ilin əvvəlində azərbaycanlılara qarşı erməni təcavüzünün yeni mərhələsinin – Dağlıq Qarabağ münaqişəsinin başlanması ilə əlaqədar olaraq bu tarixin ayrı-ayrı səhifələri və aspektləri xüsusi aktuallıq kəsb etdi. Dağlıq Qarabağ problemi tarixinin əsaslı surətdə və sənədlərə əsasən işıqlandırılması günün mühüm məsələsinə çevrildi. Azərbaycan Nazirlər Soveti yanında Baş Arxiv idarəsinin rəhbərliyi, mütəxəssislərə respublika arxivlərində saxlanılan sənədlərlə işləmək imkanı verməklə yanaşı, baş verən siyasi hadisələr, xüsusilə Dağlıq Qarabağa muxtariyyətin verilməsi, müxtəlif dövrlərdə azərbaycanlıların Ermənistandan deportasiya edilməsi tarixi və s. bu kimi xüsusilə aktual olan mövzularda hökumət üçün müvafiq məruzə və arayışlar hazırlamağa başladı.

Arxiv sənədləri açıldıqca və tədqiq olunduqca, azərbaycanlıların ermənilər tərəfindən kütləvi surətdə qırılması, sürgün edilməsi, öz doğma torpaqlarından qovulmasına dair saysız acınacaqlı faktlar aşkar olunurdu ki, bunu da soyqırımı kimi xarakterizə etmək olardı. 1918-ci ilin mart hadisələri Fövqəladə Təhqiqat Komissiyasının fəaliyyəti sayəsində hüquqi cəhətdən araşdırılmış və sənədlərlə rəsmiləşdirilmiş bir tarixi həqiqət olmaqla, heç bir halda bəraət qazandırılmayan, dəfələrlə Azərbaycan xalqına qarşı həyata keçirilmiş və uzun müddət ərzində lazımi siyasi-hüquqi qiymətini almamış qanlı təcavüzlər zəncirində xüsusi yer tuturdu.

Bu baxımdan olduqca diqqətəlayiqdir ki, məhz 1918-ci ilin mart hadisələri müasir Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən erməni millətçilərinin əməllərinə siyasi qiymət verilməsi üçün əsas olaraq sayılmışdır. 1998-ci ilin mart ayının 26-da, həmin hadisələrin 80 illiyi ərəfəsində, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı fərmana əsasən "Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə" 31 mart –azərbaycanlıların soyqırımı günü kimi elan edilmişdir. Fərmanda deyilirdi: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir" və qeyd edilirdi ki, "Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir." (138)

Ötən illər ərzində FTK sənədlərinin kiçik bir hissəsinin daxil olduğu bir neçə sənədlər toplusu nəşr edilmiş, 1918-ci ilin mart hadisələri AXC-nin tarixi, 1917-1920-ci illər Azərbaycanda milli hərəkat, erməni-azərbaycanlı münasibətləri və s. bu kimi məsələləri araşdıran azərbaycanlı müəllif və mütəxəssislərin tədqiqat obyekti olmuşdur və Fövqəladə Təhqiqat Komissiyasının materialları da bu və ya digər dərəcədə həmin tədqiqatlara cəlb edilmişdir. (139) Lakin, böyük elmi-mənbəşünaslıq, habelə siyasi-tarixi və diplomatik əhəmiyyət daşıyan bu sənədlər tam həcmdə nəşr edilməmişdi.

FTK materialları sonuncu iki onilliyin hadisələri baxımından da öz xüsusi aktuallığını qoruyub saxlayır, belə ki, Ermənistanın Azərbaycana və azərbaycanlılara qarşı 1988-ci ildən başladığı və bu günümüzədək davam edən elan olunmamış müharibə hələ də öz həllini tapmamışdır. Yuxarıda göstərilənlər nəzərə alınmaqla, FTK tərəfindən Bakıda 1918-ci ilin mart hadisələrindən zərər çəkənlərin və şahidlərin toplanmış bütün ifadələri müəllif tərəfindən sistemləşdirilərək ilk dəfə, müvafiq tədqiqat və şərhlərlə 31 mart 2007- ci il – 30 mart 2008-ci il tarixdə "Zerkalo" qəzetinin 52 sayında dərc edilmişdir. Bu sənədlərin əhəmiyyəti və aktuallığı həmçinin onların ayrıca toplu halında çap olunmasını şərtləndirmişdir. 2009-cu ildə müəllif tərəfindən hazırlanmış "Mart 1918-ci il. Bakı. Azərbaycanlı qırğınları sənədlərdə" adlı sənədlər toplusu Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi tərəfindən nəşr edilərək oxuculara təqdim edilmişdir. (140)

2010-cu ildə "Fövqəladə Təhqiqat Komissiyasının sənədləri" silsiləsindən ikinci sənədlər toplusu nəşr edilmişdir və buraya "Quba şəhərinin və Quba qəzasının kəndlərinin talan edilməsi haqqında" istintaq işinin bütün sənədləri daxil olmuşdur. (141)

2011-ci ildə müəllif tərəfindən xarici arxivlərdə FTK-nın çəkdiyi və 1919-cu ildə Fransaya, Paris Sülh Konfransında Əli Mərdan bəy Topçubaşovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyətinə göndərilmiş 102 fotoşəkil aşkar edilmişdir. Bütün bu şəkillər, onların Komissiya tərəfindən çəkildiyi faktını təsdiq edən FTK-nın müvafiq sənədləri ilə birlikdə 2012-ci ildə üç dildə – rus, ingilis və türk dillərində kitab-albom şəklində AR MTN tərəfindən nəşr edilmişdir. Kitab-alboma həmçinin FTK üzvlərinin Azərbaycanın qəzalarında baş vermiş faciəvi hadisələrini təsvir edən məruzələri də daxil edilmişdir. (142)

Son illər Fövqəladə Təhqiqat Komissiyasının sənədləri araşdırıldıqdan sonra müəyyən edilmişdir ki, 1918-ci il qırğınları nəticəsində 5 ay ərzində əvvəllər qeyd olunduğu kimi 30 min deyil, 50 mindən artıq günahsız insanın – azərbaycanlıların zorakılıqla öldürülməsinə, ölkənin müsəlman əhalisinə məxsus olan yüzlərlə yaşayış məntəqələrinin, minlərlə sosial, mülki, ticarət, mədəniyyət obyektlərinin, memarlıq abidələrinin və i.a. məhv edilməsinə gətirib çıxaran dəhşətli terror hadisələrinin əsl miqyası və xarakteri haqqında həm Azərbaycan, həm də dünya ictimaiyyətinin məlumatlandırılması işində son dərəcə mühümlüyü və aktuallığından irəli gəlirdi.

Heydər Əliyev Fondu bu amili əsas tutaraq həmin topluların daha geniş oxucu kütləsinə çatdırılması üçün müxtəlif dillərdə və sənədlər hissəsində bir qədər ixtisar edilmiş variantda yenidən nəşrinə başlamışdır.

Bu kitaba 1918-ci ilin martında Bakıda və onun ətraf kəndlərində baş vermiş faciəli hadisələri əhatə edən və onlara bu faciələri yaşamış insanların gözü ilə baxmağa imkan verən FTK sənədləri daxil edilmişdir. Topludakı sənədlərin məzmunu və xarakteri onların altı fəsildə sistemləşdirilməsini şərtləndirmişdir. Bu zaman sənədlərin sıra sayı kitabın 2009-cu ildə tam şəkildə nəşr olunmuş 1138 sənədin müvafiq sıra sayına uyğun olaraq göstərilmişdir.

Sənədlər toplusunun **I fəsli** bu hadisələr zamanı şəxsən zərər çəkmiş, eyni zamanda erməni silahlı quldur dəstələri tərəfindən şəhərin dinc müsəlman əhalisinə qarşı, o cümlədən, bilavasitə öz qonşularına, yaxınlarına və qohumlarına qarşı törədilmiş son dərəcə qəddar zorakılıqların və cinayətlərin, vəhşiliklərin və qətllərin şahidi olmuş azərbaycanlıların ifadələrini əhatə edir. Bu sənədlərin bəzilərində hadisələrin başlanması və xronikası ətraflı şəkildə təsvir edilir, mübarizə aparan – bolşevik-erməni və azərbaycanlı tərəflər arasında toqquşmaların səbəbləri açıqlanır, müsəlman qırğınında şəxsən iştirak etmiş "erməni elitasının" və "erməni qara camaatının" nümayəndələrinin konkret adları sadalanır. Məlumdur ki, "Evelina" gəmisindəki azərbaycanlı zabitlərinin tərksilah edilməsi azərbaycanlıların kütləvi qırğınının başlanması üçün bəhanə kimi istifadə edilmişdi. Bu baxımdan həmin zabitlərin, həmçinin bolşevik-erməni silahlı dəstələrinə müqavimət göstərən döyüş iştirakçılarının FTK-na verdiyi ifadələr xüsusi maraq kəsb edir. Bu sənədlər azərbaycanlıların silahlı qüvvələrinin bu hadisələrin qarşısının alınması üçün real imkanlarının

olmadığını, 1918-ci ilin martında Bakının, istisnasız olaraq bütün azərbaycanlı əhalisinin – kübar zümrələrdən tutmuş sadə adamlara qədər – bütün təbəqələrin erməni zorakılıqlarının və talanlarının qurbanlarına çevrildiyini bir daha sübut edir. (sənəd № № 1-70)

Sənədlərdən aydın olur ki, mart hadisələri azərbaycanlıların əksəriyyəti üçün gözlənilməz olmuşdur və müsəlman ictimaiyyətinin müxtəlif zümrələrindən olan insanlar bolşeviklərin deyil, məhz ermənilərin xəyanətindən sarsılmışdılar, çünki onlar "sonuncuları düşmən kimi görmürdülər". Bununla bərabər, şahid ifadələri göstərir ki, azərbaycanlıların əksəriyyəti talanlardan bir neçə gün qabaq "ermənilərin şəhərin müsəlman hissəsindən erməni hissəsinə köçdüyünü" müşahidə etmiş, şəhərin "Ermənikənd" məhəllələrində "ermənilər tərəfindən qazılmış səngərləri" görmüş, ermənilərin "1905-ci ili təkrarlamaq, yəni müsəlman qırğınlarını başlamaq" niyyətləri və "ermənilərin müsəlmanlara qarşı çıxışlara hazırlaşdıqları barədə şəhərdə gəzən şayiələri" eşitmişdilər. (sənəd №№. 14, 16) Bir sıra ifadələrdə günahsız, silahsız və köməksiz insanlara, o cümlədən qadınlara, qoca və uşaqlara, hətta südəmər körpələrə qarşı törədilmiş qəddar, amansız və yırtıcı vəhşiliklərin təsviri erməni quldur dəstələrinin "cəza tədbirlərinin" xarakterini qrup şəklində sadizm kimi müəyyən etməyə imkan verir ki, bu da "erməni işi uğrunda mübarizlərin" psixikasının patologiyasını sübut edir. (sənəd №№. 1, 51-52, 57, 63, 66)

Sənədlərdən məlum olur ki, Bakının müsəlman əhalisi arasında on minlərlə sakin yalnız hər hansı yolla şəhərdən çıxa bildiklərinə görə labüd ölümdən xilas olmuşlar. Lakin bu yolla qurtulmaq da hər kəsə qismət olmamışdır və bu fəsildə təqdim edilən ifadələrdən göründüyü kimi, şəhəri tərk etmək özü də təhlükəsiz deyildi. Erməni quldur dəstələri qadın, qoca və uşaqlara rəhm etmədən, şəhərdən qaçmağa çalışan müsəlmanları tutub saxlayır, qarət edir və sonra güllələyirdilər. Həmçinin qırğınların ilk saatlarında və günlərində şəhərin küçələrində olmuş bütün müsəlmanlar tutularaq qarət edilmiş və bir çox hallarda qətlə yetirilmişlər. Həmin günlər şəhərə gəlmiş ətraf kəndlərin sakinlərindən itkin düşənlər, işdən qayıtmayanlar, evə geri dönməyənlər haqqında çoxlu sayda ifadələr də bu əməllərin nəticəsi olaraq verilmişdi. (sənəd №№ 51, 261, 648)

İstər şəhərin mərkəzi məhəllələrində, istərsə cəmiyyətin kasıb və imkansız təbəqəsindən olan sakinlərin məskunlaşdığı "Poxlu dərə", "Məmmədli", "Kərpicxana", "Kanitapinskaya" (Qanlı təpə) adlanan sahələrində

yaşayan azərbaycanlıların bu fəsilə daxil edilmiş yüzlərlə ifadələri bunu deməyə əsas verir ki, Bakı şəhərinin müsəlman əhalisinə qarşı silahlı çıxışlar şəhərin müxtəlif hissələrində - həm mərkəzdə, həm də ucqarlarda eyni zamanda başlanmışdır. Bu isə öz növbəsində qanlı mart hadisələrinin guya bolşeviklər tərəfindən idarə olunan rus əsgər və matrosları tərəfindən törədildiyi barədə ilk növbədə ermənilərin özlərinin yaydığı şayiələri, eləcə də silahlı toqquşmaların müsavatçılar tərəfindən törədildiyi barədə bolşeviklərin iddialarını təkzib edir.

Toplunun **II fəslinə** azərbaycanlı qadınların şahid ifadələri daxil olmuşdur ki, onlar da bütün şəhadət sənədlərinin beşdə bir hissəsini təşkil edir. Azərbaycanlı qadınların ifadələrinin ayrıca fəsildə verilməsi, ilk növbədə mart hadisələrini azərbaycanlı qadınların gözü ilə təsvir etmək, həmçinin müxtəlif yaşlı, əsasən savadsız və siyasətdən tamamilə uzaq, sadə azərbaycanlı evdar qadınların hansı şəraitdə bolşevik-daşnak ittifaqı tərəfindən törədilmiş "vətəndaş müharibəsinin" qurbanlarına çevrildiyini göstərmək məqsədi ilə şərtlənir. Ümumən, bir neçə sənəd istisna olmaqla, qalan ifadələrdə sözü gedən hadisələr heç də bütün təfərrüatı ilə təsvir olunmur. Lakin hər bir qadın ifadəsində bir və ya bir neçə insanın - ər, valideyn və uşaqların, yaxın qohum və qonşuların ölüm faktı qeyd olunur ki, bu da öz gündəlik həyatı, yalnız öz ailəsinin və evinin maraqları ilə yaşayan, və bir anda öz əzizlərindən, əmlakından və yaşayış vasitələrindən məhrum olmuş bu insanların keçirdiyi qorxu, ağrı, dəhşət və əzablarından xəbər verir. Bir çox şahidlərin ifadələri belə bir nəticə çıxarmağa imkan verir ki, ermənilərin xəyanətkar hücumu ilə qarşılaşmış şəhərin müsəlman əhalisi ilk saatlarda silahlı quldur dəstələrinin əsas hədəfinin kişilər – xüsusilə gənc azərbaycanlılar olacağını düşünmüş, qoca, qadın və uşaqlara toxunulmayacağına ümid edirmişlər.

Lakin qırğınların elə ilk günü qətlə yetirilənlərinin arasında həm qadınlar, həm uşaqlar, həm də yaşlı kişilər var idi ki, bu da erməni-bolşevik qüvvələrinin şəhərin azərbaycanlı əhalisini, cinsinə və yaşına baxmadan, kütləvi surətdə qırmaq niyyətlərini bir daha sübut edir. İfadələrdən göründüyü kimi, bir çox qadınlar öz ərlərini, oğullarını və atalarını xilas etmək məqsədilə, ermənilərin ayaqlarına atılır, xahiş edir, yalvarırdılar, hətta öz ərlərini müdafiə edərək, onları qucaqlayırdılar və beləliklə ərləri ilə birlikdə həlak olurdular. İfadələrdən həmçinin aydın olur ki, azərbaycanlı qadın və uşaqların əksəriyyəti yalnız bu hadisələrə bolşeviklər tərəfindən

cəlb edilmiş ayrı-ayrı rus əsgər və matroslarının fəal müdaxiləsi sayəsində labüd ölümdən qurtara bilmişlər. Bu ifadələrdə (I fəsilldə olan ifadələrdə olduğu kimi) demək olar ki, FTK-ya ifadə vermiş hər ikinci zərərçəkənin, xüsusilə də qadınların "əsirliyə" məruz qaldığını vurğulaması diqqət doğurur. "Əsir" sözünün xatırlandığı çoxsaylı ifadələrdən aydın olur ki, mart qırğınları zamanı şəhərin geniş sahələrə malik olan bir çox binaları – teatrlar, kinoteatrlar, məktəblər, polis məntəqələri, ayrı-ayrı zəngin erməni evləri, Şəhər Dumasının ictimai binası, vağzal və digər binalar, hətta hamamlar da minlərlə bədbəxt, qarət edilmiş, öz yaxınlarının vəhşicəsinə qətlə yetirildiyinin şahidi olmuş azərbaycanlıların, əsasən, qadın, uşaq və qocaların gətirildiyi və günlərlə, bir çox hallarda ac və susuz saxlanıldığı həbsxanalara çevrilmişdi. (sənəd №№ 378, 385, 416, 420, 433, 451, 453 və s.)

Müsəlmanların kütləvi surətdə əsir alınmasında iştirak etmiş bəzi erməni xadimləri sonradan bu əməlləri guya dinc müsəlman vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədi ilə görülmüş zəruri tədbir kimi izah etməyə çalışırdılar. Halbuki, zərərçəkənlərin çoxsaylı ifadələri ilə sübut olunur ki, müsəlmanların əsir alınması silahlı erməni quldur dəstələri tərəfindən zorla həyata keçirilmiş, təhqirlərlə, istehza, hədə-qorxu, bir çox hallarda isə qətllərlə müşayiət olunmuşdur. Bir çox ifadələrdə göstərilirdi ki, erməni əsgərləri müsəlman qadınların çadralarını dartaraq cırır, onları hörükləri ilə bir-birinə bağlayır və başıaçıq, ayaqyalın şəhərin küçələrində gəzdirərək əsir saxlanılacaqları yerlərə qovur, yolboyu süngülərlə döyürdülər. Əsir götürülənlər arasında öz yaxınlarının qətlindən dəhşətə gələn, azyaşlı uşaqları qucaqlarında keçinən qadınlar arasında dəli olmaq, ölmək kimi hallar baş verirdi. Erməni ziyalıları isə bu zaman öz arvadlarını azərbaycanlıların "rüsvayçılığına" tamaşa etməyə gətirirdilər. (sənəd №№ 53, 54, 419 və s.)

Bütün bu ifadələr bunu iddia etməyə əsas verir ki, ermənilərin və qismən bolşeviklərin hətta hərbi dövr üçün qeyri-adi sayılan, heç nə ilə əsaslandırılmamış, lakin kifayət qədər yaxşı təşkil edilmiş bu əməlləri müsəlman əhalisinə qarşı əvvəlcədən planlaşdırılmış zorakılıq aktının bir hissəsi idi: bu əməllərin arxasında "haqq işi uğrunda" vuruşan erməni mübarizlərinin iç üzünü və əsas məqsədini dəqiq xarakterizə edən və o qədər də gizlədilməyən məqsəd açıq-aşkar görünürdü. Əsir götürülmüş və ya tamamilə məhv edilmiş azərbaycanlı ailələrin boş qalmış evləri və bütöv məhəllələr müsəlmanların əmlakını mənimsəmək, soyğunçu-

luq, qarət və üç-dörd gün ərzində avtomobillərdə, faytonlarda, arabalarda aparılması mümkün olmayan bütün əmlakı darmadağın və məhv etmək üçün erməni quldurlarına geniş imkanlar yaradırdı.

Kitabın **III fəslinə** müxtəlif millətlərdən olan bakılıların və xarici vətəndaşların Bakıda 1918-ci ilin mart hadisələrinin qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyəti olan ifadələri daxil edilmişdir. Digər millətlərdən olan Bakı sakinlərinin ifadələrinin sayının azlığı tamamilə izah ediləndir, belə ki, mart günlərində bu əhali qrupunun həyatına və əmlakına birbaşa və açıq təhlükə mövcud olmamışdır. Bununla yanaşı, Bakıda yaşayan yəhudilər, ruslar, polyaklar, almanlar, gürcülər və b. bolşeviklərin və erməni hərbi dəstələrinin terror obyekti olmasalar da, FTK müstəntiqlərinə çox qiymətli ifadələr vermişlər və bu ifadələrdə vahiməyə düşmüş, dəhşət və qorxu bürümüş müsəlmanların ermənilərin vəhşiliyi və özbaşınalıqlarını təsvir etdikləri bütün faktlar bir daha öz təsdiqini tapmışdır. Şəhərin başqa millətlərdən olan sakinləri neytral tərəfin nümayəndələri kimi, baş vermiş hadisələrə obyektiv qiymət verməyə, əhalinin müsəlman hissəsinə qarşı qırğınlar törədilməsinə sövq etmiş ayrı-ayrı siyasi partiyaların və şəxslərin əməllərini xarakterizə etməyə çalışırdılar. Bu baxımdan Bakı sakini A.N.Kvasnikin ifadəsi xüsusi maraq doğurur. Şəhərin kübar və işgüzar dairələrinə mənsub olan, "bir çox erməni evlərinə girib-çıxan", ifadəsindən hörmətli və ünsiyyətli bir insan təsəvvürü yaradan A.N.Kvasnik özünün son dərəcə ətraflı şəhadətində mart hadisələri ərəfəsində və günlərində Bakı cəmiyyətində hökm sürən vəziyyətin ümumi mənzərəsini yaratmağa çalışır. Bu zaman kifayət qədər məlumatlılıq və müşahidəçilik qabiliyyəti nümayiş etdirən müəllifin, baş vermiş hadisələrə həm öz şəxsi münasibətini, həm də Bakı şəhərinin bütün yəhudi əhalisinin münasibətini kifayət qədər dəqiq ifadə etməklə, heç də "neytral", dəqiq deyilərsə, biganə qalmadığı aydın olur. (sənəd № 568)

Bu fəslin sənədləri arasında andlı iclasçı, Bakının keçmiş ictimai şəhər rəisi Y.N.Smirnovun mart faciələri günlərində şəhərin rus əhalisinin azərbaycanlılara qarşı mərhəmət və rəğbət dolu münasibətini əks etdirən ifadəsi xüsusi diqqətə layiqdir. (sənəd № 569) Azərbaycanlıların özlərinin çoxsaylı ifadələrində olduğu kimi, bu fəsilldəki sənədlərdə də, nifrət və tamahkarlıqdan ağlını itirmiş ermənilərin hədəfinə çevrilmiş müsəlmanların həyat və əmlakının xilas edilməsində onların yəhudi,

rus, gürcü qonşularının, tanışlarının, və ya sadəcə olaraq təsadüfən yoldan keçən insanların fəal iştirakı və hadisələrə müdaxiləsinə dair çoxlu nümunələr vardır. Faciəvi günlərin ayrı-ayı anlarını təsvir edən parlaq və orijinal sənədlər olmaqla, bu ifadələr Bakının qeyri-müsəlman əhalisinin 1918-ci ilin mart hadisələrinə olan münasibətini dəqiq göstərmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, həmin ifadələrdə Bakının müsəlman elitasının ayrı-ayrı tanınmış nümayəndələri haqqında çoxlu sayda maraqlı faktlar mövcuddur. Sənədlər həmçinin onu da sübut edir ki, həmin günlərdə şəhərin küçələrində həlak olanlar arasında digər millətlərin nümayəndələri də var idi və onlardan əksəriyyətinin mənzili və əmlakı erməni quldur dəstələri tərəfindən talan edilmişdi. FTK-ya zərərçəkən qismində ifadə verənlər arasında ermənilərin də olması diqqəti cəlb edir. (sənəd №№ 588, 593)

Bu fəslin sənədləri arasında xarici vətəndaşların, indiki halda – İran təbəələrinin ifadələri xüsusi yer tutur. Mart hadisələri zamanı zərərçəkənlərin bu qrupunun ifadələrinin III fəslə daxil edilməsi ilə millətindən və hətta vətəndaşlığından asılı olmayaraq, bütün müsəlmanların erməni talançılarının qurbanı olması faktı bir daha vurğulanır. Artıq yuxarıda qeyd edildiyi kimi, mart hadisələri zamanı həlak olanların arasında çoxlu sayda İran təbəələri var idi və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün hətta İran konsulunun son dərəcə fəal cəhdləri də onları qırğınlardan qoruya bilməmişdi. (sənəd № 8) Sənədlərdən göründüyü kimi, ermənilər bəzi hallarda imkanlı İran vətəndaşlarının mənzillərinə qəsdən hücum edir, “iranlıları” axtarır, yaşına, cinsinə və mənsəbinə, xahişlərə, yalvarışlara və hətta vətəndaşlıq haqqında təqdim olunan sənədlərə məhəl qoymadan, onları dəstə-dəstə küçələrdə, mehmanxanalarda qətlə yetirirdilər. İran vətəndaşlarının ifadələri arasında Bakı Türk-Azərbaycan qoşunları tərəfindən azad edildikdən sonra Petrovsk şəhərinə qaçmış, qəddarlığı ilə ad çıxarmış erməni quldurу, bədnam S.Lalayevin bu şəhərdə müsəlmanlara, o cümlədən iranlı təbəələrə qarşı vəhşiliklərini təsvir edən Əli Əsgər Xuda Baxış oğlunun ifadəsi xüsusi diqqətə layiqdir. (sənəd № 606)

Mart hadisələri zamanı İran vətəndaşları arasında qurbanların, həmçinin öz yaxınlarını və əmlakını itirənlərin sayının kifayət qədər çox olmasına baxmayaraq, ifadə vermiş şəxslərin sayının azlığı ən əvvəl həlak olan iranlı təbəələrin əksəriyyətinin kasıb, imkansız

təbəqələrə mənsubiyyəti, iş dalınca gəlmiş bu insanların Bakıda qohum və tanışlarının olmadığı ilə izah edilir. Mart qırğınlarının qurbanı olmuş bu insanlar, ümumən həlak olmuş İran vətəndaşlarının sayı haqqında daha çox məlumatı olan Bakıdakı İran Konsulluğunun isə FTK ilə əməkdaşlıq etməsinə dair hər hansı sənəd yoxdur. Bu da qeyd olunmalıdır ki, mart qırğınları zamanı şəhəri tərk etmiş İran vətəndaşlarının əksəriyyəti, şəhərdəki vəziyyətin hələ də sabit olmadığını hesab edərək, geriyə qayıtmağa tələsmirdilər. Lakin, istər zərər çəkmiş İran vətəndaşlarının öz ifadələri, istərsə də bakılıların ifadələrində onların dəfələrlə xatırlanması 1918-ci ilin mart hadisələri zamanı ermənilər tərəfindən məhv edilmiş müsəlman əhalisi arasında İran vətəndaşlarının, əslində etnik azərbaycanlı qurbanların sayının kifayət qədər çox olduğuna dəlalət edir.

Toplunun **IV fəsli** Bakıda 1918-ci ilin mart hadisələri günlərində şəhərin həm azərbaycanlı, həm digər millətlərdən olan əhalisinə mənsub mülki, sənaye, sosial, ticarət və digər obyektlərə vurulmuş zərərləri göstərən sənədlərdən ibarətdir. Məlum olduğu kimi, FTK qarşısında qoyulmuş vəzifələr arasında, "bütün zorakılıq hadisələrinin dəqiq qeydiyyatının aparılması" və "həmin zorakılıqların törədildiyi şəraitin müəyyən edilməsi" ilə yanaşı, "müqəssirlərin aşkar olunması və onların vurduqları zərərin ümumi miqdarının müəyyənləşdirilməsi" də qeyd olunurdu.

Təsadüfü deyil ki, Bakıda 1918-ci ilin mart hadisələri zamanı zərərçəkənlərin bütün ifadələrində onlara dəyən zərərin miqdarı, həcmi və dəyəri göstərilmiş, FTK üzvləri isə ayrı-ayrı təcavüz hallarının və hadisələrin geniş təfərrüatı verilməyən ifadələrdə belə, vurulan ziyan haqqında məlumatları təsbit etmişlər. Sahibləri evdə olmadığı zaman qarət və talan edilmiş mənzillər barədə çoxlu sayda faktların və sakinlərə dəyən ziyanın göstərildiyi FTK sənədləri deyilənləri bir daha təsdiq edir. Lakin, mart hadisələri günlərində azərbaycanlıların məruz qaldığı itkilər və maddi zərər yalnız bu faktlarla kifayətlənmirdi. Bu fəsildə təqdim edilən sənədlər Bakıda mart hadisələri zamanı şəhərin müsəlman əhalisinə – iri sənayeçilərə, zavod, liman, neft mədənləri sahibkarlarından başlayaraq çoxsaylı mülki, sosial və ticarət obyektlərinin: ev, idarə, mehmanxana, məktəb, restoran, bərbərxana, emalatxana, mağaza, anbar, dükan, tövlə və s. sahiblərinə vurulan maddi ziyanın miqyasını və əhəmiyyətini çox aydın nümayiş etdirirlər.

1918-ci ilin faciəli mart günlərində müsəlmanlara məxsus olan binaların qəsdən yandırılması və dağıdılması faktlarının təsbit edildiyi və FTK üzvləri tərəfindən tərtib olunmuş aktlar IV fəslə aid olan sənədlər arasında xüsusi əhəmiyyət kəsb edir. Bu, ilk növbədə, azərbaycanlıların mədəni-ictimai və dini mərkəzini təcəssüm etdirən "İsmailliyə" - Müsəlman Xeyriyyə Cəmiyyətinin binası, "Kaspi" və "Açıq göz" qəzetlərinin binaları, habelə "Dağıstan", "İsgəndəriyyə" və "İslamiyyə" mehmanxanalarının binalarıdır. (sənəd №№ 621-624)

Kitabın **V fəsli** 1918-ci ilin martından sentyabrınadək bir neçə ay ərzində azğınlıq edən erməni silahlı dəstələrinin, erməni nizami birləşmələrinin hücumlarına məruz qalmış Bakı şəhərinin və Bakı kəndlərinin sakinlərinin ifadələrini əhatə edir. Sənədlərdən göründüyü kimi, Bakı şəhəri və onun ətraf kəndlərinin müsəlman əhalisinin müsibət və iztirabları mart qırğınlarından sonra da bitməmiş və Bakı şəhəri 1918-ci ilin sentyabrında azad edilənədək davam etmişdir. (sənəd № 807 və s.)

Məlumdur ki, 1918-ci ilin martında azərbaycanlı qırğınları yalnız şəhərin özünün hüdudları ilə məhdudlaşmamışdır. Həmin günlər erməni quldur dəstələri Bakı yaxınlığındakı ətraf kəndlərə də hücuma keçərək müsəlmanların evlərinə basqın edir, şəhərkənarı yollarda pusqu qurur, yoldan keçən müsəlmanları qarət edir və öldürürdülər. FTK materialları arasında az saylı ifadələrdən aydın olur ki, 1918-ci ilin martında Bakı kəndlərinin – Məmmədli (Məhəmmədi), Əhmədli, Balaxanı, Binəqədi, Bibiheybət, Hökməli, Digah, Zabrat, Sabunçu, Ramana, Xırdalan və digər kəndlərin bir çox sakinləri erməni silahlı dəstələrinin vəhşiliklərinin qurbanı olmuşlar. FTK sənədləri arasında iyirmidən çox Bakı kəndlərində mart günlərində baş vermiş qanlı hadisələr haqqında hər hansı - çox və ya az - ifadələrin yer almadığının səbəbi bir mənalı şəkildə FTK üzvlərinin son dərəcə çətin iş şəraiti və müstəntiqlərin çatışmazlığı ilə izah edilir. Məhz bu səbəbdən də Komissiya üzvləri bütün sonrakı aylarda dəfələrlə erməni əsgərlərinin basqınlarına məruz qalmış Bakı kəndlərinin sakinlərinin əksəriyyətini dindirə bilməmişlər.

Bununla belə, həmin kəndlərin sakinlərinin azsaylı ifadələri və xüsusilə, FTK-nın ən çox dindirdiyi Ramana kəndinin sakinlərinin ifadələri Bakının ətraf kəndlərinin insan və maddi itkiləri haqqında az-çox ümumi təsəvvür yaradır. Sənədlərdən aydın olur ki, Sabunçuda, Əhmədlidə,

Zabratda bilavasitə erməni qoşunlarının qərargahları yerləşmiş və onlar bütün müsəlmanları – yerli sakinləri və yoldan keçənləri – bir neçə ay qorxu içində saxlayırmışlar. Həmçinin, erməni əsgərləri avqust-sentyabr aylarında cəbhədən geri çəkilərkən bütün bu kəndləri tamamilə darmadağın etmiş, qaçmağa macal tapmamış sakinləri isə amansız işgəncələrlə qətlə yetirmişlər.

Bu fəsildə Bakı kəndlərinin – Balaxanı, Ramana və qismən Binəqədi sakinlərinin FTK üzvlərinin təfsilatı ilə sənədləşdirdiyi çoxlu sayda şahid ifadələri yer almışdır. Həmin sənədlərdə 1918-ci ilin yayında, Bakı şəhərinin türk-azərbaycanlı qoşunları tərəfindən azad edilməsi ərəfəsində Bakı şəhəri və onun ətraf kəndlərində baş vermiş hadisələr haqqında çoxsaylı və acınacaqlı məlumatlar vardır. Məs., məlum olur ki, erməni dəstələri Bakının ən qədim və böyük kəndlərindən olan Ramanaya bir neçə dəfə – 1918-ci ilin mart, avqust və sentyabr aylarında – hücum etmişlər və kənddə daşı daş üstə qoymadan, qaçmağa macal tapmamış bütün sakinləri ailəliklə qırmışlar. (sənədlər №№ 862, 863, 865-867, 885, 894, 924, 961 və s.)

Bakının digər qədim və neft yataqlarına görə ən zəngin kəndlərindən sayılan Balaxanının artıq mart hadisələrini yaşamış və erməni vəhşilikləri haqqında çox eşitmiş əhalisi iyul-avqust aylarında cəbhədən geri çəkilən erməni hərbi birləşmələri qarşısında öz evlərini qoyub qaçırdılar. Bu kəndi tutmuş və kəndə aparan yolları bağlamış erməni əsgərləri bir neçə gün ərzində bütün evləri və həyətlərdəki tikililəri qarət və darmadağın etmiş, kənddən çıxmağa macal tapmamış sakinləri isə amansızlıqla öldürmüşlər. Sənədlərdən həmçinin məlum olur ki, silahlanmış sakinlər tərəfindən müdafiə olunan Maştağa, Buzovna, Pirşağı və d. Bakı kəndləri erməni birləşmələri tərəfindən artıq hücuma məruz qalmış və xüsusilə cəbhə xəttində yerləşən ətraf kəndlərin sakinləri üçün sığınacaq yeri olmuşdur. Bu vəziyyət Bakının 1918-ci il sentyabrın 15-də türk-azərbaycanlı ordusu tərəfindən azad edilməsi ərəfəsində və sonrakı günlər davam etmiş, ingilis qoşunları getdikdən sonra bir gün belə davam gətirə bilməyən Sentrokaspi hökumətinin əsas hərbi qüvvələrini təşkil edən erməni birləşmələri görünməmiş zorakılıq və azğınlıq "nümunələri" göstərərək, 16-17 sentyabr tarixlərində geri çəkildikləri yolların üstündə yerləşən kəndlərə basqınlar etmişlər (sənəd № 832 və s.). Həmin günlər erməni əsgərlərinin istər ətraf kəndlərdə, istərsə şəhərin özündə qarətlərdən, zorakı-

lıqlardan, qətllərdən əl çəkmədiklərini sübut edən FTK sənədləri bunu iddia etməyə əsas verir ki, 1918-ci ilin sentyabr günlərində özbaşınalıq edən quldur, soyğunçu və qatillərin arasında xeyli sayda ermənilər olmuşdur və Bakıda 1918-ci ilin faciəli sentyabr hadisələrinə görə onlar da məsuliyyət daşıyırlar.

Toplunun **VI fəslinə** "Bakı şəhərinin talan edilməsi haqqında" FTK üzvləri, respublikanın prokurorluq orqanlarının və Azərbaycan Məhkəmə Palatasının müstəntiqləri tərəfindən tərtib edilmiş məhkəmə-istintaq materialları daxil edilmişdir. Bu materiallar Bakıda 1918-ci ilin mart hadisələri zamanı törətdikləri cinayətlərdə kifayət qədər ifşa edilmiş Bakı şəhərinin 24 nəfər erməni sakininin müttəhim qismində məsuliyyətə cəlb edilməsi haqqında qətnamələr, həmin ittihamlar üzrə artıq həbs edilmiş şəxslərin dindirmə protokolları, şahidlərin təkrar dindirmə və üzləşmə protokolları, zərərçəkənlərin, həbs edilənlərin qohumlarının və digərlərinin ərizələri və s. sənədlərdən ibarətdir. Çoxsaylı sənədlər istər müttəhimlərin, istərsə də şahidlərin şəxsiyyətlərinin, ünvanlarının, olduğu yerlərin təyin edilməsi, axtarışı, istintaqa dəvət və cəlb edilməsi üzrə Azərbaycan məhkəmə-istintaq orqanlarının son dərəcə ağır, səbirli və gərgin fəaliyyətindən xəbər verir. Toplunun materiallarından göründüyü kimi, müstəntiqlərin bütün səy və axtarışlarına baxmayaraq, mart hadisələri üzrə ittiham edilənlərin əksəriyyətini nə Bakıda, nə də FTK-nın Gürcüstan Respublikasının istintaq orqanları ilə sıx əlaqə saxladığı Tiflisdə aşkar etmək mümkün olmamışdır. Bu şəxslərin hər biri haqqında ayrılıqda axtarış elan edilmiş və istintaq işləri xətm olunana qədər FTK onları inadla axtarmışdır.

Bu fəslin sənədləri arasında 1918-ci ilin bir neçə ayı ərzində Bakıda və Şamaxıda qanlı faciələrin törədilməsində ən mənfur şəxs hesab edilən Stepan Lalayevin ittiham olunması üzrə istintaq materialları xüsusi əhəmiyyət daşıyır. Onun adı yüzlərlə şahid və zərərçəkənlərin ifadələrində çəkilir və bu zaman silahsız dinc müsəlmanları – qoca, qadın, uşaq, xəstə insanları xüsusi qəddarlıq və vəhşiliklə qətlə yetirmiş qaniçən bir yırtıcının obrazı yaranır. S.Lalayevin istintaq işinə aid olan sənədlər, eyni zamanda həmin dövr Bakı küçələrində açıq-aşkar və həyasızcasına gəzən erməni cinayətkarlarını məsuliyyətə cəlb etməyə hazırlaşan FTK müstəntiqlərinin necə mürəkkəb şəraitdə iş-

ləməli olduqlarını bariz surətdə nümayiş etdirir. Məlum olduğu kimi, 1918-i ilin noyabr ayının ortalarından etibarən Bakının hakimi özünü şəhərin general-qubernatoru elan etmiş, Britaniya qoşunlarının Komandanı general V.M.Tomson idi. Yeni yaradılmış strukturun – Müttəfiq Dövlətlər Polisinin komissarı isə polkovnik Kokkerel təyin edilmişdi. Bakı və Şamaxıda müsəlman qırğınları törətmiş Stepan Lalayevin təqsirinin təkzibedilməz sübutlarını təqdim etmiş FTK sədri Ə.b.Xasməmmədov polkovnik Kokkereldən onun həbsinə icazə almağa nail olsa da və S.Lalayev Müttəfiq Dövlətlər Polisi tərəfindən 1918-ci ilin noyabrının sonunda həbs edilsə də, məhbus özü və onun istintaq işi ingilislərin sərəncamında qalmış və "araşdırılmaq" üçün Müttəfiqlərin Hərbi Məhkəməsinə verilmişdi.

Fəslin sənədləri FTK-nın və Azərbaycan Ədliyyə Nazirliyinin Stepan Lalayevin istintaq işinin və müttəhimin özünün "yerli hakimiyyət məhkəməsinə" qaytarılması məqsədilə nə kimi səylər göstərdiyini, ittihamçı tərəfin öz mövqeyini son dərəcə dəqiq və savadlı şəkildə quraraq əsaslandırdığını və bunun nəticəsi olaraq öz məqsədlərinə nail olduğunu aydın surətdə əks etdirir. Qeyd edilməlidir ki, kitaba Stepan Lalayevin istintaq işinin yalnız Bakı hadisələri ilə bağlı sənədləri daxil edilmişdir. İstintaqın gedişi vaxtı Stepan Lalayev Bakı həbsxanasından Gəncəyə göndərilmiş, onun işi xüsusilə mühüm işlər üzrə müstəntiqlərə həvalə edilmişdi. Topluda S.Lalayevin dindirmə protokolları, iş üzrə şahidlərin təkrar dindirmə və üzləşdirilmə protokolları, həmçinin S.Lalayevin şiddətlənən zöhrəvi xəstəlikdən Gəncə həbsxanasında ölməsi haqqında arayış və s. sənədlər cəmlənmişdir. (sənəd №№ 1100, 1101 və s.)

Fəslin materialları arasında mart hadisələrində zərər çəkmiş, FTK-na ifadə vermiş, lakin bu və ya digər səbəblərdən təkrar istintaqa gəlməyən, yaxud dəqiq şərh verməkdən boyun qaçıraraq, əvvəlki ifadələrini tam şəkildə təsdiq etməyən azərbaycanlı şahidlərlə işləməli olan müstəntiqlərin kifayət qədər mürəkkəb şəraitdə çalışdıqlarını təsdiq edən sənədlər də böyük maraq doğurur. Bəzi şahidlərin ifadələrindən göründüyü kimi, bu hallar ən əvvəl həbs edilənlərin qohumları, eləcə də ermənilərin müxtəlif millətçi təşkilatları tərəfindən ayrı-ayrı yollarla şahidlərə təzyiq göstərilməsi ilə izah edilirdi. Maraqlıdır ki, Azərbaycanın yüksək təbəqələrinin və yəhudi icmasının bəzi nümayəndələri, yalnız qorxudan deyil, "keçmiş xoş xatirələrə" rəğmən öz əvvəlki

ifadələrini bir daha təsdiq etməkdən boyun qaçırırdılar. (sənəd №№ 372 və s.) Müqəssir olmadıqlarını inadla təkid edən və bəzən axtarıb tapılması çətin olan əlavə şahidlərin dindirilməsini tələb edən ermənilər də müstəntiqlərə az problem yaratmır, müttəhimlərin və onların qohumlarının adından respublikanın istintaq-məhkəmə orqanlarına, Azərbaycan Hökumətinə, Parlamentə və İngilis komandanlığına saysız müraciətlər, ərizələr, şikayətlər göndərməklə istintaqın gedişinə təsir etməyə çalışırdılar. Bu xahişlərin hamısını nəzərdən keçirən müstəntiqlər onların bir hissəsinin təmin olunmasını, xüsusilə də, müttəhimlərinin bəzilərinin pullu girovla və ya polis nəzarəti altında məhkəməyə qədər azad edilməsini mümkün sayırdılar.

**VI fəsil** FTK-nın icraatında olmuş bütün istintaq işlərinə xitam verilməsini şərtləndirmiş sənədlərlə yekunlaşır. (sənəd №№ 1137, 1138)

Sənədlərin dili və üslubu rus dilində (orijinalda) olduğuna yaxın saxlanılmışdır.

Sənədlərdə Bakı küçələrinin adları 1918-ci ildə işlənildiyi qaydada, rus dilində, latın qrafikası ilə verilmişdir.

Sənədlərin sıra sayı həmin toplunun 2009-cu ildə nəşr edilmiş və 1138 sənəddən ibarət olan tam versiyası əsasında göstərilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında 15 iyul 1918-ci il tarixli rəsmi sənədləri, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il Fərmanı kitabda ayrıca təqdim edilmişdir.

Topluya, həmçinin mart faciələrinin nəticələrini əks etdirən foto-sənədlər də daxil edilmişdir. Onların əksəriyyəti FTK üzvlərinin özləri tərəfindən çəkilmiş və müvafiq aktlarla təsbit edilmişdir. (sənəd №№ 621-624)

1918-ci ilin mart-iyul aylarında Bakıda və respublikanın qəzalarında Qafqazın məhz türk-müsəlman əhalisinin bolşevik-erməni qüvvələrinin zorakılığının qurbanı olması nəticəsində yaranmış vəziyyətlə Avropa ictimaiyyətini tanış etmək məqsədilə 1919-cu ildə AXC XİN tərəfindən FTK-nın 6 cilddə materialları və 95 şəkil (Bakı, Şamaxı və Göyçay qəzalarında çəkilmiş) Fransaya - Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinə göndərilmişdir. Yuxarıda qeyd edildiyi kimi, FTK üzvləri tərəfindən çəkilmiş fotoşəkillər respublikada qalmamışdır və yalnız 94 ildən sonra müəllif tərəfindən xarici arxivlərdən tapılmış və ayrıca nəş-

rdə çap olunmuşdur. FTK-nın bu silsilədən olan və 1918-ci ilin martında Bakıda baş vermiş faciəli hadisələrin nəticələrini əks etdirən fotoşəkilləri məcmuəyə daxil edilmişdir.

Mənbələrdən aydın olduğu kimi, mart günlərində müxtəlif adamlar tərəfindən də şəhərdə onlarla fotoşəkillər çəkilmişdir. Lakin respublika arxivlərində onların cəmi bir neçəsi qalmışdır. (143)

FTK sənədləri arasında Kazım Ələsgər oğlu Axundovun verdiyi şahid ifadəsində Bakıda isti izlərlə çəkilmiş üç fotoşəkil təsvir edilir (sənəd № 1). Maraqlıdır ki, Məmməd Əmin Rəsulzadənin Münhendə nəşr etdiyi "İstiqlal" qəzetinin mart hadisələrinin 15 illiyinə həsr olunmuş sayında, onun öz məqaləsində həmin fotoşəkillərin təsviri verilir. (144) M.Ə.Rəsulzadə qeyd edirdi ki, o, həmin günlərin faciəli hadisələrini fotoşəkillərdə həkk etmiş bir çox iranlı, polyak, gürcü və hətta M.Kulqe soyadlı bir nəfər "əcnəbini" tanıyır. Təəssüf ki, bu fotoşəkillərin taleyi hələ də məlum deyildir.

Qeyd edilməlidir ki, həmin günlər İranın Bakıdakı konsulu M.S.Marağayinin küçə və həyətlərdən cəsədlərin toplanması və dəfn edilməsi məqsədilə yaratdığı xüsusi komissiya tərəfindən də fotoşəkillər çəkilmişdir. Onların biri - qətlə yetirilmiş insanların cəsədi üzərində duran konsulun özünün təsvir edildiyi şəkil sonralar mətbəə üsulu ilə "Bakı şəhərində müsəlmanların kütləvi qırğını" adlı "poçt-kart" şəklində çap edilmiş, Bakı şəhərində müsəlmanlara qarşı törədilmiş cinayətlərin sübutu kimi İranda və digər ölkələrdə geniş yayılmışdır. Həmin şəkil topluya daxil edilmişdir.

Topluda FTK materiallarından foto-nümunələr də, o cümlədən Komissiyaya ifadə vermiş bəzi şahidlərin foto-şəkilləri əlavə edilməklə, təqdim edilir.

Sənədlərdə mətn üzrə qeydlər rəqəmlərlə işarə edilmiş və toplunun sonuna çıxarılmışdır.

Coğrafi adların göstəricisi Bakı şəhərinin küçə, meydan, şəhər məhəllələrinin və bağlarının, habelə sənədlərdə adı çəkilən kənd, şəhər və ölkələrin tarixi və müasir adlarından ibarətdir.

"Bakı şəhərinin və Bakı qəzasının əhalisinin 1916-cı ilə olan milli-dini tərkibi" adlı əlavə Bakı şəhərində 1918-ci ilin mart hadisələri ərəfəsində şəhər və qəza əhalisinin ayrı-ayrı qruplarının say nisbəti haqqında dəqiq təsəvvür yaradır.

Sənədlər toplusuna Bakı şəhərinin 1918-ci ilə olan xüsusi məzmunlu xəritəsi əlavə edilmişdir.

* * *

Müəllif öz iştirakı, köməyi və məsləhətləri ilə bu sənədlər toplusunun hazırlanmasına və nəşrinə yardım etmiş hər kəsə öz dərin minnətdarlığını bildirir.

**Solmaz Rüstəmova-Tohidi**
*tarix elmləri doktoru, professor*
*Azərbaycan Milli Elmlər Akademiyası*
*akademik Z.M.Bünyadov adına Şərqşünaslıq*
*İnstitutunun aparıcı elmi işçisi*

## Mənbələr:


1. Şaumyan S.G.Seçilmiş əsərləri, Bakı, 1978, s.309.
2. Балаев А. Февральская революция и национальные окраины. Мартовские события 1918 г. в Азербайджане. М., 2008, с. 6.
3. Bax.: Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку, 1998, с. 93.
4. Şaumyan S.G.Seçilmiş əsərləri,... s.272.
5. Казымзаде Ф. Борьба за Закавказье (1917-1921). Баку, 2011, с. 21.
6. Yenə orada.
7. Аманжолова IŞA. Из истории межэтнических конфликтов в России (1905-1916 гг.). Россия: идеи и люди. Вып. 3, М., 1998, с. 108.
8. Yenə orada, s. 111.
9. Azərbaycan Respublikasının Dövlət Arxivi (Bundan sonra: AR DA), f.1061, siyahı 1, iş.86, v.74.
10. Ordubadi M.S. Qanlı illər. Bakı, 1991, s. 8-11.
11. Yenə orada, s. 7.
12. İ.V.Voronsov-Daşkovun Nikolay Romanova məktubundan. Bax: Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990, s. 118-120.
13. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, (Bundan sonra: AR Pİİ SSA), f.276, s.8, iş 463, v.18.
14. Лалаян А. Контрреволюционный «Дашнакцутюн» и империа листическая война 1914-1918 гг. Bax: Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990, s.98.
15. AR DA, ф.894. s.10, iş 80, v.v.49-56.
16. Документы по истории Баку. 1810-1917. Баку, 1978, с. 30.
17. AR Pİİ SSA, f.277, siyahı 2, iş 26, v.2.
18. Nəcəfov B. Düşmənin iç üzü. I cild, Bakı, 2007, s.12.
19. Lenin V.İ. Əsərlərinin tam külliyyatı, s. 48, s. 302.
20. Декреты Советской власти. М., 1957, т. 1, с. 298-299.
21. "Известия Бакинского Совета" qəzeti, Bakı, 1918, 21 may.
22. Bax.: Балаев А. Февральская революция ..., s.41.
23. "Бакинский рабочий" qəzeti, Bakı, 1918, 17 fevral.
24. "Армянский Вестник" jurnalı,Yerevan, 1999 г., № 1-2 (elektron versiyası).
25. AR Pİİ SSA, f.276, siyahı.8, iş 155, v. 8.
26. Yenə orada, f.276, siyahı 2, iş.20, v.44.

27. Şaumyan S.G.Seçilmiş əsərləri,... s. 260.
28. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 гг. Баку, 1957, s. 318.
29. Şaumyan S.G.Seçilmiş əsərləri,... s. 260.
30. Качазнуни Ов. Дашнакцутюн больше нечего делать! Баку, 1990, s. 21.
31. AR PİI SSA, f.277, siyahı 2, iş 27, v.16.
32. Казымзаде Ф. Борьба за Закавказье..., s.75.
33. Ətraflı bax: А.Балаев. Азербайджанское национальное движение...; Февральская революция...; B.Nəcəfov. Düşmənin iç üzü. IIcild, Bakı, 2006;
34. "Azərbaycan" qəzeti, Bakı, 1919, 6 dekabr.
35. Muradzadə Məhəmməd. Mart hadiseyi-əliməsi, Bakı, 1996, s. 29.
36. Большевики в борьбе ...с. 333.
37. Балаев А. Февральская революция ..., с. 35.
38. Bayat Kave. Qafqaz üzərində fırtına. İranın müstəqilliyin ilk dövründə Azərbaycan, Ermənistan və Gürcüstan respublikaları ilə regional münasibətləri. 1917-1921, Tehran, 2001, s..39 (fars dilində).
39. AR PİI SSA, f.277, siyahı 2, iş14, v.1-4.
40. Marağayi Said Məhəmməd. Siyasi xatirələr. Tehran, 1994, s. 49 (fars dilində).
41. AR PİI SSA, f.277 siyahı 2, iş14, v.51.
42. Майкл Смит. Память об утратах и азербайджанское самосознание. Азербайджан и Россия: Общество и государство. Москва, 2001, с.95.
43. Şaumyan S.G.Seçilmiş əsərləri,... s.259.
44. AR PİI SSA, f.276, siyahı 9, iş 3, v.25.
45. "Bahar" qəzeti, Хорасан, 1918, 21 aprel (fars dilində).
46. Marağayi Said Məhəmməd. Siyasi xatirələr, s. 49.
47. AR DA, ф.894, siyahı 10, iş148, v.30.
48. AR PİI SSA, f.277, siyahı 2, iş27, v.16-24.
49. "Наш голос" qəzeti, Bakı, 1918, 24 mart.
50. "Известия Бакинского Совета" qəzeti, Bakı,1918, 9 aprel.
51. "Жизнь национальностей" qəzeti, Moskva, 1919, 6 iyul.
52. Нариманов Н. Избранные произведения, Баку, 1989, т. II, с. 123.
53. "Hümmət" qəzeti, Bakı, 1918 г., 3 aprel.
54. Şaumyan S.G.Seçilmiş əsərləri,... s.265.

55. Yenə orada, s. 260, 264, 265.
56. "Azərbaycan" qəzeti, Bakı, 1919, 6 dekabr.
57. Ратгаузер Я. Революция и гражданская война в Баку. 1917-1918. Баку, 1927, с.145.
58. Bax: Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Баку, 2008, с.70 (ingilis dilində)
59. Marağayi Said Məhəmməd. Siyasi xatirələr....s.48.
60. "Azərbaycan" qəzeti, Bakı, 1919, 6 dekabr.
61. "Azərbaycan" qəzeti, Bakı, 1918, 8 dekabr.
62. Şaumyan S.G.Seçilmiş əsərləri,... s.265.
63. Yenə orada, s.265.
64. Казымзаде Ф. Борьба за Закавказье..., с. 80.
65. "Бакинский рабочий" qəzeti, Bakı, 1918, 20 aprel.
66. Ermənistan Respublikası Mərkəzi Hərbi-Tarix arxivi (Bundan sonra: ER MHTA), f.121, siyahı 2, iş 94, v.66; Bax: "«Армянский вестник» jurnalı,,1999, № 1-2.
67. Ратгаузер Я., Революция и гражданская война..., с. 194.
68. ER MHTA, f.121, siyahı 2, iş 94, v.36.
69. Yenə orada, v. 67.
70. Денстервиль. Британский империализм в Баку и Персии.1917-1918. Воспоминания. Тифлис, 1925, с. 209.
71. Yenə orada, s.204, 223, 230.
72. Yenə orada, s.246.
73. "Azərbaycan" qəzeti, Bakı, 1919, 15 sentyabr.
74. "Azərbaycan" qəzeti, Bakı, 1919, 9 dekabr.
75. AR Pİİ SSA, f.276, siyahı 7, iş 253, v.1.
76. Bax: Süleymanov Manaf. Eşitdiklərin, oxuduqlarım, gördüklərim, Bakı, 1987, s.238.
77. Ишханян Б. Великие ужасы в гор. Баку. Анкетное исследование сентябрьских событий 1918 г., Тифлис, 1920, s.29-30.
78. Yenə orada, s. 55.
79. Казымзаде Ф., Борьба за Закавказье..., s. 75.
80. Ишханян Б. Великие ужасы..., s.4.
81. Погромы армян в Бакинской и Елизаветпольской губерниях в 1918-1920 гг. Сборник документов и материалов. Ереван, 2003, s. 82, sənəd № (Bundan sonra: Погромы армян...).

82. AR Pİİ SSA, f.276, siyahı 9, iş 42, v.35.
83. Yenə orada, v. 33.
84. Yenə orada, v. 5-6.
85. Закавказский Сейм. Стенографический отчет. 20 марта 1918 г., s. 39.
86. AR DA, f.894, siy.10, iş144, v.14.
87. Yenə orada, v. 11.
88. Токаржевский Е.А. Бакинские большевики - организаторы борьбы против турецко-германских и английских интервентов в Азербайджане в 1918 г., Баку, 1949, s.85.
89. AR DA, f.894, siy.10, iş 144, v.10.
90. Ратгаузер Я. Указ. раб., с.160.
91. Rəsulzadə M. Azərbaycan Respublikası. Bakı, 1990, s.39.
92. AR DA, f.970, s.1, iş. 1, v.26-27.
93. AR DA, f.1061, s.1, iş. 105, v.1.
94. AR DA, f.1061, s.1, iş. 95, v.3.
95. AR DA, f.100, s.2, iş. 791, v.132.
96. AR DA, f.100, s.2, iş. 791, v.126-127.
97. AR DA, f.100, s.2, iş. 791, v.135.
98. Bax: "Погромы армян.... s.139, 141,142; Sənəd № 128, 130, 131.
99. Yenə orada, s.145-151, sənəd № 136.
100. Yenə orada.
101. Yenə orada.
102. См. Док. №№ 18, 53, 54, 55, 419, 452, 493 и др.
103. Шаган Натали. Турки и мы. www.nzhdeh.narod.ru/Shahan_natali
104. AR Pİİ SSA, f. 277, siy.2, iş 14, v.51; Байков Б. V. Воспоминания о революции в Закавказье. Архив русской революции. М.,1991, т. 9-10, с. 114.
105. Газета «Знамя труда». 29 марта 1918 г., г. Тифлис.
106. Marağayi Said Məhəmməd. Siyasi xatirələr... s. 49
107. «Бакинский рабочий», 18 апреля 1918 г.; Погромы армян..., 33, 35, док. №№ 25, 27.
108. Погромы армян..., с.145-151, док. № 136.
109. Yenə orada, s.158-161, sənəd № 145.
110. Yenə orada.
111. Yenə orada, s. 159.
112. Yenə orada.

113. Yenə orada, s.161.
114. "Известия Совета рабочих и солдатских депутатов Бакинского района" qəzeti, 1918, № 64.
115. "Армянский вестник" jurnalı, Yerevan, 1999, № 1-2; AR Pİİ SSA, f.276, siyahı 8, iş155, v.8.
116. Дадаян Х. Армяне и Баку. 1850-ые годы-1920 г. Ереван, 2007, s.96.
117. Yenə orada, s. 93.
118. Saak (Ter-Qabrielyanın yol. Şaumyana məktubu. 28.04.1918. Rusiy Dövlət İctimai-Siyasi Tarix arxivi, f. 71, siy. 33, iş 1716, v. 62.
119. "Знамя труда" qəzeti, Bakı, 1919, 27 avqust.
120. AR DA, f.100, s.2, iş.791, v.49.
121. AR DA, f.100, s.2, iş.791, v.29.
122. AR DA, f.100, s.2, iş.791, v.11-13.
123. AR DA, f.100, s.2, iş.791, v.v.13, 79.
124. AR DA, f.100, s.2, iş.791, v.123.
125. AR DA, f.100, s.2, iş.791, v.65.
126. AR DA, f.100, s.2, iş.791, v.15.
127. AR Pİİ SSA, f.277, s.2, iş.27, v.v. 334-335.
128. AR DA, f.1061, s.1, iş.95, v.8.
129. AR DA, f.895, s.3, iş.301, v.16-17.
130. AR DA, f.100, s.2, iş.791, v.77-78.
131. AR Pİİ SSA, f.277, s.2, iş.14, v.1-4.
132. AR DA, f.100, s.2 c, iş.122, v.2.
133. Yenə orada, v.43-44.
134. Yenə orada, v.16.
135. Балаев А. Февральская революция... s. 50.
136. "Azərbaycan" qəzeti, Bakı, 1919, 31 mart.
137. Майкл Смит. Память об утратах..., s. 97.
138. "Бакинский рабочий" qəzeti, Bakı, 1998, 26 mart.
139. Bax: Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990; Azerbaycan belgelerinde ermeni sorumu (1918-1920). Ankara, 2001; 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Bakı, 2001; Азербайджанская Демократическая Республика, Баку, 1998; А. Балаев. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку, 1998; Yenə onun: Февральская революция и национальные окраины. Мартовские события 1918 г. в Азербайджане. М.,

2008; B.Nəcəfov. Düşmənin iç üzü. I s., Bakı, 2007; II s., Bakı, 2006; А.Халилов. Геноцид против мусульманского населения Закавказья в исторических источниках. Баку, 2000; A.Paşayev. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001; A.İsgəndərov. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı, 2006 və s.

140. Рустамова-Тогиди Солмаз. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Баку, 2009, 864 с.
141. Рустамова-Тогиди Солмаз. Куба. Апрель-Май 1918 г. Мусульманские погромы в документах. Баку, 2010, 552 стр. с фотографиями.
142. Солмаз Рустамова-Тогиди. Азербайджанские погромы в фотографиях и документах. Баку, 2012. (rus, ingilis və türk dillərində).
143. Azərbaycan Respublikasının Dövlər foto və kinosənədlər arxivi. AMEA Tarix muzeyi .
144. "İstiqlal" qəzeti, Münhen, 1933, 1 aprel, № 31.

## Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında Azərbaycan Hökumətinin QƏRARLARI

### HÖKUMƏTƏ MƏRUZƏ

Artıq dörd aydır ki, Azərbaycan ərazisinin müxtəlif bölgələri quldur dəstələri tərəfindən dağıdılır, bolşevik adı altında məsuliyyətsiz erməni hərbi hissələri və başqaları mülki müsəlman əhalisinin həyatı və əmlakına qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Eyni zamanda həmin quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən yanlış məlumatlar əsasında Avropa ölkələrində ictimai fikir tamamilə əks istiqamətə yönəldilir. Ümumdövlət maraqları, əhalinin zərərçəkən qruplarının mənafeyi hökmən, elə bir təşkilatın yaradılması zərurətini irəli sürür ki, o, aşağıdakılarla məşğul olsun: 1. bütün zorakılıq hadisələrinin dəqiq qeydiyyatının aparılması; 2. həmin zorakılıqların törədildiyi şəraitin müəyyən edilməsi; 3. müqəssirlərin aşkar olunması və onların vurduqları zərərin ümumi miqdarının müəyyənləşdirilməsi;

Bu təşkilat Fövqəladə Təhqiqat Komissiyası[1] xarakteri daşımalıdır, habelə bu komissiyanın işinin nəticələri Avropanın əsas dillərində (rus, fransız, alman, və, təbii ki, türk dillərində) elan edilməli və geniş yayılmalıdır.

Bu komissiyanın təşkilinə yubanmadan başlamaq lazımdır, çünki, bu gün, hadisələrin isti izi ilə asanlıqla müəyyən edilməsi mümkün olan bir çox işləri - şəxslərin dindirilməsi, fotoşəkillərin çəkilməsi və digər əşyayi-dəlillərin əldə edilməsi – sonradan görmək çətinləşəcəkdir, hətta ola bilsin ki, qətiyyən mümkün olmayacaqdır.

Əgər Hökumət bu təkliflə razılaşırsa, onda mən xahiş edərdim ki, həmin Komissiyanın yaradılması Nazirlərdən birinə həvalə edilsin və Komissiyanın xərcləri üçün müvəqqəti olaraq 50 000 rubl pul ayrılsın.

Xarici İşlər Naziri M. Hacınski[2]

Yelizavetpol, 15 iyul 1918-ci il

**Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 1061, siyahı 1, iş 105, vərəq 1 (bundan sonra: AR DA, f. s. iş. v.)**

## Azərbaycan Respublikası Hökumətinin qərar jurnalından ÇIXARIŞ

**15 iyul 1918-ci il**

**Dinlənildi:** Müsəlmanlara və onların əmlaklarına qarşı törədilmiş zorakılıq hallarının təhqiq olunması üçün Fövqəladə Təhqiqat Komissiyasının təşkil edilməsi haqqında Xarici İşlər nazirinin məruzəsi.

**Qərara alındı:** Xarici İşlər nazirinin məruzəsi bəyənilsin və ona tapşırılsın ki, Avropa müharibəsi başlandığı vaxtdan bütün Cənubi Qafqaz hüdudlarında müsəlmanlara və onların əmlakına qarşı törədilmiş zorakılıq hallarının təhqiq olunması üçün Fövqəladə Təhqiqat Komissiyasını təşkil etsin.

Əsli ilə düzdür:

Katibin köməkçisi (imza).

**AR DA, f. 1061, s.1, iş. 95, v.2.**

## QƏRAR

**31 avqust 1918-ci il, Gəncə şəhəri.**

Hökumətin 15 iyul 1918-ci il tarixli Qərarının icra olunması üçün sədr - andlı iclasçı Ələkbər bəy Xasməmmədovdan[3] və aşağıdakı üzvlərdən ibarət olan tərkibdə Fövqəladə Təhqiqat Komissiyası yaradılsın: Gəncə Dairə Məhkəməsinin üzvləri İsmayıl bəy Şahmalıyev[4] və Andrey Fomiç Novatski[5], həmin dairə məhkəməsinin prokurorunun müavini Nəsrəddin bəy Səfikürdski[6], Gəncə Köçürmə idarəsinin üzvü Nikolay Mixayloviç Mixaylov[7] və Barışdırıcı hakimlər qurultayının keçmiş Sədri, həqiqi mülki müşavir V.V.Qudvillo[8] və müəllim Məmməd Cavad Axundzadə. Gündəlik maaş təyin edilsin: Komissiya Sədrinə - 60 rubl məbləğində, dövlət xidmətində olan komissiya üzvlərinə gündəlik 40 rubl, qalanlarına isə 50 rubl məbləğində. Səfərlər üzrə xərclər həqiqi qiyməti üzrə ödənilsin. Komissiyaya katib, ekspertlər və ehtiyac olan digər şəxsləri dəvət etmək imkanı verilsin.

Xarici İşlər Naziri əvəzinə F. Xoyski[9]

Komissiyanın Sədri: Ə.Xasməmmədov (imza).

**AR DA, f. 1061, s. 1, i. 105, v. 2.**

# FƏSİL I

## AZƏRBAYCANLI SAKİNLƏRİN ŞAHİD İFADƏLƏRİ

## Sənəd № 1

*Dindirmə protokolu*

*1918-ci il. 7 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi şahid qismində dindirmiş və o, Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Kazım Ələsgər oğlu Axundov, 35 yaşım var, "Nikolay Bünyadov" gəmisində Komandir köməkçisi (Bakı şəhəri, Verxnyaya Tazapirskaya küçəsi 17).**

Bu il mart ayının 17-də[10] axşam saat səkkiz radələrində mən bolşeviklərin Musa Nağıyevin[11] Birjevaya və Krasnovodskaya küçələrinin kəsişməsində yerləşən evində[12] keçirilən yığıncağına getdim. Məni bolşeviklərin yığıncağına buraxmadılar, çünki bu zaman orada sırf partiya iclası keçirilirdi, mən isə Sosialist-inqilabçılar[13] partiyasının üzvü idim və bununla belə Fəhlə, Əsgər və Matros Deputatların Bakı Sovetinin[14] də üzvü idim. O zaman mən Musa Nağıyevin həmin evində, "Astoriya" mehmanxanasında[15] yerləşən Hərbi-İnqilab Komitəsinə[16] baş çəkdim. Bu vaxt Petrovskaya meydanı tərəfdə atışma başlandı. Ermənilərin və Avakyanın[17] sözlərinə görə müsəlman diviziyasının[18] süvariləri qırmızı qvardiyaçılara və Nəzarət rotasına atəş açıblar. Avakyan Hərbi-İnqilab Komitəsində onun yanına gələn bütün ermənilərə vəziyyətindən və peşəsindən asılı olmayaraq tüfəng və patron paylayırdı. Mən küçəyə çıxdım. Bütün evlərdən ermənilər - hərbçi və mülki - əllərində silah küçəyə çıxırdılar. Mən, ermənilərin izdihamının içindən keçərək və Krasnovodskaya, Qoqolevskaya və Mariinskaya küçələrini adlayaraq Molokanskaya küçəsi ilə getdim. Adı çəkilən bütün küçələr silahlı ermənilərlə dolu idi və erməni kütlələrinin izdihamı səbəbindən konkaların hərəkəti dayanmışdı. Mən Hərbi-İnqilab Komitəsinə qayıtdım. Mənim xatırladığıma görə, təxminən gecə saat 12 ½ radələrində Hərbi-İnqilab Komitəsinə Abbas Qulu Kazımzadə[19], Qasım Qasımov, həkim Tağıyev, Behbud xan Cavanşir[20], Ter-Mikaelyan və digərlərindən ibarət olan nümayəndə heyəti gəldi. Az sonra həkim Leon Atabekyan gəldi və Arakelyandan – İcraiyyə Komitəsi sədrinin köməkçisindən xahiş etdi ki, hadisələr sülh yolu ilə yoluna qoyulsun, yoxsa ermənilərlə müsəlmanlar arasında milli qırğın baş verəcəkdir. Atışma getdikcə güclənirdi və

güllələr vıyıldayırdı. Sonradan müsəlman diviziyasının süvarilərindən öyrəndim ki, Lənkərana yola düşmək üçün onlar “Evelina” gəmisinə minən zaman erməni əsgərlərinin dəstəsi gəlmiş və süvarilərə silahlarını təhvil verməyi təklif etmişdir. Süvarilər imtina etdikdə, erməni dəstəsi atəş açmışdır. Süvarilər də öz növbəsində onlara tüfəng atəşi ilə cavab vermişlər. Ermənilər “Evelina” gəmisinin durduğu Rusiya-Qafqaz Gəmiçilik Birliyinin[21] limanını dörd tərəfdən, Merkuryevskaya və Mariinskaya küçələrinin tinlərindən, Bolşaya Morskaya küçəsindən və 19 №-li limandan güllə atəşinə tutmuşlar. Süvarilərə 1500 nəfərdən ibarət ermənilər də atəş açırdılar. Hərbi-İnqilab Komitəsində nümayəndə heyəti süvarilərin silahları təhvil verməsinin şərtlərini hazırladı və nümayəndə heyətinin oraya gələcəyi barədə süvariləri əvvəlcədən telefon vasitəsilə xəbərdar edərək, limana yollandı. Nümayəndə heyəti gələn kimi hər iki tərəfdən atışma dayandırıldı. Nümayəndə heyəti divizionun süvariləri ilə danışıqlar apararaq, süvarilərin silahlarını təhvil verəcəyi təqdirdə, onların özlərinin sağ-salamat buraxılacağına zəmanət almaq üçün Hərbi-İnqilab Komitəsinə qayıtdı. Yalnız martın 18-i səhər saat 6-da nümayəndə heyəti süvarilərdən silah, patron və yəhərləri təhvil aldı. Mən səhər saat yeddidə evə gəldim və günorta saat üçə qədər yatdım. Nümayəndə heyəti mənimlə birgə dağılışdı və işin həll olunduğuna görə müsəlmanlar razı qaldılar. Martın 18-də günorta saat üçdə arvadım məni oyatdı və xəbər verdi ki, şəhərdə hadisələr gözlənilir. Mən həyəcanlandım, çünki bilirdim ki, ermənilər artıq bir neçə ay idi ki, şəhərin ermənilər yaşayan hissəsinə, Ermənikəndə və kəndlərə tüfənglər, pulemyotlar, patronlar daşıyaraq sürətlə silahlanırdılar. Mən şəhərdə öyrəndim ki, “İsmailiyyə”[22] Xeyriyyə cəmiyyətinin binasında müsəlmanların iclası keçirilmişdir və Ter-Mikaelyan bu iclasa gələrək Erməni Milli Şurasının[23] və “Daşnaksütun”[24] partiyasının adından rəsmi şəkildə bildirmişdir ki, əgər müsəlmanlar çıxış edərsə, ermənilər də müsəlmanlara qoşulacaq və bolşeviklərin qovulmasına kömək edəcəklər. Müsəlmanlar minnətdarlıqlarını bildirmiş, lakin cavab vermişlər ki, çıxış etmək fikirləri yoxdur. Şəhərdə müsəlmanlar nədənsə narahat idilər, lakin nə baş verdiyini heç cür anlamırdılar. Mən İcraiyyə Komitəsinə yollandım və yalnız Parapetə[25] kimi gedə bildim, çünki burada xeyli silahlı erməni var idi, onların yanından keçib getməyə risk etmədim. Mənim saatımla saat 4.40 dəqiqədə Parapetin qarşısında olan erməni kilsəsinin[26] yaxınlığında, Erməni Milli Komitəsinin döyüşçü drujinası adlandırılan

Yeqiş Paxlavuninin erməni dəstəsi silahlardan müsəlmanlara atəş açdı. Demək olar ki, eyni vaxtda şəhərin "Şamaxinka" adlandırılan hissəsində Levon Saatsazbəyovun erməni dəstəsi atəş açmağa başladı.

19 martda, səhər erkən, müsəlmanların hələ yatdığı vaxt, erməni əsgərlərinin hücumu başlandı. Ermənilər ilk hücumlarını şəhərin müsəlmanlar məskunlaşan "Kərpicxana", "Məmmədli" və "Poxlu Dərə" rayonlarında həyata keçirdilər. Şəhərin bu və digər rayonlarını dənizdən "Ərdahan" və "Janr" hərbi gəmiləri toplardan, Ermənikənd tərəfdən isə ermənilər toplardan atəşə tuturdu. Matroslar müsəlmanlara qarşı çıxış etmək istəmirdilər, lakin onlar yalnız ermənilərin fitnəkarlığı sayəsində çıxış etdilər, çünki ermənilər onları inandırmışdı ki, müsəlmanlar Qalada olan bütün rusların və xristianların hamısını qılıncdan keçiriblər. Amma matroslar müsəlmanların ruslara toxunmadığına, əksinə, onlara yemək verdiklərinə əmin olduqdan sonra toplardan atəş açmağı dayandırdılar. Martın 19-u axşam müsəlmanlar bolşeviklərin ultimatumunu[27] tanımağa məcbur oldular və sülh bağladılar, lakin ermənilər barışıqdan sonra da müsəlmanları öldürməkdə davam edirdilər. Martın iyirmisinə qədər müsəlmanların əksəriyyəti belə düşünürdü ki, ermənilər onlara qarşı çıxış etməzlər və buna görə də martın 20-dək ermənilərə atəş açmırdılar. Martın 20-də bütün müsəlman evlərinin üzərində ağ bayraqlar göründü, lakin ermənilər evlərə soxulmaqda və dinc müsəlmanları qətlə yetirməkdə, qadın və uşaqları evlərdən bayıra çıxararaq, küçədə öldürməkdə, müsəlmanların evlərini yandırmaqda davam edirdilər.

Hələ martın 19-da ermənilər demək olar ki, şəhərin "Kərpicxana", "Məmmədli" və "Poxlu Dərə" rayonlarını tamamilə məhv etdilər. Ruslar və matroslar erməniləri dayandıra bilmirdilər, lakin harada mümkün idi, müsəlmanlara kömək edirdilər. Martın 21-də aviasiya məktəbinin rəisi mənə 4 dənizçi verdi və biz əlimizdə tüfəng Bazar küçəsinə yollandıq. Erməni əsgərləri burada müsəlmanların evlərini, dükanlarını və mağazalarını yandırır, qarət edir, müsəlmanların özlərini isə öldürürdülər.

Bazarnaya küçəsində biz üç erməni soyğunçunu güllələdik və bir ermənininin kisəsindən üstündə insan ətinin qalıqları olan sırğa tapdıq. Ermənilər martın 24-dək dinc müsəlmanları qırmaqda davam etdilər və yalnız 36-cı Türküstan alayının tələbindən və matrosların hədələrindən sonra, həmçinin İcraiyyə Komitəsinin Sədri Caparidzenin[28] ciddi müdaxiləsindən sonra qırğınları dayandırdılar. Dənizçilər hədələyirdilər ki,

əgər ermənilər müsəlman qırğınlarını dayandırmazsa, toplardan şəhərin ermənilər yaşayan hissəsini atəşə tutacaqlar. Bundan sonra "Ərdahan" və "Krasnovodsk" hərbi gəmiləri şəhərin şərq hissəsində yerləşən limanlara yaxınlaşdı. Martın 24-də dənizçilər mənə təyyarəçi Rozemblumun rəhbərliyi altında 10 silahlı matros verdilər və biz ayın 25-i səhər 6-dək şəhərin Çəmbərəkənd rayonunu mühafizə etdik.

Martın 25-də mən Nikolayevskaya küçəsindən cəsədlərin yığışdırılması ilə məşğul olmağa başladım. Mən digər müsəlmanlarla birlikdə 3 müsəlman gimnaziya şagirdinin, süngülərlə deşik-deşik edilmiş və qılınclarla doğranmış 11 müsəlmanın cəsədini, bir rus qadının, 3-5 yaşlarında üç müsəlman oğlan uşağının, 8 rus kişi, 19 müsəlman - iranlı təbəələrin və müxtəlif peşələrin sahibi olan 67 müsəlman kişi cəsədlərini yığışdırdım. Biz bu cəsədlərin hamısını avtomobillərdə məscidə apardıq.

Məndən başqa ermənilər də müsəlmanların cəsədlərini yığışdırır, araba və avtomobillərdə köhnə "Vulkan" limanına aparırdılar. Buraya 6748 nəfər müsəlman kişi, qadın və uşaq meyitləri gətirilmişdi. Martın 26-da mən şəhərin "Məmmədli" və "Poxlu Dərə" rayonlarına yollandım ki, müsəlmanlar burada martın 31-dək cəsədləri yığışdırıb qurtara bilmirdilər. Bu rayonlardan meyitləri müsəlmanlar qəbiristanlığa aparırdılar. Mən şəhərin "Kərpicxana" adlanan rayonuna özümlə texnik Vladimir Sokolovu apardım ki, cəsədlərin fotoşəkillərini çəksin. Sokolov üç şəkil çəkdi. Birinci şəkil: Başında güllə yarası olan qadın cəsədi, bədənində beş süngü yarası və doğranmış sağ körpücük sümüyü. Cəsədin sağ döşü üzərində süngü ilə ayağından yaralanmış hələ sağ olan körpə var və anasının döşünü əmir. İkinci şəkil: İki yaşlarında olan bir uşaq yeddi-səkkiz verşok uzunluğunda mismarla otağın divarına mismarlanmışdır. Mismarın papağından görünürdü ki, mismar elə burada atılıb qalmış daşla vurulmuşdur. Üçüncü şəkil: Yataqda 13-14 yaşlarında qız cəsədi. Onun vəziyyəti göstərirdi ki, bir neçə şəxs tərəfindən zorlanmışdır. Aralı qalmış ayaqlarının arasındakı yataq qana bulaşmışdı. Boynunda barmaq izləri var idi. Bu şəkilləri Sokolov üç evdə çəkdi. Biz dördüncü evə girəndə, qarşımızda aşağıdakı mənzərə açıldı: Böyük otağın döşəməsində 22-23 yaşlarında bir qadının çılpaq cəsədi, iki qoca qarının və bələkdə olan körpənin ayaq və əllərini üç it gəmirir, altı yaşlı qızın və səkkiz yaşında oğlanın cəsədləri. Mən itləri güllələdim. Sokolov sifətini dəsmalla örtdü, hönkürərək otaqdan qaçdı və şəkil çəkməkdən imtina edərək, evinə getdi.

Mən tək qaldım və bir-bir evlərə girməyə başladım. Bütün evlərdə müsəlmanların – kişi, qadın və uşaqların müxtəlif vəziyyətlərdə meyitləri var idi və ətrafda bütün bu dəhşəti daha da gücləndirən ölü sükut hökm sürürdü. Hələ indi də, doqquz aydan sonra, yadıma düşəndə belə, məni dəhşət bürüyür. Bütün dəhşət və ölüm mənzərələrini təsvir etmək mənim üçün çox ağırdır, yalnız onu deyə bilərəm ki, "Məmmədli" və "Poxlu Dərə" rayonları başdan ayağa dağıntılardan və meyitlərdən ibarət idi, və meyitləri toplayan müsəlmanlardan başqa bu rayonlardan kimsə yox idi. Geriyə qayıdarkən, Mərkəzi həbsxananın[29] yaxınlığında 400-dən artıq kişi, qadın və uşaq meyitlərinə rast gəldim. Demək olar ki, bütün meyitlər soyundurulmuşdu və başları qərbə doğru uzadılmışdı.

Ermənilər qarşılarına bütün müsəlmanları məhv etmək məqsədi qoymuşdular, lakin onlara şəhərin rus əhalisi və ruslardan ibarət olan hərbi hissələr mane olurdu. Ermənilər mart hadisələrindən sonra türklər gələnədək, fürsət düşdükcə, müsəlmanları, əsas etibarı ilə şəhərdən kəndlərə köçmüş bütün müsəlmanları öldürür və qarət edirdilər. Məsələn, ermənilər "Bərk Dərə" adlanan yerdə pusqu quraraq, şəhərdən Qobu kəndinə gedib-gələn bütün müsəlmanları qətlə yetirir və qarət edirdilər. Müsəlmanların ermənilər tərəfindən sistemli şəkildə qırılması və qarət edilməsi İcraiyyə Komitəsini məcbur etdi ki, Ryabovun başçılıq etdiyi dəstəni və 15 silahlı ilə məni şəhərin müdafiəsinə göndərsin. Ryabovun dəstəsi 12 silahlı şəxsdən ibarət idi. Biz 18 ermənini mühasirəyə alaraq, onların silahlarını götürdük və özlərini həbs etdik. Ermənilər müsəlmanları kəndlərdə də qətlə yetirirdilər, cəsədləri xəndəklərə və quyulara atırdılar. Ermənilər gənc müsəlman qadınları öz evlərinə aparır və zorlayırdılar. Ermənilər xeyli müsəlman qadınını Ermənikəndə aparmışdılar. Müsəlmanlar özləri və təcavüzə məruz qalmış müsəlman qadınlar öz rüsvayçılıqlarını gizlədir və ermənilər tərəfindən evlərindən əsir aparılaraq, onlara nə edildiklərini danışmırlar.

Oxundu. İmza.

Fövqəladə Təhqiqat Komissiyasının sədri:

Ələkbər bəy Xasməmmədov (imza).

Komissiya üzvləri: Məmməd Xan Təkinski[30], A.Aleksandroviç[31],

A.Kluge[32] (imzalar).

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, fond 277, siyahı 2, iş 14, vərəq 49-52 (bundan sonra: AR Pİİ SSA...)**

## Sənəd № 2

*Dindirmə protokolu*

*1918-ci il. 28 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi zərərçəkmiş qismində dindirmiş və o, Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Əli Əsədullayev[33], 30 yaşlı, ilk müsəlman süvari polkunun[34] bölük komandiri, daimi yaşayış yerim Bakı şəhəri, Qoqolevskaya küçəsi, şəxsi evimdə.**

Mən Bakıda Tatar Süvari Diviziyasının[35] yaradılması ilə məşğul idim və bundan sonra yenidən təşkil edilmiş hissəmlə Lənkərana yola düşdüm, burada mən qayda-qanunu qoruyur və müsəlman və xristian əhalisi arasında münasibətləri tənzimləyirdim. Bu ilin mart ayının ortalarında mənim xidmət yoldaşlarımdan biri olan Məmməd Tağıyev[36] silahla ehtiyatsız davranması nəticəsində həlak olmuşdu. Mən kiçik dəstə ilə onun cənazəsini torpağa tapşırıldığı Bakı şəhərinədək müşayiət etdim. Martın 17-də axşam, mən geriyə, Lənkərana qayıtmaq üçün, öz süvarilərimlə birlikdə Petrovskaya meydanında yerləşən Rusiya-Qafqaz Cəmiyyətinin limanına gəldim. Limanda mənə dedilər ki, İcraiyyə Komitəsi bizi tərksilah etməyə hazırlaşır. Sonra sərnişinlərə elan etdilər ki, gəmidə axtarış aparılacaqdır. Mən öz süvarilərimə gəminin göyərtəsində bir yerə toplaşmağı əmr etdim. İkinci fitdən sonra mənə dedilər ki, bolşeviklər gəminin limandan ayrılmasına icazə vermirlər. Belə olduğu halda mən öz adamlarımla gəmidən endim və bizi niyə Lənkərana buraxmadıqlarını öyrənmək məqsədilə şəhərə yollandım. Mən Petrovskaya meydanına çıxıb limandan 30-40 addım aralanan zaman meydanın hər tərəfindən əvvəlcə tüfəng, sonra isə pulemyot atəşi açıldı. Mən öz süvarilərimlə yerə yatmalı və bizə hücum edənlərə atəşlə cavab verməli oldum. Bizə əsgərlər atəş açırdılar. Bir müddət sonra bir neçə yoldaşımla qonşu gəmiyə keçə bildik və burada səhəri gözlədik: sonra mən mülki paltar geyinərək Qalaya yollandım. Əksəriyyəti ermənilərdən ibarət olan bolşeviklər mənə və mənim yoldaşlarıma hücum etməklə, bizi, müsəlmanları hər hansı bir silahlı çıxışa sövq etmək istəyirdilər. Belə cəhdlər əvvəllər də baş vermişdi. Məsələn, bu

ilin yanvarında bizim yaranmaqda olan müsəlman korpusunun[37] qərargahı Tiflisdən Bakıya gələrkən, guya qərargahın zabitləri arasında əvvəllər jandarmeriyada xidmət etmiş şəxslərin olması bəhanəsi ilə vağzalda saxlanılmışdı. Sonradan hamıya məlum olduğu kimi, erməni hərbi hissələrinin müsəlman kəndlərində məzlum qadın, uşaq və qocalara işgəncə verdiyi və öldürdüyü çoxlu hallar baş vermişdir. Mən İçəri şəhərdə - Qalada bir neçə gün qaldım və ermənilərlə müsəlmanlar arasında barışıq elan edildikdən sonra oradan çıxdım. Mənə və mənim süvarilərimə basqın edilən günün ertəsi, yəni martın 18-də, bütün küçələrdə erməni silahlı patrulları gəzişirdi. Ermənilər müsəlmanlara deyirdilər ki, onlara hücum etməyəcəklər, əksinə onlarla birlikdə bolşevikləri Bakıdan qovacaqlar. Bununla belə, bazar ertəsi, mart ayının 19-da, bolşeviklərlə müsəlmanlar arasında barışıq elan edildikdən sonra, erməni hərbi hissələri müsəlman məhəllələrinə hücuma keçdilər. Stepan Lalayevin[38] öz erməni drujinası ilə kilsənin[39] qarşısındakı darvazalar tərəfdən Qalaya necə hücum etdiyini öz gözümlə görmüşəm. Ermənilər qaçaraq yer dəyişməklə qala qapılarına yaxınlaşırdılar. Barışıq elan edilənədək hər cür mümkün sığınacaqlardan bizə hücum edən erməni dəstələrinə atəşlə cavab verməli olmuşduq. Ermənilər çərşənbə axşamınadək, yəni martın 21-dək şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlarını davam etdirdilər və bu müddət ərzində xeyli köməksiz müsəlmanı qətlə yetirdilər.

Məsələn, deyəsən Abbas Eyvazovun alman mürəbbiyəsi Serj Melikovun başçılıq etdiyi erməni dəstəsinin qonşuluqda olan evlərdən birinə soxulduğunu və orada 8 qadın və uşağı necə güllələdiyi görmüşdür. Sonra ermənilər "İsmailliyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasını yandırdılar, "Kaspi" qəzetinin[40] redaksiyasının binasında saxlanılan 5000 nüsxə Qurana od vurdular və kitablar hamısı bina ilə birlikdə yanıb külə döndü. Bala Əhməd Muxtarovun Persidskaya küçəsindəki evinə gələrək, orada olan polkovnik Tabasaranskini, ştab-rotmistr Əmircanovu, polkovnik Azad bəy Vəzirovu, həkim Kərim bəy Sultanovu, həkim Tağıyevi (bolşevik), andlı iclasçı Məmməd Xan Təkinskini, Muxtarovun Mustafa adlı mühasibini və digər şəxsləri ermənilər bir-bir adları ilə çölə çağıraraq, elə evin yanında güllələməyə başladılar. Həkim Tağıyev ermənilərə qışqırırdı ki, ona toxunmasınlar, çünki o bolşevikdir, lakin bu ona kömək etmədi. Adları sadalananlardan təsadüf nəticəsində Xan Təkinski, Vəzirov və Cavanşir xilas oldular.

Ümumiyyətlə, ermənilər bu müddət ərzində müsəlmanları hər cür ələ salır, işgəncə verir, harada bacarırdılarsa, öldürürdülər. Müsəlman qadınları əsir götürərək küçələrdə çadrasız getməyə məcbur edirdilər. Əsirliyə aparılan müsəlman qadınlardan biri geri qalanda erməni əsgərləri onu tüfəngin qundağı ilə qovmağa başlayırdılar; bir qadını müdafiə edən Məşədi Hüseyn Səfərəliyevi boynunun arxasından güllə ilə vurmuşdular və güllə onun sağ gözünün altından çıxmışdı. Mənim evimin yanında ermənilər iki müsəlmanı: qoca kişi və qadını qılıncla doğramışdılar. Məşədi Hüseyn Səfərəliyevin dediyinə görə, əsir götürülənlərin hamısı yalnız ona görə öldürülməmişdi ki, təsadüfən yanlarından keçən matroslar onları müdafiə etmişdi. Mənim eşitdiyimə görə, mart hadisələri zamanı 3000 nəfərədək müsəlman qətlə yetirilmişdir. Atışmalar zamanı küçələrdə elə də çox müsəlman zərər çəkməmişdi; artıq barışıq elan edildikdən sonra ermənilər bir-bir müsəlman evlərini gəzir, xüsusi siyahılar üzrə bu evlərin sakinlərini küçəyə çıxarır və oradaca güllələyirdilər. Onların çoxunu əsir götürür, yolda öldürür və quyulara atırdılar. Barışıq elan edildiyini bildirərək, hara aparıldıqlarını soruşan müsəlmanlara isə erməni əsgərləri belə cavab verirdilər ki, onlar heç nə bilmirlər və yalnız "Daşnaksütun" partiyası onlara əmr etdikdən sonra hərbi əməliyyatlara son qoyacaqlar.

Şəhərin kənarlarına səpələnmiş erməni dəstələri şəhərdən qaçıb gedən müsəlman əhalisini pulemyotlardan və tüfənglərdən atəşə tuturdular.

Mart hadisələrinin bolşeviklərin nə partiya maraqları, nə də səyləri nəticəsində törədilmədiyi, yalnız milli zəmində və yalnız ermənilərin günahından başlandığı bundan bəlli olur ki, erməni ziyalılarının bir çox nümayəndələri – Xaçaturovlar, Ambarsum Melikovun oğulları, eləcə də Ambarsum Melikovun[41] özü, Lalayevlər, Hayk Ter-Mikaelyantsın oğlu və Baqrat Jxiyants və başqaları tüfənglərlə silahlanmış, patrondaşları üstlərinə sarımış halda şəhərin küçələrində dolaşırdılar. Zirzəmisində 5000 nüsxə Quranın saxlanıldığı "Kaspi" qəzeti redaksiyasının binasının, müxtəlif partiyaların bürolarının, o cümlədən bolşeviklərin – Azərbaycan müsəlmanlarının "Hümmət" partiyasının[42] bürosunun da yerləşdiyi "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının yandırılması da buna sübutdur.

Adamovlar nəslindən olan tanınmış erməni xeyriyyəçi qadın, adı və atasının adı indi yadımda deyil, hansısa xeyriyyə cəmiyyətinə bir kəllə qənd göndərərək, hərəkətini belə izah etmişdir ki, o, hələ əvvəllər söz

veribmiş ki, müsəlmanlar qılıncdan keçirilən gün bu kəlləni qurban edəcəkdir. İndi həmin gün artıq gəlmişdir. Mart qırğınlarından sonra bir çox erməni evlərində ballar təşkil edilirdi.

Oxundu. Poruçik Əli Əsədullayev (imza).

Komissiya üzvü: Prokuror köməkçisi A.Kluge (imza).

Komissiya üzvü: Məmməd Xan Təkinski (imza).

Komissiyanın sədri: Ələkbər bəy Xasməmmədov (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 44-47.**

## Sənəd № 4

### *Dindirmə protokolu*

*1918-ci il. 24 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi zərərçəkmiş qismində dindirmiş və o Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Məmməd Əliyev, 29 yaşım var, Bakı şəhəri, Serkovnaya küçəsi, ev № 189 ünvanda yaşayıram.**

Bu il mart ayının ortalarında mən bizim komandirimiz Əli Əsədullayevlə və Milli Tatar polkunun[43] digər süvariləri ilə birlikdə bizim polkun zabiti Məmməd Tağıyevin cəsədini Lənkərandan Bakıya gətirdik. Martın 17-də axşam Lənkərana geri qayıtmaq üçün hamımız Rusiya-Qafqaz cəmiyyətinin gəmisinə gəldik. İkinci fitdən sonra bizə bildirdilər ki, İcraiyyə Komitəsi gəminin dənizə buraxılmamağı haqqında sərəncam verib. Onda Əsədullayev və mən bir neçə nəfər digər süvarilərlə birlikdə gəmidən endik və Petrovskaya meydanına yollandıq. Limandan 30-40 addım aralanmağa macal tapmamışdıq ki, meydana çıxan bütün küçələrdən, evlərin damlarından bizim qrupu tüfəng və pulemyotlardan atəşə tutdular. Güllə atan Erməni polkunun əsgərləri və digər əsgərlər idi. Bu atışma zamanı mən hər iki ayağımdan yaralandım. Məni əvvəlcə gəmiyə keçirdilər və sarğı qoydular, ertəsi gün isə Qlaz və Kaqanın[44] xəstəxanasına apardılar və burada həkim Finkelşteyn[45] mənim sağ ayağımı kəsdi. Xəstəxanada yatdığım müddətdə

oraya üç erməni gəldi və mənimlə bir palatada yatan iki müsəlmanı özləri ilə apardılar.

Qabaqcadan onlardan birindən 1000 rubl aldılar. Tibb bacısı və həkimlərin xahişi ilə ayağım olmadığı üçün mənə toxunmadılar. Həmin vaxtda mənim mənzilimi qarət etmişdilər, amma arvadıma və anama toxunmamışdılar, çünki arvadım karaim idi, anamı isə dağ yəhudisi kimi təqdim etmişdilər. Pul və əşyalarla birgə məni yetmiş min rubl dəyərində qarət etmişlər. Artıq sonralar çəkməçi İsaak Baqdasarov mənə danışırdı ki, mən yaralandığım gecə bütün ermənilər, onun özü də, “Daşnaksütun” partiyasının əvvəlcədən verdiyi əmrə əsasən şəhəri mühasirəyə almışdılar və silahlanaraq küçələrə çıxmışdılar.

Sonradan mən arvadımla birlikdə gəmidə qalmış əşyalarımın geri qaytarılmasına sərəncam verməsi xahişi ilə Fövqəladə Qafqaz Komissarı Şaumyanın[46] qəbuluna getmişdik. O mənə dedi: “İndi siz bizə lazım deyilsiniz. Hara istəyirsiniz çıxın gedin. Sizin hamınızı qabaqcadan öldürmək lazım idi”.

Oxundu. Məmməd Əliyev (imza).

Komissiyanın sədri: Ələkbər bəy Xasməmmədov (imza).

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri: A.Kluge,

Məmməd Xan Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 26-27.**

## Sənəd № 5

***Dindirmə protokolu***

*1918-ci il. 5 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi şahid qismində dindirmiş və o, Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Mir Əbdül Əziz Seyidov[47], 21 yaşlı, Bakı şəhərində, Zavedenskaya küçəsi, 13 №-li evdə yaşayıram.**

Bu ilin mart ayında, ermənilərin müsəlmanlar üzərində zorakılıqlar törətdiyi zaman, mən Tatar süvari polkunda könüllü zabit kimi xidmət edirdim. Polkumuz Lənkəranda yerləşirdi, lakin mən Bakıda ezamiyyət-

də idim. Bazar günü, martın 18-də, axşama yaxın atışma başladı, mən tüfəngimi götürdüm və Nikolayevskaya küçəsində, Müsəlman Xeyriyyə Cəmiyyəti "İsmailiyyə"nin yanında olan səngərlərə getdim. Erməni əsgərləri qaçaraq yer dəyişməklə bizə hücum edirdilər. Səngərlərdə mən 2 gün oturdum, üçüncü gün Sadovaya və Nikolayevskaya küçələrinin kəsişdiyi yerdə qazılmış başqa bir səngərə keçdim. Bu səngər Naberejnaya küçəsindən atəşə tutulurdu; kimin atdığını mən görmürdüm. Sonra mən Zavedenskaya və Kladbişenskaya küçələrinin tinindəki səngərə keçdim; burada Tarayevin evinin damından məni pulemyot atəşinə tuturdular. Nikolayevskaya küçəsində bizə hücum edənlər arasında mən tələbə Papovyanı gördüm. Barışıq elan olunandan sonra mən öldürülmüş qohumlarımı axtararaq şəhəri gəzirdim. Bu zaman mən çoxlu sayda eybəcər hala salınmış müsəlman meyitlərinə rast gəlirdim. Görünürdü ki, müsəlmanları vəhşicəsinə incitmiş, işgəncələr vermiş və hər cür təhqir etmişlər. Məsələn, mən "Fantaziya"[48] hamamında qaynar suya atılmış müsəlman meyitləri görmüşdüm, onların sümükləri və əzələləri yanmış, yumşaq hissələri isə tökülmüşdü. Qarnı yırtılmış uçaq cəsədləri, qucağında qarnı yarılmış körpə uşaq olan qadın meyiti görmüşdüm. Əlləri və ayaqları kəsilmiş meyitlərə rast gəlirdim. Bir meyitin sifəti göm-göy idi və başı olduqca şişmişdi; məndə belə fikir yarandı, mərhumu diri-diri ayaqlarından asıblar. Üç meyiti boğazlarında kəndirlə gördüm. Cəsədlərin çoxu çılpaq idi.

Martın 27-də mən Bakıdan getdim. Mən burada olmayanda Axundovun qarajından matroslar mənim 2 motosikletimi və onların tam təkər və şin dəstini aparıblar (müsadirə ediblər). Onların ümumi dəyəri o vaxt 4000 rubl, indiki qiymətlərlə isə 24.000 rubl təşkil edir.

Oxundu. Seyidov. (imza).

Komissiya üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 24.**

## Sənəd № 8

*Dindirmə protokolu*

*1918-ci il. 2 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ağa Hüseyn Tağıyev, 38 yaşım var, Bakı şəhəri, Aziatskaya küçəsində (Krasnovodskaya, 25) yaşayıram.**

Bu il mart ayının 18-də, bazar günü, mən müsəlman nümayəndələrin iclası keçirilən "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasında idim. Oraya Bakının keçmiş Şəhər Rəisi Hayk Ter-Mikaelyants gəldi və Erməni Milli Şurasının və "Daşnaksütun" partiyasının adından bildirdi ki, əgər müsəlmanlar bolşeviklərə qarğı çıxış edərsə, erməni qoşunları onlara qoşular və bolşeviklərin Bakıdan qovulmasına yardım edərlər. Bununla belə, sonrakı gün, bazar ertəsi, mart ayının 19-da, erməni əsgərləri müsəlmanların evlərinə soxulmağa, müsəlmanları qətlə yetirməyə və qarət etməyə başladılar. Saat 4-də bolşeviklər müsəlmanlarla sülh bağladılar, lakin ermənilər buna baxmayaraq şəhərin müsəlmanlar yaşayan hissəsinə öz basqınlarını davam etdirir, müsəlmanları qırır və qarət edirdilər.

Mən bu zaman İçəri şəhərdə - Qalada idim və biz burada səngərlər qazaraq, bizə hücum edən ermənilərdən müdafiə olunmağa başlamışdıq. İran konsulu[49] dənizçi Natanson ilə birlikdə Qalaya bizim yanımıza gəldi, bəziləri deyirdi belə şayiə gəzir ki, guya biz Qalada, Mir Əli Nağı Hüseynovun evində olan bütün erməni və xristianları doğrayıb qırmışıq. Biz onların hər ikisini Hüseynovun evinə apardıq və 240 xristian kişi, qadın və uşaqların (o cümlədən çoxlu ermənilərin) olduğu yerləri göstərdik. Sonra biz onlara bələdçilər verdik və bələdçilər onları xristianların olduğu digər evlərə də apardılar. Orada qadın və kişilər göz yaşları ilə müsəlmanların onlarla yaxşı rəftar etdiyinə, çörək, düyü və su verdiklərinə görə öz minnətdarlıqlarını bildirdilər. Onlara, Qalada qalmaqdan ehtiyat edirlərsə, getmək təklif olunduqda, onlar bildirdilər ki, müsəlmanların taleyini bölüşmək istəyirlər və Qaladan sonuncularla birlikdə gedəcəklər. Eyni zamanda xristianlar Qalanın bombardman edilməsinin dayandırılması xahişi ilə matrosların yanına kişi və qadınlardan ibarət öz nümayəndələrini göndərdilər.

Xristianlarla yaxşı rəftar edildiyinə tam əmin olan İran konsulu və Natancon Qaladan getdilər. Lakin üç saatdan sonra hər ikisi yenidən Qalaya qayıtdı və bildirdilər ki, guya onlar çıxıb gedəndən sonra müsəlmanlar bütün xristianları qırıblar; onların dediyinə görə, bu barədə onlara Jorj Melikov və həkim Ter-Zaxaryants telefonla xəbər vermişlər. Biz onlara yenidən Hüseynovun evini, habelə xristianların yerləşdiyi digər evləri göstərdik, beləliklə hər ikisi əmin oldular ki, bütün xristianlar sağ-salamatdır. Natanson Qaladan gedərkən qala divarları önündə 20 dənizçi qoyulması haqqında sərəncam verdi, və onlar erməni əsgərlərinin hücumlarının qarşısının alınmasında bizə kömək etdilər.

Hücum edən ermənilərin başında tüfənglərlə silahlanmış və bizə atəş açan Stepan Lalayevin, Jorj Melikovun, Dovlatovun, Xristofor Dildarovun və Ambarsum Melikovun durduğunu görmüşəm.

Martın 20-də, mən Qala divarlarının və "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının yanındakı pilləkənin yaxınlığında olarkən, "Kaspi" qəzetinin redaksiyasının qarşısındakı tindən Tatevos Əmirovun[50] üç silahlı erməni ilə bu binaya necə girdiyini öz gözlərimlə gördüm; bundan az sonra binada alov göründü və o yanmağa başladı. Alov Nikolayevskaya küçəsi ilə Krasilnikov qardaşlarının qarşıda yerləşən evinə keçdi; tezliklə bu evə yanğınsöndürənlər gəldilər və alovu söndürməyə çalışdılar. Tələbə, bolşevik Məmməd İrza Hacınski telefonla Şaumyana xəbər verəndə ki, yanğınsöndürənlər Krasilnikovların evini söndürürlər, lakin "İsmailiyyə"nin binasındakı yanğını söndürmək üçün heç bir tədbir görmürlər, Şaumyan "İsmailiyyə"nin saxlanılması üçün tədbir görülməsi barədə sərəncam verəcəyinə söz verdi. Əslində isə belə sərəncam olmadı və bütün əzəmətli binadan yalnız divarlar qaldı.

Ermənilər tərəfindən yandırılan "İsmailiyyə" bütün Qafqaz müsəlmanlarının həyatında böyük rol oynayırdı. Qafqaz müsəlman komitələrinin hamısı bu binada yerləşirdi və bu komitələrə aid olan pullar və sənədlər də burada saxlanılırdı. Bundan əlavə, müxtəlif müsəlman yığıncaqları və qurultayları bu binada keçirilirdi, məs., bu il fevralının 15-də açılmış Ümumqafqaz Müsəlman Qurultayı[51] burada keçirilmişdi.

Ermənilərə yaxşı məlum idi ki, bütün məscidlərdə müsəlman qadın və uşaqları gizlənirlər; onların göstərişi ilə şəhərin müsəlman məhəllələrini bombalayan hərbi gəmilər məscidləri də top atəşinə tuturdular ki, nəticədə məscid binalarına 19 mərmi dəymişdi.

Mart hadisələri zamanı o qədər müsəlman öldürülmüşdü ki, onların meyitlərini Petrovsk və Dəmiryolu limanından Bibiheybətə 6 barjada daşımışdılar. Bundan əlavə, arabalarda və yük avtomobillərində məscidlərə və qəbiristanlıqlara xeyli meyit daşımışdılar. Müsəlmanlar meyitlərin daşınmasında, habelə qətlə yetirilmiş qohumlarının axtarışında onlara yardım göstərilməsi xahişi ilə İcraiyyə Komitəsinə müraciət etmişdilər, lakin onların bu xahişi rədd edilmişdi. Stanislavskaya küçəsinin sonunda, "Poxlu Dərə" adlı yerdə torpağa çox da dərindən basdırılmamış 57 müsəlman qadının cəsədi təsadüfən aşkar edilmişdi.

Ermənilər müsəlmanların evlərinə soxularaq nə qadınlara, nə də uşaqlara rəhm etmədən, hamını öldürürdülər. Məsələn, onlar Serkovnaya küçəsində, 80 yaşlı ağsaqqal Hacı Əmir Əliyevin evinə girərək, Əliyevin özünü, onun 60 yaşlı arvadını, 70 yaşlı ikinci arvadını, oğlunu öldürmüşdülər, üç uşağı (azyaşlı) doğramış, Əliyevin gəlinini, 35 yaşlı qadını divara mismarlamışdılar.

Təzə Pir[52] məscidində 50-60 cəsəd görmüşəm; onların əksəriyyəti dəhşətli dərəcədə eybəcər hala salınmışdı və başları kəsilmişdi.

Ermənilər mart qırğınlarına əvvəlcədən hazırlaşmışdılar. Hələ mart ayının ilk günlərində mənim neft mədənlərimi idarə edən mühəndis Gerasim Mixayloviç Ter-Akopov məni xəbərdar etmişdi ki, Bakıda qorxulu hadisələr gözlənilir və buna görə mənə şəhərdə qalmamağı, ailəmlə birlikdə bağ evimə köçməyimi məsləhət görmüşdü.

Ermənilərlə müsəlmanlar arasında barışıq elan edildikdən sonra da ermənilər mütəmadi olaraq imkan düşdükcə müsəlmanları öldürməkdə davam edirdilər. Məsələn, bizim təxmini hesablamalarımıza görə adı çəkilən barışıq dövründən ta Türk-Azərbaycan qoşunları Bakıya daxil olanadək ermənilər tərəfindən 1500 müsəlman qətlə yetirilmişdir, mart hadisələri zamanı isə təxminən 11 000 müsəlman öldürülmüşdür. Bir çox müsəlmanların cəsədləri bu günədək hələ də tapılmamışdır.

Şəhərin aşağı hissəsində, Sisyanovskaya küçəsindən aşağı, Hacı Zeynalabdin Tağıyevin[53] evi istisna olmaqla, bir dənə də olsun qarət edilməmiş müsəlman evi qalmamışdı. Bəzi rayonlarda, məsələn, Məmmədli rayonunda və ya bazarında müsəlmanların məskunlaşdığı bütün binalar tamamilə yandırılmış və ya qarət edilmişdi. Ümumiyyətlə, Bakı şəhərinin müsəlman əhalisinə köhnə qiymətlə 400 000 000 rubla yaxın ziyan vurulmuşdur, bu hesablama bizim tərəfimizdən yalnız bizə məlum olan faktlar

əsasında aparılmışdır.

Çərşənbə axşamı, mart ayının 20-də gündüz, Qaladan şəhərin yuxarı hissəsinə Molla Cavad Axund, Molla Hacı Mir Mövsüm, Hacı Hüseyn Tağıyev, həkim Atabekyan və İcraiyyə Komitəsinin üzvü Denejkindən ibarət nümayəndə heyəti göndərilmişdi. Bu nümayəndə heyəti Zavedenskaya küçəsində altı erməni əsgəri tərəfindən saxlanılmışdı və onlara hara getdikləri barədə sual verilmişdi. Nümayəndə heyətinin müsəlmanlarla ermənilər arasında barışıq elan edildiyinə görə hərbi əməliyyatların dayandırılması xahişi ilə şəhərin müsəlmanların əlində olan hissəsinə keçməyə çalışdıqlarını öyrəndikdə, erməni əsgərləri bildirmişlər ki, onlar nümayəndə heyətini buraxmayacaqlar, çünki heç bir barışıq tanımırlar. Nümayəndə heyətinin üzvləri Zavedenskaya küçəsinin sonundakı müsəlman səngərlərinə doğru irəlilədikdə, erməni əsgərləri onların arxasınca tüfənglərdən atəş açaraq, səngərlərə qədər qaçmağa və orada gizlənməyə macal tapmış Molla Cavad Axunddan başqa, nümayəndələrin hamısını öldürmüşdülər. Əlavə deməyə başqa sözüm yoxdur.

Oxundu. İmza. A.H.Tağıyev.

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 1-4.**

## Sənəd № 10

***Dindirmə protokolu***

*1918-ci il. 8 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi şahid qismində dindirmiş və o, Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Ağabəy Səfərəliyev, 41 yaşlı, Bakı şəhərində, Şamaxinskaya küçəsində, şəxsi evimdə yaşayıram.**

Mart atışmaları zamanı mən heç yerə çıxmamışam, daima Şamaxinkada, öz evimin ətrafında olmuşam. Biz, müsəlmanlar, bir neçə gün Tatevos Əmirovun erməni hərbi dəstəsi ilə atışmalı olduq. Bu dəstə Lalaevin Şamaxinskaya və Kubinskaya küçələrinin kəsişməsində yerləşən evində oturmuşdu və oradan Şamaxinkadakı evləri atəşə tuturdu. Atışma bu il

mart ayının ortalarında, bazar günü başladı və çərşənbə gününədək, sülh bağlanana qədər davam etdi. Lakin bundan sonra da ermənilər vəhşiliklərini davam etdirirdilər: Məs., mənim evimin yaxınlığında, Məhəmmədli kəndinin sakini Dövlətəlinin evində ermənilər ev sahibinin 14 nəfərdən ibarət bütün ailəsini qətlə yetirmişlər. Hər gün şəhərə ətraflarda öldürülmüş insanların meyitləri gətirilirdi. Şəhərin yanında yaralanmış müsəlmanları da gətirir və Böyük bazarda, qadın həkimi Kaqanın müalicəxanasında[54] yerləşdirirdilər. Müsəlmanlarla ermənilər arasında sülh bağlanandan artıq ay yarım sonra ermənilər Şamaxıdan qaçan müsəlman ailələrinin yerləşdiyi Şamaxı məscidinə[55] gəlmiş və başqaları ilə birlikdə guya məsciddə olan bir neçə cavan qadının onlara verilməsini tələb etmişlər. Uzun yalvar-yaxardan sonra ermənilər, ertəsi gün saat 12-də qadınların ardınca yenidən məscidə gələcəklərini bildirərək getmişlər. Yalnız Şaumyan kimi görkəmli ermənilərə, doktor Nərimanova[56] və başqalarına kömək üçün müraciət sayəsində qadınları onları gözləyən rüsvayçılıqdan xilas etmək və onların hamısını Çəmbərəkənd məscidinə keçirmək mümkün olmuşdur və ermənilər daha ora gəlməmişlər.

Məscidləri və bəzi küçələri gəzərkən mən olduqca eybəcər hala salınmış meyitlərə təsadüf edirdim: qadınlar döşləri, burunları, qulaqları kəsilmiş, gözləri çıxarılmış halda uzanmışdılar. Ermənilər nə uşaqlara, nə qocalara, nə qadınlara aman vermirdilər və hamını eybəcər hala salırdılar. Meyitlər hər tərəfdə, bir neçə gün, hətta bir həftəyə yaxın, yığışdırılmamış qalmışdı və buna görə küçələri dəhşətli üfunət bürümüşdü. Mənimlə qonşuluqda yaşayan mühəndis Keyl küçələri gəzir və ətrafa səpələnmiş eybəcər meyitlərin şəklini çəkirdi. Mantaşevin[57] Binəqədi mədənlərində işləyən mühəndis-texnoloq Ovanov artıq sülh bağlanandan sonra mənə dedi ki, Şamaxinkaya gəlməyə və məni xilas etməyə imkanı olmadığına görə təəssüf edir. O, izah etdi ki, onun özünə və başqa şəxslərə daşnaksakanlar tərəfindən müsəlmanları əsir götürmək tapşırılmışdı, əgər müsəlmanlardan kimsə bu zaman müqavimət göstərsəydi, onu öldürmək lazım idi.

2-ci Qarşılıqlı Kredit Cəmiyyətində iş yoldaşım Çiknoverov mənim müsəlmanların bolşeviklərlə mübarizəsi vaxtı ermənilərin nə üçün bitərəf qalmadıqları sualıma açıq cavab verdi ki, ermənilər ona görə müsəlmanlara qarşı çıxış ediblər ki, əvvəla, 1905-ci[58] ilə görə onlarla hesablaşmaq istəyirdilər, və ikincisi, bir də ona görə ki, müsəlmanların on-

lara qarşı hücumunu qabaqlamaq istəyirdilər. Eyni sözləri mənə Pitoyev və K° Neft Sənayesi Cəmiyyətinin[59] mühəndisi Emiko Ambarsumov da təkrar etmişdir.

Eybəcər hala salınmış qadın meyitlərinin arasında mən cinsiyyət yoluna taxta salınmış cəsədlər görmüşdüm. Mənə danışırdılar ki, ermənilər gecələr bir neçə dəfə çörək dükanlarına növbələrdə duran insanların cərgəsinə yaxınlaşır və gözlərinə dəyən cavan müsəlman qız-qadınlarını özləri ilə aparırdılar. Mənim iş yoldaşım Çiknoverovun adı Sergey İvanoviçdir.

Oxundu. A.Səfərəliyev.

Komissiya üzvləri: Prokuror müavini A.Kluge, andlı iclasçı Məmməd Xan Təkinski (imzalar).

Komissiyanın sədri: Ələkbər Xasməmmədov(imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 11-12**

## Sənəd № 11

*Dindirmə protokolu*

*1918-ci il. 27 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi şahid qismində dindirmiş və o, Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Manafov Rza Qulu oğlu, Bakılıyam, 48 yaşım var, Bakı şəhərində, Suraxanskaya küçəsi, ev № 178 ünvanda yaşayıram.**

Martın 18-də axşam saat 8-də atışma başlandı. Mən öz kontorumu bağladım və evə, Suraxanskaya küçəsinə, tələsdim. Bütün gecəni tüfəng və pulemyotlardan atəş atırdılar. Bizə deyirdilər ki, atan bolşeviklərdir və ermənilər müsəlmanlara öz bitərəfliyi barədə məlumat veriblər. Qonşu evlərdə, mənim öz evimdə ermənilər yaşayırdı, lakin biz onları müsəlmanların dostu hesab edərək, onlara toxunmurduq. Bazar ertəsi, səhər tezdən ermənilər müsəlmanlara qarşı hücuma keçdilər və yalnız çərşənbə axşamı Suraxanskaya və Tatarskaya küçələrində yaşayan müsəlmanlar başa düşdülər ki, ermənilər bizi aldadırdılar və ermənilər müsəlmanlara qarşı çıxıblar. Mən başqa müsəlmanlarla bir-

likdə öz rayonumuzu ermənilərdən müdafiə etmək üçün səngərlərdə idim və biz çərşənbə axşamınadək öz mövqelərimizi müdafiə edirdik. Çərşənbə günü biz öz səngərlərimizi təmizlədik və bu vaxt ermənilər evlərə basqınlar etməyə və müsəlmanları evlərindən çıxarmağa başladılar. Mənim dalandarımı ermənilər mənim həyatimdə öldürdülər. Məni və mənim ailəmi əsir götürdülər və Mailov teatrına apardılar, eləcə də mənim qardaşımın ailəsini, ümumilikdə təxminən 52 nəfərə yaxın adamı, əsir apardılar. Ermənilər bizi ona görə öldürmədilər ki, bizi əsir götürən 30-a yaxın silahlı ermənilərin arasında mənim köhnə tanışlarım var idi. Bizi Serkovnaya küçəsi ilə aparırdılar, bizim qabağımızda başqa müsəlman dəstəsi gedirdi və bu dəstənin arasında mən Ramana kəndindən olan İsmayılı, arvadı və qızı ilə birlikdə gördüm. Onları müşayiət edən ermənilər Hacı Abbasqulu Rzayevin evinin yanında İsmayılı öldürdülər, arvadını isə bizim dəstəyə qatdılar. Serkovnaya küçəsində ermənilər tərəfindən qətlə yetirilmiş müsəlmanların meyitləri uzanıb qalmışdı. Bütün bu insanları ermənilər evlərindən çıxarıb küçədə öldürürdülər. Məni Mailov teatrına apardılar və bizi orada 3 gün saxlayandan sonra buraxdılar. Mailov teatrından qayıtdıqdan sonra mən evləri gəzməyə və müsəlman qonşularımdan xəbər tutmağa başladım. Küçələr qətə yetirilmiş müsəlmanların cəsədləri ilə dolu idi, evlərdə də öldürülmüş müsəlmanların, qadın və uşaqların cəsədləri var idi. Meyitlərin arasında mən Məşədi Tağı Nağı oğlunun arvadını və onun 6 yaşlı oğlunu tanıdım. Mən başqa müsəlmanlarla birlikdə öldürülmüş müsəlmanları dəfn etməyə başladım. Mən öz rayonumda meyitlərin sayını müəyyən etməmişəm, ancaq mən özüm 18 meyit çıxarmışam və arabalarda onları dəfn etməyə aparmışıq. Mənim mənzilim tamamilə talan olunmuşdur, əşyalarımın siyahısını təqdim edirəm və onu işə əlavə etməyi xahiş edirəm.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar).

Komissiyanın sədri: Ələkbər Xasməmmədov(imza)

**AR Pİİ SSA, f. 277, s. 2, i. 13, v. 37-38.**

## Sənəd № 12

*Dindirmə protokolu*

*1918-ci il, 31 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kərbəlayı Vəli Mikayılov, 43 yaşlı, Bakı şəhəri, Bondarnaya küçəsi, ev № 40 ünvanda yaşayıram. 4-cü polis sahəsi.**

Martın 18-də, axşam, müsəlman qırğınları başlayanda mən "İsmailliyə"də növbətçi idim; mən "Müsavat"[60] partiyasının üzvü kimi növbə çəkirdim. Sonra mən Qalaya keçdim və ermənilərlə müsəlmanlar arasında sülh bağlanana qədər orada qaldım. Mən evdə olmayanda silahlı ermənilər mənim evimə hücum etmiş və bütün mənim əmlakımı oğurlamışlar. Mənim kirayənişinlərim – yəhudilər, mənim ailəmi gizlətməyə müvəffəq olmuşlar. Yəhudilərin dediyinə görə, onlar talançıların arasında axtarış polisində xidmət edən bir neçə nəfər ermənini tanımışlar. Mənim ümumən köhnə pula altmış min rubl dəyərində əmlakımı qarət etmişlər.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, i. 13, v. 5.**

## Sənəd № 14

*Dindirmə protokolu*

*1918-ci il, 6 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Bala-bəy[61] Aşurbəyov, 36 yaşında, Bakıda, Qoqolevskaya küçəsindəki şəxsi evimdə yaşayıram.**

Ermənilərin müsəlmanlara qarşı mart çıxışları zamanı mən öz ailəmlə birlikdə Persidskaya küçəsinə, bacımın evinə getmişdim. Mənim olma-

dığım müddətdə evimə 40 nəfər erməni əsgərlərindən ibarət dəstə gəlmiş və bütün mənzilləri gəzərək, ailəmlə birlikdə məni və qardaşım Əlı-bəyi axtarmışlar. Həmçinin şəhər rəisinin keçmiş köməkçisi polkovnik Olonqrenin mənzilinə girərək, bizi çarpayıların altında belə axtarmışlar. Ermənilər mənim mənzilimdən, köhnə qiymətlə, ümumilikdə 60.000 rubl dəyərində gümüş, müxtəlif qadın parçaları, qadın alt geyimi, mənim kostyumlarımı aparıblar. Hələ qırğınlar başlayanadək şəhərdə ermənilərin müsəlmanlara qarşı çıxış etməyə hazırlaşdıqları barədə şayiələr gəzirdi. Elə bu zaman biz ermənilərin şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəyə köçdüyünü görürdük. Ermənikəndin yaxınlığında ermənilərin səngərlər qazdıqları da aşkar olunmuşdu. Buna görə də mart hadisələri bizi qəfildən yaxalamadı və mən ailəmlə birlikdə qırğınlar başlamazdan iki saat əvvəl evdən çıxıb getməyə müvəffəq oldum.

Oxundu. Bala-bəy Aşurbəyov. İmza.

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, i. 13, v. 148.**

## Sənəd № 15

***Dindirmə protokolu***

*1918-ci il, 12 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ağa Şərif bəy Aşurbəyov, Bakılı, 48 yaşım var, Bakıda Spasskaya küç., ev № 34 ünvanda yaşayıram.**

12 oktyabr 1918-ci il tarixli ərizədə ifadə edilənləri təsdiqləyirəm. Mənim iki əmioğlum – Yüzbaşı bəy və Cavad bəy Aşurbəyovlar ermənilər tərəfindən qətlə yetirilmişlər. Bu il mart ayının ortalarında axşamüstü mənim evimə iyirmiyə yaxın silahlı erməni gəldi, revolverlə hədələyərək, şkafları və kassanı açmağı əmr etdilər. Mən onların tələblərini yerinə yetirdim və onlar ərizədə göstərilən əmlakımı özləri ilə apardılar. Mən bu vaxtadək heç yerə şikayət etməmişəm. İndi olduğu kimi, o zaman da Spasskaya küçəsi ev № 34-də yaşayırdım. Məni qarət edən ermənilərdən

bəzilərini üzləşmə zamanı tanıya bilərəm, amma adlarını bilmirəm. Mənim və qardaşım Ağası bəyin qarət edilmiş əmlakımızın ümumi dəyəri 300.000 rubla bərabərdir. Şikayət etməmişəm, çünki qorxurdum, həm də şikayət etməyə adam yox idi. Bütün hakimiyyət ermənilərin əlində idi.

Oxundu. İmza.

Komissiya sədri: Ələkbər bəy Xasməmmədov (imza).

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 20.**

## Sənəd № 16

***Dindirmə protokolu***

*1918-ci il, 6 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi zərərçəkmiş qismində dindirmiş və o Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Hüseyn bəy Aşurbəyov, 47 yaşım var, Bakı şəhəri, Kamenistaya küçəsi, ev № 112 ünvanda yaşayıram.**

Bu ilin mart ayında ermənilərin müsəlmanlara qarşı çıxışları zamanı, çərşənbə axşamı, martın 20-də silahlı erməni dəstəsi bizim evimizə gəldi və bütün əmlakımızı talan etdi. Nağd pulla 27.000 rubl götürdülər, sonra isə 190.000 rubl dəyərində müxtəlif paltarlar, ev əşyalarını, zinət əşyalarını apardılar. 34 yaşlı qardaşım Cavad bəy evdə qalmışdı: ermənilər onu əsir adı ilə evdən apardılar, lakin sonra haradasa yolda öldürdülər; biz indiyədək onun cəsədini tapa bilməmişik. Hələ mart hadisələrinədək mən eşidirdim ki, ermənilər 1905-ci ili təkrarlamağa, yəni müsəlman qırğınlarına başlamağa hazırlaşırlar. Bundan əlavə, mənə məlumdur ki, qırğınlar başlamazdan bir neçə gün əvvəl erməni ailələri bütün əşyaları ilə birlikdə şəhərin yuxarı hissəsindən, müsəlmanların yaşadığı hissədən aşağı, ermənilər yaşayan hissəyə köçürdülər.

Oxundu. İmza. Hüseyn bəy Aşurbəyov.

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v.121.**

## Sənəd № 17

*Dindirmə protokolu*

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**(İbrahim bəy Musa Xan bəy oğlu Aşurbəyov) İsmayıl İbrahim bəy oğlu Aşurbəyov, 33 yaşlı, Bakı şəhərində, Qubernskaya küçəsi, ev 56\6 ünvanda yaşayıram.**

Mənim atam İbrahim bəy xəstədir və istintaqa gələ bilmir. Mən Bakıda mart qırğınları zamanı onun Qubernskaya küçəsindəki 53 № li evində ermənilər tərəfindən qarət edilmiş və ümumi məbləği 80.400 rubl olan əmlakının siyahısını təqdim edirəm. Qarət vaxtı biz hamımız zirzəmidə idik, hadisələrin ikinci günü isə ermənilər bizi tapdılar və əsir apardılar və orada qarət etməyə cəhd göstərdilər. Bizi hələ zirzəmidə olarkən rus əsgərləri və bir nəfər kirayənişin xilas etdi. Bizim əmlakımızın siyahısının işə əlavə edilməsini və 80.400 rubl məbləğində dəymiş ziyanın ödənilməsini xahiş edirəm.

Oxundu. İmza. İsmayıl bəy İbrahim bəy oğlu Aşurbəyov.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, prokuror müav.

A.Kluge (imzalar)

**AR PİI SSA, f. 277, s. 2, iş 15, v.15.**

## Sənəd № 18

*Dindirmə protokolu*

*1918-ci il, 8 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Zal Həsənov, 47 yaşlı, Bakıda, Qoqolevskaya küçəsi, 9 № li evdə yaşayıram.**

Bazar günü, bu il martın 18, axşam, şəhərdə atışma başlayanda, qarşı evdə yaşayan Artyom Yoanisyan mənim evimə gəldi və xəbərdarlıq etdi ki, qırmızı qvardiyaçılar bizim evdə axtarış aparmaq istəyirlər, belə ki, guya bizim evdə pulemyotlar gizlədilmişdir. Onda Mirzə Əsədullayev[62] ailəsi ilə, az sonra mən də öz ailəmlə, və Əli Əsədullayevin arvadı Qavriil Babayeviç Beqlyarovun evinə getdik. Gecə bizə, Əsədullayevin evinə qırmızı qvardiyaçılar dəstəsi gəldi və bütün mənzildə axtarış apardı. Silah tapmayan əsgərlər çıxıb getdilər. Səhər evə erməni əsgərləri gəldilər və evdə hər şeyi alt-üst edərək bizim əşyalarımızı qarət etməyə başladılar. Mən qarət olunmuş əşyalarımın siyahısını təqdim etmişəm. Biz pəncərələrdən erməni əsgərlərinin bizim evin pəncərələrinə necə tüfəng və pulemyotlardan atəş açdıqlarını, bizim pərdələri cırdıqlarını, bizim əşyalarımızı və paltarlarımızı evdən çıxardıqlarını görürdük. Ümumilikdə bizə təxminən 1.500.000 rubl məbləğində ziyan vurulmuşdur.

Çərşənbə axşamı, səhər saat 9-da Beqlyarovun mənzilinə bir dəstə erməni əsgərləri gələrək məni əsir aparmaq istədilər. Beqlyarov və onun kürəkənləri – doktor Şahnazarov və o birisi, Sergey Tarasoviç, soyadı yadımda deyildir, dedilər ki, onlar məni, öz qonaqlarını evdən buraxmayacaqlar. Sonra "daşnaksakanların" bürosuna zəng etməyə başladılar, bundan sonra ermənilər məni Beqlyarovgildə qoyaraq getdilər; görünür onlar bunu büronun göstərişi ilə etdilər. Təxminən gündüz saat 2-də Sergey və Georgiy Melikov qardaşları dörd əsgərlə mənim dalımca gələrək məni arvadımla bərabər öz evlərinə apardılar və biz talanlar bitənə qədər orada qaldıq. Melikovlargilə gedərkən yolboyu mən çoxlu müsəlman meyitləri gördüm.

Hələ ondan əvvəl kəndlərdən müsəlmanlar, eləcə də şəhər camaatı, mənim yanıma gəlir və soruşurdular ki, doğrudanmı ermənilər müsəlman qırğınlarına hazırlaşırlar. Mən hamıya cavab verirdim ki, bu doğru deyil, çünki ermənilərin bunu etməsi üçün heç bir səbəb yoxdur. Hələ bazar günü, axşam saat 8-də, Əli Əsədullayevin arvadı teleqrafla öz atasından – Hacı Zeynalabdin Tağıyevdən evdə qalmağın təhlükəli olub-olmadığını soruşmuşdu, çünki lap yaxınlıqda atışma səsi eşidilirdi. Hacı cavab vermişdi ki, o, öz evində qalsın, belə ki, təhlükəli heç nə gözlənilmir, həmişəki kimi bir az atıb, qurtaracaqlar.

Mən Şəmsi Əsədullayevin[63] qızı ilə evliyəm. Əlavə edim ki, Suraxanskaya küçəsi, 208 № li evdə mərhum Şəmsi Əsədullayevin dul arvadı – Mey-

ransa xanım Əmiraslan qızı yaşayır. Erməni əsgərləri onun mənzilinə də basqın etmiş, bütün mebeli sındırmış və bütün əşyalarını qarət etmişlər. Qarət edilmiş əmlakın siyahısı həmçinin Fövqəladə Komissiyaya təqdim edilmişdir. Ermənilər Meyransanı ayaqyalın, "Daşnaksütun"un bürosuna əsir aparmışlar.

Oxundu. İmza. Zal Həsənov.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 136-137.**

## Sənəd № 19

***Dindirmə protokolu***

*1918-ci il, 6 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Şahzadə Mansur Qacar[64], 12-ci Aktır Qusar polkunun keçmiş komandiri, polkovnik, 47 yaşlı, Bakıda, Kamenistaya küçəsində, Manuçar Avakovun evində yaşayıram.**

Bu il mart ayının ortalarında şiddətli atışma başlandı və ermənilər bolşeviklərlə birlikdə müsəlmanlara qarşı hücuma keçdilər. Bu zaman mən Nikolayevkski döngəsi, ev № 14-də yerləşən "Metropol" mehmanxanasında yaşayırdım. "Metropol" mehmanxanasının ikinci nömrəsi boş idi və mən, Maks Manaseviç, andlı iclasçı Nikolay Ananyev və artist D.Taqianosova ilə birlikdə ikinci nömrədən döyüşün gedişini müşahidə edirdik. Mən adları çəkilən şəxslərlə birlikdə gördüm ki, Jorj Melikov yumşaq şlyapada, yağışlıqda və uzunboğaz çəkmələrdə, əlində silah bir neçə silahlı daşnaksakanla birlikdə "Metropol" mehmanxanasının qarşısında, Nikolayevskaya küçəsində yerləşən Kələntərov pasajının[65] tinindən çıxdı, pasajın zirzəmi mərtəbəsinin girişinin aşağı pillələrində oturdu və onlar Nikolayevskaya küçəsi boyunca atəş açmağa başladılar. Eyni zamanda "Metropol" mehmanxanasının damından və Nikolayevskaya küçəsinə perpendikulyar yerləşən "Qrand Otel" mehmanxanasının pəncərələrindən də pulemyotlar şaqqıldayırdılar. Ertəsi gün səhər tezdən iyirmi dörd

nəfər silahlı erməni məni tutdular, mehmanxana otağımda axtarış apardılar və şübhəli heç nə tapmayaraq, "Vəhşi diviziyanın"[66] zabiti olduğumu düşünüb, məni öldürmək istədilər. Andlı iclasçı Ananyev erməni dilində bir xeyli onları razı salmağa çalışdı ki, məni öldürməsinlər və daşnaksakanların bürosuna aparsınlar. Uzun təkidlərdən sonra ermənilər məni daşnaksakanların bürosuna apardılar və Tiqran Melikovun mənzilində yerləşdirdilər; Mənim əşyalarımı axtararkən ermənilər qızıl saatımı və qızıl portsiqarımı götürüblər; qızıl portsiqar Axtır alayının zabitlərinin mənə hədiyyəsi idi.

Oxundu. İmza. Polkovnik Şahzadə Mansur Qacar.

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri: Məmməd Xan Təkinski, Prokuror köməkçisi A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 6-7.**

## Sənəd № 20

***Dindirmə protokolu***

*1918-ci il, 10 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**İsmayıl Dadaş oğlu Tağıyev, 42 yaşım var, Bakı şəhər sakini, Bolşaya Krepostnaya küçəsi, № 38 ünvanda yaşayıram.**

Mart hadisələrindən 2-3 ay əvvəl mən tez-tez erməni ailələrinin: S.İ. Tatevosovlar və A.N.Arafelovların məclislərində olurdum. Rusiyada baş verən hadisələrə dair söhbətlərdə həmişə deyirdilər ki, Bakıda bundan da pis olacaq. Mən elə bir şey gözləmədiyim və qabaqcadan görə bilmədiyim üçün, deyilənləri inkar edir və onların fikri ilə razılaşmırdım. Lakin onlar, xüsusilə də, Mariya Konstantinovna Arafelova inadla dediyində təkid edirdi və nə isə dəhşətli bir şeydən ehtiyat edirdi. Hadisələrdən sonra mən Rostovdan gəlmiş və "Metropol"da yaşayan bir rəfiqəmdən öyrəndim ki, o da, aşağıda adları çəkilənlər şəxslərlə - andlı iclasçı N.Q. Ananyevin köməkçisi Mariya Petrovna Taqianosova, M.Manaseviç və şahzadə Mansur Mirzə Qacar ilə birlikdə "Metropolda" olmuşdur və onlar Georgi

Ambarsumoviç Melikovun digər ermənilərlə birlikdə müsəlmanlara atəş açdığını görmüşlər. Həmçinin, martın 19-da və 20-də mənim Bazarnaya küçəsində yerləşən və R.P.Lalayevin N. evində mənim tərəfimdən icarəyə götürülmüş və içində yüz əlli min rubl (150.000 rubl) dəyərində müxtəlif malların olduğu anbarlarım qarət edilmiş, sonra isə yandırılmışdır. Bu malların siyahısını o vaxt üç ərizədə (çünki itən malların sayını dərhal müəyyən etmək mümkün deyildi) İcraiyyə Komitəsinə təqdim etmişəm.

Oxundu. İmza. Bakılı tacir İsmayıl Dadaş oğlu.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 17.**

## Sənəd № 21

***Dindirmə protokolu***

*1918-ci il, 3 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi zərərçəkmiş qismində dindirmiş və o, Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Əbdül Cabbar Babayev, Bakılı, Bakıda, İçəri şəhər (Qala), Sobornaya küçəsi, 25 №-li evdə yaşayıram, 52 yaşım var.**

Bu il mart ayının ortalarında axşam saat 5-6-da mən tüfəngdən atılan atəş səsləri eşitdim. Gecə saat 11-də mənim köhnə tanışım Pyotr Moiseyeviç Zorabov qaçıb bizə gəldi və Ambarsum Serqeyeviç Melikovun sabah səhər ermənilərin müsəlmanlarla birlikdə bolşeviklərə qarşı gözlənilən hücumu barədə ona dediklərini mənə xəbər verdi. Həqiqətən, ertəsi gün səhər ermənilər hücuma keçdilər, ancaq müsəlmanlarla birlikdə bolşeviklərə qarşı deyil, bolşeviklərlə birlikdə müsəlmanlara qarşı. Mənim evim və bu evdə yerləşən mənzilim atəşə tutulurdu və mən özüm gördüm ki, İşxan Qarabəyov qaynı Nikolayla (onun soyadını bilmirəm) öz evinin damından mənim mənzilimə tüfənglərdən atəş açırlar və bu güllələrdən mənim qardaşım Əbdül Qafar telefonla danışdığı vaxt öldürüldü. Güllələrin izi ilə Qarabəyovun evindən atılan atəşlərin istiqamətini müəyyən etmək olar. Mənim mənzilimi talan etmiş, 250.000 rubl məbləğdən artıq

əmlakımı evdən aparmışlar. Sülh bağlanandan sonra Maks Manasoviç mənə danışırdı ki, özünün yaşadığı "Metropol" mehmanxanasından Nikolayevskaya küçəsi boyu müsəlmanlara yaylım atəşləri açan silahlı erməni dəstəsini görüb və o, Manaseviç, bu dəstənin arasında Ambarsum Serqeyeviç Melikovun oğlu Jorju tanıyıb.

Barışıqdan bir neçə gün sonra mən öz ailəmlə kəndə köçdüm və orada bir kəndlidən eşitdim ki, Ambarsum Melikov özü də silahlanmış və erməni dəstəsi ilə müsəlmanlara qarşı vuruşmuşdur. Kəndən şəhərə qayıtdıqdan sonra mən bunu da eşitdim ki, ingilislərin təkidi ilə bir dəstə adam Zabrata göndərilmişdir və orada bu adamlar bir dərədən ermənilər tərəfindən doğranmış və dərəyə atılmış 22 müsəlman meyitinin tikələrini çıxarmışlar. Ramana ərazisində də çoxlu müsəlman qadın, uşaq və kişi doğranaraq öldürülmüşdür. Pyotr Moiseyeviç Zorabov mənə danışırdı ki, onun mənzilinə bir rus qadını, Cavad Aşurbəyovun yaxşı tanışı, gələrək Aşurbəyovun taleyi barəsində öyrənmək istəmişdir. Və Zorabovun arvadının yanında həkim Tiqran Ter-Zaxaryantsın denşiki xəbər verib ki, o, yəni denşikin özü, digər ermənilərlə birlikdə barışıqdan sonra Cavad Aşurbəyovu və doktor Kərim bəy Sultanovu öldürüblər və hər ikisinin meyitini yanan "Dağıstan"[67] mehmanxanasının alovlarına atıblar. Denşikin bu bəyanatından sonra Cavad Aşurbəyovun tanışı huşunu itirərək yıxılmış, doktor Ter-Zaxaryants isə demişdir ki, doktor Sultanov onun yaxşı tanışı idi.

Oxundu. İmza. Ə.Babayev.

Komissiya üzvləri: Məmməd Xan Təkinski,

Prokuror köməkçisi A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 3-4.**

## Sənəd № 22

***Dindirmə protokolu***

*1918-ci il, 7 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Şıx Balayev, 39 yaşım var, Bakı şəhərində, Verxnyaya-Priyutskaya küçəsi, 97 №-li evdə yaşayıram.**

Bu il martın 19-da səhər saat 9-da tüfənglə silahlanmış Stepan Lalayev, Tatevos Əmirov, Sergey Melikov və Arustam Tərcumanov və onlarla birlikdə əsgər paltarında olan daha 9-10 nəfər silahlı erməni mənim evimə gəldilər. Onlar evimdən daha qiymətli əşyaları çıxarıb aparmağa, qalanlarını sındırmağa başladılar. Onlar üç dəfə mənim evimi yandırmış və hər dəfə mənim kirayənişinlərim və bir neçə rus əsgərlərinin sayəsində onu xilas etmək mümkün olmuşdur. Bundan başqa ermənilər gözlərinə dəyən hər bir tatarı öldürürdülər. Mənim evimin yanında Sergey Melikovun mənim dayım oğlu Tələt Hüseynova, sonra isə Ağadadaş Hacı Qurban oğluna necə güllə atdığını və onları yaraladığını mən özüm görmüşəm. Bir qədər keçdikdən sonra bu dəstə Ağadadaşın evinə girdi və onun özünü və atası Hacı Qurban oğlunu öldürdü. Mən sonradan evdən Şamaxinkaya qaça bildim, buna görə də sağ qaldım. Mənim evimdən qarət edilmiş əşyaların siyahısını təqdim edirəm. Ümumiyyətlə mənə 1.200.000 rubl məbləğdə ziyan dəymişdir, bu məbləği Lalayevin və onun yoldaşlarının mülkiyyəti hesabına ödəməyi xahiş edirəm.

Oxundu. İmza. Şıx Balayev.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 125.**

## Sənəd № 24

***Dindirmə protokolu***

*1918-ci il, 5 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd Əli bəy Səlimbəyov, diş həkimi, 41 yaşlı, Bakıda Mixaylovskaya küçəsi, №- 11 ünvanda, Aşumovun evində yaşayıram.**

1918-ci i mart qırğınları vaxtı mən tələbəmlə birlikdə öz mənzilimdə idim. Bazar ertəsi günü səhər saat 6-da mən kabinetdəki pəncərəyə yaxınlaşdım və küçədə silahlı erməni əsgərlərinin kütləsini gördüm; mənə ay-

dın oldu ki, şəhərdə bolşeviklər deyil, ermənilər hücuma keçiblər və bir müsəlman kimi məni ölümcül təhlükə gözləyir. Elə oradaca, mən tüfənglə silahlanmış Stepan Lalayevin Ermansın aptekinin[68] yanında durduğunu gördüm, biz şəxsən tanış olmasaq da, bir-birimizi üzdən tanıyırdıq. S.Lalayev də məni pəncərədə gördü və sol əlini yuxarı qaldıraraq barmağı ilə məni hədələdi. Səhər saat 11-də ermənilər mənim mənzilimin giriş yolunu dağıtmağa başladılar, oranı dağıtdıqdan sonra giriş qapısını sındırmağa çalışdılar. Qapının bir hissəsi sındırılmışdı, lakin qapının zənciri basqınçılara mənzilə soxulmağa mane olurdu və bunun sayəsində mən və tələbəm salamat qaldıq. Elə həmin gün küçədən mənim mənzilimə 4 atəş açıldı və telefon xətti zədələndi. Gecə biz evin zirzəmisində gizləndik. Bura başqa sakinlər də yığışmışdılar və biz burada gecə yarıyadək qaldıq, gecə saat 12-dən isə Nusembaumun bu evin 4-cü mərtəbəsində yerləşən mənzilində olduq. Çərşənbə axşamı mən səhər saat 4-də durdum və bütün günü, həmçinin ertəsi, çərşənbə günü, mühəndis Qaysın mənzilində gizləndim. Çərşənbə axşamı səhər saat 4-də ermənilər yenidən mənim mənzilimə gəlmiş, linglər və baltalar ilə qapımı sındırmış, evə girmiş və hər şeyi dağıtmışlar. Mənim əmlakım evdən aparılmış, mebel isə məhv edilmişdir.

Mən altı səhifədə əmlakımın ətraflı siyahısını təqdim edirəm və onun işə əlavə olunmasını xahiş edirəm. Əmlakımın ümumi dəyəri 309.200 rubl təşkil edir və bu məbləğin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. İmza. M.Səlimbəyov.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 30.**

## Sənəd № 25

***Dindirmə protokolu***

*1918-ci il, 21 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd Tağı Həsən oğlu, şamaxılı, 45 yaşlı, Bakı şəhəri Krasno-Krestovskaya küçəsi, ev № 15 ünvanda yaşayıram.**

Mənim Nikolayevskaya küçəsində, Hüseynov qardaşlarının evində parça mağazam var. Bu il mart ayının ortalarında, bolşeviklər müsəlmanlara qarşı çıxış etdiyi zaman mən öz mənzilimdə idim. Mənim mənzilimlə yanaşı isə Əziz bəy Tahirovun mənzili idi. Mən və binanın sakinləri Tahirovun telefon olan mənzilinə tez-tez girirdik və mən eşidirdim ki qırğının birinci günündən barışıq elan edilənədək, daşnaksakanların nümayəndələri Tahirova müsəlmanların bolşeviklərə qarşı çıxış etdiyini, bütün ermənilərin müsəlmanlara qoşulduğunu və bolşeviklərə qarşı vuruşduğunu deyirlər. Bolşeviklərlə döyüşün üçüncü günü mən və digər müsəlmanlar öyrəndik ki, ermənilər bizi aldadırdılar və ermənilər özləri şəhərin Avropa hissəsində yerləşən evlərə soxulur, bu evlərin mənzillərindən dinc müsəlmanları, qadın və uşaqları bayıra çıxarır və öldürürdülər. Demək olar ki, bütün ermənilər müsəlmanlara qarşı silahlı çıxış edirdilər və mən barışığın birinci günü hətta ziyalı erməniləri, məhz: andlı iclasçı Mixail Ter-Sarkisovu, andlı iclasçı Arutçevi, Antonovun uşaqlarını və adlarını bilmədiyim digərlərini görmüşdüm. Bütün bu erməniləri mən Nikolayevskaya küçəsində əllərində tüfəng, “xaki” rəngli kostyumda və uzunboğaz çəkmələrdə, əsgər paltarında görmüşdüm. Onlar əsgərlərə göstərişlər verirdilər.

Digər erməni, rus və yəhudilərdən eşitmişdim ki, Nikoilayevskaya küçəsində yerləşən “İsmailiyyə” Müsəlman Xeyriyyə Cəmiyyətinin binasını zabit Styopa Lalayevin başçılıq etdiyi ermənilər yandırmışlar. Adı çəkilən binaya benzin tökmüş və od vurmuşlar. Mən həmçinin eşitmişəm ki, yuxarıda adları çəkilən ermənilərin sərəncamı ilə Bala Əhməd Muxtarovun Persidskaya küçəsində yerləşən evinə silahlı ermənilər göndərilmişdir, çünki onlar bilirdilər ki, Muxtarovun evində xeyli ziyalı müsəlmanlar yığışmışdı. Barışıq zamanı ermənilər Muxtarovun evindən demək olar ki, müsəlmanların hamısını guya əsir götürmək adı ilə küçəyə çıxardılar və Sobornaya meydanında qətlə yetirdilər. Barışıqdan sonra, türklər gələnədək, altı ay ərzində ermənilər gecələr evlərə soxulur və sistemli şəkildə müsəlmanları küçəyə çıxarır, harasa aparır və öldürürdülər. Qətlə yetirilmiş bəzi müsəlmanları biz tapa bilmirdik və sonradan öyrəndik ki, ermənilər müsəlmanları öldürür, meyitlərini isə xəndəklərə atırmışlar. Mənim tanışlarımdan Eyvazov ermənilər tərəfindən aparılmışdır və indiyədək onun meyitini tapmaq mümkün olmamışdır. Ermənilər həmçinin kəndlərə gedən və kəndlərdən gələn müsəlmanları da öldürürdülər və bu müsəlmanların meyitləri Sabunçu, Suraxanı və Binə kəndlərində olan su quyularından tapılmışdır. Mart ayının ortalarında ermənilər mənim mağazamı talan etdilər və bütün malı həyətdən çıxardılar. Bu barədə

ilk dəfə evlər komitəsi tərəfindən akt tərtib edilmiş və bolşeviklərə göndərilmişdi. Bolşeviklər dindirmə yolu ilə mağazanın köhnə qiymətlə 97.000 rubl məbləğində ermənilər tərəfindən talan edilməsi faktını müəyyən etmişdilər və mən bu barədə ərizə ilə müraciət edirəm və onun işə əlavə edilməsini xahiş edirəm. Mənə danışırdılar ki, ermənilər hamilə qadınların qarınlarını yarır və hamilə qadınların qarnından körpəni dartıb çıxarırdılar. Hacı Əjdərin tikdirdiyi məsciddə[69] müsəlman qadınlara və qızlara təcavüz edilmişdi. Ermənilər məscidi ayaqyoluna çevirərək, onu murdarlamışdılar. "Kaspi" qəzetinin redaksiyasında olan 12.000 ədəd Quran kitabları bina ilə birlikdə ermənilər tərəfindən yandırılmışdı. Yandırılmış Quran kitablarının qalıqları zirzəminin dağıntıları altındadır. Mart hadisələrinədək ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən köçməyə başlamışdılar. Məsələn, mənim evimin qarşısında oturan erməni bərbər mart hadisələrinə altı gün qalmış köçüb getmişdi. Ermənilərin belə hərəkətlərindən sonra anlamışdıq ki, ermənilər müsəlmanlara qarşı hücuma hazırlaşırlar.

Oxundu. İmza.

Fövqəladə Təhqiqat Komissiyasının sədri: Ə. Xasməmmədov (imza)

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri: Andlı iclasçı M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 23-24.**

## Sənəd № 26

***Dindirmə protokolu***

*1918-ci il, 3 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Abbas Eyvaz oğlu, bakılıyam, Pozenovskaya küçəsi, ev № 20.**

Bu il martın ortalarında limanların birində tüfənglə atışmalar başladı, buna görə mən Naberejnaya küçəsindəki kontorumu bağlayıb evə yollandım. Atışma ertəsi gün axşam da davam etdi. Üçüncü gün səhər mən Sisianovskaya və Nikolayevskaya küçələrinin kəsişməsində yerləşən və türk hərbi əsirlərinin qaldığı karvansaraya[70] getməyə hazırlaşırdım. Bu vaxt Nilolayev-

skaya küçəsinin hər tərəfindən atəş səsləri gəlirdi. Mən tindən boylananda gördüm ki, "Metropol" mehmanxanasından Nikolayevskaya küçəsi boyu 25 silahlı erməni əsgəri üzü yuxarı qalxır, onların başında həmçinin tüfənglərlə silahlanmış Artyom Nikolayeviç Ter-Akopov, Fridun Antonov və Jorj Melikov gedirdilər. Onlar Nikolayevskaya küçəsi ilə fasiləsiz göyə yaylım atəşləri atırdılar. Mən dərhal oradan qaçdım. Sonra eşitdim ki, mənim getmək istədiyim karvansarada ermənilər 8 nəfər türk hərbi əsirlərini, 3 iranlı təbəələri və 2 müsəlman qadını öldürüblər. Ermənilər mənim Nikolayevskaya və Bazarnaya küçələrinin kəsişməsində yerləşən mağazamı, kontorumu və anbarımı talan ediblər. Kontordan 8 xalça və 17 kisə un aparıblar, mağaza və anbardan düyü, çay və s. ərzaq məhsulları aparıblar, ümumilikdə mənə məxsus təxminən 150.000 manat məbləğində əmlak və ərzaq məhsulları qarət olunub.

Hələ mart hadisələrinə 2 ay qalmış mən görürdüm ki, ermənilər şəhərin müsəlman hissəsi sayılan yuxarı hissədən öz əşyaları ilə aşağı hissəyə, əsasən Telefonnaya küçəsinin rayonuna köçürlər. Mənim suallarıma onların çoxu belə cavab verirdi ki, şəhərin aşağı hissəsinə ona görə köçürlər ki, erməni komitəsinin fikrincə orda yaşamaq daha mühasib ola bilər. Bundan əlavə, ermənilər ruslara da, müsəlmanların onları öldürə biləcəyi barədə xəbərdarlıq edərək, şəhərin aşağı hissəsinə köçməyi məsləhət görürdülər. Bununla onlar rus əhalisini müsəlmanlara qarşı qaldırmaq istəyirdilər. Yuxarıda adları çəkilən şəxslərdən Ter-Akopov ixtisasca mühəndisdir.

Türk qoşunları Bibiheybətə girdikdən 2 gün sonra mənim əmim oğlu, Pozenovskaya küçəsindən yuxarıda, Çəmbərəkənddə yaşayan Cəfərqulu İbrahim oğlunun evinə 4 nəfər erməni, onların arasında bir general Arutyunyants və Evanqulov adlı başqa birisi, gəlmişlər. Onlar guya Cəfərqulunun casusluqla məşğul olduğunu və türk ordusuna müxtəlif məlumatlar verdiyini bildirərək onu özləri ilə aparmışlar. Bir neçə saatdan sonra onlar geri qayıtmış və Cəfərqulunun arvadına demişlər ki, guya ki, Cəfərquludan evdə pul saxladığını öyrənmişlər. Sonra onlar evdə axtarış apararaq evi alt-üst etmiş və divarın taxçasında, döşəklərin arasında kredit biletləri ilə 12.285 rubl tapmışlar. Onlar pulları götürmüş və Cəfərqulunun arvadını öldürərək çıxıb getmişlər.

Oxundu. İmza.

Komissiyanın sədri: Ə. Xasməmmədov (imza)

Komissiyanın üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 1-2.**

## Sənəd № 27

*Dindirmə protokolu*

*1918-ci il, 27 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əshəddin Hacı oğlu Mustafayev, 22 yaşım var, Bakı şəhərində, Qorçakovskaya küçəsi, 12 № li evdə yaşayıram.**

Bu ilin mart ayında mən Ağa Hüseyn Babayevin Nikolayevskaya və Zavedenskaya küçələrinin tinindəki evində yaşayırdım. Martın 19-da gündüz saat 3-də bizim evə 14 nəfər erməni əsgəri gələrək mənə bildirdilər ki, bizim həyətdə 3 nəfər tatar yaşayır və sakinlərdə 11 tüfəng vardır; onlar bunu da dedilər ki, əgər biz tüfəngləri verməsək bizim hamımızı əsir aparacaqlar. Evdə cəmi bir, doktor Nəriman bəy Nərimanovun[71] tüfəngi tapıldığı üçün ermənilər bu tüfəngi götürdülər, sonra məni, əmim Məcidulla Osman oğlunu, Hacı Xan Qurban oğlunu, Üzeyir Hacı Müştaq oğlunu, Rəhim Rəhimxan oğlunu, Ağa Hüseyn Babayevi, doktor Nərimanovun qardaşını, mühəndis Sərkisyanın bağbanını Nikolayevskaya küçəsi ilə aşağıya doğru apardılar. Mühəndis Sərkisyan mart hadisələri başlamazdan bir neçə gün əvvəl ailəsi ilə birlikdə şəhərin ermənilər yaşayan hissəsinə köçmüşdü, öz əşyalarını qorumaq üçün isə bağbanı mənzilində qoymuşdu. Yolüstü ermənilər ağ bayraqla gedən üç nəfər yaşlı müsəlmandan ibarət nümayəndələri də həbs etdilər. Velikoknyajeskaya prospektinə çatdıqda, erməni əsgərləri bizi Kələntərov pasajının qarşısında bir sıraya düzdülər və tüfənglərdən bizə yaylım atəşi açdılar. Mən partlayan güllə ilə sağ qolumdan və sağ tərəfdən yaralandım, Məcidulla Osman oğlu partlayan güllə ilə sağ ayağından yaralandı. Üzeyir, Babayev, bağban, Rəhim və Hacı Xan yerindəcə ölmüşdülər, sonuncunun bütün kəlləsi dağılmışdı. Sonra bizi qarət etdilər; mənim 1500 rubl dəyərində brilyant qaşlı üzüyümü əlimdən aldılar. Öldürülənlərin əşyalarından başqa geyimlərini, hətta alt paltarlarını çıxardılar. Bizi əsir götürən dəstənin başçısı Ofitserskaya küçəsindəki ev sahibi erməni Sergeyevin oğlu idi. Mənim əmim Məcidullanın qızıl saatını, qızıl üzüyünü, gümüş portsiqarını və d. əşyalarını – cəmi 10.000 rubl məbləğində, və 5000 rubl nağd pulunu qarət etmişlər.

Oxundu. Əshəddin savadsız olduğu üçün onun əvəzinə M.Q. Zalbəyov imzaladı.

Komissiyanın sədri: Ə. Xasməmmədov (imza)

Komissiyanın üzvləri: A.Kluge Məmməd Xan Təkinski, (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 42-43.**

## Sənəd № 28

***Dindirmə protokolu***

*1919-cu il, 8 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Osman Osmanov, 26 yaşlı, Temir-Xan-Şurada yaşayıram.**

Keçən il martın 19-da, səhər, mən doktor Bəybala bəy Sultanovun Vorontsovskaya küçəsində yerləşən mənzilinə gəldim. Orada qarətlə məşğul olan yüz nəfərə yaxın erməni əsgərlərini gördüm. Bəzilərinin əlində qızıl zəncirlər, saatlar, alt paltarları, dəsmallar var idi. Bu dəstənin başçısı Stepan Lalayev idi. Mən onu yaxşı tanıyaram: orta boyludur, yanağında çapıq var. O, hamıya əmrlər verirdi. Mən erməniyə oxşadığım üçün heç kəs mənə toxunmadı. Evin həyətində mən öldürülmüş bir uşaq gördüm. Elə orada bir kişi meyiti də var idi, görünür, o da öldürülmüşdü. Mən buradan çıxıb getməyə tələsdim, belə ki, qorxurdum ki, müsəlman olduğumu bilsələr, məni də öldürərlər. Bundan 3 gün sonra mən yenidən doktor Sultanovun mənzilinə gəldim. O zaman mən doktorun özünün meyitini gördüm. O, öz evinin damında uzanıb qalmışdı. Cibləri astarına çevrilmişdi. Onun haradan yaralandığını mən görmədim. Sonralar eşitdim ki, deyilənə görə, doktor Sultanovu guya Stepan Lalayev şəxsən özü öldürmüşdür.

Oxundu. İmza. O.Osmanov.

Komissiyanın üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 68.**

## Sənəd № 29

*Dindirmə protokolu*

*1918-ci il, 18 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olara zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**İsmayıl bəy Şeyda bəy oğlu Məmmədbəyov, 27 yaşım var, Bakıda, Suraxanskaya küçəsində, dalan 15, 2\3 № li evdə yaşayıram.**

Bu ilin mart ayında mən qardaşım Qasım bəylə Çadrovaya küçəsində, Krasnovodskya küçəsinin tinindəki evdə yaşayırdıq. Çərşənbə axşamı, martın 20-də, gündüz saat 12-də bizim həyətə 20-25 nəfər erməni əsgəri basqın etdi, hamımızın üstünü axtardılar, mənim 5200 rubl nağd pulumu çıxardılar, sonra məni, qardaşım Qasım bəyi, əmim Əbdül Xalıq bəy Məmmədbəyovu və onun oğlu İlyas bəyi küçəyə çıxartdılar və dedilər ki, bizi əsir aparırlar. Küçədə bizi 70 nəfərə yaxın silahlı erməni əsgərlərindən ibarət bir kütlə əhatə etdi, onlardan biri, ətrafımdakı ermənilərin çiyninin üstündən mənə revolverlə atəş açdı və məni sağ çiynimdən ağır yaraladı. Mən əvvəlcə özümü kütlənin içinə atdım, sonra Krasnovodskaya, daha sonra isə Bondarnaya küçələri ilə qaçmağa başladım. Sonra Aşurbəyovun Armyanskaya küçəsinin yaxınlığındakı evinə girdim. Bütün bu vaxt ərzində güllələr mənim yanımdan bulud kimi keçirdi və onlardan yalnız biri mənim sol çiynimə dəymişdi. Mənim arxamca güllə atanların arasında mən bir tanış erməni gördüm, sonradan öyrəndiyim kimi, bu, 1-ci gimnaziyanın tələbəsi Paroyants idi. Mən qaçandan sonra həmin bu ermənilər tərəfindən mənim qardaşım Qasım bəy 3 güllə ilə, əmim Əbdül Xalıq bəy 1 güllə ilə, onun oğlu isə 3 güllə ilə öldürülmüşlər, sonuncunun kəlləsi tamamilə dağıdılmışdı. Mənim anamı və bacımı əsir götürərək Mailov teatrına aparmışlar. Biz evdə olmadığımız müddət ərzində evimizi tamamilə talan etmiş, 15.510 rubl məbləğində qiymətli zinət əşyaları və başqa əmlakımızı qarət etmişlər. Mənim öldürülmüş qardaşım Qasım bəyin cibində 6000 rubla yaxın pul var idi və bu pulun bir hissəsi onun şəriki Mikayılova məxsus idi. Bu pullar da ermənilər tərəfindən oğurlanmışdır.

Oxundu. İmza. İsmayıl bəy Məmmədbəyov.
Komissiyanın sədri: Ə. Xasməmmədov (imza)
Komissiyanın üzvü: A.Kluge (imza)
**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 164.**

## Sənəd № 30

*Dindirmə protokolu*

*1918-ci il, 6 oktyabr.Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mirzə Əhməd Hüseynzadə, Bakılıyam, 41 yaşım var, Naberejnaya küçəsi, 49 №-li evdə yaşayıram.**

Bu il mart ayının ortalarında mən Vaçyansı, deyəsən adı Asaturdur, bir dəstə silahlı erməni ilə birlikdə gördüm, o, evlərə girir, müsəlmanları əsir kimi aparır və yolda onları öldürürdü. Nikolayevskaya küçəsində yerləşən "Təbriz"[72] mehmanxanasında səksən səkkiz nəfər iranlı tacirlər yaşayırdı, Vaçyans onların küçəyə çıxardı və onlardan yalnız səkkiz nəfəri sağ qaldı, qalan səksən nəfər tacir öldürüldü. Bu hadisə barədə İran konsulu bilir. Sülh nümayəndə heyəti Spasskaya küçəsinə gələndə Vaçyans müsəlmanlarla hər hansı sülhün əleyhinə etiraz edirdi və silahlı ermənilərə deyirdi ki, ermənilər başdan tutma bütün müsəlmanları, qadın və uşaqlar belə istisna olmadan, hamısını məhv etməlidirlər. Vaçyans, Taqianosov, və andlı iclasçı Teh-Qazarov "Avropa"[73] mehmanxanasındakı İngilis qərargahında[74] mühüm rol oynayırdılar. Ora tərcüməçi kimi dəvət olunmuş Vaçyans deyirdi ki, Mirbaxı[75] onların göndərdiyi iki erməni öldürüb. Müsəlmanlar "Avropa" mehmanxanasına şikayətə gəlmişdilər ki, ermənilər "Bibiheybət"[76] ziyarətgahını dağıdırlar və təhqir edirlər.

Oxundu. İmza. (ərəb hərfləri ilə)
Fövqəladə Təhqiqat Komissiyasının üzvləri: Andlı iclasçı M.Təkinski, Prokuror köməkçisi A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 5.**

## Sənəd № 32

*Dindirmə protokolu*

*1918-ci il, 11 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Balağa Əlağa oğlu, 40 yaşlı, Bakıda, Nijnyaya-Priyutskaya küçəsi, ev № 2, 8-ci dalan ünvanda yaşayıram.**

Mart qırğınlarının ikinci günü mənim evimə 12 nəfər erməni əsgəri gəldi və məni ailəmlə birlikdə şəhər nəqliyyatı binasının həyətinə əsir apardılar, evimi isə qarət etdilər. Mənim 3000 rubl məbləğində əşyalarımı özlərinə götürdülər. Həmin ermənilər arasında bir tanışım vardı və o, məni öldürməyə qoymadı. Mən dülgərlik emalatxanasının sahibinin yanında faytonçu işləyirdim. Qırğınlara bir neçə gün qalmış Avetis adında bir erməni fəhlə mənim vedrəmi götürmüşdü. Mən bunu etməyi ona qadağan edəndə o, mənə dedi: "Hələ dayan, görərsən bir neçə gündən sonra biz sizin başınıza nə oyun gətirəcəyik". Mən bu barədə baş fəhlə Karapetə xəbər verəndə, o, mənə haqq-hesabımı alıb işdən getməyi məsləhət gördü, belə ki, onun mənə yazığı gəlir və o, istəməzdi ki, mənə nə isə olsun.

Oxundu. Savadsızdır.

Komissiyanın üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 143-144.**

## Sənəd № 33

*Dindirmə protokolu*

*1918-ci il, 19 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd Əhməd Rəhim oğlu, bakılıyam, 50 yaşım var, Suraxanskaya küçəsi, 74 ünvanda yaşayıram.**

Bu il martın 20-də axşama yaxın 30-a qədər silahlı erməni Fərəculla Hüseynovun Karantinnaya küçəsi, 69 və Tatarskaya küçəsi, 24 ünvanda yerləşən evinin qapılarını sındırdılar. Bu evin darvazası qarşısında ermənilər pulemyot qoydular və hər iki küçəni atəşə tutmağa başladılar. Qapıya dəyən zərbələri eşidəndə və erməniləri görəndə, biz də evin divarında yarıq açdıq və bu yarıqdan qonşu evin damına çıxdıq. Mən, arvadım və uşaqlarımla ikinci mərtəbədəki mənzildə yaşayırdıq. Dörd gündən sonra mən öz mənzilimə qayıtdım və gördüm ki, bütün ev əşyaları, qızıl, gümüş, eləcə də nağd pulla 34.840 rubl məbləğində əmlakım qarət edilmişdir.

Əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Qarətçilərin arasında mən öz erməni qonşularımı - dükançı Yevuşu və dərzi Hayk Aramış oğlunu, həmçinin adlarını bilmədiyim daha bir neçə nəfəri tanıdım, lakin onları görsəm göstərə bilərəm.

Ermənilər bolşevizm bayrağı altında işləyirdilər, lakin biz bunu bilmirdik və hücumun birinci günü mən hətta bəzi ermənilərə şəhərin o biri hissəsinə keçməyə kömək edirdim. Mən yalnız ikinci gün öyrəndim ki, demək olar ki, bütün ermənilər - cavanlar, qocalar və hətta savadlılar - hamısı müsəlmanlara qarşı çıxış ediblər.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 21.**

## Sənəd № 35

***Dindirmə protokolu***

*1918-ci il, 24 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Hüseyn Səfərəliyev, 43 yaşlı, Bakıda, Serkovnaya küçəsi, ev № 189 ünvanda yaşayıram.**

Bu ilin mart ayının ortalarında barışıq elan edilən gün mənim yaşadığım Serkovnaya küçəsi, 189 №-li evin həyətinə əsgər forması geyinmiş otuza yaxın silahlı ermənilər - aralarında ziyalı ermənilər də var idi - girdilər və

bizə bildirdilər ki, barışıq elan edilmişdir və onlar bizi əsir götürməlidirlər. Ermənilər məni, Mövsüm Səlimovu ailəsi ilə birlikdə, Xələf Mövlamovu ailəsi ilə birlikdə, mənim ailəmi, Əsədullayevin anasını, iyirmidən yuxarı qadın və uşaqların hamısını Birjevaya meydanına, "Rekord"[77] teatrının binasına gətirdilər. Biz yolboyu küçələrin tinlərində duran və aralarında ziyalıların da olduğu xeyli silahlı erməni görürdük. Bizi gördükcə onlar bizə və bizim dinimizə söyürdülər. Bizim Peyğəmbərimizə söyür və rişxəndlə Peyğəmbərimizin niyə bizə kömək etmədiyini soruşurdular. Serkovnaya küçəsindən "Rekord" teatrına gedərkən yolda ermənilər bizə atəş açdılar və güllə mənim sağ qulağıma dəydi. Atəşdən sonra qarşıdan gələn dənizçilər dərhal bizi əhatəyə aldılar və öz bədənləri ilə bizim həyatımızı təcavüzdən qorumağa başladılar. Barışıq ərəfəsində ermənilər müsəlmanların, məs. Hacı Hənifənin ailəsi ilə yaşadığı qonşu evə soxulmuş və onların hamısını qətlə yetirmişdilər. Bizim evə və qonşu evə Avakyanın başçılıq etdiyi ermənilər girmişdi. Ziyalı ermənilərdən mən Xristofor Sergeyeviç Tarayevi tanıdım. Mənim və Hacı Hənifənin mənzilini tamamilə qarət etmişdilər. Mənim 150.000 rubldan çox qiyməti olan əmlakımı və zinət əşyalarımı və 36.000 rubl nağd pulumu aparmışlar.

Bizim və Hacı Hənifənin mənzilinə İsaak Baqdasarov adlı erməni, çəkmə emalatxanasının sahibi girmişdi. Adı çəkilən Baqdasarovu mən kasıb adam kimi tanıyırdım, mart hadisələrindən sonra isə o varlandı və yaxşı bir ev aldı.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvü: Məmməd Xan Təkinski (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 25.**

## Sənəd № 36

*Dindirmə protokolu*

*1918-ci il, 18 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Məmməd Sadıq Talıbov, 55 yaşlı, Bakıda, Serkovnaya küçəsi, 139 № li evdə yaşayıram.**

Bu ilin mart ayında, ermənilər tərəfindən törədilən qırğınlar zamanı, çərşənbə axşamı, ayın 20-də bizim hamımızı əsir götürdülər. Bu vaxt mənim keçmiş kirayənişinim Levon Vartanyan (andlı iclasçının qardaşı) mənim evimdən mənim bütün qiymətli əmlakımı: bütün kişi və qadın zinət əşyaları, özü də hələ yalnız 30 funtdan artıq qızıl, çoxlu brilyant və çoxlu mirvari - oğurlamışdır. Köhnə qiymətlə qarət edilmiş zinət əşyaları 500.000 rubl dəyərində idi, indiki qiymətlərlə isə onları – 5.000.000 rubl məbləğində dəyərləndirirəm. Mən Bazarnaya küçəsində bina icarəyə götürmüşdüm və bu binada 40 otağı olan "İsgəndəriyyə"[78] mehmanxanası yerləşirdi. Ermənilər bu binanı yandırmışlar və yanğınla mənə 200.000 rubldan artıq zərər vurulmuşdur.

Oxundu. İmza. M.M.S.Talıbov.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 162-163.**

## Sənəd № 40

***Dindirmə protokolu***

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd Əli Məmməd Kazım oğlu, 22 yaşlı, Bakıda, Verxnyaya-Naqornaya küçəsi, 133 № li evdə yaşayıram.**

Bakı hücuma məruz qaldığı zaman erməni Badxudayans mənim Vrangelevskaya küçəsi, 15 № li evdə yerləşən meyvə və yeyinti mallarıı dükanımı qarət etmişdir. 24.700 rubl məbləğində meyvə və müxtəlif mallar oğurlanmışdır. Bu qarət haqqında 3-cü polis bölməsində istintaq aparılmışdır. Hazırda Badxudayants 5000 rubl ödəməklə mənə onunla barışmağı təklif edir.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 145.**

## Sənəd № 42

*Dindirmə protokolu*

*1918-ci il, 11 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mir Murtuza Mir Ağa oğlu, 58 yaşlı, Bakıda, Verxnyaya-Tazapirskaya küçəsində, 19 № li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər Kazar və Arutyun Kazarovlar avtomobildə mənim və şərikim Nağı Məmməd Hüseyn oğlunun Bazarnaya küçəsində yerləşən mağazamıza gəldilər və bizim 72.000 rubl məbləğində xırdavat mallarımızı qarət etdilər. Şəxsən mənim 40.000 rubl məbləğində malım oğurlanmışdır. Arutyun Kazarovun öz qardaşları ilə birgə əvvəllər bizim yanımızda dükanları var idi. Qarətdən sonra Kazarovlar bizim dükanı yandırdılar.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 142.**

## Sənəd № 44

*Dindirmə protokolu*

*1918-ci il, 8 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Nasir Kərbəlayı Əzim oğlu, 41 yaşlı, Bakı şəhərində, Tatarskaya küçəsində, 58 № li evdə yaşayıram.**

Mart qırğınlarının üçüncü günü mənim evimə silahlı erməni əsgərləri gəldilər və mənim 7662 rubl məbləğində əmlakımı və 2000 rubl nağd pulumu qarət etdilər. Qarətçilərin arasında mən Tatarskaya və Karantinnaya küçələrinin tinində yerləşən baqqal dükanının sahibi Yequşu, Şamaxı

şəhərinin sakini Samvelin oğlunu tanıdım. Mən özüm ermənilərdən qaçıb gizlənə bildim, amma onlar mənim əmim Həbibulla Molla Hacı Baba oğlunu və əmim oğlu Hacı Baba Həbibulla oğlunu öldürdülər: hər ikisi tüfəngdən atılan atəşlə öldürülüblər. Bizim arvadlarımızı və uşaqlarımızı Mailov teatrına əsir apardılar.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 125-126.**

## Sənəd № 45

*Dindirmə protokolu*

*1918-ci il, 29 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Teymur Səlimov, 22 yaşım var, Bakı şəhərində, Serkovnaya küçəsi, 171 № li evdə yaşayıram.**

Bu ilin mart ayında, mən atam, anam, arvadım və digər qohumlarımla birlikdə Kladbişenskaya küçəsində olduğumuz zaman, bizim Serkovnaya küçəsindəki evimizə erməni əsgərləri gəlmişlər və bizim dalandarımız Məmməd İrzanı əsir götürərək, bizim evi qarət etmişlər. Ümumilikdə 150.600 rubl məbləğində əmlakımızı aparmışlar. Məmməd İrza qarətçilərin arasında bizim evimizdə yaşayan erməni Ter-Kazarov qardaşlarını görmüşdür – Aleksandrı, Levonu və üçüncü qardaşı, onun adını bilmirəm, lakin o da qarətdə iştirak etmişdir. Hazırda Levon və üçüncü qardaş həbs olunmuşlar, Aleksandr isə Həştərxana qaçmışdır. Məmməd İrza Aleksandrın telefonla kiməsə mənzil sahiblərinin evdə olmadığını xəbər verərək, onu bizim mənzilə dəvət etdiyini eşitmişdir.

Oxundu. İmza. T.Səlimov.

Komissiyanın sədri: Ələk. Xasməmmədov (imza)

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 56.**

## Sənəd № 46

*Dindirmə protokolu*

*1918-ci il, 8 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli Ağa Ağayev, Bakılı, 28 yaşlı, Bakıda, Qluxoy döngə, № 24 ünvanda yaşayır.**

Bu il mart ayının ortalarında ermənilərlə bolşeviklərin çıxışı zamanı mənə və mənim iki qardaşıma məxsus olan mağaza erməni-dalandarın köməyi ilə ermənilər tərəfindən talan edilmişdir. Onlar 80.000 rubl məbləğində bütün gümüş əşyaları aparmışlar və mən bu barədə bolşeviklərə məlumat vermişdim.

Oxundu. İmza. Əli Ağa Ağayev.

Komissiya üzvləri: Andlı iclasçı M.Təkinski, Prokuror köməkçisi A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 10.**

## Sənəd № 47

*Dindirmə protokolu*

*1918-ci il, 3 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ağa Əli İsmayılov, 23 yaşlı, Bakı şəhərində, Bondarnaya küçəsi, 69 № li evdə yaşayıram, 6-cı polis sahəsi.**

Bu il martın 20-də səhər saat 8-də bizim evə 6 nəfər silahlı daşnaksakanlar gəldi, onların arasında bərbərlər ittifaqında işləyən Arşak adlı, soyadı deyəsən Avetisovdur, dolu bədənli, ucu kəsik bığlı birisi var idi. O, tüfəngdən yaylım atəşləri açırdı və məni öldürmək istəyirdi. Bu vaxt atam məni müdafiə etdi və onlara yalvardı ki, məni öldürməsinlər. Mənim hə-

yatım üçün Nikolay pulları ilə 7080 rubl aldıqdan sonra daşnaksakanlar məni süngü ilə kürəyimdən yaraladılar, mənzilimizi talan etdilər, sonra isə bizim hamımızı Mailov teatrına əsir apardılar. Nağd puldan başqa bizim evdən 17.780 rubl məbləğində müxtəlif əşyaları qarət etmişlər.

Oxundu. İmza. Ağa Əli İsmayılov.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 91.**

## Sənəd № 50

***Dindirmə protokolu***

*1918-ci il, 5 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Heydər Qulu Quliyev, 39 yaşlı, Bakıda, Şamaxinskaya küçəsi, 15 № li evdə yaşayıram.**

Bu il sentyabr ayında Bakının mühasirəsi vaxtı mənim mənzilimə praporşik Qazaryansın başçılığı altında erməni əsgərləri - 11 nəfərdən ibarət dəstə gəldi, Qazaryantsın adına yazılmış və mənim evimdə axtarış aparmağa izn verən mandatı mənə göstərərək mənzilimi axtarmağa başladılar. Mən şahid qismində qonşularımı dəvət etmək istədikdə ermənilər bunu qadağan etdilər və məni silahla hədələdilər. Erməni dəstəsi getdikdən sonra mən mənzilimdən 15.000 rubl pul, 1000 rubl dəyərində qızıl saat, kostyumluq mahud parça, xəz palto, qızıl kəmər və ərizəyə əlavə etdiyim siyahıda göstərilən digər əşyalarımın qarət edildiyini gördüm. Mənə vurulan zərərin ümumi məbləği 38.200 rubl təşkil edir.

Mart ayında ermənilər məni qarət etməmişdilər, belə ki, onlar bizim evə gəlib yetişməmişdilər. Ermənilərlə müsəlman arasında sülh bağlandıqdan sonra mən öz mənzilimdən çıxdım və Şamaxinkadan başlayıb Bolşaya Morskaya küçəsində qurtararaq 1-ci Kanitapinskaya və 1-ci Parallelnaya küçələrini gəzməyə başladım. Eyni zamanda müsəlman meyitlərinin yığılmasında iştirak etdim, onların sayı 1500-ə yaxın idi. Bəzi evlərdə mən 7 - 8 qoca, qadın və uşaq meyitlərinə rast gəlirdim və onla-

rın hamısı dəhşətli dərəcədə eybəcər hala salınmışdı. Açıq görünürdü ki, ölümdən əvvəl onlara işgəncələr vermişlər və təhqir etmişlər. Məs., bir yerdə cinsi orqanları kəsilmiş kişi uzanmışdı, kəsilən orqan isə yaxınlıqdakı müsəlman qadın meyitinin ağzına qoyulmuşdu. Başqa bir yerdə boğazı kəsilmiş cavan müsəlman qadın meyiti uzanmışdı, onun sinəsinin üstünə isə xəncərlə doğranmış bir yaşlı körpə qoyulmuş, qadının döşünün giləsi uşağın ağzına basılmışdı; uşaq qadının döşündən sürüşüb düşməsin deyə ətrafına daş yığılmışdı. Bir evdə pilətənin üstündə yanıb qaralmış körpə uşaq cəsədi var idi və görünürdü ki, onu yanan piltənin üstünə qoyublar və körpə dəhşətli əzablar içində ölüb. Hər tərəf əlləri, barmaqları kəsilmiş cəsədlərlə dolu idi, qadın cəsədlərinin çoxunun döşləri kəsilmişdi. Mən qarnına ucu biz taxta soxularaq yerə mixlanmış bir oğlan meyiti görmüşdüm. Qara şəhərdə mənim bacım oğlu Bəşir Cəfərovu qətlə yetirmişdilər, onun başını və əlini kəsmişdilər, sonra isə başını harasa aparmışdılar. Bundan başqa onun bədənində bir neçə süngü yaraları var idi. Babayevin evində ermənilər Rəhman Babayevi və onun iki qardaşını öldürmüş, 100.000 rubl pullarını (40.000 rubl qızılla) qarət etmişdilər. Babayevin ailəsi onlara bütün pulları götürüb, heç olmasa dördüncü qardaşın həyatını saxlamağı yalvarsalar da, ermənilər bununla belə, ona tüfəngdən atəş açmış və başından yaralamışdılar; o yalnız yerə yıxılıb özünü ölülüyə vurduğu üçün sağ qalmışdı.

Mən ermənilər tərəfindən yandırılmış "Dağıstan", "İsgəndəriyyə" və "İslamiyyə"[79] mehmanxanalarının xarabalıqlarını gəzərkən çoxlu yanmış meyitlər görmüşdüm: bu vaxt "Dağıstan"da "Hacınski-Çələkən" Aksioner Cəmiyyətinin[80] idarə müdiri, 60 yaşlı Abdulla bəy Bababəyov yanmışdı. "Təbriz" mehmanxanasında ermənilər 70 nəfər müsəlmanı əsir götürmüşdülər, onlardan yalnız 20 nəfəri sağ qalmış və onlar "Rekord" teatrına gətirilmişdi, qalanları isə Molokan bağının yanında güllələnmişdi.

Oxundu. İmza. Heydər Quliyev.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 18-19.**

## Sənəd № 51

*Dindirmə protokolu*

*1918-ci il, 28 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xan Baba Babayev, 31 yaşlı, Novxanı kəndinin sakini, daimi olaraq Bakıda, Orlovskaya küçəsi, ev № 35 ünvanda yaşayıram.**

18 martda axşam altının yarısında şəhərdə atışma başlandı. Martın 19-da səhər tezdən bolşeviklər və erməni hərbi hissələri müsəlmanlara qarşı hücuma keçdilər. Bu il mart ayının 20-də mən öyrəndim ki, barışıq elan edilmişdir və səhər saat 9-da mən Bazarnaya və Gimnaziçeskaya küçələrinin tinində öz baqqal dükanımın olduğu yanan binanı söndürməyə getdim. Bazarnaya və Staraya-Poçtovaya küçələrinin tinində məni otuz nəfərə yaxın erməni əsgəri əhatəyə götürdü və 2500 rubl pulumu, 2000 rubla aldığım tüfəngimi, balaca Quran kitabını əlimdən aldılar, Quranı yerə ataraq tapdalamağa, nalayiq sözlərlə dinimi təhqir etməyə başladılar, özümü isə öldürmək istədilər. Bütün bu vaxt ərzində erməni əsgərlərinin əhatəsində durmağa çalışırdım ki, məni güllələyə bilməsinlər. Erməni əsgərlərinin yanında bir rus əsgəri var idi, o, erməniləri məni öldürməyə qoymadı və onlara bildirdi ki, barışıq elan edildikdən sonra öldürmək olmaz. Bu zaman rus əsgərinin qarşısında dayanaraq ermənilərlə mübahisə etdiyi qonşu evin darvazasından iki rus qadın çıxdı və ermənilərə yalvarmağa başladılar ki, məni öldürməsinlər. Nəhayət, onlar məni erməni əsgərlərinin əlindən ala bildilər. Mənim təsvir etdiyim hadisədən bir gün sonra ermənilər tərəfindən öldürülmüş qardaşım oğlu Ağakişinin meyitini axtarmağa getdim və yeni gömrüyə[81] yollandım. Mən gömrüyün və "Vulkan" zavodunun[82] həyətində beş mindən çox eybəcər və tanınmaz hala salınmış, başları, qolları, ayaqları, qulaqları, boğazları kəsilmiş müsəlman cəsədləri gördüm. Kişi, qadın, uşaq cəsədləri üst-üstə qalanmışdı. Bu müsəlmanların hamısını ermənilər barışıq elan edildikdən sonra, evlərindən çıxararaq qətlə yetirmişdilər, döyüş zamanı isə ölən müsəlmanların - döyüşənlərin sayı yüzdən artıq deyildi. Qardaşım oğlunun meyitini tapmayaraq, mən Çornıy qoroda və yük vağzalına getdim və

orada çoxlu müsəlman meyitləri gördüm, onları vaqonlara yükləyirdilər. Vağzaldan "Poxlu Dərə" adlanan müsəlman rayonuna getdim və orada mənim gördüklərimi sizə çatdırmaqda çox çətinlik çəkirəm. Yalnız onu deyə bilərəm ki, "Poxlu Dərə" rayonunda çox az adam sağ qalmışdı. Elə bir ev yox idi ki, orada ermənilər bir neçə nəfəri öldürməsin. Çoxlu sayda evlər də vardır ki, müsəlmanların hamısı öldürülmüşdür. Küçələrdə və evlərdə qalmış cəsədlər o dərəcədə eybəcər hala salınmışdı ki, öldürülənləri tanımaq mümkün deyildi. Cəsədlərin arasında yanıb qaralmışlar da var idi. Valideynlərin evdə qoyduqları südəmər körpələri də qətlə yetirmişdilər. Qadınların döşlərini kəsmiş, qarınlarını yarmışdılar. Bir çoxlarının başları dağıdılmışdı. Erməni əsgərləri mənim dükanımı və dükanın yanında, Bazarnaya küçəsi, 27 №-li evdə yerləşən anbarımı qarət etmiş, sonra isə yandırmışlar. Mənim anbarda və dükanda 127.000 rubl dəyərində malım var idi. Sülh elan edildikdən sonra mən öz ailəmi Novxanı kəndinə aparırdım və Ermənikənd yaxınlığında ermənilər arabanı saxlayaraq, mənim və arvadımın 37.000 rubl dəyərində qızıl və zinət əşyalarımızı əlimizdən aldılar. Ermənilər mənə ümumilikdə 158.500 rubl məbləğində ziyan vurmuşlar.

Oxundu. İmza.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 50-51.**

## Sənəd № 52

***Dindirmə protokolu***

*1918-ci il, 31 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kərbəlayı Hacı Bala Hacı Məmməd Həsən oğlu Babayev, 66 yaşım var, bakılıyam, Bakıda, 2-ci Kanitapinskaya küçəsi, ev № 13 ünvanında yaşayıram.**

Bu il mart ayının 18-də tüfəng səsləri eşitdim və Budaqovskaya küçəsində səngər qazan xeyli erməni əsgəri gördüm. Mən erməniləri görən

kimi, üç oğlumla birlikdə evimizi tərk etdik və “Poxlu Dərə” adlanan müsəlman rayonuna qaçdıq və üç oğlumla birlikdə “Bahi”[83] məscidində gizləndik. Məsciddə xeyli müsəlman, qadın, uşaq və kişilər var idi. Səhərə yaxın ermənilər “Poxlu Dərə” rayonunu tamamilə mühasirəyə aldılar, “Bahi” məscidinə soxuldular və gənc müsəlmanların demək olar ki, hamısını öldürdülər, qoca, qadın və uşaqları isə 8-ci polis sahəsinə əsir apardılar. Bizi üç gün əsirlikdə saxladılar, əsirlikdən sonra mən “Bahi” məscidinə qayıtdım və orada qətlə yetirilmiş iki oğlumun – Əhmədin və Hacı Məmmədin meyitlərini tapdım. “Poxlu Dərə” rayonunun bütün evləri və küçələri müsəlman kişi, qadın və uşaq meyitləri ilə dolu idi. Adı çəkilən rayonun əhalisi ermənilər tərəfindən demək olar ki, tamamilə qırılmışdı. Meyitlərin başları, qolları və ayaqları kəsilmişdi, yanıb qaralmış cəsədlər də var idi. Ölülərin sayını müəyyən edə bilmərəm, onlar həddən artıq çox idi. Ermənilər mənim mənzilimi tamamilə qarət ediblər, oğurlanmış əşyaların siyahısını sizə təqdim edirəm və işə əlavə edilməsini xahiş edirəm. Mənim Fabriçnaya küçəsi, ev № 62 ünvanda evim var idi və ev ermənilər tərəfindən yandırılmışdır.

Oxundu. Imza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 61.**

## Sənəd № 53

***Dindirmə protokolu***

*1918-ci il, 5 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əlixan Şamxalov, 28 yaşım var, Bakı şəhəri, Mariinskaya küçəsində yaşayıram, “Neft”[84] Rus Birliyi kontoru.**

1918-ci il mart qırğınları zamanı mən Kolyubakinskaya küçəsi, Tarayevin evi, “Neft” Rus Birliyinin kontorunda növbətçi idim. Ermənilər tərəfindən əsir götürülmüşəm, əmlakım isə qarət edilmişdir. Mənim iki kürkümü, 650 rubl pulumu, 500 rubl dəyərində gümüş sağanaqlı xəncərimi,

400 rublluq yapıncımı, 180 rublluq uzunboğaz çəkmələrimi, 550 rublluq gümüş qazelli çərkəzi çuxamı, 250 rublluq şalvarımı, 1200 rubl nağd pulumu və 4330 rubl dəyərində digər əşyalarımı qarət ediblər. Mənim qarət edilmiş əşyalarımın siyahısını işə əlavə etmənizi xahiş edirəm. Mənim çəkdiyim zərərin ödənilməsini xahiş edirəm. İndiki qiymətlə 6160 rubl, ümumilikdə isə 7360 rubl.

Mənimlə bərabər iki gənc gürcü də əsir alınmışdı, tutulmaqlarına etiraz edirdilər. Bu etirazlarına görə erməni əsgərləri onlara atəş açdılar və gürcülərin hər ikisini yaraladılar, birini çiynindən vurdular və onun sifətini tüfəngin qundağı ilə dağıdaraq sifətini qana boyadılar. Mən ermənilərə dedim ki, kontorda növbətçiyəm, milliyyətcə ləzgiyəm və şəhərdə baş verən hadisələrlə məni heç bir işim yoxdur. Bizi Mailov teatrına gətirdilər və biz burada iki sutka qaldıq. Mən teatrda, öz yaxınlarının və əzizlərinin, qardaşlarının, ərlərinin, övladlarının ölümündən sarsılaraq, ürək partlamasından vəfat etmiş on iki müsəlman qadının cəsədini görmüşəm. Teatrda o qədər adam var idi ki, keçmək mümkün deyildi. Mən öz ifadəmə düzəliş edirəm: bir Maştağa sakini yaralanmışdı, sifəti dağılan isə gürcü idi. Bizi küçə ilə apararkən mən hər tərəfdə çoxlu ölülər görürdüm, aralarında qadınlar da var idi. Mən bütün gördüklərimdən olduqca sarsılmışdım. Ətrafda hər şey yanırdı, qarət baş alıb gedirdi və mən çalışırdım ki, heç nəyə baxmayım.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 34 - 35.**

## Sənəd № 54

***Dindirmə protokolu***

*1918-ci il, 7 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mir Əbdül Ələsgərov, 40 yaşlı, Bakı şəhəri, Çadrovaya küçəsi, ev № 215 ünvanda, xüsusi evimdə yaşayıram.**

1918-ci ilin mart qırğınları zamanı, hadisələrin ikinci günü 14-15 nəfərdən ibarət erməni əsgərləri bizim evimizə soxuldu, tüfənglərinin qundağı ilə bizim mənzilimizin qapısını qırmağa başladılar və qışqırdılar ki, qapını onlara açaq. Bizim mənzilimizdə 10 nəfər – 4 kişi və 6 qadın var idi, biz qorxurduq, hamı ağlayır və gözləyirdi ki, bizi öldürəcək. Elə bu zaman ermənilər Bondarnaya küçəsi tərəfdən bizim mənzilimizə güllə atmağa başladılar, ətrafda güllələr otaqdan otağa uçur, çilçıraqları, güzgüləri, şkafı, bufeti sındırıb tökürdü. Bu dəhşətli anda biz qapını açmalı idik, və onlar əllərində xəncər, mauzer, tüfəng, qılınc və xeyli patronla içəri soxuldular. Onlar mənzilə girən kimi əvvəlcə qışqırmağa başladılar ki, pulları, qızıl və brilyantları verin. Sonra onlar qadınların çadralarını çıxarmağa və onların üzərilərindəki bütün zinət əşyalarını qoparmağa başladılar, qadınlar düşünürdülər ki, onlara toxunmayacaqlar və hər şeyi öz üstlərində saxlamışdılar. Biz bilərəkdən bütün zinət əşyalarını sandıqlardan çıxarıb saxlamaq üçün qadınlara vermişdik. Ermənilər qadınları qarət etdikdən sonra xəncərlə mənim üzərimə atıldılar, hamımızı mühasirəyə alaraq küçəyə çıxardılar və hamımızı birdən güllələmək istədilər. Lakin ermənilərdən biri dedi ki, bura yeri deyil və bizi dalana apararaq güllələmək üçün tüfəngləri bizə tuşladılar. Atam və qadınlar ağlamağa başladılar, mən isə dedim ki, biz hər şeyimizi sizə verdik ki, bizi öldürməyəsiniz. Ermənilər bizi söyür və deyirdilər ki, pul kömək etməyəcək, siz müsəlmansınız və biz sizi öldürəcəyik. Bu zaman ermənilərdən biri xəncərlə məni sol tərəfdən qarnımdan vurdu, mən isə dedim ki, ona pul verərəm, təki bizi öldürməsin. Mən və atam bizdə ayrı-ayrı olan 73.000 rublu onlara verdik. Bu pullara və milyon rubldan artıq dəyəri olan zinət əşyalarına görə bizi öldürmədilər və Hürriyyət[85] meydanına apardılar. Lakin orada yer olmadığına görə bizi Mailov teatrına gətirdilər və biz burada iki sutkadan artıq qaldıq. Mən teatrda xeyli yaralı kişi və qadın gördüm. Onların hamısı ermənilər tərəfindən əsir alınmış müsəlmanlar idi. Evdən teatra gedərkən mən yolboyu ətrafda yüzdən artıq müsəlman meyitinə rast gəldim, meyitlərin əksəriyyəti arıq qarət olunmuşdu, çəkməsiz, paltarsız, qalstuksuz idilər. Yalnız kasıb geyimli öldürülmüş müsəlmanlara toxunulmamışdı. Mən Bolşaya Morskaya və Çadrovaya küçələrinin tinindəki küçədə səkkiz erməninin əhatəsində olan iki gənc müsəlman qızı gördüm. Ermənilər mənim gözümün qabağında qısa xəncərlə qızların gözlərini çıxardılar, amma onları öldürmədilər, bu vəhşi yolla onları kor etdilər.

Teatra müsəlmanları dəstə ilə gətirirdilər və onlar deyirdi ki, əvvəldən 30 nəfər olmuşlar, yolda ermənilər güllələdikdən sonra isə 10 nəfər qalmışdılar. Belə hallar çox olmuşdu. Hətta 20 nəfərlik dəstədən tək qalmış bir nəfəri gətirmişdilər. Mənim atam bir milyon rubldan artıq qarət olunmuşdur. Bu qırğınlar zamanı bizim çoxlu qohumlarımız: atamın qardaşı, mənim doğma qardaşım ağır yaralanmışdı və az qala atam da yaralanmışdı. Bizim qohumlarımızdan ümumilikdə ermənilər tərəfindən 45 nəfər uşaq, qadın və kişi qətlə yetirilib.

Mailov teatrında qadınların hədsiz qorxudan və sarsıntıdan necə ölü düşdüklərini mən öz gözlərimlə görmüşəm. Mən 14-15 belə hadisə görmüşəm. Sarsıntıdan hətta kişilər də ölürdülər. Mən qarnımdan və əlimdən yaralanmışdım.

Mənim palto və kostyumum yararsız hala salınmışdır, indi onların qiyməti 3000 rubldur. Bizə 1.085.550 rubl məbləğində vurulan zərər barədə bu gün atamız tərəfindən ərizə verilmişdir.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 53-54.**

## Sənəd № 55

### *Dindirmə protokolu*

*1919-cu il, 11 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Abbas Hacı Şahbaz oğlu Şahbazov, Bakı şəhərinin sakini, Poçtovaya küçəsi, dalan 19, ev 1.**

1918-ci ildə Bakıda mart hadisələri zamanı mən və oğlanlarım ermənilər tərəfindən köhnə qiymətlərlə 20.045 rubl məbləğində qarət olunmuşuq, indiki qiymətlərlə bu məbləğ ən azı 40.000 rubl təşkil edir. Qarətdən sonra mən və oğlanlarım xoşbəxt təsadüf nəticəsində küçədə qarşımıza çıxan gürcü əsgəri tərəfindən "Rekord" teatrına əsir aparılmışıq və orada 2 gün qalmışıq. "Rekord" da mən erməni əsgərlərinin ora gəlməsinin və

bizim hamımızı yandıracaqları və güllələyəcəkləri ilə hədələməsinin şahidi olmuşam. Bundan başqa oraya erməni ziyalıları da gəlir, bizi ələ salır və bədbəxtliyimizə sevinirdilər. Həmin bu erməni ziyalıları hələ öz arvadlarını da bizim rüsvayçılığımıza baxmağa gətirirdilər. Bir qoca müsəlman qadını elə oradaca dəli oldu.

Oxundu. Abbas Şahbazov (İmza).

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 15.**

## Sənəd № 56

*Dindirmə protokolu*

*1918-ci il, 4 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ələkbər Manafov, 32 yaşlı, Bakıda, Tatarskaya küçəsi, 114 № li evdə, Nijnyaya-Priyutskaya küçəsinin tini, yaşayıram.**

Mart qırğınlarının ikinci günü bizim evə 10 ya 12 nəfər əsgər basqın etdi, onların arasında 2 rus var idi, qalanları erməni idi. Onlar bizim ev əşyalarımızı, qiymətli bəzək şeylərini, paltarları və s., cəmi 80.000 rubl məbləğində, qarət etdilər. Sonra məni ailəmlə, eləcə də ərlərini öldürdükləri qonşu müsəlman qadınları ilə birlikdə Mailov teatrına apardılar. Biz burada, deyəsən 2 günə qədər qaldıq. Ermənilər mənim evimi qarət etdikdən sonra onu yandırmışlar.

Oxundu. İmza.

**Ələkbər Manafov. Əlavə ifadə verirəm:**

Mən öz qohumlarımın cəsədlərini axtararkən Mixaylovskaya xəstəxanasının[86] həyətində dəhşətli dərəcədə eybəcər hala salınmış meyitlər görmüşdüm. Orada döşləri və bir ayağı kəsilmiş tamamilə çılpaq qadın cəsədi var idi; yerə başları tamamilə, yaxud bir hissəsi kəsilmiş çoxlu sayda kişi meyitləri yığılmışdı. Meyitlərin çoxunun əlləri, ayaqları kəsilmiş, qarınları yarılmış, içalatları – bağırsağı, ciyəri və s. tikə-tikə doğranmışdı. Həyətdə həm uşaqların, həm qoca qadınların cəsədləri var idi. Demək

olar ki, elə bu vəziyyətdə olan meyitləri mən yeni Gömrüyün həyətində də görmüşdüm. Burada bütün torpaq eybəcər hala salınmış meyitlərlə örtülmüşdü. Mənim üç qardaşım oğlanlarının qarınları yırtılmışdı, kəllə sümükləri isə o qədər dağıdılmışdı ki, mən onları çox çətinliklə tapa bildim. Mənim bir çox öldürülmüş qonşularımın meyitləri isə tamamilə itmişdi və onları tapmaq mümkün olmadı. Şahidlərin dediyinə görə, ermənilər meyitləri yanan evlərin içinə tullayırdılar. Mən öz yanmış evimin xarabalıqlarına baxarkən həqiqətən yanmış insan sümükləri tapdım, bəzi sümüklərin üzərində yanmış ət parçaları görünürdü.

Oxundu. İmza. Ələkbər Manafov.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 92-93.**

## Sənəd № 57

***Dindirmə protokolu***

*1918-ci il, 27 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Həbib Sadıqov, 37 yaşım var, Bakı şəhəri, Spasskaya küçəsi, ev № 73 ünvanda yaşayıram.**

Bu ilin martında, ermənilərin müsəlmanları qırdığı zaman, Serkovnaya küçəsi, 181 №-li evdə mənim 75 yaşlı dayım Hacı Hənifə İmanov yaşayırdı. Ermənilər onu tüfəng gülləsi ilə sağ qasığından öldürmüşdülər; sonradan biz onun cəsədini yeni gömrüyün həyətində tapdıq. Onun 55 yaşlı bir arvadını iyirmi süngü zərbəsi ilə öldürmüşdülər, 50 yaşlı ikinci arvadının cəsədində isə 23 süngü yarası saymışdıq. Əmim oğlu – 28 yaşlı Mirzə Ağa sol gicgahından və sinəsinin sol tərəfindən iki güllə ilə qətlə yetirilmişdi. Kəllə sümüyü sındırılmışdı. Mirzə Ağanın dükanında satıcı kimi bir türk - Əli adında 15 yaşlı oğlan uşağı işləyirdi; o yoxa çıxdı və biz onun cəsədini heç tapa da bilmədik. Hacı Hənifənin bütün mənzili qarət edilmişdi, təxminən 38.100 rubl dəyərində. Hacı Hənifənin yalnız iki qızı sağ qalmışdı, belə ki, onlar hələ şənbə günü,

martın 17-də Persidskaya küçəsinə getmişdilər və ermənilər ora gedib çatmamışdı.

Mən “Vulkan” cəmiyyətinin həyətində 500-ə yaxın müsəlman meyiti, Təzə Pir məscidinin həyətində isə 150-ə yaxın müsəlman cəsədi görmüşdüm.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 40.**

## Sənəd № 59

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Rəhim Nəcəfqulu oğlu Hüseynov, 19 yaşım var, Bakı şəhərində, Kladbişenskaya küçəsi, Kosoy döngə, ev 5, 1№li mənzildə yaşayıram.**

Bakıda, 1918-ci il mart qırğınları zamanı mənim qardaşım – Xarkov Texnoloji İnstitutunun 3-cü kurs tələbəsi, 23 yaşlı İbrahim, martın 18-də, gündüz saat 4-də Kosoy döngədəki 5 № li evimizdən öz dostunun yanına, andlı iclasçı Kriştulun oğlunun mənzilinə - Mixaylovskaya və Nijnyaya-Priyutskaya küçələrinin kəsişməsi, № 95, Məcidovun evi - getmişdi. Axşam saat 6-da, artıq şəhərdə hadisələr başlanmışdı və qardaşım evə qayıda bilmirdi. Amma o, telefonla doktor Abdul Xalıq Axundova zəng edərək harada olduğunu xəbər vermiş və demişdi ki, masanın arxasında oturaraq çay içir. Ertəsi gün ermənilər müsəlmanları axtarmaq məqsədilə axtarış keçirmək üçün Kriştulun evinə gəlmişlər. Bu zaman ermənilər həmin həyətdə artıq iki nəfər müsəlman dalandarları öldürmüşdülər. Qardaşım evin girəcəyində gizlənmiş və ermənilər onu görməmişlər. Bundan sonra qardaşım ikinci dəfə Axundova telefonla zəng etmiş və evə gəlməyin mümkün olub-olmadığını soruşmuşdur. Ona cavab vermişlər ki, o, bizim rayonla gələ bilər, lakin onun olduğu rayonda vəziyyət məlum deyildir.

Bu zəngdən dərhal sonra Kriştulun mənzilinə yenə də ermənilər gəl-

miş və burada müsəlmanların olduğunu israr edərək axtarışa başlamışlar. Bu dəfə qardaşım gizlənməmiş və onu Kriştulun oğlu kimi qələmə vermişlər. Ermənilər qardaşımın yəhudi dilində danışmasını tələb etmişlər, belə ki, Kriştul yəhudidir; qardaşım alman dilində bir neçə söz demişdir, lakin Kriştulun qızı bildirmişdir ki, onlar yəhudi dilində danışmırlar və onları azad etmişlər.

Martın 21-də ermənilər üçüncü dəfə Kriştulun evinə gəlmiş və düzünü deməyəcəkləri təqdirdə hamını öldürməklə hədələmişlər. Onda mənim qardaşım müsəlman olduğunu etiraf etmişdir və ermənilər onun öldürülməyəcəyinə "and içərək" qardaşımı aparmışlar. Evin sakinləri qardaşımı ötürmək istəmişlər, lakin ermənilər təsadüfü güllələr üçün zəmanət vermədiklərini bildirmişlər. Heç kəs qardaşımı ötürməyə ürək etməmişdir. Kriştulun evinin 10 addımlığında ermənilər mənim qardaşımı qətlə yetirmişlər. Onun ayaqqabılarını, papağını, saatını, 240 rubl pulunu götürmüş, şalvarını və tələbə pencəyini cırmışlar. Biz qardaşımın meyitini Çornıy qorodda, dəmiryol limanında tapdıq. Ermənilər tərəfindən öldürülən qardaşım bizim ailənin dayağı idi, kiçik qardaş və bacısının tərbiyəsində valideynlərinə kömək edirdi. Onun ölümü bizə yalnız mənəvi əzablar deyil, həm də maddi zərər vurdu və mən bu zərəri 2 il ərzində 20.000 rubl məbləğində qiymətləndirirəm və xahiş edirəm ki, bu məbləğ mənim 83 yaşlı atama ödənilsin.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 175-176.**

## Sənəd № 63

***Dindirmə protokolu***

*1918-ci il, 29 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hacı Salam Əsgərəliyev, 46 yaşım var, Bakı şəhəri, Mariinskaya küçəsi, ev № 90 ünvanda (6-cı Polis bölməsi) yaşayıram.**

Karantinnaya küçəsi, ev № 71 ünvanında mənim 37 yaşlı qardaşım Zaman Əsgərəliyev arvadı və 75 yaşlı anamızla birgə yaşayırdı. Mart qırğınlarının ikinci günü, səhv etmirəmsə, ayın 19-da erməni əsgərləri mənzilə soxulmuş, onların hamısını qətlə yetirib, mənzili isə qarət etmişdilər. Mən onların cəsədlərini sonradan yeni Gömrüyün yanındakı həyətlərdən birində eybəcər hala salınmış vəziyyətdə tapdım: qardaşımın yalnız sifətinin bir hissəsi qalmışdı. Cəsədlərin üzərində güllə və soyuq silah yaraları var idi: əlləri və ayaqları doğranmışdı. Qətlə yetirilərkən qardaşımın üstündə 12 min nağd pul var idi; bu pullar yoxa çıxmışdır. Bundan əlavə, anamın, qardaşımın və onun arvadının köhnə qiymətlə ən azı 40 000 rubl dəyərində olan bütün zinət əşyaları oğurlanmışdır. Əlli min manat dəyərində ev əşyaları talan edilmişdir.

Mənim Mariinskaya küçəsindəki mənzilimə də evdə olmadığım müddətdə erməni əsgərləri soxulmuş, odadavamlı seyfin açarını tapmış və seyfdən 5000 rubla yaxın qiyməti olan brilyant qaşlı üzük və 55.612 rubl nağd pul götürmüşlər. Bundan əlavə, mənim əşyalarımdan bəzi paltarlar, qızıl kəmər və 10.000 rubl dəyərində zəncir götürülmüşdür. Bu vaxt mən həmin evin zirzəmisində gizlənmişdim. Erməni əsgərləri evə soxularkən, taxta qapının yanında bizim dalandarı – qoca iranlı təbəəni öldürmüşlər.

Oxundu. İmza. Əsgərəliyev Hacı Salamov.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 53.**

## Sənəd № 66

***Dindirmə protokolu***

*1918-ci il, 26 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd İbrahim Məşədi Şövlət oğlu, 14 yaşım var, Bakı şəhəri, Mariinskaya küçəsi, ev № 81 ünvanda yaşayıram.**

Bu ilin mart ayının ortalarında, bazar ertəsi günü, top, pulemyot və tüfənglərlə atışma başlayan kimi, atamla mən Bondarnaya küçəsində-

ki 148 №-li evə qaçdıq. Bu evdə 50 nəfərə yaxın müsəlman qadın, kişi və uşaq var idi. Elə həmin günün axşamı ermənilər bu evə girdilər, hamımızı qarət edib, əsir apardılar. Atamın çörək gətirmək üçün evə gedərkən mənə verdiyi 2.665 rubl pulu mənim cibimdən çıxardılar. Biz müsəlmanları hamımızı Birjevaya meydanına qədər gətirdilər və burada bütün kişilərin ayıraraq, ayrıca apardılar. 12-ci lazaretin yaxınında mən hiss etdim ki, ermənilər bizə atəş açmağa hazırlaşırlar. Mən addımlarımı sürətləndirdim və başqa müsəlmanlardan irəli keçdim. Birdən silahlardan yaylım atəşi açıldı. Mənə iki güllə dəydi, budur, güllə yerlərini göstərirəm. Mən başqaları ilə birlikdə yıxıldım və ermənilər bizim üzərimizə atılaraq süngülərlə axırımıza çıxmağa başladılar. Mənim bədənimə 18-ə yaxın süngü zərbəsi vurdular. Mən özümü ölülülüyə vurmuşdum və üzü aşağı uzanmışdım. Bir müddət sonra ermənilər çıxıb getdilər və sanitarlar və şəfqət bacıları yaxınlaşdılar. Şəfqət bacılarını gördükdə mən zarımağa başladım və onlar sanitarlara məni 12-ci lazaretə aparmağı əmr etdilər.

Məni lazaretə gətirdikdə, orada məni erməni həkim qarşıladı və məni güllələmək istədi, lakin şəfqət bacıları və rus həkim məni öldürməyə qoymadılar. Mən rus həkimindən xahiş etdim ki, məni erməni yox, onun özü müalicə etsin. Mənim bədənimdə təxminən 18-ə yaxın süngü yarası var və bu yara yerlərini sizə göstərirəm. Mən sonradan öyrəndim ki, ermənilər, məndən və mənimlə birlikdə lazaretdə yatan Məşədi Əlidən savayı bütün müsəlmanları öldürüblər. Onun bədənində beş süngü və iki güllə yarası var idi.

Oxundu. İmza. İbrahim Qəniyev.

Komissiya üzvü: Məmməd Xan Təkinski (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 35.**

## Sənəd № 84

***Dindirmə protokolu***

*1918-ci il, 27 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əhəd Bağır oğlu, 31 yaşım var. Bakılıyam, Bakıda, Çadrovaya küçəsi, ev 170 ünvanda yaşayıram.**

Martın 18-də axşam saat 6-da şəhərdə atışma başlandı. Martın 19-20-də səhər tezdən bolşeviklərin və ermənilərin hücumu başlandı. Mən öz mənzilimdə idim və çərşənbə axşamı 10-a yaxın silahlı erməni bizim evin həyətinə soxuldular, biz müsəlmanların üstünü axtardılar, pullarımızı götürdülər və bizi Çadrovaya küçəsi ilə Bakıxanovun evinə apardılar və evin zirzəmisinə saldılar. Biz, on altı (16) nəfər müsəlman, zirzəmiyə daxil olduqda, ermənilər qapı və pəncərələrdən bizə atəş açmağa başladılar. Biz, yaralananlar və ölənlər, yerə yıxıldıq. Bir neçə tüfəng atəşindən sonra ermənilər çıxıb getdilər və Manafovun evini yandırmağa başladılar. Ermənilər Bakıxanovun evini bir rus qadınının sayəsində yandırmadılar: o, evi yandırmamağı xahiş edərək, bu evdə aptekin yerləşdiyi göstərdi. Zirzəmidə cəsədlərin altında əzilmiş Əli Hüseyn Ağa Dadaş oğlu qışqırmağa başladı ki, biz onu çıxaraq. Onun qışqırtısına ermənilər yenidən qayıtdılar və yenidən bizə atəş açmağa başladılar. Zirzəmidə olan 16 nəfərdən yalnız dörd nəfər sağ qalmışdı. Mən sağ qalmış üç müsəlmanla birlikdə axşam saat səkkizədək sakitcə zirzəmidə oturduq, axşam saat səkkizdə mən rus dilində danışan qadın səsləri eşitdim. Mən qadınları sələdim, onların bizim qonşularımız olduğunu gördüm, onlar bizi mənzillərinə apardılar və orada gizlətdilər.

Oxundu. İmza.

Komissiya üzvləri: A. Kluge, Məmməd Xan Təkinski (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 39.**

## Sənəd № 109

***Dindirmə protokolu***

*1918-ci il, 8 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Pələng Hüseynov, 38 yaşım var, Bakıda, Vorontsovskaya küçəsində, Lazarevin evində yaşayıram.**

Çərşənbə axşamı, martın 20-də mən Şıx Balayevin Verxnyaya-Priyutskaya küçəsindəki evinin yanında dayanmışdım. Bu vaxt Tatarskaya küçəsi tərəfdən erməni əsgərləri dəstəsi göründü və bizə tərəf atəş atmağa başladı. İki güllə mənim sol əlimə dəydi. Şıxın dediyinə görə, bu dəstənin başında o, Stepya Lalayevi və Seryoja Melikovu görmüşdür.

Mən özüm Armyanskaya küçəsində 1 №-li evdə yaşayırdım. Ermənilər ora basqın etdilər və mənim bütün ev və qiymətli əşyalarımı apardılar. Ümumiyyətlə 150.000 rubl məbləğində əmlakımı oğurlayıblar. Əlim qətiyyən işləmir.

Oxundu. Savadsızdır. Onun yerinə imzaladı (imza).

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 135.**

## Sənəd № 112

***Dindirmə protokolu***

*1918-ci il, 12 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi zərərçəkmiş qismində dindirmiş və o Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Ağa Əli oğlu, 47 yaşım var, Bakı şəhərində, Tatarskaya küçəsi, ev № 75, (6-cı polis sahəsi) ünvanda yaşayıram.**

Mart qırğınlarının ikinci günü, mən ailəmlə birlikdə qonşu evə, rusların yanına getdiyimiz gün, evimizə çoxlu erməni soxuldu və bizi əsir götürərək, yeni erməni kilsəsinin qarşısındakı erməni məktəbinə apardılar. Əgər axtarış milisinin rəis köməkçisi Xijnyakov bizimlə getməsəydi, bizi yolda öldürəcəkdilər; Xijyanov erməniləri bizə toxunmağa qoymurdu. Biz evdə olmadığımız zaman 12.607 rubl məbləğində bütüm əmlakımızı qarət etdilər. Ermənilər qonşu həyətdə müsəlmanları mənzillərindən çıxarır və elə həyətdəcə hamının gözü qabağında güllələyirdilər; onlar həmçinin öz ərlərini müdafiə etmək məqsədilə onları qucaqlayan və beləliklə onlarla birlikdə ölən bir neçə qadını də qətlə yetirdilər.

Oxundu. Savadsızdır. Onun əvəzinə imzaladı (imza).

Komissiya üzvü: A.Kluge (imza).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 148.**

## Sənəd № 146

*Dindirmə protokolu*

*1918-ci il, 31 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası aşağıda adı çəkilən şəxsi zərərçəkmiş qismində dindirmiş və o Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinin məzmunu ilə əvvəlcədən tanış olaraq göstərmişdir:*

**Hacı Ağa Manafov, 25 yaşım var, Bakı şəhəri, Serkonaya küçəsi, ev № 171, (6-cı polis sahəsi) ünvanda yaşayıram.**

Bu il mart ayının 19- da, səhər saat 9-a yaxın bizim evə 9 nəfər silahlı erməni soxuldu və bizim bütün əmlakımızı qarət etməyə başladılar. Sonra məni, qardaşlarımı və əmim oğlanlarını, ümumilikdə beş nəfəri Mailov teatrına apardılar. Küçədə məni bir erməni süngü ilə kürəyimdən yaraladı, digər üç erməni isə qardaşım Hənifəni tüfəngdən açılan beş güllə ilə öldürdü. Sonradan, artıq məni Mailov teatrına apardıqdan sonra, qarət zamanı ermənilərdən biri bacım Ağa Bacının sinəsinə üç süngü yarası yetirmişdir. Bizim köhnə qiymətlə altmış min rubl dəyərində əşyalarımızı qarət ediblər.

Oxundu. İmza. Hacı Ağa Manafov.
Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar)
**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 59.**

## Sənəd № 151

*Dindirmə protokolu*

*1919-cu il, 22 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Firidun Hacı Süleyman oğlu İmanov, 38 yaşım var, Bakıda, Serkovnaya küçəsi, 185 №-li evdə yaşayıram.**

Ötən il mart hadisələri zamanı ermənilər mənim evimə soxularaq, bütün əmlakımı qarət etmişlər. Qarət olunmuş əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mənə ümumilikdə 42.400 rubl dəyərində ziyan vurulmuşdur.

Mənim evimlə yanaşı dayım Hacı Hənifə İmanovun mənzili yerləşirdi. Ermənilər onu – 60 yaşlı qocanı, onun 60 yaşlı arvadı Böyük Xanımı, 50 yaşlı o biri arvadı Hürsümü, 29 yaşlı oğlu Mirzə Ağanı və onun satıcısının oğlunu qətlə yetirmişlər.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 83.**

## Sənəd № 166

***Dindirmə protokolu***

*1918-ci il, 5 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**İsmayıl Yusif oğlu Məmmədov, Bakılı, 26 yaşlı, Staraya-Poçtovaya küçəsi, 87 №-li evdə yaşayıram.**

Bu il mart ayının 18-də şəhərdə atışma başlandı. 19 martda səhər tezdən ermənilər bizim məhəlləni mühasirəyə aldılar. Atamla birlikdə Staraya-Poçtovaya küçəsi ilə qaçmağa çalışdıq, lakin ermənilər atamı öldürdülər, məni isə başımdan yaraladılar. Mən qaçıb gizlənə bildim. Xanlarovun evində mənim içində 11.000 rubl dəyərində mal olan ticarət müəssisəm var idi. Ermənilər mənim malımın hamısını çıxarıb apardılar və Xanlarovun evini yandırdılar. Verdiyim ərizədə ermənilər tərəfindən qarət olunmuş əşyalarımın siyahısı göstərilmişdir və bu ərizəmin işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: M. Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 103.**

## Sənəd № 174

*Dindirmə protokolu*

*1919-cu il, 4 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ağa Kərim Məşədi Dərya oğlu Mehdiyev, 34 yaşlı, Bakı şəhər sakini, Nijnyaya-Priyutskaya küçəsində, 116 №-li şəxsi evimdə yaşayıram.**

1918-ci ilin mart ayının 20-də Bakı şəhərində təxminən günorta saat 2-də ermənilərin silahlı quldur dəstəsi mənim kürəkənim Əliyulla Cövzəli oğlunun Nijnyaya-Priyutskaya küçəsindəki 118 №-li evinə soxularaq, onun özünü, qardaşları Əliyoldaşı və Qurbanəlini, qaynı Məmməd Həşimi və təsadüfi qonaqları olan Bakı quberniyasının Kürdəxanı kənd sakini Fərəcullanı qətlə yetirmişlər. Bu cür vəhşiliklər törədərək və Sarı Məşədi Dərya qızını əsir götürərək, onlar ümumilikdə 52.250 rubl məbləğində ziyan vurmaqla, mənzili tamamilə qarət etmişlər. Sarı Məşədi Dərya qızının ərizəsinin qarət edilmiş əşyaların siyahısı ilə birlikdə işə əlavə olunmasını xahiş edirəm.

Savadlı adama oxundu. İmza.

Komissiya üzvləri: M. Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 59.**

## Sənəd № 198

*Dindirmə protokolu*

*1918-ci il, 26 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Həsən Mikayılov, 40 yaşım var, Bakıda, Bondarnaya və Mariinskaya küçələrinin kəsişməsində, 46\67 №-li evdə yaşayıram.**

Bu il mart ayının 20-də, çərşənbə axşamı, səhər saat 10-a yaxın bizim evə, mənim və qardaşlarım: 50 yaşlı Məlik Məmməd və 38 yaşlı

Tağının yaşadığımız evimizə əsgər formasında 10-15 silahlı erməni gəldi, onlar hələ həyətdə atəş açmağa başlamışdılar. Bu vaxt bizim qadınlarımız və uşaqlarımız artıq zirzəmidə gizlənmişdilər. Ermənilər mənzilə daxil olaraq, qardaşım oğlunu, 16 yaşlı Məmməd Rzanı tutdular, silahlarını ona tuşlayaraq, ondan atasının, qardaşım Məlik Məmmədin harada olduğunu göstərməyi tələb etdilər. Bu zaman qardaşım pərdənin arxasında duraraq gizlənmişdi. Ermənilərin oğlunu öldürmək istədiklərini görəndə Məlik Məmməd gizləndiyi yerdən çıxdı, bundan sonra onu dərhal balkona çıxardılar və oradaca berdanka ilə güllələdilər. Mən bu vaxt evimizin damından qonşu evin damına keçdim. Ertəsi gün elə oradaca başqa bir erməni dəstəsi məni qonşumuz Hacı Əli İsmayıl ilə birlikdə tutdu və Mailov teatrına apardı. Təsadüfən gördüyüm Seryoja adlı axtarış polisinin xəfiyyəsindən məni müşayiət etməsini xahiş etməsəydim, şübhəsiz ki, məni teatra gedən yolda öldürəcəkdilər. Böyük qardaşımı öldürəndən sonra elə həmin erməni dəstəsi evimizin aşağı mərtəbəsində olan digər qardaşımı – Tağını tutmuşdu. Tağını da arvadı və qızı ilə birlikdə Mailov teatrına aparmışdılar, lakin yolda qətlə yetirmişdilər. Əlavə olaraq onun üzərində olan bütün pullarını və qiymətli əşyalarını zorla almışdılar.

Öz kirayənişinlərimdən, yəhudilərdən, öyrəndim ki, mən evdən qaçıb gedəndən sonra ermənilər əllərində siyahı bir neçə dəfə gəlmiş və Mikayılovların üçüncü qardaşının – Həsənin harada olduğunu soruşmuşlar. Mənim 5000 rubl pulum itib. Pul və əşyalarla beş min pulumu, Məlik Məmmədin nağd olaraq 9000 rubl pulunu, 25 min rubl dəyərində zinət əşyalarını, qardaşım Tağının 2500 rubl pulunu və 5 və ya 6 min rubl dəyərində əşyalarını qarət ediblər; bundan əlavə, mənim anamın mirvari boyunbağısını, üzüklərini və ümumilikdə beş min rubl dəyərində digər əşyalarını qarət ediblər. Onu öldürmək istəyirdilər, amma o, ermənilərə yalvararaq xəstə olduğu üçün öldürməməyi xahiş edib. Məni əsir götürəndə 5000 rubl pulumu zorla aldılar. Məni tutan ermənilərdən birinin Velikoknyajeskaya küçəsində, Tağıyev passajının[87] qarşısında bərbərxanası var idi: o, dolu bədənlidir, yanağında isə çapıq var.

Oxundu. İmza. Həsən Mikayılov.

Komissiya üzvləri: M. Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 30-31.**

## Sənəd № 227

*Dindirmə protokolu*

*1918-ci il, 11 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Şərif Xudaverdi oğlu, 35 yaşım var, Bakıda, Bolşaya Morskaya küçəsi, 89 №-li evdə yaşayıram.**

Mart qırğınlarının birinci günü, gecə saat 12-də, mənim evimə erməni əsgərləri gəldilər, mənim faytonla birlikdə dörd atımı apardılar, həmçinin 11 xalça, balışlar, paltarlar və ümumilikdə 15.500 rubl məbləğində digər əşyalarımı götürüb apardılar. Sonra onlar məni küçəyə çıxardılar və tüfənglə düz başıma atış açdılar: güllə sağ qulağımın dibindən girib sol qulağımın yanından çıxdı. Ermənilər bizim evdə aralarında bir qadın və iki oğlan uşağı olan səkkiz müsəlmanı bir otağa yığaraq, oradaca güllələdilər. Sonra məni əsir götürərək şəhər nəqliyyatı binasına[88] apardılar.

Oxundu. Savadsız olduğu üçün Bağırov imzaladı (imza).

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 142.**

## Sənəd № 243

*Dindirmə protokolu*

*1918-ci il, 17 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli Heybət oğlu, 56 yaşlı, Budaqovskaya küçəsi, 59 №-li evdə yaşayıram, Bakı.**

1918-ci il mart ayının 18-də axşam atışma başlandı və gecə mən ailəmlə birlikdə, öz zinət şeylərimizi və başqa əşyalarımızı (təqdim edilmiş siyahıda sadalanan və 42.445 rubl məbləğində dəyəri olan) özümüzlə gö-

türərək, yuxarıda göstərdiyim evdən Bolşaya Morskaya küçəsindəki 84 №-li evə keçdik. Martın 19-da erməni əsgərləri Bolşaya Morskaya küçəsi, 84 №-li evə soxularaq, qardaşlarım 30 yaşlı Qadaşı və 32 yaşlı Pənahı və evin sahibi 65 yaşlı Məşədi Əsəd Qəhrəmanı öldürdülər. Qardaşım Qadaşın arvadı Gövhər Ağa Mirzə qızını güllə ilə sinəsindən vurdular və o bu günədək xəstədir. Erməni əsgərləri məni qarət etdilər və işə əlavə olunmasını xahiş etdiyim siyahıda göstərilən əşyalarımı apardılar.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: M. Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 7.**

## Sənəd № 245

***Dindirmə protokolu***

*1918-ci il, 16 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kərbəlayı Əbdül Rza, 70 yaşlı, Buzovna kəndinin sakini.**

Bu ilin mart ayının ortalarında mənim oğullarım Molla Ağa və Mirzə Əli alış-veriş üçün Buzovna kəndindən Bakı şəhərinə gəlmişdilər. Bakıya gələn gün axşam şəhərdə atışma başladı. Mənim oğullarım gecələmək üçün Hüseyn Bala Babaxan oğlunun Budaqovskaya küçəsindəki evinə gəliblər və orada gecələyiblər. Növbəti gün səhər Hüseyn Balanın evinə silahlı erməni əsgərləri gəlmiş və mənim iki oğlumu, onlardan əlavə Hüseyn Balanı və Dadaş Balanı - iki qardaşı öldürmüşlər, üçüncü qardaş Ağa Bala isə qaçmağa macal tapa bilmişdir. Erməni əsgərləri mənim oğullarımın beş min rublunu götürmüş və kostyumlarını əyinlərindən çıxarmışlar. Bu gün Molla Ağanın ailəsi və uşaqları tamamilə aclıq çəkir. Molla Ağanın dörd qızı, bir oğlu və arvadı qalmışdır.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 146.**

## Sənəd № 261

*Dindirmə protokolu*

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mehdi bəy Hacı Ağa bəy oğlu Bakıxanov, 40 yaşım var, Bakı şəhəri, Zamkovskaya küçəsi, 29 №-li evdə yaşayıram, savadsızam.**

Bu ilin mart hadisələri zamanı mənim qardaşım Məmməd bəy Hacı Ağa bəy oğlu Bakıxanov Buzovna kəndinin ictimai dükanının tapşırığı ilə Bakı şəhərinə gəlmiş və burada öldürülmüşdür. Onun 6000 rubl pulunu qarət etmişlər, əvvəl pulunu cibindən çıxarmış, sonra öldürmüşlər. Pullar Buzovna kəndinin ictimai dükanına məxsus idi.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 9.**

## Sənəd № 268

*Dindirmə protokolu*

*1918-ci il, 3 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hümmət Hacı Xuda Qulu oğlu Dövlətov, 16 yaşım var, Bakı şəhərində, Kanitapinskaya küçəsi, 94 №-li evdə (6-cı polis məntəqəsi) yaşayıram.**

Mart qırğınlarının üçüncü günü bizim evimizə 10 nəfərə yaxın tüfənglərlə və xəncərlərlə silahlanmış erməni gəldi və qardaşlarım 30 yaşlı Rüstəmi, 22 yaşlı Hacı Ağanı və 20 yaşlı Həsəni öldürdülər, sonra isə mənzili qarət etdilər. Mən bu vaxt zirzəmidə gizlənmişdim. Rüstəm başından 5 güllə yarası, sinəsindən və sol ayağından üç xəncər yarası almışdı; Hacı

Ağanın üzündə bir güllə yarası, Həsənin isə başında 5 güllə yarası var idi. Ermənilər bizim 2000 rubl nağd pulumuzu və 8020 rubl dəyərində müxtəlif əşyalarımızı apardılar.

Oxundu. Hümmət Dövlətov (imza).

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 90.**

## Sənəd № 284

*Dindirmə protokolu*

*1918-ci il, 14 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Möhbəli Loğman oğlu, 35 yaşım var, Qala kəndinin sakini, Bakıda, 9-cu Kanitapinskaya küçəsi, 6 №-li evdə yaşayıram, savadsızam.**

Bu il mart ayının 19-da 70 nəfərə yaxın erməni əsgəri yuxarıda göstərdiyim evə soxularaq, 60 yaşlı atam Loğman Kərbəlayı Yusif oğlunu, 55 yaşlı anam Əminə Avolya qızını, 6 yaşlı qızım Raziyəni qətlə yetirdilər, özü də qızım Raziyəni mismarla otağın divarına mıxladılar. Məni yaraladılar və mən özümü ölülüyə vurdum. Mənim hər iki ayağıma 2 güllə dəymişdi və sol ayağımı bu günədək müalicə edirəm. Ermənilər həmçinin 40 yaşlı qardaşım Bəyəlini öldürdülər, mənim və ölümündən qabaq atamın 38.000 pulumuzu götürdülər. Atam və mən pullarımızı ermənilərə verdik ki, bizi öldürməsinlər, lakin erməni əsgərləri pullarımızı aldıqdan sonra atamı öldürdülər. Qətldən sonra mənzili qarət etdilər və təqdim etdiyim siyahıda göstərilən 118.700 rubl dəyərində əşyalarımızı apardılar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v.198.**

## Sənəd № 296

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ağamalı Bəyəli oğlu, 34 yaşım var, Bakı şəhəri, Pojarnıy döngəsi, 13 №-li şəxsi evimdə yaşayıram.**

Bakıda 1918-ci ilin mart qırğınları zamanı ermənilər mənim evimdə 75 yaşlı qayınanamı qətlə yetirmiş, məni və başqalarını isə əsir götürmüşlər. Yolboyu xəndəklərdə çoxlu sayda öldürülmüş müsəlmanları görürdüm. 4 sutka əsirlikdə oldum. Orada xeyli yaralı müsəlman var idi. Biz 4 sutka ərzində yalnız 1\8 funt çörək almışdıq və aclıqdan atların yemini toplayır, bu qayda ilə qidalanırdıq. Ermənilər mənim mənzilimi və emalatxanamı qarət etmişlər. Mən oğurlanmış əmlakın siyahısını və dəyərini 2 vərəqdə sizə təqdim edirəm. Mənim əşyalarımın əvvəlki qiyməti 15.700 rubldur. Hal-hazırda mənim əmlakımın dəyəri 78.500- rubldan az deyildir və bu məbləğin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 88.**

## Sənəd № 311

*Dindirmə protokolu*

*1918-ci il, 8 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Teymur Mürsəli oğlu, 33 yaşım var, Bakı şəhəri, Fabriçnaya küçəsi, 85 №-li evdə yaşayıram.**

Bu ilin martında ermənilər müsəlmanlara çıxış edən zaman, mən evdə olmadığım vaxt, qonşularımın – Qazan tatarlarının dediklərinə görə, mənim evimə erməni əsgərləri gəlmiş və üç qardaşım Mehdi, Həsənqulu və Əbülfəzi və bacım oğlu Ağa Kərim Abbas Əli oğlunu öldürmüşlər. Mənə 30.000 rubl dəyərində ziyan vuraraq, evimi və dükanımı qarət etmişlər. Qardaşlarımın öldürüldüyü günün ertəsi anam, üçüncü günü isə atam dünyalarını dəyişmişlər. Məni qırğınların elə birinci günü, ermənilərdən qaçarkən, yaralamışdılar: güllə sol ayağımın pəncəsini zədələmişdi. Qardaşlarımın və bacım oğlunun meyitləri üzərində güllə, xəncər və süngü yaraları var idi.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 131.**

## Sənəd № 318

*Dindirmə protokolu*

*1918-ci il, 31 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Rəcəb Kəlbalı oğlu, 36 yaşım var. Bakılıyam, Bakı şəhəri, Lagernaya küçəsi, 6 №-li evdə yaşayıram.**

Bu il mart ayının ortalarında, dəqiq gün yadımda deyil, bazar günü atışma başlandı. Mən Lagernaya küçəsi, 6 №-li şəxsi evimdə arvadım və

uşaqlarımla yaşayırdım. Mənim evimlə yanaşı anam Xanı İmam Əli qızının evi var idi, və o, burada oğlu Hacı Baba Kəlbalı oğlu ilə yaşayırdı. Mən anamın evində hay-küy eşitdim və evimin damından anamın həyətinə boylanarkən orada silahlı erməniləri gördüm. Onlar anamın və qardaşımın üzərinə atıldılar və hər ikisini öldürdülər. Oradaca adlarını bilmədiyim başqa müsəlmanları da qətlə yetirdilər. Ermənilər məni damda görəndə mənə tərəf atəş açdılar. Mən dərhal aşağı düşdüm və ermənilərin məni və arvadımı öldürəcəyini bildiyimdən, arvadım və üç uşağımla küçəyə qaçdıq. Küçədə ermənilər bizə atəş açdılar, arvadımı və üçyaşlı uşağımı öldürdülər.

Ermənilər anamın evindən bütün əşyaları çıxardılar, onların siyahısını sizə təqdim edirəm və işə əlavə etməyinizi xahiş edirəm.

Oxundu. İmza. Rəcəb Kəlbalı oğlu.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 62.**

## Sənəd № 335

***Dindirmə protokolu***

*1919-cu il, 26 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli Bala Dadaş oğlu, 24 yaşım var, Bakı şəhər sakini, 3-cü Parallelnaya küçəsi, 96 №-li şəxsi evimdə yaşayıram. Müsəlmanam, savadlıyam.**

1918-ci ilin qanlı mart hadisələrinin ikinci günü, yəni mart ayının 19-da səhər tezdən silahlı ermənilər yuxarıda adı çəkilən küçəni mühasirəyə aldılar və müsəlmanların evlərinə atəş açmağa başladılar. Mən 43 yaşlı anam Bilqeyis Baba qızı, 16 yaşlı bacım Səfurə Dadaş qızı və iki azyaşlı qardaşlarımla birlikdə, qaçaraq xilas olmaq məqsədilə, evdən bayıra çıxdıq. Küçədə ermənilər bacımı uzaq məsafədən güllə ilə vurdular, məni və anamı isə yaraladılar. Lakin mən özümü itirmədim: yaralı anamın və balaca qardaşlarımın qoluna girdim, və çox çətinliklə ölümün

pəncəsindən qurtara bildik. Mən və anam bu günədək hələ də yaralardan özümüzə gələ bilməmişik, ağrılardan əziyyət çəkirik: mən dirsəkdən yuxarı sol qolumdan yaralanmışam, anam isə sinəsindən yara alıb. Biz, fiziki və mənəvi zərərlərdən başqa, həm də maddi ziyan çəkmişik: ermənilər bizim bütün əmlakımızı qarət etmişlər və mən bu əmlakımızı ötən ilin mart ayının qiymətləri üzrə 132.700 rubl dəyərində qiymətləndirirəm. Qarət edilmiş əşyalarımızın siyahısını və mənim ərizəmi işə əlavə etməyinizi xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Hacı-İrzayev, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 26.**

# FƏSİL II

## AZƏRBAYCANLI QADINLARIN ŞAHİD İFADƏLƏRİ

## Sənəd № 372

*Dindirmə protokolu*

*1919-cu il, 5 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Humay Xanım Sultanova, 26 yaşım var, Bakı şəhərində, Vorontsovskaya küçəsi, 10 №-li evdə yaşayıram.**

Hələ mart qırğınları başlayanadək mən və ərim ermənilərin müsəlmanlara qarşı çıxışlarının gözlənildiyi barədə şayiələri eşidirdik. Lakin, ərimlə mən dağıstanlı olduğumuza görə, düşünürdük ki, ermənilər bizə toxunmazlar. Buna görə də sakitcə öz mənzilimizdə qalırdıq və qiymətli əşyalarımızı gizlətmirdik. Martın 17-də və 18-də ermənilərlə müsəlmanlar arasında atışmalar baş verirdi, amma ərimlə mən hələ də heç bir təhlükəsizlik tədbirləri görmürdük. Çərşənbə axşamı, martın 20-də, səhər saat 7-yə yaxın, ixtisası həkim olan ərim Bəybala bəy, mənim otağıma gəldi və geyinməyimi məsləhət gördü. Belə ki, şəhərdə atışma başlanmışdır, odur ki, geyimdə olmaq daha yaxşıdır ki, təhlükə yarandığı halda evdən gedə bilək. Bir qədər keçdikdən sonra ərim mənə dedi ki, evdən getmək lazımdır, çünki ermənilər evlərə soxulmağa başlayıblar və qarətlə məşğuldurlar. Biz qonşu damdan mühəndis Qolginin mənzilinə keçdik. Məni və oğlumuz Məhəmməd Mirzəni burada yerləşdirərək, ərim yenidən mənzilimizə qayıtdı ki, daha qiymətli əmlakımızı götürsün. Bu zaman bizim evimizə həyətdən, küçədən və giriş qapısından silahlı ermənilər doluşmağa başladılar. Mən oğlumla otağa girdim, Qolgin və onun adını bilmədiyim bir tanışı, qonşuluqda yerləşən dəyişik paltar tikən emalatxananın sahibi ilə şüşəbənddən bizim mənzilə tərəf baxmağa başladılar. Bu zaman boğuq atəş səsi eşidildi və mən Qolginin və emalatxananın sahibinin doktor Sultanovun, mənim ərimin öldürüldüyünü necə qışqırdıqlarını eşitdim. Mən ərimin yanına getməyə can atdım, lakin məni buraxmadılar. Bir az sonra erməni əsgərləri Qolginə yaxınlaşdılar və ondan Sultanovun ailəsinin harada gizləndiyini göstərməyi tələb etdilər.

Belə olan halda Qolgin bizim hamımızın evdən getməsini məsləhət gördü. Oğlumla mən və Qolgin arvadı və iki uşağından ibarət olan ailə-

si ilə birlikdə onların mənzilində çıxdıq və parapetin yanından keçərək Torqovoya küçəsinə yollandıq, məni burada Qolginin tanışı olan qadının mənzilində qoydular. Mən gecəni orada keçirdim və ertəsi gün tezdən ərimin universitet yoldaşı Nikolay Aleksandroviç Lavrovun mənzilinə getdim və orada beş gün qaldım. Evimizə qayıdarkən mənzilimizi dəhşətli vəziyyətdə gördüm. Hər şey qırılmış, sındırılmış, bağı aşağı çevrilmişdi. Bütün qiymətli əşyalarımız, xalçalar və paltarlarımız yoxa çıxmışdı. Mən qarət edilmiş bütün əşyalarımızın siyahısını sizə təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Ümumilikdə 182.570 rubl dəyərində əşyalarımız qarət edilmişdir. Bundan əlavə, ermənilər ərimin cibindən 70.000 rubl nağd pulunu çıxarmışlar.

Qolgin, feldşer Mixaylov və tacir Şirinbəyov görmüşdülər ki, bizim mənzilə soxulan əsgərlərə əlində revolver tutmuş Stepan Lalayev başçılıq edir. Ərim bizim yanımıza, Qolginin mənzilinə keçməyə hazırlaşanda Lalayev onu saxlamış və revolverdən onun başına atəş açmışdır, bundan sonra ərim yerə yıxılmışdır. Lalayevi müşayiət edənlərdən kimsə ərimin yerli müsəlman olmadığını, dağıstanlı olduğunu söyləyərək, onu müdafiə etmək istədikdə, Lalayev onu da öldürəcəyini qışqırmış və bundan sonra erməni susmuşdur. Həyətə düşən Lalayev həmin revolverlə adını bilmədiyim dalandarı, onun arvadını və iki aylıq körpəsini güllələmişdir.

Mart hadisələrindən sonra Temir-Xan-Şuraya getdim. Getməzdən əvvəl, bizim evdə yaşayanların hamısı, aşağıda, mənə danışırdılar ki, onlar da Lalayevi yaxşı tanıyıblar, onun mənim ərimi və ailəsi ilə birlikdə dalandarı necə öldürdüyünü görüblər. İndi isə, artıq mən Şuradan qayıtdıqdan sonra, onlar hamısı ərimi öldürənin Stepan Lalayevə yalnız oxşadığını deyirlər. Mən bunu onunla izah edirəm ki, bütün şahidlər Lalayevdən və onun qohumlarından qorxurlar.

Hal-hazırda Temir-Xan-Şurada iki bacı – Nisə Xanım (Nina) və Əminə Xanım (Emma) Acıyevalar yaşayırlar. Onlar hər ikisi, əvvəllər oxuduqları Bakıdakı Müqəddəs Nina[89] məktəbində eşidiblər ki, Stepan Lalayevin orada oxuyan bacısı hamıya danışırmış ki, Vorontsovskaya küçəsində yaşayan doktor Sultanovu, yəni mənim ərimi, onun qardaşı özü öldürmüşdür. Lalayevlə birgə onun dostu zabit Arzumanov da evlərə girir və qarətlə məşğul olurdu. Mən bunu bir çox tanışlarımın, eləcə də Lalayevin cangüdəninin sözlərindən bilirəm. O, bu barədə Petrovsk-da Didikov adlı bir inquşa danışmışdır; bu, Biçeraxovun[90] dəstəsi Pet-

rovskda olarkən baş vermişdir və Stepan Lalayev də həmin dəstədə idi. Mən eşitmişəm ki, Lalayev Petrovskda da qətl və qarətlərlə məşğul olmuşdur. Orada dostu Digityanla birlikdə bir çox tanınmış müsəlmanları qətlə yetirmişdir. Ayrıca qətl və qarət hallarını göstərə bilmərəm. Əlavə edirəm ki, biz Qolginin mənzilinə bazar ertəsi günü, martın 19-da getmişdik, lakin, axşam saat 6-da ərim bolşeviklərlə müsəlmanlar arasında barışıq elan edildiyini gördükdə, biz evimizə qayıtmışdıq. Biz Qolginin mənzilinə apardığımız bütün qiymətli əşyalarımızı və pullarımızı elə bu vaxt geri gətirmişdik.

Oxundu. Humay xanım Sultanova (imza).

Fövqəladə Təhqiqat Komissiyasının sədri:

Ələkbər bəy Xasməmmədov (imza).

Komissiya üzvləri: A.Kluge, A. Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 62-64.**

## Sənəd № 374

*Dindirmə protokolu*

*1918-ci il, 14 noyabr Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xədicə İsmayıl qızı, 20 yaşım var, Bakıda yaşayıram.**

Mart hadisələri zamanı mənim ərim İsgəndər Qasım Qulu oğlu iki gün müdafiə olundu, sonra silahlı ermənilər bizim evə soxuldular, ərimi beş güllə ilə yaraladılar və həyətimizdə 12 qonşumuzu qətlə yetirdilər: öldürülənlərin arasında uşaqlar və hamilə qadınlar da var idi. Ərim ağır yaralara baxmayaraq hələ 20 gün yaşadı və sonra aldığı yaralardan xəstəxanada öldü. Mən qaçmağa müvəffəq olmuşdum, bununla belə küçədə top mərmisindən yara almışdım və xəstəxanaya gətirilmişdim. Bizim evimizdəki bütün əmlakımızı qarət etmiş və atımızı öldürmüşdülər. Dəymiş ziyan 10.000 rubldan çoxdur. Mənim ərizəmi qarət edilmiş əşyaların siyahısı ilə birlikdə işə əlavə etməyinizi xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**Xədicə İsmayıl qızı öz ifadəsinə aşağıdakıları əlavə etdi:**

Mart hadisələrindən sonra mən Lənkərana getmişdim və oradan yalnız 2 həftə sonra Bakıya qayıtdım. Bakı alınmamışdan əvvəl 2000 erməni əsgəri Lənkərana gəldi və özbaşınalıq etməyə, müsəlman əhalisini ələ salmağa başladı. Onlar yeməkxanalara girir, yeyib-içir və pulunu ödəmədən çıxıb gedirdilər; çörək alır və onun pulunu vermirdilər. Sonra onlar türklərdən müdafiə olunmaq üçün müsəlmanları səngər qazmağa məcbur edirdilər. Hətta o həddə çatmışdı ki, ermənilər şaxsey[91] zamanı müsəlmanlara öz dini ehtiyaclarını həyata keçirməyə maneçilik törətməyə başlamışdılar. Bununla belə müsəlmanlar məscidlərdə toplaşdıqda və orada öz dini mərasimlərini keçirdikdə, erməni əsgərləri məscidlərə soxuldular və onları qarət etdikdən sonra, yandırmağa cəhd göstərdilər. Lakin gürcülər buna mane olaraq məscidi müdafiə etməyi bacardılar; iş hətta atışma həddinə çatdı. Mən yalnız erməni əsgərlərinin müsəlman qadınını öldürdükləri bir hadisəni xatırlayıram.

Mart hadisələri zamanı ermənilər Bakıda qardaşımın iki yaşlı oğlunu divara mıxlamışdılar və bu yolla ona ölənədək əzab vermişdilər (şahid ifadə verərkən ağladı). Türklərin Bakıya ilk hücumundan əvvəl Quba qəzasında ermənilər mənim altmış beş yaşlı əmimi tikə-tikə doğramışlar.

Oxundu. Savadsızdır. Onun əvəzinə imzaladı (imza).

Komissiyanın sədri: Ələkbər bəy Xasməmmədov (imza).

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 157.**

## Sənəd № 375

*Dindirmə protokolu*

**1918-ci il, 4 dekabr. Bakı şəhəri.**

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xanımana Ağarza qızı, 33 yaşım var, Bakı şəhəri, 4-cü Paralellnaya küçəsində, Bəhram Atam Oğlanın evində yaşayıram, savadsızam.**

Bu il mart ayının 19-da səhər 10-11 radələrində otuza yaxın silahlı erməni əsgəri yuxarıda göstərilən evə soxuldular, yeddi nəfər müsəlman kişisini, və o cümlədən mənim 70 yaşlı atam Ağa Rzanın tüfəngin qundağı ilə başını parçalayaraq, öldürdülər, altı nəfər qadını, iki azyaşlı uşağı qətlə yetirdilər. Ermənilər uşaqları süngü ilə öldürdülər. Mənim iki min rublumu zorla aldılar, atamın isə cibindən dörd min səkkiz yüz rubl (4800 rubl) pulunu çıxardılar. Məni əsir apardılar və mənim mənzilimi qarət etdilər. Qarət edilmiş əşyaların siyahısı təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm, əşyaları yeni qiymətlə beş min manat dəyərində qiymətləndirirəm. Yolboyu məni və digər qadınları qundaqlarla vururdular və yerə yıxılan qadınları hörüklərindən tutaraq qaldırırdılar.

Erməni əsgərləri bütün qonşu evlərə də girir, müsəlmanları, cinsindən və yaşından asılı olmayaraq, öldürür, onların əmlakını qarət və məhv edirdilər. "Poxlu Dərə" rayonunda demək olar ki, müsəlmanların hamısını qırmışdılar və elə bir ev yox idi ki, ermənilər kimisə öldürməsinlər, əksinə, elə evlər var ki, ermənilər evdəkilərin hamısını qətlə yetirmişlər. Erməni əsgərləri müsəlmanların çox olduğu evlərə od vururdular. "Poxlu Dərə" rayonu demək olar ki, bütünlükdə ermənilər tərəfindən məhv edilmişdir və bu rayondan çox az sayda müsəlman sağ qalmışdır. Evlərdə və küçələrdə müsəlman kişilərin, qadın və uşaqların, və hətta südəmər körpələrin eybəcər hala salınmış meyitləri uzanıb qalmışdı. Bütün dəhşətlər haqqında danışmaq çox çətindir. Ağırdır.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 13.**

## Sənəd № 376

***Dindirmə protokolu***

*1918-ci il, 2 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ümsalma Məşədi Novruz qızı, 35 yaşım var, Budaqovskaya küçəsi, ev № 197 ünvanda yaşayıram, savadsızam, Bakı sakiniyəm.**

Bu ilin mart ayının ortalarında biz səhər tezdən silahlı erməni əsgərlərini gördük. Ərimlə və oğlumla birlikdə mənzilimizi tərk edib şəhərin “Poxlu Dərə” adlanan hissəsinə qaçdıq. Ermənilər “Poxlu Dərəyə” soxuldular və müsəlman kişi, qadın və uşaqları öldürməyə başladılar. Ermənilər bizə atəş açır, xəncərlə doğrayır, süngülərlə deşirdilər. Müsəlmanlar vahimə içində evlərindən qaçır, ermənilər isə onları küçələrdə haqlayır və yerindəcə öldürürdülər. Ermənilər müsəlmanların qoyub çıxdıqları evlərdə qalan uşaqların hamısını öldürürdülər. Mən erməni əsgərinin süngüdə havaya qaldırdığı üçgünlük körpəni görmüşəm. Ermənilər mənim 40 yaşlı ərim Hüseyn Qulu Atam oğlunu və 22 yaşlı oğlumu küçədə öldürdülər. Mən gizlənməyə macal tapdım. Ermənilər mənim mənzilimi başdan ayağa qarət etdilər, apara bilmədiklərini isə qırıb-tökdülər. Mən indi tamamilə yoxsul, dilənçi vəziyyətində qalmışam.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 78.**

## Sənəd № 377

***Dindirmə protokolu***

*1918-ci il, 13 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Fatma Kərbəlayı Tağı qızı, 50 yaşım var, “Poxlu Dərə” rayonu, Fabriçnaya küçəsi, 32 №-li evdə yaşayıram, savadsızam.**

Bu ilin mart ayında silahlı ermənilər məni əsir apardılar və həmin vaxt ərzində demək olar ki, bütün mənzilimi qarət etdilər; mənzilimdən ərizədə siyahısını göstərdiyim 8.000 rubl dəyərində əşyalarımı oğurlamışlar. Əsirlikdə bizi bir gün susuz və çörəksiz saxladılar; amma bu, yalnız iki gün oldu. Mənim kürəkənim – Cəfər Məşədi Rəhim oğlu ermənilər tərəfindən öldürülmüşdür.

İfadə oxundu. Savadsızdır.

Komissiyanın sədri: Ə.Xasməmmədov (imza).
Komissiya üzvü: A.Kluge (imza).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 197.**

## Sənəd № 378

*Dindirmə protokolu*

*1918-ci il, 19 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Anaxanım Nur Məmməd qızı, 50 yaşım var, Bakı sakini, Bakıda yaşayıram, savadsızam.**

Bu il mart ayının ortalarında, silahlı erməni əsgərləri səhər tezdən şəhərin müsəlmanların yaşadığı "Poxlu Dərə" adlanan hissəsini mühasirəyə aldılar. Mənim digər müsəlmanlarla birlikdə olduğum evin həyətinə erməni əsgərləri soxuldular və bütün müsəlman kişiləri, 15-16 nəfəri, o cümlədən mənim 60 yaşlı ərimi, 18 yaşlı oğlumu öldürdülər və iki qadını da qətlə yetirdilər. Qalan qadınları qundaqlarla döyməyə və pullarını və zinət əşyalarını əllərindən almağa başladılar. Bütün qadınları hörükləri ilə bir-birinə bağlayaraq, başıaçıq və ayaqyalın əsir apardılar. Yolboyu müsəlmanların cəsədləri uzanıb qalmışdı, bizi isə dayanmadan qundaqlarla vurur və dinimizi təhqir edirdilər. Ermənilər mənim 15.000 rubl pulumu aldılar və mənzilimi təxminən 20.000 rubl məbləğində qarət etdilər. Mən indi tamamilə yoxsul və qundaq zərbələrindən sonra xəstə vəziyyətdə qalmışam. "Poxlu Dərə"-də müsəlman kişilərdən demək olar ki, heç kim sağ qalmamışdır. Mən bütün dəhşətlər haqqında danışa bilmirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M. Təkinski, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 165.**

## Sənəd № 379

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Nisə Xanım Şahgəldi qızı, 50 yaşım var, Bakıda, Kirpiçnaya küçəsində, Şahgəldinin evində yaşayıram, savadsızam.**

Bu ilin mart ayının 19-da, yüz nəfərə yaxın erməni əsgəri yuxarıda göstərilən evə soxularaq, mənim 50 yaşlı ərim Məşədi Nabat Əli Heydər oğlunu, mənim oğlum Xəlili və dörd nəfər fəhləni – Həsəni, Sadıqı, Məşədi Hüseyni və Əzizi öldürdülər. Ermənilər məni, 11 yaşlı qızımı və 8 yaşlı oğlumu əsir apardılar, mənzilimi isə 9.240 rubl dəyərində qarət etdilər. Erməni əsgərləri ərimin cibindən 6000 rubl pulunu çıxartmışdılar. Ərimin çörəkxanası var idi və bundan əlavə xalça alveri ilə də məşğul olurdu. Qarət edilmiş əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M. Təkinski, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 153.**

## Sənəd № 383

*Dindirmə protokolu*

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xırda Atamoğlan qızı, 40 yaşım var, Bakı şəhəri, Kirpiçnaya küçəsi, ev № 2 ünvanda yaşayıram.**

Mart ayında ermənilər mənim kürəkənim Əliverdini və 10 yaşlı nəvəm Gülmirzəni qətlə yetirmişlər. Sonra canilər təqdim etdiyim siyahıda

göstərilən və dəyəri 3.450 rubl olan əşyalarımızı qarət etmişlər.

Savadsızdır.

Komissiyanın sədri: Ə.Xasməmmədov (imza)

Komissiya üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 94.**

## Sənəd № 384

***Dindirmə protokolu***

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Dürnisə Heybət qızı, 40 yaşım var, Bakı şəhəri, Kirpiçnaya küçəsi, ev № 65 ünvanda yaşayıram.**

Bu ilin mart ayında ermənilər mənim böyük oğlum Məşədi İbrahimi qətlə yetirmiş və kiçik oğlum Mirzə Əlini yaralamışlar. Canilər xəncərlə böyük oğlumun başını kəsmişdilər. Ermənilər bundan əlavə bizim əşyalarımızı qarət etmişlər. Onların 14.285 rubl dəyərində olan siyahısını təqdim edirəm.

Savadsızdır.

Fövqəladə Təhqiqat Komissiyasının sədri: Ə. Xasməmmədov (imza).

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 95.**

## Sənəd № 385

***Dindirmə protokolu***

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Qız Xanım Cabbar qızı, 25 yaşım var, Bakı şəhər sakini, Kirpiçnaya küçəsində yaşayıram, savadsızam.**

Bu ilin martında silahlı ermənilər mənim ərimi və 10 yaşlı oğlumu öldürdülər, sonra isə evimizi qarət edərək, verdiyim ərizədə göstərilən 10.000 rubl dəyərində əşyalarımızı apardılar. Mən baş vermiş hadisənin şahidi olmuşam. Ermənilər məni və digər qadınları əsir götürdülər, əsirlikdə bizi təhqir edir, yalnız balığın baş tərəfini təklif edərək, yemək verirdilər.

İfadə oxunmuşdur. Savadsızdır.

Fövqəladə Təhqiqat Komissiyasının sədri: Ə. Xasməmmədov (imza).

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 97.**

## Sənəd № 386

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Bəyim Xanım Oruc Bala qızı, 80 yaşım var, Bakı şəhər sakini, Kirpiçnaya küçəsində şəxsi evimdə yaşayıram.**

Bu il martın 19-da erməni əsgərləri səhər tezdən hücuma keçdilər. Mən qaçdım, amma mənim oğlum Xan Əhməd Dadaş oğlunu, 25 yaşlı, erməni əsgərləri öldürdülər. Mənim mənzilimi 12.650 rubl məbləğində qarət etdilər. Əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M. Təkinski, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 153.**

## Sənəd № 387

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Pəri Xanım Rza qızı, 17 yaşım var, Bakı şəhər sakini, Kirpiçnaya küçəsi № 1 ünvanda yaşayıram.**

Bakıda mart qırğınları zamanı ermənilər mənim ərim Xəlil Əbdül Hüseyn oğlunu, 28 yaşlı, öldürmüşlər, mənzilimi isə köhnə qiymətlərlə 8.300 məbləğində qarət etmişlər. Mən əşyaların siyahısını və qiymətlərini təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. İndiki qiymətlərlə onların dəyəri 250.000 rubldan aşağı deyildir. Bu məbləğin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 165.**

## Sənəd № 388

*Dindirmə protokolu*

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Balabacı Heybətqulu qızı, 60 yaşım var, Bakı şəhərində, Kirpişnaya küçəsi, ev № 39 ünvanda yaşayıram, savadsızam.**

Bu il martın 19-da erməni əsgərləri göstərilən evə soxuldular, mənim oğlum, 35 yaşlı Məmməd Qasım Nəcəfqulu oğlunu və onun oğlu 2 yaşlı Nəcəfqulunu öldürdülər. Mənim mənzilimi 16.940 rubl məbləğində qarət etdilər. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm və işə əlavə edilməsini xahiş edirəm.

Oxundu. Savadsızdır.
Komissiya üzvləri: M. Təkinski, A.Kluge (imzalar)
**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 22.**

## Sənəd № 390

*Dindirmə protokolu*

*1918-ci il, 10 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Çeşmi Həsən Əli qızı, 60 yaşım var, Bakı sakini, Məmmədlinskaya küçəsində yaşayıram, savadsızam.**

Bu ilin mart ayında ermənilər məni əsir götürdülər. Ermənilər bizimlə pis davranır, bizi təhqir edir, ələ salırdılar. Mənim evimdə manufaktura malları var idi, mənim ticarətlə məşğulam. Bütün mallar və başqa ev əşyaları həmin ermənilər tərəfindən qarət olunmuşdur. Onların qiyməti 8000 rubl idi.

İfadə oxunmuşdur. Savadsızdır.
Təhqiqat Komissiyasının sədri: Ə. Xasməmmədov (imza).
Komissiya üzvləri: M. Təkinski, A.Kluge (imzalar)
**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 127.**

## Sənəd № 392

*Dindirmə protokolu*

*1918-ci il, 14 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Alma Xanım Nuhəli qızı, 60 yaşım var, Bakı sakini, Məmmədli ərazisində yaşayıram.**

Mart hadisələri zamanı bizim evə ermənilər soxuldular və bizi polis bölməsinə əsir apardılar. Mən ertəsi gün evə qayıdanda bütün əmlakımın qarət edildiyini gördüm. Qonşuların dediyinə görə bunu ermənilər etmişlər. Qarət olunmuş əmlakın siyahısını təqdim edirəm. Mənə köhnə qiymətlərlə 5000 rubl məbləğində zərər vurulmuşdur. Silahlı ermənilər bizi zorla əsir apardılar və hətta bir nəfəri bizimlə getmək istəmədiyi üçün evin darvazasının qabağında öldürdülər. Öldürülən mənim qaynım idi; öldürəndən sonra ermənilər onun qızıl saatını və pullarını götürdülər. Əsirlikdə bizi bir gün yox, üç gün saxladılar və çox az çörək verirdilər.

Oxundu. Savadsızdır. Onun əvəzinə imzaladı: İmza.

Komissiya üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 158.**

## Sənəd № 393

***Dindirmə protokolu***

*1919-cu il, 13 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Zinyət Ağabala qızı, 18 yaşım var, Bakı şəhərində, Kanitapinskaya küçəsi, ev № 119 ünvanda yaşayıram, savadsızam.**

1918-ci ilin mart ayında erməni əsgərləri bizim evə hücum etdilər, mənim ərim Məşədi Rəhim Cabbar oğlunu öldürdülər və təqdim etdiyim ərizədə göstərilən 10.000 rubl dəyərində bütün əşyalarımızı qarət etdilər.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M. Təkinski, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 18.**

## Sənəd № 394

*Dindirmə protokolu*

*1918-ci il, 13 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xədicə Qəni qızı, 35 yaşım var, Bakı sakini, 1-ci Kanitapinskaya küçəsi, dalan № 7, ev № 8 ünvanda yaşayıram, savadsızam.**

Bu ilin mart ayının 19-da səhər tezdən yüz nəfərdən artıq erməni əsgəri yuxarıda göstərilən evə soxuldular və mənim 45 yaşlı ərim İsmayıl Kərbəlayı Abbas Qulu oğlunu öldürdülər, mənim mənzilimi 6240 rubl dəyərində qarət etdilər, ərimin cibindən isə 7000 rubl pulunu çıxardılar. Mən azyaşlı uşaqlarımla yəhudi qadının evində gizlənmişdim. Bir saatdan sonra ermənilər məni əsir götürdülər. Ermənilər mənim əşyalarımı mənim mənzilimdən avtomobilə qoyurdular və aparırdılar. Erməni əsgərləri qonşularımızı da öldürürdülər və evlərini qarət edirdilər. Mənim ərimi tüfənglə öldürürdülər və ayaqlarını kəsdilər. Qarət edilmiş əşyaların siyahısını sizə təqdim edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: M. Təkinski (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 195.**

## Sənəd № 396

*Dindirmə protokolu*

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Səriyyə Hacı Gül Məmməd qızı Qurbanova, 38 yaşım var, 1-ci Kanitapinskaya küçəsi, 103 №-li evdə yaşayıram, Bakı, savadsızam.**

Bu il mart ayının 19-da erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim ərim Qulam Əli Qurban oğlunu, 45 yaşlı, və oğlum Ələkbəri, 20 yaşlı, əsir apardılar və küçədə öldürdülər. Mənim mənzilimi isə 28.775 rubl məbləğində qarət etdilər, oğurlanmış əmlakın siyahısını təqdim edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M. Təkinski, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 24.**

## Sənəd № 400

***Dindirmə protokolu***

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Qızqayıt Rüstəm qızı, 35 yaşım var, Bakıda, 1-ci Kanitapinskaya küçəsi, 115 №-li evdə yaşayıram, savadsızam.**

Bu il mart ayının 19-da erməni əsgərləri mənim evimi qarət etdilər, mənim ərim Ağababa Əbusalam oğlunu, 60 yaşlı, öldürdülər. Mənim mənzilimi 3275 rubl məbləğində qarət etmişlər, Bundan əlavə 100 pud buğda aparmışlar. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Kluge, M. Təkinski (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 24.**

## Sənəd № 406

***Dindirmə protokolu***

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Səriyyə Xanım Mirzə Hüseyn qızı, 25 yaşım var, Bakı şəhəri, 7-ci Kanitapinskaya küçəsi, 6 №-li evdə yaşayıram, savadsızam.**

Bu il mart ayının 19-da erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim 35 yaşlı ərim Gül Hüseyn Əhliman oğlunu və 20 yaşlı Ağa Hüseyn Baba oğlunu öldürdülər. Mənim ərimin cibindən 1500 rubl pulunu çıxardılar və mənzilimi 21.100 rubl dəyərində qarət etdilər. Qarət edilmiş əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Erməni əsgərləri məni əsir götürdülər. Qonşu müsəlmanları cinsindən və yaşından asılı olmayaraq öldürür və qarət edirdilər. Mən möcüzə nəticəsində sağ qalmışam, yəqin ki, Allah belə istəyirmiş ki, mən sağ qalım və erməni dəhşətlərinin şahidi olum.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 27.**

## Sənəd № 407

***Dindirmə protokolu***

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Fatma Xanım Şamxal qızı, 14 yaşım var, Bakı şəhəri, 7-ci Kanitapinskaya küçəsi, 5 №-li evdə yaşayıram, savadsızam.**

Bu ilin mart ayının 19-da səhər tezdən erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim ərim Abuzər Mahmud oğlunu, 32 yaşlı, və atam Şamxal Allah Qulu oğlunu öldürdülər, mənzilimi qarət etdilər və 20.000 rubl dəyərində əşyalarımı apardılar. Ermənilər komoddan 100.000 min rublu da götürdülər. Mənim ərim topdan satış alver edirdi və irimiqyaslı dəmir ticarəti ilə məşğul idi. Məni ermənilər əsir apardılar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 151.**

## Sənəd № 409

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Şərəbanı Nəcəf Qulu qızı, 32 yaşım var, Maştağa kəndinin sakiniyəm, Bakı şəhəri, 7-ci Kanitapinskaya küçəsi, 5 №-li evdə yaşayıram, savadsızam.**

Bu ilin mart ayının 19-da səhər tezdən erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim 45 yaşlı ərim Şamxal Allah Qulu oğlunu, və 32 yaşlı qaynım Abuzər Mahmudu öldürdülər, mənzilimi qarət etdilər və 60.000 rubl dəyərində əşyalarımızı avtomobillərə yükləyib apardılar. Erməni əsgərləri ərimin 40.000 rubl pulunu zorla aldılar, sonra isə özünü öldürdülər. Əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Ermənilər demək olar ki, bütün müsəlman kişiləri öldürürdülər. Məni və mənim ailəmi ermənilər əsir götürdülər. Ermənilər apara bilmədikləri hər şeyi qırıb-tökdülər.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 151.**

## Sənəd № 410

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Samət Məhərrəm qızı, 41 yaşım var, Bakı şəhəri, 7-ci Kanitapinskaya küçəsi, 6 №-li evdə yaşayıram, savadsızam.**

Mart hadisələri zamanı erməni əsgərləri tərəfindən mənim oğlum Əsgər Xalıq oğlu öldürülmüşdür, onlar bizim siyahıda göstərilən 19.000 rubl məbləğində əmlakımızı qarət etmişlər.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 182.**

## Sənəd № 411

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mina Bəyim Mirzə Əli qızı, 45 yaşım var, Bakı şəhəri, 7-ci Kanitapinskaya küçəsi, 6 №-li evdə yaşayıram, savadsızam.**

Bu ilin martında ermənilər tərəfindən mənim oğlum Ağa Hüseyn Baba oğlu və kürəkənim Gül Hüseyn Əlməmməd oğlu öldürülmüşdür və mənim təqdim edilən siyahıda göstərilən 14.450 rubl məbləğində əmlakım qarət edilmişdir.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 182.**

## Sənəd № 416

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Fatma Bədir qızı, 30 yaşım var, Bakı qəzası Maştağa kəndinin saki-**

**ni, uşaqlıqdan Bakı şəhəri 7-ci Kanitapinskaya küçəsi, 119 №-li evdə yaşayıram, savadsızam.**

Mart ayında silahlı ermənilər bizim və qonşuların - müsəlmanların evlərinə soxuldular, kişilərin hamısını qırdılar, biz qadınları isə əsir götürərək, üç gün saxladılar; onlar bizi də öldürmək istəyirdilər, amma barışıq elan edildi və bizi azad etdilər. Mən erməni canilərinin çoxunu yadımda saxlamışam və üzləşmə zamanı tanıya bilərdim; amma adlarını bilmirəm. Ermənilər əvvəlcə qoca atamı öldürdülər, bacıma atəş açaraq, ayağından yaraladılar, sonra isə əmlakımızı qarət etdilər, ümumilikdə 9605 rubl dəyərində və təqdim etdiyim siyahıda ətraflı şəkildə göstərilən əşyalarımızı oğurladılar

Hadisə Bakıda baş vermişdir. İfadə oxunmuşdur; ermənilər əsirlikdə revolverlə bizə hədə-qorxu gəlir, su, yemək vermir, saman üzərində yatmağa məcbur edirdilər.

Savadsızdır.

Fövqəladə Təhqiqat Komissiyasının sədri: Ə. Xasməmmədov (imza).

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, i. 14, v. 65.**

## Sənəd № 419

***Dindirmə protokolu***

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Pir Xanım Məmməd Həsən qızı, 40 yaşım var, Bakı şəhər sakini, Aziatskaya küçəsi, dalan № 5, ev № 2 ünvanda yaşayıram.**

Bakıda baş vermiş 1918-ci ilin mart qırğınlarında ermənilər 10-cu Kanitapinskaya küçəsindəki 3 №-li evimizdə mənim 55 yaşlı ərim İbrahimi, on yaşlı oğlum Ələsgəri öldürmüş, biz qadınları isə əsir götürmüşlər və beş gün əsirlikdə saxlamışlar. Mənim yanımda 4 uşaq var idi; biz Kanitapinskaya küçəsindəki Qorodskoy domda (Şəhər evi) saxlanılırdıq. Orada təxminən iki min nəfərə yaxın əsir var idi. Mən orada, öz yanımda əllə-

rindən və ayaqlarından yaralanmış üç qadın görmüşəm; Məni 8595 rubl məbləğinə qarət ediblər. Siyahını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mənim əşyalarımın qiyməti bu gün 35.380 rubldur və onun mənə ödənilməsini xahiş edirəm. Mənim öhdəmdə dörd uşaq qalıb, ən kiçiyinin üç yaşı var.

Oxundu. Pir Xanım Məmməd Həsən qızı.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 81.**

## Sənəd № 420

***Dindirmə protokolu***

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Zərəfşan Bəyəli qızı, 40 yaşım var, Bakı şəhəri, 10-cu Kanitapinskaya küçəsi, 34 №-li evdə yaşayıram, savadsızam.**

Bu ilin mart ayının 19-da erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim 20 yaşlı oğlum Məmməd Əli Nəcəf Qulu oğlunu öldürdülər və mənzilimi qarət etdilər. 5124 rubl dəyərində qarət edilmiş əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Ermənilər 300 rubl nağd pulumu sandıqdan çıxardılar. Məni uşaqlarımla birlikdə əsir apardılar və dörd gün saxladılar. İki yaşlı oğlum əsirlikdə qollarımın üstündə öldü. Onun adı Abbasəli idi. Mənim ərim bağrı çatlayaraq öldü. Dörd gündən sonra məni buraxdılar və elə həmin gün iki oğlum, 6 yaşlı Həsən Bala və 9 yaşlı Hüseyn Bala da acından öldülər. Mən bir tikə çörəyə möhtac qalmışam.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Kluge, M. Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, i. 14, v. 152.**

## Sənəd № 423

***Dindirmə protokolu***

*1918-ci il, 7 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Yaxşı Xanım Hacı Əli Mərdan qızı Manafova, 52 yaşım var, Bakı şəhəri, Çadrovaya küçəsi, 178 №-li evdə yaşayıram.**

Bu ilin martında ermənilərin müsəlmanlara qarşı çıxışlarının üçüncü günü bizim kirayənişinimiz olan Aleksandrın (familiyasını bilmirəm) başçılıq etdiyi erməni əsgərləri dəstəsi bizim evimizə gəldilər və bizim əşyalarımızı qarət etməyə başladılar. Sonra onlar məni Mailov teatrının binasına əsir apardılar, mənim oğlumu isə Aleksandr kənara çəkdi və ondan sonra onu mənim gözlərimin qabağında güllələdilər. Bu Aleksandrı sonra biz hökumətə göstərdik, onu hətta həbs etdilər, lakin sonradan buraxdılar. Mənim qətlə yetirilən oğlumun adı Ağaverdi idi. Mənə məlum olduğu kimi, ermənilər mənim nağd 15.000 rubl pulumu aparıblar. Bundan əlavə, onlar 60.000 rubl məbləğində zinət əşyalarını və digər əmlakımı aparıblar. Mart hadisələrindən sonra Aleksandr Qoqolevskaya küçəsi, dalan № 2, ev № 14-də yaşayırdı. Aleksandrı təxminən bir ay əvvəl həbs etmişdilər, amma mən indi öyrənmişəm ki, o artıq beş gündür ki, azadlıqdadır.

Oxundu. Savadsız olduğuna görə imzaladı: (imza).

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 124.**

## Sənəd № 427

*Dindirmə protokolu*

*1918-ci il, 8 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Tutu Xanım Məşədi Hüseyn qızı, 20 yaşım var, Bakı sakini, Çadrovaya küçəsi, 220 №-li evdə yaşayıram, savadsızam.**

Bu il mart ayının ortalarında on nəfər silahlı erməni əsgəri Tatarskaya küçəsi, 55 №-li evə girdilər və mənim 27 yaşlı ərim Ağa Kərim Xanbaba oğlunu, onun 70 yaşlı atası Xanbaba Almaz oğlunu, 18 yaşlı Baba Rəşid oğlunu və Rəşid Eyvaz oğlunu apardılar. Onların hamısını küçədə öldürdülər, Xan Babanın cəsədini isə lap evin qarşısından tapdım. Onların hamısını evdən səhər saat 8-də çıxarmışdılar, axşam saat 10-da isə erməni əsgərləri yenidən gəldilər və məni əsir götürüb apardılar, Mailov teatrında üç gün saxladılar. Ermənilər mənim iki min rubl pulumu, üç min rubl dəyərində zinət əşyalarımı, qızıl və gümüşümü əlimdən aldılar, kostyumları, tikiş maşınını və bütün ev avadanlığını apardılar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 130.**

## Sənəd № 428

*Dindirmə protokolu*

*1918-ci il, 23 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xanım Hüseyn qızı, 50 yaşım var, Bakı şəhəri, Çadrovaya küçəsi, 157 №-li evdə yaşayıram, savadsızam.**

Bu il Bakıda mart qırğınları zamanı ermənilər mənim qardaşım Əbdül Hüseyn oğlunu öldürülmüş və bizim 15.000 rubl məbləğində əmlakımızı qarət etmişlər. Onların siyahısını işə əlavə etməyi xahiş edirəm.

Oxundu. Xanım Hüseyn qızı. Savadsızdır.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 63.**

## Sənəd № 429

*Dindirmə protokolu*

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Zəhra Ələkbər qızı, 45 yaşım var, Bakı şəhəri, Çadrovaya küçəsi, 83 №-li evdə yaşayıram.**

Bakıda mart qırğınları zamanı ermənilər mənim ərimi və oğlanlarımı öldürdülər, mən isə azyaşlı qızlarımla dul qaldım. Ermənilər mənim mənzilimi cəmi 30.750 rubl məbləğində qarət etmişlər. Mən əmlakımın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mənə 30.750 rubl məbləğində zərərin ödənilməsini xahiş edirəm.

Oxundu. Zəhra Ələkbər qızı. Savadsızdır.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 63.**

## Sənəd № 433

*Dindirmə protokolu*

*1918-ci il, 5 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Sona Xanbaba qızı, Bakı sakini, Tatarskaya küçəsi, 55 №-li evdə yaşayıram, 35 yaşım var, savadsızam.**

Bu il, mart ayının deyəsən 20-də yuxarıda göstərilən evin həyətinə silahlı erməni əsgərləri gəldilər və 80 yaşlı atam Xan Babanı, 25 yaşlı qardaşım Əli Kərimi, 55 yaşlı ərim Kərbəlayı Rəşidi və 17 yaşlı oğlum Babanı apardılar. Bu, səhər saat 7-də olmuşdu. Erməni əsgərləri mənə dedilər ki, onları əsir götürürlər. Mən ermənilərə yalvardım ki, onları evdə qoysunlar, ancaq onlar məni döydülər. Yuxarıda adları çəkilən doğmalarımı ermənilər küçəyə çıxardılar və 55 №-li evin yanında atamı öldürdülər. Ərimi ermənilər Bağırov bağçasının yanında öldürdülər. Qardaşımın və oğlumun cəsədlərini tapa bilmədim. Həmin günün axşamı yenidən mənim evimə otuza yaxın erməni gəldi və evi qarət etməyə başladılar. Ermənilər təqdim etdiyim siyahıdakı köhnə qiymətlə 3200 rubl dəyərində bütün qiymətli əşyalarımızı apardılar; bu ərizənin işə əlavə olunmasını xahiş edirəm; məni isə azyaşlı: altı aylıq, üç və doqquz yaşında körpələrlə əsir apardılar və iki gün saxladılar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 107.**

## Sənəd № 435

*Dindirmə protokolu*

*1918-ci il, 26 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Zeynəb Xanım Əkbər qızı, 20 yaşım var, Bakı sakini, Tatarskaya küçəsi, 90 №-li evdə yaşayıram.**

Bu ilin mart ayının 21-də otuz nəfər silahlı erməni əsgəri yuxarıda göstərilən evə gəldilər, mənim mənzilimi 24.425 rubl dəyərində qarət etdilər və 1 yaş yarımlıq qızım Teyraxanımı ayaqlayıb əzdilər. Dağıdılıb-sındırılmış əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Eşitdiyimə görə erməni əsgərləri mənim qonşularımın evlərində də uşaq-

ları ayaqlayaraq əziblər. Mən ayaqlanan qızımın çığırtısını indi də eşidirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR PİI SSA, f. 277, s. 2, iş 15, v. 76.**

## Sənəd № 436

*Dindirmə protokolu*

*1918-ci il, 26 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Sona Xanım Nəcəf Qulu qızı, 40 yaşım var, Bakı sakini, Tatarskaya küçəsi, 91 №-li evdə yaşayıram, savadsızam.**

Bu ilin mart ayının 21-də otuz nəfər silahlı erməni əsgəri yuxarıda göstərilən evə gəldilər, mənim mənzilimdən siyahısını təqdim etdiyim və işə əlavə olunmasını xahiş etdiyim 15.800 rubl dəyərində əşyalarımızı qarət etdilər və 1 yaş yarımlıq nəvəm Teyraxanımı ayaqlayıb əzdilər, məni və qızımı əsir götürdülər. Mənim nəvəm erməni əsgərlərinin ayaqları altında əzablar içində öldü. Mənim çəkdiyim dərd və dəhşəti ermənilərin qəhqəhələri daha da dərinləşdirirdi.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR PİI SSA, f. 277, s. 2, iş 15, v. 76.**

## Sənəd № 438

*Dindirmə protokolu*

*1918-ci il, 7 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

Xırda Xanım Zərbalı qızı, 60 yaşım var, Bakı şəhəri, Tatarskaya küçəsində 65 №-li evdə yaşayıram.

Bu ilin martında ermənilər tərəfindən törədilmiş müsəlman qırğınları başlanandan iki gün sonra erməni əsgərləri bizim evimizə gəldilər, ərim Muxtar Hüseyn oğlunu Quran oxuduğu zaman öldürdülər; iki güllə hətta Quran kitabına dəymişdi. Barışıq elan edildikdən sonra oğlum Hüseyn bizə gəlmişdi. Ermənilər onu özləri ilə apardılar və barışığa baxmayaraq, oğlumu da öldürdülər. Mənim bütün əmlakım ermənilər tərəfindən qarət edilmişdir və mənə 15.250 rubl dəyərində ziyan vurulmuşdur.

Oxundu. Savadsızdır. Onun əvəzinə N. İsmayılov imzaladı.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 126.**

## Sənəd № 443

***Dindirmə protokolu***

*1919-cu il, 6 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Zibeydə Məmməd Vəli, 40 yaşım var, Bakı şəhəri, Qoqolevskaya küçəsində 121 №-li evdə yaşayıram.**

Keçən il mart hadisələri zamanı ermənilər bizim 2-ci Parallelnaya, ev 2, ünvanda yerləşən mənzilimizə soxularaq mənim ərim Heydər Nağı oğlunu və qızımı öldürdülər, mənzili isə qarət etdilər. Oğurlanmış əmlak təqdim olunan siyahıda göstərilmişdir. Mənə 18.100 rubl məbləğində zərər vurulmuşdur.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 66.**

## Sənəd № 446

***Dindirmə protokolu***

*1918-ci il, 3 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Dostxanım Ağa Kərim qızı, Bakı sakini, 28 yaşım var, Bakıda, Suraxanskaya küçəsində, Babayevin evində yaşayıram, savadsızam.**

Mart ayının ortalarında, çərşənbə axşamı səhər tezdən otuz nəfərə yaxın erməni bizim həyətimizə doldu və ərim Məmməd İbrahimi və oğlum Əli Babanı mənzildən çıxararaq öldürdülər. Mən 3 yaşlı qızım və 4 yaşlı oğlumla qaçdım. O vaxt mən Hacı Saleh Babayevin Suraxanskaya küçəsindəki evində kirayədə qalırdım. Mənim mənzilimi tamamilə talan etdilər. Qarət olunmuş əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Onlar Babayevi də öldürdülər.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 84.**

## Sənəd № 451

***Dindirmə protokolu***

*1918-ci il, 19 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Sona Xanım Nur Məmməd qızı, 41 yaşım var, Bakı sakini, Bakı şəhərində, Mariinskaya küçəsi, 4 №-li evdə yaşayıram, savadsızam.**

Günü və tarixi yadımda deyil, bu ilin mart ayının ortalarında erməni əsgərləri bizim evimizə soxuldular, mənim qohumum Məşədi Bala Baba Avtun Əli oğlunu öldürdülər, məni və mənim uşaqlarımı isə əsir apardılar, qadınları başlarını örtməyə və çəkmə geyməyə qoymadılar. Erməni əsgərləri, məni ölümlə

hədələyərək, 900 rublumu, iyirmi qızıl pulumu, beş qızıl üzüyümü, iki cüt qızıl sırğalarımı əlimdən aldılar. Bütün mənzilimi qarət etdilər və köhnə qiymətlə altı mindən yuxarı qiyməti olan əşyalarımı götürüb getdilər.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 166.**

## Sənəd № 448

*Dindirmə protokolu*

*1919-cu il, 27 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ziba Məlik Məmməd qızı, 45 yaşım var, Bakıda, Suraxanskaya küçəsində 161 №-li evdə yaşayıram.**

Deyəsən, 1918-ci il 21 martında 50 nəfərə yaxın erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular və mənim mənzilimi 28.850 rubl məbləğində tamamilə qarət etdilər. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mən gizlənməyə macal tapdım və məni rus qadınları gizlətdilər.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 166.**

## Sənəd № 450

*Dindirmə protokolu*

*1918-ci il, 28 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xədicə Hacı Soltan qızı, 17 yaşım var, savadsızam, Bakıda, Suraxanskaya küçəsi ev 195\52 ünvanda yaşayıram.**

Bu il Bakıda mart qırğınları zamanı ermənilər mənim artıq qarət etdikləri ərimi, 35 yaşlı Əli Heydər Hacı Səlim oğlunu məscidin yanında və ərimin atasını, 65 yaşlı Hacı Səlim Nəcəfovu öldürmüşlər. Bundan əlavə ermənilər bizim evimizi 117.500 rubl məbləğində qarət etmişlər. Əmlakın siyahısının işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Xədicə Hacı Soltan qızı. Savadsızdır.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 86.**

## Sənəd № 452

*Dindirmə protokolu*

*1918-ci il, 5 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Bibi Xanım Cavad bəy qızı, Bakı sakini, Mariinskaya küçəsi, 32 №-il evdə yaşayıram, 40 yaşım var, savadsızam.**

Bu il mart ayının 19-da səhər saat 8-də yuxarıda göstərilən evə erməni əsgərləri soxuldular və bizim hamımızı - müsəlmanları, əsir apardılar, evlərimizi isə qarət etdilər. Mənim mənzilimdən köhnə qiymətlərlə 10.200 rubl məbləğində əmlakım oğurlanmışdır. Onların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Qarətçilər elə həmin ermənilər idi. Onlar bizim hamımızı - 11 müsəlmanı öldürmək istəyirdilər, amma əsgərlərin arasında bir gücü var idi və o, bizi öldürməyə qoymadı. Ermənilər bizim çadralarımızı dartıb açdılar və başı açıq Mailov teatrına apararaq, orada 3 gün saxladılar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 102.**

## Sənəd № 453

*Dindirmə protokolu*

*1918-ci il, 31 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Dür Sədəf Molla Kərim qızı, 100 yaşım var, Bakı sakini, Mariinskaya küçəsi, 22 №-il evdə yaşayıram, savadsızam.**

Günü və tarixi yadımda deyil, bu ilin mart ayının ortalarında evimizə erməni əsgərləri soxuldular, mənim nəvəmi öldürdülər, onun uşaqlarını, yəni 3 yaşından 9 yaşınadək üç qızı və 10 yaşlı oğlanı əsir götürdülər. Ermənilər mənzili tamamilə qarət etdilər və mənzildən köhnə qiymətlə 14.870 rubl dəyərində əşyalarımızı apardılar. Əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Mən indi bir tikə çörəksiz qalmışam və nəvəmin uşaqları mənim himayəmdədirlər.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 63.**

## Sənəd № 454

*Dindirmə protokolu*

*1918-ci il, 12 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Fatma Kərbəlayı Əli qızı, 50 yaşım var, Bakıda, Mariinskaya küçəsi, 22 №-il evdə yaşayıram.**

Mart qırğınları zamanı, mənim rəhmətlik ərim Hacı Fərəc Əliyev və onun ikinci arvadı Umu Mirzəbəy qızı ilə birgə yaşadığımız evimizə (Umu qonşu mənzildə olurdu) silahlı ermənilər gəldilər, bizim bütün əmlakımı-

zı qarət etdilər və bizi 6-cı Polis bölməsinin idarəsinə əsir apardılar. Bizi Umu ilə bərabər evə buraxanda, biz gördük ki, Hacı Fərəc və onun Umudan olan oğlu Mütəllib öldürülmüşlər. Mənim 100.000 rubl məbləğində əmlakım qarət edilmişdir, Umunun da bu məbləğdə əmlakını, onlardan əlavə 40.000 rubl nağd pulunu aparmışlar. Ermənilər göstərilən əmlakdan əlavə Hacı Fərəcin 5000 qızıl pulunu da götürmüşlər.

Oxundu. Savadsızdır. Onun əvəzinə imzaladı (imza).

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 147.**

## Sənəd № 458

***Dindirmə protokolu***

*1918-ci il, 20 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Sara Hacı Ağası qızı, 27 yaşım var, Bakıda, Mariinskaya küçəsi, 99 №-il evdə yaşayıram.**

Bu il martın 22-də erməni əsgərləri yuxarıda göstərilən evə basqın etdilər, minim atam Hacı Ağası Fətulla oğlunu, 55 yaşlı, və bacım oğlu Ağa Hüseyn Bəndəli oğlunu, 19 yaşlı, qətlə yetirdilər, mənim mənzilimi isə 125.120 rubl məbləğində qarət etdilər. Məni əsir apardılar, və üstümdəki 12.000 rublu götürdülər, eləcə də mənim başımdan 200 rubla aldığım "tirmə şalımı" açıb apardılar. Qarət olunmuş əmlakın siyahısını təqdim edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 38.**

## Sənəd № 460

*Dindirmə protokolu*

*1919-cu il, 22 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Cəvahir Məşədi Baba qızı, 18 yaşım var, Bakıda, Mariinskaya küçəsi, 4 №-li dalan, 1 №-il evdə yaşayıram.**

Keçən ilin martında erməni əsgərləri bizim evə soxuldular, mənim ərim Daşdəmir Mürvət oğlunu, 39 yaşlı, və qayınatam Mirzə Ağa Atam oğlunu, 56 yaşlı, qətlə yetirdilər və bizim siyahıda göstərilən əmlakımızı qarət etdilər. Mənə cəmi 54.900 rubl məbləğində zərər vurulmuşdur.

Oxundu. İmza.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 40.**

## Sənəd № 463

*Dindirmə protokolu*

*1919-cu il, 23 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Fatma Xanım Zeynal Abdin qızı, 18 yaşım var, Bakı şəhərində, Verxnyaya-Priyutskaya küçəsi, 181 №-il evdə yaşayıram.**

1918-ci ilin martında, yadımda deyil 18-də, yaxud 19-da, bir neçə silahlı ermənilər bizim yuxarıda göstərilən ünvanda yerləşən mənzilimizə soxuldular, məni, anam Balaca Xanım Mustafa qızını və dul bacım Sona Xanımı azyaşlı qızı ilə bərabər əsir götürdülər, qardaşım Ağacanı və atam Zeynal Abdini isə küçəyə çıxardılar və bizim gözümüzün qarşısında öldürdülər, sonra isə süngülərlə deşdilər. Mən əsirlikdən qayıtdıqdan sonra mənzilimizin tamamilə ermənilər tərəfindən qarət edildiyini gördüm;

cəmi 4000 rubl məbləğində əmlak və 8000 rubl nağd pul aparılmışdır. Oğurlanın əmlakın dəyəri köhnə qiymətlərlə göstərilir, yeni qiymətlərlə isə onların dəyəri 40.000 rubl edir.

Öldürülən atam və qardaşım milisdə xidmət edirdilər və ailənin dolanışığını onlar təmin edirdilər. Hazırda isə qətlə yetirilənlərin bütün ailəsinin, o cümlədən, bu ərizəni verənin, maddi yardıma ehtiyacı vardır. Ərizəmin işə əlavə edilməsini xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 89-90.**

## Sənəd № 464

***Dindirmə protokolu***

*1918-ci il, 2 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Zeynəb Xanım Umudəli qızı, 20 yaşım var, Bakı sakini, Bakıda, Verxnyaya Priyutskaya küçəsi, 107 №-il evdə yaşayıram.**

Bu ilin mart ayının 20-də erməni zabiti başda olmaqla, 20 erməni əsgəri yuxarıda göstərilən evə soxuldular, mənim ərim Abbasqulu Məmməd İbrahim oğlunu qətlə yetirdilər, bu ilin mart ayının 18-də dünyaya gətirdiyim yeni doğulmuş körpəmi qucağımdan qapdılar və öldürdülər. Ermənilər mənim mənzilimi tamamilə qarət etdilər, oğurlanmış əşyaların siyahısını təqdim edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 80.**

## Sənəd № 466

*Dindirmə protokolu*

*1918-ci il, 17 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Şərəf Nisə Cəbrayıl qızı, Bakı sakini, 26 yaşım var, Bakıda, Georgiyevskaya küçəsi, 4 №-il evdə yaşayıram, savadsızam.**

Tarixi yadımda deyil, bu ilin mart ayının ortalarında yüz nəfərə yaxın erməni əsgəri darvazanı qıraraq evə soxuldular və mənzilləri qarət etməyə, kişi və qadınları öldürməyə başladılar. Mənzildə ermənilər mənim ərim Şıxəli Cəbrayıl oğlunu və onun qardaşları Ağa Əlini və Kəlbalını öldürdülər. Üç qadını – Şərəf Cəlil qızını, Tutu Xanım Cəbrayıl qızını və Xeyransa xanım Xalıq qızını qətlə yetirdilər. Yeddi yaşlı uşağı, Ələkbər Ağa Əli oğlunu qolundan və yanağından, 11 yaşlı Gövhər Xanım Ağa Əli qızını isə qolundan və boynundan güllə ilə yaraladılar. Məni və uşaqlarımı ermənilərdən rus qonşumuz xilas edə bildi və öz mənzilində gizlətdi. Ermənilər, ölümlə hədələyərək, mənim 20.000 rubl pulumu əlimdən aldılar, mənzildən isə 50.000 rubldan yuxarı dəyəri olan bütün əşyalarımızı götürüb apardılar. Talan zamanı rus qonşu məni öz mənzilinə apardı.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 160.**

## Sənəd № 470

*Dindirmə protokolu*

*1919-cu il, 25 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Gövhər Bağır qızı, 50 yaşım var, Bakı şəhər sakini, Bondarnaya küçəsində, 48 №-li şəxsi evimdə yaşayıram.**

Bakı şəhərində 1918-ci ilin qanlı mart hadisələri zamanı, barışıq elan edildikdən sonra, müsəlmanların onlara qarşı sadəlövh münasibətindən istifadə edən təxminən 10-12 silahlı erməni, yuxarıda adı çəkilən evə soxuldular, bütün kişi və qadınları, o cümlədən məni, qoca və gözləri görməyən ərim Hacı Əli Məmməd Məmmədovu və 19 yaşlı oğlum Ağa Məmmədi əsir götürdülər və bizi Yefimov Qardaşları Sirkinə[92] apardılar. Ermənilər yolboyu bizə işgəncə verirdilər, silahların qundağı ilə hara gəldi vururdular. Sirkə gəldikdə isə bizim dəstəmizdən 7 ya 8 nəfər daha gənc və sağlam kişini, o cümlədən mənim oğlum Ağa Məmmədi ayırdılar və başqa yerə apardılar. Mən sonradan öyrəndim ki, bütün bu kişilər erməni canilərinin əlləri ilə qətlə yetirilmişlər. Bu 7-8 nəfər kişi bizim evimizdən aparılmışdı və onların əksəriyyəti mənim qohumlarım idi. Ermənilər bizi əsir götürdükdən sonra bizim evdə olmadığımız müddətdə mənim 62.790 rubl dəyərində bütün əmlakımı, o cümlədən 20.000 nağd pulumu oğurlayıblar. Qarət olunmuş əşyaların siyahısı ilə birlikdə mənim ərizəmin işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 89.**

## Sənəd № 473

***Dindirmə protokolu***

*1919-cu il, 5 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ruqiyyə Əli-Qulu qızı, 60 yaşım var, Bakı şəhər sakini, Bondarnaya küçəsində, 26 №-li evdə yaşayıram, savadsızam.**

Bu ilin mart ayında ermənilər müsəlmanlara qarşı qiyam qaldırdılar. Başqaları kimi mən də zərər çəkdim. Ermənilər mənim qapılarımı sındırdılar, mənim 70 yaşlı qoşa ərimi və iki oğlumu öldürdülər; üçüncüsü

isə qorxudan xəstələndi və o, da öldü. Qətllər odlu silahdan atılan atəşlə yerinə yetirilmişdir. Ermənilər kimin qətli törətdiyini və mənim əmlakımı qarət etdiyini deyə bilmərəm, belə ki, heç kimi tanımadım. Ermənilər demək olar ki, bütün evimi qarət ediblər və mənim yazılı ərizəmdə göstərdiyim 5300 rubl məbləğində olan bütün əşyalarımı aparıblar. Ortancıl oğlum – Məhərrəmə məxsus 25 min rubl qiyməti olan 10 qayıq da oğurlanmışdır.

İfadə oxundu. Savadsızdır.

Komissiyanın sədri: Ə.Xasməmmədov (imza).

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 110.**

## Sənəd № 475

***Dindirmə protokolu***

*1919-cu il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Gülsüm Xanım Aydınova, 18 yaşım var, Bakı şəhərində, Aziatskaya küçəsində, 93 №-li evdə yaşayıram, savadlıyam.**

Bu ilin mart ayında mən Bondarnaya küçəsində yaşayırdım. O vaxt silahlı ermənilər gəldilər və bizim evə hücum etdilər, mənim ərim qaçmaq istəyəndə onlar onu öldürdülər. Ərimin adı Mirzə Mövsüm idi. Onun qətlindən sonra cinayətkarlar bizim evimizi qarət etdilər və təqdim etdiyim ərizədə göstərilən 14.360 rubl məbləğində əşyalarımızı apardılar. Biz qadınlar isə, qaçmaqla xilas olduq və ermənilərin gözünə görünmədik.

Oxundu. Savadlıdır. İmza.

Fövqəladə Təhqiqat Komissiyasının sədri:

Ələkbər bəy Xasməmmədov (imza).

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 101.**

## Sənəd № 476

***Dindirmə protokolu***

*1919-cu il, 15 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Tükəzban Tağı qızı Məmmədova, 23 yaşım var, Bakı şəhərində, Bondarnaya küçəsində, 50 №-li evdə yaşayıram.**

Bu il Bakıda mart qırğınları zamanı ermənilər bizi əsir apardılar və yolda mənim ərim Məmməd Mehdi oğlunu öldürdülər və bundan əlavə mənim mənzilimi 23.860 rubl məbləğində qarət etdilər. Siyahını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. 23.860 rubl məbləğində dəymiş zərərin ödənilməsini xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 213.**

## Sənəd № 477

***Dindirmə protokolu***

*1919-cu il, 15 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əminə Xanım Hacı Məmməd qızı Məmmədova, 18 yaşım var, Bakı şəhərində, Bondarnaya küçəsində, 50 №-li evdə yaşayıram.**

Bu il Bakıda mart qırğınları zamanı ermənilər mənim qardaşım Ağa Məmməd Məmmədovu, mənim ərim Məmməd Hüseyni və atam Əbdül Əzimi öldürdülər. Ermənilər onların hamısını əsir apardılar və yolda güllələdilər. Öldürülənlərin meyitləri Çornıy qorodda tapıldı, amma məhz harada, mən bilmirəm. Ora kişilər getmişdi. Bundan başqa, ermənilər mənim əmlakımı qarət etmişlər və onların siyahısını təqdim edərək işə

əlavə etməyinizi xahiş edirəm. Ermənilər tərəfindən mənim cəmi 84.150 rubl məbləğində əmlakım oğurlanıb.

Oxundu. Əminə Xanım Məmmədova. Savadsızdır.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 214.**

## Sənəd № 479

### *Dindirmə protokolu*

*1918-ci il, 14 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kərbəlayı Xanım Nadir qızı, 35 yaşım var, Bakıda, Bondarnaya küçəsi, 50 №-li evdə yaşayıram, savadsızam.**

Bu ilin mart ayının 21-də yüz nəfərə yaxın erməni əsgəri yuxarıda göstərilən evə (soxuldular), yeddi nəfər qadını, məni və yeddi nəfər kişini bayıra çıxardılar; qonşu evdən 8 qadın və 2 kişi çıxardılar. Erməni əsgərləri mənim mənzilimi 28.100 rubl dəyərində soydular; qarət edilmiş əşyaların siyahısını təqdim edirəm. Bizim hamımızı əsir apardılar və Mailov teatrının qarşısında iki qoca kişi və qadınları ayırdılar, qalan kişiləri isə erməni əsgərləri küçədə güllələdilər. Qətlə yetirilənlərin arasında mənim ərim Kərbəlayı Əbdül Əzim Mir Məmməd oğlu (65 yaşında), 30 yaşlı oğlum Mehdi, 22 yaşlı oğlum Məmməd Hüseyn, 20 yaşlı qohumum Naci Əli Məmməd Nur Məmməd oğlu da var idi. Məni və digər qadınları başqa müsəlmanlarla birlikdə üç gün Mailov teatrında saxladılar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 198.**

## Sənəd № 480

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Pəri Xanım İsgəndər qızı, 60 yaşım var, Bakı sakini, Bakıda, Azovski döngəsi, 13 №-li evdə yaşayıram, savadsızam.**

Bu il mart ayının 19-da səhər saat 9-da yüz nəfərə yaxın erməni əsgəri yuxarıda göstərilən evə soxuldular, mənim ərim Ağa Bala bəy Əsədulla bəy oğlunu, qardaşım Kəblə Fərəculla bəyi, qardaşım oğlu İsgəndər bəy Abbas bəy oğlunu mənzildən çıxardılar və küçədə, evin qabağında öldürdülər, Abbas bəyi isə həyətdə öldürdülər. Adları çəkilən şəxsləri öldürdükdən sonra ermənilər onları qarət etdilər və əyinlərindəki kostyumları çıxardılar. Ərimin cibindən 3000 rublu götürdülər. Mənim mənzilimi 1476 rubl məbləğində qarət etdilər. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 71.**

## Sənəd № 482

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Şeyda Fətəli qızı, 60 yaşım var, Bakı sakini, Azovski döngəsi, 89 №-li evdə yaşayıram.**

Bu ilin martın 19-da səhər saat 9-da yuxarıda göstərilən evə erməni əsgərləri soxuldular, mənim ərim Məşədi Əbdül Hacı İmam oğlunu, 76 yaş-

lı, bacımın əri Rüstəm Ələkbər oğlunu öldürdülər, ərimin cibindən 1270 rublu götürdülər, məni isə əsir apardılar. Ondan əvvəl mənzilimi 1872 rubl məbləğində qarət etdilər. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 72.**

## Sənəd № 484

***Dindirmə protokolu***

*1918-ci il, 9 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Səadət Nəcəf Qulu qızı, 80 yaşım var, Bakıda, Azovski döngəsi, 2 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı mənim oğlum Zeynal Həsən oğlu öldürülmüş və siyahıda göstərilən 22.200 rubl məbləğində əmlakımız qarət edilmişdir.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 182.**

## Sənəd № 485

***Dindirmə protokolu***

*1918-ci il, 9 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Səriyyə Məmməd Əli qızı, 30 yaşım var, Bakıda, Azovski döngəsi, 5 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim ərim Gülməmməd Mahmud oğlunu yaralamış, oğlum Mahmud Gülməmməd oğlunu öldürmüşlər; bu zaman bizim evdən siyahıda göstərilən və 52.650 rubl məbləğində əmlakımızı aparmışlar.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 182.**

## Sənəd № 486

***Dindirmə protokolu***

*1918-ci il, 11 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əminə Xanım Heybət qızı, 45 yaşım var, Bakıda, Azovski döngəsi, 12 №-li evdə yaşayıram.**

Mart qırğınları zamanı ermənilər mənim oğlumu, 18 yaşlı Gülmirzə Allahverdi oğlunu öldürüblər, mən isə kor olmuşam. Bundan əlavə, ermənilər mənim köhnə qiymətlərlə 24.000 dəyərində əmlakımı qarət ediblər. Oğurlanmış əmlakın siyahısını və qiymətlərini təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Hazırda mənim əmlakımın qiyməti 73.200 rubl edir və bu məbləğin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 165.**

## Sənəd № 487

*Dindirmə protokolu*

*1918-ci il, 17 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Səlminaz Əli Məmməd qızı, 54 yaşım var, Bakıda, Azovski döngəsi, 9 №-li evdə yaşayıram, savadsızam.**

Bu il mart ayının 19-da erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim oğlum, 22 yaşlı Abbasqulu Məşədi Əli oğlunu öldürdülər, mənzilimi isə 1939 rubl 50 qəpik məbləğində qarət etdilər. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 6.**

## Sənəd № 488

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Fatma Cavad qızı, 60 yaşım var, Bakıda, Melniçnaya küçəsində, şəxsi evimdə yaşayıram.**

Bakıda 1918-ci il mart qırğınları zamanı mən öz evimdə idim və sobada olan çörəyi bişməmiş ataraq evimin arxa divarından qaçmağa məcbur olmuşdum. Divarı müsəlman-kişilər yarmışdılar. Mənim evim ermənilər tərəfindən qarət edilmiş və 24.000 rubl məbləğində əmlakım aparılmışdır. Mənim oğurlanmış əmlakımın qiyməti indi 72.000 rubl təşkil edir. Bu məbləğin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. Savadsızdır.
Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 76.**

## Sənəd № 491

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Umu Cəhnə Bəyəli qızı, 40 yaşım var, Bakıda, Melniçnaya küçəsində, şəxsi evimdə yaşayıram.**

Bakıda 1918-ci il mart qırğınları zamanı biz ermənilər tərəfindən öldürülməkdən yalnız ona görə xilas olduq ki, ərlərimiz evin arxa divarını yardılar və biz təhlükəsiz yerə qaçmağa macal tapdıq. Mənim evim və əmlakım qarət olunmuşdur. Mən oğurlanmış əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mənim oğurlanmış əmlakımın ümumi qiyməti 24.000 rubl idi, indiki qiymətlərlə mənim əmlakımın dəyəri 72.000 rubldan az deyildir. Bu məbləğin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. Savadsızdır. Onun yerinə imzaladılar: İmza.
Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 76.**

## Sənəd № 493

*Dindirmə protokolu*

*1918-ci il, 9 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xanım Atakişi qızı Vəlixanova, 35 yaşım var, Bakı şəhərinin sakini, Bolşaya Morskaya küçəsində, 12 №-li evdə yaşayıram.**

Mart ayında ermənilər mənim gözümün qabağında mənim ərim Əlağanı və qaynım Balağanı öldürdülər. Məni ona görə öldürmədilər ki, ruslar məni müdafiə etdi və öldürməyə qoymadılar. Qətldən sonra həmin bu ermənilər, mən onları tanımıram, bizim evimizi qarət etdilər və təqdim etdiyim siyahıda göstərilən əşyalarımızı apardılar. Onların siyahısının işə əlavə olunmasını xahiş edirəm. Mənə vurulan zərərin miqdarı – 10.900 rubldur.

İfadə oxundu. Savadsızdır.

Komissiyanın sədri: Ə.Xasməmmədov (imza).

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 96.**

## Sənəd № 494

***Dindirmə protokolu***

*1918-ci il, 11 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Asiya Mikayıl qızı, 60 yaşım var, Bakı şəhərinin sakini, Bakıda, Bolşaya Morskaya küçəsi, 84 №-li evdə yaşayıram.**

1918-ci il martın 19-da erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim ərimi, 70 yaşlı Əsəd Qəhrəman oğlunu və əmim oğlu, 30 yaşlı Qədəş Heybət oğlunu öldürdülər. Sonuncunu erməni əsgərləri xəncərlə qətlə yetirdilər. Demək olar ki, bütün qonşularımızı, müsəlman kişi, qadın və uşaqları ermənilər öldürürdülər. Məni əsir apardılar və mənzilimi qarət etdilər. Ermənilər bütün qonşuların mənzillərini qarət edirdilər və əşyaları avtomobillərdə aparırdılar. Apara bilmədikləri hər şeyi ermənilər sındırır və dağıdırdılar. Mənə 15.250 rubl məbləğində zərər vurulmuşdur. Ermənilər tərəfindən oğurlanan əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 151**

## Sənəd № 495

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Nursəba Novruz qızı, 40 yaşım var, Qala kəndinin sakiniyəm, Bakıda, Bolşaya Morskaya küçəsi, 165\62 №-li evdə yaşayıram, savadsızam.**

Bu il martın 19-da səhər tezdən erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim ərimi, 60 yaşlı Baqi Qəhrəman oğlunu və mənim oğlumu, 22 yaşlı Heydəri öldürdülər. Ermənilər onları küçəyə çıxardılar və evin qabağında öldürdülər. Məni və mənim azyaşlı uşaqlarımı əsir apardılar, amma ondan əvvəl evimi qarət etdilər. Ermənilər əşyaları avtomobillərdə aparırdılar. Mənim evimdən ermənilər 17.000 rubl nağd pul, 20.000 rubl məbləğində qızıl əşyaları və 20.000 rubl məbləğində paltar, kostyum və s. apardılar. Oğurlanmış əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 151.**

## Sənəd № 496

*Dindirmə protokolu*

*1918-ci il, 7 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məsmə Xanım Xanı qızı, Bakıda, Bolşaya Morskaya küçəsi, 89 №-li evdə yaşayıram, 47 yaşım var, savadsızam.**

1918-ci ilin mart ayında bizə əvvəlcə 9 silahlı erməni gəldi və tüfənglə anam Seyid xanımı, yaşlı qadını, qoca atamı - Xanı kişini, qardaşım Xə-

lili və 18 yaşlı oğlum Əli Abbası öldürdülər. Bir az keçdikdən sonra başqa 11 nəfər ermənilər gəldilər, ərizəmdə göstərdiyim əşyalarımı - 22.250 rubl dəyərində, götürdülər, məni isə əsir apardılar. Əsirlikdə məni və digər müsəlman qadınları ələ salaraq bizim kişilərimizin və valideynlərimizin harada olduğunu soruşurdular.

Oxundu. Savadsızdır.

Fövqəladə Təhqiqat Komissiyasının sədri:

Ələkbər bəy Xasməmmədov (imza).

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 150.**

## Sənəd № 499

***Dindirmə protokolu***

*1918-ci il, 10 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Dost Xanım Əli qızı, 10 yaşım var, Bakı şəhərində, Bolşaya Morskaya küçəsində, 12 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim anamı Um Xanım Nadir qızını və qardaşım Bəymirzə Əli oğlunu öldürmüşlər və bizim mənzilimizi qarət etmişlər. Bu zaman təqdim edilən siyahıda göstərilən və dəyəri köhnə qiymətlərlə 9750 rubl, indiki qiymətlərlə isə təxminən 30.000 rubl olan əşyalarımızı aparmışlar.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 120.**

## Sənəd № 500

*Dindirmə protokolu*

*1918-ci il, 18 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Nisə Xanım İmam Əli qızı, 35 yaşım var, Bakı şəhərində, Bolşaya Morskaya küçəsində, 87 №-li evdə yaşayıram. Savadsızam.**

Bu il martın 19-da erməni əsgərləri göstərilən evə soxuldular, mənim 40 yaşlı ərim İsrafil Cəfər Qulu oğlunu öldürdülər və təqdim edilən siyahıda göstərilən və dəyəri 90.100 rubl olan əmlakımızı apardılar. Bundan başqa, mənim ərimin cibindən 800 rublu çıxardılar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 23.**

## Sənəd № 501

*Dindirmə protokolu*

*1918-ci il, 18 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Balaxanım Kərbəlayı Hadı qızı, 28 yaşım var, Bakıda, Bolşaya Morskaya küçəsi, 91 №-li evdə yaşayıram. Savadsızam.**

Bu il martın 19-da erməni əsgərləri göstərilən evə soxuldular, mənim atamı, 45 yaşlı Kəblə Hadı Mövsüm oğlunu və ərimi, 26 yaşlı Abbas Bayram Əli oğlunu öldürdülər, ərimin cibindən 39.100 rublunu çıxardılar. Qarət olunmuş əmlakımın siyahısının işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 23.**

## Sənəd № 506

*Dindirmə protokolu*

*1919-cu il, 16 yanvar, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Gülbacı Rəcəb Əli qızı, 46 yaşım var, Bakıda, Malaya Morskaya küçəsi, 2 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim oğlanlarım Bala Kərimi və Məmməd Hüseyni, gəlinimi və iki nəvəmi öldürmüşlər, sonra isə bütün mənzili qarət etmişlər. 62.720 rubl dəyərində qarət olunmuş əmlakımın siyahısını təqdim edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 29.**

## Sənəd № 510

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Bida Bədir qızı, 25 yaşım var, Bakıda, Budaqovskaya küçəsi, 119 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim evimə basqın etdilər və təpiklərlə mənim bir yaşlı uşağımı – Ağəli Bəyəli oğlunu öldürdülər. Mənim təqdim etdiyim siyahıda göstərilən 17.000 rubl dəyərində əmlakımı qarət etdilər.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 183.**

## Sənəd № 512

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xanım Mir Nəsrulla qızı, 35 yaşım var, Bakıda, Yenox-Budaqovskaya küçəsi, 99 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim oğlum Abbas Heydər oğlunu öldürmüş və mənim təqdim etdiyim siyahıda göstərilən 3525 rubl dəyərində əmlakımı qarət etdilər.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 181.**

## Sənəd № 513

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Çimnaz Xanım Qədir qızı, 19 yaşım var, Bakıda, Budaqovskaya küçəsi, 119 №-li evdə yaşayıram.**

Bu ilin martında ermənilər mənim ərim Mirzə Əli Əli oğlunu öldürdülər və təqdim etdiyim siyahıda göstərilən 11.920 rubl dəyərində əmlakımı qarət etdilər.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 183.**

## Sənəd № 514

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Bənzər Sübhan qızı, 55 yaşım var, savadsızam, Bakıda, Budaqovskaya küçəsi, 83 №-li evdə yaşayıram.**

Bakıda mart qırğınları zamanı ermənilər mənim ərim, 65 yaşlı Abbasqulu Novruz oğlunu öldürdülər və mənim ümumilikdə 12.000 rubl dəyərində olan əmlakımı qarət etdilər. Təqdim etdiyim siyahının işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 183.**

## Sənəd № 515

*Dindirmə protokolu*

*1919-cu il, 8 aprel. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Anna Jumat qızı, 20 yaşım var, Bakı şəhərində, Bibiheybətdə, Məmməd Bağırbəyovun evində yaşayıram, müsəlmanam, savadsızam.**

Mənim ərim Allahverdi Nəsrulla oğlu Bibiheybətdə “Mantaşevin” mədənlərində işləyirdi. 1918-ci il mart hadisələri zamanı o, evdən çıxmış və daha geri qayıtmamışdır. Mənim onun haqqında heç bir məlumatım yoxdur. Güman edirəm ki, o, həmin vaxt ermənilər tərəfindən öldürülmüşdür, lakin məhz kimin tərəfindən, deyə bilmərəm. Elə həmin vaxt, mən evdən qaçdığım zaman, ermənilər tərəfindən bizim bütün ev avadanlığımız, əyin paltarlarımız, yataq, qab-qacaq və s. qarət edilmişdir. Bütün

oğurlanmış əşyalar keçən ilki qiymətlərlə 16.200 rubl dəyərində idi. Əlavə deməyə sözüm yoxdur.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 43.**

## Sənəd № 516

### *Dindirmə protokolu*

*1918-ci il, 11 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mina Şahbaz qızı Abdulova, 50 yaşım var, Bakı şəhəri, Krasnovodskaya küçəsi, 98 №-li evdə yaşayıram.**

Mart qırğınlarının ikinci günü bizim evimizə erməni əsgərləri gəldi və oğlum Əli Hüseyn Paşa oğlunu hər iki qolunu biləkdən yaralayaraq ömürlük şikəst qoydular, bizim həyətdə olan 6 yaşlı oğlan uşağını və 7 yaşlı qızı qətlə yetirdilər. Sonra bizi şəhər nəqliyyatının həyətinə əsir apardılar, evimizi isə qarət etdilər və yandırdılar. Bizi əsirlikdən azad etdikdən sonra yalnız oğlanın və qızın kömür kimi qaralmış sümüklərini tapa bildik.

Təqdim edilən və qarət edilmiş əşyaların sadalandığı ərizə Əli Hüseynin adından yazılıb. Bizə vurulan ziyan 32.000 rubla bərabərdir.

Oxundu. Savadsız olduğuna görə Ağa Hüseyn Abdulov imzalamışdır (imza).

Komissiya üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 142.**

## Sənəd № 517

*Dindirmə protokolu*

*1919-cu il, 22 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Tükəzban Qurban Əli qızı, 40 yaşım var, Bakıda, Krasnovodskaya küçəsi, 98 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı erməni əsgərləri mənim qardaşım Atamoğlan Qurbanəli oğlunu və onun oğlu Mirzə Ağanı öldürdülər və onların təqdim olunan siyahıda göstərilən əmlakını qarət etdilər. Əmlakın qiyməti 31.675 rubl idi.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 29.**

## Sənəd № 518

*Dindirmə protokolu*

*1918-ci il, 10 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Bikə Hacı Tağı qızı, 39 yaşım var, Bakı şəhərində, Balaxanskaya küçəsi, 70 №-li şəxsi evimdə yaşayıram, savadsızam.**

Mart hadisələri zamanı silahlı ermənilər məni və Balaxanskaya küçəsində yaşayan başqa müsəlman qadınları əsir apardılar və üç gündən sonra mən azad edildikdə, evə gələrək gördüm ki, evim tamamilə qarət edilmişdir; ermənilər ev əşyalarını – məs. xalçaları, qızıl şeyləri, ərzaq məhsullarını, qənd, un və s. , ümumilikdə 40.000 rubl məbləğində – aparmışlar və bu məbləğin ödənilməsini xahiş edirəm.

Bundan sonra biz Şamaxı qəzasının Mərəzə kəndinin yolu ilə gedərkən,

molokanlar bizi saxladılar və 21 gün əsir qaldıq Yalnız Bakı şəhərində Mir Həsən Vəzirov[93] adlı birisi işə qarışandan sonra biz azad edildik. Bununla belə Stepan Lalayev və Əmirovun başçılıq etdiyi ermənilər 73 nəfər kişini qətlə yetirdilər. Mənim qohumum doktor Məmməd Tağı Tağıyevi ermənilər Bakıda öldürmüşlər.

İfadə oxunmuşdur. Savadsızdır.

Fövqəladə Təhqiqat Komissiyasının sədri: Ələk. Xasməmmədov (imza).

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 126.**

## Sənəd № 522

***Dindirmə protokolu***

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

***Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:***

**Sona Həbib bəy qızı Mahmudbəyova, 18 yaşım var, Bakı şəhərində, Zavedenskaya küçəsi 27 №-li evdə yaşayıram, savadlıyam.**

Artıq bitməkdə olan bu ilin mart ayında ermənilər şəhəri, o cümlədən bizim küçəni – Şaxskaya – pulemyotlardan və s. bombalamağa başladılar. Bu vaxt mən və mənim valideynlərim başqa müsəlmanlar kimi öldürülə biləcəyimizdən qorxaraq, evimizi qoyduq və Nijnyaya-Priyutskaya küçəsinə qaçdıq. Ermənilər o vaxt bizim evimizi qarət etmiş və əmlakımızı oğurlamışdılar. Həmin əmlakın siyahısını təqdim edirəm. Bizim evimizi qarət edən erməniləri qonşularımız, eləcə də dayım Məşədi Əli Atakişiyev və ev qulluqçumuz Olqa Poluxina görmüşlər. Olqa hazırda Bakıdan çıxıb getmişdir, bəlkə də o, Bakıdadır, lakin mən onun ünvanını bilmirəm. Mənim atam, Həbib bəy[94], xəstədir və Sizin yanınıza gələ bilmir. Mən evin böyüyüyəm. Ümumiyyətlə bizim evdən yeni qiymətlərlə 58.152 rubl məbləğində əşyalar oğurlanmışdır.

İfadə oxunmuşdur. Savadlıdır. Mahmudbəyova Sona. İmza.

Komissiya üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 178.**

## Sənəd № 528

*Dindirmə protokolu*

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Şahzadə Mirzəli qızı, 45 yaşım var, Bakıda, 6-cı Parallelnaya küçəsində yaşayıram.**

Ermənilər mənim ərimi və oğlum Əli Mirzəni öldürdülər, sonra evi 16.800 rubl məbləğində, eləcə də onun dükanını qarət etdilər. Əmlakın siyahısını təqdim edirəm.

Oxundu. Savadsızdır.

Fövqəladə Təhqiqat Komissiyasının sədri: Ələk. Xasməmmədov (imza).

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 94.**

## Sənəd № 530

*Dindirmə protokolu*

*1918-ci il, 14 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Həcər Xanım Məmməd Cəfər qızı, 60 yaşım var, Bakıda, şəhəri, 10-cu Parallelnaya küçəsi, 20 №-il evdə yaşayıram, savadsızam.**

1918-ci il mart ayının 19-da erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim ərimi, 70 yaşlı Turab Nadir oğlunu öldürdülər və mənim mənzilimi oğurlanan əmlaka dair təqdim etdiyim siyahıda göstərilən məbləğdə qarət etdilər.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 199.**

## Sənəd № 531

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Həcər Xanım Axundova, 40 yaşım var, Bakıda, Verxne-Kladbişenskaya küçəsi, 53 №-il evdə yaşayıram.**

Martda, bazar ertəsi, ayın 19-da ermənilər tərəfindən mənim ərim Əlağa Axundov öldürülmüşdür. Elə o vaxt bizim mənzilimizi qarət etmiş və təqdim etdiyim siyahıda göstərilən əmlakımı – köhnə qiymətlərlə 10.400 rubl, yeni qiymətlərlə 30.000 rubl dəyərində, - aparmışlar.

Mart ayında mənim 19 yaşlı oğlum Ağa Hüseyn itmişdir və indiyə kimi tapılmamışdır.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 144.**

## Sənəd № 533

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Səkinə Xanım Məşədi Məmməd Bəkir qızı, 32 yaşım var, Bakıda, İçəri şəhər Qalasında, Sretenski döngəsi, 22 №-il evdə yaşayıram.**

Mart hadisələri zamanı erməni əsgərləri mənim ərim Məşədi Əyyub Ələkbərovun yorğan-döşək mağazasına basqın etdilər, ərimi öldürdülər və mağazanı qarət etdilər; bu zaman 10.000 rubl məbləğində əşyalar və döşəklər oğurlanmışdır.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 179.**

## Sənəd № 539

***Dindirmə protokolu***

*1918-ci il, 14 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hörmət Ağagül qızı, 35 yaşım var, Bakı şəhəri, Vasilyevski döngəsi, 15 №-il evdə yaşayıram, savadsızam.**

Bu ilin mart ayının 20-də mənim mənzilimi 9290 rubl dəyərində qarət etmişlər. Qarət edilmiş əşyaların siyahısını təqdim edirəm. Mən ərimlə və oğlumla birlikdə qaçırdım, lakin ermənilər küçədə bizi tutdular, 40 yaşlı ərim Əli Qulu Əzim oğlunu və 19 yaşlı oğlum Məşədi Əbdül Əzim oğlunu öldürdülər, məni və qızımı isə əsir götürdülər, həm də 9 yaşlı qızım İzzəti qolundan yaraladılar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 199.**

## Sənəd № 540

***Dindirmə protokolu***

*1918-ci il, 14 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Həmşə Qafar qızı, 37 yaşım var, Bakıda, Vasilyevski döngəsi, 18 №-il evdə yaşayıram, savadsızam.**

Bu il mart ayının 19-da erməni əsgərlər yuxarıda göstərilən evə soxul-

dular, mənim iki oğlumu – 25 yaşlı Abbasqulu Əmi Baba oğlunu və 22 yaşlı Cəfərqulu Əmi Baba oğlunu öldürdülər, mənim mənzilimi 10.020 rubl məbləğində qarət etdilər.

Qarət olunmuş əmlakımın siyahısının işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 24.**

## Sənəd № 542

***Dindirmə protokolu***

*1918-ci il, 5 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Umnisə Hacı Zeynal Abdin qızı, Bakı sakini, 28 yaşım var, Verxnyaya-Naqornaya küçəsi, 193 №-il evdə yaşayıram, savadsızam.**

Bu il mart ayının ortalarında, barışıq bağlanandan sonra, mən ərim və uşaqlarımla bərabər Bakı şəhərindən Fatmayı kəndinə qaçırdım, yolda silahlı ermənilər bizi saxladılar və köhnə qiymətlə 2000 rubl dəyərində olan, təqdim etdiyim siyahıda göstərilən bütün əşyalarımızı, sırğa və başqa zinət əşyalarını, əlimizdən aldılar.

Bir neçə gündən sonra mənim ərim, qardaşım və qardaşım oğlu şəhərə qayıtdılar. Mənim ərim Məşədi Hacı Ağa Əbdül Qədir oğlunu və qardaşım oğlanları – İbadulla Abdulla oğlunu və Əmirulla Abdulla oğlunu, eşitdiyimə görə, ermənilər öldürmüşlər. Ermənilər mənim 850 rubl pulumu götürmüşlər.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 105.**

## Sənəd № 543

***Dindirmə protokolu***

*1919-cu il, 11 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ayna Xanım Rəsul qızı, 40 yaşım var, Bakıda, Ermənikəndin yanında yaşayıram.**

1918-ci il martında ermənilər mənim ərim Kərbəlayı Əbini öldürdülər və təqdim etdiyim siyahıda göstərilən əmlakımı qarət etdilər. Mənə ümumilikdə, 10.000 rubla yaxın ziyan vurulmuşdur.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 12.**

## Sənəd № 544

***Dindirmə protokolu***

*1919-cu il, 15 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Asiya Mirzə qızı, 50 yaşım var, Bakıda, Yuryevskaya küçəsi, 51 №-il evdə yaşayıram.**

1918-ci il martında ermənilər nəmin oğlum Xəlil Ağamalı oğlunu öldürmüşlər və mən indi tamamilə vəsaitsiz qalmışam. Mənim 10.000 rubl məbləğində qızıl əşyalarımı və ev avadanlığımı aparıblar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 12.**

## Sənəd № 545

*Dindirmə protokolu*

*1919-cu il, 27 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

Ziba Məmməd Bağır qızı, 28 yaşım var, Bakıda, 6-cı Nikolayevski döngəsi, dalan № 2, 8 №-il evdə yaşayıram.

Keçən ilin martında ermənilər mənim ərim Məmməd Rza Sadıq oğlunu yaraladılar və mənim təqdim etdiyim siyahıda göstərdiyim əşyalarımı apardılar. Mənə ümumilikdə, 32.300 rubl məbləğində zərər vurulmuşdur.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 48.**

## Sənəd № 546

*Dindirmə protokolu*

*1919-cu il, 28 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Züleyxa Xosrov qızı, 30 yaşım var, Bakıda, 1-ci Razyezdnaya küçəsi, 71 №-il evdə yaşayıram.**

1918-ci il martın ortalarında, deyəsən bu, martın 19-da baş vermişdi, erməni əsgərləri yuxarıda göstərilən evə soxuldular, mənim ərim Əhəd Rəhman oğlunu, 50 yaşında, öldürdülər, öldürməmişdən əvvəl onun 2500 rubl pulunu və 2200 rubl dəyərində qızıl zəncirli qızıl saatını götürdülər. Erməni əsgərləri ərimin qardaşını, 30 yaşlı Yunusu da qətlə yetirdilər.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 50.**

## Sənəd № 549

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Zeynəb Əli qızı, 65 yaşlı, Bakı, Kisenevskaya (Kseniyevskaya) küçəsi, № 12, Səfixan Qasımovun evi, savadsızdır.**

Bu il mart ayının 19-da səhər tezdən erməni əsgərləri bizim hissəyə hücum etməyə başladılar. Mən qaçmağa macal tapdım, amma mənim ərimi, 80 yaşlı Dadaş Şəfi oğlunu erməni əsgərləri öldürdülər. Onlar mənim mənzilimi 18.600 rubl məbləğində qarət etdilər. Əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR PİI SSA, f. 277, s. 2, iş 14, v. 66.**

## Sənəd № 553

*Dindirmə protokolu*

*1918-ci il, 26 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ziyarət Xanım Zülfəli qızı , 45 yaşım var, savadsızam, Bakı şəhəri, Qoqolevskaya küçəsi, 83 №-il evin sakiniyəm, daimi olaraq isə Bakı quberniyasının Binəqədi kəndində yaşayıram.**

Bu ilin sentyabrında ermənilər Binəqədidə müsəlman kəndlilərini, o cümlədən mənim 6 nəfər qohumumu, yəni 2 uşaq, 2 qadın və 2 kişini xəncərlə doğramışlar. Bundan əlavə ermənilər ümumi dəyəri 28.800 rubl olan əmlakımı qarət etmişdilər. Oğurlanmış əmlakın siyahısının işə əlavə olunmasını xahiş edirəm. Qatillərin adını bilmirəm.

Oxundu. Ziyarət Xanım Zülfəli qızı. Savadsızdır.
Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 78.**

## Sənəd № 554

*Dindirmə protokolu*

*1919-cu il, 20 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ədəybanu Ağarza qızı, Balaxanı kəndinin sakiniyəm (4-cü polis sahəsi), qardaşım Əli Heybət Ağa Rza oğlunun evində yaşayıram.**

1918-ci ilin sentyabrının əvvəlində erməni dəstələri Balaxanıya basqın edərkən, ermənilərin müsəlmanlara qarşı vəhşi münasibətlərindən xəbərdar olan müsəlmanlar Balaxanı kəndini tərk etdilər. Müsəlmanlar Balaxanı kəndindən qaçarkən, ermənilər mənim ərim Əli Hacı Baba oğlunu öldürdülər, bizim ümumilikdə 52.400 rubl dəyərində olan bütün əmlakımızı isə ermənilər qarət etdilər. Qarət edilmiş əşyaların siyahısını işə daxil etmənizi xahiş edirəm.

Oxundu. Savadsızdır.
Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v.79.**

## Sənəd № 557

*Dindirmə protokolu*

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Qızılgül Zərbalı qızı, 35 yaşlı, Bakı şəhərinin sakini, Ramana kəndində, 13 №-il evdə yaşayıram.**

Mart ayında, ermənilər bizim müsəlmanlara qarşı silahlı çıxış edəndə mən də onların zorakılıqlarının qurbanı oldum. Mənim 10 yaşlı oğlum qorxudan öldü. Mən qaçdım, onlar isə məni 8635 rubl məbləğində qarət etdilər. Əmlakımın siyahısını təqdim edirəm.

İfadə oxundu.

Fövqəladə Təhqiqat Komissiyasının sədri: Ələk. Xasməmmədov (imza).

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 92.**

## Sənəd № 559

*Dindirmə protokolu*

*1918-ci il, 17 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xanımana Hacı Əmrah qızı, 50 yaşlı, Ramana kəndinin sakini, elə orada yaşayıram.**

Bu il sentyabr ayının ortalarında erməni əsgərləri Ramana kəndinə girdilər və mənim evimi 40.865 rubl məbləğində qarət etdilər. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mən qaçmağa macal tapdım, amma mənim ərim Ramanada qaldı, və ermənilər ona nə etdilər, mən indiyədək bilmirəm. Çox güman ki, erməni əsgərləri onu öldürmüşlər.

Oxundu. Savadsızdır.
Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v.79.**

## Sənəd № 561

*Dindirmə protokolu*

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Durna Hacı Gülmirzə qızı, 28 yaşlı, Ramana kəndinin sakiniyəm, elə orada yaşayıram.**

Erməni əsgərləri geri çəkilərkən Ramana kəndinə girdilər, mənim ərim Yəhya Bala Şahbaz oğlunu öldürdülər və mənim evimi və mənzilimi 11.000 rubl məbləğində qarət etdilər. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.
Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v.25.**

## Sənəd № 565

*Dindirmə protokolu*

*1918-ci il, 23 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Sona Eyvaz Əli qızı, 32 yaşlı, Bakı qəzası, Ramana kəndində yaşayıram.**

Sentyabr ayında ermənilər bizim evə soxuldular, mənim ərim Nağdəli İsgəndər oğlunu öldürdülər və mənim təqdim etdiyim ərizədə sadaladığım

əşyalarımızı apardılar. Bizə 15.933 rubl məbləğində zərər vurulmuşdur.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 183.**

## Sənəd № 566

***Dindirmə protokolu***

*1918-ci il, 26 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Şəpi Kərbəlayı Zərbəli qızı, 40 yaşlı, Ramana kəndində 343 №-il evdə yaşayıram.**

Bu ilin sentyabrında Ramana kəndində ermənilər mənim ərimi, 60 yaşlı İmam Məmmədi öldürdülər və mən 11 yaşlı oğlum Əmir Hacı ilə qaldım. Ermənilər tərəfindən bizim əmlakımız qarət edilmişdir və onların siyahısını işə əlavə etməyi xahiş edirəm. Əmlakımızın 19.805 rubl dəyəri var idi.

Oxundu. Şəpi Kərbəlayı Zərbəli qızı. Savadsızdır.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 77.**

## Sənəd № 567

***Dindirmə protokolu***

*1919-cu il, 24 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Gövhər Nuru qızı, 30 yaşlı, Ağamalı Niftəli oğlunun dul arvadı, Sabunçu-Balaxanı Polismeysterliyi, 2-ci polis sahəsi, Ramana kəndinin sakiniyəm, elə orada, 13 №-il evdə yaşayıram.**

1918-ci ilin sentyabrında, erməni əsgərləri Ramana kəndinə hücum

edəndə, mən rəhmətlik ərim Ağamalı və uşaqlarımla birlikdə Maştağa kəndinə qaçmaqla xilas olduq. Biz orada çox əziyyətlərə düçar olduq və mənim ərim xəstələnərək öldü. Mən əlimdə azyaşlı uşaqlarla binəsib dul qaldım: ermənilər bizim 10.650 rubl məbləğində (yeni qiymətlə) bütün əmlakımızı qarət etmişlər. Oğurlanmış əmlakımızın siyahısını işə əlavə etməyinizi xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge, (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 86.**

# FƏSİL III

## MÜXTƏLİF MİLLƏTLƏRDƏN OLAN BAKI SAKİNLƏRİNİN VƏ XARİCİ VƏTƏNDAŞLARIN ŞAHİD İFADƏLƏRİ

## Sənəd № 568

*Dindirmə protokolu*

*1919-cu il, 1 yanvar. Bakı şəhəri.*

*Fövqəladə Təhqiqat Komissiyasının üzvü Novatskinin Cinayət Prosessual Məcəlləsinin 443-cü maddəsinə uyğun olaraq şahid qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mən, Aleksandr Naumoviç Kvasnik, Bakı şəhəri, Serkovnaya küçəsi, 138 №-li evdə yaşayıram, yəhudiyəm, həddi-buluğa çatmışam.**

1918-ci ilin mart ayının 17-dən 21-dək olan müddət ərzində Bakı şəhərində baş vermiş hadisələr haqqında aşağıdakıları deyə bilərəm.

Bu ilin 17-21 mart tarixlərində Bakı şəhərində baş vermiş hadisələrə təmiz vicdanla belə ad vermək lazımdır: "Müsəlmanların fiziki olaraq məhv edilməsi, bütün əmlakının mənimsənilməsi və onların bütün rifahının və siyasi üstünlüyünün ermənilərin əlinə keçməsi məqsədilə, əvvəlcə Bakı şəhərində, sonra isə ucqarlarda erməni əhalisinin müsəlman əhalisinə qarşı təşkil edilmiş qanlı sui-qəsdi".

18-21 mart hadisələrinədək bu iki xalq arasında münasibətlər qənaətbəxş idi və ildən-ilə yaxşılaşırdı. Son 12-15 il ərzində onların qarşılıqlı münasibətini heç nə pozmamışdı. Həmçinin, onların maddi maraqları da toqquşmurdu, çünki müsəlman əhalisi əsasən əkinçilik sahəsində üstünlük təşkil edir, ətraf kəndlərdən insaflı qiymətə kənd təsərrüfatı məhsullarını gətirir, şəhərdə isə elə də böyük olmayan hüdudlarda ticarət və sənaye ilə məşğul olurdu, yəni, Bakıda müsəlmanların sayca üstünlük təşkil etdiyi hesaba alınmaqla, müsəlman tacirlərin faizi ermənilərin faizindən aşağı idi. Müsəlmanların ziyalı təbəqəsinə gəldikdə isə, o, son dərəcə kiçik və cüzidir. Ermənilər isə əksinə, ziyalı - peşəkarların böyük hissəsini təşkil edir və tədricən müəssisələrdə, şirkətlərdə, şəhər institutlarında və s. bütün yerləri tuturlar.

Məsələn, Bakı Neft Sənayeçilərinin Qurultayı Şurası[95] bütünlüklə ermənilərin əlinə keçmişdi, çünki, onun çoxsaylı müəssisələrində bütün yerlər erməni mühəndislər, həkimlər, kontorçular, hesabdarlar və digərləri tərəfindən tutulmuşdu. Beləliklə, burada üstün mövqe müsəlmanların özlərinin heç bir müqaviməti olmadan müsəlmanlardan ermənilərə keçmişdir, çünki müsəlmanların öz rəqibləri ilə rəqabət aparmaq iqtidarında olan şəxsi ziyalı peşəkarlar heyəti yox idi.

Lakin nə bu, nə də vəzifələrin tutulmasına bənzər digər hallar (şəhər ictimai özünüidarəetmə və digər müəssisələrdə) heç də onların qarşılıqlı münasibətlərini korlamamışdı, çünki müsəlmanlar üçün digər sahələrdə hələ kifayət qədər fəaliyyət sahəsi qalmışdı (gəmiçilik, İran və Orta Asiya ilə ticarət). Beləliklə, illər bu minvalla biri digərini əvəz edirdi, heç kim əvvəlcədən deyə bilməzdi ki, biz belə rüsvayçı hadisələrlə üzləşəcəyik.

Rus inqilabını Bakı şəhərinin bütün əhalisi ... sevinclə qarşılandı. Əgər bütün digər millətlər pis halda olan yerli bürokratiyanın zülmündən qurtarmaq və yaradıcı həyatın bütün sahələrində bərabərlik əldə etmək azadlığına sevinirdilərsə, ermənilər və müsəlmanlar bunlardan əlavə özlərinin milli dirçəliş azadlığına sevinirdilər. Onlar dərhal öz milli şuralarını təşkil etdilər, tezliklə milli dəstələr də yaranmağa başladı. Bütün bunlar "xalqların təyini-müqəddəratı" ruhuna da uyğun idi, odur ki, bu, onların arasında heç bir ixtilaf yaratmırdı, xüsusilə "ərazi münasibətlərində" onların maraqları toqquşmur. Lakin Rusiyada hadisələr son dərəcə sürətlə inkişaf etməyə başladı: aprel inqilabını iyun inqilabı, iyun inqilabını isə – oktyabr inqilabı əvəz etdi. Bolşevizm burada da peyda oldu. O, Tiflisdə möhkəmlənməyə cəhd etdi, lakin uğursuzluğa düçar oldu. Onda Şaumyan, Avakyan, Karqanyan və bolşevizmin digər liderləri öz fəaliyyət sahələrini Bakıya keçirdilər, İctimai Təşkilatların İcraiyyə Komitəsi, Şəhər İctimai Özünüidarəetmə və digər müəssisələrin işini sıfıra endirdilər, sonra isə onları tamamilə ləğv etdilər və öz "Mən"lərini üzə çıxardılar. Məlum oldu ki, bütün ermənilər bolşevik olmuşlar. Onlar tez bir zamanda erməni əhalisi, habelə rusların və digər millətlərin bəzi yuxarı təbəqələrini təbliğ edərək inandırdılar. Çox tezliklə aydın oldu ki, Fəhlə, kəndli, əsgər və matros deputatları Sovetinin İcraiyyə Komitəsi bütünlüklə ermənilərdən, təxminən (99%) ibarətdir.

Müsəlman əhalisi, bu şübhəli millətin hakimiyyəti ələ keçirməsi ilə onu gözləyən təhlükəni dərhal hiss etdi və bolşevizmdən, menşevizmdən və ümumiyyətlə, bütün çalarlarda sosializmindən üz döndərdi. Erməni kütləsini isə yaranmış vəziyyət şok halına gətirdi və o, Şaumyanı və digərlərini sevinclə qarşıladı, belə ki, onların simasında sanki öz gizli niyyətlərinin reallaşmasının – Bakıda hakimiyyətin hərtərəfli ermənilərin əlinə keçməsinin, Bakının ardınca isə digər yerlərdə də və bütün sahələrdə müsəlmanların sıxışdırılmasının təcəssümünü gördü. Lakin sonrakı hadisələr onların tamah və vəzifələrini daha da genişləndirdi

və onlar müsəlmanların fiziki cəhətdən məhv edilməsi barədə xəyallara düşdülər. Onlar 1905-ci ili xatırlayaraq, müsəlmanlara qarşı istədiklərini törədəcəkləri halda, o hadisələrin ermənilərin nöqteyi-nəzərindən, onlara bəraət kimi xidmət edəcəyini düşündülər. Ermənilər unudurdular ki, əgər onlar 1905-ci ildə zərər çəkmişdilərsə, bu məsələdə bütün bu çıxışları təşkil edən rus hakimiyyətini də, həmçinin digər iqtisadi, milli səbəbləri də müqəssir bilmək lazımdır. İstənilən halda o dövrdəki hadisələr indiki - heç bir səbəb, bəlkə də yalnız ermənilərin qaniçənliyi, kini, qəddarlığı və satqınlığından savayı, qəti olaraq heç nə ilə izah edilməyən 17-21 mart hadisələri ilə müqayisədə tamamilə solğun görünür,

Rusiyada bolşevizmin bərqərar olması ilə talanlar və qarşılıqlı qırğınlar başlayanda, bu özbaşınalıqların uzaq uğultusu burada, Bakıda da eşidildi. Təxminən yanvar ayından etibarən “hazırlanan hadisələr” haqqında şayiələr gəzməyə başladı. Bu şayiələr bizim üçün, dinc əhval-ruhiyyəli insanlar üçün tamamilə anlaşılmaz idi və çətinliklə ağla sığışırdı. Lakin tədricən bu şayiələr real formalar almağa başladı. Gecələr əvvəlcə tək-tək güllə səsləri, sonra isə bütün gecələr fasiləsiz atışmalar eşidildi. Silah tədarükünün görülməsinə başlandı və silahın qiyməti ağlasığmaz həddə yüksəldi. Məsələn, orta keyfiyyətli sistemə malik tüfəngə görə 2000 rubl, Naqan və ya Brauninq sistemli tapançaya görə isə daha çox pul ödəyirdilər. Artıq heç kim gecələr evdən çıxmağa cürət etmirdi, çünki bu həyat üçün təhlükə demək idi. Bu .... və atışmalar müsəlman əhalisini çıxış etməyə sövq etmək, dinc əhali arasında təşviş yaratmaq, eləcə də müsəlmanları şəhərin bitərəf əhalisinin gözündən salmaq məqsədilə təxribat xarakteri daşıyırdı. Beləliklə, son nəticədə tamamilə aydın oldu ki, bir neçə ay ərzində davam edən təxribat xarakterli atışmalar ermənilər tərəfindən müəyyən sistem üzrə şəhərin müxtəlif yerlərində həyata keçirilmişdir. Ermənilər şəhərdə söz buraxmağa başladılar ki, guya müsəlmanlar “şəhəri və Qafqazı ələ keçirmək” üçün yaxın vaxtlarda öz vəhşi diviziyası ilə qalan əhalini “qırmağa” başlayacaqlar. -“Hazırlaşın, silah ehtiyatı görün, çünki tezliklə tatarlar[96] qırğına başlayacaqlar və heç kimə rəhm etməyəcəklər; onlar əhalinin qalan elementlərindən azad olmaq istəyirlər və tezliklə çıxış edəcəklər”. Ermənilər bu yolla şayiələr yayır və bitərəf insanların beyninə həyəcan toxumu səpirdilər.

Bu vaxt isə erməni əhalisi var gücü ilə odlu və hətta soyuq silah ehtiyatı görürdü. Elə bir ev yox idi ki, orada ən azı 2-3 tüfəng və 2-3 revolver,

qılınc və odlu silah üçün sursat olmasın. Heç bir qiymət qarşısında dayanmırdılar, silahı Qafqaz cəbhəsini tərk edən rus əsgərlərdən alırdılar, digər yerlərdən gətizdirirdilər və ümumiyyətlə, mümkün olan hər yerdən əldə edirdilər. Bu sətirləri yazan bir neçə il ərzində erməni evlərinə gedib-gəlirdi və bütün bu tüfəng və revolverlərin və onlarla meydan oxumaqların qarşısında - yalnız heyrətini bildirirdi. Lakin cavab bir idi: "Tezliklə, çox tezliklə tatarlar gələcəklər və Sizi doğrayacaqlar və Siz bizim silah ehtiyatı görməyimizin səbəbini onda anlayacaqsınız, lakin artıq gec olacaq". - İzn verin, söyləyim ki, artıq mən uzun illərdir bu adamların arasında yaşayıram. Onlar yəhudilərlə mehriban dolanırlar, bizim aramızda heç bir anlaşılmazlıq yoxdur, onlar birdən-birə məni necə öldürə bilər. - "Bəli, biz deyəndir, görəcəksiniz. Onlar qalan əhalidən yaxa qurtarmaq və burada öz padşahlıqlarını yaratmaq istəyirlər". Bax, ermənilər, onların dediklərinə görə, qarşıdakı müsəlman çıxışlarını və ermənilərin niyə silah ehtiyatı gördüklərini bununla əsaslandırırdılar.

Bakı mətbuatı qəfildən əhalini gözləyən təhlükə haqqında danışmağa başladı. Mətbuat bu həyəcanlı əlamətlərə reaksiya verir və "bunun bizdən yan keçməsi üçün" uğurlu çıxış yolu axtarırdı. Artıq real forma daşıyan bu həyəcanlı şayiələri - milli zəmində qanlı çıxışlar haqqında şübhələri dağıtmaq üçün ümumxalq ibadət - mitinqləri təşkil etmək qərarına gəldilər ki, hər bir millət xalq kollektivi qarşısında dini-təntənəli şəraitdə öz daruni düşüncələrini büruzə verə bilsin. İlk ibadət mərasimi Aleksandr Nevski kilsəsində[97] keçirildi. Mərasimin keçirildiyi kilsənin həyəti sonsuz sayda adamlarla dolu idi, çünki dua edənlərin hamısının məbədin içinə sığışması mümkün deyildi. Müsəlmanlar xristianlarla birlikdə dua edirdilər. İncilin yanında Quran qoyulmuşdu. Müsəlmanlar "Allah" deyərək, haray və fəryadla üzü üstə düşür, sülhün göndərilməsi və Bakı şəhərində qan tökülməməsi üçün səylə dua edirdilər. Onlar açıq ürəklə və səmimi münasibətlə isti göz yaşları axıdır və hər hansı bir millətə qarşı heç bir kinli məqsəd və niyyətlərinin olmadığına and içirdilər. Məşhur Topçubaşovun[98] dili ilə "Yaşa və başqalarına yaşamağa imkan ver" şüarı elan edildi.

Sülhün faydası və qan tökülməsinin və düşmənçiliyin məhvedici olması mövzusunda bir çox çıxışlardan sonra, camaat evlərinə dağılışdı və sanki ürəklərdə bir yüngüllük yarandı. İkinci ibadət mərasimi "Təzəpir" məscidində keçirildi və daha təntənəli və səmimi olmaqla, heç bir məkrli niyyətlər güdməyərək yaxın gələcəyə müəyyən inamsızlıqla sirayətlən-

miş insanlara böyük yüngüllük gətirdi. Üçüncü ibadət mərasimi Parapetdəki erməni kilsəsində keçirilirdi. Erməni keşişlər yan qapıların ağzında duraraq, "imtiyazlı əhalini" içəri buraxır və müsəlmanlar qarşısında təzim edirdi, camaat isə kilsəyə giriş qapılarından daxil olurdu. Təntənə çox, lakin səmimiyyət az idi, ürəkaçıqlığı ondan da az idi. Xorun oxuması çox vaxt apardı. Müsəlmanların sayı çox idi, onlara iltifat edir, səcdəgaha yaxın və qabaq sıralarda yer göstərirdilər. Lakin ermənilərin gözlərində müsəlmanlara qarşı acı kinayə və istehza qarışıq nə isə sezilirdi. Uzun-uzadı oxuma bitdi. Nitqlər başlandı. Müsəlman mollalar hər çıxışdan qabaq dua edir, sonra isə öz nitqlərində, iki xalqın sülh içində yaşadığı, dövlətin eyni hüquqlu üzvləri kimi ümumdövlət işlərində dostcasına iştirak etdikləri uzaq işıqlı vaxtları xatırlayırdılar. Bu çıxışlardan çox fərəhləndirici təəssüratlar yaranırdı. Hər cür şübhələr itib gedirdi. Ermənilərin çıxışlarından və zəhərli baxışlarından isə belə alınmırdı.

Xarakteristika üçün Bakı şəhərinin köhnə sakini və ictimai xadimi olan hörmətli doktor Q.-nin mənə danışdığı sözləri misal gətirəcəyəm. Doktor Q., ictimai xadimlərin yığıncağında iştirak edirmiş və bu xadimlər arasında erməni X. da varmış. Saatını çıxararaq X. deyir: "Artıq saat 12-dir, mən gərək erməni kilsəsində barışıq haqqında ibadətə tələsim". Doktor Q: "Niyə tələsirsiniz?" – "Lazımdır. Əvvəlcədən bilirəm ki, bu komediyadan heç nə çıxmayacaq, amma hər halda fason üçün iştirak etmək lazımdır. Bundan heç nə alınmayacaqdır. Tam əminliklə söyləyirəm". Ermənilərin əsl astarı və qan tökülməsindən qurtulmağa qarşı münasibəti bax belə idi.

Əlamətdar hadisələr ərəfəsində ermənilərin ayrı-ayrı evlərdə, elə bil ki, mənzillər üzrə yığıncaqları keçirilirdi. Bu yığıncaqların təfərrüatını bilmirəm, amma mövzu eyni idi: hazırlaşmaq lazımdır, çünki çıxış etmək günü yaxınlaşır və indi bütün yığıncaq üzvləri fəal əməliyyatlar üçün bu barədə məlumatlandırılacaqdır. Mən özüm şəxsən 2 belə yığıncağın şahidi olmuşam. Yığıncaqların keçirildiyi bu evlərə mən artıq neçə illərdir ki, hər gün gedib-gəlirəm. Orada heç vaxt ictimai xarakterli yığıncaqlar olmurdu. Mən heyrətlə onlara baxaraq hansı məqsədlə toplaşdıqlarını soruşurdum, lakin onlar mənə cavab vermirdilər. Mən bütün bunlara şübhə ilə yanaşırdım, lakin anlaya bilmirdim. Sonralar, yalnız ev yiyələrindən biri ilə söhbətlərdən hər şey aydın oldu. Orada müzakirə edirdilər, və ya bəlkə də heç müzakirə etmirdilər, yekdilliklə qərara gəlmişdilər ki, müsəlmanların bolşeviklərə olan mənfi münasibətlərinə görə bolşeviklər

müsəlmanlara əyani dərs hazırlayırlar. Və odur ki, əvvəlcədən razılaşdırılmış şərti işarə əsasında ermənilər müsəlmanlara qarşı çıxış etməli və onlarla köhnə hesabların əvəzini çıxmalıdırlar. Bundan əlverişli imkan onların əlinə heç vaxt düşməyəcəkdir. Vuruşanlar bolşevik əsgərləri olacaq ki, onların arasında çoxlu ruslar vardır və bu zaman əsgər formasında olan, yaxud əsgər formasına oxşar paltar geyinmiş ermənilər onlara qarışa bilərlər və heç Allahın özü də baş aça, ya onları ayırd edə bilməz. Beləliklə, onlar öz qəddar işini görə biləcəklər, özləri isə kənarda qalacaqlar: "Onlarla biz yox, bolşeviklər vuruşub. Bunun bizə nə dəxli var". "Axı bolşeviklərin arasında istənilən elementlər vardır".

Əhalinin böyük hissəsinə qarşı sui-qəsd bax elə maskalanmışdı və guya ki, onu açmaq çətin idi. Lakin bütün bunlar necə deyərlər, "ağ saplarla tikilmişdi" və elə ilk andan Bakı şəhərinin müxtəlif tərkibli əhalisinə aydın oldu ki, bu cəhənnəm və rüsvayçılıq aktını qızışdıranlar və icraçıları kimdir. Artıq dediyim kimi, İcraiyyə Komitəsi başdan-ayağa ermənilərdən ibarət idi və beləliklə çıxış etmə vaxtını müəyyən etməli olan əsas aparat onların əlində idi. Bunun üçün bəhanə isə tezliklə tapıldı. Çıxışlar ərəfəsində Hacı Zeynalabdin Tağıyevin faciəli surətdə həlak olmuş oğlu dəfn edilirdi. Dəfndə həlak olana hərbi ehtiram bildirmək üçün müsəlman vəhşi diviziyasının bir hissəsi iştirak edirdi. Həmin dəstə Ənzəliyə üzüb getmək istədikdə, ona İcraiyyə Komitəsi adından ultimatum verildi - tərksilah olunmaq. Həm də dəstəyə düşünmək üçün 24 saat vaxt verildi. Bu, şənbə günü axşam baş vermişdi.

Həmin səbəbdən "İsmailiyyə"nin zalında mitinqlər başlandı. Deyirdilər ki, erməni hissəsini də tərksilah etmək lazımdır, hərçənd orada bir hissə yox, başdan ayağa bütün erməni əhalisi silahlanmışdı, lakin heç nə əldə bilmədilər. Bazar gününə keçən gecə Müsavatla Erməni Milli Şurası arasında müşavirə keçirildi və, deyildiyinə görə, lazım olduğu təqdirdə hakimiyyəti qəsb edənlərə - bolşeviklərə qarşı birgə çıxış etmək qərarına gəldilər. Lakin bu, yalnız ermənilərin tatarlar üçün qurduğu məkrli torlar idi. İcraiyyə Komitəsinin tərksilah olunmaq üçün müsəlmanlara verdiyi müddət sona çatırdı. Ermənilər müsəlmanların cüzi tərəddüdlərini belə diqqətlə izləyirdilər və bu əlverişli imkanı əldən verməməyə əvvəlcədən hazırlaşırdılar. Onlar bunun üçün zəruri olan hər şeyi edirdilər, onların başçıları isə fasiləsiz olaraq məşvərətlər keçirirdi. Müsəlmanların nümayəndələri, qan tökülməsinin qarşısını almaq məqsədilə bütün

güzəştlərə gedəcəklərini bildirmək üçün İcraiyyə Komitəsinə gəldiyi zaman, haradasa Şamaxinka tərəfdə gizlənən ermənilər tərəfindən təxribat məqsədli atəşlər açılmağa başladı, hətta, deyilənə görə, bolşevik patrullarından yaralananlar da olmuşdu. İcraiyyə Komitəsində müsəlmanlarla aparılan danışıqlar dərhal dayandırıldı, çünki telefonla xəbər verildi ki, müsəlman kütləsi artıq qalxmışdır və müharibə faktiki olaraq başlanmışdır. Heç bir dəlil kömək etmədi, çünki qurulmuş torlar son dərəcə incə idi və onları dərhal müəyyən etmək çox çətin idi. Beləliklə, müsəlman nümayəndələr evlərinə dağılışdılar və mart ayının 18-də, bazar günü saat 6-da şəhərin bütün küçələrində atışma və əsl müharibə başlandı.

Bu amansız gecə ərzində əhali böyük iztirablar keçirmişdi. Başlanan bu qırğının motivləri və əsl xarakteri ermənilərdən savayı hələ heç kimə məlum deyildi. Lakin ertəsi gün hər şey hamıya aydın oldu. Mən o zaman Qoqolevskaya və Tatarskaya küçələrinin arasındakı Serkovnaya küçəsində yaşayırdım. Mən səhər tezdən azacıq açılmış pəncərə taxtalarının arasından bu küçədə baş verən hadisələri müşahidə edirdim. Bir dəstə tatar onların üzərinə hücum etmiş dəstələrlə atışmaqla pis müdafiə olunurdu. Bu bolşevik dəstələrində müharibənin bütün qaydaları üzrə hücum edən cəbhədə vuruşmuş əsgərlər var idi. Onlar tatarlarla döyüşərkən ədalətli hərəkət etdiklərinə tam əmin idilər. Yəni bolşevik əsgərlər fikirləşirdilər ki, tatarlar hakimiyyəti ələ keçirərlərsə, onlara – ölkənin indiki sahiblərinə divan tutacaqlar və buna görə də öz hakimiyyətləri uğrunda döyüşürdülər. Amma rusların arxasınca kiçik erməni dəstələri irəliləyirdi, özü də hər bir dəstədə başdan-ayağa silahlanmış 5-10 nəfər var idi. Bu dəstələrdə bütün kişi erməni əhalisi – 2-3-cü sinif şagirdlərindən tutmuş yaşlı ermənilərədək – iştirak edirdi. Onlar hamısı əsgər və ya yarı əsgər forması geyinmişdi, üzərilərində 3 və daha artıq qatar patrondaş var idi, tüfəng, revolver və xəncərlə silahlanmışdılar.

Erməni əhalisinin bütün siniflərinin nümayəndələri bu “müharibədə” iştirak etməyi özlərinə “borc” bilirdi; burada neft sənayeçiləri, mühəndislər, həkimlər, kontorçular, bir sözlə, erməni əhalisinin bütün təbəqələri “vətəndaşlıq” borclarını yerinə yetirirdilər. Tatarlar bizim məhəlləni bazar ertəsi günü, saat 11-də tərk etmişdilər. İndi isə mənim gözümün qarşısından yalnız ehtiyat məqsədilə atəş açaraq irəliyə hərəkət edən əsgərlər keçirdi. Lakin, onlar ötüb keçən kimi gizlənmiş tatarları axtaran erməni “dəstələri”, sonra isə başqaları gəlirdi. Onlar qapıları sındırır, bütün otaq-

lara daxil olur, hər yeri axtarırdılar. Pul və zinət əşyalarını onlar dərhal hamıdan alır, tatarları isə mənzildə, həyətdə, və ya qapı ağzındaca güllələyirdilər. Tatarlardan heç kimə aman verilmirdi. Onlar bazar ertəsi bütün günü çox qızğın "işləyirdilər", şəhərin küçə və evlərində qan su yerinə axırdı. Ən əvvəl onlar evləri atəşə tuturdular ki, qorxuya düşmüş sakinləri evdən qovub çıxarsınlar və özgə malını maneəsiz qarət və talan edə bilsinlər. Onlar ərzaq ehtiyatlarına xüsusi diqqət yetirirdilər və ilk növbədə kisələrlə un, düyü, qənd və tapdıqları hər şeyi daşıyıb aparırdılar. Görünür, onlar qabaqcadan hiss edirdilər ki, 17 mart hadisələrindən sonra əsl aclıq başlanacaqdır. Elə buna görə də ərzaqları götürürdülər, bununla da erməni əhalisini bir neçə ay azuqə ilə təmin etdilər. Həqiqətən də, qalan əhali, xüsusilə də müsəlman əhalisi sözün əsl mənasında küçələrdə aclıqdan öləndə, bütün erməni məhəllələri və küçələri ilə iri çörəkxanalardan evlərə və geriyə kömbə çörəklər daşıyırdılar. Ərzaqların ardınca paltar və qiymətli metal əşyalarını götürürdülər. Mebel isə bir qayda olaraq ancaq sındırılır və tullanılırdı. Talanlar arası hələ yaxın qohumlarının gözləri qarşısında qadınlara təcavüz də edilirdi. Ermənilər şəhərin bütün qeyri-erməni hissəsini beləcə "təmizləyirdi". Bazarları onlar başqa üsulla "təmizləyirdilər": qapıları sındırıb və bütün malları furqonlarla daşıyandan sonra mağazanı yaylım atəşi ilə yandırırdılar və alov küçənin bu başından o biri başınadək yayılırdı. Yanğınlara görə onların narahat olmağa ehtiyacı yox idi, çünki bunlar şəhərin müsəlmanlar yaşayan hissəsində baş verirdi. Lakin onlar, qabaqcadan bütün malları daşıyaraq, yalnız mağazaları yandırırdılar. Evləri isə ancaq əsaslı surətdə qarət edirdilər. Bütün bu dəstələrdə hər bir müsəlman evini tanıyan ermənilər iştirak etdiyi üçün, aydındır ki, onlar zəngin müsəlmanların evlərində qisasçılıq edir və xüsusi səy göstərirdilər. Əliyev qardaşlarının Serkovnaya küçəsindəki evini 3 gün ərzində "təmizləmişdilər" və "təmizləyib qurtarmaq" mümkün olmurdu, çünki bu 4 mərtəbəli ev sonsuz sayda otaqlardan ibarətdir, onun var-dövləti isə hesaba gəlmirdi. Amma onlar bu evin işini birtəhər bitirdilər. Və birinci qarətdən sonra salamat hər nə qalırdısa, 2, 3, 4-cü və s. dəstələrin qarət mənbəyinə çevrilirdi. Bu küçələr artıq çoxdan "işğal olunmuşdu", lakin onlar yalnız gizlənmiş tatarları axtarır və özgə malını talan edirdilər. Rus əsgərlərinin və xüsusilə də matroslarının barəsində düzünü demək lazımdır ki, onlar dinc əhalinin güllələnməsində iştirak etmirdilər və imkan daxilində onları erməni qatillərindən xilas edirdilər.

Onlar müsəlmanları əsir götürərək böyük dəstələrlə "Rekord" və Mailov teatrlarına qovurdular. Lakin yolda bir çoxlarını, hesaba gəlməz sayda insanları güllələyirdilər. Ora qədər gəlib çıxanlar isə tutulur və teatrların yaxınlığında güllələnirdi. "Daşnaksütun" partiyası guya əsirlərin toxunulmazlığını qoruyurdu, amma bu mühafizə yalançı və məkrli idi. Erməni dəstələri bir-birinin ardınca teatrlara daxil olur və cüssəli, sağlam tatarları seçir, binadan küçəyə çıxarır və güllələyirdi. Bunu həmin binaların yaxınlığında yaşayan Torqovaya küçəsinin sakinləri görmüşdülər. Qətlə yetirilənlərin paltarlarını və qiymətli əşyalarını çıxarır, sonra xəncərlə onların qarınlarını yarır, daxili orqanlarını açır və tanınmayacaq dərəcəyə qədər eybəcər hala salaraq, cəsədləri təhqir edirdilər. Bütün küçələrdə və küncdə-bucaqda qalaq-qalaq meyitlər yığılıb qalmışdı və hər tərəfdə ölüm və dəhşət hökm sürürdü. Belə bir vaxtda müsəlmanların ayrı-arı nümayəndələri, həyatlarını təhlükə altına qoyaraq, avtomobillərdə İcraiyyə Komitəsinə gəlir və şəhərin bütöv bir hissəsinə qarşı törədilmiş bu görünməmiş qanlı qırğına son qoyulmasını xahiş edirdilər. Demək olar ki, bütünlüklə ermənilərdən ibarət olan İcraiyyə Komitəsinin üzvləri bu rüsvayçılığa son qoymaq istəmirdilər və hər dəfə öz tələblərini artırırdılar. Belə ki, onlar əvvəl tərksilah olunmağı, sonra bolşeviklərin hakimiyyətinin qeyd-şərtsiz tanınmasını, daha sonra isə müsəlmanların Tiflis yolunu açmasını tələb edirdilər. Sanki, bağlı yolun açarları nümayəndələrin əlində idi. Bununla onlar, maneələr uydurmaqla, qırğınları dayandırmaq istəmirdilər, çünki məqsəd bir idi – şəhərin bütün Cənubi Qafqazda öz zənginliyi, nüfuzu və səxavəti ilə tanınan müsəlman əhalisini məhv etmək. Onlar əmin idilər ki, hələ sülh olmayacaq və onlar başladıqlarını sona çatdıra biləcəklər. Amma burada Caparidzenin adını hörmətlə çəkmək lazımdır, çünki o, canlı insan alverinə son qoydu və sülhün bağlanmasına nail oldu. Çərşənbə günü səhər saat 11-də sülh elan edildi.

Lakin qana bulaşmış erməni əlləri barışıq elan edildikdən sonra da dayanmadılar. Onlar bu barışığı tanımaq istəmirdilər və öz murdar cinayətlərini davam etdirirdilər. "Sülh" sözünü eşidən bitərəf əhali küçələrə axışdı. Onların arxasınca müsəlmanlar da ağ bayraqlarla çıxdılar. Lakin, təəssüf ki, qaniçənlər sanki yerin altından peyda oldular və müsəlmanları yerindəcə qətlə yetirməyə başladılar, və yaxud onları əsir aparır və oradaca öldürdülər. Bu dəhşətli mənzərələr bütün küçələrdə baş verirdi və heç kim bu vəhşilərin qabağını ala bilmirdi, çünki hər kəsə öz həyatı qiymətli idi. Məhkum edilmiş xalqın

müdafiəsi üçün hər hansı bir tədbir görməkdə hamı özünü aciz hiss edirdi. Yalnız ertəsi gün, cümə axşamı, bir neçə erməni cəzalandırıldıqdan, deyilənə görə, hətta güllələndikdən sonra, rüsvayçı qanlı azğınlıqlar sona yetdi. Bütün sonrakı günlərdə qələbəni təntənəli surətdə qeyd edən erməni əhalisi küçələrə axışdı, onlar bir-birini "müharibəni udmaqları" münasibətilə təbrik edir və sevinc dolu sifətlə öpüşürdülər.

Xəcalət içində başını aşağı salmış müsəlman əhalisi isə, səssiz, şikayət və tənə etmədən, tam ləyaqətlə və mənəvi qələbənin onların tərəfində olduğunu dərk edərək yaxşı gələcəyə ümidlərlə yaşamaqda davam edirdi. Müsəlmanlar, "İsmailiyyə"nin və "Təzəpirin" yanından kədərlə və dərindən köks ötürərək keçirdilər, murdar əllərlə təhqir edilmiş müqəddəs yerləri görür, lakin onları murdarlayanların ünvanına heç bir söyüş, acı söz işlətmirdilər. Bəli, mən özlüyümdə dəfələrlə düşünmüşəm ki, səbir və dözümlülüyü onlardan öyrənmək lazımdır.

Mən bu qırğınla əlaqədar Milis sahəsinin Komissarı ilə söhbətlər edirdim. Komissarlığın binasında xeyli müsəlman gizlənmişdi, ancaq burada da bəziləri həyatlarını itirmişdilər. Erməni quldur dəstələri binaya soxulmuş və bir neçə nəfəri öldürmüşdü. Sonra o, kədərlə mənə danışırdı ki, onlarla soyğunçunu qarət etdiyi malla bir yerdə tutmuşdur və İcraiyyə Komitəsinə göndərmişdir, lakin onları qarət etdikləri malla birlikdə dərhal buraxırdılar. Buna görə də, o, nə baş verirsə versin, daha qarətçiləri Komitəyə göndərməyi lazımsız hesab etmişdi. "Daşnaksütun" partiyasına gəldikdə isə, bu qanlı sui-qəsdə o başçılıq edirdi, bütün tellər də onun əlində idi. O mənzil-qərargahlar yaradır, orderlər verirdi və çoxlu sayda avtomobillər qarət edilmiş malları anbarlara daşıyırdı. İcraiyyə Komitəsinin liderləri ilə "Daşnaksütun" partiyası arasında necə sıx əlaqə mövcud olduğunu təsvir etmək üçün, mən hörmətli Doktor X-in sözlərini misal gətirmək istərdim:

"Mənim müalicəxanamın qarşısında rus əsgəri yaralanmışdı. Onu çox ağır vəziyyətdə gətirmişdilər. Əsgər 2 mindən artıq nağd pulu, tüfəngini və bəzi əşyalarını mənə verdi və ünvanı göstərərək, pulları Rusiyaya, onun ailəsinə göndərməyimi xahiş etdi. Ertəsi gün xəstə vəfat etdi. Mən telefonla İcraiyyə komitəsinə zəng etdim və bu barədə xəbər verdim. Bir neçə saatdan sonra mənim yanıma "Daşnaksütun" partiyasının orderi ilə bir neçə silahlı adam gəldi və orderi oxumağımı tələb etdi. Mən etirazımı bildirərək əsgərin pullarının erməni partiyasına yox, onun ailəsinə məx-

sus olduğunu və bu barədə İcraiyyə Komitəsinə mən xəbər verdiyimi söylədim. Lakin mənim dəlillərim tamamilə artıq idi, çünki fiziki qüvvə onların tərəfində idi. Onlar pulu, tüfəngi götürdülər və ... biryolluq getdilər. Hətta onu dəfn etməyə gəlmədilər və uzun əzab-əziyyətdən və başağrısından sonra, şəxsi əlaqələrim və tanışlığım hesabına onu özüm dəfn etməli oldum.

Müsəlmanların faciəli günlərində yəhudilər onlara mənəvi və fəal kömək göstərirdilər. Məncə elə bir yəhudi evi yox ki, orada çox və ya az müsəlman gizlənməsin. Nədənsə ermənilər yəhudilərə inamla yanaşırdılar, hətta onları "özlərinki" hesab edirdilər. Bax buna görə yəhudiyə "Mənim evimdə tatar yoxdur" demək kafi idi və bir çox hallarda ermənilər bununla kifayətlənirdilər və müsəlmanlar xilas olurdu. Ancaq, Allah göstərməsin, əgər ermənilər özləri müsəlmanları axtarır və tapırdısa, onda yəhudilər öz əmlakı ilə cavab verir və özləri güclə canlarını qurtarırdılar. Qırğından sonra yəhudilərin müsəlmanlara qarşı dostcasına münasibəti üzə çıxanda (yəhudilər sakit vaxtda zərər çəkmiş müsəlmanların taleyinə acıyırdılar və sui-qəsdçilərin – zülmkarların ünvanına lənətlər yağdırırdılar) ermənilərin sifəti dəyişdi və onlar yəhudilərlə açıq-aşkar və həmişəlik düşmən oldular. Yəhudilər ermənilərlə olan "dostluqlarını" çox rahatlıqla qurban verdilər. Çünki həm bizim, həm Sizin olmaq mümkün deyil, ya Allahın, ya mamonanın[99], ya ədalətin, ya xəyanətin... Yəhudilərin seçiminin nə olduğu – hamıya məlumdur.

Taleyin qisməti idi ki, bu sətirləri yazan şəxs həyasız və məkrli ermənilərin müsəlmanlara qarşı törətdikləri cinayətlərə dair öz məlumatlarına əlavələr etsin. 17-20 mart hadisələrindən sonra Bakıda aclıq gücləndiyi üçün bu sətirləri yazan şəxs cəbhədən qayıtmış qızıl əsgərlərin düşdüyü müəssisəyə işə girmişdi. Bu qızıl əsgərlər başdan-ayağa soyğunçulardan ibarət idi və cəbhəyə yerli dinc əhalini qarət etməyə və öldürməyə getmişdilər, onlar yalnız heç bir müqavimət göstərə bilməyən dinc sakinlərlə "vuruşurdular", belə ki, onlar qəfildən bütöv kəndlərə basqın edir və mart günlərində Bakıda törətdiklərini orada təkrarlayırdılar. Görün rus əsgəri mənə nə danışmışdı: "Onlar bütöv kəndlərə od vurur, dinc müsəlmanları qətlə yetirir, heç bir səbəb olmadan mal-qaranı doğrayırdılar və bu cəmdəklərdən ətrafa infeksiya xəstəlikləri yayılırdı. Biz bunun qarşısını almaqda gücsüz idik, çünki onlar 95%, bəlkə daha da çoxdurlar. Bunlar insan deyil, qana və qənimətə susamış vəhşilərdir.

Onları müsəlmanlara qarşı çıxış etməyə sövq etmiş impuls budur. Ən cüzi, lakin ciddi müqavimət gördükdə isə cılız qorxaqlar kimi qaçırlar".

Həqiqətən də, onlar, üzərində fars yazıları olan qızıldan, gümüşdən, ipək parçalardan ibarət müsəlman qəniməti ilə yüklənərək, mənim xidmət etdiyim məntəqəyə qayıdırdılar və ermənilərin özləri ilə gətirdikləri qarət edilmiş var-dövləti mən öz gözlərimlə görürdüm. Mən ali təhsilli ermənilərin öz soyğunçu qardaşlarına göstərdikləri "həssas" münasibəti də xatırlatmalıyam. Nəinki bir qınaq, töhmət kəlməsi, əksinə, onlar soyğunçu qardaşlarına mərhəmətli münasibət və səmimi qayğı göstərirdilər və xüsusilə səy edirdilər ki, onların "vicdanla qazandıqları var-dövlətlərinin" kiçik bir hissəsi belə batmasın. Onlar dəfələrlə bu pulları özlərində saxlamaq üçün alırdılar, bir dəfə isə, soyğunçu döyüşçü özü ilə bütöv bir dükanın mallarını gətirəndə, universitet bitirmiş adam sərəncam verdi ki, müəssisənin işçisi qarət edilmiş bütün bu malları soyğunçunun müşayiəti ilə etibarlı yerə aparsın və yalnız bundan sonra "döyüşçü" müəssisəyə qayıtdı.

Mart hadisələrindən sonra Şaumyanın, Karqanyanın, Avakyanın əmri ilə ermənilərdən ibarət olan Qafqaz qızıl ordusu yaradıldı. Buraya 17 yaşlı yeniyetmələrdən tutmuş heç bir işə yaramayan qoca ermənilərədək hamı daxil olmuşdu. Onlar orduya ümumi aclıq dövründə yemək üçün, geyinib-keçinmək üçün və əlavə olaraq 200 rubl maaş almaq üçün gedirdilər. Onlar bundan əlavə yürüşlərdə də öz iştahalarına və bəxtlərinə uyğun olaraq "gəlir əldə edirdilər". Müsəlmanların şəhərdə ən yaxşı binaları onlar üçün müsadirə edilmişdi və erməni döyüşçülər burada daima içki içir, zurna çalır, eyş-işrət və kef məclisləri təşkil edirdilər. Onlara elə gəlirdi ki, cənnətdə yaşayırlar. Belə ki, küçələrdə aclıq, ölüm hökm sürdüyü halda..., onlar hamısı boğaza qədər yeyirdi, ümumi düşkünlük və üzüntü hökm sürdüyü halda, onlar ... nəşələnirdilər. Lakin gələcəyi görən insanlar artıq o vaxt, onların şənliklərini gördükdə, onların soyğunçu alınlarında İncilin tale yazısını oxuyurdular: "mene, men... tekel upofedkin" – "Zaman hesablanmış, sənin qan, məkr, həyasızlıq və ikiüzlülük üzərində qurulmuş talançı rifahın tərəzilərdə çəkilmiş və hazırlanmışdır".

Onlara nə ingilislər, nə Petrovsk, nə başqaları yardım etdi.

Şahid Kvasnik öz ifadəsini imzalamaqdan imtina etdi və bunu onunla izah etdi ki, əgər onun ifadəsi ermənilərin əlinə düşərsə, onu mütləq öldürəcəklər, o, isə nə özünü, nə ailəsini məhv etmək istəmir.

Komissiyanın sədri: Ələkbər bəy Xasməmmədov (imza).
Komissiya üzvü: A.Novatski (imza).
Komissiya üzvü: A.Kluge (imza).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 1-7.**

## Sənəd № 569

***Dindirmə protokolu***

*1918-ci il, 2 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 443-cü maddəsinə uyğun olaraq şahid qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Yakov Nikolayeviç Smirnov, andlı iclasçı, Bakının keçmiş İctimai Şəhər rəisi, Bakı şəhəri, Bazarnaya və Poçtovaya küçələrinin kəsişməsində, Krasilnikovların evində yaşayıram, rusam.**

Bu ilin mart hadisələri zamanı mən doktor Larionovun[100] mənim yaşadığım evdə yerləşən müalicəxanasının pəncərəsindən erməni əsgərlərinin qarşı tərəfdəki "İslamiyyə" mehmanxanasının binasına necə od vurduqlarını müşahidə edirdim. Bunun üçün onlar binanın zirzəmisindəki dükana çoxlu yeşik yığdılar və onları odladılar. Bütün bina tamamilə yandı, yalnız divarları qaldı. Mənim yaşadığım evdə müsəlmanların dükanları yerləşirdi. Bu dükanları erməni əsgərləri qarət etdilər, qarətdən sonra dükanları yandırmaq istəyirdilər və bunun üçün məndən kerosin tələb etdilər. Mən böyük çətinliklə onları yanğın fikrindən daşındıra bildim, onu səbəb gətirdim ki, bizim evdə kerosin yoxdur, çünki evin bütün otaqları elektriklə işıqlandırılır və həm də evin yuxarı mərtəbələrində ağır xəstələrin yatdığı müalicəxana yerləşir. Erməni əsgərlərinin arasında bir neçə rus əsgər gözümə dəydi, onlar da mənə qoşuldular və evdə xəstəxananın olduğunu səbəb göstərərək, öz erməni yoldaşlarını müsəlman dükanlarını yandırmaq fikrindən daşındırdılar. Bizim yaxınlığımızda olan bazar isə mənim gözlərimin qarşısında erməni əsgərləri tərəfindən qarət edildi və od vurularaq yandırıldı. Bizim evimiz yanğınların mərkəzində qalmışdı və mən iki gün Korqanovdan[101] telefonla bizim müalicəxanamızın qorunub saxlanılması üçün yanğın-

söndürən komandasının göndərilməsini xahiş etdim, lakin yanğınsöndürənlər gəlmədi. Bizi Allah özü qorudu!

Erməni əsgərlərinin bir dəstəsi bizim evə soxularaq, ikinci mərtəbədə yerləşən müalicəxanaya keçdilər və Bazar küçəsinə çıxan yan pəncərələrdən küçə boyu Şamaxinka istiqamətində atəş açmağa başladılar. Mən bir saata yaxın onları dilə tutmalı oldum ki, müalicəxanadan çıxıb getsinlər və buranı öz hərbi əməliyyatları üçün bazaya çevirməsinlər; çünki, bununla onlar xəstəxanada olan xəstələr üçün ölüm təhlükəsi yaradırdılar, onların arasında əməliyyat olunmuş ağır xəstələr var idi. Hətta telefon vasitəsilə hərbi nazir Korqanova müraciət etmək və erməni əsgərlərinin müalicəxanadan uzaqlaşdırılmasında köməklik göstərməsini xahiş etmək lazım gəldi. Sonradan müalicəxananın mühafizə edilməsi üçün mənim yanıma dörd silahlı erməni əsgəri göndərdilər. Lakin onlardan ikisi elə gəlməyi ilə yoxa çıxdı; sonradan məlum oldu ki, onlar bizim evlər komitəsinin ərazisində yerləşən mənzilləri qarət edirmişlər. Yadımdadır, köhnə təqvimlə 20 və ya 21 mart tarixində səhər saat 6-da Poçtovaya küçəsinin yuxarısında kasıb bir çadralı müsəlman qadın göründü və Bazar küçəsini keçərək bizim evə yaxınlaşmağa başladı. Müalicəxananı mühafizə edən erməni dərhal tüfəngini qaldırdı və qadını öldürmək istədi. Mən və evlər komitəsi üzrə mənimlə növbətçi olan kürəkənim Bazenkov qadını müdafiə etməyə yetişdik və ermənidən qadını vurmamağı xahiş etdik. Bir müddət sonra qadın onu tutmuş əsgərin əlindən çıxaraq geriyə Qubernskaya küçəsi ilə yuxarıya irəlilədikdə, əsgər yenidən onu nişan almağa başladı, lakin bizim xahişlərimizdən sonra tüfəngini aşağı saldı və dedi: “onsuz da onu orada öldürəcəklər”.

Silahlı erməni əsgərləri bizim həyətimizə soxuldular və müalicəxanada xəstə müsəlmanların olduğunu biləndə, xəstə müsəlmanları öldürməklə hədələyərək, özlərinin müalicəxanaya ötürülməyini tələb etməyə başladılar. Mən bizim evin digər sakinləri ilə birlikdə çox böyük çətinliklə erməniləri zorla müalicəxanaya girməkdən yayındıra bildim. Müalicəxananın pəncərəsindən Bazarnaya küçəsi boyunca atəş açan erməni əsgərlərindən ikisi müalicəxananın mətbəxinə daxil oldular və onlara çay verməyi xahiş etdilər; hər ikisi ziyalı idi. Onlar çay içən zaman gülə-gülə mənə danışırdılar ki, bir nəfər tatarı küçədə öldürərkən, başqa bir müsəlman öldürülənin yanına yıxılaraq özünü ölülüyə vurubmuş. Bu zaman onlar yerdə yatan tatara yaxınlaşaraq onu da güllələmişlər. Evlər komitə-

sinin üzvü kimi bizim evin önündə gecə növbəsi çəkərkən mənə bir erməni əsgər - bakılı tələbə - yaxınlaşdı və söhbət əsnasında öz alman Ştutserini göstərərək, fəxrlə dedi etdi ki, həmin gün bu silahla müsəlmanlara 1500 patron atmışdır və bütün müsəlmanları qırmaq lazımdır.

Mart hadisələrində ermənilərin yaxşı təşkil edilmiş hərbi dəstələri və "Daşnaksütun" partiyasının əynində mülki paltar, əlində tüfəng və qolunda ağ sarğı olan üzvləri iştirak edirdilər. Onların iştirakı həm də bununla təsdiq olunur ki, mart hadisələrində daşnaksakanların iştirak etməsini Şaumyan Fəhlə və əsgər deputatları Sovetinin iclaslarından birində açıq şəkildə etiraf etmişdir. Bununla belə, mən qırğınlar dayandırıldıqdan sonra erməni ziyalı cəmiyyətinin müxtəlif nümayəndələri ilə dəfələrlə söhbət etməli olmuşam və onlar qəribə bir inadkarlıqla iddia edirdilər ki, mart qırğınlarında nə erməni təşkilatları, nə də erməni ziyalıları çıxış etməmişlər, qarətlərlə isə yalnız erməni qara camaatı və cəbhədən öz kəndlərinə geri qayıdarkən onları öz evlərinə buraxmadıqlarına görə müsəlmanlardan qisas alan ayrı-ayrı əsgərlər məşğul olmuşlar.

Mart hadisələri zamanı ermənilərin müsəlman qadın, qoca və uşaqlarına qarşı törətdikləri amansız vəhşiliklər barəsində dəfələrlə eşitməli olmuşdum. Deyilənlərə görə, mart ayında 6000-7000 müsəlman qətlə yetirilmişdir. Ermənilər "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının yandırılmasını sonradan həmin binada müsəlmanların qərargahının yerləşməsi ilə izah edirdilər. Heç bir ehtiyac olmadan ermənilər tərəfindən "Kaspi" qəzetinin binası yandırılmışdır. Mart ayında talan və qarətlər nəticəsində müsəlman əhalisinə vurulan ziyanın həcmi həddən ziyadə böyükdür, belə ki, həmin vaxt şəhərdə hələ əhali çox idi və müsəlmanların evlərində olduqca böyük sərvətlər var idi.

Bir dəfə, 1917-ci ilin dekabrında, ev təşkilatlarının yaradılması ilə əlaqədar olaraq, Hacı Zeynalabdin Tağıyevi ziyarət etdiyim zaman Əsədulla Əhmədov[102] andlı iclasçı Ter-Kazarova bolşeviklərlə mübarizə aparmaq üçün ermənilərlə müsəlmanlar arasında ittifaq yaradılmasını təklif etdi. O zaman Ter-Kazarov cavab verməkdən yayındı, lakin küçəyə çıxdıqda mənə dedi ki, Əhmədovun təşəbbüsünün həyata keçirilməsi qeyri-mümkündür. Ümumiyyətlə, ermənilərin, görünür ki, bolşeviklərə bir meyli vardı; bolşeviklərin böyük hissəsi ermənilərdən ibarət idi. Ermənilər müsəlmanlara mənfi münasibət bəsləyirdilər, ola bilsin, düşünürdülər ki, müsəlmanların hakimiyyəti zamanı ermənilərin maraqları qorunmayacaqdır.

Mart ayının 19-da "Metropol" mehmanxanasında bu iki millətin bolşeviklərlə mübarizədə birləşməsi məsələsi üzrə erməni və müsəlman nümayəndələri arasında müşavirə olmalı idi; bu müşavirə şəhərdə yaranmış atışma səbəbindən baş tutmadı, ertəsi günü isə ermənilər açıq şəkildə bolşeviklərin tərəfində müsəlmanlara qarşı çıxış etdilər.

Şəhərin bütün rus əhalisi (mən bolşevikləri nəzərdə tutmuram) müsəlmanların dərdinə acıyırdı və erməniləri mart hadisələrinin səbəbkarı hesab etməklə, müsəlmanlara olan rəğbətini hər yerdə açıq-aşkar büruzə verirdi. Bu hadisələrdən sonra müsəlman əhalisinin aşağı təbəqələri daha da yoxsullaşdı. Mən bir neçə ay ərzində hər gün müsəlmanların zibil dolu xəndəkləri və zibil qutularını eşələdiklərini və orada tapdıqları qalıqlarla qidalandıqlarını görməli olurdum; bir çoxları aclıqdan üzülərək küçələrdə düşüb ölürdü. Küçədə yıxılıb qalmış ac müsəlmanın başı üzərində toplaşmış adamların arasından sadə rusların bütün bunların mart hadisələrinin nəticəsi olduğunu dediklərinin şəxsən mən özüm şahidi idim.

Şamaxı qəzasındakı hadisələr haqqında mənim yanıma məsləhət üçün gələn molokanların söhbətlərindən eşitmişəm. Bu qəzada molokanların məskunlaşdığı Mərəzə kəndi, ona bitişik isə müsəlman Mərəzəli kəndi var. Tatevos Əmirov və Stepan Lalayev erməni dəstələri ilə Mərəzəyə gəlmiş və pulemyotlardan güllələyəcəkləri ilə hədələyərək, molokanları onlara qoşulmağa və Mərəzəli kəndinə getməyə məcbur etmişlər. Mərəzəli kənd sakinlərinin göndərdiyi müsəlman nümayəndələr güllələnmiş, kəndin özündə isə məscid və bir çox evlər yandırılmışdır. Yeri gəlmişkən, Şamaxı qəzasındakı hadisələr barəsində mənə Şamaxı qəzasının Astraxanka kəndində yaşayan molokan İvan Vasilyeviç Kalmıkov da danışmışdır.

Artıq mart hadisələrindən sonra öyrəndim ki, Əli Mərdan bəy Topçubaşov həbs edilmişdir. Onu polkovnik baron Osten-Sak ilə birlikdə şəhər məktəblərinin birində kiçik bir otaqda saxlayırdılar, onlarla yanaşı olan böyük otaqda isə yalnız erməni əsgərlərindən ibarət gözətçilər otururdu. Onlar özlərini çox pis aparırdılar, daima tüfənglərinin çaxmaqlarını şaqqıldadır, bütün günü, hətta gecələr də oxuyur və bağırırdılar. Bunu mən Əli Mərdan bəy Topçubaşovu həbsdə saxlanıldığı otaqda şəxsən ziyarət etdiyimdən bilirəm. Xeyli səy göstərdikdən sonra, mən Caparidze və Kojemyako[103] vasitəsilə Topçubaşovun zaminə buraxılmasına nail ola bildim. Onu sonradan yenə həbs etdilər və Bayıl həbsxanasına saldılar. Əli Mərdan bəy Topçubaşovu həbsxanada ziyarət edərkən, onu həm mənəvi,

həm də sağlamlıq cəhətdən sıxılmış vəziyyətdə gördüm. O mənə bildirdi ki, həbsxanada saxlanıldığı ilk günlərdə ona ümumiyyətlə heç bir yemək verməmişlər; o indi də acdır və onunla birlikdə həbsxanada olan digər 30 nəfər də acdır. Topçubaşovun dediyinə görə, Bayılda onu çox pis şəraitdə saxlayırdılar: o kiçik bir kamerada İbrahim bəy Heydərovla[104] birlikdə saxlanırdı; kamera axşam saat 6-dan səhər saat 7-dək bağlı olurdu, gecələr isə nəcis üçün kameraya qab qoyurdular və bu qabdan döşəməyə süzülən maye havanı dəhşətli üfunətlə doldururdu. Uzun əziyyətlərdən sonra mən və andlı iclasçı Leontyeviç, yenə də Caparidze vasitəsilə, həkimlərin Topçubaşovu və Heydərovu müayinə etmələrinə nail olduq və həkimlər onların həqiqətən xəstə olduqlarını təsdiq etdilər. Bundan sonra mənim xahişimlə onları mənim arvadıma məxsus olan doktor Larionovun müalicəxanasına yerləşdirdilər. Məhbusların yanına yalnız ermənilərdən ibarət olan gözətçilər qoyulmuşdu və onlar özlərini daima biabırçı şəkildə aparırdı. Mən erməni gözətçilərinin başqaları ilə əvəz edilməsini xahiş etməyə məcbur oldum. Bundan sonra gürcülərdən ibarət bir günlük qarovul göndərdilər, lakin, sonradan yenə də yalnız erməniləri göndərməyə başladılar.

Əlavə edirəm ki, Caparidze fəhlə, əsgər və matros deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri, Dmitri Kojemyako – İcraiyyə Komitəsinin təsis etdiyi Fövqəladə Komissiyanın[105] sədri, Stepan Şaumyan – birbaşa Leninin təyinatı üzrə Qafqazın Fövqəladə Komissarı, Stepan Lalayev və Tatevos Əmirov – Şamaxı qəzasında fəaliyyət göstərmiş Əlahiddə bolşevik dəstələrinin komandirləri idilər.

Şahidlik etməyi özümə borc bilirəm ki, mən həbsxanaya salınmış Topçubaşov və Heydərov barəsində hər dəfə Caparidzeyə və Kojemyakoya müraciət edərkən, onların tərəfindən insani və ədalətli münasibətlə qarşılaşmışam, Caparidze hətta öz səmimiliyi ilə məni riqqətə gətirmişdir.

İmza: Andlı iclasçı Yakov Nikolayeviç Smirnov.
Komissiyanın sədri: Ələkbər bəy Xasməmmədov (imza).
Komissiya üzvləri: Prokuror köməkçisi A.Kluge,
Məmməd Xan Təkinski (imzalar)
**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 152-155.**

## Sənəd № 570

*Dindirmə protokolu*

*1918-ci il, 8 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Yuda Abramoviç Belenkiy, 43 yaşım var, yəhudiyəm, Bakı şəhəri, Verxnyaya Priyutskaya küçəsi, 97 №-li evdə yaşayıram.**

Bu il mart ayının 19-da təsadüfən bizim evə iki güllə düşdü, çərşənbə axşamı gündüz saat ikidə isə bizim evi pulemyotdan atəşə tutmağa başladılar. Bundan sonra, təxminən saat yarım keçmiş, bizim evə erməni və rus əsgərlərindən ibarət olan dəstə gəldi və mənzilləri gəzərək, müsəlmanları axtarmağa başladılar. Ermənilər mənim şüşəbəndimdə pəncərələri qırmağa başladıqda rus əsgərləri onlara qışqırdı: "dayanın, yoldaşlar, əl vurmayın, burada özümüzkülər yaşayır". Axtarışdan sonra bu dəstə heç nə götürmədən çıxıb getdi və bizi xəbərdar etdi ki, ehtiyatlı olaq, çünki gecə ermənilər axtarışa gələcəklər. Səhər saat dörddə mən yanıq iyi hiss etdim və gördüm ki, həyətimiz tüstü ilə dolmuşdur. Məlum oldu ki, ermənilər Qluxoy döngədə yerləşən qonşu evi yandırıblar. Bu zaman mən və arvadım əşyalardan bəzilərini evdən çıxarmaq istədik, lakin ermənilər buna görə bizi güllələmək istədilər və dedilər ki, biz tatarların əşyalarını xilas etməyə çalışırıq. Martın 21-də, çərşənbə günü, təxminən səhər saat 8-də bizim evə hansısa bir kök, qısaboylu, lopabığ, sonradan mənə deyildiyi kimi, Əmirov familiyalı ermənininin başçılığı ilə erməni dəstəsi gəldi. Bu vaxt mən və digər kirayənişinlər Drujinin və Çarnıy quyudan su çıxarırdıq. Bizim evimizin yandırılacağı təqdirdə onu söndürmək üçün su ehtiyatı gördüyümüzü biləndə, onlar bizi ölümlə hədələyərək su götürməyi qadağan etdilər və dedilər ki, müsəlman evini yanğından qorumaq olmaz. Bu zaman erməniləri küçəyə çağırdılar, onlardan ikisi yaralanmışdı, biz isə qarşı tərəfdə yerləşən Mixaylov xəstəxanasına qaçdıq. Bundan sonra bizim evə fasiləsiz olaraq ermənilər girir və bəyəndikləri hər şeyi evdən çıxarırdılar. Mənim mənzilimdən qırx min rubl dəyərində əşyalarımı aparıblar.

Mən bizim evin yanında, Melniçnaya küçəsi ilə Qluxoy döngənin tinində ermənilərin 11 nəfər müsəlmanı necə güllələdiklərini görmüşəm. Bir qadın diz üstə çökərək yalvarırdı ki, 60 yaşlı bir qocanı öldürməsinlər. Ona söz verdilər ki, qocanı yalnız əsir aparacaqlar, lakin elə döngədəcə bir neçə revolver gülləsi ilə onu öldürdülər.

Müsəlmanları əsas etibarı ilə erməni əsgərləri qarət edir və qətlə yetirirdilər.

Bundan sonrakı 1 – 1,2 və ya 2 ay ərzində, təxminən yeddi dəfə, 40-50 süvari əsgər bizim məhəlləni mühasirəyə alaraq, mənim yaşadığım evin sahibi Şıx Balayevi axtarmışdılar və onu bir dəfə də olsun evində yaxalaya bilməmişdilər.

Bizim evimizə də iki yerdən od vurmuşdular, lakin kənar şəxslərin və rus hərbçilərin birgə səyi nəticəsində yanğını söndürmək mümkün olmuşdu. Quyudan su çıxardığımıza görə Əmirov soyadlı kök erməninin əmri ilə bizi güllələmək istəyirdilər; deyirdilər ki; "biz Şıx Balayevin evini yandırmaq istəyirik, siz isə onu söndürmək istəyirsiniz".

Oxundu. İmza. Y.Belenkiy.

Komissiya üzvü: A. Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 132.**

## Sənəd № 571

*Dindirmə protokolu*

*1918-ci il, 12 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 443-cü maddəsinə uyğun olaraq şahid qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Maks Borisoviç Manaseviç, 57 yaşım var, Bakı şəhərində, "Metropol" mehmanxanasında yaşayıram.**

Bu ilin mart ayında erməni-tatar atışmaları zamanı şahzadə Mansur Qacar, andlı iclasçı Ananyev, artist xanım Taqianosova və petroqradlı andlı iclasçı Alışvanla birlikdə vaxtımızın çox hissəsini "Metropol" mehmanxanasının 2-ci nömrəsində keçirirdik. Biz pəncərələrdən tüfənglərlə silahlanmış və hərbi forma geymiş ermənilərin evlərin tinlərində gizlənərək və küçə boyu tüfənglərdən atəş açaraq, Nikolayevskaya küçəsi ilə yavaş-yavaş irəlilədiyini müşahidə edirdik. Nikolayevskaya küçəsi eyni zamanda "Metropol" mehmanxanasının damından pulemyot atəşinə tutulurdu. Üçüncü və ya dördüncü gün daşnaksakanlar Yeqişe adlı rəhbərlərinin başçılığı ilə mehmanxanaya soxuldular və binanı "Daşnaksütun" partiyasının qərargahına çevirdilər. Bu Yeqişe və dəstələrdən birinin başçısı olan tələbə Artyuşa Sergeyev bəyan etdilər ki, biz vəhşi diviziyanın zabitini gizlədirik və onun təhvil verilməsini bizdən tələb etdilər. Mən bildirdim ki, bizim yanımızda vəhşi diviziyanın heç bir zabiti yoxdur. Bu zaman andlı iclasçı Ananyev Yeqişeyə müraciət etdi və başa saldı ki, bizim yanımızda rus ordusunun polkovniki şahzadə Mansur var və o, heç zaman vəhşi diviziyada xidmət etməmişdir.

Şahzadə Mansur da Yeqişenin qarşısına çıxaraq bunu təsdiq etdi. Yeqişe cavabında bildirdi ki, Mansurun müsəlmanlara xidmət edib-etmədiyini istintaq müəyyən edəcəkdir, istintaqa qədər isə onu Erməni Milli Şurasına aparmaq lazımdır. Sonra Mansur avtomobillə Erməni Milli Şurasının yerləşdiyi Melikovların mənzilinə aparıldı. Nikolayevskaya küçəsi ilə yuxarı istiqamətdə hücum edənlərin arasında Stepan Lalayev də var idi. Şahzadə Mansur mənə orada Jorj Melikovu da gördüyünü dedi. Mən şəxsən onu görməmişəm. Əlavə edirəm ki, "Qrand Otel" mehmanxanasının pəncərələrindən birində ikinci pulemyot dururdu;

beləliklə, Nikolayevskaya küçəsi iki pulemyotdan atəşə tutulurdu.

Oxundu. İmza. Maks Borisoviç Manaseviç.

Fövqəladə Təhqiqat komissiyasının sədri:

Ələkbər bəy Xasməmmədov (imza)

Komissiya üzvləri: Məmməd Xan Təkinski,

Prokuror köməkçisi A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 18.**

## Sənəd № 572

***Dindirmə protokolu***

*1918-ci il, 7 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Yankel David Samuyloviç Slavinski, 39 yaşım var, Bakı şəhərində yaşayıram, Nijnyaya-Priyutskaya küçəsi, dalan № 6, ev № 4.**

Mart qırğınları zamanı mənim mənzilim gözlərimin qarşısında 8750 rubl dəyərində qarət edilmişdir. Mən əmlakımın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mənzilimi ermənilər qarət etmişlər. Hətta mən erməni cinayətkarını göstərdim, tutub saxladım və o, həbs olundu. O Xaçatur Martirosov idi. Mənim yaşadığım evin sahibi – müsəlman, Əliyoldaş Əliyev və onun 4 qardaşı qətlə yetirilmiş, pulları və mənzilləri qarət edilmiş, qadınları isə əsir aparılmışdır. Mənim evimin qarət edilməsi haqqında bolşeviklərin istintaq komissiyasında[106] iş açıldı, lakin sonradan X.Martirosov azadlığa buraxıldı. Mənə 8750 rublun ödənilməsini xahiş edirəm.

Oxundu. İmza. Yankel David Samuyloviç Slavinski.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 45.**

## Sənəd № 573

*Dindirmə protokolu*

*1918-ci il, 9 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 443-cü maddəsinə uyğun olaraq şahid qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Polkovnik Vladimir Konstantinoviç Olonqren, 54 yaşım var, Bakıda, Aşurbəyov qardaşlarının Kamenistaya və Qoqol küçələrinin tinindəki 205-32 №-li evində yaşayıram.**

Bu ilin mart ayının 19-da, bazar ertəsi səhər saat 5-ə yaxın Aşurbəyovların evinə zabit formasında iki ermənin başçılıq etdiyi 20-25 nəfər silahlı erməni əsgəri daxil oldu. Bu dəstə üçüncü mərtəbədən başlayaraq evin bütün mənzillərini bir-bir gəzməyə başladı. Əli bəy Aşurbəyovun mənzilinə girərək və orada Berdan tipli tüfəngin patronlarının olduğu yeşiyi taparaq, ermənilər, heç nəyi salamat qoymadan, bütün mənzili dağıtmağa başladılar: mebeli, güzgüləri, çılçıraqları, saatları və digər əşyaları qundaqlarla sındırdılar və qiymətli əşyaları talan etdilər. Zabitlərdən ortaboylu birisi Əli bəyin xəz kürkünü geyindi və onun üstündən bir neçə əsgərin köməkliyi ilə öz forma şinelini geyə bildi və çıxıb getdi. Bu zabiti, eləcə də onun ucaboylu və həddən artıq arıq yoldaşını görsəm, tanıya bilərəm. Əli bəy Aşurbəyovun bütün ev avadanlıqlarından yalnız onun xalçalarını xilas etmək mümkün oldu. Sonradan bu evə dəfələrlə dəstə-dəstə ermənilər soxulurdu və hər dəfə mən onları dilə tutmalı olurdum ki, mənzillərə girməsinlər. Əli bəyin mənzilinin talan edilməsində iştirak edən ucaboylu zabit bütün evə baxdığı və burada müsəlmanları tapmadığı barədə mənə kağız verdi. Bu kağızı evə gələn erməni dəstələrinə göstərməli olurdum və onlar mənzillərə girmədən evdən uzaqlaşırdılar.

Oxundu. İmza. Polkovnik Olonqren.

Fövqəladə Təhqiqat komissiyasının üzvləri: Andlı iclasçı Məmməd Xan Təkinski, Prokuror köməkçisi A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 14.**

## Sənəd № 575

***Dindirmə protokolu***

*1918-ci il, 6 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Gürcüstan Respublikasının vətəndaşı Levan Vladimiroviç Qoqoberidze, 22 yaşım var, Bakıda, Merkuryevskaya küçəsi, ev № 33, mənzil 12 ünvanda yaşayıram.**

1918-ci ilin mart qırğınları zamanı mən, Balaxanı kəndində, Ağayev qardaşlarının evində yaşayırdım. Bu ev Ayrapet Surqulyantsın rəhbərlik etdiyi silahlı ermənilər tərəfindən mühasirəyə alındı və zirehli qatardan, sonra isə tüfənglərdən atəşə tutuldu. Mən özümlə qılıncımı, pullarımı, saatımı, dövlət əmanət kitabçamı, üzüyümü götürdüm və evdən qaçmağı qərara aldım. Mənimlə birlikdə Mahmud Ağayev və adlarını bilmədiyim bir neçə müsəlman qaçırdı. Arxa həyətin yaxınlığında ermənilər bizi saxladılar. Ağayev güllə ilə ayağından yaralandı. Biz mühasirəyə alındıq və polis bölməsinə göndərildik. Bu vaxt dərhal mənim yanımda olan bütün əşyalarımı əlimdən aldılar. Mən və o birilər beş gün bölmədə qaldıq. Ondan sonra məni və tanımadığım Rəhimov soyadlı birisini azad etdilər, qalanlarını – Ağayev qardaşlarını və bir rusu gözlərimizin qabağında güllələdilər. Ağayev qardaşları 5 nəfər idi və onlardan kiçiyinin 8, böyüyünün isə 40 yaşı var idi. Ermənilər birinci bölmənin yaxınlığında güllələyirdilər, adamları arxadan vururdular. Sonra isə qundaqlarla, süngülərlə güllələnənlərin axırına çıxırdılar.

Mənim qarət edilmiş əmlakımın ümumi dəyəri 1918-ci ilin mart ayınadək olan qiymətlərlə 46.230 rubl təşkil edir. Mənim əşyalarımın indiki qiyməti isə 138.690 rubldur və bu məbləğin mənə ödənilməsini xahiş edirəm. Mən talan edilmiş əmlakımın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Qoqoberidze. İmza.

Komissiya üzvləri: Aleksandroviç,

Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 41.**

## Sənəd № 576

*Dindirmə protokolu*

*1918-ci il, 5 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**İvan Mixayloviç Kazakov, Moskva quberniyasının vətəndaşı, 41 yaşım var, Bakı şəhəri, Serkovnaya küçəsi, 138 №-li evdə yaşayıram.**

1918-ci ilin mart qırğınları zamanı, çərşənbə axşamı, martın 20-də səhər saat 10-da evin həyətinə erməni əsgərləri gəldi və bildirdilər ki, bizə görə cavabdeh ola bilməzlər və axşama yaxın nə baş verəcəyini bilmirlər, buna görə də şəhərin ermənilər yaşayan hissəsinə çıxıb getməyimizi məsləhət gördülər. Bizə mühafizə vermədilər, amma darvazadan buraxdılar. Evdə ailəsi ilə birlikdə bir erməni qadın var idi, ikinci erməni ailəsi isə qabaqcadan, bazar günü, 1918-ci ilin mart ayının 18-də başlamış hadisələrdən bir, ya iki gün əvvəl çıxıb getmişdi. Qalan bu ailəni erməni əsgərləri elə tez apardılar ki, biz hətta gözümüzü yumub-açmağa macal tapmadıq. Bu səbəbdən biz özümüzü itirdik və bütün sakinlər, ruslar və yəhudilər evi tərk etdilər.

Həmin bu evin sakini – müsəlman İsmayıl İsrafilov erməni əsgərləri tərəfindən aparıldı və hadisələrdən sonra dəqiq məlum oldu ki, onu öldürüblər. Onun arvadı və qızı bizimlə birlikdə qaçırdı, lakin yolda onun arvadı ərinin meyitini görüb geridə qaldı və onu əsir götürdülər, qızını isə mən özümlə Çornıy Qoroda apardım, o biri gün isə biz onu Mailov teatrında əsirlikdə olan anasına təhvil verdik.

Ertəsi gün səhər saat 10-da mən öz mənzilimə qayıtdım və hər şeyin ora-bura səpələndiyini gördüm, bufet qırılmış, komodun bütün gözləri çıxarılmış, qarderob açıq və boş idi, hər şey tərtəmiz aparılmışdı, yalnız əski-üskü qalmışdı. Görünürdü ki, talançılar qundaqlarla və süngülərlə işləmişdilər. Mənim və qonşum Kvasnikin mənzilini ermənilər qarət etmişdilər. Qonşum Kvasnik palto və digər qadın əşyalarını ermənilərdən axtarıb tapdı, mən isə əşyalarımın izinə düşə bilmədim. Mənzilimdən oğurlanmış və ümumi dəyəri 4047 rubl olan əmlakımın geniş siyahısını təqdim edirəm. Bu məbləğ mart qiymətləri üzrədir. Hal-hazırda bu əm-

lakın qiyməti 12.414 rubldur, sındırılmış və təmiri 200 rubl olan bufetin qiymətini də bu məbləğə əlavə etməliyəm. Ümumilikdə mənə 12.341 rubl ödənilməsini və siyahının işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. İmza.

Komissiyanın sədri: Ə.Xasməmmədov (imza).

Komissiya üzvləri: Aleksandroviç, Məmməd Xan Təkinski,
A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 28.**

## Sənəd № 577

***Dindirmə protokolu***

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Aleksandra Qavrilovna Baranova, 51 yaşım var, Petroqrad sakiniyəm, Bakı şəhəri, Sisianovskaya küçəsi, 25 №-li evdə yaşayıram.**

Bu il mart ayının 20-də gecə erməni əsgərləri mənim Sisianovskaya küçəsi 25 №-li evdə yerləşən mənzilimə soxuldular və mənim mənzilimi 13.150 rubl məbləğində qarət etdilər. Əşyaların siyahısını təqdim edirəm və işə əlavə edilməsini xahiş edirəm. Müsəlmanlar evin divarını sökməklə həyətə keçid açaraq məni evdən çıxardılar, bundan sonra müsəlmanlar qonşu evlərdə daha 5 dəlik açaraq məni, mənim 32 yaşlı qızım Vera Georgiyevna Niyaşevskayanı, onun 5 yaşlı oğlu Aleksandrı, dayə Lyubovu, mənim 18 yaşlı qızım Ninanı, 3 nəfər qulluqçunu və 4 nəfər pansionçunu 9-10 yaşlı müsəlman oğlanlarını, 2 nəfər Əliyevləri, Qasımovu və Quliyevi evdən çıxarıb apardılar. Bizi rus-tatar məktəbinə[107] gətirdilər, burada yaxşı çörək, kabab, papiros və pirojki verərək bizi yaxşı yedirtdilər. Yuxarıda göstərilən evdən əsgər olan erməni qızı Mariya Ayrumova atırdı. O, müsəlmanlara atəş açırdı. Mən öz əmlakımı yeni qiymətlərlə, yəni mart qiymətləri ilə dəyərləndirirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 196.**

## Sənəd № 578

*Dindirmə protokolu*

*1918-ci il, 28 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Nina Georgiyevna Baranova, 20 yaşım var, savadlıyam, Bakı şəhəri, Sisianovskaya küçəsi, 25 №-li evdə yaşayıram.**

Bakıda 1918-ci ilin mart qırğınları zamanı mən, anam Aleksandra Qavrilovnanın yanında, yuxarıda göstərilmiş ünvanda yaşayırdım. O zaman bizim yalnız müsəlman uşaqlarının gəldiyi məktəbimiz və uşaq bağçamız var idi. Mənzil ikinci mərtəbədə yerləşir, ev isə dörd mərtəbəlidir və onun 4-cü mərtəbəsində Ayrumovlar adlı erməni kirayənişinlər yaşayırdılar. Bütün üç gün ərzində, martın 18, 19, 20-də 4-cü mərtəbədən, Ayrumovların mənzilindən atışma səsi eşidilirdi, axırda məlum oldu ki, atışan Ayrumovların 17-19 yaşlı qızı – Manyadır, o, əvvəl türk cəbhəsində olmuş və həmişə Qızıl Orduda xidmət etmişdir. Mən indi də ona Bakıda, əsgər formasında rast gəlirəm. Müsəlmanlar bizim evin ikinci mərtəbəsinin divarını dağıtdılar və birbaşa bizim mənzilə daxil olaraq ermənilərin təhvil verilməsini tələb etdilər, onları öldürmək istəyirdilər. Müsəlmanların arasında onların başçısı Babayev - bizim iki şagirdimizin əmisi oğlu var idi, anam onları yola gətirə bildi ki, erməniləri öldürməsinlər və beş nəfərdən ibarət Ayrumovların hamısı mənim anamın məsuliyyəti altında bizim evdə qaldılar. Bütün kirayənişinlər bizim mənzilimizə toplaşdılar və gecə saat ikiyədək orada qaldılar. Bu, çərşənbə axşamı, mart ayının 20-də baş vermişdi. Müsəlmanlar gecə bizim hamımızı, o cümlədən Ayrumovları, öz mühafizələri altında Suraxanskaya küçəsindəki rus-tatar məktəbinə apardılar. Bizim məhəllə artıq ermənilər tərəfindən tutulmuşdu və biz Bazarnaya küçəsinədək müsəlmanlar tərəfindən evlərdə açılmış 9 dəlikdən keçməli olduq. Bizimlə birlikdə digər evlərin sakinləri də keçdilər.

Bizim olmadığımız müddətdə ermənilər səhər saat 5-də bizim evin qapısını sındırmış, bizim mənzilimizi yararaq, onun bir hissəsini 13.000 rubl dəyərində qarət etmişdilər. Qarovulçumuz İvan Türin bizim əşyalarımızı daşıyan ermənilərin artıq ikinci dəstəsinin qarşısına çıxmış və onları

inandırmağa çalışmışdır ki, əşyalar ruslara məxsusdur, lakin bunun heç bir köməyi olmamışdır. Ermənilər deyiblər ki, burada müsəlman məktəbi olmuşdur, əgər müəllimə ailəsi ilə birlikdə mənzilində qalmış olsaydı, onların da hamısını öldürəcəkdilər. Mənzilin qarət edilməsinin qarşısını zabit Xıdırov aldı; biz hamımız evlərimizə qayıtdıq və Ayrumovlar öz qiymətli əşyalarını götürərək, çıxıb getdilər. Bizim mənzilimiz tamamilə talan edilmişdi. 1918-ci il sentyabr ayının 14-də, şənbə günü, türklərin Bakıya gəlməsi ərəfəsində, Ayrumovlar xilas olmaq ümidi ilə yenidən bizim mənzilimizə gəldilər, lakin mən onları qovdum və onlar gəmi ilə Ənzəliyə qaçdılar. Ayrumovların evdə olmadıqları müddətdə evin bütün kirayənişinləri onların mənzilini axtardılar, xeyli patron və bomba taparaq türklərə təhvil verdilər.

İmza: Nina Georgiyevna Baranova.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A. Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 88-89.**

## Sənəd № 581

*Dindirmə protokolu*

*1918-ci il, 14 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Varvara Vasilyevna Antipova, 39 yaşlı, Bakı şəhəri, Kamenistaya küçəsi, 156 №-li evdə, 4-cü mərtəbədə yaşayıram.**

Bakıda mart qırğınları zamanı mən Kamenistaya küçəsi, 156 №-li evdə yaşayırdım və həmin günlər mənim mənzilimə dəstə-dəstə 50-60 nəfər erməni əsgəri gələrək axtarışlar aparırdılar. Onlar silah axtarırdılar. Onlar bir neçə dəfə gəlmiş və bizi tamamilə evdən çıxararaq şəhərin o biri başına, vağzal tərəfə qovmuşdular. Mən diz üstə ermənilərə və onların rəislərinə yalvarırdım, onların əlini öpürdüm və ağlayırdım ki, bizi mənzilimizdən və evdən qovmasınlar. Ermənilər mənim mənzilimdən köhnə qiymətlə 12.325 rubl məbləğində əşyalarımı qarət etmişlər. İndiki vaxtda mənim əmlakımın bir neçə dəfə, qat-qat baha qiyməti vardır. Ermənilər

tatar evi olduğu üçün bizim evi partlatmaq istəyirdilər və biz çətinliklə onları dilə tutduq ki, bizi müflis etməsinlər.

Oxundu. İmza. V.Antipova.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 211.**

## Sənəd № 582

***Dindirmə protokolu***

*1918-ci il, 9 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Darya Minayeva Xarçenkova, Bakı, 4-cü Kirpiçnıy döngəsi, №-3, Quliyevin evi, 47 yaşlı.**

1918-ci il martın 20-də mənim yaşadığım evin həyətinə iyirmi nəfər silahlı erməni soxuldu və bizdən evdə iranlının olub-olmadığını soruşdu. Biz cavab verdik ki, evin sahibi iranlı çıxıb getmişdir, evdə isə başqa iranlılar yoxdur, ev sahibinin evində isə yalnız əsir türk yaşayır. Bu zaman ermənilər ev sahibinin mənzilinə atəş açmağa başladılar, lakin biz onlara təklif etdik ki, əsir türkü çağırsınlar və o, yəqin ki, gələr. Əsir türk mənzildən çıxdı və biz ermənilərdən xahiş etdik ki, onu öldürməsinlər. Amma ermənilərdən biri türkə atəş açdı və onu öldürdü. İçəri soxulmuş ermənilər başqa, artıq silahsız ermənilərlə birlikdə ev sahibinin mənzilinə girdilər və ipəkdən olan əşyaları, un, xəz kürkü, telefon aparatını və d. əşyaları çıxarmağa başladılar.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v.16.**

## Sənəd № 588

*Dindirmə protokolu*

*1918-ci il, 20 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Nikolay Pavloviç Ter-Kasparov, 36 yaşım var, Bakı şəhəri, Bondarnaya küçəsi, 131 №-li evdə yaşayıram.**

Bu ilin mart ayında Bakıda 18-20 tarixlərdəki hadisələr zamanı, Rəsulovun Bazarnaya küçəsi, 11, Qubernskaya küçəsinin tinində yerləşən evi yandırılmışdır. Bu evdə mənim də mənzilim vardı və yanğın zamanı mənim bütün əmlakım və arvadımın – Sofya Mixaylovnanın diş müalicəsi kabineti məhv olmuşdur.

Mənə ümumilikdə 92.000 rubl məbləğdə ziyan vurulmuşdur və siyahının işə əlavə olunmasını xahiş edirəm. Hadisələrdən bir gün əvvəl mənzilimi bağlayaraq xəzinədarlıq binasına köçmüşdüm.

Oxundu. İmza. Nikolay Pavloviç Ter-Kasparov.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 44.**

## Sənəd № 590

*Dindirmə protokolu*

*1919-cu il, 18 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Viktor Pavloviç Smirnov, 37 yaşım var, Bakı şəhəri, Tatarskaya küçəsi, 36 №-li evdə yaşayıram.**

1918-ci ilin martında ermənilərin müsəlmanlara qarşı çıxışı zamanı Tarayevin Voznesenskaya, Kolyubakinskaya, Verxnyaya-Tazapirskaya və Vodovoznaya küçələrinə çıxan nəhəng evi yandırılmışdır. Bu zaman mənim də

ev əşyaları, kitablar, və təqdim edilən siyahıda göstərilməyən müxtəlif ərzaq məhsullarından ibarət bütün əmlakım yanmışdır. Mənə ümumilikdə, 25.785 rubl məbləğində zərər dəymişdir. Xahiş edirəm, pulun mənə vurulmuş zərərin ödəniləcəyi vaxtdakı dəyəri ilə mənə dəyən ziyanı ödəyəsiniz.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, M.X.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 36.**

## Sənəd № 592

***Dindirmə protokolu***

*1918-ci il, 8 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**İrina Proxorovna Kotova, 45 yaşım var, Bakı şəhəri, Verxnyaya-Priyutskaya küçəsi, 97 №-li evdə yaşayıram.**

Bu ilin martında ermənilər mənim xidmətçi işlədiyim Şıx Balayevin evini talan etdikləri zaman mənim də ümumilikdə 4000 rubl məbləğində əşyalarımı aparmışlar. Mən evə hücum olunana qədər Serkovnaya küçəsinə qaçmağa macal tapmışdım.

Oxundu. Savadsızdır. Onun yerinə imza etdi( imza ərəb hərfləri ilə).

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 134.**

## Sənəd № 593

***Dindirmə protokolu***

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Serop Qazaroviç Gevorkov, 52 yaşım var, Bakıda, Malaya Morskaya və Çadrovaya küçələrinin kəsişməsində, 9\238 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı Tarayevin Kolyubakinskaya küçəsindəki, o zaman mənim yaşadığım, evi yandırılmışdır. Yanğın zamanı mənim əşyalarım və bütün avadanlıqlar yanmışdır. İtirilmiş əşyalarım - 27.605 rubl, yeni qiymətlərlə isə 80.000 rubl dəyərində - əlavə etdiyim ərizə və siyahıda göstərilmişdir.

Oxundu. İmza.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 141-142.**

## Sənəd № 595

***Dindirmə protokolu***

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Alisa Vilqelmovna Volfeyl, 35 yaşlı, Bakı şəhəri, Molokanskaya küçəsi, 25 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim Serkovnaya küçəsi 147 №-li evdə yerləşən mənzilimdən təqdim edilən siyahıda göstərilən və qiyməti 1080 rubl olan müxtəlif əşyalarımı aparmışlar. Onların yeni qiyməti 5000 rubla yaxındır.

Oxundu. İmza.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 149.**

## Sənəd № 597

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Malaxiy Spiridonoviç Saqanelidze, 32 yaşlı, Bakı şəhəri, Bondarnaya küçəsi, 111 №-li evdə yaşayıram.**

Mən Biləcəri stansiyasında bufet işlədirəm. Bu ilin mart ayında erməni əsgərləri oraya gəldilər, bufeti və mənim mənzilimi qarət etdilər. Oğurlanmış əşyaların siyahısını təqdim edirəm. Köhnə qiymətlə onların dəyəri 199.570 rubl idi. Yeni qiymətlərlə mənə vurulmuş ziyan təxminən 700.000 rubla bərabərdir.

Oxundu. İmza.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 187.**

## Sənəd № 602

*Dindirmə protokolu*

*1918-ci il, 9 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Abram Moiseyeviç Edlin, 37 yaşım var, Bakıda, Verxnyaya-Priyutskaya küçəsi, 97 №-li evdə yaşayıram.**

Mart qırğınları zamanı mənim yaşadığım Mordux Çarnonun mənzilində ermənilər tərəfindən bütün şkaflar, bufetlər və başqa mebel sındırılmış, təqdim olunan siyahıda göstərilən bütün əşyalar qarət edilmişdir. Bizim ümumi zərərimiz köhnə qiymətlə 35.000 rubla bərabərdir.

Oxundu. İmza.

Komissiya üzvü: Prokuror müavini A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 140.**

## Sənəd № 606

*Dindirmə protokolu*

*1918-ci il, 5 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli Əsgər Xuda Baxış oğlu, 23 yaşlı, Ərdəbil şəhərindən, İran təbəəsi, Bakı şəhəri, Verxnyaya-Naqornaya küçəsi, 18 №-li evdə yaşayıram.**

Mən və digər müsəlmanlar da daxil olmaqla, təxminən 850 nəfər bu il noyabr ayının 2-də "Poseydon" gəmisində Həştərxandan Petrovsk şəhərinə gəldik və limanda dayanmış "Kornilov" gəmisində baş vermiş yanğınla əlaqədar olaraq üç gün dənizdə dayandıq. Dördüncü gün "Poseydon" gəmisindən qoca, qadın və uşaqları "Evelina" gəmisinə keçirdilər, erməni əsgərləri onları Bakıya yola saldılar, qalan müsəlmanları isə, təxminən 760 nəfərə yaxın, 18-45 yaşlarında, Petrovsk şəhərinin yaxınlığında sahilə çıxardılar. Yoxsullar məsciddə, pulu olanlar isə mehmanxanalarda və şəxsi evlərdə yerləşdilər. Bundan sonra Stepan Lalayevin başçılıq etdiyi erməni əsgərləri gün ərzində bir neçə dəfə onların yanına gəlir və müsəlmanları hissə-hissə həbsxanaya və şəhər kənarına aparırdılar. Yolda, həmçinin həbsxanada ermənilər müsəlmanları güllələyirdilər. Ermənilər Petrovsk şəhərinin bağlarında müsəlmanları əzablı işgəncələrə və ölümə məhkum edirdilər; 10, 8 və ya 7 nəfəri boynu ardınca bir-birinə bağlayır, eləcə də yerdə 7-8 nəfəri bir-birinin üstünə yığır və öz aralarında mərc gəlirdilər ki, kimin tüfənginin gülləsi bir-birinə bağlanmış adamların hamısını bir dəfəyə vurub deşə bilər. Sonra ermənilər 7-10 nəfərin qollarını zəncirlə bağlayır və soyuq silahla başlarına, qarınlarına, sinələrinə ölümcül zərbələr endirərək, bir-bir öldürürdülər. Bunun ardınca ermənilər müsəlmanları iki-iki üz-üzə bağlayır və qılıncla başlarını üzürdülər. Bu sonuncu üsulla 50 nəfər öldürülmüşdü və onların cəsədləri sonradan aşkar edilmişdi. Ümumilikdə isə ermənilər tərəfindən 535 nəfər qətlə yetirilmişdi və türklər Petrovsk şəhərinə gəldikdə müsəlmanların həmin sayda cəsədləri aşkar edilmişdi. Əgər türklər belə tez gəlməsəydilər Petrovsk şəhərinin bütün müsəlmanlarını bu cür ölüm gözləyirdi. Meyitlər eybəcər hala salınmışdı, əlsiz, ayaqsız, kəllələri dağıdılmış vəziyyətdə idi və çoxlarını tanımaq mümkün deyildi. Türklər bütün meyit-

lərin şəklini çəkdilər və saylarını müəyyənləşdirdilər. Mənim qardaşımı öldürmüşdülər, başını tamamilə dağıtmışdılar və mən onun meyitini yalnız kostyumundan tanıya bildim.

Bütün bu vəhşiliklərə Stepan Lalayev, Ruben Ağamalyants və beş nəfər digər ermənilər rəhbərlik edirdi. Bu sonuncular milliyyətcə rus, lakin soyadını bilmədiyim qarnizon rəisinin yanında xidmət edirdilər. Ermənilər mənim 500 rubl dəyərində paltomu və 6000 nağd pulumu qarət ediblər. Türklər gəlməsəydi, yəqin ki, mən də əzablı ölümdən qaça bilməyəcəkdim. İndi burada, Bakı şəhərində, müsəlmanları Petrovskda qətlə yetirmiş 7 nəfər ermənini sivil geyimdə görürəm, onlar tam azad şəkildə sakitcə şəhərdə gəzib-dolanırlar. Onların məsuliyyətə cəlb edilməsi haqqında sərəncam verməyinizi xahiş edirəm. Onların soyadlarını bilmirəm, amma bu şəxsləri göstərə bilərəm. Onlarla küçədə rastlaşanda, mən ağladım.

Oxundu. Əli Əsgər Xuda Baxış oğlu, imza.

Komissiya üzvləri: Aleksandroviç, Məmməd Xan Təkinski,

A.Kluge (imzalar).

İfadəmə əlavə olaraq göstərirəm ki, bu gün Bakının Şamaxinka hissəsində, çörək alarkən 7 erməni qatilindən biri ilə rastlaşdım, o məni yanına çağırdı, necə sağ qaldığımı soruşdu və dedi: “Tezliklə hamınızın birdəfəlik axırına çıxacağıq”.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, Məmməd Xan Təkinski,

A. Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 31-32.**

## Sənəd № 607

*Dindirmə protokolu*

*1919-cu il, 24 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**İran təbəəsi, Xoy şəhərinin sakini, Məşədi Abbas Hacı Rza oğlu, 50 yaşım var, Bakı şəhəri, 1-ci Kanitapinskaya küçəsi, 109 №-li evdə yaşayıram.**

1918-ci ilin mart ayının 18-də Bakıda törədilən qanlı hadisələr zamanı, müsəlmanlar ermənilər tərəfindən amansızcasına qətlə yetirilərkən, mənim oğlum, 20 yaşlı gənc, Sadıq da ermənilərin qurbanı olmuşdur. Ermənilər yuxarıda göstərilən tarixdə mənim evimin yanındakı küçədə oğlumu yaraladılar və yaralı oğlum, qanı axa-axa evə gəldi. Ağır yaralını özümüzlə aparmaq iqtidarında olmadığımız üçün, onu evdə qoyaraq, mən ailəmin bütün üzvləri ilə birlikdə, qaçmaqla canımızı qurtardıq. Barışıq elan edildikdən sonra evimə qayıtdıqda, oğlumu ölmüş və eybəcər hala salınmış vəziyyətdə tapdım, bədənində çoxlu sayda süngü yaraları var idi, başı isə demək olar ki, tamamilə əzilmişdi, görünür, ermənilər iri daşlarla oğlumun başına vurmuşdular. Beləliklə, mən bədbəxt, sonuncu oğlumu və qoca yaşlarımda sonuncu dayağımı itirdim. Ermənilər tərəfindən həmçinin mənim mənzilim talan edilmiş və 173.905 rubl (yeni qiymətlə) dəyərində əmlakım aparılmışdır.

Oxundu. Savadlıdır. İmza. (ərəb hərfləri ilə)

Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 88.**

## Sənəd № 608

***Dindirmə protokolu***

*1918-ci il, 20 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ələkbər Tağı oğlu, İran təbəəsi, Bakı şəhəri, Bazarnaya küçəsi, 43 №-li evdə yaşayıram, savadsızam.**

Mənim, biri Vrangelskaya küçəsi, 19 №-li evdə, digəri isə Bazarnaya küçəsi, 3 №-li evdə yerləşən iki çayxanam, həmçinin Vorontsovskaya küçəsi 7 №-li evdə baqqal dükanım, Bazarnaya küçəsi, 3 №-li evdə isə mənzilim var idi. Mart ayının 20-də erməni əsgərləri mənim hər iki çayxanamı, baqqal dükanımı və mənzilimi - 224.000 dəyərində - qarət etmişlər. Qarət edilmiş əşyaların siyahısını təqdim edirəm. Qarətdən sonra erməni əsgərləri içində 50 nəfərdən artıq müsəlmanın tamamilə yandığı

"Dağıstan" mehmanxanasına od vurdular, "Dağıstan" mehmanxanasının qarşısında yerləşən Karvansaraya od vurdular və burada 100 nəfərdən artıq müsəlman tamamilə yandı. Bunun ardınca erməni əsgərləri Abbas Eyvazovun Lalayevin evində yerləşən Karvansarayına soxuldular və erməni zabiti revolverlə 7 müsəlmanı - mənim üç bacım oğlanlarını - Mövsüm Ağa Sadıq oğlunu, Mirzə Bağır Mövsüm oğlunu, Qulam Əli Bəyməmməd oğlunu, Qarabağ sakini Salmanı və onun qardaşı İsgəndəri, "Növbahar" restoranının işçisi Qurban Əlini öldürdülər.

Ola bilsin ki, ermənilər daha çox adam öldürmüşlər, lakin mən yalnız bu şəxsləri tanıyıram. Mən "Dağıstan" mehmanxanasında idim və İran konsulunun evinə qaça bildim.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR PİI SSA, f. 277, s. 2, iş 15, v. 38-39.**

## Sənəd № 609

*Dindirmə protokolu*

*1918-ci il, 18 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Şükür Hüseyn oğlu, 30 yaşım var, İran təbəəsiyəm, Bakı şəhəri, Çadrovaya küçəsində yaşayıram.**

Bu ilin mart ayının ortalarında erməni əsgərləri evimizə soxuldular, beş müsəlmanı - İran təbəələrini və bir qadını öldürdülər. Mən erməni əsgərlərinə 5822 rubl verdim və bunun sayəsində ermənilər məni öldürmədilər, ancaq məni və ailəmi əsir apardılar. Ermənilər müsəlman evlərinin hamısını qarət etdilər və bütün əşyaları götürüb apardılar. Ermənilər mənim də mənzilimi qarət etdilər və təqdim etdiyim siyahıda göstərilmiş əşyalarımızı apardılar, bu siyahının işə əlavə olunmasını xahiş edirəm. Ermənilər mənzilimi 27.350 rubl dəyərində qarət etmişlər.

Oxundu. Savadsızdır.

Fövqəladə Təhqiqat Komissiyasının üzvü:
Məmməd Xan Təkinski (imza).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 161.**

## Sənəd № 613

*Dindirmə protokolu*

*1919-cu il, 24 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli Murad Səfər Əli oğlu, 35 yaşım var, İran təbəəsi, Sərab şəhərindənəm, Bakı şəhəri, Budaqovskaya küçəsi, 81 №-li evdə yaşayıram.**

Bakı şəhərində 1918-ci il mart hadisələri zamanı silahlı ermənilər yuxarıda göstərilən evə soxuldular və iki hissəyə ayrılaraq, mənzillərə girməyə başladılar; onlar daha sağlam və gənc kişiləri öldürdülər, qadınları və qoca və xəstə kişiləri, o cümlədən, bütün ailəmlə birlikdə, məni də əsir götürdülər, və şəhər nəqliyyatının 5-ci Kanitapinskaya küçəsindəki binasına apardılar. Orada 4 gün saxladıqdan sonra bütün əsirlərlə birlikdə məni azad etdilər və mən öz mənzilimə qayıtdıqda, onun ermənilər tərəfindən qarət edildiyini gördüm: köhnə qiymətlərlə 22.085 rubl dəyərində qiymətləndirdiyim əmlakımın hamısı qarət edilmişdi. Qarət edilmiş əşyaların siyahısının işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadlıdır. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 4.**

## Sənəd № 617

***Dindirmə protokolu***

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Yaqub Məmməd Tağı oğlu, 35 yaşım var, İran təbəəsi, Zabrat kəndində, Volginskaya küçəsi 262 №-li evdə yaşayıram.**

Bu il sentyabr ayının ilk günlərində erməni əsgərləri Zabrata girdilər. Mən qaçdım, ermənilər isə mənim dükanımı 29.660 rubl məbləğində qarət etdilər və 3.300 nağd pulu apardılar. Siyahını təqdim edirəm. Mənə məlumdur ki, ermənilər Zabrat kəndində 30 nəfəri öldürmüş və hər şeyi talan etmişlər. Bundan başqa, erməni əsgərləri mənim evimi qarət etmiş və mənim əşyalarımı aparmışlar.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 102.**

## Sənəd № 618

***Dindirmə protokolu***

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Müftəli İsmayıl oğlu, 35 yaşım var, İran təbəəsi, çoxdan Bakıda, 7-ci Parallelnaya küçəsində yaşayıram, savadsızam.**

Bu il mart ayında ermənilər quldurluq yolu ilə mənim evimi soyublar, amma mənim yaxınlarımdan heç kimi öldürməyiblər və yaralamayıblar, çünki qaçmışdıq. Əşyaların siyahısını təqdim edirəm. Köhnə qiymətlə cəmi 8.200 rubl məbləğində əmlak qarət olunmuşdur.

İfadə oxundu. Savadsızdır.

Fövqəladə Təhqiqat Komissiyasının sədri: Ələk. Xasməmmədov
Komissiya üzvü: A.Kluge (imza).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 96.**

## Sənəd № 619

*Dindirmə protokolu*

*1919-cu il, 4 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Muxtar Həsən oğlu Hüseynov, 45 yaşlı, İran təbəəsi, Bakı şəhəri, Aziatskaya küçəsi, 1 №-li evdə ,Axundovun evi, yaşayıram.**

Bakı şəhərində 1918-ci il mart qırğınları zamanı Qubernskaya küçəsi 57 №-li evdə yerləşən bərbərxana dağıdılmış və 22.700 rubl məbləğində müxtəlif əmlak qarət edilmişdir.

Savadlıdır, oxunmuşdur. İmza (ərəb hərfləri ilə).
Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 58.**

## Sənəd № 620

*Dindirmə protokolu*

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Fəxrəddin Abdulla oğlu, 33 yaşım var, İran təbəəsi, çoxdan Bakıda, 7-ci Parallelnaya küçəsində yaşayıram, savadsızam.**

Bu il sentyabr ayının ilk günlərində erməni əsgərləri Sabunçuya girdilər və mənim dükanımı 45.340 rubl məbləğində qarət etdilər.

Oxundu. İmza (ərəb hərfləri ilə).
Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 102.**

# FƏSİL IV

## DƏYMİŞ ZİYANLAR HAQQINDA ŞAHİD İFADƏLƏRİ

(mülki, sənaye, sosial, ticarət və digər obyektlər)

## Sənəd № 621

### AKT

1918-ci il, 22 noyabrda Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası, ekspert qismində xüsusi olaraq dəvət edilmiş quberniya Mühəndisi A.M.Şternberqin iştirakı ilə, "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin 1918-ci ilin martında yanmış binasına baxış keçirdi və aşağıdakıları aşkar etdi.

Bina Nikolayevskaya küçəsində Birinci və İkinci Nikolayevskaya döngələrinin arasında yerləşir və 4 №-li məhəllənin 440 kvadrat sajen ərazisini əhatə edir.

Bina azacıq Mavritaniya üslubunun qarışığı ilə qotika üslubunda, göstərilən üslubun detallarının hazırlanması üçün zəruri olan çox gözəl yonulan yerli əhəngdaşının Badamdar növündən - kiçik müstəvilərin kaşı kərpic və mozaik medalyonlarla bəzədilməsi ilə - tikilmişdir.

Binanın ictimai istifadə üçün nəzərdə tutulmuş əsas hissəsi dəbdəbəli daxili bəzəyi və bütün detalların dəqiqliyi ilə seçilirdi. Hal-hazırda binanın həyətə yarımsirkulyar çıxıntısında yerləşən mərkəzi giriş pilləkəni tamamilə uçmuşdur. Dəmir-beton pilləkənlər və tirlər onların üzərinə tökülmüş tavanın və yuxarı meydançanın dəmir tirlərinin ağırlığına davam gətirməmişdir və yanğının çox yüksək temperaturundan əyilmiş və qatlanmış bu tirlərlə birlikdə pilləkənin aşağı meydançasında xaotik tonqal yaratmışdır. Binanın çatı, həmçinin iki rəngli mərkəzi böyük salonun üstündəki tirləri ağacdan idi və onlar tamamilə yanmışdır; lakin çatıların şprengel hissələrini birləşdirən iri dəmir halqalar və onlara doğru çəkilib gətirilmiş tavan tirləri uçaraq 1-ci mərtəbənin döşəməsinin dəmir tirləri üzrə kərpic qübbələri müxtəlif yerlərdən deşmişdir və yerdən yuxarıya qədər birbaşa dəliklər açmışdır. Salonun döşəməsinin tirləri hərarətdən əyilmişdir və döşəmənin düz səthi bütövlükdə çatlarla dolu dalğavarı görünüş ifadə edir.

Salonun, foyenin və pilləkənin yapma naxışlı kirəc bəzək işləməsi hərarətdən və divar daşlarının alışmasından aralanmış və bəzi yerlərdə qopub düşmüşdür. Əsas korpusun divarlarının hər iki tərəfdən alovun hərarətinə məruz qalmış yerlərində – daşın keyfiyyətini o dərəcədə dəyişmişdir ki, ondan tikinti materialı kimi istifadə edilə bilməz. Daha az yan-

mış bayır fasad divarı, daşlarda olan çatlar, laylanma və yanğının sonrakı nəticələrinin olacağı ehtimalı nəzərə alnmaqla, atmosfer təsirləri ilə birlikdə yalnız çox məsuliyyət istəməyən tikintilərdə yonulmamış daş kimi istifadə edilə bilər.

Əsas korpusun birinci mərtəbəsi əsas girişdən gələn bir aralıq istisna olmaqla, 4 böyük mağaza gözündən - kənardakılar dəmir-beton örtüklü - ibarət idi. Əsas dəmir-beton tirlər hərarətin təsirindən əhəmiyyətli dərəcədə əyilmişdir və onların, eləcə də kənar pilləkənlərin uçmaq təhlükəsi vardır. Onların konstruksiyası - dəmirləri divara oturdulmuş dəmir-beton pilləkənlər, kosoursuz (pilləkənin yan taxtası) dəmir tirlər üzərində meydançalar. Daxili hərarətdən bayır divar qabarma vermişdir və daxili divarlarda pilləkənin iki səkisinin arasındakı hissədən keçən çatlar yaranmışdır, bu səbəbdən asma pilləkənin bağlılığı pozulmuşdur və uçmaq təhlükəsi vardır. İşçilər üçün mənzil kimi nəzərdə tutulmuş yan fligellər (evlər) həm fasadına, həm də daxili bəzəyinə görə əsas binadan sadədir. Hər üç mərtəbədə tirlər ağacdan idi, tamamilə yanmışlar və damın uçması nəticəsində indi binanın bünövrəsi heç bir otaqlara bölünmə əlaməti olmadan açıq görünür. Binanın hər yerində yalnız korlanmış vəziyyətdə daş və dəmir hissələr qalmışdır və hətta fasad pəncərələrinin dəmir çərçivələrinin sement işləmələri hərarətin təsirindən uçub tökülmüşdür, bütün çərçivələr, qapılar və s. tamamilə yox dərəcəsindədir.

Bina buxarla isitmə sistemi ilə təchiz edilmişdi və kameraların qalıqlarından göründüyü kini, yəqin ki, qızdırılmış havanın verilməsi ilə isidilirmiş, lakin pəncərələrin taxçalarındakı əyilmiş, yanıb qaralmış borulardan asılıb qalan radiatorların vəziyyəti onların hətta əsaslı təmirdən sonra istifadə edilməsinin mümkünlüyünü şübhə altında qoyur. Binanın mərkəzi hissəsi kifayət qədər çoxlu sayda yanğınsöndürən kranlarla təchiz edilmişdi, lakin onların, baxış keçirilməsi mümkün olanlarının, hamısı bağlı idi və bu da alovun lokallaşdırılması üçün tədbirlərin görülmədiyindən xəbər verir, daha doğrusu əksinə, belə ki, binada alışan material çox az idi və buna baxmayaraq bu aktda göstərilən səbəblərə görə bütün binanın hal-hazırda heç bir qiyməti olmadığı bizim tərəfimizdən təsdiq olunur.

Eskizə əsasən binanın həcmi təxminən 3000 kub sajen təşkil edir. 1907-1908-ci illərdə bu cür binanın bəzəkli işlənmə ilə tikilməsinin dəyəri bir kub sajena görə 100-120 rubl təşkil edirdi və deməli, binanın qiy-

məti 330.000 rubla yaxın olmalı idi. Hal-hazırda işçi qüvvəsinin qiyməti o vaxtdan 25 dəfə, tikinti materiallarının qiyməti isə orta hesabla 20 dəfə artmışdır. Orta hesabla işçi qüvvəsinə çəkilən xərci materialın xərcinə bərabər tutsaq, binanın indi tikilməsinin qiymətinin 22 dəfə artdığını alırıq, yəni bu qiymət 7.260.000 rubl təşkil edir və bunu hazırkı aktda yazmağı qərara aldıq.

Bakı Quberniya Mühəndisi: Mühəndis Şternberq (imza).

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 168-169.**

## Sənəd № 622

### *Protokol*

*1918-ci il, 22 noyabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının tapşırığı ilə, adı çəkilən Komissiyanın üzvü, aşağıda adları çəkilən şahidlərin iştirakı ilə ermənilər tərəfindən 1918-ci ilin martında Bazarnaya küçəsində yandırılmış binaların xarabalıqlarına baxış keçirmişdir:*

1. Bazar küçəsinin başlanğıcında Xanlarovun evinin xarabalıqları yerləşir; hal-hazırda aşağı mərtəbə təmir edilmişdir. Təsvir edilən evin fasadı Bazarnaya küçəsinə, yan fasadları isə Vrangelevskaya və Çelyayevskaya küçələrinə baxır. Bazarnaya küçəsi tərəfdən binanın uzunluğu 60 addıma, yan tərəflərdən isə – 45 addıma bərabərdir. Aşağı mərtəbə elə təmir edilmişdir ki, burada hal-hazırda dükan kimi icarəyə verilmiş 26 dükan gözü, içəri tərəfdən isə - müxtəlif anbarlar kimi icarəyə verilmiş 20 dükan gözü yerləşir. Həm tavanlar, həm də döşəmə və divarlar (yan) yenidən tikilmişdir.

Yuxarı mərtəbənin yalnız divarları qalmışdır, həm də şərq küncü tamamilə açılmışdır, belə ki, aşağı mərtəbədə Vrangelevkaya küçəsi tərəfdən üç dükan gözünün və Çelyavskaya küçəsi tərəfdən üç dükan gözünün divarlarının yuxarı hissəsində davamı yoxdur.

Baxış keçirilən evin həyətində, yəqin ki, evin dördbucaqlı şəklində tikilmiş dörd korpusu boyunca uzanan geniş daş qalereyanın qalıqları görünür. Hal-hazırda qalereyadan orda-burda çox dağılmış, daşdan hörülmüş

ikimərtəbəli divar qalmışdır; divarda əvvəlki qalereyanın pəncərələrini, bəzi yerlərdə isə qapıları olmuş 14 böyük, yarımdairəvi, tağ dəlikləri vardır. Qalereyanın nə tavanı, nə də döşəməsi qalmamışdır. Divarların hər yerində his və alovun izləri görünür.

Ev sahiblərinin, həmçinin qonşuların dediyinə görə, təsvir edilən evin yuxarı mərtəbəsində 35 ayrı-ayrı nömrələrdən ibarət olan "Dağıstan" mehmanxanası var idi. Dağıntıların bayırdan və daxildən fotoşəkilləri çəkilmişdir.

2. Yaxınlıqda Bakı sakini Məmməd Sadıq Talıbov tərəfindən icarəyə götürülmüş və aşağı mərtəbəsi artıq təmir edilmiş evin xarabalıqları yerləşir. Evin əsas fasadı Bazarnaya küçəsinə, yan fasadları isə Çelyayevskaya və Kolyubakinskaya küçələrinə baxır. Əsas fasadın uzunluğu 60 addıma, yan fasadların isə – 42 addıma bərabərdir. Ev, daxildən dördbucaqlı həyəti olmaqla, düzbucaq formasında tikilmişdir. Aşağı mərtəbəsində divarlar təzələnmiş, döşəmə və tavan yenidən vurulmuşdur. Bu binada dükan və müxtəlif anbarlar kimi icarəyə verilmiş bayırdan 34 dükan gözü və içəridən 24 dükan gözü yerləşir.

Üst mərtəbədən yalnız bəzi yerlərdə yüngülcə uçulmuş və alov izləri olan xarici və daxili divarlar qalmışdır. Həm divarlar, həm onların üzərində bəzi yerlərdə qalmış ornamentlər binanın şərq üslubunda tikildiyindən xəbər verir.

Baxış keçirilən evin həyətində onun dörd fasadı boyunca, yəqin ki, evin hər iki mərtəbəsinə əlavə olaraq tikilmiş qalereyanın çöl divarını təşkil edən geniş, daşdan hörülmüş ikimərtəbəli divar mövcuddur. Divar həddən artıq korlanmışdır və üzərində alov izləri vardır. Qalereyanın alt hissəsi təmir edilmişdir, döşəmə, tavan, qapı və pəncərələr qaydaya salınmışdır və hal-hazırda burada anbar kimi icarəyə verilmiş 24 dükan gözü yerləşir. Alovdan daha çox ziyan çəkmiş üst mərtəbə təmir olunmamışdır; tavansız və döşəməsizdir. Divarlarda yanmış qapı və pəncərələrdən sonra qalmış bir sıra deliklər görünür.

Evin daxili divarında, üst mərtəbədə əvvəlki qapı və pəncərələrdən 42 dəlik qalmışdır. Evin icarədarı Məmməd Sadıq Talıbovun sözlərinə görə, ikinci mərtəbədə onun 40 otaqdan ibarət "İsgəndəriyyə" mehmanxanası yerləşirdi.

Evin xarabalıqlarının iki görünüşdə fotoşəkilləri çəkilmişdir.

3. Həmin Bazarnaya küçəsində, bir qədər aralıda "İslamiyyə" meh-

manxanasının olduğu Hacı Mustafa Rəsulovun evinin xarabalıqları yerləşir. Əsas fasad Qubernskaya küçəsi boyunca 70 addım uzunluğunda, yan fasad Bazarnaya küçəsi boyunca 55 addım uzunluğundadır, evin arxa fasadı isə 70 addım uzunluğunda Staro-Poçtovaya küçəsinə çıxır.

4. Evdən yalnız yarımdağılmış iki mərtəbəli, aşağı hissəsində - Bazarnaya küçəsi tərəfdən isə üç mərtəbəli, üzərində alov və tüstü izləri olan divarlar qalmışdır. Qubernskaya küçəsinə çıxan birinci mərtəbədə 15 böyük dəlik - keçmiş dükan gözlərinin qalıqları görünür: eyni sayda böyük dəliklər ikinci mərtəbədə də nəzərə açılır. Bazarnaya küçəsinə çıxan birinci mərtəbənin divarlarında keçmiş dükan gözlərindən qalmış 11 böyük dəlik görünür; ikinci mərtəbədə kiçik ölçülərdə 22 dəlik - pəncərə izləri görünür. Evin Staro-Poçtovaya küçəsinə baxan arxa divarında, aşağı mərtəbədə də dükan gözlərinin 15 dəliyi görünür, üst mərtəbədə isə kiçik ölçülərdə 15 dəlik - əvvəlcədən orada olmuş pəncərələrin izləri görünür. Bazarnaya küçəsinə doğru torpağın səviyyəsinin təbii surətdə aşağı enməsi səbəbindən, divar həmin tərəfdən 3 mərtəbə hündürlüyündə tikilmişdir; 3-cü mərtəbədən yalnız bu fasadının küncləri üzrə iki aralıq qalmışdır.

Təsvir olunan binanın həyətinə girmək mümkün deyildir, çünki divarlar, tavanlar və dam uçaraq oraya girişi tamamilə tutmuşdur.

Evin sahibi Hacı Mustafa Rəsulov tərəfindən təqdim edilmiş məlumatlara əsasən, təsvir edilən evdə; birinci mərtəbədə bayırdan 26, daxildən isə 14 mağaza; yuxarı mərtəbədə 60 otaqdan ibarət olan "İslamiyyə" mehmanxanası yerləşirdi.

Xarabalıqların bayır tərəfdən fotoşəkilləri çəkilmişdir.

Şahidlər: B.Buludxanov, ... ( iki imza).

Komissiya üzvü: A.Kluge (imza).

**AR PİI SSA, f. 277, s. 2, i. 13, v. 170- 172.**

## Sənəd № 623

***Protokol***

*1918-ci il, 22 noyabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat komissiyasının tapşırığı ilə, adı çəkilən Komissiyanın üzvü Kluge, aşağıda adları çəkilən şahidlərin iştirakı ilə, bu ilin martında ermənilərin müsəlmanlara qarşı silahlı çıxışları zamanı Nikolayevskaya küçəsində "Kaspi" qəzetinin redaksiyasının yandırılmış binasının xarabalıqlarına baxış keçirmişdir.*

Hal-hazırda birmərtəbəli binadan bütövlükdə yalnız güclü surətdə zədələnmiş bayır divarlar qalmışdır; bəzi yerlərdə daxili divarların qalıqları görünür. Əsas fasad Nikolayevskaya küçəsinə baxır; onun uzunluğu 55 addımdır; 51 addım uzunluqda olan yan fasad təsvir edilən binanı "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının xarabalıqlarından ayıran döngəyə çıxır; həmçinin, 55 addım uzunluqda olan arxa fasad Krepostnaya döngəsinə çıxır. Əsas fasad divarının qərb küncündən kiçik bir hissəsi tamamilə uçmuşdur.

Əsas fasadda 16 pəncərə və bir qapı dəliyi, yan fasadda isə 11 pəncərə dəliyi görünür, arxa fasadın divarında kiçik həyətə aparan darvaza qalmışdır. Darvazadan sağ tərəfdə daxili divarı sağ qalmış qalereyanın qalıqları görünür, sol tərəfdə isə yanğının, demək olar ki, toxunmadığı tikili durur, kiçik təmirdən burada binanın qarovulçusu oturur.

Bütün həyət bəzi yerləri həddən artıq hisə batmış daşlarla və kərpiclərlə doludur.

Binanın tavanı və döşəməsi uçaraq keçmiş redaksiyanın zirzəmi otaqlarını doldurmuşdur. Daha az dolmuş zirzəmilərdən birində, məhz şərq tərəfdəki küncə çıxan zirzəmidə üstü daşlarla və zibillə yarıyadək örtülmüş qarsalanmış qalın kitablar yığını, yaxından baxdıqda isə Quran nüsxələri görünür. Orda-burda kiçik aralıqlar sağ qalmışdır, iki yerdə böyük, girdə dəmir sobalar durur.

Binanın üç görünüşdə fotoşəkilləri çəkilmişdir.

Şahidlər: B.Buludxanov, ... ( iki imza).

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, i. 13, v. 173.**

## Sənəd № 624

### *Protokol*

*1918-ci il, 22 noyabr, Bakı şəhəri.*

*Fövqəladə Təhqiqat komissiyasının üzvləri Məmməd Xan Təkinski və A.E.Kluge aşağıdakılar haqqında bu protokolu tərtib etdilər:*

Bu ilin sentyabrında Azərbaycan-türk qoşunları Bakı şəhərinə daxil olan kimi, Fövqəladə Təhqiqat Komissiyasının sədri Ələkbər bəy Xasməmmədovun tapşırığı ilə, bu Komissiyanın o zaman Bakıda olan üzvü Mirzə Cavad Axundzadə, fotoqraf Litvintsevin vasitəsilə, Bakıda daha çox tanınan ictimai və şəxsi müsəlman binalarının xarabalıqlarının fotoşəkillərini çəkmişdir, o cümlədən aşağıdakıların:

1. Nikolayevskaya küçəsinin xarabalıqlar olan hissəsinin görünüşü.
2. Nikolayevskaya küçəsində “Kaspi” qəzetinin redaksiya binasının xarabalıqları.
3. Həmin binanın daxili görünüşü.
4. “İsmailiyyə” Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının xarabalıqları şərq tərəfdən.
5. Həmin binanın daxili görünüşü.
6. Həmin binanın xarabalıqları qərb tərəfdən.
7. Bazarnaya küçəsində yerləşən və yalnız müsəlmanların yaşadığı “Dağıstan” mehmanxanasının yerləşdiyi Xanlarovun evinin xarabalıqları.
8. Həmin binanın daxili görünüşü.
9. Bazarnaya küçəsində yalnız müsəlmanların yaşadığı keçmiş “İsgəndəriyyə” mehmanxanasının binasının xarabalıqları.
10. Həmin binanın daxili görünüşü.
11. Bazar və Qubernskaya küçələrinin kəsişməsində yerləşən yalnız müsəlmanların yaşadığı “İslamiyyə” mehmanxanasının xarabalıqları.
12. Təzəpir məscidi artilleriya mərmiləri ilə zədələnmiş binasının cənub tərəfdən görünüşü.
13. Həmin məscid eyni zədələri almış binasının şərq tərəfdən görünüşü.
14. Şah məscidinin[108] artilleriya mərmiləri ilə zədələnmiş minarəsinin şərq tərəfdən görünüşü.

Adları sadalanan fotoşəkillər Komissiyanın yuxarıda adları göstərilən üzvləri tərəfindən çəkildiyi obyektlərlə yerindəcə tutuşdurularaq, hər biri

iki nüsxədə əşyayi-dəlil kimi işə əlavə edilmişdir.

Şəkillər Protokola uyğun olaraq nömrələnmiş və onların əsli fotoqraf və Komissiya üzvləri tərəfindən təsdiq edilmişdir.

Komissiya üzvü: S. Axundzadə (imza).

Fotoqraf N. Litvintsev (imza).

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, i. 13, v. 174.**

## Sənəd № 625

***Dindirmə protokolu***

1918-ci il, 21 dekabr. Bakı şəhəri.

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ələsgər Şıxəli oğlu Dadaşov, 58 yaşım var, Bakı şəhərinin sakiniyəm, Qalada, Minaretskaya küçəsi, 14 №-li evdə yaşayıram.**

1918-ci ilin mart ayından sentyabradək olan müddət ərzində ermənilər Bakı şəhərində bolşevik adı altında pərdələnərək, mənim indiyədək geri ala bilmədiyim aşağıdakı əmlakımı qarət və müsadirə etmişlər:

1.500.000 rubla əldə etdiyim "Əbdül Hüseyn Dadaşov" gəmisi;

Arvadımın 90.000 rubl dəyərində müxtəlif qiymətli daş-qaş və zinət əşyaları.

Mənim Naberejnaya küçəsindəki kontorumun bütün kontor avadanlıqları, 57 №-li şəxsi evimdə olan 10.000 dəyərində müxtəlif əşyalarım, ümumilikdə isə 1.600.000 rubl dəyərində olan əmlakım qarət edilmişdir.

Martın 25-də Bakıdan gedərkən yolda qarət olunmuşam. Mənim gəmim 7/20 avqustda məhv olub. Kontorum 29 iyul 1918-ci il tarixində müsadirə edilib. Mənə 1.600.000 rubl dəyərində vurulmuş zərərin ödənilməsini xahiş edirəm.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 45.**

## Sənəd № 626

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Məmməd Sadıq Həsən oğlu Həsənov, 55 yaşım var, hal-hazırda Bakı şəhəri, Serkovnaya küçəsi, 147 №-li evdə yaşayıram.**

Bakı şəhərində mart hadisələri zamanı ermənilər mənim Balaxanı şosesində olan sement zavodumu məhv etdilər, maşınımı, laboratoriyalarımı, armaturumu, mənzilimi və anbarlarımı dağıtdılar. Sonralar zavodda erməni qərargahı və erməni ... yerləşirdi. Ermənilər şəhərdə olan mənzilimi də qarət etmişlər. Mənim mənzilimin talan edilməsinə Seryoja Melikov başçılıq etmişdir. Sement zavodu üzrə zərərlərimi 3.700.000 rubl müəyyən etmişəm, ermənilər mənzilimdən 1.400.000 rubl dəyərində brilyantlarımı aparıblar, bir sandıqça qızıl zinət əşyalarımdan mənə yalnız bir cüt qızıl zaponka qalıb, 23 ədəd kostyumumu, qunduz dərisindən yaxalığı olan 1 xəz kürkümü, 6 böyük və 8 orta xalçalarımı, içi ayaqqabı, əyin-baş, alt paltarla dolu olan 2 ədəd güzgülü şkafımı qarət ediblər. Mənə ümumilikdə 5.100.000 rubl dəyərində ziyan vurulub. Bu məbləğdə zərərlərin mənə ödənilməsini xahiş edirəm.

Oxudum, əlavə edim ki, mənim kontorum, şəhərdə və zavodda olan kitablarımın hamısı qarət olunmuşdur.

İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 176.**

## Sənəd № 627

*Əlavə Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Məmməd Sadıq Həsən oğlu Həsənov, 55 yaşım var, Bakı şəhəri, Serkovnaya küçəsi, 147 №-li evdə yaşayıram.**

Bakıda mart qırğınları zamanı ermənilər mənim anbarlarımı, limanımı və Petrovskaya meydandakı Rus-Qafqaz Birliyinin barjasını əvvəl qarət edib, sonra yandırmışlar. Bununla mənə və mənim şəriklərimə - Əhməd Dövlətova, Ələkbər Əliyevə və Cahangir Əhmədova 4 milyon rubl ziyan vurmuşlar. Mallarla birlikdə 4 anbar yandırılmışdır. Barja motorlu idi. Bu ziyandan mənim payıma 1.000.000 rubl düşür, sement zavoduma və şəhərdəki mənzilimə görə zərərlərimlə birlikdə isə mənə ümumilikdə 6.000.000 rubl məbləğində ziyan vurulmuşdur.

Mənə vurulmuş bu zərərlərin ödənilməsini xahiş edirəm.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 177.**

## Sənəd № 628

*Dindirmə protokolu*

*1918-ci il, 13 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Seyfulla Hacı Əsədulla oğlu Hüseynov, 37 yaşım var, Bakı şəhərinin sakiniyəm, Armyanskaya küçəsi, ev 68 ünvanda yaşayıram.**

Bakıda 1918-ci ilin mart qırğınları zamanı ermənilər mənim Bolşaya Morskaya küçəsi ev № 5 ünvanı üzrə "Rus-Qafqaz Birliyinin" li-

manında yerləşən anbarda, Armyanskaya küçəsi, ev № 68 ünvandakı mənzilimdə və "Şərq Cəmiyyətinin"[109] və "Qafqaz və Merkurinin"[110] limanında yerləşən bütün əmlakımı - köhnə qiymətlə 64.815 rubl məbləğində - qarət etmişlər. Hal-hazırda mənim əmlakımın dəyəri 129.630 rubl təşkil edir. Ətraflı siyahını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. 129.630 rubl dəyərində olan zərərin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 190.**

## Sənəd № 632

***Dindirmə protokolu***

*1918-ci il, 21 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Cahangir Zahid oğlu Əhmədov, 28 yaşım var, Bakı şəhəri, Spasskaya küçəsi, 137 №-li evdə yaşayıram.**

Bakıda bu il mart qırğınları zamanı "Rus-Qafqaz Birliyinin" 21 №-li limanında ermənilər tərəfindən mənim 1.080.950 rubl dəyərində əmlakım yandırılmışdır. Məhv edilmiş əmlakın siyahısının işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 50.**

## Sənəd № 633

*Dindirmə protokolu*

*1919-cu il, 10 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hacı Məmməd Hacı Qurban oğlu Qurbanov, 54 yaşım var, Lənkəran şəhərinin sakiniyəm, Bakı şəhəri, Krasno-Krestovskaya küçəsi, ev 31 ünvanında yaşayıram.**

1918-ci ildə Bakı şəhərində anarxiya və özbaşınalıqlar zamanı "Qafqaz və Merkuri" Cəmiyyətinin kontorundan və Merkuryevskaya küçəsi, ev № 5 ünvanda olan mağazadan müsadirə adı altında ümumi məbləği 523.000 rubl dəyərində malım aparılmışdır. Əmlakımın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 10.**

## Sənəd № 634

*Dindirmə protokolu*

*1919-cu il, 18 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Bəşir Məmməd oğlu Axundov, 40 yaşım var. savadlıyam, Bakıda, Qubernskaya küçəsi, ev 3\5 ünvanda yaşayıram.**

Bakıda və onun ətraf kəndlərində 1918-ci il mart hadisələri zamanı ermənilər, ümumilikdə mənə 269.300 rubl dəyərində ziyan vuraraq, mənim anbarımı və Şubanıda olan mədənimi talan etmişlər. Əmlakın siyahını və qiymətləndirilməsini təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. İmza.
Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).
**AR PİI SSA, f. 277, s. 2, iş 25, v. 19.**

## Sənəd № 639

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd Əliyev, 18 yaşım var, Bakıda, Kolodeznaya küçəsi, 26 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər bizim üç atımızı aparmışlar, həm də tüfəngin qundağı ilə mənim işçim İslam Məşədi Mehdi oğlunun kəllə sümüyünü zədələmişlər. Həmin vaxtda Salyanskaya küçəsində yerləşən dəri anbarım və Şubanıdakı mədənimiz talan edilmişdir. Qarət olunmuş bütün əşya və mallar təqdim olunan ərizədə sadalanmışdır. Bizə yeni qiymətlərlə ümumilikdə 181.150 rubl dəyərində ziyan vurulmuşdur.

Bundan əlavə, şəhər mart ayında artilleriya mərmiləri ilə bombalanarkən, həkim rəyinə görə mənim 1,5 yaşlı iki qardaşım, əkizlər, ürək iflicindən ölmüşlər; onlar 3 gün ərzində yata bilmirdilər və buna görə də dayanmadan qışqırırdılar.

Oxundu. İmza.
Komissiya üzvü: A.Kluge (imza).
**AR PİI SSA, f. 277, s. 2, iş 14, v. 60.**

## Sənəd № 644

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Həsən Həsən oğlu Həsənov, 40 yaşım var, Bakıda, Abşeronskaya küçəsi, 6 №-li evdə yaşayıram.**

Bu ilin mart ayında ermənilər mənim daş karxanamda hazır daş ehtiyatımı qarət etmişlər. Bundan əlavə onlar, evimi də qarət ediblər. 73.520 rubl dəyərində qarət olunmuş əşyalarımın siyahısını təqdim edirəm, qarət olunmuş əşyalarımın yeni qiymətlərlə dəyəri 140.000 rubldur.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 145.**

## Sənəd № 645

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mahmud İrza Qulu oğlu, 53 yaşım var, Bakı şəhəri, Verxnyaya-Naqornaya küçəsi, 1 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı vağzalda, içində mənə məxsus ərzaqlarla dolu vaqon ermənilər tərəfindən qarət edilmişdir, onlar təqdim etdiyim ərizədə sadalanmışdır. Qarət edilmiş ərzaqların dəyəri köhnə qiymətlə 60.700 rubl idi; yeni qiymətlərlə isə 130.700 rubl təşkil edir.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 61.**

## Sənəd № 647

*Dindirmə protokolu*

*1919-cu il, 20 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mir Baqı Hacı Murtuza oğlu, Bakı şəhər polis nahiyəsi, Maştağa kənd sakini, Bakı şəhərində, 1-ci polis bölməsi ərazisində, Budaqovskaya küçəsi, 81 №-li evdə yaşayıram.**

1918-ci il Bakıda mart hadisələri zamanı mən öz ailəmlə birlikdə Maştağa kəndinə qaçaraq xilas oldum, lakin soda istehsal edən zavodum içindəki 52.250 rubl dəyərində bütün materiallarla birlikdə ermənilər tərəfindən talan edildi. Ərizəmin işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 78.**

## Sənəd № 648

*Dindirmə protokolu*

*1918-ci il, 7 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ələsgər Baba oğlu, 55 yaşım var, Bakıda, Suraxanskaya küçəsi, 103 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim Spasskaya küçəsi, ev № 44 ünvanda yerləşən halva zavodumu və Suraxanskaya küçəsi, 191 №-li evdə yerləşən mənzilimi qarət etmişlər. Onlar, mənim adları 2 vərəqlik ərizəmdə sadalanan və ümumilikdə 26.485 rubl məbləğində olan müxtəlif materiallarımı və ev əşyalarımı aparmışlar. Bundan əlavə, avqust ayında Bakı ilə Binəqədi arasındakı yol ilə gedərkən, mənim üzərimə silahlı ermənilər hücum etmişlər və mənim 5075 rubl pulumu əlimdən almışlar.

Oxundu. Savadsızdır. İmza.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 57.**

## Sənəd № 662

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Sadıq Hacı İsmayıl oğlu, 44 yaşım var. Bakılıyam, Sretenskaya küçəsi, 25 №-li evdə yaşayıram.**

Səhv etmirəmsə, bu il mart ayının 20-də erməni əsgərləri mənim "İsmailiyyə" Xeyriyyə Cəmiyyətinin Nikoilayevskaya küçəsindəki binasında yerləşən "Palas" elektrik teatrımı talan etmişlər və 116.285 rubl qiyməti olan bütün inventarı avtomobillərdə aparmışlar. Mən onu göstərdiyim bu qiymətə 1915-ci, 1916-cı, 1917-ci illərdə əldə etmişəm. Qarətdən sonra erməni əsgərləri, başda Avakyan olmaqla "İsmailiyyə"nin binasını yandırdılar. Əşyalarımın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mənim bütün əmlakım qarət edilmiş inventardan ibarət idi. Həmçinin iki ədəd şəhadətnaməni təqdim edirəm.

Oxundu. Sadıq Hacı İsmayıl oğlu.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 67.**

## Sənəd № 663

*Dindirmə protokolu*

*1918-ci il, 24 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Həsən Ağa Həsənov, 52 yaşım var, Bakı şəhəri, Pozenovskaya küçəsi, 17 №-li evdə yaşayıram.**

Bakıda bu il mart hadisələri zamanı ermənilər Nikoilayevskaya küçəsi №12 – "Kaspi" qəzetinin binasını və № 10 - "İsmailiyyə" Xeyriyyə Cə-

miyyətinin binasını yandırmışlar. Alov hər iki binanı məhv etmişdir. Alov içində mənim də mart ayının birja qiymətləri ilə 84.888 rubl 42 qəpik məbləğində əmlakım məhv olmuşdur. Mənim əmlakım dəyəri hal-hazırda 254.665 rubl 26 qəpikdir. Əmlakın siyahısının və birja qiymətlərinin işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Həsən Ağa Həsənov. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v.72.**

## Sənəd № 666

***Dindirmə protokolu***

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hacı Aslan Məcidov, 67 yaşım var, Bakı şəhəri, Nikolayevskaya küçəsi, 18 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı erməni əsgərləri mənə məxsus "Şəms" restoranına soxuldular, qab-qacağı sındırdılar, mənim qulluqçularım Rüstəm Qərib oğlunu və Ağa Mirzə İbrahim oğlunu öldürdülər və restoranda olan düyü, qoyun əti, xiyar və başqa yeyinti məhsullarını özləri ilə apardılar. Aparılan ərzağın adı və məbləği - 18.060 rubl - ərizədə göstərilir.

Oxundu. İmza.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 62.**

## Sənəd № 667

*Dindirmə protokolu*

*1919-cu il, 21 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mütəllib Qədir oğlu, 32 yaşlı, Bakı şəhəri, Nijne-Kladbişenskaya küçəsi, 81 №-li evdə yaşayıram.**

1918-ci ilin martında ermənilər mənim Qubernskaya küçəsi, 56 №-li evdə yerləşən ticarət kontorumu qarət etmiş və kassadan 2300 rubl nağd pul, müxtəlif sənədlərimi və qızıl və brilyant qadın zinət əşyalarını oğurlamışlar. Bu müddətdə mənim "İstanbul" və "Mədinə" adlı iki restoranım da qarət olunmuşdur. Ümumilikdə mənə 190 000 rubl məbləğində ziyan vurulmuşdur.

Bundan əlavə, mən vəkalətnamə üzrə müraciət edirəm ki, Nikolayevskaya, Bazarnaya və Vrangelevskaya küçələrinə baxan ev ermənilər tərəfindən yandırılmışdır. Bu ev Samson Çerkezova və Sofya Nersesovaya məxsusdur. Onların heç biri indi Bakıda deyildir. Yanğın səbəbindən onlara 250.000 rubl ziyan vurulmuşdur.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 37-38.**

## Sənəd № 683

*Dindirmə protokolu*

*1918-ci il, 27 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd Tahir Zalbəyov, 22 yaşım var, Bakı şəhəri, Qorçakovskaya küçəsi, 12 №-li evdə yaşayıram.**

Bu il mart ayının 20-də Bazarnaya küçəsi, ev № 6 ünvanda yerləşən mənə məxsus qastronomiya mağazası ermənilər tərəfindən qarət edilmiş və yandırılmışdır. Pul kassası sındırılmış, iki qapı qıfılı isə qırılmışdır. Mənim 450.000 rubl dəyərində əmlakım məhv edilmişdir. Mən üç gün, 18-20 mart günlərini Ağa Hüseyn Babayevin evində keçirmişəm, onun zirzəmisində gizlənmişəm. Oraya iki dəfə erməni əsgərləri gəlmiş və mənimlə olan iki qadından zirzəmidə tatarların olub-olmadığını soruşmuşdular. Bu zaman qadınları süngülərlə hədələmişlər. Qadınlar hər dəfə əsgərləri inandırmışlar ki, zirzəmidə tatarlar yoxdur.

Oxundu. Məmməd Tahir Zalbəyov.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 43.**

## Sənəd № 684

***Dindirmə protokolu***

*1918-ci il, 6 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Yusif bəy, 48 yaşlı, Şamil bəy, 35 yaşlı, Cəmil bəy, 37 yaşlı, Bəylər bəy, 40 yaşlı, qardaşları. Bakı şəhəri, Verxne-Priyutskaya küçəsi, 83 №-li xüsusi evimizdə yaşayırıq.**

Bizim bütün ailəmizə, hazırda burada deyil, Quba şəhərində olan 42 yaşlı qardaşımız Xanlar bəylə birlikdə, Bazarnaya küçəsi, ev № 9 ünvanda, Lalayevin evində yerləşən mağaza və topdansatış anbarları məxsusdur.

Mart qırğınları zamanı bizim mallarımız, mağaza və anbarlarımız erməni əsgərləri tərəfindən qarət edilmişdir. Onlar bizim əmlakımızı avtomobillərdə daşıyırdılar, bu haqda bir çox şahidlər bilirlər. Mallar üç gün ərzində, talanlar zamanı daşınmış, sonra isə mağaza və anbarlar yandırılaraq, tamamilə məhv edilmişdir. Biz 1918-ci ilin mart ayınadək dəyəri 599.867 rubl olan bütün malların siyahısını təqdim edirik. Hal-hazırda bu malların qiyməti ən azı 2.500.000 rubldur. Bundan əlavə, bir çox mallar da məhv olmuşdur ki, onlar ticarət kitablarında qeyd edilməmişdir və indi bizim onların

bir hissəsinin siyahısını təqdim etmək imkanımız yoxdur. Talanlar zamanı 100.000 rubl dəyərində kreditə verilmiş mallar haqqında qeydlərin olduğu mühasibat kitabımız da məhv olmuşdur və indi biz bu məbləği borclulardan ala bilmirik. Yanğın nəticəsində daxil olmuş malların sənədləri, qaimə sənədlərinin surətləri və s. məhv olmuşdur.

Bazarnaya küçəsindəki bütün tacirlər bizim ərizələrimizin doğruluğunu and içməklə təsdiq edə bilərlər.

Mart qırğınlarından bir ay sonra, biz evdə olmadığımız zaman bizim mənzilimiz də 10.000 rubl məbləğində qarət edilmişdir. Mənzilin kimin tərəfindən qarət edildiyini bilmirik.

Biz qarət edilmiş malların siyahısının işə əlavə olunmasını xahiş edirik və bildiririk ki, ümumilikdə 2.600.000 rubl məbləğində zərərlərimiz bizə ödənilməlidir.

Oxundu. İmzalar (bütün qardaşların).

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 37.**

## Sənəd № 685

***Dindirmə protokolu***

*1919-cu il, 17 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Abbas Qulu Mirzəyev, 42 yaşım var, Bakı şəhəri, Bolşaya Krepostnaya küçəsi, dalan № 9, ev № 4 ünvanda yaşayıram.**

Ötən ilin mart hadisələri zamanı ermənilər mənim Dumskaya meydanında, Aşumovun varisləri – Hüseynov qardaşlarının evində olan mağazamı qarət etmiş və təqdim etdiyim ərizədə sadalanan əşyaları aparmışlar. Ümumilikdə mənə 123.762 rubl 50 qəpik məbləğində ziyan vurulmuşdur.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 77.**

## Sənəd № 686

*Dindirmə protokolu*

*1918-ci il, 5 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Rəcəb Əli Hüseynov, 44 yaşım var, Bakıda, Nijne-Naqornaya küçəsi, ev № 47 ünvanda yaşayıram.**

Mən şəhərin mərkəzində, Vrangelskaya və Vorontsovskaya küçələrinin kəsişməsində, Parapetdə yerləşən xəz mağazasının sahibiyəm.

Mart hadisələri zamanı erməni əsgərləri mənim mağazamın qapılarını Vrangelskaya küçəsi tərəfdən sındırmış və mənim mağazadakı, 1918-ci ilin mart ayı üçün qiyməti 29.955 rubl məbləğində olan, bütün mallarımı oğurlamışlar. Mən oğurlanmış malların Evlər Komitəsi tərəfindən təsdiq edilmiş siyahısını təqdim edirəm. Mallar qaragül dərilərindən, tülkü xəzləri, hazır qaragül papaqları, xalçalar və s. ibarət idi. Bundan əlavə, ermənilər tərəfindən 500 rubl qiyməti olan güzgü şkafı, 200 rublluq asılmış divar güzgüsü məhv edilmiş, malların bütün karton qutuları yandırılmışdır. Mağazanın içindəki taxta arakəsmə sındırılmışdır ki, onun təmiri 100 rubl tutmuşdur, həmçinin, mağazanın qiyməti 400 rubl olan şüşə vitrini sındırılmışdır. Karton qutuların qiyməti hər biri 1 rubl olmaqla 20 rubla bərabər idi. Mağazanın avadanlığının məhv edilməsindən dəyən zərər cəmi 1220 rubl təşkil edir.

Beləliklə mənə, sındırılmış qapının təmiri üçün ödədiyim 90 rubl da nəzərə alınmaqla, ümumilikdə 31.260 rubl ziyan vurulmuşdur.

Zərəri mən mart qiymətləri ilə qiymətləndirirəm. Hazırda mənim xəz mallarımın dəyəri iki dəfə artmışdır və bugünkü qiymətlərlə mənə 59.910 rubl məbləğində ziyan vurulmuşdur, digər itkilərlə birlikdə mən 61.220 rubl məbləğində zərər çəkmişəm ki, bu məbləğin mənə ödənilməsini xahiş edirəm.

Ərz edirəm ki, mənim mağazam zibil yığınına çevrilmişdi və açıq görünürdü ki, ermənilər mağazanı talana məruz qoyaraq, qəsdən mənim əmlakımı məhv etmişlər. Sonralar mənim mağazamda hazırlanmış qaragül papaqları mən şəhərdə soyadlarını bildiklərim ermənilərin başında

görürdüm. Məsələn erməni əsgəri Ruben Yaromışev, mənim mağazamın qarşısında mağazası olan dərzi Yaromışevin oğlu. Və mən onun əleyhinə bir söz belə deyə bilmirdim; Maliyants, adını bilmirəm, əsgərdir, mənim mağazamın yanında yaşayan mağazaçı dərzi Maliyantsın qardaşı. Başlarında mənim mağazamın papaqları olan başqa erməni əsgərlərini də görmüşəm, amma soyadlarını bilmirəm. Qarət edilmiş mallarımın siyahısını təqdim edirəm.

İmza. Rəcəb Əli Hüseynov.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 26.**

## Sənəd № 688

***Dindirmə protokolu***

*1918-ci il, 5 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Firidun Səfər Əli oğlu, 16 yaşım var, Bakı şəhəri, 4-cü polis bölməsi, Verxnyaya-Naqornaya küçəsi, 139 №-li evdə yaşayıram.**

Bu il mart ayının 18-də, bazar günü, ermənilər tərəfindən törədilmiş qırğın zamanı erməni əsgərləri bizim Baryatinskaya küçəsi, 11№-li evdə olan meyvə mağazamıza soxuldular, küt bir alətlə qardaşım Ələkbəri başından elə vurdular ki, kəllə sümüyü tamamilə parçalandı, sonra isə mağazanı qarət etdilər. Nağd pul ilə 2300 rubl, mal ilə 6500 rubl dəyərində qənd, meyvə, tütün və papiros apardılar. Bundan əlavə ermənilər mağazadan xalça, 4 yorğan, paltar və digər əşyalar - cəmi 1500 rubl dəyərində - götürdülər.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 116.**

## Sənəd № 689

*Dindirmə protokolu*

*1919-cu il, 23 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli Həsən Tağıyev, 29 yaşlı, Bakıda, Balaxanskaya küçəsi, ev 370, mənzil № 5 ünvanında yaşayıram.**

Ötən ilin mart hadisələri zamanı ermənilər mənim Bazarnaya küçəsi, 11 №-li evdə yerləşən baqqal dükanımı qarət etmişlər. Bu zaman, təqdim etdiyim siyahıda göstərilən və 112.000 rubl dəyəri olan malım itmişdir. Mənim mağazamın yerləşdiyi ev ermənilər tərəfindən yandırılmışdır. Malların qiymətləndirilməsi köhnə qiymətlərlə həyata keçirilmişdir. İndiki zamanda malın qiyməti 248.000 rubla yaxındır.

Elə həmin müddətdə Şamaxıda atam Hacı Xəlil Hacı Tağı oğlunun evi qarət edilmişdir və onun adından verdiyim ərizədə adları göstərilən əşyalar oğurlanmışdır. Atamın 813.000 rubl dəyərində əşyaları oğurlanmışdır.

Oxundu.

Atamın da çəkdiyi zərər köhnə qiymətlərlə göstərilmişdir; indiki halda zərər təxminən 1.600.000 rubl təşkil edir

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 42.**

## Sənəd № 690

*Dindirmə protokolu*

*1918-ci il, 10 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd bəy Vəzirov, 60 yaşlı, Bakı şəhərində, Tatarskaya küçəsi, 94 №-li evdə yaşayıram.**

Bakıda 1918-ci il mart qırğınları zamanı mən öz ailəmlə Təzəpirskaya küçəsi 106 №-li evdə yaşayırdım. Öz həyatımızı erməni əsgərləri və onların rəhbərləri: Stepan Lalayevdən, Amazaspdan[111], Şaumyandan və başqalarından xilas etmək üçün biz İçəri şəhərə-Qalaya qaçdıq. Qalada biz 4 gün gizləndik. Ondan sonra mən öz mənzilimə qayıtdım və onun tamamilə dağıdıldığını gördüm. Biz bu mənzildə yaşaya bilməzdik və odur ki, Cəfərovun Qimnaziçeskaya küçəsindəki 79 №-li evində üç nəfər bir otağa sığındıq. Burada biz iyulun 18-nə kimi, Yerevan ermənilərinin məni izlədiklərini görənə kimi (mən özüm yerevanlıyam) yaşadıq. İyulun 19-da gücə mən öz ailəmlə piyada Mərdəkan kəndinə, Babayevin evinə qaçdım və sentyabrın 20-nə kimi burada qaldım. Mənim qardaşım oğlu Niyazi Cabbar bəy oğlu, 4 yaşlı uşaq, bizimlə birlikdə Bakıdan Mərdəkana kimi 35 verstlik yolu piyada getdi. Mart ayında ermənilər tərəfindən talan edilmiş mənzilim köhnə qiymətlərlə 20.000 rubl dəyərində idi. Hazırda mənim mənzilimin qiyməti 100.000 rubldan az deyildir.

1918-ci il aprelin 2-nə keçən gecə ermənilər mənim Sisianov küçəsi 79 №-li ünvanda yerləşən kontorumu talan etmiş və 1700 rubl məbləğində dəri məmulatından ibarət malımı aparmışlar. Bu il 8 iyun tarixdə heç bir akt tərtib etmədən Arsen Ter-Avetisov 533 №-li Ərzaq Direktoriyasının (bolşeviklərin) orderi ilə qiyməti 69.000 rubl olan 46 pud 35 funt dəri məmulatımı götürüb aparmışdır, onun dublikatı indiyədək Rus-Asiya bankında[112] qalır. Diktatura dövründə və ingilislərin Bakıda olduğu avqust ayında[113] Diktaturanın sərəncamı ilə poçt limanında 77, 81, 82 №-li dublikatlar üzrə mənə məxsus 7 yerlik dəri məmulatı Bakı gəmisinə yüklənərək aparılmışdır. İngilis qərargahı general Tomsonun[114] adına yazdığım ərizələrə baxmayaraq, indiyədək mən dəri mallarımı tapmamışam. Bu il 27 noyabr tarixdə məni 10-cu limana göndərsələr də, orada heç nə aşkar edilmədi. Bu dəri məmulatının qiyməti 68.250 rubldur.

Bundan əlavə, ermənilər bu il 18 iyul tarixindən sonra mənim kontorumdan və anbardan mənə və şərikimə məxsus 180.000 rubl dəyərində olan dəri məmulatından ibarət əmlakı qarət etmişlər. Ümumilikdə isə, bolşevik adı ilə quldurluq və qarətçiliklə məşğul olan ermənilər şəxsən mənə 101.700 rubl, şərikim Yenukidze ilə birlikdə isə 312.000 rubl məbləğində zərər vurmuşlar.

Mən siyahını təqdim edirəm, mənim mallarımın qiymətini göstərirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 134.**

## Sənəd № 691

*Dindirmə protokolu*

*1918-ci il, 11 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Abdul Salam Bağırov, 31 yaşım var, Bakı şəhəri, Qalada, Zamkovaya küçəsi, 79 №-li evdə yaşayıram.**

Mənim Nikolayevskaya küçəsi, 52 №-li evdə xırdavat mağazam var idi. Mart qırğınlarından sonra, barışıq elan edildiyi zaman, mən mağazaya yollandım və onun ermənilər tərəfindən qarət edildiyini gördüm. Həyət tərəfdən mağazanın qarşısında üç müsəlman meyiti var idi. Mənə vurulan zərər 19.030 rubl təşkil edir.

Oxundu. A.S.Bağırov.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v.143.**

## Sənəd № 698

*Dindirmə protokolu*

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Həsən Məmməd Əli oğlu Cabbarov, 35 yaşım var, Bakı şəhəri, Qala-da, Malaya Krepostnaya küçəsi, 54\15 №-li evdə yaşayıram.**

Bu il Bakıda mart qırğınları zamanı ermənilər mənim bacım oğlu Hacı Mir Vahab Feyzullayevi oğlu ilə birlikdə qətlə yetirmişlər. Ermənilər mənim Bazarnaya və Qubernskaya küçələrinin tinində, Xanlarovun evində yerləşən mağazamı 45.905 rubl məbləğində qarət etmişlər. Mən öz əmlakımın siyahısını təqdim edirəm və onun işə əlavə olunmasını xahiş edirəm. Mənə 45.905 rubl məbləğində dəymiş zərərin ödənilməsini xahiş edirəm.

Oxundu. İmza.

Komissiyanın üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v.15.**

## Sənəd № 703

*Dindirmə protokolu*

*1919-cu il, 14 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Cəbrayıl Əhmədoviç Əhmədov, 38 yaşım var, Bakı şəhəri, Qimnaziçeskaya küçəsi 72 №-li evdə yaşayıram.**

1918-ci il Bakıda 17-22 mart hadisələri günlərində, ermənilər mənim mərkəzdə, Nikolayevskaya küçəsində, Kələntərov pasajında olan mağazamı yararaq xalçalar, ipək və digər malları, kassa, veksellər və qızıl əşyaları - ümumilikdə mart qiymətləri ilə 575.865 rubl 10 qəpik məbləğində - əmlakımı qarət etmişlər. Hazırda həmin əmlakın qiyməti 80 % bahalanaraq 1.019.357 rubl. 10 qəpik təşkil edir. Xahiş edirəm, qarət olunmuş əmlakın siyahısını işə əlavə edəsiniz.

Oxundu. İmza.

Komissiyanın üzvləri: Aleksandroviç, Məmməd Xan Təkinski,

A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v.23.**

## Sənəd № 708

*Dindirmə protokolu*

*1918-ci il, 14 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hacı Mahmud Qasım oğlu Qasımov, 70 yaşlı, Bakı şəhəri, Verxne-Təzəpirskiy küçəsi, 98, şəxsi evimdə yaşayıram.**

Bakıda mart qırğınları zamanı ermənilər mənim Bazarnaya küçəsi 3 № li evdə, Nikolayevskaya küçəsinin tini, yerləşən kontorumu, ümumilikdə köhnə qiymətlə 47.800 rubl məbləğində talan etmişlər. Hazırda mənim əmlakımın dəyəri 63.000 rubl təşkil edir. Ərizə və əmlakımın siyahısını təqdim edirəm və işə əlavə olunmalarını xahiş edirəm. Ermənilər tərəfindən qarət edilmiş mal mənə 34.800 rubla başa gəlmişdi, indi isə onun qiyməti 50.000 rubldur. Mənə 63.000 rubl qiymətində vurulmuş zərərin ödənilməsini xahiş edirəm.

Oxundu. İmza (ərəb hərfləri ilə) .

Komissiyanın üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v.208.**

## Sənəd № 713

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Nəcəf Əli Hacı Vəli oğlu Kərimov, 28 yaşlı, Bakı şəhəri, Bazarnaya küçəsi, 7 №-li evdə yaşayıram.**

Bakıda mart talanları zamanı ermənilər mənim ticarət obyektimi qarət etmiş və evimi yandırmışlar. Mallar avtomobillərdə aparılırdı. Mən ermənilər tərəfindən qarət olunmuş və əvvəllər qiyməti 132.000 olan əm-

lakımın siyahısını təqdim edirəm. Hazırda mənim əmlakımın qiyməti 396.333 rubl təşkil edir. Mən bu məbləğin ödənilməsini xahiş edirəm.

Oxundu. İmza.

Komissiyanın üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v.163.**

## Sənəd № 718

***Dindirmə protokolu***

*1918-ci il, 14 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Rəhim Zöhrab oğlu Rəhimov, 30 yaşlı, Bakı şəhəri, Suraxanskaya küçəsi, Spasskaya küçəsinin tini, dalan 17, 8 №-li evdə yaşayıram.**

Bakıda mart talanları zamanı ermənilər mənim Bazarnaya küçəsi, 59 №-li evdə yerləşən qəssab dükanımı dağıtmışlar, Balaxanskaya şosesində 55 qoyunu aparmışlar. Mən qarət edilmiş əmlakımın siyahısını təqdim edirəm və onun işə əlavə olunmasını xahiş edirəm. Hazırda mənim əmlakımın qiyməti 56.000 rubla bərabərdir və mən bu məbləğin məmə ödənilməsini xahiş edirəm.

Oxundu. İmza (ərəb hərfləri ilə) .

Komissiyanın üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v.211.**

## Sənəd № 723

***Dindirmə protokolu***

*1918-ci il, 3 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli Əsgər Fərzəli oğlu Əliyev, 28 yaşlı, Bakılıyam, Balaxanskaya küçəsi, dalan №-2, 1 №-li evdə yaşayıram.**

Bu il, martın deyəsən 20-də, yaxud 21-də erməni əsgərləri dükanımı və anbarımı qarət etmiş və köhnə qiymətlə 61.785 rubl məbləğində malımı aparmışlar. Mənim dükanım Bazarnaya küçəsi, №- 6, Məmmədovun evində, anbarım isə Krasilnikovun evində yerləşirdi. Qarətdən sonra ermənilər dükanı və anbarı yandırmışlar. Qarət edilmiş əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Ermənilər az qiymətli malların bir hissəsini yandırmışlar.

Oxundu. İmza.

Komissiyanın üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v.12.**

## Sənəd № 727

***Dindirmə protokolu***

*1919-cu il, 15 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Abbas Babayev, 45 yaşım var, Bakıda, Kubinskaya küçəsi, 25 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim dəri mağazamı qarət edərək, mənə köhnə qiymətlərlə 250.000 rubl ziyan vurublar. Həmin müddətdə mənim Şamaxıda olan mənzilimi də qarət ediblər və ərizədə göstərilən və 113.500 rubl dəyərində əşyalarımı aparıblar.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 27.**

## Sənəd № 734

*Dindirmə protokolu*

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd Kərim İbrahimov, 35 yaşım var, hal-hazırda Bakı şəhəri, 3-cü Təzəpirskiy döngəsi, 4 №-li evdə yaşayıram.**

Bakıda 1918-ci il mart hadisələri zamanı ermənilər mənim Bazarnaya küçəsi, ev 8-də yerləşən anbar və dükanımı, və Krasilnikovun evində yerləşən anbarımı qarət etmişlər. Ermənilər malları, kərə yağını, soğan və digər malları avtomobillərdə daşıyıb aparmış, sonra isə bütün anbara od vurmuşlar. Mən qarət edilmiş malların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mənim mallarımın ümumi dəyəri köhnə qiymətlərlə 82.000 rubl təşkil edir. İndi isə mənim əmlakım ən azı 326.000 rubl dəyərindədir. Bu məbləğin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 109.**

## Sənəd № 739

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Rəhmətulla Aslanov, 35 yaşım var, Bakı şəhəri, Malaya-Krepostnaya küçəsi, 4 №-li evdə yaşayıram.**

Bakıda 1918-ci il mart hadisələri zamanı ermənilər tərəfindən mənə və qardaşlarım İzzətulla və Fərəcullaya mənsub olan odun anbarı talan edilmişdir. Bizə 30.500 rubl məbləğində zərər vurulmuşdur.

Yeni qiymətlərlə həmin zərər 120.000 rubla bərabərdir.

Oxundu. İmza.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 148.**

## Sənəd № 742

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Ağa Dadaş Əli Rza oğlu, 43 yaşım var, Bakı şəhəri, Nijne-Təzəpirskaya küçəsi, 97 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim Bazarnaya küçəsi 27 №-li evdə yerləşən dəri məmulatı anbarımı talan edərək mənə 13.555 rubl məbləğində zərər vurmuşlar; yeni qiymətlərlə həmin malın qiyməti 18.000 rubla yaxındır.

Mənim əmlakımın bir hissəsi Şamaxı qəzası Nabur kəndində idi; 16.000 rubl qiyməti olan həmin əmlak da ermənilər tərəfindən qarət edilmişdir. Yeni qiymətlərlə onun qiyməti 22.000 rubl təşkil edirdi.

Oxundu. İmza (ərəb hərfləri ilə) .

Komissiyanın üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 181.**

## Sənəd № 744

*Dindirmə protokolu*

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Lütfulla Əhməd oğlu Axundov, 32 yaşım var, Bakı şəhərində, Serkovnaya küçəsi dalan 13, 3 №-li evdə yaşayıram.**

Bakıda bu il mart talanları zamanı ermənilər mənim Kolyubakinskaya küçəsi 25 №-li evdə yerləşən kerosin anbarımı 32.215 rubl məbləğində qarət etmiş və yandırmışlar. Mən öz əmlakımın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mənə dəymiş 32.215 rubl məbləğində zərərin ödənilməsini xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 18.**

## Sənəd № 750

***Dindirmə protokolu***

*1918-ci il, 5 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli-Övsəd Davudzadə, 56 yaşım var, Bakı şəhəri sakiniyəm, Böyük Çəmbərəkənd küçəsi, 70 №-li evdə yaşayıram, savadlıyam.**

Bu ilin mart ayında, ermənilərin müsəlmanlara qarşı çıxışları zamanı mənim evim zərər çəkməmişdir; mənim “Qrand Otel” mehmanxanasının altında dükanım var idi: dükan ermənilər tərəfindən qarət olunmuş və oradan 23.800 rubl dəyərində yeyinti malları oğurlanmışdır. Mən bu qarətin şahidi olmamışam, belə ki, qarışıqlıq başlanan kimi mən evimdə gizlənmişdim, lakin hamıya məlumdur ki, bu ermənilərin işidir. Bəli, Stepan Lalayev sülhdən sonra mənim kürəkənim İmamverdi Zeynalova demişdir ki, bu qarət onun sərəncamı və təhriki ilə həyata keçirilmişdir, çünki erməni əsgərlərinin çörəyə və papirosa ehtiyacı var idi. Mən o vaxt polisə müraciət etmişdim və polis tərəfindən akt tərtib olunmuşdu. Məndə bu aktın surəti vardır, lakin onu təqdim etmirəm, çünki o mənə başqa bir iş üçün lazımdır.

İfadə oxundu. Savadlıdır. İmza (ərəb hərfləri ilə).

Fövqəladə Təhqiqat Komissiyasının sədri:

Ələkbər bəy Xasməmmədov (imza).

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 112.**

## Sənəd № 751

*Dindirmə protokolu*

*1918-ci il, 5 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443- cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**İmamverdi Zeynalov, 28 yaşım var, Bakı şəhəri sakiniyəm, Dvorsovaya küçəsi, 13 №-li evdə yaşayıram, savadlıyam.**

Mən şəxsən mart ayında ermənilər tərəfindən zorakılığa məruz qalmamışam. Onlar, kim olduğunu bilmirəm, tüfəngdən atəş ilə mənim əmim oğlu Hacı Rza oğlunu öldürüblər; bu hadisə ermənilər şəhərin müsəlman hissəsinə - İçəri şəhər- Qala məhəlləsinə hücum edərkən baş verib. Daha sonra, ermənilər mənim qayınatam Əli-Övsəd Davudzadənin baqqal dükanını qarət ediblər. Bu işi ermənilərdən şəxsən kim edib, bilmirəm, amma Stepan Lalayev mənə demişdir ki, barışıq elan edildikdən bir neçə gün sonra Davudovun dükanını ermənilər onun təhriki və göstərişi ilə qarət ediblər, çünki əsgərlərə çörək və papiros lazım idi.

İfadə oxundu. Savadlıdır. İmza.

Fövqəladə Təhqiqat Komissiyasının sədri: Ələkbər bəy Xasməmmədov (imza).

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 113.**

## Sənəd № 753

*Dindirmə protokolu*

*1918-ci il, 3 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Nurulla bəy Abu Turab bəy oğlu Hacınski, 50 yaşında, Bakıda, Suraxanskaya küçəsi, 175 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı erməni əsgərləri tərəfindən mənim Bazarnaya küçəsi 6 №-li Məmmədovun evində yerləşən dükanım talan edilmiş və köhnə qiymətlərlə 38.660 rubl məbləğində əmlakım dağıdılmışdır. Mən bu zaman Suraxanskaya küçəsində yerləşən evimdə idim və bu evə 4 erməni və 1 rus əsgərləri gəldilər. Erməni əsgərləri mənim evimi qarət etdilər və mənzildən 10.000 nağd pul, ümumilikdə 25.000 rubl məbləğində qızıl əşyalar və s. apardılar. Mənim dükanımdan və evimdən qarət edilmiş əmlakımın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Erməni əsgərləri məni öldürmək istəyirdilər, lakin rus əsgəri məni xilas etdi və erməni əsgərləri ilə birlikdə Mailov teatrına apardı.

Oxundu. İmza.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 10.**

## Sənəd № 758

*Dindirmə protokolu*

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmməd Sadıq Dadaşov, 40 yaşım var, Bakı şəhəri, Kubinskaya küçəsi, 57 №-li evdə yaşayıram.**

Bakıda 1918-ci il mart talanları zamanı ermənilər mənim mənzilimi və dükanımı qarət etmişlər. Bizim Evlər komitəsi və bütün kirayənişinlər bu barədə bilir. Mən bu zaman kənddə idim və 3 həftədən sonra qayıtmışam. Cəmi 31.040 rubl məbləğində qarət olunmuş əmlakın siyahısını və qiymətlərini təqdim edirəm. Hazırda mənim əmlakımın qiyməti 100.000 rubldan az deyildir. Bu məbləğin mənə ödənilməsini xahiş edirəm. Siyahının işə əlavə edilməsini xahiş edirəm.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 112.**

## Sənəd № 760

***Dindirmə protokolu***

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Vahab bəy Səlimbəyov, 60 yaşlı, Bakı şəhərində, Spasskaya küçəsi dalan 1, 2 №-li evdə yaşayıram.**

Bakıda 1918-ci il 19-22 mart hadisələri zamanı mən yuxarıda göstərilən evdə qaldım, ailəmi isə şəhərin yuxarı hissəsinə göndərdim. Lakin daşnakların rəhbərliyi altında ermənilər bütün bazarı talan edərək yandırdılar. Burada, Bazarnaya küçəsi, № 11, Rəsulovun evində mənim dükanım var idi və mən ermənilər tərəfindən cəmi 195.000 rubl məbləğində qarət olunmuşam. Öz əmlakımın siyahısını və qiymətlərini təqdim edirəm və onun işə əlavə edilməsini xahiş edirəm. Mənim əmlakımın hazırkı qiyməti qat-qat artıqdır və 400.000 rubldan az deyildir və bu məbləğin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: Aleksandroviç, A.Kluğe (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 113.**

## Sənəd № 763

*Dindirmə protokolu*

*1918-ci il, 13 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hacı Qəni Zaman oğlu Zamanov, 62 yaşlı, Bakı şəhərində, Staraya-Poçtovaya küçəsi dalan 15, 2 №-li evdə yaşayıram.**

Bakıda mart talanları zamanı ermənilər mənim Bazarnaya küçəsinin tini, Kolyubakinskya küçəsi 2 №-li evdə yerləşən baqqal dükanımı cəmi 53.000 rubl məbləğində qarət etmişlər. Hazırda mənim malımın 150.000 rubl qiyməti vardır və mən bu 150 min rubl məbləğin mənə ödənilməsini xahiş edirəm.

Oxundu. Hacı Qəni Zeynalov. Savadsızdır.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 191.**

## Sənəd № 766

*Dindirmə protokolu*

*1918-ci il, 10 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Mir Ələkbər Məşədi Mir Kazım oğlu, 60 yaşlı, Bakı şəhərində, Persidskaya küçəsi, 102 №-li evdə yaşayıram.**

Bakıda mart hadisələri zamanı ermənilər mənim çay dükanımı qarət edərək mənə 9810 rubl məbləğində zərər vurmuşlar. Mənim çayxanam Şaxskaya küçəsində, Kələntərovun evində yerləşirdi.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvü: A.Kluğe (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 11.**

## Sənəd № 769

*Dindirmə protokolu*

*1918-ci il, 13 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Ağa Baba Yəhya oğlu, 62 yaşlı, Bakı şəhərində, Gimnaziçeskaya küçəsi, 18 №-li evdə yaşayıram.**

Bakıda mart hadisələri zamanı ermənilər tərəfindən mənim Aleksandr-Nevski pasajında[115] yerləşən meyvə-baqqal dükanım qarət olunmuşdur. Oğurlanmış əmlakın 40.000 rubl, indiki qiymətlərlə isə 120.000 rubla yaxın qiyməti vardı.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 146.**

## Sənəd № 771

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hüseyn Salman oğlu, 30 yaşlı, Bakıda, Bondarnaya küçəsi, 32 №-li evdə yaşayıram.**

Bu ilin mart ayında ermənilər mənim un anbarımı və dükanımı qarət edərək ərizəmdə göstərdiyim və yeni qiymətlərlə 86.650 rubl məbləğində olan ərzaq məhsullarını aparmışlar.

Oxundu. İmza.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 188.**

## Sənəd № 772

*Dindirmə protokolu*

*1918-ci il, 17 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kərbəlayı Nağı Kəblə Hüseyn oğlu Hüseynov, 70 yaşlı, Bakıda, Şamaxinskaya küçəsi, 54 №-li evdə yaşayıram. Savadsızam.**

Bu ilin mart ayında, deyəsən ayın 21-də, erməni əsgərləri mənim dükanımı və anbarımı talan edərək yeni qiymətlərlə 119.720 rubl dəyərində olan mallarımı avtomobillərdə aparmışlar. Qarət olunmuş mallarımın siyahısını təqdim edirəm və işə əlavə edilməsini xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 6.**

## Sənəd № 776

*Dindirmə protokolu*

*1918-ci il, 17 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Nur Məmməd Niyazi oğlu, 32 yaşlı, Zəngəzur qəzasının sakini, Bakı qəzası, Sabunçu kəndi, Sarskoye şose, 184 №-li evdə yaşayıram.**

Bu il mart ayının 19-da erməni əsgərləri mənim yuxarıda göstərilmiş ünvanda yerləşən dükanımı qarət etmişlər və 7913 rubl məbləğində malımı və əşyalarımı aparmışlar. Qarət edilmiş mal və əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mən qaça bildim,

amma qonşumu, dükançı Məşədi Həsən Ağa Əli oğlunu öldürdülər və dükanını qarət etdilər.

Oxundu. İmza.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 9.**

## Sənəd № 781

***Dindirmə protokolu***

*1918-ci il, 20 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Süleyman Cavad bəy oğlu, 37 yaşlı, Bakıda, Aziatskaya küçəsi dalan 13, ev 2, şəxsi evimdə yaşayıram.**

Bu il Bakıda mart hadisələri zamanı ermənilər mənim mənzilimi və Çelyayevskaya küçəsindəki dükanımı ümumilikdə 116.150 rubl məbləğində qarət etmişlər. Qarət olunmuş əmlakın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 44.**

## Sənəd № 785

***Dindirmə protokolu***

*1919-cu il, 15 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kərbəlayı Şakir Kərbəlayı İsmayıl oğlu, 62 yaşım var, Bakıda, I Parallelnaya küçəsi, 32 №-li evdə yaşayıram.**

Mart ayında ermənilər mənim 7-ci Parallelnaya küçəsi 3 №-li evdə yerləşən dükanımı qarət etmiş və təqdim etdiyim siyahıda göstərilən müxtəlif əmlakımı aparmışlar. Mənə cəmi 30.000-dən artıq zərər vurulmuşdur. Bu vaxt onlar adını unutduğum kirayənişinimi öldürmüşlər.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 27.**

## Sənəd № 786

*Dindirmə protokolu*

*1919-cu il, 13 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əbdül Hüseyn Nadirov, 48 yaşlı, Bakıda, Aziatskaya küçəsi, 40 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı ermənilər mənim qəssab dükanıma gəldilər və orada olan hər şeyi – təqdim olunan siyahıda göstərilənləri qarət etdilər. Elə bu vaxt onlar məni qəbiristanlığın kənarında saxladığım mal-qaramı da apardılar. Ümumilikdə mənə 80.000 rubla qədər zərər vurulmuşdur.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 22.**

## Sənəd № 789

*Dindirmə protokolu*

*1918-ci il, 7 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əhədulla Cabbarov, 28 yaşlı, Bakıda, Kubinskaya küçəsi, 3 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı mənə və şərikim Lətif Axundova mənsub olan ekipaj dükanını yandırılmışdır. Dükanı yandıran ermənilər bir neçə ekipajı salamat şəkildə özləri ilə aparmış, qalan ekipajları və qalan ekipaj ləvazimatlarını isə yandırmışlar. Bizə köhnə qiymətlərlə 176.420 rubl məbləğində ziyan vurulmuşdur. Yanmış əmlakın siyahısını təqdim edirəm.

Oxundu. İmza.

Komissiya üzvü: A.Kluğe (imza).

Əhədulla Cabbarov əlavə olaraq göstərmişdir:

Elə o vaxt, mart hadisələri zamanı ermənilər mənim mənzilimə soxuldular və mənim təqdim edilən siyahıda göstərilən və köhnə qiymətlərlə 45.800 rubl dəyərində olan bütün əmlakımı qarət etdilər.

Oxundu. İmza (ərəb hərfləri ilə). Komissiya üzvü: A.Kluğe (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 58.**

## Sənəd № 790

*Dindirmə protokolu*

*1919-cu il, 8 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kərbəlayı Xalıq Molla Cəfər oğlu, 65 yaşlı, Bakı şəhərinin sakini, Bakıda, Vremennıy-Kirpiçnıy döngəsi və Lagernıy döngəsi tinində, 22 №-li şəxsi evimdə yaşayıram.**

1918-ci il Bakıda mart hadisələri zamanı ermənilər tərəfindən mənə 43.470 rubl məbləğində ziyan vurulmuşdur ( ev əşyaları, ərzaq ehtiyatı qarət edilmiş, üç inək və 3 qoyun aparılmışdır). Mənim ərizəmi işə əlavə etməyi xahiş edirəm.

Əlavə olaraq bildirirəm ki, mən qoca adamam, köməksizəm, uzun illər zəhmət bahasına əldə etdiyim bütün sərvətimi itirmişəm; indi isə qoca vaxtımda yaşamaq üçün hər hansı vəsaitə malik deyiləm və buna diqqət verməyinizi xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 9.**

## Sənəd № 793

*Dindirmə protokolu*

*1919-cu il, 12 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Novruz Əli Gül oğlu, 40 yaşlı, Bakıda, Suraxanskaya küçəsi, dalan 1, 5 №-li evdə yaşayıram.**

Keçən il, mart hadisələri zamanı erməni-bolşeviklər mənim 7000 rubl dəyərində olan faytonumu və bir cüt atımı aparmışlar. Mənə dəyən zərərin ödənilməsini xahiş edirəm.

Oxundu. Savadsızdır.
Komissiya üzvləri: A.Kluge, A.Hacı-İrzayev (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 72.**

## Sənəd № 795

*Dindirmə protokolu*

*1919-cu il, 1 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ağa Dadaş Rəsulov, 50 yaşım var, Bakıda, Poçtovaya küçəsi, 64 №-li evdə yaşayıram.**

Ötən ilin mart ayında ermənilər mənim at tövləmə girərək, minik arabasını, atlarımı və digər ləvazimatlarımı aparmışlar. Ümumilikdə mənə 24.000 rubl dəyərində zərər vurulmuşdur.

Oxundu. İmza.
Komissiya üzvləri: A.Kluge, A.Hacı-İrzayev (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 1.**

## Sənəd № 796

***Dindirmə protokolu***

*1919-cu il, 6 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mir Sayad Mir Zeynal Abdin oğlu, 76 yaşım var, Bakı şəhərinin sakiniyəm, Tatarskaya küçəsi, 152 №-li evdə yaşayıram.**

1918-ci ilin martında Bakı şəhərində silahlı ermənilər yuxarıda adı çəkilən evə soxularkən, mən arvadımla qaçaraq canımızı qurtardıq və tam barışıq elan edilənədək tanışlarımızın evində gizləndik. Martın 23-də arvadımla birlikdə mənzilimizə qayıtdıq və onu tamamilə qarət olunmuş və dağıdılmış gördük: ermənilər mənim bütün əmlakımı qarət etmiş və yeganə dolanacağımız olan inəyimizi aparmışdılar. Mən yarıkor və iflic olmuş qocayam, yaşamaq üçün inəkdən savayı heç bir vəsaitim yox idi; arvadım süd satırdı və biz bununla dolanırdıq. İndi biz dilənçi həyatı sürürük və buna görə də 1918-ci ilin mart hadisələri zamanı ermənilər tərəfindən vurulmuş ziyanın ödənilməsini xahiş edirik. Mən bu ziyanı bugünkü qiymətlərlə 21.975 rubl dəyərində qiymətləndirirəm. Mənim ərizəmin qarət olunmuş əşyalarla birlikdə işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 8.**

# FƏSİL V

## BAKI ŞƏHƏRİ VƏ BAKI KƏNDLƏRİNİN SAKİNLƏRİNİN ŞAHİD İFADƏLƏRİ

(1918-ci il mart-sentyabr ayları)

## Sənəd № 797

*Dindirmə protokolu*

*1918-ci il, 13 noyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Mömin Əli Mirzəyev, 45 yaşım var, Bakıda, Deveçinskaya küçəsi, 64 №-li evdə yaşayıram, 4-cü polis sahəsi.**

Bu ilin mart ayında mən bütün əmlakımı arabalara yükləyərək Bakıdan çıxardım. Mayın ortalarında mən şəhərə qayıdırdım. Vladiqafqaz dəmiryolunun Qızıl-Burun stansiyası yaxınlığında sizə təqdim etdiyim siyahıda sadalanan mənim bütün əmlakım ermənilər tərəfindən qarət edildi. Ümumilikdə 17.883 rubl dəyərində olan əşyalarım, həmçinin 8000 rubl dəyərində mauzer sistemli revolver oğurlanmışdır.

Oxundu. İmza. (ərəb hərfləri ilə)

Komissiyanın üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 151.**

## Sənəd № 798

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ağa Rəhim bəy Xanlarov, 80 yaşım var, Bakıda, Naberejnaya küçəsi, 37 № li evdə yaşayıram.**

Bu ilin may ayından başlayaraq erməni-bolşevik quldur dəstələrin tərəfindən Bakı qəzasının Perekeşkül kəndindən ayrı-ayrı vaxtlarda mənə, İsgəndər bəy Ağabəyova və Əlağa Məşədi Hüseyn Qulu oğlu Əmirova məxsus arpa və buğda götürülüb aparılmışdır. Bu kənddən həmçinin 600 kisə saman aparılmışdır. Qarət olunmuş əmlakın qiyməti 240.000 rubla bərabərdir.

Oxundu. İmza.
Komissiyanın üzvü: A.Kluge (imza)
**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 147.**

## Sənəd № 800

***Dindirmə protokolu***

*1918-ci il, 21 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mirzə Əhməd Kərbəlayı Rəhim oğlu Hüseynov, 41 yaşlı, Bakıda, Bondarnaya küçəsi 95 № -li evdə yaşayıram.**

Bu ilin may, yaxud iyun ayında üç nəfər erməni əsgəri məni Çornıy Qorod dəmiryol körpüsünün yanında məni saxlayaraq 13.000 rubl pulumu aldılar. Bu günün günorta çağı baş vermişdir. Bu qarət haqqında mən elə o vaxt polisə xəbər vermişdim.

Oxundu. İmza.
Komissiyanın üzvü: A.Kluge (imza).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 53.**

## Sənəd № 805

***Dindirmə protokolu***

*1918-ci il, 18 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Abbas Əli Hacı Bala Kərim oğlu Kərimov, 39 yaşlı, mühəndis -texnoloq, Bakıda, Vodovoznaya küçəsi, ev 14 ünvanda yaşayıram, 3-cü Polis sahəsi.**

Avqust ayında Sentrokaspi Diktaturası mənim mənzilimi Biçeraxovun idarəsi üçün müsadirə etdi; mənim əşyalarım biçeraxovçular tərəfindən

iki otağa yığıldı və qıfılla bağlandı. Bununla belə, türklər Bakıya gələn vaxt mən də öz mənzilimə qayıdanda məlum oldu ki, mənzildən bütün qiymətli əmlak, oğurlanmışdır. O vaxt həmin əmlak 25.980 rubl dəyərində idi, indi onların qiyməti 51.100 rubldan aşağı deyildir və mən bu məbləğdə zərərin ödənilməsini xahiş edirəm. Ətraflı ərizə və oğurlanmış əşyaların siyahısını təqdim edirəm və onların işə əlavə edilməsini xahiş edirəm.

Oxundu. İmza.

Komissiyanın üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 19.**

## Sənəd № 806

***Dindirmə protokolu***

*1919-cu il, 4 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Bəşir Məlikov, 50 yaşlı, Bakı quberniyası və qəzasının Əhmədli kəndinin sakini, elə orada yaşayıram.**

1918-ci ilin avqustunda Əhmədli kəndində 14-1 qarışıq erməni-rus polku bütünlükdə öz ştabı ilə birlikdə yerləşdi. Bu vaxt erməni əsgərləri axtarış adı ilə mənim evimə girdilər və mənim müxtəlif növ əmlakımı və pullarımı - ümumilikdə 39.250 rubl məbləğində - götürüb getdilər. Oğurlanmış və talan edilmiş əmlakımın siyahısının işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadlıdır. İmza.

Komissiyanın üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 57.**

## Sənəd № 807

*Dindirmə protokolu*

*1918-ci il, 26 oktyabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Sadıq bəy Məmməd Rza bəy oğlu, 27 yaşım var, Bakı şəhəri, Verxne-Priyutskaya küçəsi, dalan 4, 2 №-li evdə yaşayıram. Nəvai kəndindənəm.**

Bu il avqust ayının axırlarında mən Bakı şəhərindən piyada ailəmin olduğu Pirşağı kəndinə gedirdim. Əsgər formasında olan 17 silahlı erməni məni və yoldan keçən on iki nəfər müsəlmanı Məhəmmədi kəndində saxladılar və Zabrat kəndinə apardılar; burada bizi – müsəlmanları kəndirlə bir-birimizə bağlayaraq, tüfənglərdən və mauzerlərdən atış açmağa başladılar. Biz ölü və yaralı vəziyyətdə yerə yıxıldıq. Ermənilər üzərimizə atıldılar və süngü, xəncər və qılınclarla bizim axırımıza çıxmağa başladılar. Güllə mənim ayağıma dəymişdi və başıma təxminən 18 süngü yarası, iki qılınc yarası, həmçinin iki xəncər yarası vurdular. İki saatdan sonra mən ayıldım və qaranlıqda qırğın yerindən uzaqlaşaraq, Ramana tərəfə sürünməyə başladım. Artıq gecə idi. Səhər məni fəhlələr tapdılar və Ramanaya xəstəxanaya apardılar. Məndən başqa adını bilmədiyim bir müsəlman da sağ qalmışdı. Qalan on nəfər isə öldürülmüşdü.

Oxundu. İmza.

Komissiya üzvü: M.Təkinski (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 13, v. 36.**

## Sənəd № 808

*Dindirmə protokolu*

*1918-ci il, 10 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli Heydər Mövsümov, 28 yaşlı, Bakıda, Georgiyevskaya küçəsi, 12 №-li evdə yaşayıram.**

Sentyabr ayında erməni əsgərləri mənim mənzilimə gəldilər və təqdim etdiyim siyahıda sadalanan və qiyməti köhnə pulla 6384 rubl olan əmlakımı qarət etdilər. Yeni qiymətlərlə bu əmlak 20.000 rubla bərabərdir.

Oxundu. İmza.

Komissiyanın üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 118.**

## Sənəd № 809

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Yusif Səməd oğlu Məmmədov, 49 yaşlı, Bakıda, Spasskaya küçəsi 3№-li evdə yaşayıram.**

Türk qoşunlarının Bakıya daxil olmasına 15 gün qalmış erməni əsgərləri İran konsulunun mənzilində axtarış apardılar, onlar simsiz teleqraf axtarırdılar. İran konsulunun mənzilinin aşağı mərtəbəsində mənə və qardaşım Ağəli Məmmədova məxsus yeyinti məhsulları, dəri, xalça, palaz və d. mallardan ibarət anbar yerləşir. Ermənilər anbar olan mərtəbəyə də gəlmiş, pəncərəni qıraraq içəri girmiş və 3 gün ərzində bizim bütün mallarımızı daşıyıb aparmışlar. Əmlak təqdim olunan ərizədə sadalanıb və 405.040 rubl dəyərində idi.

Mart ayında, ermənilərin Bakı şəhərində müsəlman əhalisinə qarşı qırğınlar törətdiyi zaman erməni əsgərləri mənə və qardaşım Ağəli Məmmədova məxsus ərzaq və yeyinti məhsulları mağazamızı qarət etmiş və bizə 327.900 rubl məbləğində zərər vurmuşlar. Təqdim olunmuş ərizədə həmin məhsullar da sadalanır. Bura mağazanın dağıdılmış avadanlığının qiyməti və oradan oğurlanan nağd pul da daxildir. Bizə vurulan ümumi zərər 802.940 rubla bərabərdir.

Oxundu. İmza.

Komissiyanın üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 61.**

## Sənəd № 811

*Dindirmə protokolu*

*1918-ci il, 12 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kərbəlayı İslam Məşədi Zeynal oğlu, 50 yaşlı, Bakıda, Nijne-Tazapirskaya küçəsi, 7№ li evdə, 7-ci dalanda yaşayıram.**

Bakı türk qoşunları tərəfindən mühasirədə olduğu vaxt mən Maştağa, Balaxanı və d. kəndlərə 30 baş buynuzlu mal-qara aparırdım. Şəhərin yaxınlığında məni ermənilər əhatəyə aldılar və 27.00 rubl dəyərində olan mal-qaranı, 26.300 rubl nağd pulumu və başqa əşyalarımı qarət etdilər. Onların adları sizə təqdim etdiyim ərizədə göstərilmişdir. Ümumilikdə mənə 55.8720 rubl məbləğində ziyan dəymişdir.

Oxundu. İmza. (ərəb hərfləri ilə)

Komissiya üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 186.**

## Sənəd № 813

*Dindirmə protokolu*

*1919-cu il, 18 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məmmədzadə Mirzə Bala oğlu[116], 22 yaşlı, Bakı şəhərində Malaya Krepostnaya küçəsi, 8-ci dalan, 21№li evdə yaşayıram.**

Türklərin Bakıya birinci hücumu zamanı mən öz ailəmlə birlikdə Bolşaya Çenberekentskaya küçəsində 56 №li evimizdən çıxmaq məcburiyyətində qaldım. Evə qayıtmaq mümkün olanda biz təqdim olunan ərizədə sadalanan bütün əmlakımızın qarət olunduğunu gördük. Mənə 21.000 rubl məbləğində zərər vurulmuşdur.

Oxundu. İmza.
Komissiyanın üzvləri: A.Kluge, M.Təkinski, (imzalar)
**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 34.**

## Sənəd № 814

*Dindirmə protokolu*

*1918-ci il, 8 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Heydər bəy Ağa Kərim bəy oğlu, 39 yaşlı, savadlı, Bakı şəhərində, Pozenovskaya küçəsi, 25 №li evdə yaşayıram.**

1918-ci il sentyabr ayında türk qoşunlarının Bakıya daxil olmasından 2 gün qabaq mənim evimə 4 erməni əsgəri və bir nəfər rus gəldi və guya bizim evdən göyərçin uçurulduğunu bildirərək mənim 18 yaşlı oğlum Ağa Kərim bəyi tutdular, onu küçəyə çıxardılar və orada güllələdilər. Mən və ailəm bu zaman başqa bir evə qaça bildik və türklər şəhərə girənə qədər orada qaldıq. Evə qayıdandan sonra mənzilimin qarət edildiyini gördüm. Oğurlanmış əmlak 25.545 rubl dəyərində idi və təqdim olunan siyahıda sadalanmışdır.

Oxundu. İmza. (ərəb hərfləri ilə)
Komissiyanın üzvü: A.Kluge (imza)
**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 64.**

## Sənəd № 821

*Dindirmə protokolu*

*1918-ci il, 3 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Baba Ağayev, 55 yaşlı, Bakı, 7-ci Parallelnaya küçəsi, 105 №li evdə yaşayıram.**

Mənim Bakı qəzasının Digah kəndində evim var. Bakının türk qoşunları tərəfindən alınmasından 20 gün əvvəl Digaha erməni əsgərləri gəldilər və mənim evimdən yorğan-döşək, qab-qacaq, mis qazanlar, 25 pud buğda, 1000 pud saman və 23 pud arpanı götürüb getdilər. Bütün qarət olunan mallar və ərzağın qiyməti 60.000 rubl təşkil edir. Əlavə edirəm ki, mənim 2000 rubl dəyərində olan iki təkərli minik arabam da oğurlanmışdır.

Oxundu. İmza.

Komissiyanın üzvü: A.Kluge (imza)

**AR PİI SSA, f. 277, s. 2, iş 14, v. 5.**

## Sənəd № 822

***Dindirmə protokolu***

*1919-cu il, 15 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kazım İslamov, 37 yaşlı, Bakıda, Orlovskaya küçəsi, 54\56 №li evdə yaşayıram.**

1918-ci ilin sentyabrında mənim qardaşım İsmayıl İslamov Suraxanı kəndinə getdi, onun üstündə 23.000 rubl pul var idi. O vaxtdan onu heç kim görməyib. Mən yalnız onu öyrənə bildim ki, o, Suraxanıya gedib çatıb. Suraxanıda o vaxt türklər olmadığı üçün, mən belə güman edirəm ki, qardaşımı ermənilər öldürüb.

Oxundu. İmza.

Komissiyanın üzvləri: M.Təkinski, A.Kluge, Aleksandroviç (imzalar)

**AR PİI SSA, f. 277, s. 2, iş 26, v. 26.**

## Sənəd № 823

*Dindirmə protokolu*

*1918-ci il, 26 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əli Əlimərdan oğlu Əliyev, 27 yaşım var, Binəqədi kəndinin sakiniyəm.**

Türklər Bakı şəhərinə hücumu zaman erməni əsgərləri Binəqədi kəndinə soxuldular və evləri talan etdilər. Erməni əsgərləri mənim evimi və dükanımı qarət etdilər. 150.932 rubl məbləğində qarət edilmiş əşyalarımın siyahısını təqdim edirəm. Dükan və ev birlikdə mənə və üç qardaşıma məxsusdur.

Oxundu. İmza.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 82.**

## Sənəd № 824

*Dindirmə protokolu*

*1919-cu il, 15 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mövsüm Səlimov, 42 yaşlı, Bakıda, Kamenistaya küçəsində, şəxsi evimdə yaşayıram.**

Mart hadisələri günlərində ermənilər mənim evimi talan etdilər və təqdim olunan ərizədə sadalanan əmlakımı apardılar. Avqustun əvvəllərində ermənilər Binəqədiyə, mənim mədənlərimə gəldilər və bütün mədən avadanlığını qarət etdilər. Talan və qarət edilmiş əmlakın siyahısını təqdim edirəm. Mənə ümumilikdə 8.953.540 rubl məbləğində ziyan dəymişdir.

Oxundu. İmza.

Komissiyanın üzvləri: A.Kluge, Məmməd Xan Təkinski (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 28.**

## Sənəd № 825

*Dindirmə protokolu*

*1918-ci il, 20 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**İsa bəy Nəsrulla bəy oğlu Məmmədbəyov, 29 yaşlı, Bakıda, Verxne-Priyutskaya küçəsi, 65 № li xüsusi evimdə yaşayıram.**

Sentyabr ayında Binəqədidə ermənilər mənim mağazamı ümumilikdə 70.520 rubl. məbləğində qarət ediblər ki, bu məbləğin yarısı Əjdər Məlikovla şərik kimi mənim payıma düşür. Malların siyahısını işə əlavə etməyi xahiş edirəm.

Oxundu. İmza.

Komissiyanın üzvü: Aleksandroviç, A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 42.**

## Sənəd № 829

*Dindirmə protokolu*

*1919-cu il, 8 fevral. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Abbas Manaf oğlu, 39 yaşlı, Bakı şəhərinin sakini, Binəqədidə, mədənlərdə, dülgər kimi yaşayıram.**

1918-ci il sentyabrın əvvəllərində, ermənilər Binəqədi kəndinə basqın edərkən, mən onların bizə vəhşi münasibətini bildiyim üçün başqa müsəlmanlarla birlikdə Maştağa kəndinə qaçmaqla xilas olduq. Türk qoşunları erməni hissələrini Binəqədi kəndindən qovub çıxarandan və kəndi tutandan sonra, mən də türklərlə birgə Binəqədi kəndinə daxil oldum və orada bütün əmlakımın talan olunduğunu gördüm. Bu əmlakımı mən 50.000 rubldan az məbləğdə qiymətləndirmirəm. Xahiş edirəm ərizəmi işə əlavə edəsiniz.

Oxundu. Savadsızdır.
Komissiyanın üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar)
**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 67.**

## Sənəd № 832

*Dindirmə protokolu*

*1919-cu il, 19 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Ağaxan Kərimov, 20 yaşım var, Bakı quberniyasının və qəzasının Balaxanı kənd sakiniyəm, elə orada (4-cü polis bölməsi) şəxsi evimdə yaşayıram.**

Mən, Bakı quberniyasının və qəzasının Balaxanı kənd sakini, 31 yaşlı əmim oğlu Həsən Rüstəm oğlu adından ərizə verirəm və bildirirəm ki, o 1918-ci ilin sentyabr ayının əvvəlində erməni dəstələrinin hücumu zamanı Balaxanı kəndindən qaçarkən erməni gülləsindən ağır yaralanmışdır və bu günədək aldığı yaradan sağala bilməmişdir; hal-hazırda xəstə yatır və bu səbəbdən ərizə vermək üçün özü gələ bilməmişdir. Göstərilən hadisələr zamanı zərərçəkmiş Həsən Rüstəm oğlunun hazırkı qiymətlərlə 189.300 rubl dəyərində qiymətləndirdiyi əmlakı ermənilər tərəfindən qarət edilmişdir. Qarət edilmiş əşyaların siyahısının işə əlavə olunmasını xahiş edirəm.

Oxundu. Savadlıdır. İmza.
Komissiya üzvləri: A.Hacı-İrzayev, A.Kluge (imzalar).
**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 20.**

## Sənəd № 833

*Dindirmə protokolu*

*1919-cu il, 25 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Abuzər Əmrahov, 20 yaşım var, Bakı quberniyası Balaxanı kəndinin sakini, 45 yaşlı, müsəlman, savadsız.**

1918-ci ilin sentyabrında, türk qoşunları Bakıya hücuma keçəndə, mən ailəmlə birlikdə, bir çox həmkəndlilərim kimi, ermənilər tərəfindən öldürülməkdən qorxaraq Balaxanı kəndindən çıxdım; bütün daşınan əmlakımı öz evimdə qoyaraq dəmir yolu ilə Petrovsk şəhəri istiqamətində hərəkət etdim. Bakı türk qoşunları tərəfindən alındıqdan sonra mən evimə qayıdanda özümün bütün daşınan əmlakımın qarət olunduğunu gördüm. Qonşular və qarovulçum Dimov, atasının adını bilmirəm, mənə dedilər ki, mənim əmlakımı erməni əsgərləri oğurlayıblar. Qarətçilərin heç birinin soyadını çəkə bilmərəm. Oğurlanan əmlakın siyahısını təqdim edirəm və qarət edilmiş bütün əmlakımı rublun əvvəlki məzənnəsi üzrə 76.115 rubl məbləğində qiymətləndirirəm. Belə ki, mən göstərilən əşyaları 15 il bundan əvvəl məhz bu məbləğdə almışam. Daha heç nə əlavə edə bilmərəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Novatski, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 24.**

## Sənəd № 837

*Dindirmə protokolu*

*1919-cu il, 25 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əbu Əli Hacı Abbas Əli oğlu Nəzərov, 54 yaşlı, savadlı, Balaxanı kəndinin sakini, 57 № li şəxsi evimdə yaşayıram.**

1918-ci ilin sentyabr ayında ermənilər Balaxanıda mənim evimi və evdəki mülkiyyətimi köhnə qiymətlə 50.730 rubl məbləğində talan etdilər. Mən və ailəm bu zaman Qubada idik.

Oxundu. İmza (ərəb hərflər ilə)

Komissiyanın üzvləri: Aleksandroviç, A.Hacı-İrzayev, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 28.**

## Sənəd № 840

***Dindirmə protokolu***

*1919-cu il, 26 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Zeybalı Mirəli oğlu, 60 yaşlı, Bakı quberniyası Balaxanı kəndinin sakini, müsəlman, savadsız.**

1918-ci ilin sentyabrında, türk qoşunlarının hücumu nəticəsində ermənilər bizim kəndə çəkilirdilər, mən başqa həmkəndlilərimlə birlikdə qırılmaq təhlükəsindən qorxaraq və kəndimiz atəşə tutulduğu üçün qaçdım. Qaçarkən bütün daşınan əmlakımı evdə qoymuşdum və nəticədə əmlakım ermənilər tərəfindən qarət edilmişdir. Oğurlanan əşyaların siyahısını təqdim edirəm və onları rublun indiki məzənnəsi üzrə 37.450 rubl məbləğində qiymətləndirirəm. Əlavə etməyə sözüm yoxdur.

Oxundu. Savadsızdır.

Savadsız Zeybalı Mirəli oğlunun yerinə imzaladı: (imza).

Komissiya üzvləri: A.Novatski, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 28.**

## Sənəd № 841

*Dindirmə protokolu*

*1919-cu il, 26 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mirzə Məmməd Alxas oğlu, 45 yaşlı, Bakı quberniyası Balaxanı kəndinin sakini, müsəlman, savadlı.**

Bu ilin sentyabr ayında, türk qoşunları Bakıya hücum edərkən bizim Balaxanı kəndini atəşə tutmağa başlayanda mən evimi və bütün daşınan əmlakımı qoyaraq kənddən qaçdım. Sonra geri qayıdanda türk qoşunlarının təzyiqi nəticəsində əmlakımın qarət edildiyi məlum oldu. Qarətçilərdən heç kimi tanımıram və göstərə bilmərəm. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm və omları rublun indiki məzənnəsi ilə 19.060 rubl məbləğində qiymətləndirirəm. Daha heç nə əlavə edə bilmərəm.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Novatski, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 29.**

## Sənəd № 842

*Dindirmə protokolu*

*1919-cu il, 28 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hacı Ağa Əliyev, 43 yaşlı, Bakı quberniyası Balaxanı kəndinin sakini, müsəlman, savadlı.**

1918-ci ilin sentyabr ayında, türk qoşunlarının hücumu qarşısında ermənilər cəbhədən Bakıya doğru geri çəkilirdilər və yolboyu kəndləri tuturdular. Qırğından qorxaraq, mən başqa həmkəndlilərimlə birlikdə kəndi qoyaraq qaçdım və ev əşyalarından və avadanlıqdan özümlə heç bir şey

götürməyə macal tapmadım. Kəndə qayıtdıqdan sonra bütün daşınan əmlakımın ermənilər tərəfindən qarət olunduğunu gördüm. Oğurlanan əmlakın siyahısını təqdim edirəm. Qarət edilmiş əmlakımı rublun indiki məzənnəsi üzrə 84.860 rubl məbləğində qiymətləndirirəm. Qarətçilərdən heç kimi tanımıram və adlarını çəkə bilmərəm. Əlavə deməyə başqa sözüm yoxdur.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: A.Novatski, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 30.**

## Sənəd № 843

***Dindirmə protokolu***

*1919-cu il, 26 mart, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Qulam Hüseyn Hacı Fətəli oğlu, 17 yaşım var, Bakı quberniyasının Balaxanı kənd sakini, müsəlman, savadlıyam.**

1918-ci ilin yayında türk qoşunları Bakıya daxil olarkən, erməni qoşunları cəbhədən geri çəkilir və bizim Balaxanı kəndinə girirdilər. Qırğından ehtiyat edərək, mən də digər müsəlman həmkəndlilərimlə birlikdə kəndi tərk etdim və özümlə heç bir əmlakımı götürmədən, qaçdım. Mən 27 avqustdan 13 sentyabradək olan müddət ərzində kənddə olmamışam. Ermənilər çıxıb getdikdən sonra kəndə qayıtdım, mənim nişanlımın atası İsmayılın evində saxladığım mənə məxsus əşyalarımın itdiyini gördüm. Məlum oldu ki, əşyalarımız ermənilər tərəfindən qarət olunmuşdur. Rublun indiki dəyəri ilə səksən beş min altmış rubl (85.060 rubl) məbləğində siyahını təqdim edirəm. Mən qarətçilərdən heç birini tanımıram və adlarını da bilmirəm. Əlavə heç nə deyə bilmərəm.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Novatski, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 31.**

## Sənəd № 845

*Dindirmə protokolu*

*1919-cu il, 27 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Hacı Hüseyn Əliyev, 27 yaşlı, Bakı quberniyası Balaxanı kəndinin sakini, müsəlman, savadlı.**

Keçən ilin sentyabr ayında, türk qoşunları Bakı şəhərinə yaxınlaşanda Balaxanı kəndi hərbi əməliyyatlar zolağında olduğu üçün mən digər həmkəndlilərim kimi qaçdım, bütün daşınmaz əmlakım qapısı bağlı mənzilimdə qaldı. Bir müddət sonra evə qayıdanda əmlakımın qarət olunduğunu gördüm. Əmlakımın kim tərəfindən qarət olunduğunu bilmirəm, amma deyirlər ki, balaxanlıların əmlakını ermənilər, geri çəkilərkən oğurlayıblar. Oğurlanmış əmlakın siyahısını təqdim edirəm və omları rublun əvvəlki məzənnəsi ilə 46.615 rubl məbləğində qiymətləndirirəm. Bu əmlakı mən 1918-ci ildə almışdım. Əlavə etməyə başqa sözüm yoxdur.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Novatski, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 34.**

## Sənəd № 847

*Dindirmə protokolu*

*1919-cu il, 29 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Nemət Ağabala oğlu Hacıyev, 54 yaşlı, savadlı, Balaxanı kəndinin sakini, şəxsi evimdə yaşayıram.**

1918-ci ilin sentyabr günlərində Bakı qradonaçalnikliyi Balaxanı kəndində erməni hərbi birləşmələri mənim 146.800 rubl məbləğində əmla-

kımı talan ediblər, mən özüm isə Balaxanıdan Pirşağıya qaçmaqla xilas olmuşam. Əmlakım mənim öz evimdə idi, onun siyahısını və qiymətini təqdim edirəm və işə əlavə edilməsini xahiş edirəm. Bundan başqa, mənim dayım Sadıq Cümşüd oğlu Kərimovun da Balaxanıda 117.800 rubl məbləğində məruz qaldığı zərərlər haqqında ərizəni təqdim edirəm.

Oxundu. İmza.

Komissiyanın üzvləri: Aleksandroviç, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 36.**

## Sənəd № 856

***Dindirmə protokolu***

*1919-cu il, 31 mart. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Kərbəlayı Baxış Orucov, 52 yaşım var, Bakı quberniyası Balaxanı kənd sakini, savadsızam.**

1918-ci ilin sentyabr ayında, ermənilər türk qoşunlarının təzyiqi altında cəbhədən geri çəkiləndə, mən digər öz həmkəndlilərim kimi qırılmaq təhlükəsi qarşısında kəndi qoyub qaçdım və özümlə ev əşyalarından ən vaciblərini belə götürməyə macal tapmadım. Ermənilər gedəndən sonra evimə qayıtdıqda bütün əmlakımın qarət olunduğunu gördüm. Əmlakım ermənilər tərəfindən oğurlanmışdır, lakin onların ad və soyadlarını bilmirəm. Qarət olunmuş əmlakımı keçən ilki qiymətlərlə 74.900 rubl dəyərində qiymətləndirirəm. Qarət olunmuş əşyaların siyahısını təqdim edirəm.

Oxundu. Savadsızdır.

Komissiya üzvləri: A.Novatski, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 25, v. 41.**

## Sənəd № 857

*Dindirmə protokolu*

*1919-cu il, 2 aprel. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Qurban Əli Budaqov, 26 yaşlı, Bakı quberniyası Balaxanı kəndinin sakini, müsəlman, savadlı.**

Keçən il avqust ayının sonunda, ermənilər türk qoşunlarının hücumu qarşısında Bakı şəhərinə geri çəkiləndə, biz, geri çəkilən ermənilərin yolunun üstündə olan Balaxanı kəndinin sakinləri, öldürülmək qorxusu və hərbi əməliyyatlar zolağından çıxmaq istəyi səbəbindən bütün əmlakımızı kəndə qoyaraq qaçdıq. Qaçanların arasında mənim atam Deyləm Budaqov, qohumum Hüseyn Qulu Məşədi Ələkbər oğlu və dayım Abad Eyvaz Əli oğlu da var idi. Kəndə qayıdanda biz öz əmlakımızın qarət olunduğunu gördük, başqalarından eşitdiyimizə görə, onu ermənilər oğurlamışlar. Qarətçilərin adını və soyadını deyə bilmərik, çünki onları heç görməmişik. Atamın və adlarını çəkdiyim qohumların mənə verdiyi etibarnamə əsasında onların qarət olunmuş əmlaklarının siyahılarını təqdim edirəm. Əlavə deməyə sözüm yoxdur.

Oxundu. İmza.

Komissiya üzvləri: A.Novatski, A.Kluge, A.Hacı-İrzayev (imzalar).

**AR PİI SSA, f. 277, s. 2, iş 25, v. 42.**

## Sənəd № 858

*Dindirmə protokolu*

*1918-ci il, 16 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Muxtar Əli Seyran oğlu, 50 yaşlı, Bakı qəzası, Balaxanı kəndində, Əli Bala Babayevin evində yaşayıram.**

Bu ilin sentyabr ayının ilk günlərində ermənilər Balaxanıda mənim evimi, dükanlarımı, sarayımı talan etmişlər və bütün əmlakımı yandırmışlar. Bununla mənə 85.320 rubl məbləğində zərər vurmuşlar. Əmlakımın siyahısını təqdim edirəm və işə əlavə edilməyini xahiş edirəm. Mənə 85.320 rubl məbləğində zərərin ödənilməsini xahiş edirəm.

Oxundu. İmza (ərəb hərflər ilə)

Komissiyanın üzvləri: Aleksandroviç, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 3.**

## Sənəd № 859

***Dindirmə protokolu***

*1918-ci il, 19 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məhsum Kərbəlayı Mirzə Məmməd oğlu İbrahimov, 21 yaşlı, Balaxanı kəndində, Mir Tağı M. Babayevin mədənində yaşayıram. 16 № li sahə.**

Mənim Balaxanıda Mir Tağı M. Babayevin mexaniki emalatxanasının yanında olan mənzilim mən orada olmadığım vaxtda 4170 rubl məbləğində qarət edilmişdir. Mən bu vaxt Balaxanıdan Maştağa kəndinə qaçmışdım. Mən erməni əsgərlərindən qaçmışdım. Mənim ərizəmi işə əlavə etməyi xahiş edirəm və 4170 rubl məbləğində zərərin ödənilməsini xahiş edirəm.

Oxundu. İmza.

Komissiyanın üzvləri: Aleksandroviç, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 30.**

## Sənəd № 862

*Dindirmə protokolu*

*1918-ci il, 3 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mirzə Şirəliyev, 43 yaşım var, Ramana kəndində yaşayıram.**

Türk qoşunları Bakıya daxil olmamışdan 20 gün əvvəl bizim Ramana kəndinə erməni batalyonu girdi və evlərimizi qarət etməyə başladı. Ermənilər evlərə soxulur, mebeli sındırır, qab-qacağı qırır və daha qiymətli olan hər şeyi aparırdılar. Mən qarət olunmuş əşyalarımın siyahısını təqdim edirəm; mənim 138.928 rubl dəyərində əşyalarım itmişdir. Ermənilər, qarətlə kifayətlənməyərək, vaxtında qaçmağa macal tapmamış müsəlmanların hamısını qətlə yetirirdilər. Türk qoşunları hücuma keçən kimi ermənilər geri çəkildilər. Bu müddətdə biz öz kəndimizə qayıtdıq və dağıntıların dəhşətli mənzərəsi ilə üzləşdik. Hər tərəf qətlə yetirilmiş müsəlmanların cəsədləri ilə dolu idi: öldürülmüş qocalar, döşləri kəsilmiş qadınlar, süngülərlə dəlik-deşik edilmiş kiçik yaşlı uşaqlar. Hacıbala Muradəli oğlunun evində 11 cəsəd var idi: ev yiyəsinin özü, onun arvadı, gəlini, kiçik yaşlı uşaqları, o cümlədən bir südəmər körpə və Hacıbalanın qohumları. Biz sonradan Ramana kəndinin yaxınlığında, boş bir evdə qolları arxadan bağlanmış 12 meyit tapdıq. Meyitlərdən biri qadın, digəri uşaq, qalanları isə kişilər idi. Bir çox kənd sakinlərinin meyiti hələ də tapılmamışdır. Mən ermənilər tərəfindən alovun içinə atılmış və yanıb qaralmış meyitlərə rast gəlmişəm.

Qarət edilmiş əşyalarımın siyahısına mən indi qiyməti 10.000 olan 1000 ədəd kisəni əlavə etməyi unutmuşam.

Oxundu. İmza.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 6.**

## Sənəd № 863

*Dindirmə protokolu*

*1918-ci il, 5 dekabr, Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Şahrza Mehdi oğlu, 39 yaşım var, Ramana kəndinin sakiniyəm və orada yaşayıram.**

Azərbaycan-türk qoşunları hücum edərkən erməni qoşunları geri çəkilməyə başladılar. Onlar geri çəkiləndə, biz, Ramana kəndinin sakinləri, Ramanadan digər kəndlərə qaçdıq, çünki bilirdik ki, ermənilər bizi də Zabrat kəndində olduğu kimi öldürəcəklər. Zabratda ermənilər kişi, qadın və uşaqları öldürmüşlər. Ramana kəndindən on iki nəfərə yaxın müsəlman qaçmağa macal tapmamışdı və onları Adıgözəlin həyətində süngü və qundaqlarla qətlə yetirmişdilər. Meyitlər tikə-tikə doğranmış və eybəcər hala salınmışdı. Biz cəsədləri basdırmazdan əvvəl yumadıq, yalnız cəsədlərin tikələrini topladıq, ağ parçaya bükdük və bu cür dəfn etdik. Ermənilər müsəlmanları imkan düşdüyü yerdə qətlə yetirirdilər. Mən Ramana kəndinə qayıdarkən, Buzovna kəndinə gedən yolda, Ramana və Maştağa torpaqlarının sərhədində olan bağın yaxınlığında bir-birinə bağlanmış 14 müsəlman meyitinə rast gəldim. Meyitlər eybəcər hala salınmışdı, qolları, ayaqları, başları kəsilmiş, başlarının dərisi soyulmuşdu. Müsəlmanların hamısını süngülərlə öldürmüşdülər. Meyitlərin arasında dörd qadın cəsədi də var idi. Kəndlilər su quyularında da xeyli meyit aşkar etmişdilər. Ramana kəndində mənim mənzilimi və evimi tamamilə qarət etmiş və 19.340 rubl dəyərində ziyan vurmuşlar. Bu əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Siyahıya əlavə etmədiyim qalan əşyalarımı isə ermənilər sındırıblar. Ermənilər Ramana kəndində demək olar ki, heç nə saxlamayıblar və hətta samanın da hamısını aparıblar.

İmza.

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 21.**

## Sənəd № 865

*Dindirmə protokolu*

*1918-ci il, 20 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Mirpənc Mirdadaş oğlu, 20 yaşım var, Bakı qəzası, Ramana kəndi, 217 №-li evdə yaşayıram.**

Bu ilin sentyabrında ermənilər Ramana kəndində mənim 45 yaşlı qardaşım Mir Razini qətlə yetirmişlər, lakin mən onun meyitini tapa bilmədim. Onun ölümündən sonra arvadı bu dərddən öldü və 1 yaşlı oğlu Seyid Qulu yetim qaldı. Ermənilər 24.335 rubl dəyərində mənim və 15.465 rubl dəyərində qardaşımın əmlakını qarət etmişlər. İki siyahı təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm.

Oxundu.

Əlavə edim ki, həmçinin ermənilər 80 yaşlı atam Mirdadaş Səidqulu oğlunun 4480 rubl dəyərində əmlakını qarət ediblər və atam yaşlı olduğu üçün onun əvəzinə siyahını mən təqdim edirəm.

Oxundu. İmza.

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 43.**

## Sənəd № 866

*Dindirmə protokolu*

*1919-cu il, 21 yanvar. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əlican Hacı Xəlil oğlu, 36 yaşım var, Bakı qəzasının Ramana kəndində yaşayıram.**

Bu ilin sentyabrında erməni əsgərləri Ramana kəndini qarət etmiş-

lər. Bu zaman mənim də evim zərər çəkmişdir. Ermənilər mənim təqdim etdiyim ərizədə adları sadalanan ev əşyalarımı və müxtəlif ərzaqlarımı oğurlamışdılar. Mənim ümumilikdə 37.245 rubl dəyərində əşyalarım oğurlanıb. Bu vaxt atam Hacı Xəlil Baba oğlu da öldürülmüşdür.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: A.Kluge, M.Təkinski (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 26, v. 37.**

## Sənəd № 867

***Dindirmə protokolu***

*1918-ci il, 9 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Xeyri Atababa oğlu, 30 yaş, Ramana kəndinin sakini, savadsızam.**

Türklər hücuma keçdikdən sonra ermənilər geri çəkilməyə başladılar. Ermənilərin Sabunçudan Ramanaya tərəf geri çəkildiyini gördükdə, biz tələsik Ramana kəndini tərk etdik və qaçdıq. Ermənilər kəndə girdilər və bütün kəndi talan etdilər. Ermənilər mənim evimi tamamilə qarət etmiş, qapı və pəncərələri isə sındırmışdılar. Ermənilər mənim evimdən 46980 rubl dəyərində əmlakımı qarət etdilər. Əşyalarımın siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Kənddən qaçmağa macal tapmamış bütün qoca, qadın və uşaqları erməni əsgərləri öldürmüşlər.

Oxundu. İmza.

Komissiya üzvləri: M.Təkinski, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 110.**

## Sənəd № 889

*Dindirmə protokolu*

*1918-ci il, 10 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi İbad Məmməd oğlu, 52 yaşım var, Ramana kənd sakiniyəm, 161 №-li şəxsi evimdə yaşayıram, savadsızam.**

Mart hadisələri zamani mən bağlarda idim. Ermənilər bizim kəndimizə hücum edərək, 70-dən yuxarı kişi, qadın və uşaqları qətlə yetirmiş və onların cəsədlərini xəndəklərə atmışdılar. Onlar təkcə bir evdə hər iki cinsdən 11 nəfəri öldürmüşlər. Ermənilər həmçinin, kəndi qarət etmiş və kəndliləri tamamilə vəsaitsiz və ac qoymuşlar. Ermənilər bolşevizm bayrağı altında ruslarla birlikdə hərəkət edirdilər, sonradan isə məlum oldu ki, onlar öz millətçi məqsədlərini güdürmüşlər və toplardan, pulemyotlardan istifadə etməklə, müsəlmanları qırmaq qərarına gəlmişlər. Biz müsəlmanların heç bir silahı yox idi, buna görə də ermənilərin qarşısında aciz idik. Ermənilər tərəfindən mənim xeyli əşyalarım oğurlanmışdır və mən bu əşyaların 7164 rubl dəyərində olan bir hissəsinin siyahısını təqdim edirəm ki, bu da oğurlanan əşyaların 1\4 hissəsindən azdır. Beləliklə, mənim əşyalarımın itkisindən olan ziyan 30.000 rubla çatır.

İfadə oxundu. Savadsızdır.

Komissiya sədri: Ələkbər bəy Xasməmmədov (imza)

Komissiya üzvləri: Məmməd Xan Təkinski, A.Kluge (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 32.**

## Sənəd № 894

*Dindirmə protokolu*

*1918-ci il, 11 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Əmir Kərbəlayı Rəsul oğlu Bağırov, 22 yaşım var, Bakı qəzasının Ramana kəndində yaşayıram.**

Ermənilər sentyabr ayında mənim atam Kərbəlayı Rəsul Bağır oğlunun evini qarət etmiş və 19 yaşlı bacım Dubanı və bacım qızı Brilyantı, yaş yarımlıq körpəni qətlə yetirmişlər. Qarət edilmiş əşyaların siyahısı təqdim edirəm. Onların dəyəri köhnə qiymətlərlə 54.543 rubl, yeni qiymətlərlə isə 103.000 rubl təşkil edir.

Oxundu.

Dayım oğlu Hacı Mirzə Məmməd Məlikovun evi də həmin dövrdə qarət edilmişdir, onun təqdim edilmiş siyahıda göstərilən və 27.865 rubl dəyərində olan əşyaları yoxa çıxmışdır; bu əşyaların yeni qiymətlərlə dəyəri 81.000 rubl olmuşdur.

Oxundu. İmza.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 143.**

## Sənəd № 924

### *Dindirmə protokolu*

*1918-ci il, 14 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Səməd Məşədi Musa oğlu, 30 yaşım var Bakı qəzasının Ramana kəndi, 10 №-li evdə yaşayıram.**

Ermənilər Ramanada mənim ümumilikdə 2100 rubl dəyərində əşyalarımı qarət ediblər. Mən siyahını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Mən qarət zamanı evdə olmuşam və hər şeyi öz gözlərimlə görmüşəm. Ermənilər qarət olunmuş əmlakı Ramanadan 10-12 gün ərzində daşıyıblar. Mən küçədə olurdum və hər şeyi özüm görürdüm. Mən "Molot"[116] şirkətinin Ramanadakı Amerika podratçı qazma işlərində çalışırdım.

Oxundu. İmza (ərəb hərfləri ilə).

Komissiya üzvləri: Aleksandroviç, A.Kluge (imzalar).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v. 201.**

## Sənəd № 961

*Dindirmə protokolu*

*1918-ci il, 21 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Musa Adıgözəl oğlu, 25 yaşım var, Bakı qəzasının Ramana kəndində yaşayıram.**

Ermənilər bu ilin sentyabr ayında Ramanada aşağıdakı şəxslərdən ibarət olan iki ailəni: Hacı Bala Muradəli oğlu, Cavahir Mir Yaqub qızı, Mirzə Adıgözəl oğlu, Duba Xanım Kərbəlayı Rəsul qızı, Brilyant Mirzə qızı, Cavahir Xanım İbrahim qızı, Hökümə Xanım Adıgözəl qızı, Pikə Xanım Adıgözəl qızı və Xələf Adıgözəl oğlunu qətlə yetiriblər. Həmin vaxt aşağıdakı şəxslərə aid olan 13.695 rubl dəyərində əşyalar da qarət olunmuşdur.

Oxundu. Savadsızdır.

Komissiya üzvü: A.Kluge (imza).

**AR Pİİ SSA, f. 277, s. 2, iş 15, v. 54.**

## Sənəd № 1008

*Dindirmə protokolu*

*1918-ci il, 5 dekabr. Bakı şəhəri.*

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Məşədi Yusif Molla Rza oğlu, 36 yaşım var, Kamenistaya küçəsi, 50 №-li evdə yaşayıram.**

Mart hadisələri zamanı mənim Torqovaya döngəsində yerləşən mənzilimə erməni əsgərləri soxuldular və təqdim etdiyim siyahıda adları sadalanan və ümumilikdə 13.230 rubl dəyərində olan bütün əmlakımı qarət etdilər. Mən bu müddətdə Həştərxanda idim. Zərər yeni qiymətlə hesablanmışdır.

Oxudum.

Əlavə edirəm ki, mən Həştərxandan Petrovsk şəhərinə türk qoşunlarından 15 gün əvvəl gəlmişdim; Petrovsk şəhərinə mənimlə birlikdə 850 nəfər müsəlman gəlmişdi. Bizim hamımızı məsciddə yerləşdirdilər. Erməni əsgərləri öz rəisləri ilə birlikdə gün ərzində bir neçə dəfə oraya gəlir və 10-15 müsəlmanı özləri ilə götürüb gedirdilər. Mən onların arasında Stepan Lalayevi və sonradan Biçeraxovun dəstəsi ilə birlikdə Bakıya gəlmiş digərlərini görmüşdüm. Məlum oldu ki, onlar müsəlmanların bir hissəsini yolda güllələyir, o biriləri həbsxanaya aparır və orada ağır işgəncələr içində öldürürdülər. Mənim qardaşım Məmməd Əlini də həbsxanaya aparmışdılar, əvvəl dilini kəsmiş, sonra isə öldürmüşdülər. Həbsxanada xüsusi otaq var idi və Stepan Lalayev, Ruben Ağamalyans gecələr kiçik dəstələrlə buraya gətirdikləri müsəlmanları öldürürdülər. Onlar 10 nəfərə yaxın müsəlmanı üst-üstə yığır, onları məftillə bağlayır, sonra isə mərc gəlirdilər ki, kimin tüfəngi daha çox adamı vurar.

Sonra öldürülənləri kiçik anbar kimi istifadə olunan qonşu otağa atırdılar. Türklər Petrovsk şəhərinə gələndə ağzınadək eybəcər hala salınmış cəsədlərlə dolu olan bu kiçik anbarı aşkar etdilər. Bütün meyitlərin fotoşəkilləri çəkildi. Yuxarıda adları çəkilən ermənilər iki müsəlmanın əllərini bağlayır, sonra onlardan birini güllələyir, o birini isə bir qədər keçdikdən sonra xəncərlərlə dəlik-deşik edirdilər. Bundan əvvəl onların pullarını alır və əvəzində sağ qoyacaqlarını söz verirdilər. Həbsxananın anbarında tapılan meyitlərin hamısı eybəcər hala salınmışdı: bəzilərinin qolları, digərlərinin isə ayaqları kəsilmişdi; bir çoxlarının qarınları yarılmış, gözləri çıxarılmış, kəllə sümükləri qırılmış, dişləri vurulub sındırılmışdı. Əgər türklər Petrovsk şəhərini almasaydılar, ermənilər bizim hamımızı öldürməyə imkan tapacaqdılar. Mənə növbə çatmadı. Bununla belə ermənilər məni qarət etməyə macal tapdılar, onlar bonlarla 3000 rubl və Nikolay pulları ilə 1500 rubl pulumu, papağımı, çəkmələrimi, palto və pencəyimi götürdülər. Mərhum qardaşım Məmməd Əlinin cibində Kerenski pulları ilə 5000 rubla yaxın pul var idi. Onun meyitini aşkar edərkən bu pullar artıq onun üzərində yox idi. İndi belə xatırlayıram ki, biz Petrovsk şəhərində gəmidən noyabrın 1-də enmişdik. Türklər Petrovsk şəhərinə gələndə bizə böyük qayğı göstərirdilər, 35 nəfərlik kiçik dəstələrlə Bakıya göndərirdilər. Əlavə olaraq bizə xüsusi buraxılış vərəqələri paylayırdılar. Mən öz adıma buraxılış vərəqəsi almışdım və onun əsasında özümlə Bakıya 5 qadın və 30 kişi apara bilərdim.

Oxundu. Öz buraxılış vərəqəmi təqdim edirəm. İmza.

Komissiya üzvləri: A.Kluge, Aleksandroviç, Məmməd Xan Təkinski (imzalar)

Arayış: İfadəyə xüsusi zərfdə saxlanılan sənəd əlavə edilmişdir.

**AR Pİİ SSA, f. 277, s. 2, iş 14, v.15-16.**

# FƏSİL VI

## Məhkəmə-istintaq sənədləri

## Sənəd № 1012

### Fövqəladə Təhqiqat Komissiyasının Sədrinə

### Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlar haqqında həmin Komissiyanın üzvü A.E.Kluge tərəfindən MƏRUZƏ

1918-ci ilin yanvarında, general Talışınski başda olmaqla, müsəlman korpusunun qərargahı Bakı şəhərinə gəlmişdi. Qərargahın rus zabitləri arasında guya əvvəllər jandarmeriyada xidmət etmiş şəxslərin olduğunu bəhanə edərək, müsəlman korpusunun bütün qərargahı, əksəriyyətini ermənilərin təşkil etdiyi bolşeviklər tərəfindən həbs edilmişdi. Ermənilərin "Daşnaksütun" partiyası, Sovet hakimiyyətini tanıyaraq, və sonrakı hadisələrdən də göründüyü kimi, müsəlmanlarla mübarizə aparmaq məqsədilə bolşevik partiyası ilə birləşmişdi. Ermənilər müsəlman qərargahının həbsi ilə müsəlmanların bolşeviklərə və nəticə etibarilə, ermənilərə qarşı silahlı üsyana sövq etməyə çalışırdılar. Müsəlmanların çıxış etmədiyini görən ermənilər müsəlmanlara qarşı zorakılıqlar törətməyə, həm də köməksiz qoca, qadın və uşaqları qarət etməyə və qətlə yetirməyə başladılar. Vəziyyət o yerə çatmışdı ki, müsəlmanlar hətta Bakı vağzalında belə görünə bilmirdilər; dəmir yolu ilə getmək arzusunda olanlar, Bakı vağzalında erməni əsgərləri tərəfindən öldürülmək və qarət olunmaq təhlükəsi qarşısında şəhərə yaxın dəmir yolu stansiyalarından birinə faytonla getməli olurdular.

Müsəlmanlar çox gözəl başa düşürdülər ki, ermənilər onları silahlı çıxışa təhrik edirlər, lakin, qardaş xalqların qırğınına səbəb olan müharibəni və onun nəticələrini arzu etməyərək, hər şeyə dözməyə çalışırdılar. Müsəlmanların mitinqlərində və məscidlərdə keçirdikləri yığıncaqlarında iştirak edən Bakının görkəmli xristian ictimai xadimlərinin sözlərinə görə, müsəlman natiqlərin hamısı müsəlman xalqını təmkinli olmağa, əziyyətlərə və zorakılıqlara səbirlə dözməyə çağırırdı. Natiqlər xalqa izah edirdilər ki, ermənilər müsəlmanları açıq çıxışlara məcbur etməyə çalışırlar ki, sonra özləri onların üzərinə hücum etsinlər. Müsəlmanların davranışlarından görünürdü ki, onlar ermənilərlə baş verə biləcək böyük toqquşma haqqında dəhşətlə düşünürdülər və hər bir vəcdlə belə bir vəziyyətin qarşısını almağa çalışırdılar. Müsəl-

manların nümayəndələri, bolşeviklərə qarşı birgə hərəkət etmək məqsədilə dəfələrlə ermənilərlə ittifaq bağlamağa çalışsalar da, ermənilər hər dəfə bundan yayınırdılar. (cild I, v. 154).

Eyni zamanda, demək olar ki, bütün ermənilərin şəhərin müsəlman hissəsindən erməni hissəsinə köçməsi nəzərə çarpırdı; şəhərin müsəlman hissəsində yalnız ruslar, gürcülər və digər xristianlar qalmışdı ki, ermənilər dəfələrlə onlara da buradan köçməyi məsləhət görürdülər. Belə hallar da olmuşdu ki, ermənilər Bakıda mart ayında qarışıqlıqların ola biləcəyi haqda müsəlmanları xəbərdar edərək, onlara ailələrini bağ evlərinə aparmağı məsləhət görmüşlər (s. I, v.1; s. II, v. 3).

Silahla ehtiyatsız davranması nəticəsində həlak olmuş yoldaşları Məmməd Tağıyevin cənazəsini Bakıyadək müşayiət etmiş müsəlman diviziyasının kiçik dəstəsi 1918-ci ilin martın 17-də Lənkərana geriyə yola düşürdü. Gəminin getməsinə az qalmış silahlı bolşeviklər limana gəldilər, müsəlman diviziyasından tərksilah olunmalarını tələb etdilər və divizion silahları təhvil verməkdən imtina etdikdə, tüfənglərdən və pulemyotlardan atəş açdılar. Ertəsi gün, bazar günü, mart ayının 18-də şəhərin aşağı, erməni hissəsində silahlı erməni əsgərləri görünməyə başladı; onlar bütün küçələrdə səngərlər qazır, torpaq və daşlardan təpələr düzəldirdilər. Bunu görən müsəlmanlar da öz növbəsində bəzi küçələrdə səngər qazmağa başladılar, lakin yenə də ümid edirdilər ki, toqquşma baş verməyəcək və hər şey danışıqlarla yoluna qoyulacaqdır. Elə həmin gün “İsmailiyyə” Müsəlman Xeyriyyə Cəmiyyətinin binasında müsəlmanların iclası keçirilirdi və bu iclasa Bakının keçmiş şəhər rəisi Hayk Ter-Mikaelyans gələrək Erməni Milli Şurası və “Daşnaksütun” partiyasının adından bildirmişdir ki, müsəlmanların bolşeviklərə qarşı çıxış edəcəyi təqdirdə, ermənilər müsəlmanlara qoşular və bolşeviklərin Bakıdan qovulmasında onlara kömək edərlər (s.I v.44; s.II, v.3,49).

Ertəsi gün, bazar ertəsi, martın 19-da, sübh tezdən şəhərin müsəlman hissəsinə əsl hücum başlandı; bu vaxt ermənilərin onlara qarşı səmimi münasibəti barəsində yalan vədlərinə arxayın olan müsəlmanlar hələ yatırdılar; bu hücumda yalnız erməni əsgərləri iştirak edirdilər. Eyni zamanda ermənilərin təhriki sayəsində şəhərin müsəlman hissəsini hərbi gəmilər mərmilərlə atəşə tuturdu, çünki ermənilər rus matroslarını inandırmışdılar ki, müsəlmanlar rus əhalisini qırırlar. Sonradan, müsəlmanların ruslara toxunmadığına əmin olanda, matroslar toplardan atəş açmağı dayandırdılar.

Hücum çoxlu sayda pulemyotların dəstəyi ilə yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərləri tərəfindən şəhərin ucqarlarında, əvvəlcə, yalnız müsəlmanların məskunlaşdığı "Məmmədli" və "Poxlu Dərə" adlanan yerlərdə aparılırdı; Şəhərin adı çəkilən yerlərində ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sahiblərini qətlə yetirir, onları qılınc və xəncərlə doğrayır, bədənlərini süngülərlə deşir, uşaqları yanan evin alovuna atır, üç-dörd günlük körpələri süngülərə keçirirdilər. Valideynlərin qaçaraq evdə qoyub getdiyi bütün südəmər körpələri öldürür, valideynlərin özlərini isə haqlayaraq, küçədə qətlə yetirirdilər. Şəhərin bu hissələrində demək olar ki, elə bir ev yoxdur ki, bu evdə ermənilər müsəlmanların hamısını qırmasın, və çox az sayda müsəlman öz həyatını xilas edə bilmişdir. Ermənilər, müsəlmanları qırmaqla yanaşı, onların əmlakını da məhv edir, qiymətli əşyaları isə özləri ilə aparırdılar. Sonradan, hələ təkcə bir yerdə, torpağa basdırılmış qulaqsız, burunsuz, qarnı yarılmış və uşaqlıq yolu kəsilərək çıxarılmış 57 müsəlman qadının cəsədi aşkar edilmişdir. Şahidlər deyirlər ki, ermənilər hansı səbəbdənsə öldürməyə macal tapmadıqları qadınları hörükləri ilə bir-birinə bağlayır və başıaçıq, ayaqyalın əsir aparırdılar, bu zaman yolboyu onları tüfənglərinin qundaqları ilə döyürdülər (s.I v.51,61, 165; s.II, v.3).

Şəhərin bu hissələrində qətlə yetirilmiş müsəlmanların sayını müəyyən etmək çətindir, belə ki, çoxlu sayda evlər vardır ki, sakinlərinin hamısı ermənilər tərəfindən ucdantutma qətlə yetirilmişdir və indi bircə nəfər sakin qalmamışdır ki, qətlə yetirilənlərin adlarını öyrənmək mümkün olsun.

Şəhərin digər müsəlman hissələrində erməni əsgərləri həmçinin pulemyotların dəstəyi altında sürətli hücuma keçirdilər və müsəlmanları hər hansı bir məhəllədən sıxışdırıb çıxararaq, evlərə soxulur, müsəlmanları qətlə yetirir, sonra isə qarət edirdilər. Bu zaman ermənilər nə yaşı, nə də cinsi nəzərə almırdılar. Məsələn, Hacı Əmir Əliyevin evinə basqın edərək, onun özünü, 80 yaşlı qocanı, onun 60 yaşlı birinci arvadını və 70 yaşlı ikinci arvadını öldürmüş, üç azyaşlı körpəni doğramış və Əliyevin gəlinini, 25 yaşlı qadını diri-diri divara mıxlamışlar (s. II, v.3).

Hücum edən erməni əsgərlərinə, əsas etibarilə, erməni ziyalılarının nümayəndələri başçılıq edirdilər. Belə dəstələrdən biri Nikolayevskaya küçəsində yerləşən evə soxulmuş və 8 nəfər qadın və uşaqları qətlə yetirmişdir. Başqa bir dəstə Bala Əhməd Muxtarovun Persidskaya küçəsində yerləşən evinə girərək, müsəlman ziyalılarının doqquz nümayəndəsini küçəyə çıxar-

mış və Sobornaya meydanında güllələmişdir. Həmin evdə doktor Tağıyev bolşeviklərin hakimiyyətini tanıdığını sübut edən sənədi çıxararaq erməni əsgərlərinə təqdim etdikdə, əsgərlər daşnaksakan olduqlarını və bolşevikləri tanımadıqlarını söyləyərək onu güllələmişlər.

Bala Əhməd Muxtarovun evində tutulan və sonradan güllələnən şəxslərin arasında bu binanın sahibi, polkovnik Tabasaranski, rotmistr Sultan bəy Əmircanov, doktor Kərim bəy Sultanov, Cavad bəy Aşurbəyov və başqaları var idi; Sultanovun və Aşurbəyovun cəsədləri "Dağıstan" mehmanxanasının yanan binasının içinə atılmışdır (s.I, v.45; s.II, v.4).

Mart qırğınlarında yaxşı təşkil edilmiş hərbi hissələrlə yanaşı "Daşnaksütun" partiyasının üzvləri də iştirak edirdilər; bu hal həm şahidlərin ifadələri ilə, həm də fəhlə, əsgər və matros deputatları Sovetinin iclaslarından birində Sovetin sədri Stepan Şaumyanın qırğınlarda daşnaksakanların iştirakını açıq etiraf etməsi ilə sübut olunur. Bununla belə, artıq qırğınlar dayandırıldıqdan sonra, erməni ziyalı cəmiyyətinin bir çox nümayəndələri qəribə bir inadla iddia edirdilər ki, mart qırğınlarında erməni təşkilatları və erməni ziyalıları çıxış etməmişlər, qarətlərlə isə erməni qara camaatı və cəbhədən geri dönərkən müsəlmanların onları öz evlərinə, öz kəndlərinə buraxmadığına görə müsəlmanlardan qisas alan ayrı-ayrı əsgərlər məşğul olmuşlar (s.I, v.153).

Mart hadisələri zamanı 11 minə yaxın müsəlman qətlə yetirilmişdir; onların əksəriyyətinin cəsədi aşkar edilməmişdir, çünki ermənilər onları yanan evlərin içinə, dənizə və quyulara atmışlar (s. II, v. 3).

Heydər Qulu Quliyevin dediyinə görə, o, şəhərin bir neçə rayonlarında müsəlman mənzillərinə baş çəkərkən dəhşətli dərəcədə eybəcər hala salınmış meyitlərə rast gəlmişdir. Məsələn, o, öz bacısı oğlu Bəşər Cəfərovun cəsədini başı bədənindən ayrılmış, qolu kəsilmiş halda və bədənində üç süngü yarası ilə tapmışdı, həm də onun başını harasa aparmışdılar. Sonra o, cinsiyyət orqanı kəsilmiş kişi cəsədini, onun cinsiyyət orqanının yaxınlıqda öldürülmüş müsəlman qadının ağzına qoyulmuş vəziyyətdə görmüşdü. Digər yerdə boğazı kəsilmiş gənc müsəlman qadın uzanmışdı, onun sinəsi üzərinə isə xəncərlə doğranmış bir yaşlı oğlan uşağı elə vəziyyətdə qoyulmuşdu ki, uşağın ağzı qadının döşünün giləsində olsun. Bətnindən körpələri yarılıb çıxarılmış, döşləri, burnu, qulaqları kəsilmiş, uşaqlıq yoluna paya sancılmış müsəlman qadınların cəsədlərinə rast gəlinirdi. Bir yerdə od pilətəsinin üzərində dəhşətli əzablardan can vermiş

körpənin yanıb qaralmış cəsədi tapılmışdı. Digər yerdə ağac paya ilə qarnından torpağa mıxlanmış oğlan uşağının cəsədi uzanıb qalmışdı. Bir çox qadınların vəziyyətindən görünürdü ki, onlar ölüm qabağı zorlanmaya məruz qalmışlar (s.II, v. 18; s.I, v.12).

Martın 24-də Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin keçmiş üzvü, "Nikolay Bünyadov" gəmisinin komandir köməkçisi Kazım Axundova Bakı şəhərinin "Çəmbərəkənd" adlanan dağlıq hissəsinin müdafiəsi üçün təyyarəçi Rozenblümun rəhbərliyi altında 10 silahlı matros göndərilmişdi. Axundov, martın 25-dən Nikolayevskaya küçəsindən cəsədlərin yığışdırılmasına başlamışdır, bu zaman süngülərlə dəlik-deşik edilmiş və qılıncla doğranılmış 3 müsəlman oğlan - gimnaziya tələbələri, 11 tələbə qız, bir rus qadın, 3 yaşından 5 yaşınadək üç müsəlman oğlan, 8 nəfər rus kişi, 19 nəfər iranlı təbəələr - müsəlmanın və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlı müsəlmanın cəsədlərini yığışdırmışdır.

Sadalanan cəsədlər avtomobillərdə məscidlərə aparılmışdır. Bundan əlavə, "Vulkan" cəmiyyətinin köhnə limanına 6748 müsəlman kişi, qadın və uşaq meyitləri gətirilmişdir. Şəhərin "Məmmədli", "Poxlu Dərə" rayonlarından müsəlmanların cəsədləri qəbiristanlığa daşınmışdır, bununla belə cəsədlərin yığışdırılması yalnız mart ayının 31-də[118] başa çata bilmişdir. Axundov öz tanışı texnik Vladimir Sokolovu "Kərpicxana" adlı yerə aparmış və Sokolov burada üç fotoşəkil çəkmişdir. Birinci şəkildə başından güllə yarası almış, bədənində beş süngü yarası olan, sağ körpücük sümüyü sındırılmış qadın meyiti çəkilmişdir; meyitin sağ döşünün üstündə ayağından süngü yarası almış, hələ sağ olan körpə uzanmışdır və anasının döşünü əmirdi.

İkinci şəkildə 7-8 verşok uzunluğunda iri Kazaçkov mismarı ilə divara mıxlanmış iki yaşında körpə təsvir olunmuşdur; mismarın papağından görünürdü ki, o divara yaxınlıqda yerə atılıb qalmış daşla vurulmuşdur.

Üçüncü şəkildə 13-14 yaşlarında qızın meyiti çəkilmişdir və qızın vəziyyəti onun bir neçə şəxs tərəfindən zorlandığını sübut edir; onun aralı qalmış ayaqlarının arasındakı döşək qanla örtülüb; onun boynunda barmaq izləri görünür.

Axundov Sokolovla birlikdə dördüncü evə daxil olduqda, onların qarşısında aşağıdakı səhnə açılmışdı: böyük otağın döşəməsində 22-23 yaşlarında çılpaq qadının, iki qarının, altı yaşında qızın, səkkiz yaşlı oğlanın və südəmər körpənin cəsədi var idi; körpənin əl və ayaqlarını üç it gəmirirdi.

Təsvir edilən səhnə Sokolova o dərəcədə təsir etmişdir ki, o fotoşəkil çəkməyə davam etməkdən imtina etmişdir (s.II, v. 49-52).

“Daşnaksütun” erməni inqilabi partiyasının Bakı mərkəzi komitəsinin orqanı olan “Vperyod”[119] qəzetinin 33-cü nömrəsində Erməni Milli Şurası, mart hadisələrini öz istədiyi kimi təsvir etməyə çalışaraq, bəyan edir ki, “Daşnaksütun” partiyasının fəal dəstəyi nəticəsində müsəlmanlar Erməni Milli Şurasının müdafiəsi altına alınmışlar; guya Şura müsəlman vətəndaşların müdafiəsi və himayəsi üçün hətta öz səlahiyyətli nümayəndəsini təyin etmişdir. Himayə olunan müsəlmanların əksəriyyəti şüurlu əsgər elementləri və erməni partiyalarının nümayəndələri tərəfindən xilas edilmişdir. Sülh və əmin-amanlıq bərqərar olduqdan sonra müsəlmanlar şəhərin erməni hissəsindən müsəlman hissəsinə yola salınmışlar.

Əsir müsəlmanların Erməni Milli Şurası tərəfindən himayə olunanların saxlanılması üçün ayrılmış Mailov teatrına, “Rekord” teatrına və digər yerlərə necə aparıldığı aşağıdakı faktlardan görünür:

Martın 19-da, günorta saat 3-də, Ağa Hüseyn Babayevin Nikolayevskaya və Zavedenskaya küçələrinin kəsişməsində yerləşən evinə 14 erməni əsgəri gəlmiş və onların dediyinə görə, bu evdə gizlədilən 11 ədəd tüfəngi axtarmağa başlamışlar. Yalnız bir tüfəng tapmış ermənilər bu evdə yaşayan Əsheddin Mustafayevi, onun əmisi Məcidulla Osman oğlunu, Rəhim Rəhimxan oğlunu, Ağa Hüseyn Babayevi, doktor Nərimanovun qardaşını və mühəndis Sərkisyanın bağbanını həbs etmişlər. Mühəndis Sərkisyan mart hadisələri başlamazdan bir neçə gün əvvəl ailəsi ilə birlikdə şəhərin ermənilər yaşayan hissəsinə köçmüş, öz əşyalarını qorumaq üçün isə bağbanı mənzilində qoymuşdur. Həbs olunanları Nikolayevskaya küçəsi ilə aşağıya aparmış və yolüstü ağ bayraqla gedən üç nəfər yaşlı müsəlmandan ibarət nümayəndələri də həbs etmişlər. Velikoknyajeskaya prospektinə çatdıqda, erməni əsgərləri əsir götürülənlərin hamısını Kələntərov pasajının qarşısında bir sıraya düzmüş və tüfənglərdən onlara yaylım atəşi açmışlar. Əsheddin Mustafayev və Məcidulla Osman oğlundan başqa qalanların hamısı qətlə yetirilmişdir: onlardan birincisi partlayan güllə ilə sağ qolundan və sağ böyründən, ikincisi isə partlayan güllə ilə sağ ayağından yaralanmışdı. Təsvir edilən güllələnməni törədən dəstənin başçısı Ofitserskaya küçəsindəki ev sahibinin oğlu zabit Sergeyev idi (s. I, v.42).

Elə həmin günün axşamı silahlı ermənilər Bondarnaya küçəsi, 148 №-li evə girmiş və orada 50 nəfər müsəlman qadın, uşaq və kişiləri gördükdə,

onların hamısını qarət etmiş, sonra isə Birjevaya meydanı istiqamətində əsir aparmışlar. Ermənilər bu meydana gələrək, həmin dəstədən bütün kişiləri ayırmış və onları ayrıca aparmış və 12-ci lazaretin qarşısında onlara tüfənglərdən yaylım atəşi açmış, sonra isə süngülərlə sağ qalanların axırına çıxmışlar. Əsirlərin bu dəstəsində olan on dörd yaşlı Məmməd İbrahim Məşədi Mövlət oğluna 2 güllə və 18 süngü yarası vurulmuşdur; o, ermənilər getdikdən sonra sanitarlar və şəfqət bacıları tərəfindən 12-ci lazaretə aparılmış və orada onun həyatını xilas etmək mümkün olmuşdur. Məmməd İbrahimlə birlikdə gedən Məşədi Əli Cəlalzadənin qoluna və qasığına iki güllə vurulmuş və dörd süngü zərbəsi kürəyinə və bir süngü zərbəsi isə ayağına endirilmişdir; o da həmçinin 12-ci lazaretə çatdırılmış və onu sağaltmaq mümkün olmuşdur (s.I, v.35,48).

Müsəlmanların bu cür əsir aparılması Bakı şəhəri Azərbaycan-Türk qoşunları tərəfindən alınan günədək ermənilər tərəfindən həyata keçirilmişdir. Məsələn, 1918-ci ilin avqust ayının sonunda Bakı sakini Sadıq bəy Məmməd Rza bəy oğlu Bakıdan çıxaraq Pirşağıya ailəsinin yanına gedirmiş. Məhəmmədli kəndində 17 erməni əsgəri onu və yanında olan 20 nəfərə yaxın digər müsəlmanları əsir götürmüş və onları Zabrat kəndinə aparmışdır. Oradaca onların hamısını kəndirlə bir-birinə bağlayaraq, tüfənglərdən onlara atəş açmışlar. Onların hamısı yerə yıxıldıqdan sonra isə süngü, xəncər və qılıncla axırlarına çıxmışlar. Bir güllə, iki xəncər, 18 süngü və iki qılınc yarası almış Sadıq bəy Ramana kəndinin xəstəxanasına çatdırılmış və orada onu müalicə etmək mümkün olmuşdur (s.I, v.11).

Erməni ziyalıları köməksiz müsəlmanları qırmaqla, dənizçiləri və qızıl ordunun əsgərlərini onların üzərinə qaldırmaq istəyirdilər. Məsələn, martın 19-da səhər İran konsulu və dənizçi Natanson Qalaya gəlmiş və müsəlmanların nümayəndələrinə bildirmişlər ki, şəhərdə müsəlmanların Qalada olan bütün rusları, habelə erməniləri qırdıqları barədə şayiələr gəzir. Buna cavab olaraq müsəlmanların nümayəndələri onların hər ikisini, aralarında ermənilərin də olduğu, 240 xristian kişi, qadın və uşaqların qaldığı Mir Əli Nağı Hüseynovun evinə gətirmişlər. Xristianlarla yaxşı rəftar olunduğuna və yeməklə təmin edildiklərinə, və onların mərmilərdən qorunmaq üçün Hüseynovun evinə könüllü surətdə gəldiklərinə əmin olduqdan sonra, Natanson və konsul çıxıb getmişlər. Üç saatdan sonra onlar yenidən geri qayıtmış və bildirmişlər ki, erməni ictimai xadimlərindən iki nəfər onlara telefonla belə xəbər vermişdir ki, onlar, yəni konsul və Natanson Qaladan çıxıb get-

dikdən sonra, müsəlmanlar bütün xristianları qırmışlar. Özlərinin qəsdən aldadıldıqlarına əmin olan konsul və Natanson ermənilərin hücumunun qarşısını almaq üçün Qalada 20 matros saxlamış, özləri isə çıxıb getmişlər (s. II, v.1).

Martın 20-də üç erməni əsgərinin müşayiət etdiyi erməni zabiti Tatevos Əmirov "Kaspi" qəzetinin redaksiyasının binası ilə "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binası arasında olan dalana gəlmiş və "İsmailiyyə"nin binasına girmişdir; bir müddət sonra binanın pəncərələrindən tüstü və alov görünmüşdür və yalnız Bakı müsəlmanlarının fəxri deyil, həm də bütün şəhərin bəzəyi olan bu əzəmətli bina yanaraq məhv olmuşdur. Yanğını söndürəcək heç kəs yox idi, çünki müsəlmanlar pulemyotlardan və tüfənglərdən aramsız atəşə tutulan küçəyə çıxmaq imkanından məhrum idilər (s.II, v.2).

Daha sonra "Kaspi" qəzeti redaksiyasının binası və "Dağıstan", "İsgəndəriyyə" və "İslamiyyə" adlı müsəlman mehmanxanaları da yandırılmışdır.

Yandırılmış binalar bütün Qafqaz müsəlmanlarının həyatında böyük rol oynayırdılar: 1. "İsmailiyyə" də bütün Qafqaz müsəlman komitələri yerləşirdi və bu binada həmin komitələrə məxsus pul və sənədlər saxlanılırdı; bundan əlavə, binada bütün müsəlman yığıncaqları və qurultayları keçirilirdi: məsələn 1918-ci ilin fevral ayının 15-də açılmış Ümumqafqaz müsəlmanlarının qurultayı[120] ; 2. "Kaspi" qəzetinin redaksiyasında müsəlman dilində[121] müxtəlif kitablar çap olunurdu, yanğın zamanı isə onun zirzəmilərində ərəb dilində yenicə çapdan çıxmış 5000 Quran kitabı var idi və onların hamısı yanmışdır; 3. "İslamiyyə", "Dağıstan" və "İsgəndəriyyə" mehmanxanalarında Bakıya gələn bütün müsəlmanlar qalırdılar; bu mehmanxanaların dağıntıları arasında yanıb qaralmış xeyli müsəlman cəsədi tapılmışdır: məsələn, "Dağıstan" mehmanxanasının xarabalıqları arasında doktor Kərim bəy Sultanovun, Cavad bəy Aşurbəyovun, "Hacınski Çələkən" mədənlərinin idarə başçısı Abdulla bəy Babayovun və digərlərinin cəsədləri tapılmışdır. (s.II, v.2; s. I, v.45).

Ermənilər müsəlmanların evlərinə soxularaq bütün qiymətli əşyaları aparır, qalan əşyaları qırıb-tökür, əksər hallarda isə yandırırdılar. Şəhərin aşağı hissəsində, Sisianovskaya küçəsindən aşağıda, Hacı Zeynal Abdin Tağıyevin mənzili istisna olmaqla, qarət olunmamış müsəlman mənzili qalmamışdır. Bəzi rayonlarda, məsələn, Məmmədli rayonunda və yaxud bazarda müsəlmanların məskunlaşdığı bütün tikililər başdan-ayağa

yandırılmış və qarət edilmişdir. Ümumilikdə, Bakı şəhərinin müsəlman əhalisinə köhnə qiymətlə 400.000.000 rubldan az olmayaraq, ziyan vurulmuşdur (s.II, v.3).

Mart ayının 19-da öz silahlarını bolşeviklərə təhvil verməyə razılıq vermiş müsəlmanlarla bolşeviklər arasında sülh bağlanmasına baxmayaraq, ermənilər müsəlmanları öldürməkdə və qarət etməkdə davam edirdilər, həm də nəinki martın 22-nə, müsəlmanlarla onların aralarında barışığın elan edildiyi günə qədər, hətta sonrakı vaxtlarda da. Müsəlmanların çoxsaylı qarət olunması, qətlə yetirilməsi və yoxa çıxması halları Bakı şəhəri Azərbaycan-Türk qoşunları tərəfindən alınanadək baş vermişdir (s.II, v.51).

Müsəlmanların qardaş qırğınına son qoymaq cəhdlərinə erməni əsgərlərinin necə münasibət göstərdiyinə aşağıdakı fakt sübut ola bilər: Martın 20-də, çərşənbə axşamı, Molla Cavad Axund, Molla Hacı Mir Mövsüm, Hacı Hüseyn Tağıyev, doktor Atabekyan və İcraiyyə Komitəsinin üzvü Denejkindən ibarət olan nümayəndə heyəti Qaladan avtomobillə şəhərin yuxarı hissəsinə göndərilmişdir. Zavedenskaya küçəsində altı erməni əsgəri nümayəndə heyətini saxlanılmış və heyətin hara getdiyini soruşmuşdur. Nümayəndə heyətinin şəhərin müsəlmanlar tərəfindən tutulmuş hissəsinə keçərək, müsəlmanlarla ermənilər arasında sülh bağlandığı üçün, onlara hərbi əməliyyatları dayandırılmaq təklifi etmək istədiyini eşidəndə erməni əsgərləri bildirmişlər ki, onlar nümayəndə heyətini buraxmayacaqlar, çünki heç bir barışığı tanımırlar. Nümayəndə heyətinin üzvləri müsəlmanların Zavedenskaya küçəsinin axırındakı səngərlərinə tərəf yönəldikdə, erməni əsgərləri onların arxasınca atəş açmağa başlamış və səngərlərə qədər qaçaraq, orada gizlənməyə macal tapmış Molla Cavad Axund istisna olmaqla, nümayəndə heyətinin üzvlərinin hamısını qətlə yetirmişlər (s.II, v.4).

Bütün yuxarıda göstərilənlər istər şahid ifadələri, istərsə də işə əlavə edilmiş baxış, ekspertiza protokolları və çoxlu sayda yandırılmış evlərin və hədsiz dərəcədə eybəcər hala salınmış cəsədlərin fotoşəkilləri ilə təsdiq edilir.

Şəhərin müsəlmanlar yaşayan hissələrini talan etmiş erməni əsgərlərinin başında tüfənglərlə və mauzerlərlə silahlanmış mühəndis Artyom Ter-Akopovun, Fridun Akopovun, Jorj Melikovun, Asatur Vaçyansın, andlı iclasçı Arutçevin, Yeqiş Paxlavuninin, Levon Saatsazbəyovun, tələbə Popovyanın, Ambarsum Melikovun, Stepan Lalayevin, praporşik Dovlatovun və Xristofor Dildarovun durduğu sübut edilmişdir (s.I, v.1,5,6; s. II v. 2, 23, 24, 50).

Mart hadisələri zamanı ermənilərin həyasızlığı o həddə çatmışdır ki, onlar hətta tanışları olan müsəlmanların da evlərinə soxulur, onların əmlaklarını qarət edir və hər yerdə, sərasər hamını qətlə yetirirdilər.

Məsələn, martın 20-də Stepan Lalayev erməni əsgərlərinin böyük dəstəsi ilə Varantsovskaya küçəsində yaşayan doktor Bəy Bala Bəy Sultanovun mənzilinə soxulmuş, sonuncunu öz revolveri ilə güllələyərək yerindəcə öldürmüşdür. Sultanovun mənzilinin həyətinə enən Lalayev oradakı müsəlman bağbanı, onun arvadını və ikiyaşlı oğlunu şəxsən güllələmişdir. (s.I, v.62, 68).

Suraxanskaya küçəsində yaşayan Məşədi Əhməd Rəhim oğlunun mənzilinə 30 nəfərə yaxın silahlı erməni əsgəri girmiş və 34.840 rubl dəyərində qızıl, gümüş və digər müxtəlif qadın əşyalarını götürmüşdür; Məşədi Əhməd cinayətkarların arasında qonşuları dərzi Hayk Yaramış oğlunu və baqqal Yexuş Samvel oğlunu tanımışdır (s. I, v.21).

Həmin Yexuş digər silahlı ermənilərlə birlikdə Suraxanskaya küçəsində yaşayan Ağa Hüseyn Hacı Səlim oğlu Nəcəfovun mənzilinə girmiş, sonuncunun 111.460 rubl dəyərində ən qiymətli əşyalarını götürərək, mənzil sahibinin qardaşını və atasını öldürmüş, onun özünü isə qadınlarla və uşaqlarla birlikdə Mailov teatrına göndərmişdir; onları həmin yerdə 3 gün saxlamışlar (s.I v.22).

Bir neçə silahlı erməni, onların arasında praporşik Avakyan və çəkmə emalatxanasının sahibi İsaak Baqdasarov, Serkovnaya küçəsində yaşayan Məşədi Hüseyn Səfərəliyevin mənzilinə soxulmuş, onun 186.000 rubl məbləğində bütün nağd pullarını və müxtəlif qiymətli əşyalarını zorla götürmüş və Səfərəliyevi ailəsi ilə birlikdə "Rekord" teatrına aparmışlar. Yolda Səfərəliyevi müşayiət edən ermənilərdən biri ona tüfəngdən atəş açmış və sağ qulağından yaralamışdır (s.I, v.25).

Həmin İsaak Baqdasarov digər silahlı ermənilərlə birlikdə Tatarskaya küçəsində yaşayan Mir Qasım İbrahim oğlunun mənzilinə gəlmiş və onun 150.000 rubl dəyərində olan bütün əmlakını qarət etmişdir (s.I, v.94).

Həsən Mikayılovun Bondarnaya və Mariinskaya küçələrinin kəsişməsində yerləşən mənzilinə bir neçə silahlı erməni soxulmuşdur; onların arasında Olqinskaya küçəsində Tağıyev pasajının qarşısındakı bərbərxananın dolu bədənli, yanağı çapıqlı, sahibi də olmuşdur. Cinayətkarlar Mikayılovun qardaşlarından birini - Məlik Məmmədi öldürmüş, o biri qardaşı Tağını isə arvadı və qızı ilə birlikdə Mailov teatrına aparmışlar; yolda onlar Tağını da öldürmüş və onun cibində olan 2500 rubl pulu götürmüş-

lər. Ermənilər Mikayılovların mənzilindən ümumilikdə 54.000 rubl dəyərində nağd pul və digər qiymətli əşyalarını götürmüşlər (s. I, v.30).

Teymur Səlimovun Serkovnaya küçəsində yerləşən mənzilinə silahlı ermənilər gəlmiş və 150.000 rubl dəyərində olan bütün əmlakını aparmışlar. Mənzildə olan dalandar Məmməd İrza qarətçilərin arasında həmin evdə yaşamış Aleksandr və Levon Ter-Qazarovları və onların adı müəyyən edilməmiş üçüncü qardaşlarını tanımışdır; Məmməd İrza Aleksandr Ter-Qazarovun kiməsə telefonla mənzil sahiblərinin evdə olmadığını bildirərək, onu Səlimovun mənzilinə gəlməyə dəvət etdiyini eşitmişdir. (s. I, v.56).

Ağa Əli İsmayılovun Bondarnaya küçəsində yerləşən mənzilinə tüfənglərlə silahlanmış altı nəfər erməni gələrək, Ağa Əlini güllələmək istəmişlər. Onlar Nikolay pulları ilə 7080 rubl pulunu alaraq, onu öldürməməyə razılaşmış və yalnız süngü ilə kürəyindən yaralamışlar. Sonra mənzildən 17.780 rubl dəyərində olan bütün qiymətli əşyaları götürərək, ermənilər Ağa Əlini və onun ailəsini Mailov teatrına aparmış və orada onların hamısını bir gün yarım saxlamışlar. İsmayılov qarətçilərin arasında bərbərlər ittifaqında xidmət edən dolu bədənli, üzü qırxılmış, çopur sifətli Arşak Avetisovu tanımışdır (s.I, v.91).

Çadrovaya küçəsində yaşayan Yaxşı Xanım Hacı Əli Mərdan qızı Manafovanın evinə tüfənglərlə silahlanmış bir neçə nəfər erməni soxulmuş, onun oğlu Ağaverdi Manafovu güllələmiş və onun 75.000 rubl dəyərində olan bütün əmlakını qarət etmişlər. Yaxşı Xanım qarətçilərin arasında öz kirayənişini, mart hadisələrindən sonra Qoqolevskaya küçəsi, dalan № 2, ev № 14 ünvanına köçmüş Aleksandrı tanımışdır (s. I, v.124).

Mart qırğınlarının üçüncü günü Bondarnaya küçəsində yaşayan Məmməd Tağı Kərimovun mənzilinə Kərimovun kirayənişini Levon Arutyunoviç Qaraxanovun gətirdiyi bir neçə silahlı erməni gəlmişdir. Qaraxanov ümumilikdə 49.000 dəyərində nağd pul və ən qiymətli əşyaları götürərək, Kərimovu Mailov teatrına göndərmiş və ona hərbi nümunəli gödəkcəsini əynindən çıxarmağı məsləhət görmüşdür, belə ki, onu müsəlman divizionunun süvarisi kimi qəbul edib güllələyə bilərdilər. Sonra Qaraxanov Məmməd Tağının o vaxt praporşiklər məktəbində oxuyan qardaşını axtarmağa başlamışdır. Qaraxanovun yoldaşları onu axtararaq Əmir Qulu Həsənovun yaxınlıqdakı mənzilinə gəlib çıxmış və orada Əmir Qulunu və onun iki oğlunu, Məhərrəm və Hüseyn Balanı qətlə yetirmişlər (s. I, v.124).

Elə həmin gün bir qrup silahlı erməni Tatarskaya küçəsində yaşayan Nəsir Kərbəlayı Kazım oğlunun mənzilinə gəlmiş və onun əmisi Həbibulla Molla Hacı Baba oğlunu və əmisi oğlu Hacı Baba Həbibulla oğlunu öldürərək, 2000 rubl nağd pulunu və 7662 rubl dəyərində müxtəlif qiymətli əşyalarını götürmüşlər. Nəsir özü qaçıb xilas ola bilmişdir. O, cinayətkarların arasında Tatarskaya və Karantinnaya küçələrinin tinindəki baqqal dükanının sahibi Yequşu, Samvelin oğlunu görmüşdür (s. I, v.125).

Martın 20-də bir dəstə silahlı erməni əsgərləri Serkovnaya küçəsində yaşayan Məşədi Məmməd Sadıq Talıbovu ailəsi ilə birlikdə əsir apararkən, onun kirayənişini, andlı iclasçı Varşamyanın qardaşı Levon Varşamyan Talıbovun 5.000.000 rubl dəyərində olan bütün qiymətli əşyaları qarət etmişdir; təkcə 30 funta yaxın qızıl oğurlanmışdır (s. I, v.162).

Martın 20-də Çadrovaya küçəsində yaşayan İsmayıl bəy Şeyda bəy oğlunun mənzilinə 20-25 nəfər erməni əsgəri gəlmiş, mənzildə axtarış aparmış və İsmayıl bəyin 5200 rubl pulunu götürmüşlər. Sonra onlar İsmayıl bəyi, onun qardaşı Qasım bəyi, əmisi Xalıq bəy Məmmədbəyovu və sonuncunun oğlu İlyas bəyi küçəyə çıxarmışlar; burada onlar dərhal 70 nəfərə yaxın erməni tərəfindən əhatəyə alınmışlar. Bu kütlədən bir çoxları İsmayıl bəyə və onun yaxınlarına atəş açmağa başlamış və üç güllə ilə Qasım bəyi, bir güllə ilə Xalıq bəyi və üç güllə ilə İlyas bəyi öldürmüşlər. Çiynindən güllə yarası almış İsmayıl bəy qaça bilmişdir. İsmayıl bəy ona güllə atanlardan I kişi gimnaziyasının tələbəsi Paronyanı tanımışdır (s. I, v.164).

Tüfənglərlə silahlanmış bir neçə erməni Nijnyaya-Priyutskaya küçəsində yaşayan Əliyoldaş Əliyevin evinə soxulmuş, onun özünü və dörd qardaşını qətlə yetirmiş və onların bütün əmlakını qarət etmişlər. Bu zaman onlar Əliyevin kirayənişini Yankel Samuiloviç Slavinskinin də əşyalarını götürmüşlər. Sonradan Slavinski qarətçilərdən birini küçədə tanımışdır və o, həbs edilmişdir; aydın olmuşdur ki, bu, Xaçatur Martirosovdur. (s. II, v. 45).

Həmin vaxt Məşədi Məmməd Sadıq Həsənovun da əşyaları silahlı ermənilər tərəfindən qarət edilmişdir; cinayətkarların başında Sergey Melikov dururdu (s. II, v.176).

Mart hadisələri zamanı erməni əsgərləri tərəfindən Əli Övsəd Davudzadənin "Qrand Otel" mehmanxanasının birinci mərtəbəsində yerləşən baqqal dükanı qarət edilmişdir; sonradan Stepan Lalayev Əli Övsətin kürəkəni İmamverdi Zeynalova demişdir ki, dükan onun əmri ilə qarət olunmuşdur (s. I v. 112, 113).

Mart qırğınlarının ikinci günü Qalada, kilsənin yanında yaşayan İşxan Qarabəyov qaynı Nikolayla birlikdə öz evinin damından qarşıdakı evdə yaşayan Əbdül Cabbar Babayevin mənzilinin pəncərələrini atəşə tutmuşdur. Əbdül Cabbarın qardaşı Əbdül Qafar kabinetə daxil olaraq telefonla danışmağa başlayarkən Qarabəyov və onun qaynı bir neçə atəş açmış və onu yerindəcə öldürmüşlər (s.I, v.3).

Əbdül Cabbar Babayevin sözlərinə görə onun yaxın tanışı Pyotr Moiseyeviç Zorabov həkim Tiqran Ter-Zaxaryanın denşikinin guya digər ermənilərlə birlikdə Cavad bəy Aşurbəyovun və doktor Kərim bəy Sultanovun öldürülməsində və cəsədlərin “Dağıstan” mehmanxanasının yanan binasının içinə atılmasında özünün iştirakı barədə necə danışdığını eşitmişdir. (s.I, v.4).

Yuxarıda şərh edilənləri nəzərdən keçirərək və:

I. Yuxarıda təsvir edilən cinayətlərin törədilməsində: 1. Əli Övsəd Davudzadənin, İmamverdi Zeynalovun və Ağa Hüseyn Tağıyevin ifadələri üzrə Stepan Lalyevin; 2. Abbas Eyvazovun ifadəsi üzrə Artyom Nikolayeviç Ter-Akopovun və Fridun Antonovun; 3. həmin Eyvazovun, polkovnik Mansur şahzadə Qacarın və Ağa Hüseyn Tağıyevin ifadələri üzrə Jorj Melikovun; 4. Əbdül Cabbar Babayevin ifadəsi üzrə İşxan Qarabəyovun, onun qaynı Nikolayın və Tiqran Ter-Zaxaryanın denşikinin; 5.Mirzə Əhməd Hüseynzadənin ifadəsi üzrə Asatur Vaçyansın; 6. Ağa Hüseyn Tağıyevin ifadəsi üzrə Tatevos Əmirovun; 7. Məşədi Əhməd Rəhim oğlunun, Ağa Hüseyn Hacı Səlim oğlu Nəcəfovun və Nəsir Kərbəlayı Əzim oğlunun ifadələri üzrə baqqal Yexuş Samveloviçin; 8. həmin Məşədi Əhməd Rəhim oğlunun ifadəsi üzrə dərzi Hayk Yeramış oğlunun; 9. Məşədi Hüseyn Səfərəliyevin və Mir Qasım Seyid İsmayıl oğlunun ifadələri üzrə çəkməçi İsaak Baqdasarovun; 10. Əsxəddin Hacı oğlu Mustafayevin ifadəsi üzrə zabit Sergeyevin; 11. Teymur Səlimovun ifadəsi üzrə Aleksandr Ter-Qazarovun, Levon Ter-Qazarovun və onların adı hələ də müəyyən edilməmiş üçüncü qardaşının; 12. Ağa Əli İsmayılovun ifadəsi üzrə bərbər Arşak Avetisovun; 13. Yaxşı Xanım Hacı Əli Mərdan qızı Manafovanın ifadəsi üzrə soyadı hələ də müəyyən edilməmiş Aleksandrın; 14. Məmməd Tağı Kərimovun ifadəsi üzrə Levon Arutyunoviç Qaraxanyanın; 15. Məşədi Məmməd Sadıq Həsənovun ifadəsi üzrə Sergey Melikovun; 16. Məşədi Məmməd Sadıq Talıbovun ifadəsi üzrə Levon Varşamyanın; 17. İsmayıl bəy Şeyda bəy oğlunun ifadəsi üzrə I oğlanlar gimnaziyasının tələbəsi Paronyanın; 18. Ağa Hüseyn Tağıyevin ifadəsi üzrə Ambarsum Meliko-

vun, praporşik Dovlatovun və Xristofor Dildarovun; 19. Mir Əbdül Əziz Seyidovun ifadəsi üzrə tələbə Popovyanın; 20. Yankel Samuiloviç Slavinskinin ifadəsi üzrə Xaçatur Martirosovun; 21. Məşədi Hüseyn Səfərəliyevin ifadəsi üzrə praporşik Avakyanın; 22. Kazım Ələsgər oğlu Axundovun ifadəsi üzrə Yeqiş Paxlavuninin və Levon Saatsazbəyovun ifşa olunduğunu;

II. Yuxarıda təsvir olunan cinayətlərin törədildiyi mart qırğınlarının müsəlman əhalisini dəfələrlə silahlı çıxışa sövq etməyə cəhd göstərərək, nəticədə onun əvvəlcə Bakıda, daha sonra ucqarlarda fiziki olaraq məhv edilməsinə, bütün əmlakının mənimsənilməsinə və onun bütün rifahının və siyasi üstünlüyünün təbii surətdə ermənilərin əlinə keçməsinə nail olmaq məqsədi ilə "Daşkansütun" partiyası və Erməni Milli Şurası tərəfindən hələ 1917-ci ildən başlayaraq hazırlandığını;

III. 1918-ci ilin mart ayının 17-dən sonra cərəyan edən hadisələrin göstərdiyi kimi, müsəlmanların qətlə yetirilməsinin və müsəlmanların evlərinin darmadağın edilməsinin şəhərin bütün hissələrində, planauyğun şəkildə, əvvəlcədən müəyyən edilmiş sistem üzrə, yaxşı təşkil edilmiş hərbi hissələr tərəfindən, həm də onların rəhbərliyi altında və Bakı şəhərinin erməni əhalisi tərəfindən həyata keçirildiyini;

IV. Buna görə də, yuxarıda təsvir olunmuş cinayətlərdən birinin və ya bir neçəsinin törədilməsində ifşa olunanların hamısının quldur dəstəsinin üzvləri kimi, həm də digər cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edildiyini nəzərə alaraq,

Hesab edirəm ki, Cəza haqqında Qanun Məcəlləsinin 13, 129, 927, 1452, 1453, 1607, 1633 və 1636-cı maddələri ilə nəzərdə tutulmuş cinayət əməllərinə görə yuxarıda adı çəkilən şəxslərin haqqında cinayət işi açılsın.

Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Kluge (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 27, v. 16-24.**

## Sənəd № 1013

### QƏRAR

1919-cu il, 24 iyul. Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası Bakı şəhərinin talan edilməsi haqqında iş üzrə Komissiyanın üzvü A.E.Klugenin məruzəsi ilə əlaqədar, hazırkı işə baxaraq, hesab edir ki, Komissiyanın apardığı təhqiqatın əldə etdiyi sübutlarla – Klugenin adı çəkilən məruzəsində şərh olunan, həm şahidlərin: Abbas Eyvazovun (v. i.1 s. I), Əbdül Cabbar Babayevin ( v.i. 3 s. I), Mirzə Əhməd Hüseynzadənin (v.i. 5 s. I), Mansur Şahzadə Qacarın (v.i. 6, s. I), Məşədi Əhməd Rəhim oğlunun (v.i.21 s. I), Ağa Hüseyn Səlim oğlu Nəcəfovun (v.i. 22 s. I), Məşədi Hüseyn Səfərəliyevin (v.i. 25 s. I), Teymur Səlimovun (v.i.56 s. I), Ağa Əli İsmayılovun (v.i. 91 s. I), Əli Övsəd Davudzadənin (v.i.112 s. I), İmamverdi Zeynalovun (v.i. 113 s. I), Məmməd Tağı Kərimovun (v.i. 124), s. I), Nəsir Kərbəlayı Əzim oğlunun (v.i. 125, s. I), Məşədi Məmməd Sadıq Talıbovun (v.i. 162, s. I), Ağa Hüseyn Tağıyevin (v.i. 1 s. II), Yankel Slavinskinin (v.i. 45 s. II) və Məşədi Məmməd Sadıq Həsənovun (v.i.176), s. II) ifadələri ilə, həm də işə əlavə edilmiş baxış protokolları, ekspertiza protokolları və foto şəkillərlə müəyyən edilmişdir ki, Bakı şəhərinin sakinləri: 1. Stepan Lalayev, 2. Artyom Nikolayeviç Ter Akopov, 3. Fridun Antonov, 4. Jorj Melikov, İşxan Qarabəyov, 6. İşxan Qarabəyovun qaynı Nikolay, 7. Asatur Vaçyans, 8. Tatevos Əmirov, 9. Yequş Samvel oğlu (baqqal), 10. Hayk Yeramış oğlu (dərzi), 11. İsaak Baqdasarov (çəkməçi), 12. Aleksandr Ter-Qazarov, 13. Levon Ter-Qazarov, 14. Arşak Avetisov (bərbər), 15. Levon Arutyunov Qaraxanyans, 16. Sergey Melikov, 17. Levon Varşamyan, 18. Ambarsum Melikov, 19. Xristofor Dildarov, 20. Xaçatur Martirosov, 21. Yeqiş Paxlavuni, 22. Levon Saatsazbəyov aşağıdakı əməllərdə kifayət qədər ifşa olunmuşlar: müsəlman əhalisinə qarşı dini və tayfa düşmənçiliyindən irəli gələn məqsədlərlə, öz aralarında və istintaq tərəfindən hələ müəyyən edilməmiş digərləri ilə razılaşma əsasında və birləşmiş qüvvələrlə odlu və soyuq silahla silahlanmış bir neçə min nəfərdən ibarət quldur dəstəsi yaratmış və bu dəstə müsəlman əhalisinin qırılması, eləcə də onun əmlakının qarət və məhv edilməsi məqsədi ilə 1918-ci ilin mart ayının 18-də Bakı şəhərində şəhərin müsəlmanlar yaşayan hissəsinə basqın etmiş və onları bir neçə gün ərzində talan edərək, 1. bu müddət ərzində 11000 nəfərə yaxın müsəl-

man kişi, qadın və uşaqları qətlə yetirmişdir, qətllər xüsusi qəddarlıqla, qadınların zorlanması, döşlərinin kəsilməsi, diri-diri alovun içinə atılması, südəmər körpələrin süngülərə keçirilməsi və s. ilə müşayiət olunmuşdur; 2. əhalinin 400 milyon rubldan az olmayan məbləğdə müxtəlif əmlakını qarət etmişdir və 3. bir neçə rayonda, məs., Məmmədli rayonunda və yaxud bazarda müsəlmanların məskunlaşdığı binaların demək olar ki hamısını, həmçinin müsəlmanlara məxsus olan digər ictimai və şəxsi binaları: "Kaspi" qəzetinin redaksiyası binasını, "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasını və müsəlmanlara məxsus "Dağıstan", "İsgəndəriyyə", "İslamiyyə" mehmanxanalarını yanğınlarla məhv etmişdir, buna görə də: Cinayət Prosessual Məcəlləsinin 396-cı maddəsinə, Azərbaycan Respublikası Hökumətinin 21 mart 1919-cu il tarixli qərarına[122] və Ədliyyə Nazirinin həmin ilin 25 iyun tarixli və 3066 №-li təklifinə[123] əsaslanaraq, Fövqəladə Təhqiqat Komissiyası QƏRARA ALIR: yuxarıda adları çəkilən Bakı şəhəri sakinləri Stepan Lalayev, Artyom Nikolayeviç Ter Akopov, Fridun Antonov, Jorj Melikov, İşxan Qarabəyov, İşxan Qarabəyovun qaynı Nikolay, Asatur Vaçyans, Tatevos Əmirov, Yequş Samvel oğlu, Hayk Yeramış oğlu, İsaak Baqdasarov, Aleksandr Ter-Qazarov, Levon Ter-Qazarov, Arşak Avetisov, Levon Arutyunov Qaraxanyans, Sergey Melikov, Levon Varşamyan, Ambarsum Melikov, Xristofor Dildarov, Xaçatur Martirosov, Yeqiş Paxlavuni və Levon Saatsazbəyov Cəza haqqında Qanun Məcəlləsinin 13, 129, 927, 1452, 1453, 1607, 1633 və 1636-cı maddələri ilə ittiham edilərək, hazırkı iş üzrə müttəhim qismində cinayət məsuliyyətinə cəlb olunsunlar. İş üzrə və Klugenin həmin məruzəsində adları çəkilən və şahidlərin ifadələrinə görə həmçinin yuxarıda göstərilən cinayətlərin törədilməsində iştirak etmiş: doktor Tiqran Ter-Zaxaryanın denşiki, zabit Sergeyev, adı məlum olmayan Ter-Qazarov, soyadı məlum olmayan Aleksandr, tələbə Paronyan, praporşik Dovlatov, adları məlum olmayan tələbə Popovyan və praporşik Avakyanın müttəhim qismində cinayət məsuliyyətinə cəlb edilməsi məsələsi isə,

onların şəxsiyyətləri dəqiq aydınlaşdırılana qədər açıq saxlanılsın.

Sədr: Ə. Xasməmmədov (imza)

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri:

Ç.B.Klossovski, A.A. Aleksandroviç (imzalar)

**AR Pİİ SSA, f. 277, s. 2, iş 27, v. 25-26;**

## Sənəd № 1100

### Bakı şəhərindəki Müttəfiq Qoşunların Komandanı Cənablarına[124]

9 dekabr 1919-cu il.

Fövqəladə Təhqiqat Komissiyasının Stepan Lalayevin fəaliyyəti ilə bağlı işi haqqında Sizin Zati-Alilərinizə məlumat verirəm.

Bakıda dindirilən şahidlərin ifadələrindən görünür ki, Lalayev bu ilin mart ayının 19-da, bazar ertəsi günü erməni əsgərlərinin Nikolayevskaya küçəsindəki basqınlarına rəhbərlik etmişdir, belə ki, onun dəstəsindən olan əsgərlər evlərə soxulmuş və silahsız müsəlmanları qətlə yetirmişlər.

Şahidlərin digər qrupunun ifadələri ilə müəyyən edilmişdir ki, həmin Lalayev yoldaşları Tatevos Əmirov, Seryoja Melikov və Arzuman Tərcumanovla birlikdə başçılıq etdiyi kiçik silahlı erməni dəstəsi ilə Şıx Balayevin Nijnyaya-Priyutskaya küçəsindəki evinə gəlmiş və öz əsgərlərinə Balayevin mənzilini qarət etmək əmri vermişdir və bu əmr icra olunmuşdur. Bu dəstə Balayevin evinə yaxınlaşarkən yolda Balayevin qohumları Tələt Hüseynovu və Ağa Dadaş Ağa Qurban oğlunu güllə ilə yaralamışdır. Balayevin evindən çıxıb gedəndən sonra həmin dəstə Ağa Dadaşın qonşuluqdakı mənzilinə girmişdır; bu vaxt artıq adları çəkilən yaralılar da evə gətirilmişdi; erməni əsgərləri burada yaralı Ağa Dadaşın özünü və onun atası Hacı Qurbanı qətlə yetirmişlər.

Petrovskdan gəlmiş bir qrup şahidin ifadələrinə görə, Azərbaycan-Türk qoşunları gəldikdən sonra öz dəstəsi ilə Bakıdan həmin şəhərə qaçmış Stepan Lalayev buradakı İran təbəələrinə - həm yerli, həm də təxminən noyabrın 2-də Həştərxandan Petrovsk şəhərinə gələnlərə - müntəzəm olaraq işgəncələr vermiş və onları qətlə yetirmişdir. Sayı 850 nəfərə yaxın olan bu müsəlmanlar Petrovsk şəhərinə "Poseydon" gəmisi ilə gəlmiş və "Kornilov" gəmisində baş vermiş yanğınla əlaqədar olaraq üç gün limanın girəcəyində dənizdə dayanmalı olmuşlar. Dördüncü gün, qoca, qadın və uşaqları "Evelina" gəmisinə keçirərək Bakıya yola salmışlar. Təxminən 750 nəfərə yaxın 18-45 yaşlarında qalan müsəlmanları isə Petrovsk şəhərində sahilə çıxarmış, kasıb müsəlmanları məscidlərdə, imkanı olanları isə mehmanxanalarda və şəxsi mənzillərdə yerləşdirmişlər.

Stepan Lalayev, Ruben Ağamalıyans və şahidlərin adlarını bilmədiyi, lakin müttəfiq dövlətlərin qoşunları Bakıya girdikdən sonra dəfələrlə Ermansın Olqinskaya küçəsindəki aptekinin yanında və Şamaxinkada gördükləri digər şəxslərin başçılığı altında erməni əsgərləri gün ərzində bir neçə dəfə həmin müsəlmanların yanına gəlmişlər. Bu dəstələr hər dəfə 10-15 nəfər müsəlmanı özləri ilə götürür, onları gah həbsxanaya, gah da şəhər kənarına, yaxınlıqda yerləşən bağlara aparmışlar.

Onlar orada müsəlmanları dözülməz işgəncələrə məruz qoyur və qətlə yetirirdilər. 8-10 nəfəri bir-birinə bağlayır və kimin tüfənginin gülləsi daha çox insanı deşib keçəcəyindən mərc gəlirdilər. Bundan əlavə, onlar müsəlmanları zəncir kimi (əl-ələ) bağlayır və sonra qıraqdakından başlayaraq, xəncərlə baş, qarın və sinəsinə zərbələr endirərək, insanları bir-birinin ardınca öldürürdülər. Bəzilərini üz-üzə bağlayır və hər ikisinin başını bir qılınc zərbəsi ilə üzməyə cəhd edirdilər. Sonuncu üsulla 50 nəfərə yaxın adam öldürülmüşdür və türk qoşunları Petrovk şəhərinə gəldikdən sonra onların cəsədləri bir-birinə bağlı şəkildə aşkar edilmişdir. Lalayevin dəstəsi tərəfindən qətlə yetirilmiş müsəlmanların cəsədləri, kəllə sümükləri parçalanmış, əlsiz, ayaqsız şəkildə olmaqla, dəhşətli dərəcədə eybəcər hala salınmışdı. Sağ qalmış bəzi müsəlman şahidlərin ifadələrinə görə, onlara yalnız türk qoşunları artıq Petrovsk şəhərinə daxil olduğu üçün növbə çatmamışdır və Lalayev yoldaşları ilə birlikdə şəhəri tərk etməli olmuşlar. Türk qoşunları işgəncə verilmiş və qətlə yetirilmiş müsəlmanların sayının dəqiqləşdirilməsi, habelə onların fotoşəkillərinin çəkilməsi ilə məşğul olmuşlar. Həmin şahidlərin ifadələrinə görə eybəcər hala salınmış xeyli cəsəd həbsxananın xüsusi otağında aşkar edilmişdir, Lalayev yoldaşları ilə birlikdə müsəlmanlara qarşı bağlarda və həbsxananın arxasında törətdiklərini eyni ilə burada da törətmişdir.

Stepan Lalayev başçılıq etdiyi böyük erməni əsgərlərinin dəstəsi, Samson Əmirov və Saatsazbəyov ilə Şamaxıya gəlmiş, adları çəkilən şəxslərlə və yerli sakinlərdən Arzumanov, Gülbəndov və başqaları ilə birlikdə şəhərdəki bütün məscidlərin istisnasız olaraq hamısının mühasirəyə alınmasını əmr etmişdir; Müsəlmanların adətlərinə görə qadınların, qoca və uşaqların gizləndiyi bu məscidlərə od vurmaq, bayıra qaçmağa cəhd edənləri öldürmək əmri verilmişdir; Beləliklə məscidlərdə gizlənənlərin hamısı diri-diri alov içində yanaraq dəhşətli ölümlə həlak olmuşlar. Şamaxı şəhərinin müsəlmanlar yaşayan hissəsi də demək olar ki, eyni üsulla tamamilə məhv edilmişdir.

Lalayevin əmri ilə onun əsgərləri gənc müsəlman qızlarını Lalayevin

Şamaxıdakı xüsusi evinə aparır, onları soyundurur, zorla içirdərək sərxoş edir, zurnanın sədaları altında rəqs etməyə məcbur edirdilər; sonra isə qızları zorlayaraq, bəzilərini yerindəcə qətlə yetirir, o birilərini isə hündür balkondan aşağı atır və bu yolla öldürürdülər. Lalayevin bu üsulla namusu ləkələnmiş qurbanlarından yalnız 7 nəfər qız türk qoşunlarının Şamaxıya gəlməsi nəticəsində xilas ola bilmişdir.

Sizin arzu etdiyiniz təqdirdə şahid ifadələrinin əslindən çıxarışlar təqdim oluna bilər.

Komissiyanın sədri: Ə.Xasməmmədov (imza).

Komissiya üzvü: Aleksandroviç (imza).

Komissiya üzvü: A.Kluge (imza)

**AR Pİİ SSA, f. 1061, s. 1, iş 99, v. 6-8.**

## Sənəd № 1101

**Müttəfiq Dövlətlər Polisinin Komissarı[125]**
**4 fevral 1919-cu il. Bakı şəhəri**

**Ədliyyə Naziri Cənablarına**
**(surəti Dairə Məhkəməsinin Sədri Cənablarına)**

İttifaq Hərbi Məhkəməsi tərəfindən Stepan Lalayevin işinin araşdırılması ilə bağlı yaranmış texniki çətinliklər, yəni yerli hakimiyyət orqanları vasitəsilə şahidlərin dəvət edilməsi, onların hakimlərin tanış olmadığı dillərdə dindirilməsi, şahid ifadələrinin bu şəkildə təkrar edilməsi səbəbindən məhkəmə prosesinin uzanması və s. nəticəsində Müttəfiq Qoşunların Bakı şəhərindəki Ali Baş Komandanı adı çəkilən zabiti yerli hakimiyyətin məhkəmə orqanlarına vermək qərarına gəlmişdir.

Adı çəkilən müttəhimin məndən alınmasının Sizin üçün nə zaman əlverişli olacağı barədə məni vaxtında xəbərdar etmənizi, eləcə də mənim həmin bu məktubun surətini göndərdiyim Dairə Məhkəməsinin cənab Prokurorunu xəbərdar etmənizi lütfən xahiş edirəm.

Bununla, məndə olan və bu işə aid bütün sənədləri də əlavə edirəm.

Polkovnik (imza)

Komissarın adyutantı: Kapitan (imza)

**AR Pİİ SSA, f. 1061, s. 1, i. 99, v. 9.**

## Sənəd № 1136

**QƏRAR**

1919-cu il, 20 noyabr.

Mən – Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Aleksandroviç, Bakı şəhərinin və onun ətrafının talan edilməsinə dair işə baxaraq, və iş üzrə müttəhim qismində Stepan Lalayevin, Georgi Melikovun, Astvasatur Vaçyansın, Yequş Quliyansın, Levon Varşamyansın və digərlərinin cinayət məsuliyyətinə cəlb edildiyini, və Stepan Lalayevə, Georgi Melikova, Astvatsatur Vaçiansa, Yequş Quliyansa, Levon Varşamyansa qarşı ittiham irəli sürüldüyünü, və işdən göründüyü kimi, digər müttəhimlərin: Artyom Nikolayeviç Ter Akopovun, Fridun Antonovun, İşxan Qarabəyovun, İşxan Qarabəyovun qaynı Nikolayın, Tatevos Əmirovun, Hayk Yeramış oğlunun (dərzi), İsaak Baqdasarovun (çəkməçi), Aleksandr Ter-Qazarovun, Levon Ter-Qazarovun, Arşak Avetisovun (bərbər), Levon Arutyunov Qaraxanyansın, Sergey Melikovun, Ambarsum Melikovun, Xristofor Dildarovun, Xaçatur Martirosovun, Yeqiş Paxlavuninin və Levon Saatsazbəyovun axtarılıb tapılmadığını və onların yaşayış yerinin məlum olmadığını, iş üzrə cəlb edilənlər müttəhimlər barəsində Cinayət Prosessual Məcəlləsinin 448-ci maddəsinin tələbinin hər bir müttəhimə ayrı-ayrılıqda ona aid olan istintaq materiallarının açıqlanması mənasında yerinə yetirildiyini, Cinayət Prosessual Məcəlləsinin 386-cı maddəsinə uyğun olaraq iş üzrə ittiham olunanların axtarılması üçün təcili tədbirlərin görüldüyünü, dindirilən müttəhimlərin istinad etdiyi şahidlərin çağırıldığını və onların arasında tapılanların dindirildiyini, müttəhimlər dindirmə zamanı iştirak etməsə də, onların CPM-nin 476-cı maddəsinə uyğun olaraq öz şahidlərini məhkəmə istintaqına çağırmaq imkanından məhrum edilmədiyini, müttəhim E.S.Quliyansın istinadın etdiyi şahid Aleksandr İqnatyeviç Lıkovın nə Bakı şəhərində, nə də Tiflisdə tapılmadığını və bu səbəbdən dindirilmədiyini, nəzərə alaraq,

Qərara alıram: hazırkı iş üzrə istintaq başa çatdırılsın və icraatı Fövqəladə Təhqiqat Komissiyasının Sədrinə təqdim edilsin.

Fövqəladə Təhqiqat Komissiyasının üzvü:

A.Aleksandroviç (imza)

**AR Pİİ SSA, f. 277, s. 2, i. 27, v. 334-335.**

## Sənəd № 1137

### Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə tanınması münasibətilə əhaliyə bəxş edilən imtiyazlar haqqında QANUN[126]

### Azərbaycan Parlamenti tərəfindən 9 aprel 1920-ci il tarixdə qəbul edilmişdir

Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınması, Azərbaycan xalqının həyatında zülm və əsarət dövrünə son qoyan, hüquq və azadlıq prinsiplərinə əsaslanan yeni dövlət quruluşunun qəti təntənəsi şərəfinə Parlament cinayət törətmiş şəxslərin qismətini və müxtəlif vergi və rüsum ödəyənlərin vəziyyətini aşaşıdakı hallarda yüngülləşdirməyi qərara alır:

.....

2. Hazırkı qanun qüvvəyə minən günədək milli ədavətdən irəli gələn məqsədlərlə cinayət əməlləri törətmiş şəxslərin hamısı təqibdən və cəzadan azad edilsin.

.....

10. Avropa müharibəsi başlandığı vaxtdan bütün Cənubi Qafqaz hüdudlarında müsəlmanlara və onların əmlakına qarşı törədilmiş zorakılıq hallarının təhqiq olunması üçün 15 iyul 1918-ci il tarixdə təsis edilmiş Fövqəladə Təhqiqat Komissiyasının icraatında olan bütün cinayət işlərinə həmişəlik xitam verilsin.

Parlamentin Sədri əvəzi Baş müavin: M.Y.Cəfərov[127]

Katib: B.Rizayev

Dəftərxana rəisi: M.Vəkilov[128]

**AR DA, f. 895, s. 3, iş 301, v. 16-17.**

## Sənəd № 1138

### QƏRAR

Cəza haqqında Qanun Məcəlləsinin 13, 129, 927, 1452, 1453, 1607, 1633 və 1636-cı maddələri ilə ittiham olunan Bakı şəhər sakinləri Stepan Lalayev, Artyom Nikolayeviç Ter-Akopov, Fridun Antonov, Jorj (Georgi) Melikov, İşxan Qarabəyov, İşxan Qarabəyovun qaynı Nikolay (soyadı məlum deyildir), Asatur Vaçyans, Tatevos Əmirov, Yequş Samvel oğlu Quliyans, Hayk Yeramış oğlu, İsaak Baqdasarov, Aleksandr Ter-Qazarov, Levon Ter-Qazarov, Arşak Avetisov, Levon Arutyunov Qaraxanyans, Sergey Melikov, Levon Varşamyan, Ambarsum Melikov, Xristofor Dildarov, Xaçatur Martirosov, Yeqiş Paxlavuni, Levon Saatsazbəyov **barəsində cinayət işinə xitam verilməsi haqqında.**

Avropa müharibəsi başlandığı vaxtdan Cənubi Qafqazın hüdudları daxilində müsəlmanlara və onların əmlakına qarşı törədilmiş zorakılıqların araşdırılması üçün 1918-ci ilin iyul ayının 15-də təsis edilmiş Fövqəladə Təhqiqat Komissiyası tərəfindən Bakı şəhərinin və onun ətrafının talan edilməsi haqqında iş üzrə Bakı şəhəri sakinləri Stepan Lalayev, Artyom Nikolayeviç Ter-Akopov, Fridun Antonov, Jorj (Georgi) Melikov, İşxan Qarabəyov, İşxan Qarabəyovun qaynı Nikolay (soyadı məlum deyildir), Asatur Vaçyans, Tatevos Əmirov, Yequş Samvel oğlu Quliyans, Hayk Yeramış oğlu, İsaak Baqdasarov, Aleksandr Ter-Qazarov, Levon Ter-Qazarov, Arşak Avetisov, Levon Arutyunov Qaraxanyans, Sergey Melikov, Levon Varşamyan, Ambarsum Melikov, Xristofor Dildarov, Xaçatur Martirosov, Yeqiş Paxlavuni, Levon Saatsazbəyov Cəza haqqında Qanun Məcəlləsinin 13, 129, 927, 1452, 1453, 1607, 1633 və 1636-cı maddələri ilə 1919-cu ilin 24 iyul tarixində müttəhim qismində cinayət məsuliyyətinə cəlb edilmişlər.

Adları çəkilən müttəhimlərdən Komissiya tərəfindən Stepan Lalayev, Jorj Melikov, Asatur Vaçyans, Yequş Quliyans və Levon Varşamyans dindirilmişdir, belə ki, bu şəxslərin iş üzrə istintaqdan yayınmasının və istintanqdan digər yayınma vasitələrinin qarşısının alınması məqsədilə aşağıdakı tədbirlər görülmüşdür: Lalayevin və Quliyansın barəsində – həbsdə saxlanılması, Melikov və Vaçyans barəsində – birincisinə görə girov, ikincisinə görə zəmanət kimi hər biri üçün 100.000 rubl tələbi və Varşamyans

barəsində – 5000 rubl məbləğində zəmanət tələbi. Digər müttəhimləri tapmaq mümkün olmamışdır.

İşin icraat müddətində müttəhim Stepan Lalayev ölmüşdür və bu barədə həbsxana rəisinin məlumatı təqdim olunmuşdur.

Azərbaycanın müstəqilliyinin beynəlxalq səviyyədə tanınması münasibətilə verilmiş amnistiya haqqında qanunun 10-cu bəndinə əsasən, irəli sürülmüş icraatla adları sadalanan müttəhimlərə qarşı cinayət işinə, Stepan Lalayevə qarşı isə, onun, yəni Lalayevin ölümünə görə, xitam verilməli olduğunu nəzərə alaraq,

**Qərara alıram:**

Cəza haqqında Qanun Məcəlləsinin 13, 129, 927, 1452, 1453, 1607, 1633 və 1636-cı maddələri ilə Bakı şəhərinin və onun ətraf kəndlərinin talan edilməsində ittiham olunan Bakı şəhərinin sakinləri Stepan Lalayevə, Artyom Nikolayeviç Ter-Akopova, Fridun Antonova, Jorj (Georgi) Melikova, İşxan Qarabəyova, İşxan Qarabəyovun qaynı Nikolaya (soyadı məlum deyildir), Asatur Vaçyansa, Tatevos Əmirova, Yequş Samvel oğlu Quliyansa, Hayk Yeramış oğluna, İsaak Baqdasarova, Aleksandr Ter-Qazarova, Levon Ter-Qazarova, Arşak Avetisova, Levon Arutyunov Qaraxanyansa, Serqey Melikova, Levon Varşamyana, Ambarsum Melikova, Xristofor Dildarova, Xaçatur Martirosova, Yeqiş Paxlavuniyə və Levon Saatsazbəyova qarşı cinayət işinə xitam verilsin; istintaqdan və məhkəmədən yayınmaların qarşısının alınması üçün müttəhimlər barəsində görülmüş tədbirlər: Yequş Quliyansın həbsdə saxlanılması, Jorj Melikov barəsində 100.000 rubl məbləğində girov, Asatur Vaçyans barəsində 100.000 rubl məbləğində zəmanət, Leon Varşamyans barəsində 5000 rubl məbləğində zəmanət – ləğv edilsin.

523-cü maddəyə əsasən hazırkı qərar Bakı Dairə Məhkəməsi tərəfindən baxılmalıdır.

Bakıda, 20 fevral 1920-ci il tarixində tərtib edilmişdir.

Prokuror köməkçisi: P.X. Tumbil (imza)

**AR PİI SSA, f. 277, s. 2, i. 15, v. 33-34.**

## “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında «Erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. «Böyük Ermənistan» ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına «bəraət qazandırmaq məqsədilə» erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. «Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə is-

tifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə Dindirmə Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular. Erməni millətçiləri öz havadarları-

nın köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kompaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. «Yazıq, məzlum erməni xalq»ının surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilirdi. Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir. Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-cı illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi. 1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mi-

tinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı. Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır. Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. **31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.**
2. **Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, Azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.**

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 26 mart 1998-ci il**

# QEYDLƏR

[1]**Fövqəladə Təhqiqat Komissiyası (FTK)** – I dünya müharibəsi başlanandan Cənubi Qafqazın müsəlman əhalisinə və onun əmlakına qarşı törədilmiş zorakılıq, qırğın və soyğunçuluq faktlarının araşdırılması üçün 1918-ci il 15 iyul tarixdə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən yaradılmışdır. Əvvəl Xarici İşlər, sonra Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərmişdir. FTK-nın sədri Ələkbər bəy Xasməmmədov idi. 7 nəfərlik tərkibdə təsis edilmiş FTK-nın işinə tədricən Bakı və Gəncə şəhərlərinin istintaq-prokurorluq və məhkəmə orqanlarının digər nümayəndələri cəlb edilmişlər. FTK-nın tərkibi çoxmillətli olmaqla, əsasən polyak, rus, alman, litva tatarı və Rusiya universitetlərinin məzunları olan azərbaycanlılardan – peşəkar hüquqşünaslardan ibarət idi. Fəaliyyət göstərdiyi dövr ərzində – 15 iyul 1918-ci il noyabr 1919-cu il – FTK tərəfindən 36 clddən (3500 vərəq) ibarət istintaq materialı toplanmışdır. Onun 6 cildi ermənilər tərəfindən Bakı şəhəri və onun ətrafında müsəlman əhalisinə qarşı törədilmiş zorakılıq hallarını əks etdirirdi. İstintaq materialının digər cildlərində Şamaxı, Quba, Göyçay, Cavad, Nuxa qəzalarında, Gəncədə, Qarabağda, Zəngəzurda ermənilər tərəfindən törədilmiş amansız cinayətlər təhqiq edilirdi. Azərbaycan Hökumətinin 21 mart 1919-cu il Qərarına görə FTK-nın səlahiyyətləri genişləndirilmiş və ona məhkəmə-istintaq hakimiyyətinin bütün hüquqları verilmişdir. FTK-nın fəaliyyətinin yekunu olaraq 128 məruzə və qərar layihəsi hazırlanmış, onların əsasında müxtəlif cinayətlərdə müqəssir bilinən 194 şəxsə qarşı cinayət işi qaldırılmışdır. Komissiyanın işi azaldıqca onun üzvləri öz əvvəlki vəzifələrinin icrasına qayıtmışlar. FTK Azərbaycan Hökuməti tərəfindən onun üzərinə qoyulmuş vəzifəni yerinə yetirərək 1 noyabr 1919-cu il tarixdə rəsmi surətdə ləğv edilmişdir. Bununla bərabər Ə.b.Xasməmmədov və FTK üzvü Ç.B.Klossovski 1920-ci il yanvarın sonuna qədər FTK-nın istintaq işlərini respublikanın prokuror və məhkəmə orqanlarına verilməsi ilə məşğul olmuşlar. FTK materialları üzrə 1918-ci il Bakıda mart hadisələrinə görə 24, Şamaxı hadisələrinə görə isə 100-ə yaxın şəxs haqqında cinayət işi qaldırılmışdır. Müttəhimlərin bir hissəsi respublikanın hüquq-mühafizə orqanları tərəfindən həbs olunmuş, qalanları axtarışda elan edilmişlər. Lakin, Müttəfiq Dövlətlərin Ali Şurası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin de-fakto tanınması ilə bağlı

olaraq Azərbaycan Parlamenti tərəfindən 9 fevral 1920-ci il tarixdə qəbul edilmiş Amnistiya haqqında qanuna əsasən milli düşmənçilik zəminində baş vermiş və "Fövqəladə Təhqiqat Komissiyasının icraatında yaranmış" bütün cinayət işlərinə xitam verilmişdir. FTK tərəfindən qaldırılmış bir sıra cinayət işləri 1920-ci il 9 fevral qanununa əsasən artıq Azərbaycan SSR məhkəmə orqanları tərəfindən xətm olunmuşdur.

[2]**Hacınski Məmməd Həsən Cəfərqulu oğlu** – (1875 - 1931), Azərbaycan Xalq Cümhuriyyəti dövründə görkəmli siyasi və dövlət xadimi. Bakı realnı məktəbini, Peterburq Texnologiya İnstitutunu bitirmişdir. Moskvada Şəmsi Əsədullayevin neftayırma zavodunda mühəndis işləmişdir. 1908-ci ildə Bakı şəhər idarəsinin tikinti şöbəsinə, 1913-cü ildə Bakı şəhər idarəsinə (qısa müddətdə) başçılıq etmişdir. 1902 – 1917-ci illərdə Bakı şəhər dumasının üzvü olmuşdur. 1904-cü ildə "Hümmət" sosial-demokrat müsəlman təşkilatının, 1906-cı ildə "Nəşri-maarif" müsəlman maarif cəmiyyətinin təşkilatçılarından biri. "Nicat" müsəlman maarif cəmiyyəti idarə heyətinin və Müsəlman xeyriyyə cəmiyyəti mərkəzi komitəsinin üzvü. "Müsavat " partiyasının üzvü. 5 mart 1917-ci ildə yaradılmış İctimai Təşkilatların Bakı Şurasının İcraiyyə Komitəsinin heyətinə daxil idi, Müsəlman ictimai təşkilatlarının Bakı Şurasının Müvəqqəti Komitəsinin sədri seçilmişdir. Qafqaz müsəlmanları qurultayının (1917-ci il, aprel, Bakı) və Rusiya müsəlmanları qurultayının (1917-ci il, may, Moskva) işində iştirak etmişdir. "Müsavat" partiyasının birinci qurultayında (1917-ci il, oktyabr, Bakı) Mərkəzi Komitənin üzvü seçilmişdir. 15 noyabr 1917-ci ildə yaradılmış Zaqafqaziya Komissarlığında ticarət və sənaye komissarının müavini olmuş, Rusiya Təsisedici yığıncağın üzvü seçilmişdir. "Müsavat" partiyasından Zaqafqaziya Seyminin üzvü. Zaqafqaziya Demokratik Federativ Respublikasının hökumətində Ticarət və sənaye naziri. 1918-ci ilin may ayının 27-də Azərbaycanın müstəqillik Aktını qəbul etmiş Azərbaycan Milli Şurasının üzvü. AXC I və II hökumət kabinetlərinin tərkibində Xarici işlər naziri, eyni zamanda 6 oktyabr 1918-ci ilədək nəzarət nazirliyinə, 6 oktyabrdan maliyyə nazirliyinə rəhbərlik etmişdir. AXC Parlamentinin üzvü olmuş, "Müsavat" fraksiyasına daxil idi. Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil idi. 24 dekabr 1919-cu il tarixdən Xarici işlər naziri, 18 fevral 1920-ci il tarixdən Sənaye, ticarət və ərzaq naziri vəzifələrini icra etmişdir. 30 mart 1920-ci il tarixdə Parlament M.H. Hacınskiyə yeni kabinetin yaradılmasını tapşırmışdır. 22 aprel 1920-ci il tarixdə Parlamentə yeni kabinetin yaradılmasının mümkünsüzlüyünü, özünün "Müsavat" parti-

yasından çıxdığını və bolşevik partiyasına daxil olduğunu bəyan etmişdir. AXC-nin süqutundan və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasında, Zaqafqaziya Dövlət Plan Komitəsində müxtəlif rəhbər vəzifələrdə işləmişdir. 1930-cu illərdə siyasi repressiyalara məruz qalmışdır. 3 dekabr 1930-cu ildə Tiflisdə həbs edilmiş və Azərbaycan milli mərkəzinin iştirakçısı kimi ittiham edilmişdir. İstintaq zamanı işgəncələrə dözməyərək, 9 fevral 1931-ci ildə həbsxanada intihar etmişdir.

[3]**Xasməmmədov Ələkbər bəy Hacıbaba oğlu** – (1870 - 1925), Azərbaycan Xalq Cümhuriyyəti dövründə tanınmış ictimai və dövlət xadimi. Gəncənin kübar ailəsinə mənsub olmuşdur. Moskva Dövlət Universitetini bitirmişdir. Hüquqşünas, andlı iclasçı. Rusiya imperiyası dövrü tanınmış hüquqşünas və ictimai xadim, AXC dövrü görkəmli siyasi və dövlət xadimi Xəlil bəy Xasməmmədovun böyük qardaşı. Gəncə müsəlman xeyriyyə cəmiyyətinin, habelə "Difai" partiyasının mərkəzi komitəsinin üzvü. 15 iyul 1918-ci il tarixdən – AXC Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının sədri, 24 fevral 1919-cu ildən – Azərbaycan Məhkəmə Palatasının baş sədri. Azərbaycan sovetləşdirildikdən sonra 1920-ci ilin mayından Azərbaycan SSR Ədliyyə Xalq Komissarlığının məhkəmə orqanlarında işləmişdir. 7 iyun 1920-ci il tarixdə Y rayonun mühüm məsələlər üzrə xalq hakimi vəzifəsinə təyin edilmişdir. 1925-ci ildə Sovet hökuməti tərəfindən həbs edilmiş və güllələnmişdir.

[4]**Şahmalıyev İsmayıl bəy Nəsrulla bəy oğlu** – (1883-1938), hüquqşünas, titullu müşavir. 1902-ci ildə Tiflis oğlanlar gimnaziyasını, 1908-ci ildə Novorossiyski Universitetinin hüquq fakültəsini bitirmişdir, xidmətə 10 fevral 1909-cu ildə Tiflis Məhkəmə palatası yanında I cinayət departamentində məhkəmə vəzifələrinə kiçik namizəd kimi başlamışdır, 1 fevral 1910-cu il tarixdən Yelizavetpola keçirilmiş` və burada 1910-1911-ci illərdə quberniya katibi, Yelizavetpol Dairə Məhkəməsində məhkəmə vəzifələrinə baş namizəd vəzifələrində işləmiş, 4-cü istintaq şöbəsinə, Yelizavetpol qəzasının Ləki istintaq sahəsinə rəhbərlik etmişdir. 1911-ci ilin sentyabrında istefaya çıxmışdır. 1913-cü ilin iyulunda yenidən dövlət xidmətinə qayıtmış, İrəvan Dövlət Palatasının xüsusi tapşırıqlar məmuru təyin edilmişdir. 16 fevral 1914-cü ildən – İrəvan quberniyasının Naxçıvan nahiyəsinin Vergi Müfəttişinin köməkçisi, 1914-cü ilin aprel ayından 1915-ci ilədək Palatanın mühasib köməkçisi, ödəniş şöbəsinin müdiri, Palatanın Katibi, xüsusi tapşırıqlar məmuru, 1916-cı ildə – Palatanın I bölmə rəisi. 1916-cı ilin dekabrında Naxçıvan nahiyəsinin Vergi Müfəttişinin baş köməkçisi, 1917-ci ilin

yanvarında – Zaqatala əyalətinin Vergi Müfəttişi təyin edilmişdir. 26 avqust 1918-ci ildə Gəncə Dairə məhkəməsinin üzvü təyin edilmişdir. 31 avqust 1918-ci il tarixində AXC hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının tərkibinə daxil edilmiş, Bakı quberniyasının Şamaxı və Göyçay qəzalarının və Yelizavetpol quberniyalarının talan edilməsi haqqında cinayət işlərini araşdıran istintaq qruplarında işləmişdir. 19 mart 1919-cu il tarixində Azərbaycan Hərbi Məhkəməsinin Hərbi Müstəntiqi təyin edilmişdir. 1 may 1919-cu il tarixində işin azlığı səbəbindən FTK- üzvlüyündən azad edilmişdir. Sovet dövründə Gəncədə və Bakıda vəkil kimi çalışmış, Ədliyyə Xalq Komissarları yanında Hüquq müdafiəçiləri Kollegiyasının üzvü olmuşdur. Bakıda dövlət müəssisələrində hüquq məsləhətçisi işləmişdir. 1938-ci il aprelin 2-də Az.DİXK Dövlət Təhlükəsizliyi orqanları tərəfindən guya əks-inqilabçı, millətçi qiyamçı təşkilata mənsub olmaqla ittiham edilərək həbs olunmuşdur. Özünü müqəssir bilməmişdir. 2 iyun 1938-ci il tarixində Az.SSR DİXK Xüsusi Üçlüyü tərəfindən İslah-Əmək Düşərgəsində (İƏD) çəkməklə 10 il müddətinə məhkum edilmişdir. 25 noyabr 1938-ci il tarixində Xabarovsk diyarında İƏD-də ölmüşdür. 1955-ci ildə bəraət almışdır.

[5]**Novatski Andrey-Klimentiy Fomiç** – (1866- ?), hüquqşünas, saray müşaviri, milliyətcə polyak, Varşava Universitetini bitirmiş, 1899-1902-ci illərdə Varşavanın məhkəmə-istintaq orqanlarında işləmiş, 1903-1907-ci illərdə – Bakı Dairə Məhkəməsinin Şamaxı şöbəsinin Barışdırıcı Hakiminin köməkçisi olmuş, eyni zamanda Mərəzə, sonra Basqal istintaq bölmələrinə rəhbərlik etmişdir. 1907-ci ilin fevral ayından 1908-ci ilin yanvar ayınadək I Bakı şəhər İstintaq bölməsinin rəisi olmuşdur. 1908 -1918-ci illərdə Tiflis şəhərinin 4-cü barışdırıcı məhkəməsində barışdırıcı hakimin köməkçisi işləmişdir. 1918-ci ilin fevralında Yelizavetpol dairə məhkəməsinin üzvü təyin edilmişdir. 31 avqust 1918-ci il tarixində AXC hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının tərkibinə daxil edilmişdir. FTK-nın ən işgüzar və fəal üzvlərindən biri olmuş, Şamaxı və Quba qəzalarının talan edilməsi haqqında cinayət işlərini araşdıran istintaq qruplarına rəhbərlik etmiş, FTK-nın digər istintaq qruplarının fəaliyyətində iştirak etmişdir. Azərbaycanın erməni millətçiləri tərəfindən talana məruz qalmış müxtəlif regionlarında FTK-nın apardığı istintaqların nəticələri üzrə çıxarılmış qərarların çoxu onun tərəfindən hazırlanmışdır. 1919-cu ilin aprel ayının 1-də Bakı Dairə Məhkəməsinin üzvü təyin olunmuşdur. 1920-ci ilin may ayından etibarən Azərbaycan SSR Ədliyyə Xalq Komissarlarının məhkəmə orqanlarında işləmiş, Y rayonun Xalq Hakiminin (Ələkbər Xasməmmədovun) katibi olmuşdur. Sonrakı taleyi məlum deyil.

[6]**Səfikürdski Nəsrəddin bəy Ağalar bəy oğlu** – (1884- ?), hüquqşünas, kollec katibi, Petroqrad Universitetinin hüquq fakültəsini bitirmişdir, xidmətə 6 fevral 1912-ci ildən Yelizavetpol Dairə Məhkəməsində məhkəmə vəzifələrinə kiçik namizəd kimi başlamış, cinayət və mülki bölmələrində çalışmış, 18 mart 1913-cü il tarixindən Quberniya Katibi, 17 oktyabr 1913-cü il tarixindən – Yelizavetpol Dairə Məhkəməsində məhkəmə vəzifələrinə baş namizəd, həmin ilin noyabrından Yelizavetpol (Gəncə) şəhəri müstəntiqinin köməkçisi işləmişdir. 1914-1917-ci illərdə müxtəlif vaxtlarda Yelizavetpol qəzasının 1-ci, 2-ci, 3-cü, 5-ci və Şəhər istintaq nahiyələrinə, habelə Zəyəm sülh nahiyəsinə rəhbərlik etmiş, Yelizavetpol Şəhər şöbəsinin Barışdırıcı Hakiminin Köməkçisinin vəzifəsini müvəqqəti icra etmişdir. 1917-ci il dekabrın 11-də Yelizavetpol Dairə Məhkəməsi Prokurorunun müavini təyin edilmişdir. 31 avqust 1918-ci il tarixində AXC hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının birinci heyətinə daxil edilmiş, həmin ilin sentyabrında ailə vəziyyətinə istinad edərək öz ərizəsi ilə Komissiya üzvlüyündən azad edilmişdir. 18 yanvar 1919-cu ildən – Azərbaycan Hərbi Məhkəməsinin Hərbi Prokurorunun Köməkçisi, 1919-cu ilin 26 fevralından – Gəncə Dairə Məhkəməsinin Prokuroru olmuşdur. Sonrakı taleyi məlum deyil.

[7]**Mixaylov Nikolay Mixayloviç** – (1867-1920), hüquqşünas, mülki müşavir, milliyətcə rus, Xarkov Universitetinin hüquq fakültəsini bitirmiş, 1892-1893-cü illərdə İrəvan Dairə Məhkəməsinin cinayət şöbəsində xidmətə başlamışdır. Sonradan Tiflis Dairə məhkəmə orqanlarında (1893-1894), Şamaxı şöbəsində və Bakı Dairəsinin özündə (1894-1896), Yekaterinodar Dairəsində (1896-1898), Kutaisi Dairəsində (1898-1899), Novouz qəzasında (1899-1900), Qoridə (1900-1902) Dairə məhkəmələrinin katibinin köməkçisi və katibi, Barışdırıcı hakim, müstəntiq, Zemstvo rəisi və Köçürülmə Divanxanasının üzvü vəzifələrində çalışmışdır. 12 iyun 1902-ci il tarixində Yelizavetpol quberniyasının Əkinçilik və Dövlət Mülkiyyətləri İdarəsi yanında xüsusi tapşırıqlar məmuru, 5 dekabr 1903-cü ildən – köçürülmə işləri üzrə Yelizavetpol Quberniya Divanxanasının üzvü, 21 fevral 1908-ci ildən – Yelizavetpol Dairə Məhkəməsinin Fəxri Barışdırıcı hakimi olmuşdur. 1913-cü ilin fevralında kəndli məsələləri üzrə Kutaisi Quberniya Divanxanasının üzvü vəzifəsinə keçirilmişdir. 14 oktyabr 1916-cı ildə müharibə qanunlarına görə Türkiyənin işğal edilmiş əyalətlərinin General Qubernatoru yanında Qara Kilis Dairə rəisinin köməkçisi təyin edilmişdir. 1917-ci il martın 22-dən – Aşin Dairəsi rəisinin köməkçisi, 1917-ci il dekabrın 30-dan köçürülmə

məsələləri üzrə Yelizavetpol Quberniya Divanxanasının üzvü olmuşdur. 17 fevral 1919-cu il tarixində Bakı Dairə Məhkəməsinin üzvü təyin edilmiş, 10 iyun 1919-cu ildən Gəncə Dairə Məhkəməsinə keçirilmişdir. 31 avqust 1918-ci il tarixində AXC hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının tərkibinə daxil edilmişdir. FTK-nın ən işgüzar və fəal üzvlərindən olmuş, Bakı quberniyasının Şamaxı və Göyçay qəzalarının və Yelizavetpol quberniyası qəzalarının talan edilməsinə dair cinayət hallarını araşdıran istintaq qruplarına rəhbərlik etmişdir. 1919-cu ilin noyabrında FTK ləğv edildikdən sonra, Komissiya Sədrindən "Komissiyanın işində göstərdiyi fədakar və səmərəli fəaliyyətinə görə" təşəkkür almışdır, 25 noyabr 1919-cu ildə Gəncə Dairə Məhkəməsində öz vəzifəsinə qayıtmışdır. 1920-ci ilin may ayının sonunda Gəncə üsyanı zamanı öz mənzilində naqafil güllədən həlak olmuşdur.

[8]**Qudvillo V.V.** – (?-?), Barışdırıcı Hakimlər Qurultayının sədri, Həqiqi Mülki Müşavir. 1 sentyabr - 27 oktyabr 1918-ci il tarixində AXC hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının üzvü olmuş, yeni təyinatı – Maliyyə Nazirliyində hüquq məsləhətçisi təyin edilməsi ilə əlaqədar olaraq FTK üzvlüyündən azad edilmişdir. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan SSR-nın məhkəmə orqanlarında işləmişdir, sonrakı taleyi məlum deyil.

[9]**Xoyski Fətəli xan İsgəndər xan oğlu** – (1875 – 1920), Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri. General-leytenant İsgəndər xan Xoyskinin oğlu, əslən Cənubi Azərbaycanın Xoy şəhərindən və Şəki xanı Cəfərqulu xanın nəslindəndir. Gəncədə (Yelizavetpolda) klassik gimnaziyanı, Moskva Universitetinin hüquq fakültəsini 1-ci dərəcəli diplomla bitirmişdir (1897-ci il). Gəncə, Kutaisi dairə məhkəmələrində işləmiş, Zuqdidi Barışdırıcı hakimin köməkçisi olmuş və burada titullu müşavir adı almışdır. Üçüncü Yekaterinodar şəhər nahiyəsinin müdiri (1903) və Yekaterinodar dairə prokurorunun müavini olmuş, kollec asessoru (məhkəmə iclasçısı) adı almışdır (1904). 20 fevral 1907-ci ildə Yelizavetpol quberniyasından II Dövlət dumasına deputat seçilmişdir. II Duma buraxıldıqdan sonra Gəncəyə qayıtmış, Tiflis məhkəmə palatasının Yelizavetpol dairə məhkəməsinin andlı iclasçıları sırasına daxil edilmişdir. 1913-cü ildə Bakıya köçmüş, Bakı dairə məhkəməsində andlı iclasçı işləmişdir. 1917-ci il fevral inqilabından sonra Bakıda yaradılmış Milli müsəlman şurasının Müvəqqəti icraiyyə komitəsinin üzvü seçilmiş, müsəlmanların Ümumqafqaz qurultayının (1917-ci il, aprel,

Bakı) təşkilində və işində fəal iştirak etmişdir. 1917-ci ilin oktyabrında Bakı şəhər Dumasının sədri seçilmişdir. 1918-ci ilin fevralında Zaqafqaziya seyminin deputatı olmuş, 22 aprel 1918-ci ildə Zaqafqaziya Federativ respublikası hökumətində xalq təhsili naziri vəzifəsini tutmuşdur. 27 may 1918-ci ildə Azərbaycanın müstəqilliyi haqqında Akt qəbul etmiş Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycanın ilk hökumətinin sədri seçilmişdir. Hökumətin ilk kabinetində baş nazir və daxili işlər naziri, ikinci kabinetdə Baş nazir və Ədliyyə naziri vəzifələrini tutmuşdur. 7 dekabr 1918-ci ildə açılmış AXC parlamentinin tapşırığı ilə üçüncü hökuməti formalaşdırmış, bu hökumətdə iki – Baş nazir və Xarici işlər naziri vəzifələrini tutmuşdur. Hökumət 25 fevral 1919-cu ildə istefaya getdikdən sonra, N.b.Usubbəylinin başçılıq etdiyi dördüncü hökumət 14 aprel 1919-cu ildə formalaşdırılanadək öz vəzifələrini icra etmişdir, müxtəlif siyasi və maliyyə-iqtisadi problemlərin həllində deputat kimi iştirak etmiş, region dövlətləri arasında sərhəd mübahisələrinin tənzimlənməsinə həsr edilmiş Qafqaz konfransının hazırlanmasında və keçirilməsində fəal iştirak etmişdir. 22 dekabr 1919-cu ildən 28 aprel 1920-ci ilədək N.B.Usubbəyli tərəfindən yaradılmış beşinci hökumət kabinetində Xarici işlət naziri vəzifəsini tutmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra gizli olaraq Tiflisə getmiş, 19 iyun 1920-ci il tarixində orada muzdlu erməni terrorçusu tərəfindən öldürülmüşdür.

[10]**Mart hadisələrinin xronologiyası** Rusiya İmperiasında işlənən və Avropa Qriqorian təqvimindən 13 gün geri qalan köhnə təqvim ilə verilir. Sovet Rusiyası 1918-ci il 14 fevral tarixindən Qriqorian təqviminə keçmişdir. AXC dövründə də ölkə ərazisində Qriqorian təqvimi tətbiq edilmişdir. Bu təqvimə əsasən Bakıda mart hadisələri 1918-ci il 30 mart-2 aprel tarixinə düşür.

[11]**Nağıyev Musa Hacı Əli oğlu (1842-1919)** — tanınmış Azərbaycan sahibkarı, milyonçu, xeyriyyəçi. Sahibkarlıq fəaliyyətinə XIX əsrin sonlarında manufaktura ticarətindən başlamışdır. Balaxanı, Sabunçu, Əmircan və Ramanada neft yataqları ilə zəngin torpaq sahələrini icarəyə götürmüşdür. 1887-ci ildə yaratdığı "M.Nağıyev" neftçıxarma firması 1913-cü ildə Bakının ən gəlirli firmalarından biri sayılırdı. Neftayırma zavodlarının, mexaniki emalatxananın, buxar qazanları istehsal edən zavodun, neft daşıyan gəmilərin, Sabunçu, Suraxanı və Ramanada neft mədənlərinin, iri mülklərin sahibi idi. 1914-cü ildə H.Z.Taqıyevlə birlikdə Bakı Ticarət Bankını təsis etmişdir. Bakı şəhərində 70-dən çox bina, o cümlədən "İsmailiyyə", şəhər

təcili yardım xəstəxanası, lüteran kilsəsi və s. monumental binalar onun vəsaiti hesabına inşa edilmişdir.

[12]**Qış İctimai Cəmiyyətinin binası** nəzərdə tutulur. Krasnovodskaya (Səməd Vurğun) və Birjevaya ( Üzeyir Hacıbəyov) küçələrinin kəsiyində yerləşırdı. Bina 1890-cı ildə mühəndis A.S.Kandinov tərəfindən tikilmiş, Musa Nağıyevə məxsus olmuşdur. Sovet dövründə - Zabitlər evi, hazırda binada müxtəlif ofislər, ticarət obyektləri yerləşir.

[13]**Sosialist - inqilabçılar (eserlər)** – Rusiyada ən iri burjua partiyalarından biri, 1901-1902-ci ilin əvvəlində yaranmışdır. 1906-cı ildə partiyadaxili parçalanma nəticəsində iki hissəyə bölünmüşdür: sağ cinah xalq sosialistləri partiyasını yaratmış, radikal sol cinah isə maksimalist sosial - inqilabçılar ittifaqında birləşmişdir. 1917-ci il Oktyabr çevrilişindən sonra sağ eserlər "Vətənin və inqilabın xilası komitəsi"nə daxil olmuş, 1918-1920-ci illər vətəndaş müharibəsi dövründə Sovet hakimiyyətinə qarşı silahlı mübarizə aparmışlar. Zakaspi Müvəqqəti Hökumətinin (Kaspi-Qafqaz hökuməti) yaradılmasında iştirak etmişlər. Hökumətin sədri eser F.Funtikov idi. Bakıda eser təşkilatları 1903-cü ilin yayında yaradılmış, daha sonra Gəncə, Şuşa və d. şəhərlərdə təşkilatları meydana gəlmişdir. 1910-cu ilin əvvəlində Şura və İcraiyyə komitəsi tərəfindən idarə edilən Bakı eser təşkilatı əsasən sənətkarlar, Xəzər ticarət gəmiçiliyinin dənizçiləri və qismən neft sənayesi fəhlələri (ruslar) arasında nüfuza malik idi. Bakıda həmçinin müsəlman eser təşkilatı – "İttifaq" və 1907-ci ilin yayında "Daşnaksütun" partiyasından ayrılaraq eserlərin sırasına daxil olmuş gənc daşnaklar qrupunun yaratdığı "Sosialist-inqilabçılar partiyasının erməni təşkilatı" mövcud idi. 1918-1920-ci illərdə eserlər özlərini beynəlmiləlçi partiya elan edərək heç bir Milli komitəyə (şuraya) daxil olmamış, Azərbaycan parlamentində yer almaq və müstəqil fraksiya yaratmaq iddiası ilə çıxış etmişlər. Mart hadisələri ərəfəsində bolşeviklərin Azərbaycan milli qüvvələrinə qarşı mübarizəsini dəstəkləmişlər. Mart hadisələrindən sonra şəhərdə bolşevik hakimiyyətinə qarşı açıq çıxış etmiş, "Sentrokaspi Diktaturası" hökumətinin tərkibinə daxil olmuşlar.

[14]**Bakı Fəhlə, Əsgər və Matros Deputatları Soveti** – Bakıda fəaliyyət göstərmiş hakimiyyət orqanı (1917-ci il, mart –1918-ci il, iyul). 6 mart 1917-ci il tarixində ilkin olaraq Bakı rayonu fəhlə və əsgər deputatları kimi təşkil edilmişdir. 53 min fəhlə və qulluqçu tərəfindən seçilmiş, tərkibi 52 deputatdan ibarət olmuşdur. Onlardan 9-u bolşevik, qalanları menşevik və eserlər idi. Rəyasət heyətinin sədri qiyabi olaraq S.G.Şaumyan (sürgündən martın

8-də qayıtmışdır) seçilmişdir. Elə həmin gün Bakı qarnizonu hərbi hissələrindən seçilmiş Əsgər Deputatlar Soveti və Zabit deputatlar Soveti də formalaşmış, martın sonlarında hər iki sovet Hərbi Deputatlar Sovetində birləşmişlər. Bolşeviklər Bakı Sovetində rəhbərlik uğrunda qızğın mübarizə aparırdılar. Rusiyada Oktyabr inqilabı haqqında alınmış xəbərdən sonra 1917-ci il oktyabrın 27-də Bakı Fəhlə və Hərbi Deputatları Sovetinin geniş fövqəladə yığıncağı keçirilmiş və bolşeviklərin kəskin etirazına baxmayaraq, ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin yaradılması haqqında qərar qəbul edilmişdir. Oktyabrın 31-də mədən-zavod, polk və donanma komitələri üzvlərinin dəstəyinə arxalanaraq, bolşeviklər yenidən Sovetin geniş yığıncağını çağırmışlar və yığıncaq Bakıda Sovet hökumətinin qurulması haqqında qətnamə qəbul etmişdir. Noyabrın 2-də geniş tərkibli Bakı Soveti menşeviklərin və eserlərin müqavimətinə baxmayaraq, hakimiyyəti faktiki olaraq öz əllərinə keçirmək proqramını qəbul etmişdir. Yaranmış şəraitdə bolşeviklər müsavatçılar, Xəzər ticarət gəmiçiliyi, həmkarlar ittifaqları və şəhər qarnizonunun nümayəndələri tərəfindən dəstəklənmişlər. Sovetin İcraiyyə Komitəsi ali hakimiyyət orqanı elan olunmuş, Fəhlə və Əsgər Deputatları Sovetinin adı dəyişdirilərək Fəhlə, əsgər və matros deputatları Soveti olmuşdur. İcraiyyə Komitəsinin sədri S. Şaumyan idi. Digər hakimiyyət orqanları - İctimai Təhlükəsizlik Komitəsi və İctimai Təşkilatların İcraiyyə Komitəsi ləğv edilmişdir. Yalnız Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Şəhər Duması qalırdı. 1917-ci il dekabrın 12-13-də dəyişdirilmiş seçki qaydaları əsasında Bakı Sovetinə yeni seçkilər keçirildi. 1917-ci il oktyabr seçkilərindən fərqli olaraq bu seçkilərdə bolşeviklər səs çoxluğu qazandılar (Oktyabr seçkilərində bolşeviklər müsavatçılar, eserlər və daşnaklardan sonra yalnız 4-cü yerə çıxmışdılar). Yeni İcraiyyə komitəsinə 6 bolşevik, 5 daşnak, 4 sol eser, 3 sağ eser, 2 müsavatçı daxil oldu. 1917-ci ilin dekabrında S.Şaumyanın V.İ.Lenin tərəfindən Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilməsi ilə əlaqədar olaraq Bakı Sovetinin sədri vəzifəsini P.A.Caparidze tutdu. 1918-ci ildən başlayaraq Sovet orqanları Bakının idarə olunmasında həlledici vəzifələri ermənilərə verməklə Azərbaycan milli qüvvələrinə qarşı açıq qarşıdurmaya keçdilər, bu da 1918-ci il faciəli mart hadisələri ilə nəticələndi. Erməni təşkilatları və silahlı birləşmələri ilə ittifaqa girmiş Bakı Soveti, başda S. Şaumyan olmaqla, 1918-ci ilin mart ayında Bakı şəhəri və onun ətrafında müsəlman əhalisinin kütləvi surətdə fiziki cəhətdən məhv edilməsi üçün birbaşa məsuliyyət daşıyır. Bu hadisələr Bakı Sovetinin proletar diktaturası orqanı kimi fəaliyyətini şübhə

altına qoyur. Belə ki, S.Şaumyanın başçılığı altında Sovet sinfi deyil, milli mənsubiyyətə görə mübarizə aparmış və əsas zərbəni proletariatın sinfi düşmənlərinə qarşı deyil, bütövlükdə Azərbaycan xalqına qarşı yönəltmişdir. Mart hadisələrindən sonra Bakı şəhərində və onun neft-mədən rayonlarında hakimiyyətini möhkəmlətmiş Bakı Sovetinin qarşısında İcraiyyə Komitəsinin əvvəlki tərkibinin dəyişdirilməsi məsələsi qalxmışdır. 1918-ci il aprelin 25-də Bakı fəhlə, əsgər və matros deputatları Sovetinin iclasında Bakı Xalq Komissarları Soveti təşkil olunmuşdur.

[15]**"Astoriya"** – mehmanxana, Krasnovodskaya (S.Vurğun) və Bolşaya Morskaya (Bülbül) küçələrinin arasında, Molokanskaya (Xaqani) küçəsinin tinindəki binada, Qış İctimai Cəmiyyəti binasının yanında yerləşirdi. M. Nağıyevə məxsus idi. Şəhərin ən dəbdəbəli mehmanxanası sayılırdı, 1917-ci ildə bu binada müxtəlif siyasi təşkilatlar, Sovet dövründə - Dənizçilər klubu, hazırda ofis və mənzillər yerləşir.

[16]**Hərbi İnqilab Komitəsi (HİK) – Bakı şəhəri Müvəqqəti Hərbi İnqilab Komitəsi** – Bakı fəhlə və hərbi deputatlar Sovetinin 1917-ci il 12 dekabr fövqəladə yığıncağında yaradılmış və şəhərdə inqilabi qayda-qanunun bərpa olunması üçün ən geniş səlahiyyətlər verilmiş hakimiyyət orqanı. HİK hakimiyyəti Bakı qarnizonuna və bütün şəhərə şamil olunurdu, onun əmrləri mütləq xarakter daşıyırdı. HİK öz tərkibindən hərbi-inqilabi məhkəmə yaratmışdı. Mart hadisələri ərəfəsində - 1918-ci il martın 30-dan 31-nə keçən gecə, "Bakı şəhəri və onun rayonlarında ali hərbi-siyasi orqan" elan edilmiş İnqilabi Müdafiə Komitəsi yaradılmışdır. Komitəyə S.G.Şaumyan, Q.Korqanov, P.Caparidze və İ.Suxartsev daxil olmuşlar. Onun tərkibinə həmçinin sağ eserlərin lideri S.Saakyan, "Daşnaksütun" partiyası Bakı təşkilatının rəhbəri S.Melik-Yeolçyan da dəvət olunmuşdular. Bu komitədə azərbaycanlıların yeganə nümayəndəsi N.Nərimanov idi. Bakı şəhərinin Müvəqqəti Hərbi-İnqilab Komitəsi öz fəaliyyətini 1918-ci il mart günlərində Bakı şəhərinin müsəlman əhalisinin kütləvi qırğın siyasətini həyata keçirən İnqilabi Müdafiə Komitəsinin tərkibində davam etdirmişdir.

[17]**Avakyan Baqdasar Ayrapetoviç – (1883-1918),** Bakının bolşevik xadimlərindən biri, Hərbi deputatlar Sovetinin üzvü, Bakı fəhlə və hərbi deputatlar Soveti İcraiyyə Komitəsinin katibi. Mart hadisələri zamanı Qırmızı Ordu və erməni dəstələrinin fəaliyyətini nizamlayırdı. Bakı qarnizonunun rəisi, daha sonra Bakı şəhərinin komendantı təyin edilmişdir. 20 sentyabr 1918-ci ildə Zakaspi eser hökuməti tərəfindən 26 Bakı Komissarları sırasında güllələnmişdir.

[18]**Müsəlman diviziyası** – “Evelina” gəmisində öz zabit yoldaşları Məhəmməd Tağıyevin dəfninə gəlmiş keçmiş Qafqaz “Dikaya diviziyası”-nın süvari polkunun zabit və əsgərləri nəzərdə tutulur. Həmin hərbçilərin tərksilah edilməsi azərbaycanlılara qarşı silahlı mübarizənin və 1918-ci il mart hadisələrinin başlanması üçün bəhanə olmuşdur.

[19]**Kazımzadə Abbasqulu** – (1882 - 1947), Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçısı, Azərbaycan Milli Şurasının üzvü. 1905-ci ildən Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının üzvü, 1911-ci ildə “Müsavat” partiyasını yaradanlardan biri. Azərbaycan Parlamentinin deputatı, “Müsavat” və “bitərəflər” fraksiyasının üzvü. Mart hadisələri günlərində Azərbaycan xadimlərinin tərkibində azərbaycanlı əhalinin qırğınlarının qarşısının alınması və dayandırılması üçün tədbirlər görmüşdür.

[20]**Behbud xan Cavanşir** – (1886-1921), Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və siyasət xadimi, mühəndis, İngiltərə və Almaniyada təhsil almış, elmi fəaliyyətlə məşğul olmuşdur. “Rusiya Texniki cəmiyyəti”nin üzvü, “Müsəlman Xeyriyyə cəmiyyəti”nin rəhbərlərindən biri. 1917-ci ildə Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü. 1918-ci ilin iyun-dekabr aylarında Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində Daxili işlər naziri, oktyabr ayından həm də Ticarət və sənaye naziri vəzifələrini icra etmişdir. Azərbaycan Parlamentinin deputatı, bitərəflər fraksiyasının üzvü. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra neft sənayesində çalışmışdır. 1921-ci ildə avadanlıq almaq üçün İstanbula məzuniyyətə göndərilmiş, orada erməni terrorçusu Toplaqyan tərəfindən odlu silahla yaralanmış, xəstəxanada vəfat etmişdir. Ölüm ayağında demişdir: “Mənim şəxsi düşmənim yoxdur, məni ancaq ermənilər vura bilər”.

[21]**Rus-Qafqaz Gəmiçiliyi Birliyi** - 1913-cü ildə təməli qoyulmuş, kontoru və limanları Petrovskaya Naberejnaya meydanında (Neftçilər prospekti) yerləşirdi, 10-dan çox gəmisi var idi. Həmin gəmilərdən biri - “Evelina”da “Dikaya diviziya”nın zabitləri və hərbi qulluqçuları Lənkərana qayıtmalı idilər. Bu gəminin saxlanılması və azərbaycanlı zabitlərin tərksilah olunması Bakıda 1918-ci il mart hadisələrinin başlanması üçün bəhanə olmuşdur.

[22]**“İsmailiyyə”** - Azərbaycanın memarlıq abidələrindən birinin adı, Nikolayevskaya küçəsində (İstiqlaliyyət) yerləşir. Neft sənayeçisi Musa Nağıyev tərəfindən həyatdan vaxtsız getmiş oğlu Ağa İsmayılın xatirəsinə Müsəlman Xeyriyyə Cəmiyyəti üçün tikilmişdir. Bina polşalı memar və mülki mühəndis İ.Ploşkonun layihəsi əsasında 1907-1913-cü illərdə inşa

edilmişdir. Mart hadisələri ərəfəsində "İsmailiyyə"də Bakı müsəlman cəmiyyətinin nümayəndələri şəhərdə yaranmış mürəkkəb vəziyyəti müzakirə etmiş, erməni icmasının nümayəndələri, müxtəlif heyətlərlə danışıqlar aparmış, gərginliyi azaltmaq üçün tədbirlər görmüşlər. "İsmailiyyə"nin özündə növbətçilər keşik çəkmiş, martın 30-da axşam şəhərdə atışma başlayanda binanın ətrafında xəndəklər qazılmış, azsaylı və yalnız tüfənglərə silahlanmış müsəlman müdafiəçiləri top və pulemyotlardan atılan atəşlərə və yaxşı silahlanmış erməni dəstələrinə bir gün yarım ərzində müqavimət göstərmişlər. Atəşkəs haqqında müqavilə bağlandığı xəbərini alan "İsmailiyyə"nin sağ qalmış müdafiəçiləri İçərişəhər Qalasına keçdikdən sonra, müsəlmanların ictimai-mədəni və dini mərkəzi olan bu bina erməni quldurları tərəfindən talan edilərək tamamilə yandırılmışdır. 1924-cü ildə "İsmailiyyə"nin adı dəyişdirilərək "Maarif sarayı" adlandırılmışdır. Hazırda binada Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti yerləşir.

[23]**Erməni Milli Şurası (EMŞ) -Erməni Milli Komitəsi** – Rusiyada Fevral İnqilabından sonra erməni siyasi təşkilatlarının təşəbbüsü və maddi yardımı ilə Azərbaycanın şəhərlərində (bütün Cənubi Qafqazda olduğu kimi) yaradılan və fəaliyyət göstərən milli təşkilatlar. Öz hərbi və terrorçu dəstələri var idi. Siyasi vəzifələrin yerinə yetirilməsi, ilk növbədə Azərbaycan, Gürcüstan və Türkiyənin ərazilərində erməni dövlətçiliyinin yaradılması məqsədilə "Daşnaksütun"la birgə erməni əhalisinin birləşdirilməsi və səfərbərliyi uğrunda geniş təbliğat, təşviqat və təşkilati işlər aparırdılar. Bakıda fəaliyyət göstərən Erməni Milli Şurasına erməni cəmiyyətinin bütün tanınmış nümayəndələri, ziyalılar, iri neft sənayeçiləri, milyonçuları daxil idi. Onların vəsaiti ilə Şuranın sağ cinahı ifrat millətçiliyi ilə seçilən "Naşe vremya» qəzetini buraxırdı. 1918-ci ilin əvvəlindən EMŞ özəyi ermənilərdən ibarət olan bolşevik Bakı Soveti ilə sıx əməkdaşlıq edir, azərbaycanlı qüvvələrlə qarşıdurmaya, həmçinin müsəlman əhalisinin qırğınına hazırlaşırdı. Məhz EMŞ tanınmış və zəngin bakılı-müsəlmanların, iranlı təbəələrin siyahılarını hazırlamış, ünvanlarını dəqiqləşdirmiş, bu siyahılar üzrə mart günlərində erməni əsgərləri bir neçə gün evlərdə talanlar, qarətlər və qətllər törətmişlər. Mart hadisələri ərəfəsində öz bitərəfliyini elan etmiş EMŞ, qırğınlar başlanan andan erməni silahlı dəstələrin fəaliyyətinə rəhbərlik etmiş, onları istiqamətləndirmişdir. EMŞ-nın bir çox görkəmli üzvləri, o cümlədən erməni ziyalıları şəxsən qırğınlarda iştirak etmişlər. Mart hadisələri günlərində EMŞ-in qərargahı tanınmış erməni milyonçusu və ictimai xadimi Ambarsum Melikovun evində yerləşirdi və əsir götü-

rülmüş tanınmış azərbaycanlılar oraya gətirilirdilər. EMŞ həmçinin mart hadisələri zamanı azərbaycanlıların qarət olunmuş əmlakının yerləşdirilməsinə nəzarət etmiş, bu məqsədlə qabaqcadan ermənilərə məxsus anbarlar və binalar hazırlanmışdır. Mart hadisələrindən sonra Bakının yüksək erməni cəmiyyəti hər vəchlə azərbaycanlılara qarşı törədilən vəhşiliklərdə ermənilərin iştirakını inkar etməyə çalışmışdır. Lakin Fövqəladə Təhqiqat Komissiyası tərəfindən Bakı, Şamaxı şəhəri və Şamaxı qəzasının kəndlərinin dinc müsəlman əhalisinə qarşı cinayətlər törətdiklərinə görə həbs edilmiş və axtarışa verilmiş şəxslər arasında EMŞ-nın bir çox rəhbərləri və tanınmış xadimləri var idi.

[24]**Daşnaksütun (İttifaq)** – Erməni milli-burjua partiyası, 1890-cı ildə Tiflisdə yaradılmışdır. Sosial bazası – erməni burjuaziyasının müxtəlif təbəqələri, liderləri – S.Zavaryan, S.Zoryan (Rostom), Mikaelyan və d. yaradılarkən partiyanın əsas məqsədi Türkiyə ermənilərinin azad edilməsi və Türkiyə ərazisində müstəqil erməni dövlətinin yaradılması ideyasında ifadə olunmuş, bu ideyanın həyata keçirilməsi uğrunda bütün mübarizə üsulları, silahlı mübarizə və terror da daxil olmaqla, məqbul sayılmışdır. Birinci dünya müharibəsi dövründə çar hökumətinin militarist-hərbçi siyasətini dəstəkləmiş, könüllü dəstələr yaratmış və onları Qafqaz cəbhəsi rus komandanlığının sərəncamına vermişdir. 1914-1918-ci illərdə daşnaklar Osmanlı imperiyasında rus çarizminin nüfuzunun agentləri rolunu oynamışlar. Türkiyə ermənilərinin azad edilməsi, Rusiya və Türkiyə ermənilərinin “vahid, ümumi vətəninin” yaradılması ideyasını irəli sürməklə, silahlı çıxışlar və terror aktları yolu ilə, həmçinin Qərb dövlətlərininköməyi ilə, qonşu ölkələrin – Azərbaycan, Gürcüstan, Türkiyənin – əraziləri hesabına “Böyük Ermənistan” – Xəzər dənizindən Aralıq dənizinədək --dövləti yaratmağa ümid edirdilər. 1917-ci il Oktyabr inqilabından sonra Zaqafqaziya Komissarlığının və Seyminin yaradılmasında iştirak etmişlər. Partiyanın Bakı təşkilatının öz Mərkəzi Komitəsi və rus dilində “Vperyod” adlı çap orqanı var idi. 1917-ci ilin mart ayında Bakıda yaradılmış Erməni Milli Şurasının 50 üzvündən 17 nəfəri “Daşnaksütun” partiyasının nümayəndələri olmuşdur. Bakı Kommunasının hakimiyyəti qurulan dövr S.Şaumyan başda olmaqla Bakı Soveti ilə ittifaqa girmiş, 1918-ci ilin mart hadisələrində birləşdirilmiş qüvvələrlə Bakı və Şamaxıda, daha sonra Azərbaycanın digər qəzalarında müsəlman əhalisinin qırğınlarını törətmişlər. 1918-ci ilin may ayında Zaqafqaziya dövləti süqut etdikdən sonra Ermənistan hökumətini təşkil və ona başçılıq etmişlər. AXC dövründə Bakıda öz mövqeyini və

təsirini itirməsinə baxmayaraq, partiya Azərbaycan Parlamentində ayrıca fraksiya ilə təmsil olunmuşdur. May 1918 - noyabr 1920-ci il tarixində Ermənistan Respublikasında hakim partiya olmuşdur. Ermənistan sovetləşdirildikdən sonra qeyri-leqal vəziyyətə keçmiş, üzvlərinin əsas hissəsi mühacirət etmişdir.

[25]**Parapet** – Bakı şəhərinin mərkəzində meydan (Kolyubakinskaya m., Karl Marks m., Fəvvarələr m.), şəhərin işgüzar və ictimai mərkəzini təşkil edən element kimi şəhər esplanadasında 1860-cı illərin əvvəllərində yaranmışdır. Parapetdə – o zaman artıq Kolyubakinskaya meydanında (1863-1872-ci illər Bakı qubernatoru M.P.Kolyubakinin şərəfində) bağça yaradılmasına 1891-ci ilin sonlarından başlansa da uzun illər burada demək olar ki, yaşıllıq salmaq mümkün olmamışdır. Yalnız XX əsrin əvvəllərində nazik yaşıl zolaq meydana gəlmişdir. Bakılılar kinayə ilə onu "Quru bağ" adlandırırdılar. Parapetin tikililəri əsasən arxitektor Qasım bəy Hacıbababəyovun yaradıcılığı ilə təmsil olunur, onun layihələri əsasında meydanda bir neçə ikimərtəbəli binalar – karvansara ("Araz" kinoteatrı), "Metropol" və Qrand-otel" mehmanxanaları (Nizami muzeyi, yaşayış və ticarət obyektlərinin binası), yaşayış evləri inşa edilmişdir. 1905-1907-ci illərdə burada tez-tez fəhlə mitinqləri və yığıncaqları keçirilmişdir. 1920-ci ildə meydana K.Marksın adı verilmişdir. Meydanın və bağın yenidən qurulmasına 1950-ci illərdə başlanmış, nəticədə o, geniş və müxtəlif ağaclardan ibarət yaşıllıq olan meydan-bağa çevrilmişdir. 1984-cü və 2000-ci illərdə bağ-meydanda bir daha yenidən qurulma işləri aparılmış, yaşıllıqların tərkibi yeniləşdirilmişdir. Meydan-bağın ayrılmaz hissəsini fəvvarələr təşkil edir, onun yeni adı da bununla bağlıdır.

[26]**Erməni kilsəsi** – Kolyubyakinskaya (N.Rəfibəyli) küçəsində, Parapet (Fəvvarələr meydanı) meydanının yaxınlığında yerləşirdi. Bakıda 1860-cı illərdə memar Gippiusun layihəsi əsasında tikilmişdi. Mart hadisələri ərəfəsində kilsənin zirzəmiləri erməni hərbi birləşmələrinin silah anbarlarına çevrilmişdi.

[27]**Bolşeviklərin ultimatumu** – 1918-ci il mart hadisələri günlərində bolşevik liderləri tərəfindən "Müsavat" partiyasına və digər Azərbaycan təşkilatlarına təqdim edilmiş ultimatum nəzərdə tutulur. Ultimatumda Bakı Sovetinin hakimiyyətinin açıq və qeyd-şərtsiz tanınması, Azərbaycan hərbi hissələrinin, ilk növbədə "Dikaya diviziya"nın Bakı və onun rayonlarından çıxarılması, həmçinin Bakıdan Tiflisə və Bakıdan Petrovskadək dəmir yolunun açılması üçün təcili tədbirlərin görülməsi tələb olunurdu.

[28]**Caparidze Prokofiy (Alyoşa) Apraksionoviç** – (1880–1918), tanınmış bolşevik xadimi, 1917-ci il Fevral inqilabından sonra RSDFP(b) Bakı Komitəsinin və Bakı fəhlə və əsgər deputatları Sovetinin tərkibinə daxil olmuşdur. 1917-ci ilin iyulunda RSDFP(b)-nın VI qurultayında Bakı bolşevik təşkilatından nümayəndə. 1917-ci ilin sentyabrında Bakı neft sənayesi fəhlələrinin ümumi tətilinə rəhbərlik etmişdir. 1917-ci il dekabr ayından Bakı Soveti İcraiyyə Komitəsi sədrinin müavini, 1918-ci il yanvar ayından - onun sədri. 1918-ci il mart ayında bolşeviklərin ali hərbi-siyasi orqanı – İnqilabı Müdafiə Komitəsinin üzvü. Bakıda 1918-ci il mart hadisələri günlərində Azərbaycan milli qüvvələrinə qarşı bolşevik-daşnakların mübarizəsini dəstəkləməklə yanaşı şəhərin dinc müsəlman əhalisinin qırılması və qan tökülməsinin qarşısının alınması üçün müəyyən fəaliyyət göstərmişdir. 1918-ci ilin iyulunda Bakıda Sovet hakimiyyətinin süqutundan sonra "Sentrokaspi" hökuməti tərəfindən həbs edilmişdir. 20 sentyabr 1918-ci il tarixində 26 Bakı Komissarları sırasında Zakaspinin eser hökuməti tərəfindən güllələnmişdir.

[29]**Mərkəzi həbsxana** – Bakının "Şamaxinka" adlanan hissəsində, 1-ci Kanitapinskaya (Salatın Əsgərova) küçəsində yerləşən, H.Z.Tağıyev tərəfindən 1909-cu ildə ilkin olaraq dəyirman kimi tikilmiş bina. Nargin adasında saxlanılan məhbus qohumları ilə görüşməkdə çətinlik çəkən bakılıların şikayətlərini nəzərə alan H.Z.Tağıyev binanı həbsxanaya çevirərək şəhər hakimiyyətinə vermişdi. Sovet dövründə binada karamel fabriki yerləşmişdir. Hazırda – yaşayış binası.

[30]**Təkinski Məmməd Xan** – (1880-1938), AXC dövründə dövlət xadimi, hüquqşünas, andlı iclasçı. Milliyətcə türkmən, Axal-Təkə qalasına hücumdan sonra, 1881-ci ildə Göytəpə rayonunda gedən rus-türkmən döyüşləri zamanı rus ordusunun polkovniki Ehsan Xan Naxçıvanski tərəfindən xilas edilmiş və övladlığa götürülmüşdür. 1901-ci ildə 1-ci Tiflis kişi gimnaziyasını bitirmiş, 1901-1908-ci illərdə fasilələrlə Novorossiyski Universitetinin əvvəlcə fizika-riyaziyyat, sonra hüquq fakültəsində oxumuşdur. Cənubi Qafqazın şəhərlərində, o cümlədən Bakıda məhkəmə orqanlarında işləmişdir. Azərbaycan cəmiyyətinin kübar dairələrinə daxil idi. 1918-ci ilin sentyabrında andlı iclasçı kimi AXC hökuməti tərəfindən yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının tərkibinə daxil edilmişdir. FTK-nın Bakı və kəndlərində, Şamaxıda 1918-ci il mart hadisələrini araşdıran istintaq qruplarında işləmişdir. FTK-nın sədri Ə.Xasməmmədov müvəqqəti olmadıqda onun vəzifəsini yerinə yetirmişdir. 29 yanvar - 10 oktyabr 1919-

cu il tarixində AXC-nin Ermənistanda diplomatik nümayəndəsi olmuşdur. 1919-cu ilin 11 oktyabr - 1920-ci il 28 aprel tarixinədək AXC Xarici işlər nazirinin müavini olmuşdur. Azərbaycan sovetləşdirildikdən sonra, əvvəlcə Azərbaycan SSR XİXK-da işləmiş, 1922-ci ildən Ədliyyə XK yanında Müdafiəçilər Kollegiyasının üzvü olmuşdur, 1926-cı ildə onun tərkibindən çıxarılmışdır. Sovet dövlət idarələrində hüquq məsləhətçisi işləmişdir. 1937-ci il 18 noyabr tarixində Az.DİXK Dövlət Təhlükəsizliyi orqanları tərəfindən guya əks-inqilabçı, milli, qiyamçı-terror təşkilata mənsub olmaqda ittiham edilərək həbs olunmuşdur. Özünü müqəssir bilməmişdir. 15 mart 1938-ci il tarixində Az.SSR DİXK Xüsusi Üçlük tərəfindən ən yüksək cəzaya-güllələnməyə məhkum edilmiş, hökm həmin il martın 21-dən 22-nə keçən gecə yerinə yetirilmişdir. 1955-ci ildə bəraət almışdır.

[31]**Aleksandroviç (Litovski) Aley Adamoviç** - (1882- ?), hüquqşünas, milliyətcə Litva tatarlarından. 1919-cu ilin sentyabrında Azərbaycan dairə Məhkəmə Palatasının andlı iclasçılar sırasına daxil edilmişdir. 5 dekabr 1918-ci ildə Məmməd Xan Təkinskinin məsləhəti ilə AXC Hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının tərkibinə daxil edilmişdir. FTK-nın Bakı qrupunda işləmişdir, Komissiyanın yazışmalarını aparmışdır, dövlət qulluğunda işləməmişdir. Komissiya 1919-cu ilin noyabrında ləğv edilənədək onun tərkibində qalmışdır. Sovet hakimiyyətinin ilk illərində Ali Tribunal yanında İstintaq Komissiyasının üzvü olmuşdur. Sonrakı taleyi məlum deyil.

[32]**Kluge Aleksandr Yevgenyeviç** – (1879-1919), hüquqşünas, kollec asessoru, milliyətcə alman, Novorossiyski Universitetinin hüquq fakültəsini bitirmişdir, 1903-1906-cı illərdə Tiflis Məhkəmə Palatasında müxtəlif vəzifələrdə, 1906-cı ilin iyun ayından 1907-ci ilədək İrəvan Dairə Məhkəməsinin Aleksandropol şöbəsinin Barışdırıcı hakiminin köməkçisi işləmişdir. 1908-ci il yanvar-noyabr aylarında Aleksandropol qəzasının 2-ci istintaq şöbəsinə, Bambak İstintaq-barışdırıcı şöbəsinə rəhbərlik etmişdir. 1908-ci ilin noyabr ayının 17-də Vitebsk Dairə Məhkəməsinin 1-ci Poletski qəza şöbəsinin məhkəmə müstəntiqinin işlərinin icraçısı təyin edilmişdir. 8 dekabr 1908-ci ildən ölümünə qədər Bakı dairə məhkəməsində prokuror köməkçisi işləmişdir. 1918-ci ilin iyul ayında AXC hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının tərkibinə daxil edilmişdir. Bakı və kəndlərində, Şamaxıda 1918-ci ilin mart hadisələrini araşdıran istintaq qrupunda işləmişdir. FTK-nın sədri Ə.Xasməmmədov müvəqqəti olmadıqda onun vəzifəsini yerinə yetirmişdir. İşlərin azalması ilə əlaqədar olaraq

1919-cu ilin may ayının 8-də FTK üzvlüyündən azad edilmiş və Bakı Dairə Məhkəmə Prokurorunun müavini vəzifəsinə qayıtmışdır. 28 oktyabr 1919-cu il tarixində Bakı şəhərində qarın yatalağı xəstəliyindən vəfat etmişdir.

[33]**Əsədullayev Əli Şəmsi oğlu** – (1888 - ? ), Azərbaycan ordusunun zabiti, birinci müsəlman süvari polkunda yüzbaşı, azərbaycanlı neft sənayeçisi, milyonçu Şəmsi Əsədullayevin kiçik oğlu. Azərbaycan milyonçusu H.Z.Tağıyevin qızı Leyla xamımla evli idi. Mart hadisələri günlərində "Evelina" gəmisində tərksilah edilən zabit və əsgərlərin komandiri, bolşevik-erməni birləşmələrinə silahlı müqavimət göstərmişdir. Sovet hakimiyyətinin ilk illərində ailəsi ilə birgə mühacirət etmişdir. İkinci Dünya müharibəsi başlayarkən iki oğlu ilə birlikdə alman qoşunlarının tərkibində sovet ordusuna qarşı vuruşmuşdur. Hər üçü həlak olmuşdur.

[34]**İlk müsəlman süvari polku** – ilk milli hərbi hissələrindən biri. Əvvəllər çar ordusunun birləşmələrindən birinin - "Qafqazın yerli müsəlman əhalisinin nümayəndələrindən təşkil edilmiş "Qafqaz yerli süvari diviziyası"nın tərkibinə daxil idi.

[35]**Tatar Süvari Diviziyası** – Azərbaycan Süvari Diviziyası nəzərdə tutulur. Bax: İlk müsəlman süvari polku.

[36]**Məhəmməd Tağıyev** – Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin oğlu nəzərdə tutulur. Lənkəranda, yeni yaradılan Azərbaycan ordusunun sıralarında xidmət edirdi. Silahla ehtiyatsız davranışı nəticəsində həlak olmuşdur. Onun Bakıda keçirilən dəfninə gələn hərbi silahdaşlarının tərksilah edilməsi 1918-ci il mart hadisələrinin başlanması üçün bəhanə kimi istifadə edilmişdir.

[37]**Müsəlman Korpusu** – Zaqafqaziya Komissarlığı dövründə təşkilinə başlanmış müsəlman hərbi birləşməsi. Yaradılması barədə dekret Zaqafqaziya Komissarlığı tərəfindən 1917-ci il dekabrın 11-də verilmişdir. Əsasən, azərbaycanlılardan ibarət idi. Zabit heyətində ruslar əksəriyyət təşkil edirdi. General-leytenant Əliağa Şıxlinski korpusun komandiri təyin olunmuşdu. Azərbaycanlı zabitlər arasında Həbib bəy Səlimov (AXC dövründə general-mayor rütbəsinədək yüksəlmişdir), Murad Gəray Tlexas, Süleyman bəy Əfəndiyev, Əmənulla Mirzə Qacar, həmçinin bir neçə generallar – general-leytenant Ə.Şıxlinski, general-mayor H.Talışınski və general-mayor Ağausubov var idi. 1917-ci ilin sonu -1918-ci ilin əvvəlində qərargahı Tiflisdə yerləşirdi. 26 iyun 1918-ci il tarixində Müsəlman korpusunun əsasında Azərbaycan Xalq Cümhuriyyətinin silahlı qüvvələri yaradılmışdır.

[38]**Lalayev Stepan Balabəyoviç** – **(1892-1919)**, Rus ordusunun keçmiş zabiti (kornet), 1905-ci ildə Bakıda erməni-müsəlman toqquşmalarının fəal

iştirakçısı və təşkilatçısı, həmin toqquşmalarda öldürülmüş tanınmış daşnaksakan və millətçi Balabəy Lalayevin oğlu. «Daşnaksütun» və Erməni Milli Şurasının üzvü. 1918-ci ildə mart-iyul aylarında Bakıda və Şamaxıda, sentyabr-noyabr aylarında Petrovskda müsəlman qırğınlarında silahlı erməni dəstələrinə rəhbərlik etmiş, yüzlərlə insanı, o cümlədən öz tanışlarını, şəxsən, xüsusi qəddarlıqla öldürmüş, doğramış, öz qurbanlarına görünməmiş zülmlər vermişdir. Şamaxıda törətdiyi dəhşətli cinayətlərinə görə bolşeviklərin Fövqəladə Hərbi-İstintaq Komissiyası tərəfindən həbs olunmuş, lakin S.Şaumyanın şəxsi göstərişi ilə dərhal azad edilmişdir. 1918-ci ilin sonunda Bakıda Fövqəladə Təhqiqat Komissiyasının təqdimatı əsasında ingilislərin Müttəfiq qoşunları tərəfindən yenidən həbs edilərək Azərbaycan Cümhuriyyətinin istintaq-məhkəmə orqanlarına təhvil verilmişdir. 1919-cu il noyabr ayının sonunda Gəncə həbsxanasında ölmüşdür.

[39]**Nikolayevski** kilsəsi nəzərdə tutulur. 1858-ci ildə İçərişəhərdə - Qalada, qala qapılarının qarşısında tikilmiş, 1920-ci illərin sonlarında dinə qarşı kampaniya gedişində Sovet hökuməti tərəfindən sökülmüşdür.

[40]**"Kaspi"**- ictimai-siyasi, ədəbi qəzet, 1881-1919-cu illərdə Bakıda rus dilində nəşr olunmuşdur, əvvəlcə ayda 2 dəfə, 1881-ci ilin iyulundan həftədə 3 dəfə, 1884-cü ildən isə gündəlik çıxmışdır. Müxtəlif vaxtlarda qəzetin redaktorları və naşirləri V.Kuzmin, V.Liçkus-Xomutov, A.Vaynberq, Ə.M.b. Topçubaşov, H.b.Məlikov(Zərdabi), Ə.b.Hüseynzadə və b. olmuşlar. Ticarət - sənaye burjuaziyasının maraqlarını əks etdirirdi. 1897-ci ildə H.Z.Tağıyev qəzeti almış və qəzetin redaktorluğunu Ə.M.b.Topçubaşova həvalə etmişdir. XIX əsrin 90-cı illərindən etibarən qəzetin istiqaməti getdikcə milli çalarlar almış, milli maraqların birliyi ideyası tərənnüm edilmişdir. Azərbaycan ziyalılarının görkəmli nümayəndələri H.b.Məlikov(Zərdabi), F.b.Köçərli, M. Mahmudbəyov, Ə.Ağayev(Ağaoğlu), M.Şahtaxtinski, C.Məmmədquluzadə və b. qəzetlə yaxından əməkdaşlıq etmişlər. 1905-1907-ci illərdə Ermənistan-Azərbaycan qarşıdurması zamanı qəzet baş vermiş hadisələrin mahiyyətini açıqlamış, təkzibolunmaz faktlar əsasında erməni ideoloqlarının yalan, təxribatçı təbliğatını ifşa etmiş, yalnız Qafqazın deyil, bütün Rusiyanın rusdilli cəmiyyətinə əsl həqiqəti çatdırmışdır. Bunun nəticəsi olaraq bəzi erməni müəlliflər "Kaspi" vasitəsi ilə üzrxahlıq etmək məcburiyyətində qalmışlar. 1917-1918-ci ilin yanvarında qəzet Sovet hakimiyyətinə və bolşevik partiyasına qarşı çıxmışdır. 1918-ci il Bakıda mart hadisələri zamanı Nikolayevskaya küçəsində (İstiqlaliyyət) "Kaspi" qəzetinin redaksiyasının və mətbəəsinin yerləşdiyi, həmçinin "Müsavat" partiyasının rəsmi orqanı

"Açıq söz" qəzetinin nəşr olunduğu bina erməni silahlı dəstələri tərəfindən tamamilə yandırılmışdır. Sonralar bina uçurulmuş və yerində M.Ə.Sabir adına bağ salınmışdır. Qəzet öz nəşrini 1919-cu ildə, maliyyə səbəblərindən dayandırmışdır.

[41]**Melikov Ambarsum Sergeyeviç** – (? -?) Erməni neft sənayeçisi, Zuğulba su kəmərinin sahibi. Erməni Milli Şurasının və "Daşnaksütun" partiyasının Bakı Komitəsinin rəhbərlərindən biri. 1918-ci il mart hadisələri zamanı "Daşnaksütun"un qərargahı onun Bakıdakı mülkündə yerləşirdi və əsir götürülmüş tanınmış azərbaycanlılar bura gətirilirdilər. Mart qırğınlarının təşkilatçılarından biri, oğlanları – Georgi və Sergeylə birlikdə azərbaycanlıların öldürülməsində şəxsən iştirak etmişdir. 1918-ci ilin sentyabrında Bakının Türk-Azərbaycan qoşunları tərəfindən azad edilməsi ərəfəsində Həştərxana qaçmış, oğlunun ifadəsinə görə orada bolşeviklər tərəfindən həbs edilmişdir. Oğlanlarından biri – Georgi Ambarsumoviç Melikov Fövqəladə Təhqiqat Komissiyası tərəfindən həbs olunmuşdur.

[42]**"Hümmət"**- müsəlman dünyasında ilk sosial-demokrat təşkilatı. 1904-cü ilin oktyabrında bir qrup inqilabı ruhlu azərbaycanlı ziyalının səyləri ilə yaradılmışdır. Təşkilatın Bakı özəyi 11-12 nəfərdən ibarət olmuş, 1905-1907-ci illərdə fəal üzvlərinin sayı 60 nəfərə çatmışdır. Bakı təşkilatının şöbələri Yelizavetpol, Şuşa, Naxçıvan və Culfada fəaliyyət göstərirdi. Bir sıra mətbu orqanları var idi. Üzvlərinin sayına və siyasi fəallığına görə 1905-ci ildə yaranmış Tiflis şöbəsi daha nüfuzlu hesab edilirdi. Tiflis "Hümmət" təşkilatı formal olaraq Gürcüstan sosial-demokratları üçün səciyyəvi olan menşevik təmayüllü idi. Menşevik "Hümmət" bolşeviklərdən fərqli olaraq 28 may 1920-ci ildə Azərbaycan Respublikasının müstəqilliyinin elan olunmasında iştirak etmiş və Milli Şurada öz fraksiyalarını yaratmışdır. Mübarizənin parlament üsullarına üstünlük verən Tiflis "Hümmət" təşkilatının görkəmli üzvləri Azərbaycan Respublikasının 7 dekabr 1918-ci ildə işə başlamış ilk parlamentinin sosialist fraksiyasına da daxil olmuşlar. 1920-ci ilin yanvarında bolşevik "Hümmət", RK(b)P Bakı təşkilatı və "Ədalət" İran Sosial-Demokratik Partiyası Azərbaycan Kommunist partiyasında birləşmişlər. Tiflis "Hümmət" təşkilatının bəzi nümayəndələri də 1920-ci ildə bolşeviklərin sırasına qoşulmuşdur. 1918-ci il mart hadisələrindən tam çaşqınlıq halına gələn bolşevik "Hümmət"in rəhbərləri şəhərin və onun ətrafının dinc müsəlman əhalisinin qırğınına qarşı etirazla çıxış etmişdir. Ümumiyyətlə götürdükdə isə, mart hadisələrinin qiymətləndirilməsində Bakı Sovetinin rəhbərlərinin mövqeyini dəstəkləmiş və baş ver-

miş qanlı hadisələrin törədilməsində "Müsavat" partiyasını əsas müqəssir hesab etmişlər.

[43]**Milli Tatar polku** - ilk milli (azərbaycanlı) hərbi hissələrindən biri. Bax: İlk müsəlman süvari polku.

[44]**Qlaz və Koqan xəstəxanası** – tibbi müəssisə, Spasskaya küçəsi (Zərgərpalan) 2 ünvanında yerləşirdi. Hazırda həmin ünvanda Uroloji klinikanın binası yerləşir.

[45]**Finkelşteyn Boris Konstantinoviç** – tanınmış həkim, cərrah, tibb elmləri doktoru, Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının xəstəxanasında çalışırdı. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən açılan universitetdə tibb fakültəsinin professoru olmuş, hökumət tərəfindən müasir tibb avadanlığının alınması üçün Qərbi Avropaya ezam olunmuşdur. Həmin ezamiyyətdən sonra öz səfəri və Qərbi Avropa tibb elminin nailiyyətləri haqqında ətraflı hesabat yazmışdır.

[46]**Şaumyan Stepan Georgiyeviç** – (1878-1918), tanınmış bolşevik xadimi, Bakı bolşevik təşkilatının rəhbərlərindən biri. 1917-ci ilin martında qiyabi surətdə Bakı fəhlə deputatları Soveti rəyasət heyətinin sədri seçilmiş, həmin ilin dekabrında Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin olunmuşdur. 1918-ci ilin aprelindən Bakı Xalq Komissarları Sovetinin sədri. 1918-ci il martın 30-dan 31-nə keçən gecə azərbaycanlılara qarşı hərbi əməliyyatlara rəhbərlik etmək üçün "Bakı və onun rayonlarında ali hərbi-siyasi orqan" adı ilə "İnqilabi Müdafiə Komitəsi" yaratmışdır. 1918-ci il Bakı mart hadisələri günlərində Bakı və onun ətraflarında azərbaycanlı əhalinin kütləvi qırğınlarını həyata keçirən bolşevik-erməni birləşmələrinin fəaliyyətini bilavasitə idarə etmişdir. Onun göstərişi ilə həmin günlər erməni-molokan qüvvələri Şamaxı və onun kəndlərində azərbaycanlılara qarşı qırğınlar törətmişlər. 1918-ci il aprel ayının sonları-mayın əvvəlində onun təşəbbüsü ilə Amazaspın cəza dəstələri Quba qəzasına göndərilmiş və qəzanın müsəlman əhalisi kütləvi qırğınlara məruz qalmışdır. Azərbaycanlı qırğınlarına dair özünün nifrət dolu açıqlamaları ilə məşhurdur. 1918-ci ilin iyulunda Bakıda Sovet hakimiyyətinin süqutundan sonra "Sentrokaspi diktaturası" hökuməti tərəfindən həbs olunmuş, 20 sentyabr 1918-ci il tarixində 26 Bakı komissarları sırasında Türkistanda, Zakaspi eser hökuməti tərəfindən güllələnmişdir.

[47]**Seyidov Mir Əbdül Əziz Mir Seyfəddin oğlu (Əziz Alpoud)** – (1895-1988), Azərbaycan milli hərəkatının iştirakçılarından biri, hüquqşünas,

Tartu və Xarkov universitetlərində təhsil almışdır. «Əhrar" partiyasının üzvü. 1918-ci il Bakıda mart hadisələri günlərində, Lənkəranda yerləşən müsəlman süvari polkunun zabiti kimi Bakıda ezamiyyətdə olmuş, bolşevik-erməni hərbi hissələrinə silahlı müqavimət göstərmişdir, həmin hadisələr zamanı əmlakı qarət olunmuşdur, Fövqəladə Təhqiqat Komissiyasına ifadə vermişdir. 1918-1921-ci illərdə Azərbaycan Dəmir yol idarəsində hakim işləmişdir, 1921-ci ilin oktyabrında Bakıda bolşevik hakimiyyətinə qarşı üsyan hazırlayan gizli təşkilatın üzvü olmuş, üsyan ərəfəsində digər yoldaşları ilə birlikdə həbs olunmuşdur. Günahı sübut edilməsə də Sibirə sürgün edilmişdir. 4 il düşərgə həyatından sonra Azərbaycan milli qüvvələrinin gizli təşkilatının köməyi ilə sürgündən azad olmuş, başqa adla Bakıya gəlmiş və tezlikdə İrana mühacirət etmişdir. 1925-ci ilin sonlarında Türkiyəyə, daha sonra Almaniyaya getmişdir. 1926-27-ci illərdə Saksoniyada, Freyberq dəriçilik institutunda təhsil almış, dəri emalı üzrə mütəxəssis kimi Türkiyəyə qayıtmışdır. Mustafa Kamal Atatürklə şəxsən tanış idi. 1937-ci ildə Berlinə getmiş, Qafqazın mühacir təşkilatlarının fəaliyyətində iştirak etmişdir. 1939-cu ildə Türkiyəyə qayıtmış, ömrünün sonuna qədər burada yaşamış, öz ixtisası üzrə təcrübəli mütəxəssis kimi tanınmış, elmi fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan siyasi mühacirətinin Türkiyə və Avropadakı mərkəzləri ilə sıx təmas saxlamışdır. Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının üzvü olmuşdur. Bir neçə elmi əsərlərin və ədəbi tərcümələrin müəllifidir. Bütün həyatı boyu gündəlik yazmış, sonralar onları nəşrə hazırlamışdır. Həmin əlyazmalardan birinin əsasında 2011-ci ildə Bakıda Əziz Alpoud adı ilə "Həyatımın hekayətləri" adlı xatirələr kitabı (Zakir Sadaxlının tərcüməsi və tərtibi ilə) nəşr olunmuşdur. Böyük və taleyüklü hadisələrlə zəngin bir dövrü əhatə edən bu əsər parlaq publisist-memuar ədəbiyyatı nümunəsi olmaqla yanaşı, faktoloji baxımdan tarixi-mənbəşünaslıq əhəmiyyətinə də malikdir.

[48]**"Fantaziya"** – hamam, Suraxanskaya küçəsində, Armyanskaya küçəsinin tini (Dilarə Əliyeva-Mirzə İbrahimov) yerləşirdi. 1918-ci il mart qırğınları zamanı müsəlmanları əsir kimi oraya gətirmiş və işgəncələr vermişlər. Hazırda – fəaliyyət göstərir.

[49]**İran konsulu – Məhəmməd Said əl-Vəzarə Marağayi** (1881- 1974) nəzərdə tutulur. İranın tanınmış siyasi və dövlət xadimi, 1940-cı illərdə baş nazir. 1918-ci ildə İranın Bakıda konsulu. Əslən Azərbaycan şəhəri Marağadandır, uşaqlıq və gənclik illəri Zaqafqaziyada keçmiş, diplomatik karyerası burada başlanmışdır. Mart hadisələri zamanı Krasnokrestovskaya küçəsi

(Şeyx Şamil) 23 ünvanda yerləşən və 100 nəfərdən çox iranlı təbəələrin və konsulluğun əməkdaşlarının sığınacaq tapdıqları İran konsulluğunun binası erməni silahlı dəstələri tərəfindən tutulmuşdu. M.S.Marağayi konsulluq binasının azad edilməsinə nail olmuş, daha sonra rus hərbçiləri ilə birgə Bakıda yaşayan və işləyən İran vətəndaşlarının da məruz qaldığı qırğınların qarşısının alınmasında fəal iştirak etmişdir. 1994-cü ildə Tehranda nəşr etdirdiyi "Siyasi xatirələr"ində 1918-ci il mart faciələri günlərində şəhərdəki vəziyyəti təsvir etmiş və göstərmişdir ki, şəhər küçələrindən və həyətlərdən ölülərin və yaralıların yığılması və şəxsiyyətlərinin təyin edilməsi üçün hələ yalnız onun yaratdığı komissiya tərəfindən 5000 nəfərdən artıq iranlı və qeyri-iranlı müsəlmanın qətlə yetirildiyi müəyyən olunmuş, bütün bu cəsədlər müsəlman qaydasında dəfn edilmişdir. Qanlı mart hadisələrindən sonra cəmiyyətdə böyük vahimə yaranmış, müsəlman əhalisi şəhəri kütləvi surətdə tərk etməyə başlamışdır. M.S.Marağayi böyük çətinliklə şəhərə giriş-çıxışa qadağa qoymuş erməni-bolşevik hökumətindən sərnişinlərlə dolu gəmilərin İran limanlarına yola salınmasına icazə almışdır. Bir neçə gün ərzində 5 mindən 10 minə qədər insan - İran təbəələri və yerli müsəlmanlar Bakını tərk edərək Astara, Ənzəli və İranın digər şəhərlərində sığınacaq tapmışlar. FTK-nın sənədlərindən məlum olur ki, Bakıda iranlı təbəələrin və şəxsən İran konsulunun özünün təqib olunması sonrakı aylarda da, türk-Azərbaycan qoşunları şəhəri azad edənədək davam etmişdir.

[50]**Əmirov Tatevos Minayeviç – (1873-1918),** "Daşnaksütun" partiyasının üzvü, anarxist, terrorçu əməliyyatların rəhbəri. Qardaşı bolşevik Arsen Əmiryanın təsiri altında bolşeviklərlə əməkdaşlıq etmiş, süvari dəstəsinin komandiri olmuşdur. 1918-ci ildə Bakı və Şamaxıda xüsusilə ağır cinayətlər törətmiş erməni silahlı dəstələrinin rəhbərlərindən biri, müsəlmanların xeyriyyə cəmiyyəti binasını - "İsmailiyyə"ni şəxsən yandırmışdır. Stepan Lalayanla birlikdə Şamaxı şəhərinin üzərinə ikinci hücuma rəhbərlik etmiş, şəhərin dağıdılmasında, yaşayış məhəllələrinin və məscidlərin yandırılmasında, dinc əhalinin öldürülməsində şəxsən iştirak etmişdir. Bakının Türk-Azərbaycan qoşunları tərəfindən azad olunması ərəfəsində Bakı komissarları ilə birlikdə "Türkmən" gəmisində Bakını tərk etmişdir. Gəminin kapitanı onun Həştərxana üzmək əmrini yerinə yetirməmiş və gəmi Krasnovodska gəlmişdir. Burada komissarlarla birgə həbs edilmiş və 20 sentyabr 1918-ci il tarixdə 26 Bakı komissarları sırasında Zakaspi eser hökuməti tərəfindən güllələnmişdir.

[51]**Qafqaz müsəlmanlarının qurultayı** – 1917-ci il 15-20 aprel tarixdə Bakıda keçirilmişdir. Qurultayın təşəbbüskarlarından və təşkilatçılarından biri 1917-ci il martın 27-də yaradılmış Bakı Müsəlman İctimai Təşkilatlarının Müvəqqəti Komitəsi olmuşdur. Azərbaycanın siyasi partiyaları və ictimai təşkilatlarından başqa qurultayda Şimali Qafqaz, Gürcüstan, Ermənistan müsəlmanlarının nümayəndələri iştirak etmişlər. Qurultayda müzakirə olunan əsas məsələ Rusiyanın gələcək siyasi quruluşu və kiçik xalqların hüquqları idi. Rusiyanın siyasi quruluşu haqqında məruzəni M.Ə.Rəsulzadə etmişdır. Qafqaz müsəlmanlarının milli-siyasi idealları ifadə olunan bu məruzə əsasında Qurultayın qəbul etdiyi qətnamədə Rusiya dövlət quruluşunun forması kimi müsəlman xalqlarının mənafeyini təmin edən federativ əsaslarla demokratik respublika hesab edilmişdir. Qurultayda həmçinin Qafqaz müsəlmanlarının Müvəqqəti hökumətə, müharibəyə, Rusiyanın digər xalqlarına münasibəti, xalq təhsili, qadınların vəziyyəti, fəhlə və torpaq haqqında məsələlər də müzakirə olunmuşdur.

[52]**Təzəpir** – Bakıda monumental cümə məscidi, Nabat xanım Rzayevanın vəsaiti hesabına, mülki mühəndis Zivər bəy Əhmədbəyovun layihəsi əsasında 1905-1914-cü illərdə Nijnyaya Tazapirskya (Aşağı Təzəpir - Mirzə Fətəli) küçəsində tikilmişdir. Mart hadisələrinin elə ilk saatlarında "Təzəpir"in binası və məscidin ətrafındakı məhəllələr top atəşinə tutulmuşdur. "Təzəpir" məscidinin ətraf küçələri və həyətləri sakinlərin meyitləri ilə dolu idi. Qırğınlar qurtardıqdan sonra bütün meyitlər məscidin həyətinə yığılmış və öz yaxınlarının cəsədlərini axtaran insanlar buraya gəlirmişlər. Hazırda – fəaliyyətdə olan məscid.

[53]**Tağıyev Hacı Zeynalabdin Məhəmmədtağı oğlu** - (1838-1924), Azərbaycan sahibkarlığının görkəmli nümayəndəsi, neft sənayeçisi, milyonçu, ictimai xadim, xeyriyyəçi, maarifçi. 1877-ci ildə 2-ci, 1882-ci ildə 1-ci gildiya tacir rütbəsi almışdır. 1870-ci illərin sonunda 3 neft zavodunun sahibi idi. 1886-cı ildə "H.Z.A.Tağıyev" şəxsi ticarət evi tikdirmiş, 1890-cı illərdə Şuşa-Yevlax dəmir yolu çəkilişi üzrə layihə təklif etmiş, "Kaspi" qəzetini almış, milli ziyalıları onun rəhbərliyinə cəlb etmiş, milli tekstil sənayesi, tikinti, kənd təsərrüfatı, balıqçılığın inkişafına sərmayə qoymuşdur. Bakıda telefon xətlərinin və şollar suyunun çəkilişi, ticarət pasajı (indiki Bakı univermağı), bank binası, Tağıyev teatrı (indiki Musiqili komediya teatrı), müsəlman qızları üçün ilk təhsil məktəbi (indiki AMEA Əlyazmalar İnstitutu) binalarının inşası onun adı ilə bağlıdır. Azərbaycan ziyalılarının bir çox nümayəndələrinin, gələcək dövlət və siyasi xadimlərin – Nəriman Nərimanov,

Əli Mərdan bəy Topçubaşov, Nəsib bəy Usubbəyov, Məşədi Əzizbəyov, Behbud Ağa Cavanşir, Qarabəy Qarabəyov, Mirzə Davud Hüseynov, Xudadat bəy Məlik-Aslanov, Mir Həsən Vəzirov, Şövkət Məmmədova, Ruhulla Axundov və d. - təhsil haqqını ödəmiş, İran və Təbrizdə məşrutə hərəkatının (1905-1911) iştirakçılarına maddi yardım göstərmişdir. AXC dövründə müstəqil milli hökumətin milli müstəqillik siyasətini dəstəkləmiş, təntənəli dövlət tədbirlərində iştirak etmişdir. 1918-ci ilin mart ayının ortalarında H.Z. Tağıyevin ailəsində baş vermiş faciə, müsəlman “Dikaya diviziya” polkunun zabiti olan oğlunun ölümü və dəfni, bolşevik-daşnak qüvvələri tərəfindən Bakı və Şamaxıda mart hadisələrinin törədilməsi üçün bəhanə kimi istifadə edilmişdir. Bütün azərbaycanlılar üçün bu ağır vaxtda H.Z.Tağıyev İrandan gəmilərlə ərzaq məhsulları və ilk tələbat malları gətirdərək zərərçəkənlərə, Bakı və ətraf kəndlərin məzlum hala salınmış əhalisinə, habelə Şamaxı qaçqınlarına zəruri yardım göstərmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Tağıyevin bütün müəssisələri milliləşdirilmişdir. Ona Mərdəkandakı bağında yaşamağa izn verilmiş, Tağıyev 1924-cü il sentyabr 1-də həmin bağda vəfat etmişdir. H.Z.Tağıyevin Qorçakovskaya (H.Z.Tağıyev) küçəsi, 4 ünvanda yerləşən və bütün məhəlləni əhatə edən malikanəsi 1893-1902-ci illərdə mülki mühəndis İ.V.Qoslavski tərəfindən tikilmişdir. AXC dövründə bu evdə hökumətin ən hörmətli qonaqları qəbul olunmuşdur. Hazırda həmin binada Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan tarixi muzeyi və Hacı Zeynalabdin Tağıyevin ev-muzeyi yerləşir.

[54]**Kaqanın müalicəxanası** – qadınlar üçün tibbi müəssisə, M.F. Kaqana məxsus idi, Kolyubakinskaya küçəsində, Mariinskaya küçəsinin tini, (N.Rəfibəyli- Rəsul Rza) yerləşirdi.

[55]**Şamaxı məscidi** – “Şirvanlılar” – Kamenistaya 103 (Bəşir Səfər oğlu), Persidskaya, (M.Muxtarov) küçələrinin tinində yerləşirdi. 1897-ci ildə, şəhərin bu hissəsində məskunlaşan, xüsusilə Şamaxıda 1902-ci il zəlzələsindən sonra, şamaxılılar tərəfindən tikilmişdir. 1918-ci ilin mart hadisələrindən sonra on minlərlə Şamaxı qaçqını üçün sığınacaq yeri olmuşdur. Hazırda fəaliyyət göstərmir.

[56]**Doktor Nərimanov – Nərimanov Nəriman Nəcəf oğlu** – (1870 - 1925), görkəmli ictimai, siyasi və dövlət xadimi, yazıçı, publisist, həkim nəzərdə tutulur. Odessada Novorossiysk universitetində oxumuşdur. “Hümmət” təşkilatının üzvü, İran “İctimaiyyun-Amiyyun “Mücahid” partiyasının əsasını qoyanlardan biri. 1909-cu ilin əvvəllərində İranın inqilabi hərəka-

tında iştirakına görə Tiflisdə həbs edilmiş, həmin ildə Həştərxana sürgün olunmuş, burada geniş ictimai-siyasi fəaliyyətini və həkimlik təcrübəsini davam etdirmişdir. Həştərxan Xalq universitetinin idarə heyətinin sədri, 1919-cu ildə Həştərxan şəhər Dumasının üzvü olmuşdur. 1913-cü ildə Bakıya qayıtmışdır. 1917-ci ilin martında "Hümmət" (bolşevik) təşkilatı komitəsinin sədri və RSDF(b)P Bakı Komitəsinin üzvü seçilmişdir, Bakı Müsəlman İctimai Təşkilatları bürosunun tərkibinə daxil idi. 1917-ci il iyulun 3-dən "Hümmət" qəzetinin redaktoru, oktyabrından Bakı şəhər Dumasının üzvü. 1917-ci il payızından - 1918-ci il yazına kimi Bakı bolşeviklərini müdafiə etmiş, 1918-ci il mart hadisələri günlərində bolşevik-erməni qüvvələri tərəfindən həyata keçirilən və bütün Azərbaycan xalqına qarşı silahlı müharibəyə çevrilən milli düşmənçilik siyasətinin qarşısını almağa çalışmışdır. Qarşıdurmanın və şəhərdəki gərginliyin güclənməsinə yol verməmək məqsədilə onun martın 30-da təşkil etdiyi müsəlman sosialistləri ilə Şaumyan və Caparidzenin birgə yığıncağı nəticə verməmişdir. Nərimanovun öz mənzili erməni silahlı dəstələri tərəfindən basqına məruz qalmış, onun özü gizlənə bilmiş, qardaşı əsir götürülmüşdür. Sonradan yazdığı kimi, "bir saatdan sonra yol. Şaumyan məni ailəmlə birlikdə "Sovet hakimiyyətinin müdafiəçiləri" olan daşnaklardan xilas edir". Azərbaycan əhalisinə qarşı vəhşiliklərin miqyasından dəhşətə gələn Nərimanov Şaumyana, Caparidzeyə, Stalinə məktublarında mart hadisələrinə, sonradan isə bu cinayətlərin qəzalarda davam etdirilməsinə görə "1918-ci ildə Bakıdakı Sovet hakimiyyəti cavab verməlidir" yazmış, bu hadisələrin "Sovet hakimiyyətini gözdən saldığını və ləkələdiyini" bildirmişdir. Bununla belə, həmin hadisələrin ümumən qiymətləndirilməsində bolşeviklərin mövqeyindən çıxış etmiş, əsas müqəssirlər kimi milli partiyaları – "Daşnaksütun" və "Müsavat"ı göstərmişdir. 1918-ci il martın axırlarında yaradılmış Bakı şəhəri və Rayonlarının İnqilabi Müdafiə Komitəsinin üzvü kimi silahlı erməni milli hərbi hissələrinin ləğv edilməsi haqqında Komitənin göstərişini imzalamışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə siyasi müxalifətdə olmuşdur. 1920-ci ilin aprelində Azərbaycanın sovetləşdirilməsinin ilk günlərində AXC-nin bir çox siyasi və dövlət xadimlərinin sovet rəhbərliyi tərəfindən fiziki məhv edilməsi və repressiyalara məruz qalmasının qarşısını almış, onların mühacirət etməsinə şərait yaratmışdır. Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin sədri, sonra Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri olmuş, 1922-ci ilin martından Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası İttifaq Sovetinin sədrlərindən biri olmuşdur.

1922-ci ilin dekabr ayından SSRİ MİK-nin 4 sədrindən biri - ZSFSR-dən sədr – seçilmişdir. 1925-ci il martın 19-da Moskvada vəfat etmiş, orada, Kreml divarının önündə dəfn edilmişdir.

[57]**Mantaşev A.İ. və K°** – neft sənayesi və ticarət cəmiyyəti. 1899-cu ildə təsis olunmuşdur. İdarə heyəti Tiflisdə idi, istehsalat fəaliyyətinin mərkəzi Bakı şöbəsi idi. Balaxanı, Sabunçu, Ramana və Bibiheybətdə mədənləri var idi. Keşlə kəndində neftayırma zavoduna, Ağ şəhərdə kerosin-yağ zavoduna və s. malik idi. Xaricə neft və neft məhsulları ixrac edirdi. Azərbaycan İnqilab Komitəsinin 27 may 1920-ci il tarixli dekreti ilə milliləşdirilmişdir.

[58]**1905-ci il** – 1905-ci ilin fevral ayında Bakıda erməni və müsəlman (azərbaycanlı) əhalisi arasında başlanan, sonradan bütün Cənubi Qafqaz ərazisini əhatə edərək erməni-müsəlman qırğınlarına çevrilən silahlı toqquşmalar nəzərdə tutulur. 1905-1907-ci illərdə Bakı, Yelizavetpol və İrəvan quberniyalarında 158 azərbaycanlı və 128 erməni kəndi dağıdılmış, müxtəlif hesablamalara görə Bakı, Şuşa, Zəngəzur, İrəvan, Naxçıvan, Ordubad, Eçmiədzin, Cavanşir, Qazax qəzalarında 3 mindən 10 minədək insan, o cümlədən qadın, uşaq və qoca, qətlə yetirilmişdir.

[59]**Pitoyev və K°** – neft sənayesi və ticarət cəmiyyəti. 1907-ci ildə təsis olunmuşdur. Sabunçu, Ramana və Bibiheybətdə mədənləri var idi. 1920-ci ilin may ayında Sovet hökuməti tərəfindən milliləşdirilmişdir.

[60]**"Müsavat"** - (ərəbcə bərabərlik), Azərbaycan milli-demokratik partiyası, 1911-ci ildə Bakıda yaradılmışdır. İlk özəyini keçmiş hümmətçilər Abbasqulu Kazımzadə, Tağı Nağıoğlu və Məmmədəli Rəsulzadə (Rəsuloğlu) təsis etmişlər. Partiyanın ilk proqramı və nizamnaməsi qeyri-leqal kitabça şəklində 1912-ci ildə nəşr olunmuşdur. 1913-cü ildən partiyanın dəyişməz lideri **Məhəmməd Əmin Rəsulzadə** - Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, AXC-nin yaradıcılarından biri, Azərbaycan Milli Şurasının sədri, Azərbaycan Parlamentində "Müsavat" və bitərəflər fraksiyasının sədri, jurnalist, siyasi publisist – olmuşdur. Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (1884-1955), rus-tatar məktəbini və Bakı texniki məktəbini bitirmişdir. 1902-ci ildə "Müsəlman gənclik təşkilatı" adlı gənc azərbaycanlı gənclər dərnəyini yaratmış, 1904-cü ildə RSDFP nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" qrupunun yaradılmasında iştirak etmişdir, bu dövrün mətbuatında ("Hümmət", "Təkamül", "Yoldaş", "İrşad", "Tərəqqi" qəzetləri) fəal nəşr olunmuşdur. 1908-1911-ci illər İran inqilabında iştirak etmiş, İran Demokrat Partiyasının yaradıcılarından biri, bu partiyanın MK-nin üzvü, ilk Avropa tipli İran qəzetinin – "İrane-nou" – redak-

toru olmuşdur. 1911-ci ildə Türkiyəyə mühacirət etmiş, burada "Türk ocağı" təşkilatına daxil olmuş, "Türk yurdu" jurnalında nəşr olunmuşdur. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş əfv-ümumidən sonra Bakıya qayıtmış, "Müsavat" partiyasının rəhbərliyinə keçmişdir. 1915-1918-ci illərdə "Açıq söz" qəzetini - "Müsavat" partiyasının faktiki orqanını buraxmışdır. Rusiyada Fevral inqilabından (1917) sonra Qafqaz müsəlmanlarının Bakı (1917, aprel) və Rusiya müsəlmanlarının Moskva (1917, may) qurultaylarında iştirak etmiş, onun məruzələri əsasında Rusiyanın federativ dövlət quruluşunun zəruriliyi haqqında qurultay qətnamələri qəbul edilmişdir. 1917-ci ilin iyun ayında "Müsavat" "Türk Ədəmi-Mərkəziyyət" partiyası (1917-ci ilin aprel ayında Gəncədə yaradılmışdır) ilə birləşdikdən sonra, "Türk-Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın I qurultayında (1917, 26-31 oktyabr, Bakı) Mərkəzi Komitənin sədri seçilmişdir. Zaqafqaziya Seyminin işində iştirak etmiş, AXC-nin yaradıldığını elan edən Azərbaycan Milli Şurasının sədri seçilmişdir. Osmanlı dövləti ilə Batum danışıqlarında və müqaviləsinin bağlanmasında (1918, 4 iyun) iştirak etmiş, bu müqaviləyə əsasən Türkiyə tərəfi Bakı Sovetinin bolşevik-daşnak hökuməti tərəfindən kütləvi qırğınlara məruz qalmış Azərbaycan xalqına hərbi yardım göstərmişdir. Beynəlxalq İstanbul konfransında (1918, iyun) Azərbaycan nümayəndə heyətinin rəhbəri olmuş, Azərbaycan Parlamentinin yaradılmasında fəal iştirak etmiş, onun açılışında (1918, 7 dekabr) parlaq nitq söyləmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra həbs edilmiş, Stalin tərəfindən azad edilərək Moskvaya göndərilmiş, orada Milli İşlər Xalq Komissarlığında işləmişdir. 1922-ci ildə gizli yolla Finlandiyaya keçərək oradan da Türkiyəyə mühacirət etmişdir. Mühacirət illərində (1922-1955) "Azərbaycan Milli Mərkəzini" (İstanbulda), "Müsavat" Partiyasının Xarici Bürosunu yaratmış, partiyanın Azərbaycandakı gizli təşkilatlarının işini istiqamətləndirmiş, Parisdə "Prometey" təşkilatının yaradılmasında (1926) fəal iştirak etmiş, İkinci Dünya müharibəsinin ərəfəsində və illərində Azərbaycan mühacirətinin Polşada, Fransada, İsveçrədə, Almaniyada, Rumıniyada fəaliyyətinə rəhbərlik etmişdir. 1947-ci ildə Türkiyəyə qayıdaraq Azərbaycan Milli Mərkəzini (Ankara, 1949) yaratmış, Ümumi Qafqaz Konfransının (Münhen, 1952) işində fəal iştirak etmiş, 1953-cü ildə ABŞ-a səfər edərək "Amerikanın səsi" radiosu ilə AXC yaradılmasının 35 illiyi münasibətilə Azərbaycan xalqına müraciət etmişdir. Azərbaycan siyasi publisistikasının parlaq nümayəndəsidir. 1903-1920-ci illərdə yalnız Azərbaycan mətbuatında 1200-dən artıq məqalə nəşr etdirmişdir. Mühacirətdə

"Yeni Qafqasya" (1923), "Azəri türk" (1928), "Odlu yurd" (1929), "Qurtuluş" (1934), "Müsavat bülleteni" (1936), "Azərbaycan" (1950) jurnallarını və "İstiqlal" (1932) qəzetlərini buraxmış, bu nəşriyyələrdə yüzlərlə məqaləsi dərc olunmuşdur. "Azərbaycan Cümhuriyyəti", "Əsrimizin Siyavuşu", "Çağdaş Azərbaycan ədəbiyyatı", "Çağdaş Azərbaycan tarixi", "Stalinlə ixtilal xatirələri", "İran türkləri", "Qafqaz türkləri" və s. kitabların, "Azərbaycan şairi Nizami" elmi əsərinin müəllifidir. 1955-ci il martın 6-da Ankarada vəfat etmişdir. Onun rəhbərlik etdiyi "Müsavat" partiyası 1917-ci il Oktyabr inqilabından sonra milli-ərazi muxtariyyəti mövqeyində duraraq Azərbaycanın müstəqilliyi uğrunda çıxış etmişdir. Partiya Azərbaycan, Ermənistan və Gürcüstanın daxil olacağı Cənubi Qafqaz dövlətləri Konfederasiyası şəklində muxtariyyəti məqbul saymışdır. Partiyanın I qurultayında (1917, 25-31 oktyabr) qəbul edilmiş proqramı fəhlə və torpaq, milli və dini, mülki hüquqlar və s. məsələləri əhatə edən 9 bölmədən və 76 bənddən ibarət idi. "Müsavat"ın fəal iştirakı ilə Zaqafqaziya Komissarlığı Seymi - Zaqafqaziya Demokratik Federativ Respublikası, ən nəhayət 1918-ci il 28 may tarixdə Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. 1918 (sentyabr) – 1920 (aprel) illərdə partiya AXC koalisiya hökumət kabinələrinin özəyini təşkil etmişdir. Azərbaycan sovetləşdirildikdən sonra (1920, 28 aprel) respublikada partiyanın gizli təşkilatları fəaliyyət göstərmiş, onların üzvləri 1920-30-cu illərdə Sovet hakimiyyəti tərəfindən təqiblərə və həbslərə məruz qalmış, 1937-ci il repressiyalarından sonra partiyanın daxildə fəaliyyətinə son qoyulmuşdur. Partiyanın Xarici Bürosu Türkiyə, İran, Polşa və Fransanın müxtəlif şəhərlərində öz təşkilatlarını yaratmışdır. 1936-cı ildə Varşavada keçirilən partiyanın qurultay səlahiyyətli konfransında onun yeni proqramı qəbul edilmiş və yeni icra orqanı – Divan – seçilmişdir. Xarici Büro Azərbaycan mühacirətini vahid təşkilat ətrafında birləşdirməyə, Sovet rejimi və bolşevizmə qarşı mübarizə aparan başqa xalqların xarici nümayəndəlikləri ilə əməkdaşlıq etməyə nail olmuşdur. 1918-ci il Bakıda mart hadisələri ərəfəsində "Müsavat" partiyası bolşevik hakimiyyəti ilə açıq hərbi qarşıdurmaya hazır olmadığı üçün toqquşmaların qarşısını almağa çalışmış, əhaliyə təmkinli olmaq, təxribatlara uymamaq çağırışları ilə müraciətlər etmişdir. Bir çox faktlar və hadisələrin gedişi mart qırğınlarının məhz "Müsavat" partiyası tərəfindən təhrik edildiyi kimi ittihamları təkzib edir. Partiyanın özü bu hadisələrin xarakterini Cənubi Qafqazın bütün müsəlman əhalisinin məhv edilməsinə yönəlmiş məqsədyönlü siyasət kimi müəyyən etmişdir. Partiyanın mühacir mətbuatında, eləcə də M.Ə.Rəsulzadənin əsərlərin-

də 1918-ci il hadisələri geniş və hərtərəfli işıqlandırılmış, siyasi mühacirət hər il 31 mart tarixini ümummilli matəm günü kimi qeyd etmiş, xatirə gecələri keçirmiş, "İstiqlal" qəzetinin (Münhen) 1933-cü il 1 aprel tarixli 31-ci sayı tamamilə Bakıda 1918-ci mart hadisələrinin 15-ci ildönümünə həsr olunmuşdur.

[61]**Aşurbəyov Bala-bəy Teymur-bəy oğlu** - (1882—1937), tanınmış Azərbaycan zadəgan nəslinin nümayəndəsi, neft sənayeçisi, milyonçu, xeyriyyəçi. Qardaşı Əli-bəylə birlikdə "Ə.-b. Və B.-b. Aşurbəyov qardaşları" neftçıxarma kompaniyasının sahibi. 1901-ci ildə təsis edilmiş bu kompaniya 1914-cü il üçün ildə 1 milyon 684 pud neft hasil edirdi, mədənlərdə 200 nəfərdən artıq fəhlə çalışırdı. Xeyriyyəçilik fəaliyyəti ilə tanınırdı. Aşurbəyov təqaüdçüləri arasında gələcək ictimai xadimlər – Mir Əsədulla Mirqasımov, Hənifə Pirverdiyev, Ruhulla Axundov və b. var idi. Bakı şəhərində və ətrafında (Mərdəkanda) bir neçə mülkün sahibi idi. 1918-ci il mart hadisələrində ailəsi ilə birgə Sabunçuda gizlənməyə məcbur olmuşdu. Yaşadığı şəhər mülkünü tam talanlardan qızlarının mürəbbiyəsi fransız J.Qreylo xilas etmiş, evin girişinə Fransa bayrağı sancmaqla mülkün böyük hissəni qorumağa müvəffəq olmuşdu. Lakin erməni əsgərləri Bala-bəy və Əli-bəyin mənzillərini talan etmişdilər. Yalnız yarım ildən sonra, AXC hakimiyyəti zamanı B.b.Aşurbəyov ailəsi ilə birgə evinə qayıda bilmişdir. FTK-na ifadə vermişdir. Azərbaycan Sovet hakimiyyəti qurulduqdan sonra Aşurbəyovların bütün mülkiyyəti müsadirə edilmiş, hər iki qardaş həbs olunmuşlar. Az sonra N.Nərimanovun köməyi ilə həbsdən azad olunmuş və ailəsi ilə birgə İstanbula getmişdir. 1925-ci ildə ailəsi ilə vətənə qayıtmış, 1935-ci ildə keçmiş sahibkar kimi həbs olunmuş və Karakandaya sürgün edilmişdir. 1937-ci ildə Karakanda vilayəti üzrə UDİXK yenidən həbs olunmuş, həmin il avqustun 13-də Xüsusi Üçlük tərəfindən vətənə xəyanətdə ittiham edilərək ən yüksək cəzaya – güllələnməyə məhkum edilmişdir. Ölümündən sonra bəraət almışdır.

[62]**Əsədullayev Mirzə Şəmsi oğlu** - (1875 - 1936), sahibkar, ictimai xadim. Azərbaycanın neft sənayeçisi, milyonçu Şəmsi Əsədullayevin böyük oğlu. Əmək fəaliyyətinə atasının neft mədənlərində başlamışdır. Bakı müsəlman xeyriyyə cəmiyyətinin sədri. 1917-ci il fevral inqilabından sonra Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə komitəsinin üzvü seçilmişdir. 1918-ci ildən Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının sədri. Bu Şuradan Azərbaycan Cümhuriyyət Parlamentinə üzv seçilmişdir, "Müsavat" və bitərəflər fraksiyasına daxil idi. 3-cü Hökumət kabinəsində ticarət və sənaye naziri (1918,

dekabr –1919, mart) vəzifəsini icra etmişdir . Azərbaycan milyonçusu Musa Nağıyevin qızı ilə evli idi. 1920-ci ildə bolşeviklər tərəfindən həbs edilmişdir, qısa müddətdən sonra azad edilmiş, hökumətin rəsmi icazəsi ilə Fransaya getmişdir, Parisdə vəfat etmişdir.

[63]**Şəmsi Əsədullayev** – (1841–1913), iri sahibkar, neft sənayeçisi, ictimai xadim. Bakıda bir neçə neftayırma emalatxanası, Suraxanı, Sabunçu və Ramanada 37 buruğu, Xəzər dənizində neft və neft məhsulları daşıyan gəmiləri vardı. Xeyriyyəçiliklə məşğul olmuşdur. “Nəşri-maarif” müsəlman maarifçilik cəmiyyətinin fəal üzvü. 1903-cü ildə Moskvaya köçmüş, Moskvada və Peterburqda sahibkarlıq fəaliyyəti, həmçinin xeyriyyəçiliklə məşğul olmuş, bir neçə mülk tikdirmiş, yoxsul təbəqələrin uşaqları üçün məktəb açdırmışdır. Moskvada Malaya Tatarskaya döngəsində tikdirdiyi evi o zaman təzə yaradılmış Tatar Mədəniyyət Cəmiyyətinə bağışlamışdır. Bu binada tatar məktəbi, kitabxana, konsert salonu və yetimlər üçün uşaq evi fəaliyyət göstərmişdir. Ümumrusiya müsəlmanlarının 1-ci qurultayında (1905, Nijni - Novqorod) iştirak etmişdir. Sahibkarlıq fəaliyyətinin coğrafiyası Xəzər dənizinin İran sərhədlərindən tutmuş Lodza qədər əhatə etmişdir. 1913-cü ildə Yaltada vəfat etmişdir.

[64]**Qacar Mansur Mirzə Xanbaba Xan oğlu, şahzadə** – (1869- 1931), hərbçi, türk-azərbaycanlı şah sülaləsi - Qacarlar nəslinin nümayəndəsi. Yelizavetqradda (Kirovoqrad şəhəri, Ukrayna) kornet rütbəsində süvari məktəbini bitirmişdir. 1905-ci il Rys-Yapon müharibəsinin iştirakçısı, Port-Arturda döyüşmüş, iki ordenlə - ikinci dərəcəli Müqəddəs Anna və Müqəddəs Vladimir – təltif olunmuşdur. Yaralanandan sonra Qafqaz hərbi dairəsinə xidmətə göndərilmişdir. Birinci Dünya müharibəsinin iştirakçısı. Döyüş meydanında göstərdiyi şücaətə görə qızıl silahla təltif olunmuş, 12 saylı Tver qusar polkunda xidmət etmişdir. 1917-ci il Fevral inqilabından sonra Bakıya qayıtmışdır. AXC dövründə ordu sıralarında xidmət etmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Xalq Komissarları Sovetində müxtəlif mülki vəzifələrdə çalışmışdır. Mart hadisələri zamanı erməni əsgərləri tərəfindən saxlanılmış, dostlarının köməyi ilə ölümdən xilas olmuş, əsir aparılmışdır. Şahid və zərərçəkən qismində FTK-na ifadə vermişdir.

[65]**Kələntərov pasajı** – Aşumovskaya meydanındakı (Gənclər meydanı) binada yerləşirdi, mağazaların üz tərəfləri eyni zamanda Nikolayevskaya (İstiqlaliyyət) və Olqinskaya (M.Ə.Rəsulzadə) küçələrinə çıxırdı. Sonralar binanın üst mərtəbələri tikilmişdir Sovet dövrüdə və hazırda bu binada Azərbaycan Həmkarlar İttifaqları Şurası yerləşir.

[66]**"Dikaya diviziya"- "Vəhşi diviziya"** - Birinci Dünya müharibəsi dövründə (1914-1918) Qafqazın yerli müsəlman əhalisindən təşkil edilmiş süvari diviziya. Çar hakimiyyəti devrildikdən sonra diviziya Azərbaycana qayıtmış və yaranmaqda olan milli silahlı qüvvələrin bir hissəsi olmuşdur.

[67]**"Dağıstan"** – mehmanxana, Vrangelevskaya, Bazarnaya və Çelyayevskaya küçələrinin (Ə.Cavad, Azərbaycan və M.Dilbazi) kəsişməsində, Xanlarovun evində yerləşirdi, "müsəlman" mehmanxanası sayılırdı, mart hadisələri günlərində tamamilə yandırılmışdır. Hazırda onun yerində beşmərtəbəli yaşayış binası yerləşir.

[68]**Ermansın apteki** – Velikoknyajeskaya küçəsində (M.E.Rəsulzadə) Lalayev pasajında yerləşirdi.

[69]**Hacı Əjdər bəy məscidi** – "İttifaq" - Hacı Əjdər bəy Aşurbəyovun vəsaiti ilə, mülki mühəndis Zivər-bəy Əhmədbəyovun layihəsi əsasında 1912-1913-cü illərdə Kanitapinskaya rayonunda, Krasnovodskaya və 8-ci Kanitapinskaya (S.Vurğun və Dağıstan) küçələrinin tinində tikilmişdir. Mart hadisələri günlərində məsciddə qonşu məhəllələrin sakinləri, əsasən, qadınlar və uşaqlar gizlənsələr də, təqiblərdən qurtarmamış və erməni quldur dəstələrinin zorakılığının qurbanı olmuşlar. Hazırda – fəaliyyətdə olan məscid.

[70]**Karvansara** - Sisianovskaya küçəsində (Təbriz Xəlilbəyli) Lalayevlər ailəsinə məxsus binada yerləşən və öz icarədarının adı ilə tanınan "Abbas Eyvazovun karvansarası" nəzərdə tutulur. Bütün məhəlləni əhatə edən həmin binada müxtəlif kontorlar, idarələr, mağazalar da yerləşirdi. Sovet dövrü və hazırda həmin binada "Araz" kinoteatrı, ticarət obyektləri, mənzillər yerləşir.

[71]**Doktor Nəriman bəy Nərimanov** - Azərbaycanın görkəmli ictimai, siyasi dövlət xadimi, tazıçı, publisist, həkim Nəriman Nəcəf oğlu Nərimanov nəzərdə tutulur. Ətraflı bax: Doktor Nərimanov.

[72]**"Təbriz"** – mehmanxana, Hacı Hacıağaya mənsub idi, "müsəlman" mehmanxanası hesab edilirdi. Nikolayevskaya (İstiqlal) küçəsindəki binada, "İsmailiyyə"nin yaxınlığında yerləşirdi. Sonradan sökülmüşdür. İndi həmin yerdə - M.Ə.Sabır bağı yerləşir.

[73]**«Evropa" – "Avropa"** mehmanxana, Lalayevski keçidində (Natəvan döngəsi) Lalayevlər ailəsinə məxsus ikimərtəbəli binada yerləşirdi. Onun yaxınlığında, Milyutinskaya küçəsində (T.Əlyarbəyov) Musa Nağıyev tərəfindən "Novo-Evropa" adlı yeni üçmərtəbəli mehmanxana tikildikdən sonra, "Staro-Evropa" adlandırılmışdır. Hazırda – yaşayış evi. Üstü yenidən ti-

kilmiş "Novo-Evropa" – "Göy-göl" mehmanxanasının binasında "Luk-oyl" Rusiya neft şirkətinin Bakı nümayəndəliyi yerləşir.

[74]**İngilis qoşunlarının qərargahı** nəzərdə tutulur. 1918-ci il avqustun əvvəllərində Sentrokaspi Diktaturası hökumətinin dəvəti ilə Şimalı İranda Britaniya qoşunlarının komandiri general-mayor Denstervilin rəhbərliyi altında Bakıya gəlmişdir. Bu qoşunlar Türk-Azərbaycan hərbi qüvvələrinə qarşı Bakının müdafiə olunmasında hökumətə kömək etməli idi. 1918-ci il sentyabrın 14-də Bakının azad edilməsi ərəfəsində cəbhə xəttini tərk edərək İrana qayıtmışlar.

[75]**Mirbax Vilgelm** – (1871-1918), qraf, alman diplomatı. 1915-1917-ci illərdə Afinada alman səfiri. Brest-Litovskda Sovet Rusiyası ilə danışıqlarda iştirak etmişdir. Brest sülhü imzalandıqdan sonra, 1918-ci ilin aprelindən - Moskvada alman səfiri. 1918-ci il 6 iyulda sol "eserlər" tərəfindən – bu yolla Almaniya ilə Sovet Rusiyası arasında silahlı münaqişə yaratmaq məqsədi ilə - öldürülmüşdür. FTK sənədləri arasında Mirbaxın qatillərinin ermənilər olduğuna dair şəhadət vardır.

[76]**"Bibiheybət"** – şiə müsəlmanların möhtəşəm ziyarətgahı – qədim Bibiheybət məscidi. Xəlifələrin təqibindən qaçan Yeddinci imam - Musa Kazımın qızı Həzrəti Həkimə xanımın sərdabəsi üzərində tikilmişdir. Müqəddəs qəbirlərin sayına görə - burada Məhəmməd Peyğəmbərin nəslinin dörd nümayəndəsi dəfn olunmuşdur – islam dünyasında bənzər ziyarətgahlar arasında üçüncü yeri tutur. Məscidin VIII əsrin sonlarına aid olan ilkin tikilisi qalmamışdır. Keçən əsrlər ərzində məscid-kompleks Səfəvi hakimləri, Şirvanşahlar tərəfindən bir neçə dəfə bərpa edilmişdir. XX əsrin əvvəllərində Bakı xeyriyyəçisi Dadaşovun vəsaiti ilə sərdabədən şimalda yeni məscid binası tikilmiş, sərdabə və köhnə məscid yenidən qurulmuşdur. 1936-cı ilin sentyabr ayında Sovet hakimiyyətinin dinə qarşı apardığı kampaniyanın gedişində Bibiheybət məscidi partladılmışdır. 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamı ilə məscidin yenidən tikilməsinə başlanmışdır. 14 iyul 2008-ci il tarixdə "Bibiheybət" kompleksinin açılışı olmuşdur.

[77]**«Rekord"** – kinoteatr, Bolşaya Morskaya (Bülbül pr.) küçəsi, Birjevaya meydanında (Sahil) yerləşirdi. 1912-ci ildə dairəvi formada taxtadan tikilmiş bina əvvəlcə sirk üçün nəzərdə tutulmuş, 1914-cü ildə yenidənqurma işlərindən sonra 2000 nəfər tamaşaçı tutumu olan kinoteatra çevrilmişdi. Mart hadisələri günlərində kinoteatrın binasına əsir götürülmüş azərbaycanlılar gətirilirdi. Erməni əsgərlərinin binanı, içərisindəki insanlarla

birlikdə yandırmaq cəhdinin qarşısı qırmızı qvardiyaçılar, rus əsgərləri tərəfindən alınmışdır. Kinoteatrın binası 1923-cü ildə, yerləşdiyi keçmiş Birjevaya meydanının (1917-ci ildən "Hürriyyət" meydanı, 1920-ci ilin sentyabr ayında Aşqabaddan Bakıya gətirilmiş komissarların cəsədlərinin dəfnindən sonra 26 Bakı Komissarı meydanı) genişləndirilməsi və yenidən qurulması ilə əlaqədar sökülmüşdür.

[78]**"İsgəndəriyyə"** – mehmanxana, Bazarnaya və Kolyubakinskaya küçələrinin kəsişməsində (Azərbaycan, N.Rəfibəyli) yerləşirdi, Hacı Məmməd Sadıq Zərbəliyevə məxsus idi, "müsəlman" mehmanxanası sayılırdı. 1918-ci il mart hadisələri günlərində bütünlüklə yandırılmışdır. Hazırda bu binanın yerində çoxmərtəbəli yaşayış binası yerləşir.

[79]**"İslamiyyə"** – mehmanxana, Bazarnaya küçəsində, Quberniya və Poçtovaya küçələrinin kəsişməsində (Azərbaycan, Nizami, S.Tağızadə) yerləşirdi. 1884-1885-ci illərdə mülki mühəndis N.P.Tverdoxlebov və A.S.Kandinov tərəfindən tikilmişdir. Hacı Mustafa Rəsulova məxsus idi, "müsəlman" mehmanxanası sayılırdı. 1918-ci il mart hadisələri günlərində bütünlüklə yandırılmışdır. Hazırda bu binada mənzillər, ticarət obyektləri yerləşir.

[80]**"Hacınski-Çələkən"** – aksioner cəmiyyəti, tanınmış Bakı sənayeçisi və xeyriyyəçi İsa bəy Hacınskiyə (1861-1919), məxsus idi. Bakı şəhər Dumasının və Bakı qradonaçalnikliyində Barışdırıcı komissiyanın üzvü, Bakı birjasında arbitraj komissiyasının üzvü, fəxri barışdırıcı hakim İ.b.Hacınski bir neçə neft sənayesi və ticarət firmalarının və kompaniyalarının, Abşeronda və Çələkən yarım-adasında (Zakaspi vilayəti) neft mədənlərinin, kerosin zavodu, balıq vətəgələri və s. mülkiyyətçisi idi. "Hacınski-Çələkən neft kompaniyası"na 1.25 milyon funt-sterlinq ingilis kapitalı mənsub idi.

[81]**Yeni gömrük** – yeni, ikinci Bakı gömrükxanasının binası 1-ci Çernoqorodskaya və 2-ci Zavodskaya (Y.Səfərov – F.Qəmbərov) küçələrinin tinində yerləşirdi. Köhnə gömrükxana – Naberejnaya II Aleksandra (Neftçilər prospekti), 47 ünvanda idi. Mart qırğınlarından sonra yaxın küçələrdən meyitlər bu binanın həyətinə yığılmışdı və öz doğmalarını axtaran insanlar oraya gəlirdilər.

[82]**"Vulkan"** – mexaniki çuqun-mis tökmə zavodu, Çornıy Qorodda (Qara şəhər), 10-cu Zavodskaya (Ələddin Quliyev) küçəsi 10-da yerləşirdi. Mart hadisələrindən sonra erməni silahlı dəstələri tərəfindən vəhşicəsinə öldürülmüş minlərlə insanın meyitləri bu zavodun həyətinə yığılmışdı. Onların çoxunu tanımaq mümkün deyildi. Öz doğmalarını axtaran insanlar buraya gəlirdilər.

[83]**“Bahi”** – minarəsiz məscid, yaxud ibadət evi. XIX əsrin ikinci yarısında İranda yaranmış “bəhailik” dini təliminin tərəfdarlarına mənsub idi. Bu təlimin banisi – Bəhaulla kimi tanınan Mirzə Hüseyn Əli, müqəddəs kitabı – “Kitab-e Əqdəs” olmuşdur. Məscid-mədrəsə bəhailərin, o cümlədən Bakı neft sənayeçisi Musa Nağıyevin vəsaitinə tikilmiş, Çadrovaya küçəsi (Mirzağa Əliyev) 216 saylı kiçik bir evdə yerləşirdi. Küçə tərəfdən evin baş qapısı üzərində fikrə dalmış nurani bir qocanın - bir növ Şeyx Bəhaullanın qorelyefi həkk edilmişdi. Sənəddə göstərilən ərazidə - “Poxlı Dərə”də bu adda məscid olmamışdır. Güman etmək olar ki, söhbət ibadət evindən gedir.

[84]**“Neft” – Ruskoye Tovarişestvo – Rus Birliyi** - şirkət, 1883-cü ildə təşkil olunmuş, fəaliyyətə nəqliyyat və ticarət müəssisəsi kimi başlamış, sonralar Bakı mədən rayonunda mədənlər və zavodlar almış, neft hasilatı və emalı ilə məşğul olmuşdur. Bakının Sabunçu, Suraxanı kəndlərində, həmçinin Qroznı, Fərqanə və Uxtada mədənləri var idi, baş idarəsi Peterburqda yerləşirdi. Azərbaycan İnqilab Komitəsinin dekreti ilə 27 may 1920-ci il tarixdə milliləşdirilmişdir.

[85]**Hürriyyət meydanı** – 1918-ci ildə Birjevaya meydanı adlanırdı, hazırda Sahil bağı.

[86]**Mixaylovskaya xəstəxanası** – Balaxanskaya küçəsində, Tatarskaya küçəsinin tini, (Füzuli, Əlimərdan bəy Topçubaşov) yerləşirdi. Bakıda ən qədim tibb müəssisəsi, müqəddəs Nina məktəbi Nikolayevskaya küçəsindəki yeni binaya köçdükdən sonra, onun binasını tutmuşdu. Xəstəxananın geniş ərazisində müxtəlif vaxtlarda (1881-1913) N.A. fon der Nonne, İ.V.Qoslavski, Zivər bəy Əhmədbəyovun layihələri əsasında ayrı-ayrı korpuslar tikilmişdir. Hazırda – binada doğum evi yerləşir. 1918-ci il mart qırğınları qurtardıqdan sonra ətraf ərazilərdə öldürülmüş müsəlmanların meyitlərini xəstəxananın həyətinə yığmışlar, qohumları öz yaxınlarının cəsədlərini burada axtarırdılar.

[87]**Tağıyev pasajı** – H.Z. Tağıyevə mənsub ticarət müəssisəsi, Velikoknyajeskaya – Olqinskaya (M.Ə.Rəsulzadə) küçəsində, Merkuryevskaya və Baratinskaya (Z.Əliyeva, Ə.Əlizadə) küçələrinin tinində 4 saylı binada yerləşirdi. 1896-1898-ci illərdə mülki mühəndis K.B.Skureviç tərəfindən tikilmişdir. Sovet dövründə - Bakı univermağı, hazırda – mağazalar şəbəkəsi. Pasajla üzbəüz Velikoknyajeskaya – Olqinskaya küçəsində yerləşən və 1912-ci ildə mülki mühəndis K.A.Borisoqlebski tərəfindən tikilmiş “Olqinskaya cərgələri”ndə ticarət-məişət obyektləri, restoranlar və s. yerləşirdi. Sovet dövründə və hazırda bu binada Xəzər Gəmiçiliyi idarəsi yerləşir.

[88]**Şəhər Nəqliyyatı müəssisəsi (Qorodskoy oboz)** – 5-ci və 6-cı Kanitapinskaya küçələrinin arasında, Tatyaninskaya küçəsinin tinində (V.Plotnikov, Y.Tağızadə, S. Hacıbəyli) yerləşirdi.

[89]**Müqəddəs Nina məktəbi** – Bakıda qadın təhsil müəssisəsi. Nikolayevskaya küçəsi, (İstiqlaliyyət) 33 ünvanlı binada yerləşirdi. Keçmiş xəstəxana binası, 1880-cı ildə mülki mühəndis D.Buynov tərəfindən yenidən qurulmuş, bir neçə korpus birləşdirilərək Müqəddəs Nina təhsil müəssisəsi üçün yararlı edilmişdir. Hazırda - 132 və 134 saylı orta ümumtəhsil məktəblərinin binası.

[90]**Biçeraxovun dəstəsi** - Birinci Dünya müharibəsində çar Rusiyasının İran ərazisində apardığı hərbi əməliyyatlarda iştirak edən kazak dəstəsi. Oktyabr çevrilişindən sonra buraxılmışdır. İrandakı ingilis hərbi qüvvələrinin komandanlığı polkovnik L.Biçeraxovun (osetin kazaklarından) başçılıq etdiyi 1500 nəfərlik kazak dəstəsini öz tərəfinə çəkmişdir. İngilis generalı Denstervilin gizli tapşırığını yerinə yetirən Biçeraxovun dəstəsi Bakı Xalq Komissarlar Sovetindən türk qoşunlarına qarşı birgə əməliyyat aparmaq üçün razılıq alaraq, 1918-ci il 5 iyulun 5-də Ələt stansiyası yaxınlığında Xəzər sahilinə çıxmışdır. Ermənilərdən ibarət Qırmızı Ordu tərəfindən hərbi yardım almayan Biçeraxovun dəstəsi, məğlubiyyətə uğramaq təhlükəsi qarşısında iyulun 30-da ona tapşırılmış cəbhə xəttini tərk etmiş və Dağıstanda antisovet qoşunları ilə birləşmək üçün Port-Petrovsk (Mahaçqala) istiqamətinə yönəlmişdir. General Biçeraxovu həmin qərarın qəbuluna sövq edən səbəblərdən biri də Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarlar Soveti ilə əlaqələrinin həddindən artıq pozulması idi. İngilis generalı Denstervilin şəhadətinə görə "Bakıda onun hərəkətlərini məkrli hesab edir, özünü isə xain adlandırırdılar; ancaq biz özümüz də bu insanların hansı qəbildən olduğunu yalnız sonralar anladıq və qoşunlarımızı faydasız qurban getməkdən xilas etmək üçün Bakını tərk etməyə məcbur olduq". 1918-ci il noyabrın 17-də Biçeraxovun hərbi dəstəsi ingilis qoşunları ilə birgə yenidən Bakıya daxil olmuşdur. Bu dəfə onun hərbi qüvvəsinin əksəriyyəti Bakı azad edildikdən sonra şəhərdən qaçmış ermənilərdən ibarət idi. Dəstə ilə birlikdə Bakı, Şamaxı və Petrovskda müsəlman qırğınlarının bəzi təşkilatçıları da Bakıya qayıtmışlar. Nəzarətsiz dəstə Bakı və ətraf kəndlərin sakinlərinə qarşı öz azğınlığı və qəddarlığı ilə fərqlənmiş, hətta Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzlərini də təhqir etmək hallarına yol vermişdir. Denikinin Könüllü ordusu komandanlığına tabe olan Biçeraxovun dəstəsinin Bakıda qalmasında maraqlı olmayan ingilis ko-

mandanlığı, Biçeraxovun dəstəsinin və erməni hərbi hissələrinin tərksilah olunması və şəhərdən çıxarılması haqqında AXC Hökumətinin notasını dəstəkləmişdir. L. Biçeraxov təltif olunmaq adı ilə Londona dəvət edilmiş, onu əvəz edən general Erdeliyə isə 1919-cu il fevralın 28-də öz qoşunlarını 24 saat ərzində Azərbaycan ərazisindən çıxarmaq haqqında ultimatum verilmişdir. Ultimatum dərhal yerinə yetirilmişdir.

[91]**Şaxsey- vaxsey** - Kərbəla döyüşündə (680-ci il) dördüncü xəlifə Əlinin oğlu İmam Hüseynin öldürülməsi münasibətilə şiə müsəlmanların məşhur dini matəm ayini (qəməri təqviminin birinci ayı – məhərrəmin ilk on günü keçirilir). Şaxsey-vaxsey ayini Əli və Hüseynin həyatından bəhs edən və Kərbəla qırğınları təsvir olunan şəbihlər və "Şah Hüseyn, Vay-Hüseyn" qışqırıqları ilə özünə işgəncə verməklə Hüseynin dəfnini təqlid edən mərasimlə müşayiət olunur.

[92]**Yefimov qardaşlarının sirki** - taxta bina, Birjevaya küçəsində (Üzeyir Hacıbəyov) yerləşirdi. 1920-ci illərin sonlarında sökülmüşdür. Hazırda həmin yerdə Rabitə Nazirliyinin binası yerləşir.

[93]**Vəzirov Mir Həsən Seyid Kazım oğlu** - (1889-1918), siyasi xadim, sol eser. 1917-ci ildən bolşeviklərlə əməkdaşlıq etmişdir. Müsəlman ictimai təşkilatları İcraiyyə Komitəsinin katibi (1917-ci il 14 iyuldan), Bakı Sovetinin yeni İcraiyyə Komitəsinin üzvü (1917-ci ilin noyabrından), Bakı qəzası kəndli deputatların I qurultayının İcraiyyə Komitəsi sədrinin müavini (may 1918). Bakı Xalq Komissarları Sovetinin tərkibində torpaq komissarı kimi torpaq haqqında dekreti imzalamışdır. 1918-ci il 20 sentyabr tarixində 26 Bakı komissarları sırasında Zakaspi eser hökuməti tərəfindən güllələnmişdir.

[94]**Mahmudbəyov Həbib bəy Hacı İbrahimxəlil oğlu** – (1864 - 1928), tanınmış maarifçi, pedaqoq, Bakı şəhər Dumasının üzvü. Sultan Məcid Qənizadə ilə birlikdə Bakıda 1887-ci ildə rus-tatar məktəbinin yaradıcılarından biri, İçəri şəhərdə (Qalada) ilk rus-tatar məktəbinin direktoru, 1905-1916-cı illərdə 2-ci dərəcəli Bakı şəhər məktəbinin direktoru. Bakı şəhər Dumasında məktəblər komissiyasının üzvü, Azərbaycan müəllimlərinin I qurultayının nümayəndəsi. 1916-cı ildən pedaqoji fəaliyyətdən uzaqlaşmışdır. Sovet hakimiyyətinin ilk illərində (1921-1927) Ali pedaqoji institutun direktor müavini işləmişdir. 1928-ci ildə Bakıda vəfat etmişdir. 1918-ci il Bakıda mart hadisələri günlərində onun evi ermənilər tərəfindən qarət olunmuşdur, qızı FTK-na ifadə vermişdir.

[95]**Bakı Neft Sənayeçiləri Qurultayı Şurası** - Bakı neft sənayeçiləri qurultayının daimi icra orqanı, Rusiya burjuaziyasının 1884-cü ildə Bakıda

yaradılmış ilk sahibkar təşkilatlarından biri. Həmin il Bakıda keçirilmiş Bakı neft sənayeçilərinin I qurultayında yaranmışdır. Hər il çağırılan qurultayların məqsədi bütövlükdə Bakı neft sənayeçilərinin geniş maraq dairəsinə daxil olan məsələlərin müzakirəsi və neft sənayeçilərinin mənafeyinin hökumət orqanları qarşısında müdafiə edilməsi idi. Əvvəllər Şura neft istehsalçılarının geniş dairəsinin maraqlarını əks etdirmişdir. Lakin tezliklə senz sisteminin (hüquqi məhdudiyyətlər) tətbiqi nəticəsində qurultaylarda və onların orqanlarında rəhbər mövqelər iri firmalara keçmişdir. Uzun illər ərzində (1890-cı ildən başlayaraq) Şuraya ermənilər, o cümlədən P.O. və A.O.Qukasov qardaşları rəhbərlik etmişlər. 1918-ci ildə Bakı Xalq Komissarları Soveti onun fəaliyyətini nəzarətə götürmüşdür. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 27 may tarixli fərmanı ilə ləğv edilmişdir.

[96]**Tatarlar** – azərbaycanlılar nəzərdə tutulur. Çar Rusiyası hakimiyyəti dövründə azərbaycanlıları belə adlandırırdılar.

[97]**Aleksandr-Nevski kilsəsi** - pravoslav kilsə, 1888-1898-ci illərdə Persidskaya küçəsində (M.Muxtarov ) memarlıq üzrə akademik R.R. Marfeldin layihəsi (Novoafon kilsəsinin surəti) əsasında, mülki mühəndis İ.V. Qoslavski tərəfindən inşa edilmişdir. 1888-ci ildə Bakıda kilsənin təməl qoyma mərasimində Rusiya imperatoru III Aleksandr iştirak etmişdir. Kilsə 1920-ci illərin sonlarında Sovet hökumətinin dinə qarşı mübarizə kampaniyasının gedişində partladılmış, onun bünövrəsində 1950-ci illərdə bir neçə məktəb binaları tikilmişdir. Hazırda həmin binalarda 189, 190 nömrəli və Bülbül adına məktəblər yerləşir.

[98]**Topçubaşov Əlimərdan bəy Ələkbər bəy oğlu**- (1863-1934), görkəmli ictimai, siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. AXC parlamentinin sədri (1918-ci il 7 dekabr - 1920-ci il 28 aprel). "Kaspi" qəzetinin baş redaktoru, Bakı şəhər Dumasının üzvü, Rusiya imperiyasının müsəlman liderlərindən biri, Rusiya imperiyasının müsəlman qurultaylarının təşkilatçısı və fəal iştirakçısı, Bakı Quberniyasından I Dövlət Dumasının deputatı. AXC dövründə yerinə yetirdiyi vəzifələr: hökumət kabinəsi tərkibində əvvəlcə portfelsiz nazir, 1918-ci il avqustun 20-dən xarici işlər naziri. Avqustun 23-dən AXC-nin fövqəladə səfiri və səlahiyyətli naziri kimi İstanbula ezam olunmuşdur. 1918-ci il dekabrın 7-də qiyabi olaraq Azərbaycan Parlamentinin sədri seçilmişdir. 1918-ci ilin dekabrın 28-də Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinin sədri təyin olunmuşdur. 1919-cu il mayın 28-də AXC-nin yaranmasının birinci ildönümü günü ABŞ prezidenti Vudro Vilsona Memorandum və Cə-

nubi Qafqazda ilk demokratik müsəlman dövləti haqqında materialları, o cümlədən Fövqəladə Təhqiqat Komissiyasının sənədlərini təqdim etmişdir. 1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Parisdə mühacirətdə qalmış, Azərbaycan mühacirətinin siyasi həyatında fəal iştirak etmişdir. 1934-cü ildə Parisdə vəfat etmişdir. Mart hadisələri zamanı erməni əsgərləri tərəfindən həbs olunmuşdur.

[99]**Mamona** - bəzi qədim xalqlarda sərvət, dövlət allahı, tamahkarlıq, acgözlük mənasında da işlədilir.

[100]**Larionovun xəstəxanası** – doktor P.A.Larionovun cərrahlıq və qadın xəstəxanası, Bazarnaya və Qubernskaya küçələrində (Azərbaycan və Nizami) yerləşən tibbi müəssisə. Bakının keçmiş İctimai Şəhər rəisi, andlı iclasçı Y.N.Smirnovun xanımına məxsus idi. Hazırda – stomatoloji klinika.

[101]**Korqanov (Korqanyan) Qriqori Nikonoviç** – (1886-1918), bolşevik xadimi. 1917-ci il fevral inqilabından sonra Qafqaz inqilabi ordu təşkilatlarının yaradılmasında fəal iştirak etmişdir. 1918-ci il martın 30-dan 31-nə keçən gecə azərbaycanlılara qarşı hərbi əməliyyatlara rəhbərlik etmək üçün "Bakı və onun rayonlarında ali hərbi-siyasi orqan" adı ilə yaradılmış "İnqilabi Müdafiə Komitəsi"nə daxil idi. Bakıda 1918-ci ilin mart hadisələri günlərində dinc azərbaycanlı əhalisinə qarşı şəhərin müsəlman hissələrində hərbi əməliyyatlar aparan Qızıl Ordunun bolşevik-daşnak briqadalarının hərbi əməliyyatlarına başçılıq etmişdir. 1918-ci ilin aprelindən Bakı Xalq Komissarları Sovetində hərbi-donanma işləri üzrə xalq komissarı. Şaumyanla birlikdə Amazaspın cəza dəstələrinin Quba qəzasına göndərilməsi haqqında qərar qəbul etmişdir. Bakının azad olunması uğrunda gedən döyüşlərdə Türk-Azərbaycan silahlı qüvvələrinə qarşı hərbi əməliyyatların təşkilatçılarından biri olmuşdur. 1918-ci il sentyabrın 20-də 26 Bakı Komissarları sırasında Zakaspi eser hökuməti tərəfindən güllələnmişdir.

[102]**Əhmədov Əsədulla** – (?-?), tanınmış ictimai-siyasi xadim, Bakı şəhər Dumasının üzvü. Bakı müsəlman xeyriyyə cəmiyyəti idarə heyətinin üzvü, "Nəşri-maarif" müsəlman maarifçilik cəmiyyətinin təsisçilərindən biri. Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi Komissiyanın üzvü. Azərbaycan Xalq Cümhuriyyəti dövründə AXC Parlamentinin deputatı. Bitərəflər fraksiyasına daxil idi, bu fraksiyada baş vermiş parçalanmadan sonra "Müsavat" fraksiyasına keçmişdir.

[103]**Kojemyako D.İ.** – ( ? - ? ), bolşevik, RSDFP üzvü, peşəsi üzrə çilingər, bir sinifli xalq məktəbini bitirmişdir. Partiya tapşırığı ilə həmkarlar ittifaqlarında, həmçinin istintaq orqanları, hərbi tribunallar, əmək məhkəmələ-

rində müstəntiq işləmişdir. 1918-ci ildə Bakıda bolşevik hakimiyyətinin Bakı və Şamaxı hadisələrindən sonra, əsasən müsəlman əhalisini, xüsusilə Bakıya və Azərbaycanın digər qəzalarına axışmış minlərlə Şamaxı qaçqınlarını sakitləşdirmək məqsədilə yaratdığı Fövqəladə Hərbi Təhqiqat Komissiyasının (FHTK) sədri təyin edilmişdir. Komissiya Stepan Lalayev başda olmaqla erməni hərbi hissələrinin Şamaxının dinc müsəlman əhalisinə qarşı törətdikləri amansız vəhşilikləri, o cümlədən içi qadın və uşaqlarla dolu Şamaxı məscidinin tamamilə yandırılması faktlarını araşdırmalı idi. Komissiyaya daxil olan, o cümlədən Şamaxının rus keşişindən alınmış sənəd-şəhadətlər əsasında Kojemyako istintaq apararaq S.Lalayevi həbs etmişdir. Lalayev elə kabinetdən S.Şaumyana zəng etmiş, Kojemyakonu telefona çağıran Şaumyan onu "bu nə oyunlardır, Lalayevi həbs etmək ayıbdır" deyə məzəmmət etmişdir. S.Lalayev azadlığa buraxılmış, bir neçə gündən sonra FHTK ləğv edilmişdir. Sovet dövrü Kojemyako yenidən Ədliyyə Xalq Komissarlığı (ƏXK) orqanlarında işə göndərilmişdir. Hüquq kurslarında dərs demiş, Sovet Ticarət İşçiləri İttifaqında hüquq məsləhətçisi işləmişdir. 1926-cı ildə ƏXK-da qanunvericilik şöbəsinə hüquq məsləhətçisi təyin edilmişdir. 1927-ci ilin yanvarında bu sahədə zəruri nəzəri və praktiki biliklərə malik olmadığını əsas gətirərək işləməkdən imtina etmişdir: "Mənim ƏXK-na öz iradəmlə deyil, partiya tərəfindən göndərildiyim üçün... hesab edirəm ki, mən kommunist kimi partiya qarşısında bütün öhdəliklərimi yerinə yetirmişəm və mənim ƏXK-da bundan sonrakı fəaliyyətim onun büdcəsi üçün artıq xərcdir. Məvacib alıb, heç bir fayda gətirməməyi isə mən namuslu kommunist kimi bacarmıram..." Lakin, ƏXK Az.KP MK-nın razılığı olmadan Kojemyakonun işdən azad olunmaq barədə xahişini yerinə yetirməmiş, onun özbaşına işə gəlməməyi isə partiya intizamının pozulması kimi qiymətləndirilmişdir. Kojemyakonun Bakı şəhəri üzrə Xalq hakimi vəzifəsinə keçirilməsi məsələsi - bu orqanda "bir nəfər də partiya üzvünün olmadığı" nəzərə alınmaqla – müzakirə olunmuşdur. Sonrakı taleyi məlum deyildir.

[104]**Heydərov İbrahim Qasım bəy oğlu** – (1879 - ?), yol mühəndisi, Dağıstandan və Zaqatala dairəsindən III Dövlət Dumasının deputatı, sosial-demokrat fraksiyasına daxil idi, sonra müsəlman fraksiyasına keçmişdir. Bakı şəhər idarəsinin üzvü. 1907-ci ildən "Nəşri-maarif" müsəlman maarifçilik cəmiyyətinin idarə heyətinin üzvü. 1914-cü ilin yanvarından "Səfa" müsəlman xeyriyyə cəmiyyəti idarə heyətinin üzvü, 1916-cı ilin martından "Nicat" müsəlman xeyriyyə cəmiyyətinin sədr müavini. Qafqaz müsəl-

manları qurultayında (1917, 15-20 aprel) rəyasət heyətinin üzvü seçilmişdir. 1917-ci ildə Xüsusi Zaqafqaziya Komitəsi tərəfindən Dağıstan vilayətində Müvəqqəti hökumətin komissarı təyin edilmişdir. Zaqafqaziya Seymində sosialistlər blokuna daxil idi, 1918-ci il aprelin 26-da yaradılmış Zaqafqaziya Demokratik Federativ Respublikası hökumətində dövlət nəzarəti naziri postunu tutmuşdur. Bakıda mart hadisələri ilə əlaqədar, 1918-ci il aprelin 20-də Zaqafqaziya Seymi tərəfindən Bakı Soveti ilə danışıqlar aparmaq üçün Bakıya ezam olunmuş, burada bolşeviklər tərəfindən həbs edilmişdir. Şimali Qafqaz Dağlı Respublikasında poçt-teleqraf naziri. Paris Sülh Konfransına danışıqlara göndərilən nümayəndə heyətinə daxil idi. Dağlı Respublikası hökuməti dağıldıqdan sonra Bakıya qayıtmış, AXC-nin ictimai-siyasi həyatında fəal iştirak etmiş, xeyriyyə işləri ilə məşğul olmuşdur. 1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Fransaya mühacirət etmişdir.

[105]**Fövqəladə Hərbi Təhqiqat Komissiyası** – nəzərdə tutulur. Bolşevik hökuməti tərəfindən 1918-ci ildə əsasən Şamaxı hadisələrini təhqiq etmək üçün yaradılmışdır. 1918-ci ilin mart-aprel aylarında şəhərin və qəzanın müsəlman əhalisinə qarşı görünməmiş vəhşiliklər törədilmiş, Şamaxı şəhəri isə tamamilə yandırılmışdır. FHTK sədri D.İ.Kojemyako tərəfindən Şamaxı qırğınlarının əsas təşkilatçılarından biri Stepan Lalayev həbs edilmiş, lakin S.Şaumyanın şəxsi müdaxiləsindən sonra azadlığa buraxılmışdır. Bu hadisədən az sonra FHTK ləğv edilmişdir. Bakılıların şikayətinə görə saxlanılmış digər ermənilər də azadlığa buraxılmışlar. Ətraflı bax: Kojemyako D.İ.

[106]**Fövqəladə Hərbi Təhqiqat Komissiyası** – nəzərdə tutulur.

[107]**Rus-tatar məktəbi (rus-müsəlman məktəbi)** – XIX əsrin ikinci yarısında rus ictimai-pedaqoji fikrinin və mütərəqqi məktəb təcrübəsinin təsiri ilə Azərbaycanda yaradılan xüsusi məktəb növü. İlk məktəblər 1875-ci ildə Qazax qəzası, Salahlı kəndində, 1887-ci ildə isə Bakıda açılmışdır. Sonradan bütün Azərbaycanda yayılmış bu məktəblərin yaradılması və inkişafı müəllimlər Həbib bəy Mahmudbəyov və Sultan Məcid Qənizadənin adı ilə bağlıdır. Əvvəlcə 1 sinifli (tədris müddəti -2 il), sonra ikisinifli (təhsil müddəti - 4 il) olan məktəblərdə azərbaycanlı şagirdlər ana dilində təhsil alır, Azərbaycan, fars və rus dilləri, hesab, coğrafiya, tarix və şəriət tədris edilirdi. Oğlanlar və qızlar ayrı oxuyurdular.

[108]**Şah məscidi** - şəhərin tarixi hissəsi olan İçəri şəhər Qalasında Şirvanşahlar sarayının ansamblına daxildir (XV-XVI əsrlər). Mart hadisələri

zamanı məscidin minarəsi artilleriya mərmilərindən zədələnmişdir.

[109]**"Şərq cəmiyyəti"** – "Vostoçnoye obşestvo", əmtəə anbarlarının, əmtəə mallarının borca verilməklə sığortalanması, daşınması cəmiyyəti, 1893-cü ildə yaradılmışdır, malların saxlanması üçün anbarları vardı, Rusiyaya və xaricə dəmiryolu, su və maşın yolları vasitəslə malların daşınması, neft məhsullarının satışı, borc verilməsi ilə məşğul olmuş, malların alış-verişi üzrə komisyon tapşırıqlarını yerinə yetirmişdir. İdarəsi Peterburqda, kontoru Bakıda yerləşirdi. 1917-ci ilin yanvar ayından "Qafqaz və Merkuri" cəmiyyəti ilə birləşmişdir. 1920-ci ilin may ayında Sovet hökuməti tərəfindən ləğv edilmişdir.

[110]**Qafqaz və Merkuri** - gəmiçilik cəmiyyəti, 1859-cu ildə Xəzər dənizində və Volqa, Oka, Kama çaylarında yük və sərnişin daşınması məqsədilə təsis edilmişdir. İdarəsi Peterburqda, kontoru Bakıda yerləşirdi. Cəmiyyət 1917-ci ilin yanvar ayının 1-dən "Əmtəə anbarlarının Şərq cəmiyyəti" ilə birləşmişdir. 1920-ci ilin may ayında Sovet hökuməti tərəfindən ləğv edilmişdir.

[111]**Srvantsyan Amazasp** – (1873-1921), rus ordusunun keçmiş zabiti, "Daşnaksütun" partiyasının üzvü, qatı millətçi, terrorçu. Osmanlı İmperiyası Van şəhərində anadan olmuşdur. Gənc yaşlarından erməni millətçi-terror hərəkatında iştirak etmiş, Türkiyə hakimiyyətinin təqiblərindən qorxaraq İrəvana, sonra isə Şuşa şəhərinə getmişdir. 1905-1907-ci illərdə türk və azərbaycanlı əhalisinə qarşı törətdiyi çoxsaylı qanlı təcavüzkar əməlləri ilə tanınmışdır. 1908-ci ildə digər daşnak xadimlərlə birlikdə çar hökuməti tərəfindən həbs edilmiş və 15 il müddətinə Sibirə sürgün edilmişdir. 1913-cü ildə oradan qaçmağa müvəffəq olmuş, əvvəl Avropaya, 1914-cü ildə Konstantinopola getmişdir. Birinci Dünya müharibəsi zamanı 3-cü erməni könüllü drujinasının komandiri olmuş, 1915-ci ildə Van, Bitlis və Xizən döyüşlərində iştirak etmiş, yeli türk əhalisinə qarşı qırğınlar törətmişdir. 1917-ci ilin fevralında Rusiyada, Alaşkert rayonunda polis dəstələrinin başçısı təyin edilmişdir. 1918-ci ilin əvvəlində Bakıya gəlmiş, burada erməni hərbi birləşmələrinə başçılıq etmişdir. Bakıda Erməni Milli Şurasının üzvü olmuşdur. Qızıl Ordunun 3-cü briqadasının komandiri kimi 1918-ci il mart-sentyabr aylarında Bakıda və Azərbaycanın regionlarında erməni silahlı dəstələrinin dinc müsəlman əhaliyə qarşı hücumlarına rəhbərlik etmişdir. 1918-ci il may ayının əvvəllərində Quba qəzasında müsəlman qırğınları törətmişdir. Xüsusi qəddarlığı ilə ad çıxarmışdır. Başçılıq etdiyi silahlı dəstəni "cəza dəstəsi", özünü erməni xalqının qəhrəmanı və onun

maraqlarının müdafiəçisi adlandırırdı. Hücuma keçən və 1918-ci ilin sentyabrın 15-də Bakını azad edən Qafqaz İslam Ordusu və azərbaycanlıların hərbi hissələri qarşısında cəbhəni tərk etmiş, əsgərlərini başsız qoyaraq İrana qaçmışdır. Birinci Dünya müharibəsi başa çatdıqdan sonra Ermənistana qayıtmış, Nor Bəyazid regionunda Ermənistan ordusunun komandiri təyin olunmuşdur. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra həbs edilmiş, 1921-ci ilin fevralında Yerevan həbsxanasında erməni kommunistlər tərəfindən öldürülmüşdür.

[112]**Rus-Asiya Bankı** – Bakı şöbəsi 1910-cu ildə açılmışdır, idarə heyəti Peterburqda yerləşirdi. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 9 iyun tarixli dekreti ilə ləğv edilmişdir. Bankın 1903-1905-ci illərdə tikilmiş binası Qorçakovskaya küçəsi, 3 ünvanda (Hacı Zeynalabdin Tağıyev) yerləşirdi. Hazırda həmin binada Azərbaycan Beynəlxalq Bankının Mərkəzi şöbəsi yerləşir.

[113]**Diktatura dövrü** - 1918-ci il avqust ayının 1-də, Bakıda Sovet hakimiyyətinin süqutundan sonra yaradılmış "Sentrokaspi Diktaturası" – "Mərkəzi Xəzər və Sovetlərin Müvəqqəti İcraiyyə Komitəsinin Diktaturası" adlanan hökumətin hakimiyyətdə olduğu vaxt – 1918 ci il, 1 avqust - 15 sentyabr – nəzərdə tutulur. Partiya mənsubiyyətinə görə bu hökumət daşnaklar, sağ eser və menşeviklərdən, milli mənsubiyyətinə görə erməni və ruslardan ibarət idi. Hərbi qüvvələrini, əsasən Bakı Kommunası dövründə formalaşmış erməni-daşnak dəstələri təşkil edirdi. Bakının müsəlman əhalisinə qarşı son dərəcə kəskin münasibət tutmuş, bu dövr erməni özbaşınalıqları, müsadirə adı ilə talanlar, qarətlər və qətllər davam etmişdir. Diktatura liderləri Azərbaycan və Türkiyə hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləyişinin qarşısını almaq üçün İrandakı ingilis hərbi qüvvələrini Bakıya dəvət etmişlər. 1918-ci il 4 və 17 avqust tarixlərdə Şimali İranda Britaniya qoşunlarının komandanı general Denstervillin rəhbərliyi ilə Bakıya daxil olan ingilis qoşunları, artıq bir aydan sonra "heç bir qüvvənin Bakını türklərdən xilas etmək iqtidarında olmadığına" inanmışlar. Həmin dövr General Denstervillin xatirələrində ətraflı təsvir edilməklə, erməni-rus oyuncaq Diktatura hökuməti və onun əsasən ermənilərdən ibarət ordusu haqqında geniş təsəvvür yaradır. "Öz ordularını mənasız yerə qurban verməkdən xilas etmək xətrinə Bakıdan getmək məcburiyyətində qalan" ingilislər sentyabrın 15-nə keçən gecə ağır döyüşlərdən sonra cəbhə xəttini tərk edərək gəmilərə yüklənmiş və İrana – Ənzəliyə qayıtmışlar. Diktatura hökuməti ingilislərin bu hərəkətini satqınlıq

kimi qiymətləndirmiş, onların gəmilərini atəşə tutmuş, lakin elə həmin gün məğlubiyyətlərini dərk edərək Bakıdan qaçmışdır. 1918-ci il sentyabrın 15-də Bakı şəhəri Qafqaz İslan Ordusu tərəfindən azad edilmişdir.

[114]**Tomson Ser Uilyam Montqomeri** - (1877-1963) nəzərdə tutulur. İngilis zabiti, general-leytenant, 1917-1918-ci illərdə Böyük Britaniya ekspedisiya korpusunun İranda ali komandanı. 1918-ci il noyabrın 17-də Mudros barışıq müqaviləsinə əsasən Bakıya yeridilmiş Müttəfiq qoşunlara başçılıq etmişdir. Qafqazı və Azərbaycanı Rusiyanın (qeyri-bolşevik) bir hissəsi hesab edirdi. Bakıya daxil olduqdan sonra özünü şəhərin general-qubernatoru elan etmiş, Bakı şəhərində və quberniyasında bütün inzibati, məhkəmə və icra hakimiyyətini öz nəzarəti altına almışdır. Şəhərdə hərbi vəziyyət tətbiq olunmuşdur. Generalın Azərbaycan Cümhuriyyətinə olan ilkin mənfi münasibəti, Bakıda siyasi vəziyyətlə və AXC rəhbərliyi ilə tanışlıqdan sonra qısa müddət ərzində dəyişmişdir. 1918-ci il dekabrın 28-də Azərbaycan hökuməti Azərbaycan ərazisində müttəfiq komandanlıq və İngiltərə hökuməti tərəfindən yeganə qanuni hakimiyyət kimi tanınmışdır. 1919-cu ilin mayında Böyük Britaniya hökumətinin ingilis qoşunlarının Qafqazdan çıxarılması haqqında, şəxsən razı olmadığı, qərarına əsasən Azərbaycanı tərk etmişdir.

[115]**Aleksandr-Nevski pasajı** – Aleksandr-Nevski cərgələri – Vrangelskaya küçəsi 19 (Əhməd Cavad) ünvanda yerləşirdi, 1911-1913-cü illərdə mülki mühəndis A.A.Nikitin tərəfindən tikilmişdi. Sovet dövrü bu binada trikotaj fabriki yerləşirdi. Hazırda həmin binanın yerində yaşayış binası tikilmişdir.

[116]**Məmmədzadə Mirzə Bala oğlu** – (1898-1959), Azərbaycan milli azadlıq hərəkatının xadimi, publisist, jurnalist. 1914-cü ildə Bakıda rus-tatar məktəbini bitirmiş, təhsilini Bakı texniki sənaye məktəbində rus dilində davam etdirmişdir. Dövri mətbuatda məqalələrlə çıxış etmişdir. Azərbaycanda Xalq Cümhuriyyəti yarandıqdan sonra "Azərbaycan" qəzetinin müxbiri, "Gənclər yurdu" jurnalının (Müsavat Partiyasının "Gənclər cəmiyyəti"nin orqanı) redaktoru, Azərbaycan Parlamentində stenoqrafçı. 1919-cu ilin oktyabr ayından "Müsavat" partiyasının Bakı komitəsinin üzvü. Azərbaycan sovetləşdirildikdən sonra "Musavat"ın gizli təşkilatının rəhbəri. 1920-ci illərdə Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında tərcüməçi, orta məktəblərdə müəllim işləmiş, "Yeni yıldız" jurnalında Azərbaycan tarixi haqqında silsilə məqalələrlə çıxış etmiş, "Azərbaycan türk mətbuatı" (1922) kitabını nəşr etdirmişdir. Sovet orqanları tərəfindən "İstiqlal" qəzetinin giz-

li mətbəəsi aşkar edildikdən sonra həbs edilmiş, lakin azadlığa çıxmışdır. 1924-cü ildə siyasi mühacirət etmişdir. "Yeni Qafqaziyyə"(1923-1927), "Azəri türk" (1925-1929), "Odlu yurd" (1929-1933), "İstiqlal"(1932-1934) və s. mühacirət mətbuatında fəal iştirak etmişdir. 2000-dən artıq məqalənin, bir neçə kitabın, o cümlədən "Milli Azərbaycan hərəkatı" (1938) - əsərinin müəllifidir. 1949-cu ildə Ankarada yaradılmış "Azərbaycan kültür dərnəyinin" təşkilatçılarından biri. M.Ə. Rəsulzadənin vəfatından sonra (1955) "Müsavat" partiyasının və Azərbaycan Milli Mərkəzinin rəhbəri. 1954-1959-cu illərdə Münhendə SSRİ-ni öyrənən İnstitutda müxtəlif vəzifələrdə işləmişdir. Münhendə "Azadlıq" radiosunda çalışmışdır. İstanbulda vəfat etmişdir.

[117]**"Molot"**- 1903-cü ildə təsis olunmuş mexaniki və çuquntökmə zavodları birliyi. Balaxanı, Ramana və Qroznıda mexaniki zavodları var idi. 1920-ci ilin may ayında Sovet hökuməti tərəfindən milliləşdirilmişdir.

[118]**12 aprel** nəzərdə tutulur. Sənəddə bütün tarixlər köhnə təqvimlə - 13 gün fərqlə verilir.

[119]**"Vperyod"**- qəzet, "Daşnaksütun" partiyası Bakı Mərkəzi Komitəsinin orqanı. 1919-cu ilin yanvar - aprel aylarında Bakıda çap olunmuşdur. 41 sayı çıxmışdır.

[120]Tarix düzgün göstərilməyib. Qafqaz müsəlmanlarının qurultayı 1917-ci il, 15-20 aprel tarixdə Bakıda keçirilmişdir.

[121]**Müsəlman dili** - Azərbaycan dili nəzərdə tutulur

[122]Azərbaycan Respublikası Hökumətinin Fövqəladə Təhqiqat Komissiyasının səlahiyyətlərinin artırılmasına dair 21 mart 1919-cu il tarixli qərarı nəzərdə tutulur. Bu qərara əsasən FTK məhkəmə-istintaq hakimiyyətinin cinayət-prosessual məcəlləyə əsasən malik olduğu bütün hüquqlarla təmin edilirdi.

[123]Azərbaycan Respublikası Ədliyyə nazirinin Fövqəladə Təhqiqat Komissiyasının sədrinə 25 iyun 1919-cu il, 3166 № li məktub-təklifi nəzərdə tutulur. Bu məktubda FTK üzvlərinin məruzələri əsasında Qərarların hazırlanması və istintaq aktlarının bu qərarlarla birlikdə sonrakı icraat üçün Azərbaycan Məhkəmə Palatası Prokuroruna göndərilməsi təklif olunurdu.

[124]**Tomson Ser Uilyam Montqomeri** nəzərdə tutulur. Bax: qeyd 113.

[125]**F.P. Kokkerel** nəzərdə tutulur. Polkovnik, 1916-1918-ci illərdə İranda ingilis Xüsusi müstəmləkə polisinin rəisi. İngilis polis hakimiyyəti İrandan İraqadək əraziləri əhatə edirdi. 1918-ci ilin noyabrında Müttəfiq qoşunların tərkibində Bakıya gəlmiş, Bakıda Müttəfiq dövlətlərin polis komissarı təyin edilmişdir.

[126]Qanun ixtisarla verilir - yalnız müvafiq maddələr göstərilir.

[127]**Cəfərov Məmməd Yusif Hacıbala oğlu** – (1885-1938), görkəmli ictimai-siyasi xadim, AXC-nin yaradıcılarından biri, Azərbaycan Parlamenti sədrinin köməkçisi. Bakı kişi gimnaziyasını və Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. IV Dövlət Dumasının deputatı, Rusiyada Fevral inqilabından sonra Müvəqqəti hökumət tərəfindən yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinin üzvü. Qafqaz müsəlmanları qurultayının işində iştirak etmişdir (15-20 aprel 1917-ci il, Bakı şəhəri). Zaqafqaziya Komissarlığında ticarət və sənaye komissarı. Zaqafqaziya Seyminin üzvü, müsəlman fraksiyasına daxil idi. Məmməd Əmin Rəsulzadənin sədrliyi altında Müvəqqəti Milli Şuranın İcraiyyə Komitəsinə daxil olmuşdur. 27 may 1918-ci il tarixdə Azərbaycanın müstəqilliyi haqqında Akt qəbul etmiş Azərbaycan Milli Şurasının üzvlərindən biri. Birinci Azərbaycan Hökumətində ticarət və sənaye naziri, 1918-ci ilin iyununda hökumət istefaya getdikdən sonra Azərbaycanın Gürcüstanda diplomatik nümayəndəsi (iyun 1918-ci il – mart 1919-cu il). Dördüncü Azərbaycan Hökumətində Xarici işlər naziri. 1920-ci ilin fevralından aprel ayınadək Azərbaycan Parlamenti Sədrinin birinci köməkçisi (müavini) olmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra təsərrüfat orqanlarında hüquq məsləhətçisi işləmişdir. 1938-ci ildə Bakı şəhərində vəfat etmişdir.

[128]**Vəkilov Məmməd Ağa Mustafa Ağa oğlu** – (1862-1941), maarifçi, ictimai xadim. Qazax qəzasının Salahlı kəndində anadan olmuş, 1883-cü ildə Qori gimnaziyasını bitirmiş, Kutaisi qəzasında kənd müəllimi, sonra Qori seminariyasında müəllim işləmişdir. Kutaisi hərbi Qubernatorluğunda mülki müşavir rütbəsində, Qafqaz Canişininin dəftərxanasında, hərbi-xalq məsələləri üzrə İdarənin Xüsusi şöbəsində mülki kollec asessoru rütbəsində tərcüməçi işləmişdir. Qafqaz canişini Vorontsovun təşəbbüsü ilə 20 fevral 1906-cı il tarixində keçirilmiş erməni-müsəlman danışıqlarında Qafqaz türk-müsəlman xalqlarının nümayəndə heyətinə daxil idi. 1912-ci ildən Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin sədri olmuş, birinci dünya müharibəsi dövründə müxtəlif tədris müəssisələrində müəllimlik etmişdir. 1918-1920-ci illərdə Azərbaycan Parlamentində dəftərxana müdiri olmuşdur. Sovet hakimiyyətinin ilk illərində qızlar gimnaziyasında dərs vermiş, təqaüdə çıxmışdır. 1941-ci ildə Bakı şəhərində vəfat etmişdir.

# COĞRAFİ ADLARIN GÖSTƏRİCİSİ
## 1. Bakı şəhərinin küçələrinin tarixi və müasir adları (sənədlərdə adları çəkilən)

| 1918-ci il (ulitsa - pereulok) | Sovet dövrü | Hazırda |
|---|---|---|
| Abşeronskaya | Abşeron | Əlibaba Abdullayev |
| Aziatskaya | Petr Montin | Əlövsət Quliyev |
| Azovskiy | Azov döngəsi | Azov döngəsi |
| Armyanskaya | M.Qorki | Aşıq Qurbani<br>Mirzə İbrahimov |
| Aşumovskiy | Sabir dön. | Sabir dön. |
| Bazarnaya | Hüsü Hacıyev | Azərbaycan prospekti |
| Balaxanskaya | Basin | Füzuli |
| Balaxanskoye şosse | Moskva pr. | Heydər Əliyev pr. |
| Baryatinskaya | Fioletov | Akad.Əbdülkərim Əliza-də |
| Bekskiy | Poluxin dön. | Murtuza Muxtarov dön. |
| Birjevaya<br>Lindleya | Azadlıq<br>Üzeyir Hacıbəyov | Üzeyir Hacıbəyov |
| Beqlyarovskaya | Firdovsi | Firdovsi |
| Beloqorodskaya | Fəhlə pr. | Nobel pr. |
| Bondarnaya | Dmitrov | Şəmsi Bədəlbəyli |
| Budaqovskaya (Kaspiyskaya küç. hissəsi) | L. Şmidt | Rəşid Behbudov |
| Nijnyaya Bulvarnaya | A.Bakıxanov | A.Bakıxanov |
| Buxarskaya (İçəri şəhərdə) | Gertsen | Vəli Məmmədov |
| Varvarinskaya | Menjinski | Həqiqət Rzayeva |
| Vasilyevskıy | Qoqol dön. | Qoqol dön. |
| Velikoknyajeskaya<br>Olginskaya | Caparidze | Məhəmməd Əmin Rəsulzadə |

| | | |
|---|---|---|
| Velikoknyajeskiy pr. Aziatskaya | Petr Montin | Əlövsət Quliyev |
| Vladimirskaya | Rosa Lüksemburq | Kövkəb Səfərəliyeva |
| Vlasyevski | 10-cu Qala dön. | 10-cu Qala dön. |
| Vodovoznaya | Şirşov | Almaz İldırım<br>Akad. Həsən Abdullayev |
| Voznesenskaya | Çiçerin | Yusif bəy İbrahimli |
| Vokzalnaya | Puşkin | Puşkin |
| Vorontsovskaya | Əzizbəyov | Gen. Əzizağa Əzizbəyov<br>İslam Səfərli |
| Vrangelskaya | Zinovyev Kaqanoviç<br>Ə.Qarayev | Əhməd Cavad |
| Qadjiqaibovskaya | Qazı Məhəmməd | Qazı Məhəmməd |
| Georgiyevskaya | Papanin<br>Cəlil Məmmədquluzadə | Cəlil Məmmədquluzadə |
| Gimnaziçeskaya | Tolstoy | Tolstoy |
| Глухой | Papanin dön. | Cəlil Məmmədquluzadə dön. |
| Qoqolevskaya<br>(keçmiş Praçeşnaya) | Qoqol | 1.Qoqol<br>2.Mərdanov qardaşları |
| Qonçarovskaya | Malıgin | Hacı Zeynalabdın Tağıyev |
| Qubernskaya | Füzuli-Torqovaya | Nizami |
| Dvortsovaya<br>(İçəri şəhər) | Duxovskoqo<br>Maqomayev | Maqomayev |
| Cuminskaya<br>(İçəri şəhər) | Mirzə Şəfi | Mirzə Şəfi |
| Diviçinskaya | Dəvəçi Sereteli | Cabbar Qaryağdı |
| Doktorskiy | Doktorskiy dön. | Adil Babayev |
| Zavedenskaya | Krasnaya B.Sərdarov | Neftçi Qurban |
| 1-ya Zavodskaya | Y.Qaqarin | Afiyəddin Cəlilov |
| 2- ya Zavodskaya | 2- ci Zavod | Firuz Qəmbərov |
| 3- ya Zavodskaya | 3- cü Zavod | Sabit Orucov |
| 4- ya Zavodskaya | Əsədulla Axundov | Mehdi Mehdizadə |

| | | |
|---|---|---|
| 5- ya Zavodskaya | Telnov | Telnov Xocalı |
| 6- ya Zavodskaya | Süleyman Vəzirov | Süleyman Vəzirov |
| 9- ya Zavodskaya | 9- cu Zavod | Kamandar Əhmədov |
| 10- ya Zavodskaya | 10- cu Zavod | Ələddin Quliyev |
| 1-ya Zavokzalnaya | 1-ci Zavağzal | 1-ci Zavağzal |
| 2- ya Zavokzalnaya | Anaşkin | Ülvi Bünyadzadə |
| 3- ya Zavokzalnaya | Q.Musabəyov | Nemət Quluyev |
| 4- ya Zavokzalnaya | Qasımzadə | Qasımzadə |
| 5- ya Zavokzalnaya | Qolubyatnikov | Əliağa Vahid |
| 7- ya Zavokzalnaya | B.L.Vannikov<br>Z.b.Əhmədbəyov | Tələt Şıxaliyev |
| 8- ya Zavokzalnaya | Dzerjinski | Əhməd bəy Ağaoğlu |
| 9- ya Zavokzalnaya | Uritski | Ə.Dəmirçizadə |
| 10- ya Zavokzalnaya | Qədirbəyova | Qədirbəyova |
| 11- ya Zavokzalnaya | Əilşir Nəvai | Əlişir Nəvai Koroğlu<br>Rəhimov |
| 12- ya Zavokzalnaya | Qafur Rəşad | Qafur Rəşad |
| 13- ya Zavokzalnaya | Həsənoğlu | Həsənoğlu |
| 14- ya Zavokzalnaya | Levandovski | Aşıq Molla Cümə |
| 15- ya Zavokzalnaya | S.Nametkin | Mirzəbala Əhmədzadə |
| 16- ya Zavokzalnaya | Vəli Xuluflu | Vəli Xuluflu Faiq Yuifov |
| 17- ya Zavokzalnaya | Ağababa Yusifzadə | Ağababa Yusifzadə<br>Əliyar Əliyev |
| Zamkovskaya<br>(İçəri şəhər) | Zamkovskaya | Qəsr |
| Kamenistaya | Şors | Bəşir Səfəroğlu |
| Kanitapinskaya<br>(Qanlıtəpə)<br>1-ya Kanitapinskaya | Sverdlov | H.Q.Sarabski<br>Salatın Əsgərova |
| 2- ya Kanitapinskaya | 2-ci Sverdlov | M.Qasımov |
| 3- ya Kanitapinskaya | 3-cü Sverdlov | Sahib Zeynalov |
| 4- ya Kanitapinskaya | 4-cü Sverdlov | Ruhulla Axundov |
| 5- ya Kanitapinskaya | 5-ci Sverdlov<br>S.M.Əfəndiyev | Vladislav Plotnikov |

| | | |
|---|---|---|
| 6- ya Kanitapinskaya | 6-cı Sverdlov8 mart | Eldar Tağızadə |
| 7- ya Kanitapinskaya | 7-ci Sverdlov | Dobrolyubovİzzət Həmi-dov |
| 8- ya Kanitapinskaya | 8-ci Sverdlov | Dağıstan Natiq Şahba-zov |
| 9- ya Kanitapinskaya | 9-cu Sverdlov | Kaveroçkin |
| 10- ya Kanitapinskaya | 10-cu Sverdlov | Hüseynqulu Sarabski |
| 11- ya Kanitapinskaya | 11-ci Sverdlov | Nəcəf bəy Vəzirov |
| Karantinnaya | Pioner Həzi Aslanov | Həzi Aslanov |
| Kaspiyskaya | l. Şmidt | Rəşid Behbudov |
| Kirpiçnaya | Kirpiçnaya | Kirpiçnaya |
| Vremennıy Kirpiçnıy | Vremennıy Kirpiçnıy dön. | Abay dön. |
| Nijnyaya Kladbişenskaya | Arsen Əmiryan Proletar Park | Mehdi Hüseyn |
| Vernyaya Kladbişenskaya | Vaqif | Həsən Seyidbəyli |
| Kolodeznaya | Ağamalıoğlu | L. və N. Rastropoviçlər |
| Kolyubakinskaya | Yefim Saratovets | Nigar Rəfibəyli |
| Krayne- Krivaya | Kraynt- Krivaya | Akad. A.İ. Qarayev |
| Krasnokrestovskaya | Buynaks | Şeyx Şamil |
| Krasnovodskaya | Krasnoarmeyskaya | Səməd Vurğun |
| Krivaya | Krivaya | Kolomeytsev |
| Malaya Krepostnaya | Malaya Krepostnaya | Kiçik Qala |
| Bolşaya Krepostnaya | Bolşaya Krepostnaya | Böyük Qala |
| Kseniyevskaya-Kisenevskaya | Turgenyev | Turgenyev |
| Косая | Косая | Ə.Haqverdiyev |
| Косой | Косой dön. | 1-ci Mehdi Hüseyn dön. |
| Kubinskaya | Qubanov | Zivər bəy Əhmədbəyov |
| Lalayevskiq proyezd | Boqdan Knunyants keçidi | Natəvan döngəsi |
| Lagernıy | Lagernıy dön. | Lagernı dön. |

| | | |
|---|---|---|
| Lebedinskiy | 1-ci Çkalov dön. | Şövkət Ələkbərova |
| Maqazinnaya | Suren Osipyan | Süleyman Rüstəm |
| Mariinskaya | Korqanov | Rəsul Rza |
| Maştaqinskaya | Əlibala Dadaşov | Əlibala Dadaşov |
| Melniçnaya | Melniçnaya | Ağadadaş Qurbanov |
| Melniçnıy | Melniçnıy dön. | Ağadadaş Qurbanov dön. |
| Merkuryevskaya | Şaumyan Azərbaycan pr. | Azərbaycan pr.<br>Zərifə Əliyeva |
| Milyutinskaya | Trotski Myasnikov | Tərlan Əliyarbəyov |
| Miliyonnaya | Voroşilov Darvin | Fikrət Əmirov |
| Bolşaya Minaretskaya | Minaretskaya<br>Asəf Zeynallı | Asəf Zeynallı |
| Mixaylovskiy | 6-cı Komunist dön. | Sona xanım Vəlixanlı |
| Bolşaya Morskaya | Kirov pr. | Bülbül |
| Malaya Morskaya | Todorskiy | Azadlıq Малая Морская |
| Molokanskaya | 9 yanvar Xaqani | Xaqani |
| Naberejnaya İmperatora Aleksandra<br>II Naberejnaya | Naberejnaya Qubanova<br>Stalin pr. Neftçilər pr. | 1. Mikayıl Hüseynov<br>2. Neftçilər pr. |
| Verxnyaya Naqornaya | Yuxarı Dağlıq | Abdulla Şaiq |
| Nijnyaya Naqornaya | Aşağı Dağlıq | Zülfi Adıgözəlov |
| 1 - ya Naqornaya | 26 Komissarlar | Hənifə Ələsgərov |
| 2 - ya Naqornaya | Mendeleyev | Qulu Quluyev |
| 3 - ya Naqornaya | 3-cü Dağlıq | İmran Qasımov |
| 4 - ya Naqornaya | 4-cü Dağlıq | Ə.Ə.Mirqasımov |
| 5 - ya Naqornaya | L.Mirzoyan | akad. Feyzulla<br>Qasımzadə |
| 6 - ya Naqornaya | 6-cı Dağlıq | Abbas Səhhət |
| 7 - ya Naqornaya | Leninqrad pr. | Sankt Peterburq<br>1. Fətəli xan Xoyski<br>2.Nəsib bəy Yusifbəyov |
| 8 - ya Naqornaya | V. Kasparov<br>Nigar Rəfibəyli | Möhsün Sənani |
| 9 - ya Naqornaya | İnqilab | İnqilab Həsən Əliyev |

| | | |
|---|---|---|
| 10 - ya Naqornaya | 10- cu Dağlıq | Sabit Rəhman |
| 11 - ya Naqornaya | 11- ci Dağlıq | Məsud Əlizadə |
| 12 - ya Naqornaya | 12- ci Dağlıq | Yusif Vəzir Çəmənzəminli |
| 13 - ya Naqornaya | 13- cü Dağlıq | Oktay Kərimov |
| 14 - ya Naqornaya | 14- cü Dağlıq | Teymur Əliyev |
| 15 - ya Naqornaya | 15- ci Dağlıq | Əbdülvahab Salamzadə |
| 16 - ya Naqornaya | 16-cı Dağlıq | Həci Murad |
| Nikolayevskaya Parlamentskaya | Kommunist | İstiqlaliyyət |
| Obyezdnaya | Obyezdnaya | Yusif Qasımov |
| Olginskaya Velikoknyajeskaya | Caparidze | Məhəmməd Əmin Rəsulzadə |
| Orlovski | Ağamalıoğlu Müqtədir | Səid Rüstəmov |
| Ofitserskaya | Musəvi | Məhəmmədsadıq Əfəndiyev |
| 1-ya Parallelnaya | İskra | Əli bəy Hüseynzadə |
| 2-ya Parallelnaya | Mixayıl Yefremov Xosrov Ruzbeh | Xosrov Ruzbeh Balababa Məcidov |
| 3-ya Parallelnaya | 3-cü Parallel | M.M.Əbilov |
| 4-ya Parallelnaya | Hüseyn Cavid | Sübhi Salayev |
| 5-ya Parallelnaya | Qamaley | Fuad İbrahimbəyov |
| 6-ya Parallelnaya | Bülbül Məmmədov | Məhəmməd ibn Hinduşah Naxçıvani |
| 7-ya Parallelnaya | 7-ci Paralel | Bəsti Bağırova |
| Persidskaya | Poluxin | Murtuza Muxtarov |
| Petrovskaya naberejnaya | Neftçilər pr. | Neftçilər pr. |
| Pojarnıy | Pojarnıy dön. | Pojarnır dön. |
| Pozenovskaya | Engels | Məhəmməd Yusif Cəfərov Cəfərov qardaşları |
| Politseyskaya - Staro-Politseyskaya | Kooperativ Voroşilov | Yusif Məmmədəliyev |

| | | |
|---|---|---|
| Poçtovaya – Staro-Poçtovaya | Ostrovskiy | Süleyman Tağızadə |
| 3-ya Popereçnaya | 3-ya Popereçnaya | Qafur Məmmədov |
| Poroxovaya | Spandaryan | Qarabağ |
| Praçeçnaya Qoqolevskaya | Qoqol | 1.Qoqol;<br>2. Mərdanov qardaşları |
| Verxnyaya - Priyutskaya | Ketsxoveli | Şamil Əzizbəyov |
| Nijnyaya - Priyutskaya | Kamo | Süleyman Rəhimov |
| 1-ya Razyezdnaya | Qədirli | Qədirli |
| 2-ya Razyezdnaya | Dekabristlər | Dağlı Yunis |
| Remeslennaya | Solntsev | akad. Mirəli Qaşqay |
| Sadovaya | Nərimanov Çkalov | Niyazi |
| Bolşaya Salyanskaya | Bolşaya Salyanskaya | Mikayıl Müşviq |
| 1- ya Slobodskaya | Rıleyev | akad. Əliəşrəf Əlizadə |
| 2- ya Slobodskaya | Çapayev | Təbriz |
| 3- ya Slobodskaya | Klara Setkin | Mehdi Məmmədov |
| 4- ya Slobodskaya | 4- ya Slobodskaya | Yəhya Bakuvi |
| 5- ya Slobodskaya | 5- ya Slobodskaya | Aşıq Əli |
| Sergeyevskaya | Qabışev | İlqar İsmayılov |
| Serkovnaya | Proletar Vidadi | Vidadi |
| Sisianovskaya | Əli Bayramov | Təbriz Xəlilbəyli |
| Spasskaya | Qasım İsmayılov | Zərgərpalan |
| Sretenskaya (İçəri Şəhər) | Pestel | Telman Bağırov |
| Sretenskiy (İçəri Şəhər) | Pestel dön. | Telman Bağırov dön. |
| Stanislavskaya | Şərq xalqları<br>Lenin prospekti | Azadlıq prospekti |
| Suraxanskaya | Bir may | 1.Dilarə Əliyeva;<br>2.Çingiz Mustafayev |
| Verxnyaya-Tazapirskaya | Mustafa Sübhi | Mustafa Sübhi |
| Nijnyaya-Tazapirskaya | Mirzə Fətəli | Mirzə Fətəli |
| Tatarskaya | Krupskaya | Əlimərdan bəy Topçubaşov |
| Tatyaninskaya | Fabritsius | Ceyhun bəy Hacıbəyli |

| | | |
|---|---|---|
| Tverskaya (İçəri Şəhər) | Tverskaya | Mirzə Mansur |
| Telefonnaya Romanovıx (1913-cü ildən) | 28 aprel | 28 may |
| Torqovaya | Krasnopresnenskaya Nizami | Nizami |
| Tyuremnıy | Melniçnıy dön. | Ağadadaş Quliyev dön. |
| Fabriçnaya | Fabriçnaya | Şövgiyar Abdullayev |
| 1-ya Xreptovaya | 1-ci Xreptovıy Ayna Sultanova | Tağı Şahbazi |
| Cadrovaya | Azad Azərbaycan qadını Mizəağa Əliyev | Mirzəağa Əliyev |
| Çelyayevskaya | Hüsü Haciyev dön. | Mirvarid Dilbazi |
| Bolşaya Çemberekendskaya | Kuznetsov | Lermontov |
| Nijnyaya Çemberekendskaya | Saraykin | BMT-nin 50 illiyi |
| Çernoqorodskaya | Barinov | Yusif Səfərov |
| Şaxskaya | Qırmızı əsgər Şixəli Qurbanov | Şixəli Qurbanov |
| Şaxskiy | Mirzə Fətəli dön. | Mirzə Fətəli dön. |
| Şemaxinskaya | Betnota Cəfər Cabbarlı | Cəfər Cabbarlı |
| Yuryevskaya | Sovet | Nəriman Nərimanov |

## 2. Meydanlar, bağlar, bağçalar

| 1918-ci il | Sovet dövrü | Hazırda |
|---|---|---|
| Aşumovskaya Dumskaya | Krasnoy molodeji Gənclər | Gənclər |
| Bazarnaya | Физули | Физули |
| Kubinskaya | Füzuli | Füzuli |
| Belvyu | Zavaqzalnaya | tikilib: keçm. "Qarabağ" mehmanxanasının rayonu |
| Birjevaya | Hürriyyət 26 Bakı Komissarları | Sahil |
| Vladimirskaya | застроена: рынок Кемур мейданы рынок в районе Шемахинки | застроена: район Центрального городского рынка |
| | Roza Lüksemburq | Azadlıq |
| Vorontsovskaya | tikilib: Kömür meydanı bazarı Şamaxinka rayonunda bazar | tikilib: Mərkəzi şəhər bazarı |
| Parapet | застроена: рынок «Пассаж» | застроена: рынок «Пассаж» |
| | K.Marks | Nizami - Fəvvarələr |
| Petrovskaya | 26 Bakı Komissarları (1920) tikilib: Lenin muzeyi binası | tikilib: Muzeylər binası |
| Sobornaya (Al.-Nevski kilsəsinin qarşısında) | tikilib: "Pasaj" bazarı | tikilib: "Pasaj" bazarı |
| Yarmaroçnaya | Oktyabr İnqilabı Səməd Vurğun | S.Vurğun |
| Baqirovskiy skver | Kazbekov ad. Bağça Cəfər Cabbarı bağçası | Əzim Əzimzadə bağçası |
| Mariinskiy sad Molokanskiy sad | Haşım Əliyev bağı 9 yanvar bağı | Xaqani bağı |
| Mixaylovskiy sad (Qubernatorskiy) | İnqilab bağı (filarmoniya bağı) | Əlağa Vahid bağı (filarmoniya bağı) |
| Parapet bağı (Quru bağ) | Karl Marks bağı | Nizami – Fəvvarələr bağı |

## 3. Bakının qəsəbələri

Ermənikənd
Bayıl
Belıy qorod (Ağ şəhər)
Bibi-Heybət
İçəri Şəhər (Qala)
Kanitapa (Qanlı təpə)
Kərpiçxana
Məmmədli
Molokanka
Poxlu Dərə
Şamaxinka
Çəmbərəkənd
Çornıy qorod (Qara şəhər)

## 4. Bakının ətraf kəndləri (sənədlərdə adları çəkilən)

| | | | |
|---|---|---|---|
| Balaxanı | Güzdək | Ləhiş | Pirşağı |
| Biləcəri | Hökməli | Lökbatan | Ramana |
| Binəqədi | Xocasən | Maştağa | Sabunçu |
| Buzovna | Xırdalan | Məhəmmədi | Sənqəçal |
| Digah | Keşlə | Mərdəkan | Suraxanı |
| Əhmədli | Kürdəxanı | Nardaran | Şubanı |
| Əmircan | Qala | Novxanı | Şüvəlan |
| Fatmayi | Qobu | Pirəkəşkül | Zabrat |

## 5. Digər inzibati- coğrafi adlar

| | | |
|---|---|---|
| Azərbaycan | - | dövlət (Cənubi Qafqaz) |
| Aksay | - | kənd (Şimali Qafqav-Rusiya) |
| Aleksandropol | - | Leninakan – Gümrü- şəhər (Ermənistan) |
| Axaltsix | - | şəhər (Gürcüstan) |
| Axtı | - | kənd (Dağıstan-Rusiya) |
| Astraxanka | - | Şamaxı yaxınlığında kənd (Azərbaycan) |
| Həştərxan | - | şəhər ( Rusiya) |
| Bakı | - | şəhər (Azərbaycan) |
| Baki qəzası | - | inzibati - ərazi vahidi (Rusiya imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Sovet Sosialist Respublikası - 1929-cu ilə qədər) |
| Bakı quberniyası | - | inzibati - ərazi vahidi (Rusiya imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti) |
| Batum | - | Batumi, şəhər (Gürcüstan) |
| Cavad qəzası | - | inzibati - ərazi vahidi (Rusiya imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Sovet Sosialist Respublikası - 1929-cu ilə qədər) |
| Dağıstan | - | vilayət (Şimali Qafqaz- Rusiya) |
| Dərbənd | - | şəhər (Dağıstan – Rusiya) |
| Dovrus | - | Zəngəzur qəzasında kənd (Azərbaycan – hazırda Ermənistan) |

Dortnı - Zəngəzur qəzasında kənd (Azərbaycan – hazırda Ermənistan)
Ermənistan - dövlət (Cənubi Qafqaz)
Ənzəli - şəhər (İran)
Ərdəbil - şəhər (İran)
Gəncə - şəhər (Azərbaycan)
Gorus - şəhər (Ermənistan )
Gürcüstan - dövlət (Cənubi Qafqaz)
Həzrə - Quba qəzasında kənd (Azərbaycan)
Xaçmaz - şəhər (Azərbaycan)
Xarkov - şəhər (Rusiya – hazırda Ukrayna)
Xoy - şəhər (İran)
İrəvan (Erivan) - Yerevan, şəhər (Azərbaycan – hazırda Ermənistan)
Kərkənç - Şamaxı qəzasında kənd (Azərbaycan)
Kislovodsk - şəhər (Rusiya)
Qarabağ - vilayət (Azərbaycan)
Qara Dağ - Zəngəzur qəzasında kənd
Qara-Dığa - Zəngəzur qəzasında kənd
Qars - şəhər (Türkiyə)
Qayakənd - kənd (Dağıstan-Rusiya)
Qızıl Burun - kənd (Şimali Qafqaz-Rusiya)
Qori - şəhər (Gürcüstan)
Quba - şəhər (Azərbaycan)
Quba qəzası - inzibati - ərazi vahidi (Rusiya imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Sovet Sosialist Respublikası - 1929-cu ilə qədər)
Lənkəran - şəhər (Azərbaycan)
Lənkəran qəzası - inzibati - ərazi vahidi (Rusiya imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Sovet

| | | |
|---|---|---|
| | | Sosialist Respublikası - 1929-cu ilə qədər) |
| Mərəzə | - | Şamaxı qəzasında kənd (Azərbaycan) |
| Meqri | - | Zəngəzur qəzasında kənd |
| Moskva | - | şəhər (Rusiya) |
| Moskva quberniyası | - | inzibati - ərazi vahidi (Rusiya İmperiyası) |
| Nargin | - | Bakının yaxınlığında Xəzər dənizində ada |
| Odessa | - | şəhər (Rusiya – hazırda Ukrayna) |
| Oxtar | - | Zəngəzur qəzasında kənd |
| Persiya | - | İran, dövlət (Asiya) |
| Petrovsk | - | Maxaçqala, şəhər (Dağıstan – Rusiya) |
| Petroqrad | - | Leninqrad- Sankt-Peterburq, şəhər (Rusiya) |
| Petropavlovsk | - | şəhər (Rusiya) |
| Polşa | - | dövlət (Avropa) |
| Rəşt | - | şəhər (İran) |
| Salyan | - | şəhər (Azərbaycan) |
| Sarab | - | şəhər (İran) |
| Sumqayıt | - | şəhər (Azərbaycan) |
| Şamaxı | - | şəhər (Azərbaycan) |
| Şamaxı qəzası | - | inzibati - ərazi vahidi (Rusiya imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Sovet Sosialist Respublikası - 1929-cu ilə qədər) |
| Şubanı | - | Bakı ətrafında dağlıq ərazi, kənd (Azərbaycan) |
| Şuşa | - | şəhər (Qarabağ -Azərbaycan) |
| Temir-Xan-Şura | - | Buynaksk – şəhər (Dağıstan- Rusiya) |
| Tiflis | - | Tbilisi, şəhər (Gürcüstan) |
| Yalax | - | kənd (Dağıstan-Rusiya) |

| | | |
|---|---|---|
| **Zaqatala** | - | şəhər (Azərbaycan) |
| **Zəngəzur qəzası** | - | inzibati - ərazi vahidi (Rusiya imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Sovet Sosialist Respublikası - 1921-ci ilə qədər); hazırda həmin ərazi Ermənistan Respublikasının tərkibindədir |
| **Zorabkənd** | - | kənd (Dağıstan-Rusiya) |

# ŞƏKİL - SƏNƏDLƏR



*Bakıda erməni vəhşilikləri.*



*Bakıda erməni vəhşilikləri.*



*Bakıda erməni vəhşilikləri.*



*Bakıda erməni vəhşilikləri.*



*Bakıda erməni vəhşilikləri.*



*Bakıda erməni vəhşilikləri.*



*Bakıda erməni vəhşilikləri.*




*Bakı şəhərində müsəlmanların qətlə yetirilməsi və cəsədlərin yanında dayanan İran konsulu.*



*Bakı şəhərində Nikolayevskaya küçəsində "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının yanğından sonra dağıntılarının şərq tərəfdən görünüşü.*



№ 4

Развалины здания Мусульманскаго Благотворительнаго Общества Исмаилие на Николаевской улицѣ в городѣ Баку съ восточной стороны послѣ пожара

Фотографъ Н. Литвинцев

Членъ Чрезвычайной Слѣдственной Комиссіи Мамедъ Ханъ Текинскій

А. Клуге

Дж. Ахундзаде

**Şəklin arxasındakı yazı: N 4.**

*Bakı şəhərində Nikolayevskaya kucəsində "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının yanğından sonra dağıntılarının şərq tərəfdən görünüşü.*

*Fotoqraf: Litvinsev (imza). Fovqəladə Təhqiqat Komissiyasının uzvləri: Məmməd Xan Təkinski, A.Kluge, C.Axundzadə (imzalar). Möhür: Azərbaycan hökuməti. Fovqəladə Təhqiqat Komissiyası.*



*Bakı şəhərində Nikolayevskaya küçəsində "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının yanğından sonra qərb tərəfdən görünüşü.*



*Bakı şəhərində Nikolayevskaya küçəsində "İsmailiyyə"Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının yanğından sonra daxili görünüşü.*



*Bakı şəhərində Nikolayevskaya küçəsində*
*"Kaspi" qəzeti redaksiyasının binasının dağıntıları.*



*Bakı şəhərində Nikolayevskaya küçəsində*
*"Kaspi" qəzeti redaksiyası binasının yanğından sonra daxili görünüşü.*



*Bakı şəhərində Təzəpir məscidinin top mərmilərindən dağıdılmış binasının cənub tərəfdən görünüşü.*



*Bakı şəhərində Təzəpir məscidinin top mərmilərindən dağıdılmış binasının şərq tərəfdən görünüşü.*


Приложение къ тому I-му
Четырнадцать (14) фотографическихъ снимковъ въ городѣ Баку, за №№ 1-14, къ протоколу 1918 года ноября 22 дня (л.д.
Членъ Комиссии Александровичъ

***Aleksandroviç tərəfindən şəkillərə əlavə edilmiş yazı:***
*I cildə əlavə – Bakıda çəkilmiş on dörd (14) fotoşəkil, 1-14 nömrəli.*
*22 noyabr 1918-ci il tarixli protokola Komissiyanın üzvü Aleksandroviç*



*Bakı şəhərində Nikolayevskaya küçəsinin dağıntılarının görünüşü.*


№ 14.

***Şəklin arxasındakı yazı: N 14.***
*Bakı şəhərində Şah məscidinin top mərmilərindən dağıdılmış minarəsinin şərq tərəfdən görünüşü. Fotoqraf: Litvinsev (imza). Fövqəladə Təhqiqat Komissiyasının üzvləri: Məmməd Xan Təkinski, A.Kluge, C.Axundzadə (imzalar). Möhür: Azərbaycan hökuməti. Fövqəladə Təhqiqat Komissiyası.*



*Bakı şəhərində Şah məscidinin top mərmilərindən dağıdılmış minarəsinin şərq tərəfdən görünüşü.*




***Şəklin arxasında yazı:* N 9.**
*Bakının Bazarnaya küçəsində keçmiş "İsgəndəriyyə" mehmanxanasının yanğından sonra dağıntıları. Fotoqraf: Litvintsev (imza). Fövqəladə Təhqiqat Komissiyasının üzvləri: Məmməd xan Təkinski, A.Kluge, C.Axundzadə (imzalar). Möhür: Azərbaycan Hökuməti. Fövqəladə Təhqiqat Komissiyası.*



*Bakı şəhərində Bazarnaya küçəsində yalnız müsəlmanların qaldığı keçmiş "İsgəndəriyyə" mehmanxanasının dağıntıları.*



*Bakı şəhərində Bazarnaya küçəsində keçmiş "İsgəndəriyyə" mehmanxanasının yanğından sonra daxili görünüşü.*



*Bakı şəhərində Bazarnaya və Qubernskaya küçələrinin tinində yerləşən və yalnız müsəlmanların yaşadığı "İslamiyyə" mehmanxanasının yanğından sonra dağıntıları.*



*Bakı şəhərində Bazarnaya küçəsində yalnız müsəlmanların yaşadığı "Dağıstan" mehmanxanasının yerləşdiyi Xanlarovun evi. Yanğından sonra dağıntıların görünüşü.*



*Bakı şəhərində Bazarnaya küçəsində Xanlarovun evinin yanğından sonra daxili görünüşü.*









*"İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin 1918-ci ilin martında yandırılmış binasına baxış aktı. Fövqəladə Təhqiqat Komissiyası tərəfindən 1918-ci il noyabrın 22-də tərtib olunub.*









*"İsmailiyyə" binasına baxış aktının fransız dilinə tərcüməsi.*

## 1918-ci mart hadisələri zamanı zərər çəkmiş və Fövqəladə Təhqiqat Komissiyasına ifadə vermiş Bakı sakinləri





*Əli Əsədullayev, erməni silahlı qüvvələrinə müqavimət göstərib. (Sənəd  № 2)*





*Mir Əbdül Əziz Seyidov (Əziz Alpoud), erməni silahlı qüvvələrinə müqavimət göstərib, evi qarət olunub (Sənəd № 5)*





*Bala-bəy Aşurbəyov xanımı ilə birlikdə, evi qarət olunub (Sənəd № 14)*





*Şahzadə Mansur Qacar, əsir götürülüb, qarət olunub (Sənəd № 19)*





*Şıx Balayev, evi qarət olunub (Sənəd № 22)*





*Pələng Hüseynov, yaralanıb, qarət olunub (Sənəd № 109)*





*Mirzə Bala oğlu  Məmmədzadə, qarət olunub (Sənəd № 813)*





*Mövsüm Səlimov, əsir götürülüb, evi və mədənləri qarət olunub (Sənəd № 824)*

# Fovqəladə Təhqiqat Komissiyasının sənədlərindən nümunələr

















ISBN: 978-9952-483-26-0

© Solmaz Rüstəmova-Tohidi
© Heydər Əliyev Fondu
© Heydər Əliyev Mərkəzi